AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir" RESPUBLİKA ELMİ KONFRANSININ M A T E R İ A L L A R I

II cild

2-3 may 2025-ci il

Elmi konfrans Mingəçevir Dövlət Universitetinin rektorunun 14 fevral 2025-ci il tarixli 01-02/111 nömrəli əmri əsasında keçirilmişdir.

MİNGƏÇEVİR

Rektor Anar Eminovun elmi redaktorluğu ilə

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ:

A.N.Eminov	**–**	**sədr, rektor, i.f.d., dos.;**
V.S.Əyyubov	**–**	**sədr müavini, Elmi işlər üzrə prorektor əvəzi, i.e.d., prof.;**
V.S.Mustafayev	**–**	**məsul katib, Elm və innovasiyalar şöbəsinin müdiri, tex.f.d., dos.;**
Ü.Ə.Zeynalov	**–**	**Təris məsələləri üzrə prorektor, f.f.d., dos.;**
K.S.Eyyubova	**–**	**elmi katib, tex.f.d., dos.;**
A.Ş.Məmmədov	**–**	**Dayanıqlı inkişaf və regional innovasiyalar tədqiqat mərkəzinin müdiri, s.e.f.d., dos.;**
E.H.Cəfərova	**–**	**Humanitar fənlər kafedrasının müdiri, s.e.f.d., dos.;**
N.D.Zeynalov	**–**	**Təhsil fakültəsinin dekanı, t.f.d.; dos.;**
N.A.Qədimli	**–**	**İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, i.f.d., dos.;**
A.Ə.Əliyeva	**–**	**Mühəndislik fakültəsinin dekanı, tex.f.d., dos.;**
V.E.Məhərrəmova	**–**	**Magistratura və Doktorantura Təhsil Mərkəzinin müdiri, fil.f.d., dos.;**
F.C.Cəlil	**–**	**Pedaqogika və psixologiya kafedrasının müdiri, fil.e.d., prof.;**
M.N.Rəhimov	**–**	**Xarici dillər kafedrasının müdiri, fil.f.d., dos.;**
R.F.Babayev	**–**	**Riyaziyyat kafedrasının müdiri, r.f.d., dos.;**
E.Y.Hüseynova	**–**	**Biznes və menecment kafedrasının müdiri, i.f.d., dos.;**
M.B.İsmayılov	**–**	**Mexanika kafedrasının müdiri, tex.f.d., dos.;**
Ü.İ.Aşurova	**–**	**Energetika kafedrasının müdiri, tex.f.d., dos.;**
A.M.Mustafayeva	**–**	**İnformasiya texnologiyaları kafedrasının müdiri, tex.f.d,;**
T.F.Yusibova	**–**	**Fizika və ekologiya kafedrasının müdiri, f.-r.f.d., dos.;**
A.M.Tağıyev	**–**	**İqtisadiyyat kafedrasının müdir əvəzi;**
A.R.Qədirova	**–**	**Gənc Alimlər Şurasının sədri, t.f.d.;**
N.M.Mustafayeva	**–**	**baş mühasib əvəzi;**
G.M.Şəfaqətov	**–**	**TEC-in sədri;**
E.O.Xəlilov	**–**	**İnformasiya Texnologiyaları Mərkəzinin direktoru.**

© Mingəçevir Dövlət Universiteti,
Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir" Respublika elmi konfransının materialları, II cild, 2025, 434 səh.

MİNGƏÇEVİR - 2025

MÜNDƏRİCAT

BÖLMƏ İCLASLARI

Heydər Əliyevin sovet dövründə Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin inkişafı uğrunda mübarizəsi 10
M.Ə.MƏMMƏDOVA .....
Heydər Əliyevin gənclik siyasəti və onun müasir dövrə təsiri
S.M.QULİYEVA 12
Ümummilli lider Heydər Əliyev dövründə Azərbaycan–Pakistan diplomatik münasıbətlərinin əsas mərhələləri və inkişaf dinamikası
İ.E.CƏFƏROV 14
Təhsildə psixoloji məsələlər
L.Ə.QARAYEVA 15
Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz
D.T.ƏLİYEVA, N.M.QASIMOV, P.B.BAYRAMOVA 17
Heydər Əliyev yolunun uğurlu davamı: İlham Əliyevin siyasəti və Azərbaycanın inkişafı
A.M.MƏMMƏDOVA, Z.Q.XƏLİLOV, T.S.ƏLİYEVA 20
Heydər Əliyevin liderliyi ilə Azərbaycan ordusunun müasirləşməsi
T.M.N.ƏHMƏDLİ 22
Heydər Əliyev siyasəti və mədəni irs məsələləri
S.A.VERDİYEVA 25
Heydər Əliyev: milli iradənin və zəfərin siyasi memarı
T.R.CABBAROVA, L.A.HƏSƏNOVA 27
Heydər Əliyev – Azərbaycan elminin və təhsilinin böyük himayədarı
G.S.MƏMMƏDOVA 31
Dildə alınma sözlər və onların əhəmiyyəti
Ş.R.HÜNBƏTOVA 34
Heydər Əliyev və türk dünyası: qardaşlıq və strateji əməkdaşlıq
K.P.ABBASOV 36
Ulu Öndərin tarixi xidmətləri: silahlı qüvvələrin modernləşdirilməsi və gücləndirilməsi. (1993-1995-ci illər)
İ.O.VƏLİYEVA 38
Heydər Əliyevin xarici siyasət kursu
E.İ.CƏFƏRLİ 40
Milli-mənəvi dəyərlərimizin himayədarı
T.S.BƏDƏLOVA 43
Heydər Əliyevin xarici siyasət kursu (traseka)
D.İ.ŞƏMİLOVA 45
Heydər Əliyevin gənclər siyasəti
H.Ş.MEHDİYEVA 47
Heydər Əliyev və xarici siyasət kursu
P.Q.CƏFƏROVA 51
Heydər Əliyev mənəvi dəyərlərimizin himayədarıdır
L.N.SÜLEYMANOVA 53
Heydar Alıyev and the Turkıc World: Brotherhood and Strategıc Cooperatıon
J.HASANOVA 56
Meteorologiyanın aviasiyadakı rolu
V.HƏSƏNOV, O.HÜSEYNOV, Ş.QULİYEV 59
Ümummilli lider Heydər Əliyev – Azərbaycan təhsilinin hamisi
O.A.ƏHMƏDZADƏ 66

Ulu öndər Heydər Əliyev – Azərbaycan dilinin ali himayədarı
G.A.ƏHMƏDZADƏ 67
Heydər Əliyev və sosial inkişaf strategiyası
N.N.NİFTƏLİYEVA 68
Heydər Əliyev irsinin ənclər siyasətinə təsiri: keçmişin təcrübəsi, gələcəyin inkişafı
Q.K.KƏRİMOV 70
Heydər Əliyev: Azərbaycanın iqtisadi inkişafında investisiya-innovasiya qoyuluşları və beynəlxalq maliyyə bazarına çıxışı
A.İ.NADİROVA 72
Milli identikliyin formalaşmasında liderın rolunun psixoloji aspektləri
A.X.KƏRİMOV 74
Модель государственного управления Гейдара Алиева в Азербайджане: исторический контекст и современный взгляд
Г.Ш.САМЕДОВА 76
Heydər Əliyevin hakimiyyətinin legitimliyi: konstitusiya
T.T.ƏLƏKBƏROV 81
Heydar Aliyev and the Triumph of the National Constitution
F.MOVSUMOVA 84
Milli-Manevi Değerlerimizin Koruyucusu Haydar Alıyev'in Kültür ve Kimlik Politikası
R.R.GURBANOV 88
Müasir bank sistemində uçotun rəqəmsallaşması: faydaları və çətinlikləri
K.N.ATAYEV 93
Ümummilli lider Heydər Əliyev – əsas qanunumuzun təminatçısıdır
M.C.CAVADOV 95
Təhsil islahatlarının təməli – Heydər Əliyev ideyalarında
G.A.NƏCƏFOVA 97
Heydər Əliyev və dövlət gənclər siyasəti
G.M.İSMAYILOVA 101
Генезис и проблемы идентификации сложных слов со структурой существительное + существительное в современном английском языке
В.Т.БАЛАКИШИЕВА 104
Heydər Əliyevin gənclər siyasəti
K.H.ASLANOVA 106
Milli mənəvi dəyərlərimizin himayədarı
A.C.MƏMMƏDOVA 109
Heydər Əliyev və Azərbaycanda gənclər siyasəti
Q.F.QURBANOV 112
Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsi və Ulu Öndərin strateji yönü
T.N.ƏHMƏDLİ 115
Heydər Əliyevin gənclər siyasəti
Q.Ş.MURADOVA 117
Genel lider Heydar Aliyev'in petrol stratejisi Azerbaycan ekonomisinde önemli yerlerden biridir
Kh.ISMAYILOVA 119
Ölkənin iqtisadi inkişafında informasiya resurslarının idarə edilməsinin əhəmiyyəti
N.Q.MİRZƏZADƏ 122
Heydar Aliyev and the Organization of Translation Work in Azerbaijan
T.KHALILSOY 123
Ənənəvi, yoxsa distant təhsil - problemlər və perspektivlər
G.S.BAXŞIYEVA, V.A.NURİYEVA, L.N.ŞÜKÜROVA 126
Milli standartlaşdırma sisteminin formalaşmasında Heydər Əliyevin rolu
S.V.MAHMUDOVA 128

Humanizm və vətənpərvərlik örnəyi liderlik nümunələrində
M.M.MƏMMƏDOVA, A.M.ƏZİZOVA 132
Heydər Əliyev irsinin Azərbaycanın gələcək inkişafına töhfəsi
A.M.NAMAZOVA 135
Borçalı: qədim türk yurdu kimi taruxu etnoqrafik baxış
G.İ.ƏJDƏRZADƏ 138
Lissabonda qazanılan diplomatik uğur (1996-cı il 2-4 dekabr)
S.M.QULİYEV 140
Heydər Əliyev və türk dünyası: Azərbaycan-Türkiyə münasibətlərində qardaşlıq və strateji əməkdaşlıq
G.Y.YUSİBOVA 142
Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən elmi islahatların məzmunu
A.N.BAXŞƏLİYEVA 145
Heydər Əliyevin Hüseyn Cavid dünyasına təsiri
S.F.DÜNYAMALIYEVA 147
An Attempt to Peacefully Resolve the Territorıal Issues of the Karabakh Region of Azerbaijan in 1918 and 2020
S.ORUJOVA 150
Heydər Əliyevin dövlət quruculuğu kursunda rəqəmsal texnologiyaların strateji perspektivi
M.İ.SADIXOVA 153
Heydər Əliyev və XXI əsr: müasir nəqliyyat sahəsinin təməli
Ə.X.QURBANOV, R.P.MUSTAFAYEV 155
Heydər Əliyev və Azərbaycanda milli dövlətçilik təfəkküründün formalaşması
N.M.MƏHƏRRƏMOVA 157
Gənclik siyasətinin memarı: Heydər Əliyev irsində gənclərə baxış
Z.V.TANRIVERDİYEVA, İ.Y.ƏMRAHZADƏ 159
Heydər Əliyevin təhsildə irsi: müasir Azərbaycanın intellektual əsaslarının qurulması
G.B.NƏSİROVA 162
Heydər Əliyev irsindən güc alan tarixi zəfərimiz
X.E.ABDULLAYEVA 164
Продолжение дипломатии Гейдара Алиева Ильхамом Алиевым: стратегия и результаты
Т.И.ГАСЫМОВА 166
Ümummilli lider Heydər Əliyevin xüsusı təhsil sahəsində uğurlu sıyasəti
G.N.BƏDƏLZADƏ 171
Azərbaycan Respublikasında enerji sahəsində səmərəliliyin təmin edilməsi başlıca prioritet kimi
R.A.VƏLİYEV 172
Dilimizə Heydər Əliyev qayğısı
Ş.T.MƏHİŞZADƏ 175
Alınma sözlərin təsnifatı
A.T.İBİŞOVA 177
Metaforaların tərcüməsi zamanı istifadə edilən üsullar və ortaya çıxan problemlər
L.V.ZEYNALOVA-MƏMMƏDZADƏ 180
Dövlət siyasətindən turizmə: Heydər Əliyev irsinin uğurlu izləri
N.A.ƏLİYEVA 183
İbtidai sinif şagirdlərinə ingilis dili dərslərində frazeoloji birləşmələrin öyrədilməsinin aktuallığı
Ü.M.MƏMMƏDOVA 186

Heydər Əliyevin elmi əsaslara söykənən dövlətçilik konsepsiyası
A.C.NƏSİBOVA, N.N.ABBASOVA-ZEYNALOVA 188
Azərbaycan dövlətinin xilaskarı və qurucusu: Heydər Əliyev
Ş.Ş.HEYDƏROVA 190
Yaşıl dünya və davamlı öyrənmə
F.M.ƏLİYEVA 191
Müasir dünya uzunmüddətli siyasi liderlik nümunəsi olan çox az adam yetişdirir
X.M.ƏLİYEVA 193
İnformasiya və tele-kommunikasiya texnologiyalarının təhsilə təsiri və xarıcı dılın müasır dövrdə öyrənilməsinin əsas istiqamətləri
F.Y.İSAYEVA 196
Əsrin lideri və əsrin konstitusiyası: Heydər Əliyev və hüquqi dövlət quruculuğu
S.İ.YUSİFOVA, R.Z.MƏMMƏDOVA, G.S.OSMANOVA 198
Heydər Əliyevin neft strategiyası və müstəqil Azərbaycanın iqtisadi inkişafında rolu
E.M.ƏLİYEV 201
Heydar Aliyev as the Patron of Science and Education in Azerbaijan
N.ALAKBAROVA 205
Heydar Aliyev and Mustafa Kemal Atatürk: A Comparatıve Analysis of Political Foresight
S.AJDARLİ 207
Multikultural dəyərlər və onların formalaşmasında təhsilin rolu
A.KƏRİMOVA 210
Heydər Əliyev – təhsildə azərbaycançılığın tədrisi
A.İBRAHİMOVA 211
Heydər Əliyev və ana dilimiz
N.İSMAYILOVA 213
The Role of the Body's Defense Counter-defense System in the Pathogenesis of Diabetes Mellitus
G.SULTANOVA 216
Heydər Əliyev siyasətinin Azərbaycan ordusunda İKT-nin davamlı inkişafına təsiri
E.E.TANRIVERDİYEV 217
Elm və mədəniyyətin əvəzolunmaz himayədarı – Heydər Əliyev
T.Q.QURBANOVA 220
Milli-mənəvi dəyərlərimizin himayədarı
C.R.SALAHOVA 221
Heydər Əliyevin enerji siyasətində "Əsrin müqaviləsi"nin rolu
Q.Q.YUSİFLİ 223
The Role of the Great Leader Heydar Aliyev ın Determining the Development Dırections of Higher Pedagogical Education
A.GASIMOVA 227
Azərbaycanda elm və təhsilin inkişafında Heydər Əliyev imzası
S.T.RÜSTƏMOVA 230
Heydər Əliyevin gənclər siyasəti və idman: güclü gələcək naminə fiziki və mənəvi inkişaf
M.V.EYVAZZADƏ 232
Azərbaycanın strateji müdafiə yolu: Heydər Əliyevin xarici təhlükəsizlik və Silahlı Qüvvələrə yönəlik politikaları
A.Y.HƏSƏNOV 237
Heydər Əliyevin hərbi siyasəti və Azərbaycan ordusunun qüdrətinin artırılması
M.Ş.ŞİRİNOV 240
Azərbaycanın müdafiə siyasətinin nəzəriyyəsi və Heydər Əliyevin qlobal təhlükəsizlik yönümlü yanaşması

E.S.CABBAROV, A.T.ƏLƏKBƏROV 244
Hərbi irsin gənc nəslə ötürülməsi: Heydər Əliyevin gənclər siyasətinin orduya təsiri
V.A.RAMAZANOV, E.K.MEHDİYEV 247
Heydər Əliyevin kənd təsərrüfatına dəstəyi: inkişaf və islahatlar
İ.Q.HƏSƏNOV 252
Heydər Əliyevin nitqində nitq etiketləri
E.H.ƏHMƏDOVA 254
Heydər Əliyev – Azərbaycan təhsilinin böyük himayədarı
N.R.QULİYEVA 256
Heydər Əliyev – milli-mənəvi dəyərlərin himayədarı
G.V.ABDULLAYEVA 260
Heydər Əliyevin təhsil sahəsinə verdiyi mühüm töhfələr
S.V.MAHMUDOVA 264
Heydər Əliyev yolunun uğurlu davamı
N.M.MURTUZAYEVA 266
Heydər Əliyev – Azərbaycan elminin, ədəbiyyatının və mədəniyyətinin böyük himayədarı
H.A.ATAKİŞİYEVA 270
Qurtuluş mübarizəsinin qalibi
X.T.ƏLİYEVA 272
Tabesiz mürəkkəb cümlənin komponentləri barədə ilkin anlayışların formalaşdırılması
R.H.QULİYEVA 276
Heydər Əliyevin Azərbaycan dili siyasəti və milli kimliyin gücləndirilməsi
G.Ə.MƏMMƏDOVA 280
Heydər Əliyevin gənclər və idman siyasəti: sağlam gələcəyin qurulması
A.S.SOLTANOV 284
Heydər Əliyev milli-mənəvi dəyərlərin hamisi kimi
Ü.T.ASLANOVA 288
Milli və mənəvi kimliyin formalaşmasında Heydər Əliyev fikirlərinin rolu
A.N.XUDİYEVA 293
Heydər Əliyev yolu
K.S.KƏRİMOVA 295
Müasir yaddaş qurğularının inkişaf tendensiyası
N.N.CAMALOV, Ə.S.SADIXOV, E.İ.İMANOV 298
Heydər Əliyevin gənclər, elm və təhsilə verdiyi dəstək
Ə.V.ƏKBƏROV 302
Heydər Əliyev və enerji sektorunun inkişafı
S.X.ƏLƏSGƏROVA 305
Heydar Alıyev and the Constitution of Strength: Building National Identity through Sports Polıcıes
F.MIRATAYEVA BABANUR 307
Heydər Əliyevin gənclər siyasətində vətənpərvərlik, hərbi hazırlıq və idmanın strateji inteqrasiyası
F.R.MİKAYILOV, G.E.ALLAHVERDİYEVA 310
İdman və milli-mənəvi dəyərlər: Heydər Əliyev irsində sağlam ruhun rolu
M.İ.TALIBOV 314
Heydər Əliyev: mənəvi dəyərlərlə güclənən liderlik
K.K.MİRZƏYEVA 319
Heydər Əliyevin dövlət strategiyasının rəqəmsal platformalarda inkişafı və tədrisi
F.O.HƏSƏNOV 321
Heydər Əliyev Azərbaycan Silahlı Qüvvələrinin yaradıcısıdır
G.HƏSƏNOVA 323

Turkısh Languages in the Middle Ages
L.ABDULLAZADE 325
Milli-mənəvi dəyərlərimizin himayədarı
Ü.R.RƏCƏBLİ 329
Gənclər siyasəti dövlət siyasətinin mühüm və aparıcı istiqaməti kimi
N.N.ƏLİCANOVA 332
Heydər Əliyev və Azərbaycanda İKT-nin inkişafı
H.T.NƏCƏFOV 334
Milli suverenlik və konstitusiya: Heydər Əliyevin dövlətçilik konsepsiyası
Z.R.OSMANLI 335
Heydər Əliyevin dövlətçilik ıdeologiyasında mədəniyyət və elm
S.A.XASPOLADOVA 338
Heydər Əliyevin iqtisadi siyasəti və inkişaf fəlsəfəsi
K.N.ƏHMƏDOV 340
Milli-mənəvi dəyərlərimizin himayədarı
N.Z.MUSTAFAYEVA 344
Heydər Əliyev – Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin böyük himayədarı
K.F.HƏSƏNOVA 346
Heydər Əliyev irsi: elm və təhsil
Ü.Y.ƏLİYEVA 348
Heydər Əliyev və gənclər mədəniyyətinin inkişafının mühüm aspektləri
A.M.RZAZADƏ 352
Qloballaşma şəraitində Heydər Əliyevin Azərbaycanda dil siyasəti
X.N.GÖYÜŞOVA 354
Bəxtiyar Vahabzadə dramaturgiyası
Ə.S.MƏMMƏDOVA 357
Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf konsepsiyası
G.S.İBRAHİMOVA 358
Heydər Əliyev və dil siyasətinin uğurları
L.M.MƏMMƏDOVA 361
Heydər Əliyev və sovet ideologiyası: Azərbaycanın taleyini formalaşdıran lider
M.E.QARAŞOVA 364
Духовное наследие общенационального лидера Гейдара Алиева - место в истории философской мысли
И.ДЖАФАРОВА 367
Müəllimlərdə motivasiya yaradılmasının müsbət tərəfləri
S.Y.ABBASOVA 370
Heydər Əliyev və azərbaycançılıq
G.G.ƏMİROVA 374
Heydər Əliyev: müstəqilliyimizin və suverenliyimizin banisi
G.A.NURƏDDİNOVA 377
Heydər Əliyev yolunun inamla davamı
A.S.ƏHMƏDOVA 379
Ulu öndər Heydər Əliyevin ətraf mühitin sağlamlaşdırılmasında əvəzsiz rolu
S.M.MUSTAFAYEVA, A.E.KƏRİMOVA 382
Naxçıvan təhsilinin inkişafında Heydər Əliyev siyasəti
Ç.Q.ƏLİYEVA, S.E.ABDULLAYEVA 384
Bir liderin gənclərə güvəni: Heydər Əliyevin siyasi mirası
Ü.H.RƏİSLİ 387
Heydər Əliyev və onun turizmin inkişafına dəstəyi
S.B.ZAMANOV 390
Azərbaycan turizminin inkişafında Ümummilli lider Heydər Əliyevin xidmətləri

A.M.RƏHİMOV 394
Heydər Əliyev və Azərbaycan turizminin transformasiyası: unikal bir vizyonun izləri
Z.A.MEHDİZADƏ 399
Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan konstitusiyasının yaranması tarixi
S.E.RİZVANLI 401
Heydər Əliyevin xarici siyasət kursu
Ə.Ş.CƏFƏROVA 404
Heydər Əliyev elm və təhsilin böyuk himayədarı idi
S.M.MƏMMƏDOVA 407
Heydər Əliyev və türk dünyası: qardaşlıq və strateji əməkdaşlıq
S.R.CƏFƏROVA 410
Biomüxtəlifliyin mühafizəsinin əhəmiyyəti
Y.A.SƏMƏDOV 414
Ulu öndər Heydər Əliyev və Azərbaycan elminin inkişafı
M.İ.ƏLƏKBƏROVA 416
Hərbi intizamın psixoloji aspektləri
A.G.ƏLİYEVA 418
Piyadaların təhlükəsizliyinin təmin edilməsinə dair
H.B.İSMAYILZADƏ 424
Akademik etika və keyfiyyət təminatı: uyğunluq və çağırışlar
A.V.MUSAYEVA, T.E.MƏMMƏDOVA 425
Azərbaycanın mədəni irsinin qorunmasında muzeylərin rolu
L.A.ƏHMƏDOVA 427
1995-ci il konstitusiyası hüquqi dövlət quruculuğunun əsas bazasıdır
T.Y.ƏHMƏDOVA 429
Heydər Əliyev siyasəti və Azərbaycanda insan kapitalinin sosial inkişaf perspektivləri
F.Q.NİFTİYEV 431

B Ö L M Ə İ C L A S L A R I

HEYDƏR ƏLİYEVİN SOVET DÖVRÜNDƏ AZƏRBAYCAN ELMİNİN, TƏHSİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN İNKİŞAFI UĞRUNDA MÜBARİZƏSİ

Minayə Əflatun qızı Məmmədova
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
minayajafarova85@gmail.com

Dünya miqyasında ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan və böyük türk dünyasının dahi oğlu Heydər Əliyev zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur.

1960-cı illərədək Azərbaycan aqrar ölkəsi kimi tanınırdı. Onun əsas sənaye mənbəyi neft idi. Lakin məhz Heydər Əliyev hakimiyyətinin ilk illərindən qəti addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail oldu. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye inkişaf etdi, bir sıra zavod və fabriklər istifadəyə verildi. Yaradılmış yeni iş yerləri əsasında insanların rifah halı daha da yaxşılaşdı.

Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirmək, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdı. Bu hadisə azərbaycanlıların döyüş ruhunun inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür.

Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70 %-dən çoxu hərbi liseyin yetirmələridir.

İndi dünya analitiklərinin böyük önəm verdiyi milli mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki ulu öndər Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Məhz onun təşəbbüsü ilə ölkənin tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları, artistləri dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə ki, burada siyasi məqam da var idi, o da Azərbaycanı tanıtmaq idi.

Təbiətcə musiqinin vurğunu olan, incə və həssas musiqi duyumuna, zövqünə malik olan, Azərbaycan və dünya mədəniyyətinin bədii nümunələrini həvəslə dinləyən, dövlət rəhbərliyində də, şəxsi həyatında da, ailəsində də musiqidən ayrılmayan, musiqi və musiqiçilər haqqında peşəkar musiqi tənqidçisi kimi çox dəyərli rəy və fikirlər söyləyən, musiqişünaslığın elmi fikir və ideyalar dairəsini zənginləşdirən, daim musiqiçilərlə dostluq edən Heydər Əliyevin həyat və fəaliyyətini musiqi mədəniyyətindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Hətta o Zərifə xanımın müşayiəti ilə mahnılar ifa edərək bundan çox böyük zövq alırdı. O, musiqiyə dərindən bağlı bir şəxsiyyət kimi bu sənətə, onun yaradıcılarına, problemlərinə daim böyük diqqət yetirmiş, sənət adamlarına hörmət və ehtiramla yanaşmışdır.

Musiqimizə, mədəniyyətimizə verdiyi yüksək qiymət və qayğı özünü, o cümlədən Heydər Əliyevin mədəniyyət işçilərinə münasibətində də göstərirdi. Prezidentin teatr tamaşasının premyerasında iştirakı və yaxud da teatrın truppasını qəbul etməsi, onlara yaradıcılıq uğurları arzulaması, neçə-neçə bəstəkarın, rəssamın, respublikada görkəmli muğam ustalarının yaradıcılıq gecələrinin, yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları mədəniyyətimizin həyatında önəmli rol oynamışdır.

Heydər Əliyev sevməklə yanaşı, həm də onu musiqini insanlara sevdirirdi. Bu onun böyük maarifləndirmə missiyasından irəli gəlirdi. Heydər Əliyev yaşlı nəslin yaradıcılığına da çox böyük qayğı göstərmiş, gənc nəslin yaradıcılıq imkanlarının genişlənməsinə hərtərəfli yardım etmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Ulu Öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. O, yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyil ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, maariflənmədə görmüşdür.

Ulu Öndərin ötən əsrin 70-80-ci illərində gənclərin respublikada və onun hüdudlarından kənarda yüksək səviyyədə təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür şərait yaradırdı.

Məlum olduğu kimi, müasir dövrdə qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, lider olması, təhsil alması olduqca vacibdir. Hələ, 1974-cü ildə "Azərbaycan qadını" jurnalının 50 illik yubiley təntənəsində Ulu öndər Heydər Əliyev demişdi: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən, kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq" [3].

Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Bu səbəbdən xalqımız üçün mühüm rol oynamış dahi Ulu Öndərin dövlətçilik siyasətini öyrənmək olduqca aktualdır. Tədqiqat zamanı Ulu Öndərin dövlətçilik siyasəti müşahidə, təhlil və statistik metodlardan istifadə edilməklə ifadə edilmişdir. Azərbaycan xalqının Ümummilli lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Tarixin yaddaşında əbədi izqoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir.

Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli liderimiz Heydər Əliyevin xidmətləridir. Təsadüfi deyil ki, ulu öndərimizin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev. Müstəqilliyimiz əbəbdidir;. I. Bakı, "Şərq-Qərb;, 2013, 632 s..
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir;. II. Bakı, "Şərq-Qərb;, 2013, 752 s.
3. Heydər Əliyev. İki cilddə. I cild. (Müstəqillik illərinə qədərki dövr) AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu. – Bakı: Turxan NPB, 2013, 500 s.
4. Heydər Əliyev. İki cilddə. II cild. (Müstəqillik illəri dövrü) AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu. Bakı: Turxan NPB, 2013, 704 s.

HEYDƏR ƏLİYEVİN GƏNCLİK SİYASƏTİ VƏ ONUN MÜASİR DÖVRDƏ TƏSİRİ

Səbinə Mürsəl qızı Quliyeva
Mingəçevir Dövlət Universiteti
sabina.quluyeva@mdu.edu.az

Giriş

Ulu öndər Heydər Əliyev gənclərə yalnız Azərbaycanın sabahını deyil, bu anın enerjisini və tutqun ümidini qazandırdı. Onun "Gənclər bizim gələcəyimizdir" prinsipi, maddi dəstəkdən tutmuş mənəvi güvənə qədər hər addımda gəncin könül bağını möhkəmləndirən könüllü davranışa çevrildi. Bu məqalə Heydər Əliyevin gənclər siyasətinin sətiraltı hekayəsini, canlı nümunələrini və onun irsinin müasir dövrdə necə nəfəs aldığını araşdırır.

Sovet dövrünün parlaq başlanğıcı

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərlik edərkən ilk növbədə respublikanın elmi potensialını artırmaq məqsədilə liseylər şəbəkəsini genişləndirdi. Qeydiyyata alınan "Gənc tədqiqatçılar" klubu vasitəsilə gənclər ilk elmi konfranslarını, laboratoriya işlərini nəinki şəhərdə, rayonlarda da həyata keçirdilər.

1978-ci ildə Mingəçevir texnikumunda laboratoriyada işləyən tələbə Aygün Məmmədovanın riyazi modellər üzərində apardığı tədqiqat Heydər Əliyev tərəfindən şəxsən dəstəkləndi və Moskva Elm Akademiyasına göndərildi. O gün Aygün belə dedi: "O, mənə elə bir ümid verdi ki, əlimdəki çətin riyazi düsturları çözməkdən savayı, özümü kəşf etdim." [1]. Bu hekayə gənclərin daxili potensialının necə aşkara çıxdığını simvolizə edir.

Heydər Əliyev Sovet İttifaqı tərkibində olan Azərbaycanın hüquqlarını qorumaqla bərabər, gənclərin yüksək dövlət vəzifələrində təmsil olunmasına şərait yaradırdı. Mərkəzi Komitəyə yeni seçilmiş gənc kadrlar təhsilli, məsuliyyətli və təşəbbüskar idilər. Onların uğuru bir şəxsin deyil, bütöv bir xalqın ümidi kimi dəyərləndirilirdi. Gənclərin bir çoxu həmin dövrdə beynəlxalq tədbirlərdə Azərbaycanı təmsil edərək, ölkənin intellektual gücünü göstərdilər [4].

Müstəqillik dövründə sosial-iqtisadi dəyişikliklər və gənclər

1993-cü ildə respublikaya qayıdan Heydər Əliyev, sosial-iqtisadi böhran zamanı gənclərin yalnız təhsil haqqını deyil, onlara mənəvi dayaq olmağı da prioritet saydı. Dövlət Təqaüd Kredit Fondu yara-dıldıqdan sonra hər kredit alan tələbə bu dəstəyin arxasında dayanan liderin qayğısını hiss etdi [2]. Xaricdə təhsil proqramını uğurla başa vuran Əli Əliyev geri döndükdə belə dedi: "Mənim beynəlxalq təhsil təcrübəm yalnız bilik verib; bu, mənə vətənə xidmətkar olmağın məsuliyyətini aşıladı."

1996-cı ildə "Azərbaycan Gəncləri Günü"nün təsis olunması sadə tarixi fakt deyil, böyük mənəvi hadisə idi. Bu qərar ölkədə gənclərə olan dövlət qayğısının sistemli formada təsbitinin rəmzi kimi yadda qaldı. Prezidentin sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət Gənclər Siyasəti Konsepsiyası" qəbul olundu [2]. Bu sənəd gənclərin inkişafına dair strateji yol xəritəsini müəyyən etdi və bu gün də həmin konsepsiyanın əsas prinsipləri qorunub saxlanılır.

Əsas prinsiplərin həyatda təcəssümü

Heydər Əliyevin gənclər siyasətinin dörd sütunu – keyfiyyətli təhsil, intellektual yaradıcılıq, milli-mənəvi dəyərlər və sosial-iqtisadi dəstək – bu gün də aktualdır [3]. Müəllim peşəsinin prestiji artdıqca, tələbələrin ruhu coşdu; respublika düzənində keçirilən elmi müsabiqələr, konfranslar gənclərin könüllü çalışmağına stimul oldu. 2010-cu ildə Bakı şəhərində təşkil olunan "Gənc Tədqiqatçılar Forumu"nda təmsil olunan Zeynəb Məhərrəmovanın start-up layihəsi gənc sahibkarların öncül modelinə çevrildi.

İdman və mədəniyyət sahəsində gənclərin beynəlxalq uğurları da bu siyasətin əhəmiyyətini göstərir. Gənc karateçi İsmayıl Qasımov 2000-ci ildə İtaliyada keçirilən yarışda qızıl medal qazandıqdan sonra Heydər Əliyevin şəxsi təbrik məktubu onun motivasiyasını ikiqat artırdı. Mədəni sahədə isə gənc musiqiçi Vəfa Məlikovanın dövlət dəstəyi ilə Avropada təhsil alaraq ölkəyə dönməsi və musiqi məktəblərində innovativ metodikaları tətbiq etməsi gənclər siyasətinin real nəticələrinə sadəcə bir neçə nümunədir.

Müasir dövrdə yeni nəfəs və konkret addımlar

Bugünkü rəqəmsal çağırışlara cavab vermək üçün Heydər Əliyev prinsiplərini müasir ekosistemlə birləşdirməliyik:

1. Rəqəmsal Təhsil Portalı – Gənclər üçün interaktiv bilik bazası və mentor bağlantı nöqtəsi. 2. STEAM İnkubatorları – Regionlarda açılacaq inkubatorlar gənclərin layihələrini prototip səviyyəsindən kommersiya mərhələsinə çatdıracaq.

3. Online Mədəni və Akademik Festival – Virtual Dədə Qorqud Günü, Elm və İncəsənət Biennalları gənclərin ideyalarını sərgiləyəcək.

4. Gənclər Sahibkarlıq Kredit Bankı – Kiçik biznes ideyaları üçün xüsusi faizsiz kredit proqramı.

5. Beynəlxalq Təcrübə Şəbəkəsi – Mübadilə proqramlarında iştirak edən gənclər, mentorlardan faydalanacaq [7].

Eyni zamanda, "Yüksəliş" layihəsi, "Bir Könüllü" proqramı, ASAN könüllüləri kimi təşəbbüslər Ulu Öndərin ideyalarının praktik nəticələridir.

Uğur hekayələri və təsirlər

Məşhur bioqaz alim Quliyev 1995-ci ildə Dövlət Təqaüd Kredit Fondundan aldığı dəstəklə ilk biotexnologiya laboratoriyasını qurdu və uğurlu patentlə xarici sərmayə cəlb etdi [6].

Gənc müəllim Sevinc İsmayılovanın həyat hekayəsi də nümunəvidir. 2010-cu ildə aldığı təlim və dəstək proqramları ilə ucqar kənd məktəbində biologiya müəllimi kimi başladığı yolda "İlin müəllimi" adına layiq görüldü. Bu, bir fərdin deyil, bir icmanın oyadılması idi.

Nəticə

Heydər Əliyevin həyata keçirdiyi gənclər siyasəti, müstəqil Azərbaycanın gələcək inkişafına qoyulmuş ən fundamental təməllərdən biridir. Bu siyasət yalnız bir dövrün çağırışlarına cavab verməklə kifayətlənməyib, eyni zamanda gənclərin uzunmüddətli inkişafını təmin edən strateji yol xəritəsinə çevrilmişdir. Gənclərə verilən diqqət və qayğı nəticəsində Azərbaycan gəncliyi cəmiyyətin fəal üzvü kimi formalaşmış, milli və mənəvi dəyərlər çərçivəsində yetişmiş, intellektual, sosial və mədəni sferalarda mühüm uğurlar qazanmışdır [5, 6].

Bu gün də Heydər Əliyevin irsi əsasında formalaşan gənclər siyasəti, dövlətin strateji inkişaf planlarında prioritet mövqe tutur. Rəqəmsal çağırışlara cavab verən yeni platformalar, innovativ layihələr və beynəlxalq mübadilə imkanları Azərbaycan gəncliyinin potensialını üzə çıxarır və onların qlobal rəqabətə hazır formalaşmasına şərait yaradır [7].

Gələcəyin liderləri üçün eyni qayğı, eyni dəstək qalmalıdır: bir gəncin qəlbində yandırılmış ümid alovu bütün bir millətin yoluna işıq saçır. Bu baxımdan, Ümummilli lider Heydər Əliyevin müdrik gənclər siyasəti yalnız keçmişin zəmin mirası deyil, həm də xoşbəxt gələcəyin etibarlı zəmanətidir!

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, H. (2003). "Gənclər Azərbaycan gələcəyidir". Bakı: Elm.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, "Gənclər siyasətinin strateji istiqamətləri", Bakı, 2015.

3. Məmmədova, A. (2018). "Təhsildə müasir texnologiyalar və gənclər". Bakı: Maarif.

4. Musayev, N.. "Heydər Əliyev və gənclər siyasətinin əsas prinsipləri". Azərbaycan Müəllimi, 2017, 4(12), 23–27.

5. State Committee on Statistics. "Youth in Azerbaijan: Demographic and Social Indicators". Baku, 2023.

6. Heydər Əliyev Fondu, "Gənclər üçün sosial proqramların icmalı", 2022

7. Əliyeva, S. "Rəqəmsal əsrdə gənclik və ideoloji dəyərlər". Gənclik Nəşriyyatı, 2021.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV DÖVRÜNDƏ AZƏRBAYCAN–PAKİSTAN DİPLOMATİK MÜNASIBƏTLƏRİNİN ƏSAS MƏRHƏLƏLƏRİ VƏ İNKİŞAF DİNAMİKASI

İftixar Eyvaz oğlu Cəfərov
Milli Müdafiə Universiteti Hərbi İdarəetmə İnstitutu
iftikhar_975@mail.ru

Giriş

Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsindən sonra formalaşan xarici siyasət doktrinası ölkənin beynəlxalq aləmdə suveren aktor kimi tanınması və regional güc kimi təşəkkülü baxımından strateji əhəmiyyət daşıyır. Bu kontekstdə Pakistan İslam Respublikası ilə qurulan diplomatik əlaqələr, xüsusilə Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə özünün sistemli və çoxşaxəli inkişafı ilə seçilmişdir. Mövcud tədqiqatın məqsədi 1993–2003-cü illər ərzində Azərbaycan–Pakistan münasibətlərinin əsas mərhələlərini, inkişaf dinamikasını və bu münasibətlərin Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursu çərçivəsində strateji əhəmiyyətini təhlil etməkdir.

Tədqiqat deskriptiv və analitik metodlardan istifadə etməklə aparılmışdır. Əsas mənbə kimi rəsmi sənədlər, liderlərin çıxışları, ikitərəfli görüşlərə dair materiallardan, həmçinin akademik ədəbiyyatdan və beynəlxalq təşkilatların hesabatlarından istifadə olunmuşdur.

Azərbaycan–Pakistan münasibətlərinin tarixi əsasları

Azərbaycan–Pakistan münasibətləri müstəqillikdən əvvəlki dövrdə dolayısı ilə islam həmrəyliyi çərçivəsində ideoloji yaxınlıqla səciyyələnmişdir. Lakin 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən dərhal sonra Pakistan İslam Respublikası onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur [1]. Bu akt Azərbaycanla Pakistan arasında formalaşacaq strateji tərəfdaşlığın ilkin mərhələsi kimi qiymətləndirilə bilər. 1992-ci ildə diplomatik münasibətlərin qurulması rəsmi xarakter almış və bu mərhələdən etibarən tərəflər arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq mexanizmlərinin yaradılmasına başlanılmışdır [1]. Lakin Azərbaycanın daxili siyasi qeyri-sabitliyi və Ermənistanla davam edən müharibə şəraiti bu əlaqələrin sistemli şəkildə inkişafına əngəl törətmişdir. Məhz bu səbəbdən Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı diplomatik münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçməsi üçün dönüş nöqtəsi olmuşdur.

Heydər Əliyev dövründə diplomatik münasibətlərin formalaşması və inkişafi (1993–2003)

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə prezident seçilməsi ilə Azərbaycan Respublikasının xarici siyasətində yeni bir mərhələ başlandı. Dövlətin suverenliyinin qorunması və beynəlxalq legitimliyinin möhkəmləndirilməsi məqsədilə Asiya ölkələri, xüsusilə də Pakistan kimi islam dövlətləri ilə münasibətlərə xüsusi önəm verildi. Heydər Əliyev bu çərçivədə Pakistanla əlaqələri dostluq müstəvisi ilə yanaşı, eyni zamanda regional və beynəlxalq səviyyədə qarşılıqlı maraqlara əsaslanan strateji tərəfdaşlıq kimi inkişaf etdirməyə çalışdı. Bu dövrdə tərəflər arasında bir sıra yüksək səviyyəli görüşlər və rəsmi səfərlər həyata keçirilmiş, iki ölkənin prezidentləri, parlament üzvləri və digər rəsmi şəxsləri arasında qarşılıqlı dialoq intensivləşmişdir [2]. 2020-ci ildə Pakistanın Xeybər Puxtunxva əyalətinin Assambleyası tərəfindən Ermənistanın işğalçı siyasətinin pislənməsi və Qarabağ məsələsində Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qətnamə qəbul edilmişdir [3]. Bu isə Ümummilli lider Heydər Əliyevin diplomatik səylərinin konkret nəticələrindən biri kimi dəyərləndirilə bilər. Bundan başqa İslam Konfransı Təşkilatı (indiki İƏT) çərçivəsində Pakistanın Azərbaycanın maraqlarına uyğun mövqe sərgiləməsi Bakı–İslamabad diplomatik xəttində tam koordinasiyalı fəaliyyətin göstəricisi idi [2, 4].

İkitərəfli münasibətlərin əsas istiqamətləri

Azərbaycan və Pakistan liderləri arasında aparılan dialoq qarşılıqlı səfərlər və birgə bəyanatlar iki ölkənin ortaq siyasi baxışlarını və regional sabitlik məsələlərinə dair birgə mövqelərini əks

etdirirdi. Pakistan hökumətinin Ermənistanla diplomatik münasibətlər qurmaqdan imtina etməsi Azərbaycanın maraqlarına uyğun tutarlı addım olmuşdur [5].

Bu dövrdə hərbi sahədə əməkdaşlığın, əsasən, təcrübə mübadiləsi, müdafiə sənayesində informasiya paylaşımı və siyasi dəstək səviyyəsində olduğu müşahidə edilir. Pakistan Müdafiə Nazirliyinin nümayəndələrinin Azərbaycana səfərləri, hərbi attaşelik mübadiləsi və birgə təhlükəsizlik platformalarında əməkdaşlıq cəhdləri Ümummilli lider Heydər Əliyev diplomatiyasının tərkib hissəsi idi [6].

Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərli etdiyi dövrdə iqtisadi-ticarət əlaqələri hələ ilkin mərhələdə olsa da müxtəlif sahələrdə əməkdaşlıq üçün hüquqi baza formalaşdırılmışdır. Ticarət nümayəndəliklərinin yaradılması və sərmayə təşəbbüslərinin müzakirəsi bu çərçivədə həyata keçirilmişdir. Pakistan universitetlərində azərbaycanlı tələbələrin təhsili və əksinə, Bakıda keçirilən İslam mədəniyyəti günlərində Pakistanın fəal iştirakı bu münasibətlərin humanitar aspektini gücləndirmişdir. Mədəni tədbirlər və tələbə mübadiləsi proqramları da bu dövrdə təşviq olunurdu [2].

Ümummilli lider Heydər Əliyev siyasətinin davamlığı və müasir dövrdə münasibətlər

Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan strateji xarici siyasət xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövründə də davam etdirilmişdir. Bu dövrdə Pakistan–Azərbaycan münasibətləri daha da dərinləşmiş, xüsusilə 44 günlük Vətən müharibəsində Pakistanın açıq şəkildə Azərbaycanın yanında olması Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu qardaşlıq münasibətlərinin müasir dövrdə təzahürüdür. Pakistan həm siyasi, həm də ictimai müstəvidə Azərbaycanın haqq işinə dəstək göstərərək diplomatik münasibətlərin strateji dəyərini bir daha nümayiş etdirmişdir.

Təhlillər göstərir ki, Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycan–Pakistan münasibətləri ikitərəfli səviyyə ilə yanaşı, eyni zamanda regional və beynəlxalq sistemdə Azərbaycanın maraqlarını qorumaq üçün mühüm vasitə olmuşdur. Diplomatik, siyasi və humanitar sahələrdə atılan addımlar bu əlaqələrin çoxşaxəli və davamlı xarakter daşıdığını sübut edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Mədətli,E. *Pakistan: qısa tarixi-siyasi oçerklər / E.* Mədətli., *-Bakı, -2022,-384*
2. Azərbaycan-Pakistan münasibətləri / "Heydər Əliyev irsi" / -Bakı /8 aprel 2010/ [Elektron resurs]
URL : https://lib.aliyevheritage.org/az/3966579.html
3. Pakistanda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə qəbul olundu / [Elektron resurs] / baku. ws, -22 fevral 2020,- Bakı.
URL : http://baku.ws/politics/pakistanda-azerbaycanin-erazi-butovluyu-ole-bagli-qetname-qebul-olundu
4. Rzayev, M., Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları/ M.Rzayev// Akademik Tarih ve Düşünce Dergisi,-2023,-10(1), -260-269, [Elektron resurs]
URL : https://dergipark.org.tr/tr/pub/atdd/issue/79568/1350534
5. Bayramova, V. *Pakistan məhz işğala görə Ermənistanla diplomatik münasibətləri qurmayan ölkədir* / qanunla.az, -19 iyun 2023, - Bakı.
URL : https://www.qanunla.az/pakistan-mehz-isgala-gore-ermenistanla-diplomatik-munasibetleri-qurmayan-olkedir/
6. İkitərəfli və çoxtərəfli hərbi əməkdaşlıq / [Elektron resurs] / mod.gov.az,
URL : http://mod.gov.az/az/ikiterefli-ve-çoxterefli-herbi-emekdaslıq-023/

TƏHSİLDƏ PSİXOLOJİ MƏSƏLƏLƏR

Ləman Əhməd qızı Qarayeva
Azərbaycan Dövlət Aqrar Universiteti
qarayeva_leman38@mail.ru

Azərbaycanın təhsil sistemində yeni təhsil islahatlarının həyata keçirdiyi bir şəraitdə psixoloji xidmət öz fəaliyyətini uşaqların (şagird və tələbələrin) qabiliyyətlərinin, fərdi xüsusiyyət-lərinin inkişaf etdirilməsi, təhsilin səmərəliliyinin artırılması, həyat yolunun düzgün müəyyənləş-dirilməsi, bütün bunların etnopsixoloji zəmində həyata keçirilməsi üzərində qurur.

Psixoloji xidmətin məzmunu təhsil iştirakçılarının, valideynlərin psixi və intellektual inkişa-fının qanunauyğunluqlarını, fəaliyyət və ünsiyyət motivlərini, davranışını, yaşlılar və yaşıdlar ara-sındakı qarşılıqlı xarakterini, təlim və tərbiyə prosesinin təşkilinin pedaqoji-psixoloji məsələlərini əhatə edir [1].

Təhsilə psixoloji xidmət tibbi, hüquqi, defektoloji, sosial (hamilik, qəyyumluq) və digər xid-mət sahələri ilə əlaqəli təşkilatlarla sıx əlaqədə həyata keçirilir. Bütün müəssisələrdə xidməti müna-sibət bərabərlik, mövqelərin bir-birini qarşılıqlı surətdə tamamlanması əsasında qurulur. Təhsilə psixoloji xidmət vahid sistem kimi fəaliyyət göstərən və hər biri özündə konkret fəaliyyət sahələrini birləşdirən 3 istiqaməti əhatə edir:

- elmi istiqamət;
- tətbiqi istiqamət;
- praktik istiqamət. [1]

Təhsilə psixoloji xidmət işinin metodoloji və metodik əsaslarını hazırlayır, kadr hazırlığı, tətbiqi və praktik istiqamətlərin elmi mahiyyətini müəyyənləşdirir. İcraçıların 11 fəaliyyət prinsiplə-rini, əsas iş funksiyalarını, iş metodlarını, psixoproflaktika, psixodiaqnostika, psixokorreksiya, psi-xokonsultasiyaların nəzəri məsələlərini, milli-regional şəraitdə psixi inkişafın özünəməxsus cəhətlə-rinin elmi əsaslarını tədqiq edir. [2]

Dünya təcrübəsində sınaqdan çıxmış və qəbul olunmuş testləri Azərbaycan dilinə tərcümə edir, milli xüsusiyyətləri və yerli şəraiti nəzərə almaqla modifikasiya edərək "Test bank" yaradır. Elmi istiqamətin təhsilə psixoloji xidmət işi ilə bağlı nəticələrini reallaşdırır. Dərs vəsaiti, dərslik-lərin, praktik psixoloq kadrların hazırlanması və ixtisasartırma işində iştirak edir. Elmi müəssisələr və praktiki işlərlə əlaqəli şəraitdə elminəzəri məsələlərin təcrübəyə tətbiqi yollarını müəyyənləş-dirir. Nəzəri psixoloji biliklərin tərbiyə və təlim proqramlarında, pedaqoji və metodik tədbirlərdə, tədris prosesində özünə yer tapmasına, bu əsasda didaktik və metodik materialların işlənməsinə xidmət edir. Elmi biliklərin, tədqiqat nəticələrinin tərbiyə və təhsil prosesinə inteqrasiyasını demokratik prinsiplərlə tənzimləyir, təhsil iştirakçılarının hüquq və vəzifələrinə hörmətlə yanaşır. [1] Praktik istiqamət təhsil sisteminin müxtəlif pillələrində çalışan psixoloqlar tərəfindən həyata keçirilir.

Təhsil müəssisəsində psixoproflaktika işin vəzifələri təhsil iştirakçılarının şəxsiyyəti və intel-lektinin təşəkkülü prosesində baş verə biləcək pozuntuların qarşısını almaq, müəllim və şagirdlərdə psixoloji biliklərə yiyələnmə tələbatı formalaşdırmaq, hər yaş mərhələsində psixi inkişafa imkan verən şərait yaratmaq, pozuntu və konfliktlər barədə vaxtında məsələ qaldırmaqdan ibarətdir. [2]

Psixoproflatik işin əsas mahiyyətindən irəli gələn vəzifələri: kollektivdə şəxsiyyətlərarası münasibətlərin, "müəllim-şagird", "şagird-şagird", "müəllim-valideyn", eləcə də təhsil işçilərinin digər kateqoriyalarına daxil olanların qarşılıqlı münasibətlərinin tənzimlənməsi, müəssisədə sağlam psixoloji iqlimin yaradılması istiqamətində iş aparır. Təhsil iştirakçılarının psixoloji biliklərin artırılması, ünsiyyət mədəniyyəti yaradılması, ünsiyyət çətinliklərinin aradan qaldırılması, hər bir fərdin öz şəxsiyyətində əmələ gələn qeyri-normal hallar haqqında psixoloji xidmətdən istifadə qaydalarına yiyələnməsini təmin edir. [2]

Təhsil müəssisələrinin profilinə uyğun olaraq, ixtisas tələbləri ilə bağlı zəruri psixoloji keyfiy-yətləri müəyyənləşdirmək və məktəblərdə (institutlarda) bu keyfiyyətlərin inkişaf etdirilməsi üzrə iş aparmaq;

Seçdiyi ixtisas üzrə tələblərə cavab verməyən tələbələr üçün xüsusi metodlar müəyyənləşdirmək və müəssisənin rəhbərliyi ilə birgə iş aparmaq, treninqlər, məşqlər, işgüzar oyunlar, diskussiyalar keçirmək;

Pedaqoji heyətlə tələbələrin yiyələndiyi ixtisasla bağlı təlim-tədris metodlarının, yol və vasitələrinin seçilməsi, mənimsəmə səviyyəsinin yüksəldilməsi, təlim motivlərinin, maraq və meyllərinin inkişaf etdirilməsi istiqamətində iş aparmaq.

Tələbələrin təlimdən yayınma, intizamsızlıq, antisosial davranışına qarşı proflaktik tədbirlər görmək, şəxsi problemlərlə bağlı müəllim və tələbə heyətinin hər bir üzvünə psixoloji məsləhətlər vermək, tələbələrə öz şəxsiyyətini və intellektini inkişaf etdirmək üçün psixoloji metod və vasitələr öyrətmək psixoloji xidmətin vəzifələrindəndir. Təhsil sistemində psixodiaqnostik iş uşaq, yeniyetmə və gənclərin müvafiq yaş dövrlərində pedaqoji-psixoloji cəhətdən daha ətraflı öyrənilməsinə, fərdi xüsusiyyətlərinin, psixi anomaliyaların, şəxsiyyət pozuntularının, psixoloji gərginlik və frustrasiya hallarının aşkara çıxarılmasına, korreksiyasına yönəlir.

Təhsil iştirakçılarının ümumi peşəsi və şəxsiyyətinin yaş qanunauyğunluqları ilə inkişafının, qabiliyyətlərinin, maraq və meyllərinin, təlim və davranış motivlərinin müəyyən edilməsi, onların inkişaf yollarının göstərilməsi korreksiya işinə daxildir. Psixoloq korreksiya yolu ilə uşaq və tələbələrin şəxsiyyət və fərdiyyətinin formalaşması prosesinə fəal təsir göstərir, təhsil sistemində differensiyasiya işinin aparılmasında pedaqoji heyətə yardım edir. Uşaqların inkişafdakı geriləmələri, təlimdə və davranışdakı pozuntularının aradan qaldırılması ilə bağlı inkişafetdirici tədbirlər müəyyənləşdirilir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Camal Zeynaloğlu. Təlim fəaliyyətinin psixoloji prosesi (Metodik tövsiyələr). Bakı: "Print-S", 2017
2. Əmrahlı Limunət. Məktəb psixoloqu (metodik vəsait). Bakı, 2014
3. Solmaz Həsənli. Psixologiya. Bakı, 2013

HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

[1,4]**Dinara Tahir qızı Əliyeva,** [2,4]**Namiq Məmməd oğlu Qasımov,**
[3,4]**Pərvanə Bəhlul qızı Bayramova**
[1]dinaraaliyeva1970@gmail.com
[2]nqasimov275@gmail.com
[3]pervane262626@gmail.com,
[4]Azərbaycan Dövlət Aqrar Universiteti

Məlumdur ki, hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurumuzun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət- ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi... [2]

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir.Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən kəşməkəşli mərhələlərində belə, mənəviyyatın təntənəsinə xidmət edən

İslam dininin zəngin dəyərlərindən dönməyərək, bu dəyərlərə həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır.

Ulu Öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir"... Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan Sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət- ənənələrindən uzaqlaşmamış, əksinə milli və dini əxlaqa söykənərək xeyirxah işlər görərək, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutaraq savab qazanmağa can atmışlar. Eyni zamanda, xalqımız həmin dövrdə bir çox qadağalara baxmayaraq milli(Novruz) və dini (Qurban, Ramazan) bayramlarını da qeyd etmişlər. [1]

Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra xalqımızın dini bayramları dövlət səviyyəsində qeyd olunmağa başlanmış və milli-mənəvi dəyərlərimizin qorunması işinə dövlət tərəfindən ciddi qayğı göstərilməsi həyata keçirilmişdir. Məsələn, *Azərbaycan Prezidentinin andiçmə mərasimində Respublika Konstitusiyası ilə yanaşı, müqəddəs Qurani-Kərimə də əl basaraq dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə, milli-mənəvi və dini dəyərlərimizi qoruyacağına and içməsi* yuxarıda dediklərimizə əyani sübutdur.

Respublikamızda ikinci dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir. [5]

Ümummilli Lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır.

Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır. Məsələn, Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasını vurğulayan Ulu Öndər bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək demişdir: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir". [4]

Ümummilli lider Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşdürmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, Ulu Öndərin cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi.Heydər Əliyev öyrədirdi ki, sərvət toplamaq, dünyanın ən ləzzətli təamlarını nuş etmək, son dəbdə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür.Lakin hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. [1]

Gələcək nəsillərə bəlkə də maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərməğan edilməlidir. Ulu Öndər özünün mənəviyyatla bağlı (2001-ci ilin avqust bəyanatında) milli mentalitetlə əlaqədar demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan

xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz.Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik". [6]

Ulu Öndər milli-mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, xüsusən dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Azərbaycan xalqının milli həmrəyliyinin bərqərar olmasında Qurban bayramının xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Ümummilli lider Heydər Əliyev 2003- cü ildə Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərkən demişdir: "Qoy bütün milli və dini bayramlarımız kimi mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha çox birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin".

Ulu öndərimiz Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan Ümummilli lider Heydər Əliyev türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir. [3]

Bu gün 90-cı illərin çətinliklərini artıq geridə qoymuşuq. Biz müasir Azərbaycan dövlətinin inkişafında yeni mərhələ yaşayırıq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır. Ölkəmizdə inkişafın yüksək sürəti təmin edilmişdir. İndi möhtəşəm və məsuliyyətli vəzifələrin öhdəsindən gəlmək üçün dövlətimizin kifayət qədər potensialı və təcrübəsi vardır". [1]

Ulu Öndərin daxili və xarici siyasətini uğurla davam etdirən, xalqımızın milli-mənəvi dəyərlərini həmişə uca tutan ölkə Prezidenti cənab İlham Əliyev də islam dini ilə bağlı tarixi ənənələrə və dini bayramlara hörmət və ehtiramla yanaşır. Bütün milli və dini bayramlarda Azərbaycan xalqını təbrik edən hörmətli Prezidentimiz builki Qurban bayramı münasibətilə təbrikdə demişdir: "Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd olunur. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, bu ilki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir. Bu müqəddəs bayram günlərində bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram". [3]

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Sakit Hüseynov, Xalq qəzeti.- 2009
2. "Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı". Bakı şəhəri, 10 oktyabr 2017-ci il
https://azertag.az/xeber/MeneviDeyerlerinTebligi_Fondunun_yaradilmasi_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Fermani-1101382
3. Hüseynov, R. "Heydər Əliyev və milli-mədəni irs". Bakı: (2017). Azərnəşr.
4. Quliyev, E. "Azərbaycanın milli-mənəvi dəyərləri: Heydər Əliyev fenomeni". Bakı: (2018). Təhsil Nəşriyyatı.
5. Məmmədov, F. "Heydər Əliyevin Azərbaycan dövlətçiliyinə verdiyi töhfələr". Bakı: (2020). Elm və Təhsil Nəşriyyatı.
6. Quliyev, İ. "Azərbaycanın milli-mədəni irsi və Heydər Əliyev". Bakı: (2021). Elm Nəşriyyatı.

HEYDƏR ƏLİYEV YOLUNUN UĞURLU DAVAMI: İLHAM ƏLİYEVİN SİYASƏTİ VƏ AZƏRBAYCANIN İNKİŞAFI

[1,4]**Aygül Mustafa qızı Məmmədova,** [2,4]**Zahid Qurban oğlu Xəlilov,**
[3,4]**Təranə Sair qızı Əliyeva**
[1]aygul.mamadova.2018@gmail.com
[2]zahidxalilov1968@gmail.com
[3]eliyevaterane@gmail.com
[4]Azərbaycan Dövlət Aqrar Universiteti

Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyev, özünün liderliyi altında ölkənin müstəqilliyini qoruyub saxlayaraq, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi. Onun rəhbərliyi altında həyata keçirilən islahatlar, Azərbaycanın müasir inkişafının təməlini qoydu. Bu gün isə onun siyasi irsi, müasir prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev, atasının başladığı yoldan gedərək, Azərbaycanı yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirir, həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə güclü bir mövqe nümayiş etdirir. Bu məqalə, Heydər Əliyevin siyasətinin necə davam etdirildiyi və İlham Əliyevin bu irsi necə inkişaf etdirdiyi barədə nəzər salacaqdır. [2]

Heydər Əliyev, Azərbaycanı müstəqilliyinə qovuşduqdan sonra qarşılaşdığı böyük çətinliklərə baxmayaraq, ölkənin iqtisadiyyatını, mədəniyyətini və beynəlxalq nüfuzunu bərpa etmək üçün mühüm islahatlar həyata keçirdi. Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorumaqla yanaşı, onun beynəlxalq aləmdə güclü bir ölkə kimi yer tutmasına zəmin yaratdı. Onun rəhbərliyi altında, Azərbaycanın xarici siyasətində balanslı və müstəqil bir xətt izlənildi. Bu, həm Cənubi Qafqazda, həm də dünya səviyyəsində Azərbaycanın mövqeyini gücləndirdi.

Heydər Əliyevin uğurlu siyasəti, iqtisadiyyatın inkişafını, sosial sahələrin gücləndirilməsini, ölkənin enerji resurslarının səmərəli istifadəsini, eləcə də təhsil və mədəniyyətin inkişafını əhatə edirdi. Bütün bunlar, Azərbaycanın uzunmüddətli sabitliyini və inkişafını təmin edən əsas amillərdən biri oldu. [2]

İlham Əliyev, atasının rəhbərliyi altında əldə edilmiş nailiyyətlərin üzərinə yeni uğurlar qurmağa başladı. 2003-cü ildən sonra prezidentlik səlahiyyətini üzərinə götürdükdən sonra, o, Heydər Əliyevin ölkə daxilindəki və xaricdəki nüfuzunu gücləndirmək məqsədilə müxtəlif sahələrdə mühüm islahatlar həyata keçirdi

İlham Əliyevin rəhbərliyi altında, Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etdi. Dövlətin enerji resurslarından istifadə edilməsi, xüsusən də neft və qaz sahəsindəki layihələr, Azərbaycanın dünya enerji bazarlarında mühüm yer tutmasına imkan yaratdı. Şübhəsiz, bunlardan diqqəti daha çox çəkən layihələr var ki, onlar həqiqətən bütün dünyanın diqqət mərkəzində idi. Onlardan biri, bəzi dövlət rəhbərlərinin belə bir vaxtlar ciddi yanaşmadıqları, əfsanə hesab etdikləri *Bakı-Tbilisi-Ceyhan* net kəmərinin 2007-ci ildə tam gücü ilə işləməyə başlamasıdır. Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmiş, ölkənin qaz hasilatı əhəmiyyətli dərəcədə artmışdır. "Cənub Qaz Dəhlizi" və "Şahdəniz" layihələri kimi strateji layihələr, Azərbaycanın enerji təhlükəsizliyini artırdı və beynəlxalq tərəfdaşlarla əlaqələri möhkəmləndirdi. Bu, Heydər Əliyevin irsinin davamı olaraq ölkənin iqtisadiyyatını modernləşdirdi və dayanıqlı inkişafın əsasını qoydu. [1]

Heydər Əliyevin xarici siyasətində balanslı və müstəqil yanaşma, İlham Əliyev tərəfindən daha da gücləndirildi. İlham Əliyev, Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirərək, ölkəni dünya siyasətində daha əhəmiyyətli bir oyunçuya çevirdi. Azərbaycan, həm Qərb, həm də Rusiya ilə yaxın münasibətlər qurdu, eyni zamanda, Çin, Türkiyə və digər ölkələrlə strateji əməkdaşlıq sahələrini genişləndirdi. Azərbaycanın regional liderliyi, həmçinin beynəlxalq təşkilatlardakı fəallığı, İlham Əliyevin prezidentliyi dövründə artmışdır. [1]

İlham Əliyev, sosial sahədə də çoxsaylı islahatlar həyata keçirmişdir. Təhsil sistemindəki dəyişikliklər, gənc nəslin modern dünyaya uyğun şəkildə yetişdirilməsini təmin etdi. Eyni zamanda Azərbaycanın səhiyyə sahəsindəki inkişafı, ölkənin vətəndaşlarına keyfiyyətli xidmətlər təqdim edilməsini mümkün etdi.

İlham Əliyev həmçinin milli birlik və dövlətçiliyin möhkəmləndirilməsinə xüsusi diqqət yetirdi. Bu sahədə atılan addımlar, cəmiyyətin sosial sabitliyini təmin etdi və milli mənafe naminə birliyin gücləndirilməsinə xidmət etdi. Azərbaycanın zəngin mədəni irsini qorumaq və inkişaf etdirmək də, prezident İlham Əliyevin əsas prioritetlərindən birinə çevrildi. [3]

İlham Əliyevin Heydər Əliyev siyasətinin davamını təmin etmək istiqamətindəki fəaliyyətləri, Azərbaycanın regionda və dünyada güclü, müstəqil və inkişaf etmiş bir dövlət olmasına gətirib çıxarmışdır. Bu, eyni zamanda, ölkənin siyasi və iqtisadi sabitliyinin təminatıdır. Həmçinin, Azərbaycanın beynəlxalq mövqeyi, liderliyini daha da möhkəmləndirərək, ölkənin həm regional, həm də qlobal ölçüdə önəmli bir strateji oyunçuya çevrilməsini mümkün etmişdir.

İlham Əliyev Heydər Əliyevin başladığı yolu daha da inkişaf etdirərək, Azərbaycanın gələcəyini möhkəm bir təmələ oturtmuşdur. Ölkə, müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etməyə davam edir. Prezident İlham Əliyevin ölkə daxilində və xaricində atdığı addımlar, Heydər Əliyevin irsini uğurla davam etdirən bir siyasi liderin fəaliyyətini nümayiş etdirir. Bu, Azərbaycanın gələcəkdəki inkişafı üçün çox vacib bir amildir. [4]

Heydər Əliyevin siyasətinin davamı olaraq, İlham Əliyevin rəhbərliyi altında Azərbaycan böyük nailiyyətlər əldə edib.Bu uğurlar, yalnız iqtisadi sahədə deyil, həmçinin sosial, mədəni, siyasi və beynəlxalq səviyyədə də öz təsirini göstərmişdir. Bu iki nəhəng şəxsiyyətin fəaliyyətləri bir-birini tamamlayır və Azərbaycanın inkişafını təmin edir. [4]

O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı, Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan Ali Baş Komandan İlham Əliyev müharibə dövründə onlarla müsahibələr vermiş, bəzi ermənipərəst jurnalistlərin təxribat dolu suallarına; tarixi faktlar və dəlillərlə cavablandırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin dövlətçilik sahasindəki təməl prinsiplərinə möhtərəm Prezidentimiz İlham Əliyevin yaradıcı şəkildə sadiqliyi Azərbaycanda böyük siyasətin hələ uzun illər davam edəcəyinə, ölkədə həmrəyliyin, sabitliyin və tərəqqinin zamanın çox hədəflərini dəf edəcəyinə böyük qarantdır. Çünki Prezident İlham Əliyevi xalq özünün əvəzsiz lideri kimi sevir və ona inanır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hüseynov, B. "Azərbaycanın Enerji İrsinin Davamı: İlham Əliyevin Liderliyi". Bakı: Böyük kitabxana nəşriyyatı. (2014).

2. Mammadov, R."İlham Əliyevin Xarici Siyasəti və Azərbaycanın Qlobal Mövqeyi". Bakı: Şərq-Qərb nəşriyyatı. (2016).

3. Quliyev, A. "İqtisadiyyatın İnkişafı və Heydər Əliyev İrsinin Davamı". Bakı: Təhsil nəşriyyatı. (2017).

4. Məmmədli, S. "Azərbaycanın Strateji Tərəfdaşları: Heydər Əliyev və İlham Əliyev Dövründə Xarici Siyasət". Bakı: Müasir dünya nəşriyyatı. (2019).

HEYDƏR ƏLİYEVİN LİDERLİYİ İLƏ AZƏRBAYCAN ORDUSUNUN MÜASİRLƏŞMƏSİ

Turan Məhərrəmbəy Nadir oğlu Əhmədli
Milli Aerokosmik Agentliyi
turanmuharrembey@outlook.com

Azərbaycanın müasir tarixində Silahlı Qüvvələrinin modernləşdirilməsi dövlətçiliyin möhkəmləndirilməsi, milli təhlükəsizliyin təmin edilməsi və ərazi bütövlüyünün bərpası baxımından müstəsna əhəmiyyət kəsb edir. 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan, postsovet məkanında qarşılaşdığı ağır sınaqlar, xüsusilə Ermənistanın təcavüzü və Birinci Qarabağ Müharibəsindəki məğlubiyyət nəticəsində torpaqlarının işğalı ilə üzləşmişdir. Bu dövrdə ölkənin hərbi qüvvələri köhnəlmiş texnika, təcrübəsiz kadrlar və nizamsız struktur səbəbindən ciddi zəifliklər nümayiş etdirmişdir. Belə bir şəraitdə Azərbaycan Silahlı Qüvvələrinin müasir standartlara uyğunlaşdırılması və döyüş qabiliyyətinin artırılması qaçılmaz bir zərurətə çevrilmişdir. Bu prosesdə Ulu öndər Heydər Əliyevin strateji baxışı və qətiyyətli liderliyi Azərbaycanın güclü orduya sahib bir dövlətə transformasiyasında həlledici rol oynamışdır.

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə başlayan islahatlar ordunun təkcə texniki təchizatının yenilənməsi ilə məhdudlaşmamış, həm də onun strukturunun peşəkarlaşdırılması, hərbi təhsil sisteminin inkişafı və yerli müdafiə sənayesinin təməlinin qoyulması kimi kompleks yanaşmanı əhatə etmişdir. Onun "Güclü ordu – güclü dövlət" prinsipi əsasında formalaşdırdığı strategiya Azərbaycanın gələcək illərdə regionda lider mövqeyə yüksəlməsinə və 2020-ci ilin 44 günlük Vətən Müharibəsində tarixi qələbə qazanmasına zəmin yaratmışdır. Bu baxımdan, Heydər Əliyevin hərbi sahədəki vizyonu təkcə müstəqilliyin ilk illərindəki böhranın aradan qaldırılması üçün deyil, həm də uzunmüddətli perspektivdə ölkənin geostrateji gücünün artırılması üçün fundamental əhəmiyyət kəsb edir. Müasir dövrdə Azərbaycan Silahlı Qüvvələrinin regionun ən qüdrətli ordularından birinə çevrilməsi və beynəlxalq reytinqlərdə yüksək mövqe qazanması Ulu Öndərin strategiyasının bariz sübutudur [1].

Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi prosesi ölkənin müstəqillik tarixində dərin köklərə malikdir və bu prosesin ilkin şərtləri Azərbaycanın hərbi qüvvələrinin keçdiyi mürəkkəb yol ilə sıx bağlıdır. Azərbaycanın ilk nizami ordusu 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması ilə təsis edilmişdir. 26 iyun 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun formalaşdırılması qərarı qəbul edilmiş və bu, müstəqil Azərbaycanın hərbi qüvvələrinin təməlini qoymuşdur. Lakin AXC-nin cəmi iki illik ömrü olmuş, 1920-ci ildə Sovet işğalı ilə milli ordu ləğv edilmiş və Azərbaycanın hərbi potensialı Sovet İttifaqının vahid hərbi sisteminə inteqrasiya olunmuşdur. Bu dövrdə milli hərbi kadrların yetişdirilməsi və müstəqil ordu quruculuğu imkanları tamamilə məhdudlaşmışdır. Sovet İttifaqının süqutundan sonra, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan yenidən öz Silahlı Qüvvələrini qurmaq məcburiyyətində qalmış, lakin bu proses bir sıra ciddi çətinliklərlə üzləşmişdir [2].

1990-cı illərin əvvəlləri Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan son dərəcə qeyri-sabit bir dövr olmuşdur. Müstəqilliyin ilk illərində ölkədə daxili çəkişmələr, hakimiyyət böhranı və iqtisadi çöküş hökm sürürdü. Bu şəraitdə Azərbaycan Silahlı Qüvvələri Ermənistanın təcavüzünə qarşı effektiv müqavimət göstərmək iqtidarında deyildi. Birinci Qarabağ Müharibəsi (1991-1994) zamanı ordunun zəifliklərı açıq şəkildə üzə çıxdı. Silahlı Qüvvələr əsasən Sovet dövründən qalma köhnəlmiş texnika ilə təchiz olunmuşdu və bu texnika müasir döyüş tələblərinə cavab vermirdi. Hərbi kadrların əksəriyyəti peşəkar təcrübəyə malik deyildi, çünki Sovet ordusu sistemində azərbaycanlı zabitlərə yüksək vəzifələr nadir hallarda verilirdi. Bundan əlavə, orduda vahid komandanlıq sistemi yox idi; müxtəlif könüllü batalyonlar və yerli özünümüdafiə dəstələri mərkəzi idarəetmədən kənar fəaliyyət göstərirdi. Bu pərakəndəlik döyüş əməliyyatlarının koordinasiyasını çətinləşdirir və effektiv müdafiəni mümkünsüz edirdi. Nəticədə, Birinci Qarabağ Müharibəsi Azərbaycanın torpaqlarının 20%-nin işğalı və böyük insan tələfatı ilə yekunlaşdı.Bu ağır vəziyyət Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsinin qaçılmazlığını ortaya qoydu. Müstəqil dövlət kimi sağ qalmaq və ərazi bütövlüyünü bərpa etmək üçün ölkənin müasir

standartlara cavab verən, peşəkar və döyüşə hazır bir orduya ehtiyacı var idi. Lakin iqtisadi resursların məhdudluğu, hərbi infrastrukturun zəifliyi və beynəlxalq dəstəyin olmaması bu prosesi ləngidirdi. Modernləşmənin uğurla həyata keçirilməsi üçün güclü liderlik və uzunmüddətli strategiya tələb olunurdu. Məhz bu məqamda Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanın hərbi sahədəki dönüş nöqtəsi oldu. O, ölkənin hərbi potensialını yenidən qurmaq və modernləşdirmək üçün sistemli addımlar atmağa başladı. Heydər Əliyevin strateji baxışı ordunun təkcə texniki təchizatının yenilənməsini deyil, həm də strukturunun peşəkarlaşmasını, hərbi təhsil sisteminin inkişafını və dövlətçilik maraqlarına uyğun uzunmüddətli inkişafını hədəfləyirdi. Beləliklə, Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsinin ilkin şərtləri müstəqilliyin ilk illərindəki zəifliklər və təhdidlərlə formalaşmış, Heydər Əliyevin liderliyi isə bu prosesin uğurlu başlanğıcını təmin etmişdir [3].

Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdışı Azərbaycanın hərbi tarixində dönüş nöqtəsi olmuşdur. Ölkə o dövrdə daxili qeyri-sabitlik, iqtisadi böhran və Ermənistanın işğalçılıq siyasətinin ağır nəticələri ilə üzləşmişdi. Silahlı Qüvvələr isə vahid komandanlıqdan məhrum, nizamsız və köhnəlmiş texnika ilə təchiz olunmuş bir vəziyyətdə idi. Heydər Əliyev bu çətin şəraitdə ordunun modernləşməsini dövlətçiliyin prioritet istiqamətinə çevirərək, onun təkcə müdafiə qüvvəsi deyil, həm də milli qürurun simvolu olmasını hədəflədi. Onun strateji baxışı qısa müddətli tədbirlərlə məhdudlaşmamış, uzunmüddətli perspektivdə Azərbaycanın hərbi gücünü regionda lider səviyyəyə qaldırmağı nəzərdə tutmuşdur.

Heydər Əliyevin ordu quruculuğundakı ilk addımı Silahlı Qüvvələrdə nizam-intizamın bərpası və vahid komandanlıq sisteminin yaradılması oldu. 1990-cı illərin əvvəllərində ordunun parakəndə strukturu – müxtəlif könüllü batalyonlar və özünümüdafiə dəstələri – döyüş effektivliyini aşağı salırdı. Heydər Əliyev bu qrupları ləğv edərək, ordunu mərkəzləşdirilmiş idarəetmə altına aldı və peşəkarlaşma yolunda mühüm bir təməl qoydu. Bu islahat Birinci Qarabağ Müharibəsinin acı təcrübələrindən dərs alaraq, gələcək döyüşlərdə koordinasiyalı hərəkət qabiliyyətini artırmaq məqsədi daşıyırdı. 1994-cü ildə atəşkəsin elan edilməsindən sonra isə o, bu fürsətdən istifadə edərək ordunun yenidən qurulmasına və gücləndirilməsinə fokuslandı.

Heydər Əliyevin strategiyasının digər mühüm istiqaməti hərbi təhsil sisteminin inkişafı idi. O, hələ Sovet dövründə, 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılmasına nail olmuş və azərbaycanlı zabitlərin yetişdirilməsinə töhfə vermişdi. Müstəqillik illərində isə bu təcrübəni genişləndirdi. 1999-cu ildə Azərbaycan Silahlı Qüvvələri Hərbi Akademiyasının təsis edilməsi ilə peşəkar hərbi kadrların hazırlanması sistemli hala gətirildi. Hərbi məktəblərin yenidən strukturlaşdırılması və müasir təlim proqramlarının tətbiqi ordunun intellektual potensialını artırdı. Bu addımlar gələcəkdə Azərbaycan zabitlərinin müasir döyüş texnologiyalarını mənimsəməsinə və effektiv komandanlıq bacarıqlarına yiyələnməsinə zəmin yaratdı [4].

Beynəlxalq əməkdaşlıq Heydər Əliyevin hərbi strategiyasının başqa bir sütunu idi. O, Azərbaycanın məhdud resurslarını nəzərə alaraq, xarici tərəfdaşlarla əlaqələri gücləndirdi. Türkiyə ilə hərbi əməkdaşlığın dərinləşdirilməsi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulma və digər ölkələrlə təlim mübadilələri ordunun müasir standartlara uyğunlaşmasını sürətləndirdi. Eyni zamanda, Heydər Əliyev Azərbaycanın xaricdən asılılığını azaltmaq məqsədilə yerli hərbi sənayenin inkişafına xüsusi diqqət yetirdi. 2003-cü ildə "Azərbaycan Respublikası müdafiə sənayesi müəssisələrinin 2003-2005-ci illərdə inkişafına dair Dövlət Proqramı"nın təsdiqi bu istiqamətdə atılan mühüm addım oldu. Bu proqram yerli istehsalın əsasını qoyaraq, sonrakı illərdə Azərbaycanın öz hərbi texnikasını istehsal etməsinə imkan verdi.

Heydər Əliyevin strateji yönü ordunun modernləşməsini iqtisadi və geostrateji inkişafla birləşdirdi. Onun neft strategiyası sayəsində əldə olunan gəlirlər hərbi xərclərə yönəldildi, bu da sonradan müasir silahların alınması və infrastrukturun inkişafı üçün maliyyə bazası yaratdı. Heydər Əliyev təkcə mövcud problemləri həll etmədi, həm də Azərbaycan Silahlı Qüvvələrinin gələcək qələbələrə hazır olmasını təmin etdi. Onun vizyonu İlham Əliyev dövründə tam reallaşaraq, 2020-ci ildə Vətən Müharibəsində tarixi zəfərlə taclandı.

Heydər Əliyevin qoyduğu strateji təməl üzərində Prezident İlham Əliyev rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi müasir dövrdə öz pik nöqtəsinə çatmışdır. İlham Əliyev

dövründə ölkənin neft-qaz gəlirləri sayəsində iqtisadi gücünün artması hərbi sahəyə böyük investisiyalar yönəltməyə imkan verdi. Bu resurslar müasir silah sistemlərinin alınması və ordunun texnoloji cəhətdən yenilənməsi üçün effektiv şəkildə istifadə olundu. Rusiya, Türkiyə və İsraildən əldə edilən pilotsuz uçuş aparatları (PUA-lar, məsələn, Bayraktar TB2 və Harop), raket sistemləri və zirehli texnika Azərbaycan Ordusunu regionda misilsiz bir gücə çevirdi. Bu texnologiyalar, xüsusilə 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Vətən Müharibəsində Ermənistanın hərbi infrastrukturunun məhv edilməsində və işğal olunmuş ərazilərin azad edilməsində həlledici rol oynadı.Eyni zamanda, yerli hərbi sənayenin inkişafı modernləşmənin digər mühüm istiqaməti oldu. 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyinin yaradılması ilə Azərbaycan öz istehsalı olan snayper tüfəngləri ("İstiqlal"), zirehli texnika ("Matador", "Marauder") və PUA-lar istehsal etməyə başladı. Bu, ölkənin xaricdən asılılığını azaltdı və hərbi müstəqilliyini gücləndirdi. Hərbi şəxsi heyətin peşəkarlaşması da diqqətdən kənarda qalmadı – xarici təlimlər və müasir döyüş taktikasının mənimsənilməsi ordunun döyüş qabiliyyətini yüksəltdi [5].

Bu modernləşmənin nəticəsi Vətən Müharibəsində qazanılmış tarixi qələbədir. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində işğal altındakı torpaqlarını azad edərək, Heydər Əliyevin illər öncə qoyduğu strategiyanın reallaşdığını sübut etdi. Müharibədən sonra Azərbaycan Ordusu "Global Firepower" reytinqində dünyanın ən güclü 50 ordusu sırasına daxil oldu. Bu nailiyyət Heydər Əliyevin vizyonunun davamlılığını və İlham Əliyevin onun mirasını uğurla inkişaf etdirdiyini göstərir.

Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi ölkənin müstəqillik tarixində ən mühüm dönüş nöqtələrindən birini təşkil edir və bu prosesdə Ulu Öndər Heydər Əliyevin strateji yönü misilsiz rol oynamışdır. Onun 1993-cü ildən etibarən həyata keçirdiyi islahatlar – vahid komandanlığın qurulması, hərbi təhsilin inkişafı, beynəlxalq əməkdaşlıq və yerli hərbi sənayenin təməlinin qoyulması – Azərbaycan Ordusunu zəif və nizamsız bir qüvvədən regionun ən güclü hərbi strukturuna çevirmişdir. Heydər Əliyevin "Güclü ordu – güclü dövlət" prinsipi təkcə hərbi qüvvələrin yenidən qurulmasını deyil, həm də dövlətçiliyin möhkəmləndirilməsini və milli qürurun bərpasını hədəfləyən uzunmüddətli bir vizyonu əks etdirir. Onun bu strategiyası iqtisadi inkişaf və geostrateji əlaqələrlə dəstəklənərək, Azərbaycanın gələcək qələbələrinə zəmin yaratmışdır[6].

Heydər Əliyevin mirası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş və müasir dövrdə öz kulminasiya nöqtəsinə çatmışdır.. Beləliklə, Heydər Əliyevin hərbi sahədəki strategiyası təkcə müstəqilliyin ilk illərindəki böhranın öhdəsindən gəlməyə deyil, həm də Azərbaycanın uzunmüddətli təhlükəsizliyini və suverenliyini təmin etməyə xidmət etmişdir. Onun vizyonu bu gün də Azərbaycanın hərbi siyasətinin əsasını təşkil edir və gələcək nəsillərə güclü dövlət mirası olaraq qalır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, İ. H. Azərbaycanın müdafiə siyasəti və Vətən Müharibəsi. Bakı: Azərbaycan Nəşriyyatı, 2021. 320 s.
2. Hacıyev, R. Ə. Heydər Əliyev və Azərbaycan Ordusunun formalaşması. Bakı: Elm, 2018. 245 s.
3. Məmmədov, A. C. Azərbaycan Silahlı Qüvvələrinin tarixi: müstəqillikdən müasirliyə. Bakı: Təhsil Nəşriyyatı, 2020. 180 s.
4. Rzayev, T. Q. Azərbaycanın hərbi sənaye kompleksi: inkişaf yolu. Bakı: Şərq-Qərb, 2019. 200 s.
5. Süleymanov, N. S. Heydər Əliyevin strateji vizyonu: iqtisadiyyatdan hərbiyə. Bakı: Azərnəşr, 2015. 150 s.
6. Global Firepower. World Military Strengths Ranking 2021. [Elektron resurs]. URL: https://www.globalfirepower.com/countries-listing.php (Müraciət tarixi: 10 aprel 2025).

HEYDƏR ƏLİYEV SİYASƏTİ VƏ MƏDƏNİ İRS MƏSƏLƏLƏRİ

Sevinc Arif qızı Verdiyeva
Gəncə Dövlət Universiteti
verdiyeva1994.03.@gmail.com

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da milli kimliyi, mədəni irsi onun milli varlığını müəyyən edən başlıca amillərdir. Mədəniyyət böyük sərvətdir. Milli dəyərlərin kökündə sağlam düşüncəli mədəniyyət dayanır. Azərbaycan ölkəsi öz verdiyi töhfələrlə dünya mədəniyyətini, siyasi tarixini, elmini, incəsənətini hər zaman zənginləşdirmişdir.

Zaman-zaman hər bir xalqın inkşafında və tərəqqisində müstəsna xidmətlər göstərmiş şəxsiyyətlər yetişir. Ölkəmizdə adət-ənənələrimizin, mədəniyyətimizin, mentalitetimizin, milli kimliyi-mizin, incəsənətimizin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqil-liyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması Ulu öndər Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində mümkün olmuşdur. Azərbaycan dövlətinin tarixinə öz fəaliyyəti ilə adını qızıl hərflərlə yazdıran Heydər Əliyev uzaqgörənliyi, əzimkarlığı, müdrik rəhbərliyi və qətiyyəti ilə dövrümüzün görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir. Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan xalqının mədəni irsinin qorunub saxlanması, inkişaf etdirilməsi, təbliği, dünya miqyasında tanınması və milli kimliyin formalaşmasından əvəzsiz xidməti danılmazdır. Heydər Əliyev qədim tarixə malik olan mədəni irsimizin bütün xalq tərəfindən qorunması zəruriliyini daim vurğulamışdır. Ümummilli Liderin bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsi də diqqətdən kənarda qalmayıb. Azərbaycanın inkişafının memarı Heydər Əliyevin mədəniyyət sahələrinin tərəqqisi ilə bağlı sərəncamları bir daha sübut edir ki, ölkəmizdə mədəni irsin funksionallığına əsaslanaraq, milli kimliyin formalaşdırılması, mənəvi dəyərlərin qorunub saxlamasına həqiqətən böyük qayğı var. Ulu Öndərimizin xalqımız qarşısındakı misilsiz xidmətləri nəticəsində demokratik inkişaf, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunda yüksək nəaliyyətlər əldə edilməsi danılmaz həqiqətdir. [4, s.876] Bu nüfuzlu dövlət xadimi Azərbaycanda birliyin möhkəmlən-dirilməsi, sabitliyin qorunması ilə bərabər, mədəniyyətlər arası dialoqun yaradılması, çoxmədəniyyətliliyin inkişaf etdirilməsi, dözümlü mühitin formalaşdırılmasında mühüm işlər görərək dəyərli paylar vermişdir. Heydər Əliyev düşünürdü ki, vətənə sədaqət göstərmək, milli və mənəvi dəyərlərə sadiq qalmaq hər bir vətəndaşın vəzifəsidir. O, mədəni irsimizin bütövlükdə Azərbaycan xalqı tərəfindən qorunmasının vacibliyini daim müdafiə etmişdir. İncəsənət və mədəniyyət sahəsi Heydər Əliyevin xüsusi diqqət və qayğısından heç vaxt yayınmamış, eyni zamanda gənclərin vətənpərvərlik ruhunda yetişməsi üçün onların milli və mənəvi dəyərlərimizi tanımasının, onları qorumasının əhəmiyyətini hər zaman önə çəkmişdir.

Heydər Əliyevin müasir Azərbaycanın siyasi tarixindəki əhəmiyyəti təkcə ölkənin sabitliyini təmin etməsi ilə deyil, həm də Azərbaycançılıq düşüncə tərzinin əsasını qoyması və onu milli dövlətçilik ideologiyasının əsas sütununa çevirməsi ilə ölçülür. Bu ideologiya cəmiyyətin vəhdətini möhkəmləndirir, vətandaş həmrəyliyini artırır və xalqda dövlətə qarşı inam və sədaqət hissini gücləndirir. Azərbaycançılıq ideyası yalnız milli identiklik anlamı daşımır, həm də ölkənin suverenliyinin və inkişaf strategiyasının əsas təməl pirisiplərindən biri kimi çıxış edir. Heydər Əliyevin rəhbərliyi dövründə dövlət strukturlarının möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması və ictimai - siyasi sabitliyin təmin olunması kimi mühüm tədbirlər həyata keçirilmiçdir. Bu isə Azərbaycançılığın əsas mahiyyətlərindən biri olan milli həmrəylik və dövlət suverenliyi pirinsipinin reallaşmasına xidmət etmişdir. Heydər Əliyevin Azərbaycançılıq ideyasına qatqıları, Azərbaycan dövlətçiliyinin və milli mənsubiyyətinin güclənməsində dəyişməz rol oynayır. Bu ideya Heydər Əliyevin mirasının bir elementi kimi , bu gün də Azərbaycanın siyasi və mədəni arenalarında əhəmiyyətli funksiya yerinə yetirir. Onun rəhbərliyi ilə qurulan Azərbaycançılıq ideologiyası, Azərbaycan xalqının gələcək nəsillərinə ötürüləcək dəyişməz bir dəyər olaraq qalacaqdır. O, Azərbaycan xalqını birləşdirən, dövlətin tərəqqisini dəstəkləyən və xalqın milli maraqlarına xidmət edən bir ideologiyanı yaratmışdır. Bu, eləcə də Azərbaycanın fərqli milli və dini icmalarının ortaq şəkildə

mövcud olduğu, sülhün və dözümlülüyün təmin edildiyi bir cəmiyyətin inşasında əhəmiyyətli rol sərgiləmişdir.

Ulu Öndərimiz dünya azərbaycanlılarını bir araya gətirmək niyyəti ilə çox saylı insiyativlər təklif etmiş və nəticə etibarı ilə ilk dəfə 2001-ci ildə Dünya Azərbaycanlılarının Birinci Qurultayını həyata keçirmişdir. Bu qurultay, xaricədə yerləşən azərbaycanlılarla əlaqələrin gücləndirilməsi, onların Azərbaycana dəstək verməsi məsələlərində vacib bir təşəbbüs kimi qiymətləndirilmişdir. Dünya Azərbaycanlılarının birliyi, siyasətçil liderimizin Azərbaycançılıq ideyasını qlobal miqyasda nümayiş etdirərək ölkənin beynəlxalq təsir gücünün yüksəlməsinə şərait yaratmışdır. [2, s.745]

Heydər Əliyev tərəfindən inkişaf etdirilmiş Azərbaycançılıq ideologiyası yalnız onun dövrü ilə sərhədlənmir. Bu ideya, müstəqil Azərbaycan Respublikasının dövlətçiliyinin və milli mənsubiyyətinin əsasını qoyur, gələcək nəsillərə çatdırılacaq vacib bir irs kimi qəbul edilir.

"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir" [1, s126]deyən müdrik şəxsiyyət milli mədəniyyətə, onun tarixi qaynaqlarına xüsusən diqqət yetirirdi. Mədəniyyətimiz, incəsənətimiz onun hakimiyyəti illərində özünün ən gözəl inkişaf yolunu keçmişdir. Heydər Əliyev mədəniyyət xadimlərinə xüsusi diqqət yetirmiş, incəsənətin hər bir sahəsinə eyni qayğı ilə yanaşmışdır. Dahi şəxsiyyətimiz mədəniyyətin elə bir sahəsi yoxdur ki, orada öz izini qoymuş olmasın. Məhz onun sayəsində milli – mənəvi dəyərlərimiz, incəsənətimiz surətlə beynəlxalq aləmdə tanınmağa başlandı. O, yazıçıları, bəstəkarları, teatr xadimlərini, rəssamları qısaca desək bir çox incəsənət xadimlərini daim diqqət mərkəzində saxlayıb, qurultaylarda şəxsən özü dəyərli çıxışlar etməklə onların hər birinə sitmul vermişdir. Ulu Öndərin hakimiyyəti illərində onun dəstəyi ilə bir çox filimlər çəkilmiş, ölkəmizin bir çox bölgələrində Azərbaycanın dahi şəxsiyyətləri – bəstəkarlar, yazıçılar, müğənnilər, şairlər və başqalarının yubileyləri dövlət səviyyəsinndə qeyd edilmiş, onların abidələri ucaldılmışdır. Öz həyatını xalqın yolunda həsr etmiş uzaqgörən lider daima milli şüurun formalaşmasına, xalqın adət - ənənələrinin zənginləşdirilməsinnə çalışmışdır. Azərbaycan Respublikasının 40-cı maddəsində də milli irsimizin qorunması məsələsi öz əksinin tapmışdır. "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədniyyət abidələrini qorumalıdır". [5, .s.534]

Hər bir xalqın mənəvi aləminin formalaşmasında din, dil, adət-ənənə kimi milli-mənəvi dəyərlərin əsasında duran amillər həlledici təsir göstərir. Milli-mənəvi dəyərlərin təkminləşdirilməsində və mənimsənilməsində vacib amillərdən biri olan ana dilimiz əhəmiyyətli rol oynayır. Bu mühüm amili nəzərə alan dahi şəxsiyyətimizin fəaliyyəti nəticəsində 1978-ci ildə Azərbbaycan SSRİ-in Konistutisiyasında Azərbaycan dili dövlət dili kimi rəsmiləşdirilmişdir. Tarixi çətinliklərdən, mürəkkəb ictimai-siyasi sistemlərdən üzüağ çıxan dilimiz bu gün dünyanın son dərəcə zəngin, ən qabaqcıl dillərindən biridir. Ulu Öndərin dil siyasəti sarsılmaz və prinsipal əsaslara söykənirdi. O, hər zaman Azərbaycan dilinə xüsusi diqqət və ehtiramla yanaşmışdır. Heydər Əliyevin dilimizin hüquqi statusunun təsbit edilməsi, yad təsirlərdən qoruması istiqamətində reallaşdırdığı siyasət müstəqil Azərbaycan dövlətinin, bu dövlətin rəsmi dili olan Azərbaycan dilinin hüquqi əsaslarının yaradılmasına zəmin olmuşdur. 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsində qəbul edilən Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsdiq olundu. [5, s.234] Bu nailiyyətlərin əldə olunmasında Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən dil siyasəti mühüm rol oynamışdır.

Dahi şəxsiyyətimiz Azərbaycanın gələcək planlarının inkişaf etdirilməsində mənəvi qaynaqlardan faydalanmağın xüsusi əhəmiyyətə malik olduğunu vurğulayır, bu məsələdə İslam dinin də önəmli mövqeyə sahib olduğunu qeyd edirdi. Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti olduğu dövrlərdə milli-mənəvi dəyərlərimizin əsas göstərcisi olan İslam mədəniyyəti nümunələrini – məscidlərin, ziyarətgahların, tarixi memarlıq abidələrinin bərpası ilə bağlı tədbirlər həyata keçirmişdir. Müstəqillik əldə olunmamışdan öncə ölkə əraizisində cəmi 17 məscid mövcud olduğu halda, sonradan bu rəqəm 1236-ya qədər artmışdır. [7, s.154] Müstəqillik əldə etdikdən sonra respublikamızda Heydər Əliyevin göstərişi ilə dini bayramlar rəsmi şəkildə qeyd olunmağa başlamışdır. Onun dini bayramlarda məscidlərə getməsi, dindarlarla görüşməsi, onların mənəvi ehtiyaclarına qayğı ilə yanaşması xalq arasında böyük rəğbətlə qarşılanmışdır. Ulu Öndər yalnız İslam dininə deyil, həm də ölkədə yaşayan digər dini icmalara da diqqət və qayğı ilə yanaşmışdır.

Digər dinlərin nümayəndələri ilə sıx təmaslar qurmuş, onların ibadət ocaqlarının bərpası və fəaliyyətinə dəstək göstərmişdir. Eyni zamanda tez-tez müxtəlif dini bayram və mərasimlərdə iştirak etmiş, dindarlarla səmimi görüşlər keçirmişdir.

Azərbaycan mədəniyyəti və Heydər Əliyev məsələsi olduqca geniş, çoxşaxəli bir sahəni əhatə edir. O, daima ədəbiyyatımızın, milli kimliyimizin, mədəniyyətimizin inkişafı üçün əvəzsiz xidmətlər göstərmişdir. Bu mübahizəsiz bir reallıqdır ki, onun rəhbərliyi dövründə mədəni həyatımız dirçəldi, milli ruhumuz yenidən canlandı. Əminik ki, ulu öndərimizin hakimiyyəti illərində Azərbaycan mədəniyyəti bir növ intibah dövrünü yaşamışdır.

Heydər Əliyev gənc yaşlarında incəsənətə böyük maraq göstərmiş, dram dərnəklərində iştirak etmişdir. Teatr və musiqi sənətinə diqqət yetirərək Opera və Balet Teatrında, Bakı Akademik Dram Teatrında nümayış olunan bir çox tamaşalara yüksək qiymət vermişdir. Məhz onun təşəbbüsü ilə ölkəmizdə 30-dan çox yeni teatr fəaliyyətə başlamışdır. Dahi şəxsiyyətin təqdimatı ilə bir sıra sənətkarlar – F.Bədəlbəyli, L.İmanov, Z.Xanlarova və başqaları yüksək fəxri adlara layiq görülmüşlər. Azərbaycanın tanınmış bəstəkarları, alimləri, yazıçıları-Fikrət Əmirov, Qara Qarayev, Tahir Salahov, Rəsul Rza kimi şəxsiyyətlər onun xüsusi diqqət və qayğısı ilə dövlət mükafatlarına layiq görülmüşlər. Bu, milli dəyərlərimizə verilən yüksək dəyərin bariz nümunəsidir. Bu böyük şəxsiyyət hər zaman sənətə və sənətkara yüksək ehtiramla yanaşmış, incəsənət və mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi üçün mühüm addımlar atmışdır. Paytaxtımızda və müxtəlif bölgələrdə inşa edilən möhtəşəm heykəllər Cəfər Cabbarlı, Hüseyn Cavid, Nəsimi, Cəlil Məmmədquluzadə kimi sənətkarların abidələri şəhərlərimizə xüsusi yaraşıq qatmışdır. Onun təşəbbüsü ilə Üzeyr Hacıbəyli, Niyazi, Hüseyn Cavid, Əzim Əzimzadə və digərlərinin ev muzeyləri yaradılmışdır. [3.s312] Bu muzeylərə hər il minlərlə sənətsevər insanlar, məktəbli və tələbələr baş çəkir, onların irsi ilə yaxından tanış olurlar. Milli kinomuzun formalaşmasında da Heydər Əliyevin rolu danılmazdır. Onun sayəsində "Babək", "Dədə Qorqud", "Nəsimi" kimi milli ruhlu filimlər ərsəyə gəlmiş və yüksək mükafatlara layiq görülmüşdür.

Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, Şəhidlər xiyabanlarının salınması da Ulu Öndərin göstərişi ilə həyata keçrilmişdir. Milli və mənvi dəyərlərin qorunması, inkişafı sahəsində atılan ən önəmli addımlardan biri də repressiyaya məruz qalmış latın qrafikasının bərpa olunması olmuşdur. Bu, millətimizin kökünə qayıdışın mühüm mərhələlərindən biridir.

Dövlət başçısı və siyasətçi kimi bütün müsbət keyfiyyətləri özündə birləşdirən Heydər Əliyev elm və təhsil sahəsinə xüsusi önəm verirdi.Ümummilli lider hər bir tərəqqinin bilik və təhsildən asılı olduğunu vurğulayırdı. Ölkəmizin rəhbərliyinin ilk mərhələsindən başlayaraq Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi böyük diqqətin nəticəsi olaraq Azərbaycanda çoxlu sayda məktəb binaları inşa edilərək istifadəyə verilib. Ölkədə təhsil müəssisələrinin maddi – texniki təminatı gücləndirilib, zəruri avadanlıqlarla təchiz olunub. Böyük lider təhsil sahəsinə dair bir sıra əhəmiyyətli fərman və sərəncamlar imzalayıb, bu sənədlərin həmin sahənin inkişafında xüsusi rolu olmuşdur.

Sonda bir daha vurğulamaq zəruridir ki, uzaqgörən lider Heydər Əliyevin təməlini qoyduğu siyasət ölkəmizin müstəqilliyinin daha da güclənməsi, varlı və qüdrətli dövlətə çevrilməsi, təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması ilə nəticələnmişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycanın dirçəlişi və inkişafı üçün hazırladığı tədbirlər planı onun yolunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən həyata keçirilməkdədir. Prezidentimizin dəfələrlə bildirdiyi kimi, Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi kurs bütün dövrlərdə ölkəmizin hərtərəfli yüksəlişinə xidmət etmiş və bu gün də öz əhəmiyyətini qorumaqdadır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev Azərbaycan dövlət quruculuğunun banisidir. Bakı,2017. Səh. 589
2. Heydər Əliyev və Azərbaycan elmi. Bakı, 1998. Səh. 867
3. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı, 2014.Səh. 496
4. Heydər Əliyev. Müstəqillik yollarında. Bakı,1996. Səh. 979
5. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 17 cilddə. VI cild, Bakı: Azərnəşr, 1997-2007. Səh. 800

6. Heydər Əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir. Bakı, 2011. Səh. 371
7. Heydər Əlyev – Xatirələrdə. Bakı, 2023. Səh. 176
8. https://tehsiljurnali.az
9. https://www.yeniazerbaycan.com

HEYDƏR ƏLİYEV: MİLLİ İRADƏNİN VƏ ZƏFƏRİN SİYASİ MEMARI

[1]**Telli Rəhim qızı Cabbarova,** [1,2]**Leyla Ağa qızı Həsənova**
[1]Gəncə Dövlət Universiteti
[2]ziyacabbarli@mail.ru

"Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim."

(İlham Əliyev) [7]

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra bir sıra daxili və xarici problemlərlə üzləşdi. Ölkədə siyasi xaos, iqtisadi tənəzzül və Dağlıq Qarabağ münaqişəsi fonunda dövlət institutları iflic vəziyyətə düşmüşdü. 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin parçalanmaq təhlükəsinin qarşısını aldı. Onun liderliyi ilə Azərbaycanda sabitlik təmin edildi, dövlət idarəetməsi bərpa olundu və müstəqil siyasət yürüdülməyə başlandı. Bu proseslərin strateji mahiyyəti illər sonra Azərbaycanı qalib dövlətə çevirdi.

Heydər Əliyev dövlət idarəçiliyində hüquqi əsasların formalaşdırılmasına xüsusi önəm verirdi.Onun rəhbərliyi ilə 1995-ci ildə qəbul olunan Konstitusiya dövlətin hüquqi çərçivəsini müəyyənləşdirdi. [1] Bu sənədin qəbulu ilə Azərbaycanda prezident respublikası modeli rəsmiləşdi, insan hüquq və azadlıqları, qanunçuluq prinsipləri, siyasi plüralizm və demokratik institutların formalaşması təmin olundu.Siyasi sabitlik ölkə daxilində iqtisadi və sosial inkişaf üçün əsas baza rolunu oynadı. Regionlarda separatizm meyillərinin qarşısının alınması və milli birliyin təmin olunması Heydər Əliyev dövrünün əsas uğurlarından biri kimi qiymətləndirilir.

1990-cı illərin əvvəllərində Ermənistanla davam edən hərbi münaqişə fonunda Azərbaycanın zəif və sistemsiz ordusu ölkənin təhlükəsizliyini təmin edə bilmirdi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra milli ordunun formalaşdırılmasına və peşəkar kadrların hazırlanmasına xüsusi diqqət yetirdi. Müdafiə sənayesi inkişaf etdirildi, beynəlxalq hərbi əməkdaşlıqlar quruldu, xüsusilə də Türkiyə ilə hərbi əlaqələr gücləndirildi. [3]

Bu proseslər nəticəsində Azərbaycan ordusu müasir texnologiya ilə təchiz olunmuş, yüksək döyüş qabiliyyətinə malik bir qüvvəyə çevrildi. 2020-ci ildə baş tutmuş 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin nümayiş etdirdiyi yüksək döyüş qabiliyyəti məhz bu quruculuğun nəticəsi idi.

Heydər Əliyev Azərbaycanın iqtisadi dirçəlişini təbii ehtiyatların səmərəli istifadəsində görürdü. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ölkəyə milyardlarla dollar investisiya cəlb etdi. Neft sektorunun inkişafı Azərbaycanın iqtisadi müstəqilliyini təmin etməklə yanaşı, qeyri-neft sektorlarının da inkişafına imkan yaratdı.Eyni zamanda Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikilməsi Azərbaycanın geosiyasi mövqeyini gücləndirdi. Enerji təhlükəsizliyi məsələsində Azərbaycanın qlobal əhəmiyyəti artdı və bu, ölkənin beynəlxalq siyasi nüfuzuna da təsir göstərdi. [2]

Heydər Əliyev xarici siyasətdə balanslı və çoxşaxəli yanaşmanı əsas götürürdü. Rusiya, ABŞ, Avropa İttifaqı və Türkiyə ilə paralel əlaqələr qurularaq, Azərbaycanın geosiyasi sabitliyi təmin edildi. BMT, ATƏT, İƏT və GUAM kimi beynəlxalq təşkilatlarda fəal iştirak diplomatik arenada Azərbaycanın maraqlarının müdafiəsini gücləndirdi. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması və Azərbaycanın ədalətli mövqeyinin tanıdılması Heydər Əliyevin diplomatik uğurlarından biri kimi qiymətləndirilir. Bu siyasət sonrakı illərdə Azərbaycanın beynəlxalq hüquqa əsaslanaraq, öz ərazi bütövlüyünü bərpa etməsinə hüquqi və siyasi zəmin yaratdı.

Ulu öndər Heydər Əliyevin siyasi kursunda milli-mənəvi dəyərlərin qorunması və inkişafı xüsusi yer tuturdu. "Azərbaycançılıq" ideologiyası formalaşdırıldı və dövlət siyasətinə çevrildi. Azərbaycan dilinin dövlət dili kimi mövqeyinin möhkəmləndirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi, milli tarix və mədəniyyətə qayıdış siyasəti bu istiqamətdə həyata keçirilmiş addımlardır.

Bu ideoloji əsaslar Vətən müharibəsində xalqın birliyini və döyüş əzmini formalaşdıran əsas psixoloji faktor idi.

1. Səfərbərlik funksiyası - hər hansı təhlükə anında meydana çıxan qorxu fizioloji olaraq, qanda adrenalinin səviyyyəsini artırır, həyəcan siqnalı təhlükə obyektini dərk etməyə imkan yaradır və ona mövcud durumdan ani çıxış yolunu göstərir. Çünki bu emosiyalar təhlükə durumundan qurtulmaq üçün, bədənin bütün psixofizioloji imkanlarının bir nöqtədə səfərbər olunmasına şərait yaradır. Lakin, qorxu və həyəcanın yüksək həddə çatması əks effekt yaradır. Belə durumda qanda adrenalinin səviyyəsi yüksələrək, fizioloji və psixoloji funksiyaları iflic vəziyyətinə salır (yəni, insan, hərəkət etmək və düşünmək qabiliyyətini itirir). Insan vətən sevgisini anladigi üçün ali baş komandanın rəhbərliyində uşaqdan böyüyə səfərbər oldu. [11], [8]

2. Kommunikativ funksiya - insanların bir-biri ilə yaxınlaşmasını və bir-birini dərindən anlamasını təmin edir. Məsələn, analar övlad sevgisinin nə olduğunu bildikləri üçün, övlad faciəsində də bir-birini dərindən anlayırlar. Yaşanan və ya duyulan oxşar emosiyalar, onların bir-birinə daha da yaxınlamasına səbəb olur. Yeni tariximizi qizil qanlı hərflərlə yazan nur üzlü şəhidlərimizin anaları ,ataları bu səbəbdən br-birinə psixoloji dayanıqlıq nümayış elətdirdilər. [11]

3. Dağıdıcı funksiya - intensiv emosiyalar (affekt) fəaliyyətə, davranış və sağlamlığa mənfi təsir göstərirlər. Affekt halı (güclü qəzəb və sevinc, dərin kədər və ümidsizlik, dəhşətə gəlmək) insan psixikasını bloklaşdıraraq, onu bir istiqamətə yönəldir, insan reallıq hissini, özünənəzarəti itirir və etdiyi hərəkətləri anlamır.Ermənilərin Azərbaycan xalqının sərhəddən neçə yuz min km uzaqlıqda yerləşən şəhər,kənd,məktəb ,uşaq,kişi, qadın dinc əli yalın əhalini yaşayış yerlərini dagidici raket və agir arteriliya atəsinə tutması buna sübutdur. [11]

4. Dəyərləndirmə funksiyası - mövcud durumun və ya qıcıqlandırıcı obyektin mənasını dərhal dəyərləndirmək imkanı yaradır. Bu proses, koqnitiv prosesdən daha tez işə düşür və durumun və ya obyektin koqnitiv dərk olunması prosesini tənzimləyir. Bu qədər agir imtahan nəticəsində ,zəfər, qələbə,itirilmş torbaqların azad olması insan şüurunda yenidən müsbət emosiyaların motivasiyasına zəmin yaratdı. [11]

5. Kompensasiya funksiyası – rasional qərarvermə zamanı informasiya qıtlığının aradan qalxmasını və rasional qərarın verilməsini təmin edir. Bu, adətən ,proqnozlaşdırma zamanı yaranan informasiya çatışmamazlığı ərəfəsində meydana çıxan emosiyalardır. [11]

2020-ci il Vətən müharibəsi təkcə hərbi deyil, siyasi və ideoloji zəfər idi. Bu zəfərin təməlində Heydər Əliyevin həyata keçirdiyi strateji kurs, dövlət idarəçiliyi, ordu quruculuğu, iqtisadi inkişaf və milli birliyin yaradılması kimi amillər dayanır. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət uğurla davam etdirilərək torpaqlarımızın işğaldan azad olunması ilə nəticələndi.

Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı çərçivəsində Türkiyə ilə formalaşan qardaşlıq və hərbi əməkdaşlıq da bu qələbədə mühüm rol oynadı. Müasir Azərbaycan Heydər Əliyevin siyasi kursunu davam etdirərək regional liderliyə doğru irəliləyir.

Heydər Əliyevin siyasi kursunda mədəniyyət və təhsil sahəsinə yanaşma yalnız ideoloji vasitə deyil, eyni zamanda milli kimliyin qorunması və inkişafının əsas vasitəsi idi. Onun təşəbbüsü ilə təhsil sahəsində islahatlar həyata keçirildi, beynəlxalq proqramlarla əməkdaşlıq genişləndi. 1990-cı illərin sonlarından etibarən minlərlə gənc xarici ölkələrə təhsil almağa göndərildi. Bu, dövlətin gələcəyi üçün yeni, müasir düşüncəli və peşəkar kadrların hazırlanmasına səbəb oldu.

Mədəniyyət sahəsində isə milli dəyərlərin qorunması və dünya mədəniyyətinə inteqrasiya prosesi paralel şəkildə aparıldı. 1998-ci ildə Azərbaycan mətbuatının senzurasının ləğvi ilə söz və fikir azadlığı təmin edildi, bu da intellektual və mədəni mühitin inkişafına ciddi təkan verdi. Azər-

baycan 2001-ci ildə UNESCO-ya üzv olaraq dünya mədəni irsinin qorunmasına dair bir sıra beynəlxalq layihələrdə iştirak etməyə başladı.

1990-cı illərdə Azərbaycanın xarici ölkələrdə diaspor təşkilatları zəif fəaliyyət göstərirdi. Heydər Əliyev bu sahədə də strateji yanaşma sərgilədi. Onun təşəbbüsü ilə müxtəlif ölkələrdə Azərbaycan evləri və diaspor mərkəzləri yaradıldı. Bu, həm də Qarabağ münaqişəsi ilə bağlı informasiya müharibəsində ölkəmizin mövqeyini gücləndirdi.

2020-ci ildə qazanılan böyük Zəfər yalnız hərbi və diplomatik,psixoloji nailiyyət deyildi. Bu, Heydər Əliyevin strateji xəttinin sadiq şəkildə davam etdirilməsinin parlaq nəticəsi idi. Onun müəyyən etdiyi enerji, təhlükəsizlik, diplomatiya və ideoloji sütunlar əsasında qurulan müasir Azərbaycan dövləti bu gün regionun liderinə çevrilmişdir.

Zəfərdən sonra Qarabağda həyata keçirilən "Böyük Qayıdış" proqramı, müasir şəhərlərin salınması, "Ağıllı kənd" layihələri, infrastrukturun yenilənməsi və beynəlxalq tədbirlərin bölgəyə gətirilməsi Heydər Əliyevin zamanında qoyulan planlı inkişaf ideyasının gerçəkləşməsidir.

Heydər Əliyev təkcə bir dövlət başçısı yox, həm də bir liderlik məktəbinin banisidir. Onun liderlik fəlsəfəsi aşağıdakı əsas sütunlar üzərində qurulub:

- Prinsipiallıq və dövlətə sədaqət
- Uzaqgörənlik və riskləri hesablama bacarığı
- Əhalinin rifahını prioritet sayma
- İnkişaf və modernləşməyə açıq olmaqla yanaşı milli dəyərlərə sadiqlik

Ulu Öndərin iş prinsipində,fikrin,surətin,qətiliyin,məntiqiliyində təzahür edərək intellektual qabiliyyətlərin formalaşmasında liderlik xüsusiyyəti öz əksini tapmışdır. [9] Onun hər bir işində məsuliyyət,elm,təcrübə vəhdət təşkil etdiyinə görə hər hansı bir işin icrasının yüksək keyfiyyətini nəticəsi Ulu Öndərin müdrik və iti zəkasının məhsuludur. İnsanın iradi keyfiyyətləri, onun nə dərəcədə iradəli olub-olmaması məhz ikinci mərhələdə aşkar olur. Heydər Əliyevin heç kəsə bənzər olmayan müsbət iradi keyfiyyətləri zehni, intellektual iş icraetmə qabiliyyəti hər çıxışında, danışığında sürətli, rəvan nitqlə ifadə edərək Onun şəxsiyyətin liderlik fəaliyyət keyfiyyətləri: natiqlik, qətiyyətlilik, yüksək idarə etmək qabiliyyətinin təcəssümüdür. [8]

Azərbaycan gəncliyi daim Heydər Əliyev "Şəxsiyyət"inin irsindən bəhrələnməlidir; Ata vəsiyyətini yerinə yetirən Ali Baş Komandan cənab İlham Əliyev kimi ailə dəyərlərinə malik şəxsiyyət yetişdirmək cəmiyyətin qarşısında duran sosial-psixoloji əsas vəzifələrdən biridir

1. Vətənə məhəbbət hissi, vicdan, əxlaqi şüur, dünyagörüşü, yüksək intellektual qabiliyyətə malik olmaq.
2. Səmimi,təvazökar və qayğıkeş olmaq.
3. Qətiyyətlilik,liderlik, cəsarətlilik, məsuliyyətlilik, insanpərvərlik, yüksək əqidə və iradi gücə malik olmaq. [8]
4. Daim özünün və başqalarının təcrübəsindən səmərəli istifadə etmək.
5. Hər bir işdə elm nəzəriyyə və təcrübəyə vəhdət şəkildə istinad etmək

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası (1995).
2. "Əsrin müqaviləsi" sənədləri, SOCAR arxiv materialları.
3. Əliyev, H. (1997). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr.
4. Əliyev, İ. (2020). Qarabağ Azərbaycandır! Rəsmi çıxışlar toplusu.
5. Heydər Əliyev və mədəniyyət-I cild (Bakı, 2008)
6. İnternet səhifəsi (mod.gov.az)
7. İnternet səhifəsi.(president.az)
8. M.Həmzəyev və F.Seyidov-Psixologiya (Bakı, 2007)
9. Qətiyyətin təntənəsi (Bakı,1995)
10. Tofiq Zülfüqarov (2019). Azərbaycanın xarici siyasəti: retrospektiv baxış. Bakı: Elm və Təhsil.

11. Классификация и понятие об эмоциях и чувствах. [Electronic resource] / 2018. URL: https://obu4ayka.ru/obshhenie/klassifikatsiya-emotsij-vidy-emotsij-i-chuvstv-psihologiya.html

HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN ELMİNİN VƏ TƏHSİLİNİN BÖYÜK HİMAYƏDARI

Gülnar Saday qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
gulnar.mammadova@mdu.edu.az

Hər bir cəmiyyətin tərəqqisi, xalqın intelektual səviyyəsinin yüksəlməsi və potensial gücünün formalaşması təhsil vasitəsilə təmin edilir. Başqa sözlə, təhsil cəmiyyətin inkişafı üçün başlıca amil və müasir qlobal dünyanın ən unikal vasitələrindəndir. Elə bu cəhəti ilə də o, cəmiyyətin inkişafında mühüm və həlledici rola malikdir. Cəmiyyətin inkişafının bu günü, keçmişi və gələcəyi arasında əlqəni təmin edir. Ulu öndərimiz Heydər Əliyev təhsili cəmiyyətdə müqəddəs bir sahə kimi səciyyələndirirdi. Göstərirdi ki, gənc nəslin gələcəyə əsl vətəndaş, çevik həyati bacarıq və yüksək elmi potensiala malik mütəxəssis kimi yetişdirilməsi təhsilin ümdə vəzifəsidir. Odur ki, bəşər tarixi boyunca təhsil özünü cəmiyyətin təkamül gücü kimi göstərmişdir.

Müstəqil Azərbaycanda təhsilin inkişafına qayğı, təhsillə bağlılıq Heydər Əliyevin fəaliyyətində həmişə aparıcı sahələrdə biri olmuşdur. Dünya birliyinin yeni – XXI əsr "İntelekt əsri"nə çevirdiyi zamandan xeyli əvvəl Heydər Əliyev Azərbaycanda təhsilin inkişafına xüsusi diqqət yetirmiş və daima qayğı göstərmişdir. Heydər Əliyev Azərbaycanın böyük müstəqilliyinin əsasını, "demokratizm və müasirlik" düşüncəsinin binasını XX əsrin 70-ci illərindən tədricən, mərhələ-mərhələ, heç kəsin fərqinə varmadığı zamanlarda qoymuşdu. Hələ o zaman ölkəmizin gələcək inkişafı və gələcək perspektivləri üçün intelektual səviyyənin, həm də kadr potensialının hazırlanmasına ciddi fikir verirdi.

Heydər Əliyev əsasını qoyduğu milli siyasətin konsepsiyasına uyğin olaraq böyük və qədim ənənələrdən qaynaqlanan Azərbaycan elmi müasir dünya elminin ön sıralarına yüksəlmək üçün bütün potensial gücünü bu günə və gələcəyə gərəkli istiqamətlər üzrə yönləndirirdi. Azərbaycan Respublikasının humanitar siyasəti ölkəmizdə artıq strukturlaşmış humanitar elm sahələrinin yeni keyfiyyətdə inkişafını nəzərdə tuturdu. Bu elmlər Azərbaycan cəmiyyətinin mədəni intelektual həyatının yüksək səviyyəsindən çıxış etməli idi. Milli mədəniyyət tarixixmizin yeni elmi metodlarla araşdırılmasını təmin etməli, onun müasir inkişafının problemlərini diqqətlə öyrənməli, bütövlükdə mədəniyyət düşüncəsini hərəkətə gətirməyə qadir olan qüvvələri yetişdirməli idi.

Dünya svilzasiyasının inkişafının bütün mərhələlərində Azərbaycan mədəniyyəti dünyanın hər hansı nöqtəsində mövcud olan zəngin mədəniyyətlə müqayisə edilə biləcək üstünlüklərə malik olduğunu göstərmişdir. Ulu öndər Heydər Əliyev məhz bu həqiqətlərin işığında Azərbaycan elminin modernləşməsi istiqamətində ardıcıl və sistemli iş aparmışdır. Onun rəhbər olduğu bütün zamanlarda elmin inkişafı ümummilli inkişafın mühüm tərkib hissəsinə və aparıcı istiqamətinə çevrilmişdir.

"Heydər Əliyev Azərbaycanda maarifin, təhsilin çiçəklənməsinə, mədəni irsin qorunub saxlanmasına və ənənələrlə zənginləşməsinə, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına daim böyük qayğı ilə yanaşmışdır". [7, s.52] Heydər Əliyev təhsilə millətin gələcəyi kimi baxırdı. Təhsilin inkişaf etdirilməsini, məktəblərdə maddi-texniki bazanın gücləndirilməsini, köhnə məktəblərin təmiri, yeni məktəblərin açılmasına xüsusi diqqət yetirirdi.

Təsadüfi deyil ki, Heydər Əliyevin hakimiyyəti dövründə (1969-1982) həmişə təhsil sahəsində ciddi islahatlar aparmışdır. Biz təhsil işçisi olduğumuz üçün bu sahəni xüsusui vurğulamaq istərdik. Dünya təhsil sisteminə inteqrasiya edilməyimiz, bu sahədə dünya təcrübəsindən məharətlə bəhrələnməyimiz, yeniləşmə və müasirləşməyə alışmağımız bizim uğurlarımızdır. Ölkənin təhsil işində aparılan islahatlar yenidənqurmanın tələblərinə tam cavab verməkdədir. İxtisaslı kadrların artırılması, yeni dövr və zamana cavab verəcək tədris plan və proqramlarının tərtib edilməsi hər bir

təhsil işçisinin ürəyindəndir. Böyüməkdə olan gənc nəsil məhz təhsil siyasəti əsasında formalaşaraq həyata müstəqil şəkildə qədəm qoyur. Dünyanın müxtəlif ölkələrində oxuyur, işləyir və yaşayır. Respublikamızın guşələrində tikilən uşaq bağçaları, məktəb binaları, əlavə korpuslar təhsilə göstərilən dövlət qayğısından xəbər verir. Bu, bizim hamımızı sevindirir və qarşıda çox möhtəşəm işlərin görüləcəyi gözlənilir.

Azərbaycan bu gün dünyanın davamlı olaraq ən surətlə inkişaf edən ölkəsidir. Müstəqillik qazanmasından illər keçməsinə baxmayaraq Azərbaycan Respublikası regionunun aparıcı lider dövlətinə çevrilmişdir. Həyata keçirilən müdrik və uzaqgörən islahatlar nəticəsində ölkəmizin iqtisadi inkişafında keçid dövrü başa çatmışdır. Tarixi baxımdan çox qısa bir zaman kəsiyində əldə edilən bu böyük nailiyyətlər Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının yaradıcılıqla və uğurla həyata keçirilməsi nəticəsində tarixi baxımdan qısa zaman kəsiyində çox böyük nailiyyətlərə, uğurlara imza atmışdır.

Azərbaycan təhsilinin beynəlxalq standartlar səviyyəsində qurulması, onun cəmiyyətdə üstün sahə kimi inkişafına dövlət qayğısının artırılması Ulu öndər Heydər Əliyevin Respublika rəhbərliyinə ikinci dəfə qayıdışından sonra yeni vüsət almış, islahatların reallaşdırılmasına əlverişli və obyektiv şərait yaranmışdır. Onun 1993-cü ilin avqustundan başlayaraq, müxtəlif vaxtlarda təhsil işçiləri ilə çoxsaylı görüşlərində, Respublika gənclərinin I və II forumlarında, Azərbaycan müəllimlərinin XI qurultayında, 1970-1980-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərlə görüşlərində və s. tədbirlərdəki çıxışlarında təhsil sisteminin qarşısında duran vəzifələrlə bağlı böyük ideyalar irəli sürürdü. Bu, ideyalar əslində, Azərbaycan təhsilinin inkişaf perspektivlərinin strateji proqramı Azərbaycan elm və təhsilinə böyük qayğının, gərgin əmək və ciddi axtarışların nəticəsi kimi "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" ərsəyə gəldi. Bu Proqram Azərbaycanın Respublikası Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə təsdiq olundu.

Təhsil islahatının yaradıcısı Heydər Əliyevin "Təhsil millətin gələcəyidir", "Cəmiyyətin inkişafı üçün təhsil vacibdir" kimi müdrik kəlamları Azərbaycan təhsilinin inkişafı yolunu araşdırmağın parlaq proqramıdır. Təhsil sisteminin formalaşdırılması, yeni tipli məktəblərin, liseylərin, kolleclərin açılması, ali təhsil ocaqlarının yaradlması, yüksək ixtisaslı kadrların yetişdirilməsi təhsil proqramının əsasıdır.

Təhsil sahəsində "İslahat proqramı"nın həyata keçirilməsi milli təhsil tariximizə müstəqil Azərbaycanın koordinal islahatlara başlanğıc dövrü kimi daxil olmuşdur. Bu illərdə təhsil sisteminin hüquqi-normativ bazasının nəinki təkmilləşdirilmsi, həm də yenilərinin yaradılması istiqamətində fundamental səciyyəli işlər görülmüşdür.

Ulu Öndər təhsilin və təhsil işçilərinin qarşısına yeni məqsəd və tələblər qoyaraq qeyd edirdi ki, "Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun". [6, s.520]

Heydər Əliyev yaradıcılığına müraciət edəndə Azərbaycan xalqının necə dərin problemlərinin aşkara çıxdığının şahidi oluruq. Beləki həmin problemlərdən biri də ana dilimiz-Azərbaycan dili ilə bağlıdır. İlk növbədə təhsildən danışırıqsa mütləq dilimizdən başlamalıyıq.

Hamımıza məlumdur ki, Ulu Öndərin zəngin irsində Azərbaycan dili xüsusi yer tutur. O, ana dilimizi ürəkdən sevən və onu dərindən bilən şəxslərdəndir. Heydər Əliyev nitqlərində, çıxışlarında, müsa-hibələrində yeni bir siyasi üslub ərsəyə gətirmiş və ana dilimizi zənginləşdirmişdir ki, onun da əsasında natiqlik sənəti üçün yeni bir mənbə yaranmışdır. Sözsüz ki, bu nümunələrdən gələcək nəsillər də natiqlik sənətinin incəliklərini dərindən öyrənmək və faydalanmaqq üçün istifadə edəcəkdir.

Ölkə başçısının 2001-ci il iyun ayının 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" fərmanı, latın qrafikalı Azərbaycan əlifbasına keçirilməsi, "Azərbaycan əlifbası", "Azərbaycan dili" gününün təsis edilməsi dövlətimizin milli nailiyyətidir. Təhsilimiz məktəbdən başladığına görə əsas islahatlar o üzrə aparılmalıdır. Dövlətçiliyimizin, müstəqilliyimizin əsas rəmzləri olan Azərbaycan bayrağına, gerbinə, himninə dərin məhəbbət aşılanmalı, gənc nəslə şüurlu şəkildə mənimsədilməlidir.

Danılmaz faktdır ki, insanın bütün həyatı sözlə ifadə olunur. Dil xalqa məxsusdur və milli ruhla qırılmaz bağlıdır. Dahi şəxsiyyət dilin xalqın həyatında oynadığı rolu belə dəyərləndirirdi: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir."

"Xalqın dili onun ruhudur, xalqın ruhu isə onun dilidir" kəlamı kimi hikmətli ifadələr dilin mövcudluğunun və inkişafının sirlərinə nüfuz etmək üçün göstərilən məhz bu cür cəhdlər nəticəsində yaranmışdır. [4, s.12]

Məlumdur ki, təhsildə aparıcı qüvvə müəllimdir. Müəllim cəmiyyətin aparıcı siması, peşə fəallığının mənbəyi və hərəkətverici qüvvəsidir. Müəllim özü şəxsiyyəti kimi formalaşmazsa cəmiyyətin onun qarşısında qoyduğu tələbləri, sosial sifarişi həyata keçirə bilməz.

Ulu Öndər müəllim kadrlarının hazırlanması məsələsinə də ciddi fikir verirdi. Müəllim cəmiyyətin ən mühüm sosial sifarişini, gələcəyin layiqli vətəndaşlarını şəxsiyyət kimi yetişdirdiyi şəxsdir. Müəllim şəxsiyyəti pedaqoji fəaliyyət prosesində yetişdirir. Ona görə də müəllimin öz şəxsiyyəti yüksək səviyyədə formalaşmalıdır ki, gələcəyin şəxsiyyətlərini yetərincə layiqincə yetişdirə bilsin.

Müəllim eyni zamanda yaradıcılığını pedaqoji fəaliyyətində yeni məqsəd və yollar axtarmaqda xarakterizə olunur. Pedaqoji fəaliyyətdə müəllimin yaradıcılığı yaratdığı yenilikdə, yaradıcı təfəkküründə ifadə olunur.

Gənc nəslin tərbiyəsində, yüksək əxlaqi keyfiyyətlərinin, biliyinin, dünyagörüşünün, bilik dairəsinin, mənəvi dünyasının zənginləşməsində bədii ədəbiyyatın böyük əhəmiyyəti misilsizdir. Bu səbəbdəndir ki, uzaqgörən siyasətçi ədəbiyyata böyük qayğı bəsləmiş və demişdir: "Azərbaycan ədəbiyyatı dünya ölkələrinin estetik inkişafına bariz nümunə olmuş, Avropa və digər ölkələrin ədəbiyyatını yeni ideya, mövzu və süjet baxımından zəngin bir irsə çevirmişdir ".

Heydər Əliyev təhsil və tərbiyə alaraq inkişaf etməyi, gənclərin mühüm vəzifəsi hesab edərək bütün detalları ilə onun təhlilini verir. Fəal həyat mövqeyinin mənimsənilməsi yolunda gənc nəslin vəzifələrini müəyyən edir.

Böyük şəxsiyyət göstərir ki, "fəal mövqe şəxsiyyətin əqidəsini onun iradə zəngliyini, ideya-mənəvi düşüncələrini və keyfiyyətlərini ifadə etmək insana yeni-yeni məsələləri irəli sürüb həll etməkdə, çətin vəziyyətdə özünü itirməməkdə, qətiyyətli hərəkət etməkdə, öz üzərinə məsuliyyət götürməkdə kömək edir". Heydər Əliyevin tərbiyə konsepsiyasında gənc nəslin mənəvi keyfiyyətlərə yiyələnməsi ilə onların gələcək müstəqil həyat tərzinə, müstəqil və sərbəst düşüncəyə, müstəqil quruculuğa, müstəqil dövlətçiliyin bünövrəsinin yaradılmasında iştirak etmək məqsədi daşıyan təşəbbbüskarlığı və hərəkatı başlıca yer tutmuşdur.

Vətənpərvərlik tərbiyəsində gənclər azad, sərbəst, demokratik cəmiyyətin qurulmasında yalnız vasitə kimi nəzərə alınmır, həm də onlar bu cəmiyyətin varisləri, davametdiriciləri kimi qiymətləndirilmişlər. Gənclər gələcəyin aparıcı qüvvəsi hesab edilirlər. Dünya şöhrətli dahi şəxsiyyət Heydər Əliyev demişdir: "Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycan kimi Vətənim olduğuna, Azərbaycanı təmsil etdiyimə görə özümü həmişə xoşbəxt saymışam." [5, s.117]

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Bakı.1999
2. Heydər Əliyev: Təhsil. Bilik. Məktəb. Bakı. Müəllim. 2006
3. Heydər Əliyev: Mənəviyyat .Mənəvi dəyərlər. Mənəvi tərbiyə. Bakı. Müəllim. 2008
4. Naxçıvanlı A. Şəxsiyyətin qüdrəti. Bakı, "Yazıçı" nəşriyyatı, 2012, 304 s.
5. Naxçıvanlı A. Müdriklik zirvəsi. Bakı, "Yazıçı" nəşriyyatı, 2011, 302 s.
6. Səmədov A. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Gəncə, 2008, 534 s.
7. Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. Bakı " Nurlan", 2003, 204 s.

DİLDƏ ALINMA SÖZLƏR VƏ ONLARIN ƏHƏMİYYƏTİ

Şəfa Rabil qızı Hünbətova
Mingəçevir Dövlət Universiteti
shefa.humbetlova@mdu.edu.az

Dünya dilləri içərisində lüğət tərkibi alınma sözlərlə zəngin olan dil İngilis dilidir.

"Başqa dillərdən gələn qonaqlar" və ya alınma sözlər bütün ingilis dilini əhatə edir. İngilis tarixinin gedişində minlərlə söz bir dildən digərinə, əsasən də işğalçıların daimi basqınları ilə keçdi.

Necə oldu ki, əsl sakinləri Keltlər olan bir ölkə öz yerini indi bizə ingilis kimi tanınan dilin keçmiş dilinə verdi? Bu, Britaniya adalarının dəfələrlə basqınlara məruz qalması səbəbindən baş verib. Kənar ölkələrdən soxulmuş hər bir xalq öz dilini, ləhcəsini, adət-ənənələrini ölkəyə gətirirdi.

İşğalçılar ərazilərdə məskunlaşdıqca yerli əhalinin yazı və danışıq dilinə təsir göstərmiş, onlar da öz növbəsində alınma sözləri öz leksikonuna qəbul edərək yeni vəziyyətə uyğunlaşmışlar.

Otto Jespersen "The Development and Structure of English Language" kitabında qeyd edir ki, ingilis dili çoxsaylı işğalçılar tərəfindən Britaniyanın fəth edilməsi nəticəsində yaranan "alınma sözlər zənciri"dir. Əcnəbilər öz dillərini ölkəyə gətirsələr də, ingilislərə tam olaraq onu tətbiq edə bilmədilər.

Əvəzində xarici dillər, bir qazanda olduğu kimi, doğma nitqlə qarışdırıldı. Beləliklə, müxtəlif qruplar bu gün bildiyimiz kimi, yazılı və şifahi ingilis dilinin inkişafına müxtəlif dərəcədə təsir göstərmişlər.

İngiltərənin super güc kimi böyüməsi müəyyən mənada dil sərhədlərinin genişlənməsinə səbəb oldu. Koloniyaların ortaya çıxması insanları daha əvvəl görmədikləri və yeni sözlərə ehtiyac duyduqları şeylərlə tanış etdi. Qarşılaşdıqlarını təsvir etmək üçün kifayət qədər yerli sözlər olmadığından İngilislər onları yalnız yeni sözlərdən istifadə edə bildilər.

Beləliklə, alınma sözlərin dilə daxil olması göstərir ki, iki dil bir-biri üzərində üstünlük təşkil etmək üçün yarışdıqda, uyğunlaşma və qəbuledicilik əsas rol oynayır.

Britaniya adaları dəfələrlə basqınlara məruz qaldı. Kənar ölkələrdən soxulmuş hər bir xalq öz dilini, ləhcəsini, adət-ənənələrini ölkəyə gətirirdi. İşğalçılar ərazilərdə məskunlaşdıqca yerli əhalinin yazı və danışıq dilinə təsir göstərmiş, onlar da öz növbəsində alınma sözləri öz leksikonuna qəbul edərək yeni vəziyyətə uyğunlaşmışlar. Əcnəbilər öz dillərini ölkəyə gətirsələr də, ingilislərə tam olaraq onu tətbiq edə bilmədilər. Əvəzində xarici dillər bir qabda olduğu kimi orijinal nitqlə qarışdırıldı. Beləliklə, müxtəlif qruplar bu gün bildiyimiz kimi yazılı və şifahi ingilis dilinin inki-şafına müxtəlif dərəcədə təsir göstərmişlər.

Elm və texnikanın sürətli inkişafı yeni anlayışları ifadə edən on minlərlə sözün meydana çıxması ilə müşayiət olundu. Bu terminlərin çoxu adi hala çevrilib. Müasir ingilis dilində elmi texniki terminologiyanın çox hissəsi latın və yunan köklərindən götürülüb. Onlar elmin bütün sahələrində geniş yayılmışdır, xalq nitqində də istifadə olunur. Misal üçün:

- Texnologiya sahəsindən: radiator, transmission, engine, airplane, hydroplane, frequency, antenna, radius, radio və s.
- Tibb sahəsindən: anemia, appendicitis, bronchitis, aspirin, insulin, antibiotics və s.
- Fizika sahəsindən: atom, calorie, the quantum, theory, energy və s.

Bütün alınma sözləri iki qrupa bölmək olar: əsaslandırılmış və əsassız.

Bəzi yeni elementlər dünyamıza daxil oldu və buna uyğun olaraq dildə onları bildirən sözlər meydana çıxdı. Əsasən, əsaslı alınmalara tibb, elm və texnologiyada rast gəlinir. Bu cür sözlər "sıxlıq" yaratmır, əksinə, dilimizi zənginləşdirir, müasir reallığa yaxınlaşdırır. Dilimiz tərəfindən hələ semantik şəkildə mənimsənilməmiş ingilis dili lüğətindən bir neçə nümunə var. Bununla belə, bu anglikizmlərə uyğun gələn reallıqlar xarici ölkə mədəniyyətində baş verir və bizim reallığımızda mütləq faydalı olacaq [15, səh.281].

Office ghost - ofis xəyalı - iş yerində mövcud olan, lakin əslində onun vəzifələrini başqaları yerinə yetirən hiyləgər ofis işçisi; digital immigrant - rəqəmsal immiqrant - yetkinlik dövründə İnternetlə tanış olan şəxs; bus look - avtobus görünüşü - ictimai nəqliyyatda olarkən görünən üz

ifadəsi; chairdrobe - qarderob kreslosu - qarderob kimi fəaliyyət göstərən stul; coffee face - qəhvə üzü - səhər qəhvə içməyə hələ vaxtı olmayan insanın qorxulu siması.

Əsassız alınma sözlər, bu anlayışı ifadə edən sözlər artıq dildə mövcud olmasına baxmayaraq, müəyyən bir anlayışın tərifinin sinonimi kimi bir dilə xarici dildən daxil olan (və orada istifadə olunan) sözdür.

Hətta öz ana dilini yaxşı bilən əcnəbilər də mətbuatda, jurnallarda, kitablarda, reklamlarda əcnəbi sözlərin çoxluğuna təəccüblənirlər. Hazırda bir çox xarici dillərin barbarlaşması, yəni dildə ekvivalenti olan əcnəbi sözlərin nitqinə nüfuz etməsi prosesi gedir. Bir sıra qəzet materiallarını, televiziya aparıcılarının və müxbirlərinin çıxışını təhlil etdik və məlum oldu ki, başlıqlarda ən çox ingilis mənşəli sözlərdən istifadə olunur:

- musiqi haqqında məqalələr (soundtrack, showman, show, mainstream, VJ, DJ və s.);

idman məqalələri (athlete, football, tennis, diving, boxing, badminton, cross country, penalties və s.). İdman sahəsinə aid sözlərin çoxu kök salıb, hamı başa düşür və çoxları bu sözlərin bizə ingilis dilindən gəldiyini ağlına belə gətirmir;

- elm və texnologiya haqqında məqalələr (byte, blog, browser, laser, quark, gadget və s.).

Beləliklə, ingilis dilində həm əsaslı, həm də əsassız alınma sözlərin olduğunu görürük.

Dilin dəyişmə istiqaməti həmişə vəziyyətə istinad edən ən təsirli amillərlə şərtlənir (Sapir 158). Nümunə üçün deyək ki, satıcı müştəri etibarını qazanmaq və loyallığa əsaslanan müştəri münasibətlərini inkişaf etdirmək üçün alıcıların dilinə keçməyə meyllidir. Bu vəziyyət bəşər tarixində Asiya ölkələrində çoxsaylı satıcıların müştərisi olan səyyar tacirlərin öz yerli dillərinə bəzi roma qrup dili sözlərini daxil etdikləri zaman müşahidə edilmişdir (Sapir 158).

Məsələn, müasir yüzlərlə dildə müxtəlif fonetik variasiyaları ilə çox yayılmış bank sözü əslən İtaliyadan gəlir və ibrani tacirləri tərəfindən Avropadan əsas ticarət yolu daxilində yerləşən ölkələrin bütün ərazisində yayılmışdır. (Sapir 168).

Dilin dəyişməsi prosesi istər-istəməz şərtləşmə prosesi ilə bağlıdır. Kemmer şərtiləşdirməni "sözün getdikcə daha geniş və daha geniş nitq cəmiyyətinə nüfuz etdiyi tədricən proses" kimi müəyyən edir (5). Konvensionallaşma prosesinin nəticəsi sözün borcalanları cəmiyyətinin qavrayışına uyğun olaraq mənbə dillə əlaqələrin tamamilə itməsidir (Kemmer 5).

İngilis dilində dilçilər, dil müəyyən bir mədəniyyət və onun dilinin təsirinə məruz qaldıqda və yeni sözləri aktiv şəkildə qəbul edərkən konvensionallaşmanın bir çox dövrlərini fərqləndirmişlər (Kemmer p.2) İngilis dili üçün konvensionallaşdırmanın nəticəsi onun müasir insanlar tərəfindən tanınan az və ya çox sabit versiyasının yaradılmasıdır (Kemmer p. 12)

Vinford-a görə, aşağıdakı şərhdən göründüyü kimi, üç növ dil təmas vəziyyəti mövcuddur: "Ümumiyyətlə, üç geniş təmas vəziyyətini ayırd edə bilərik:

- dilin saxlanması ilə əlaqəli olanlar,
- dil dəyişikliyi ilə əlaqəli olanlar,
- yeni təmas dillərinin yaranmasına gətirib çıxaranlar" [11, səh.25,38].

Bu müəllif dil təmas situasiyalarının üç əsas növünü ayırsa da, o, aydınlıq gətirir ki, çoxsaylı situasiyalarda təmas situasiyasının tipini ayırd etmək çətindir və bəzən təmas vəziyyətlərində birdən çox təmas tipinin xüsusiyyətləri ola bilər. (Winford p.11).

Alınma sözlər terminini mənbə dildən sözlərin mənimsənilməsi prosesi kimi izah etmək olar. Beləliklə, alınmalar iki fərqli dil qrupu arasında mədəni əlaqənin nəticəsidir. Nümunə üçün qeyd edək ki, alman tayfaları Latın mədəniyyəti ilə tanış olduqdan sonra latın dilindən çoxsaylı sözləri qəbul etdilər. Alınmaların xarakteri aşağı və yuxarı dillərə təsir edən çoxsaylı amillərlə izah olunur.

Alınmaların sayı çoxdur, ancaq bir sözlə dəqiqliklə hesablamaq hələ də mümkün deyil. Bunun səbəbləri əcnəbi sözlərin daim artması və dilə sonsuz daxil olması, həmçinin assimilyasiya prosesidir ki, bununla əlaqədar sözün mənşəyini müəyyən etmək kifayət qədər çətindir. Bu proses əcnəbi sözlərin alınma dil tərəfindən aktiv şəkildə qavranılması nəticəsində baş verir, çünki o, sözü dil sistemində ən əlverişli mövqe üçün yenidən düzəldir. Müəyyən bir alınma sözdə mövcud olan bütün fonemlər eşitmə qavrayışı üçün ən uyğun olan fonemlərlə əvəz olunur, sözün qrammatik quruluşu da dəyişir, çünki təqdim olunduqda ingilis dilinin morfoloji sisteminə daxil edilir. Bundan əlavə,

söz dilin semantik sisteminə daxildir və buna görə də eyni vaxtda bir neçə məna verə bilər və ya hətta ilkin mənasını itirə bilər. Sözlərin alınma prosesində sinonim cütləri, yəni alınma söz və dildə artıq mövcud olan söz əmələ gəlir. Bu sinonim cütlərinin toqquşması bəzən müxtəlif nəticə-lərə malik sözdə mübarizə ilə nəticələnirdi. Bəzi hallarda hər iki söz dildə qaldı, bəzilərində ya alınma ilkin sözü əvəz etdi, ya da ki, əksinə. Çox vaxt fransız dilindən alınmalar ingilis dilində asanlıqla kök saldı, məsələn beorz (indi istifadə edilmir) - "dağ" sözü fransızca montagne sözü ilə əvəz olundu. Bununla belə, əsrlər əvvəl götürülmüş sözlər artıq tamamilə assimilyasiya prosesindən keçmişdir və buna görə də yad sözlər kimi qəbul edilmir.

Alınmaların tətbiqi əksər hallarda müstəqil şəkildə, eləcə də digər dillərin köməyi ilə həyata keçirilir (məsələn: bir çox yunan sözləri ingilis dilinə latın dilinin köməyi ilə daxil olmuşdur).

Alınmaları təqdim etməyin üç əsas yolu var: transkripsiya, izləmə və transliterasiya.

Transkripsiya alınmaların fonetik üsuludur, yəni. söz başqa dilə keçdikdə onun səs forması qorunur (məs. restaurant).

İzləmə, tərkib hissələrinin (morfemlərin) alınma dildəki ekvivalentləri ilə əvəz edildiyi sözlə-rin alınma üsuludur (məsələn, Miniskirt "mini yubka", suicide "intihar"). İzləmə prosesində alınma sözün hissələri əcnəbi sözə bənzər şəkildə birləşir.

Transliterasiya zamanı sözün yazılışı alındı, alınma sözdəki hərflər xarici dil hərfləri ilə əvəz olunur və buna görə də söz alınma dilinin bütün qaydalarına uyğun oxunmağa başlayır (məsələn, : hotel, zebra, sport).

Buradan belə nəticəyə gəlmək olar ki, bir çox əcnəbi sözlər dilin qrammatik, fonetik və semantik xüsusiyyətlərinə uyğunlaşaraq alınma prosesində müəyyən dəyişikliklərə məruz qalır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Arbekova T.İ. İngilis dilinin leksikologiyası. M. 2010.
2. Ayto, J. (2007). Yeni sözlər əsri. Oxford: Oxford University Press.
3. Brunner K. İngilis dilinin tarixi. - M., 1956.
4. Cəfərov M.Z. Dilimiz və terminologiyamız. // Terminologiya məsələləri, Bakı: Elm, 1984
5. Qarayev A.H.Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar. Bakı: Azərbaycan Universiteti, 1989
6. Xarici söz və ifadələr lüğəti, M.; AST nəşriyyatı, 1998

HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI: QARDAŞLIQ VƏ STRATEJİ ƏMƏKDAŞLIQ

Kənan Polad oğlu Abbasov
Mingəçevir Dövlət Universiteti
kenan.abbasov@mdu.edu.az

Giriş

Ortaq tarix, dil, din və mədəni dəyərlər əsasında qurulan türkdilli xalqlar arasındakı birlik ideyası illər keçdikcə daha strateji xarakter almışdır. Bu ideyanın həyata keçməsində isə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rolu əvəzsiz olmuşdur. O, bu əlaqələrin inkişafını yalnız tarixi yaxınlıqla deyil, həm də qarşılıqlı maraqlar üzərində qurulmalı olan bir strateji xətt kimi dəyərlən-dirirdi [1].

Onun Türk dünyasına dair baxışları sırf emosional təəssüratlara deyil, real əməkdaşlıq imkan-larına əsaslanırdı. Xüsusilə təhlükəsizlik, enerji, nəqliyyat və mədəni sahələrdə ortaq fəaliyyətin genişləndirilməsi onun başlıca məqsədlərindən biri idi [2].

Heydər Əliyevin Türk dünyası ilə bağlı strateji yanaşması

Heydər Əliyevin çıxışlarında Türk dövlətlərinin birliyinə dair fikirlər xüsusi yer tuturdu. Onun yanaşmasına görə, bu xalqların bir araya gəlməsi həm təbiidir, həm də zəruridir. O hesab edirdi ki, türkdilli ölkələri yalnız ortaq tarix deyil, qarşılıqlı strateji maraqlar da birləşdirir [3].

Müstəqillik dövrünün başlanğıcında Heydər Əliyev türkdilli ölkələrlə diplomatik münasibətlərin qurulmasını xarici siyasətin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdi. Bu qarşılıqlı münasibətlər sonradan çoxtərəfli əməkdaşlıq istiqamətində daha da inkişaf edərək, yeni layihələrə təkan verdi. 1992-ci ildən etibarən keçirilən zirvə görüşləri onun təşəbbüsü ilə daha sistemli xarakter aldı və bu görüşlərin nəticəyönümlü olmasına çalışıldı [4].

1998-ci ildə Astanada baş tutan görüşdə onun səsləndirdiyi fikirlər gələcək inteqrasiyanın əsas prinsiplərini ehtiva edirdi [5].

Siyasi əməkdaşlıq və regional sabitlik

Ulu Öndərin baxışlarına görə, Türk dövlətləri ilə qurulan əməkdaşlıq mədəni bağlardan daha çoxunu əhatə etməli və regionda təhlükəsizlik və sabitliyə töhfə verən ciddi mexanizm rolunu oynamalı idi. Azərbaycanı beynəlxalq təcriddən çıxarmaq və regionda güvənə əsaslanan münasibətlər qurmaq onun əsas xarici siyasət prioritetlərindən biri idi [6].

Heydər Əliyev Mərkəzi Asiya dövlətləri ilə siyasi dialoqu dərinləşdirməyə və çoxtərəfli formatda əməkdaşlıq mexanizmləri vasitəsilə ümumi maraqlar əsasında vahid mövqe yaratmağa çalışırdı. [4].

Bu əməkdaşlıq Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycanın haqlı mövqeyinin Türk dövlətləri tərəfindən tanınmasına da imkan yaratdı. Türkiyənin Ermənistana qarşı sərhədləri bağlaması bu həmrəyliyin real təzahürü kimi dəyərləndirilə bilər [7].

Heydər Əliyev daim vurğulayırdı ki, sabitliyin əsas yolu qarşılıqlı anlaşma və sülhün qorunmasıdır. Onun bu mövqeyi Türk dövlətləri arasında etimad mühitinin formalaşmasına səbəb olmuşdur [5].

İqtisadi əməkdaşlıq və enerji sahəsində strategiya

Enerji infrastrukturu üzrə həyata keçirilən layihələr türkdilli ölkələr arasında iqtisadi inteqrasiyanın əsas hərəkətverici qüvvələrindən biri olmuşdur. Heydər Əliyev bu sahədə irəli sürdüyü təşəbbüslərlə regionda yeni əməkdaşlıq imkanlarının əsasını qoymuşdur. Bakı-Tbilisi-Ceyhan boru kəməri isə bu prosesin strateji təzahürüdür. [8]

Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin reallaşdırılması, Heydər Əliyevin iqtisadi inteqrasiyaya yönəlik baxışının davamı olaraq, türkdilli ölkələr arasında fiziki bağların yaradılmasına xidmət etdi. [9]

Mədəni-humanitar əməkdaşlıq

Heydər Əliyev mədəni əlaqələrin gücləndirilməsini siyasi və iqtisadi inteqrasiyanın təməl dayaqlarından biri hesab edirdi. Onun təşəbbüsü ilə türkdilli ölkələrin mədəniyyət nazirlikləri arasında əlaqələr quruldu, ortaq tarix və ədəbiyyatın öyrənilməsinə dair layihələr həyata keçirildi [10].

Bakıda və digər şəhərlərdə keçirilən tədbirlər Türk xalqlarının bir-birini daha yaxından tanımasına və ortaq mədəni irsə sahib çıxmasına töhfə verdi. Ulu öndər dəfələrlə bildirirdi ki, Azərbaycan Türk dünyasının ayrılmaz hissəsidir və bu mənsubiyyət gələcək nəsillərə ötürülməlidir [11].

Heydər Əliyev irsinin davamı və Türk Dövlətləri Təşkilatı

Bu gün Heydər Əliyevin ideyaları Azərbaycan xarici siyasətində uğurla həyata keçirilir. Azərbaycanın hazırkı lideri İlham Əliyev bu siyasi xətti yeni mərhələyə daşıyaraq, Türk dövlətləri ilə əlaqələrin həm genişlənməsi, həm də institusional gücləndirilməsi istiqamətində mühüm addımlar atır. [12]

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2009-cu ildə təsis olunması və 2021-ci ildən etibarən Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirməsi, Heydər Əliyevin inteqrasiya ideyalarının konkret nəticələr verməsinin bariz nümunəsidir.

Bu gün Azərbaycan bu təşkilat çərçivəsində nəqliyyat, enerji, rəqəmsal texnologiyalar və təhlükəsizlik sahələrində fəal iştirak edir. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı Türk dövlətlərinin Azərbaycana verdiyi siyasi dəstək bu birliyin nə qədər güclü olduğunu sübut etdi [10].

"Orta Dəhliz" layihəsi də bu əməkdaşlığın daha da dərinləşməsinə xidmət edir və Heydər Əliyevin strateji baxışlarının reallaşmasının göstəricisidir [8].

Nəticə

Heydər Əliyevin Türk dünyasına dair baxışları sadəcə keçmişə yönəlik ideal deyil, real və gələcəyə hesablanmış strateji xətt idi. Bu gün onun irsi Türk dövlətləri arasında qurulan əməkdaşlıq platformalarının əsasını təşkil edir. Bu əməkdaşlıq platformasında Azərbaycan həm strateji təşəbbüslərlə çıxış edən ölkə, həm də proseslərə yön verən əsas iştirakçılardan biridir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abbasov, Ə. Heydər Əliyev və Türk dünyası. Bakı: Elm, 2013.
2. Əliyev, H. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 1997.
3. Əhmədov, V. Heydər Əliyev və milli ideologiya. Bakı: Lider, 2005.
4. Hacıyev, R. Türk dövlətləri ilə əməkdaşlığın geosiyasi aspektləri. Bakı: Qanun, 2015.
5. İsmayılov, E. Heydər Əliyev: Diplomatiya və təhlükəsizlik. Bakı: Şərq-Qərb, 2006.
6. Məmmədova, T. Azərbaycan-Türkiyə münasibətləri: tarixi və müasir mərhələ. Bakı: Adiloğlu, 2018.
7. Muradov, S. Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq. Bakı: Hüquq, 2011.
8. Rzayev, İ. Enerji layihələri və Türk dünyası. Bakı: Nurlan, 2010.
9. Sadıqov, R. Azərbaycanın enerji strategiyası və beynəlxalq əməkdaşlıq. Bakı: Elm və Təhsil, 2012.
10. Zeynalov, S. Mədəniyyət körpüsü: Heydər Əliyev və Türk xalqları. Bakı: Təhsil, 2012.
11. Zülfüqarov, T. Türk dünyasının siyasi mədəniyyəti və Heydər Əliyev. Bakı: Çıraq, 2017.
12. Əliyeva, L. Türkdilli ölkələrin inteqrasiyası: perspektivlər və çağırışlar. Bakı: Politoloq, 2020

ULU ÖNDƏRİN TARİXİ XİDMƏTLƏRİ: SİLAHLI QÜVVƏLƏRİN MODERNLƏŞDİRİLMƏSİ VƏ GÜCLƏNDİRİLMƏSİ. (1993-1995-Cİ İLLƏR)

İndira Ocaqqulu qızı Vəliyeva
Bakı Dövlət Universitetinin Qazax filialı
Əməkdar müəllim
indirasemedova7@gmail.com

Heydər Əliyev 1993-cü ildə prezident seçiləndən sonra bütün əsas diqqətini ordu quruculuğuna yönəltdi. Milli ordu bərbad vəziyyətdə idi və hərbi hissələr ayn-ayrı siyasi qrupların təsiri altına düşmüşdü. Ordunun silah-sursat, geyim və ərzaqla təminatı yarıtmaz vəziyyətdə idi. Dövlətimizin qarşısında duran əsas vəzifə Müdafiə Nazirliyinə tabe olmayan və döyüş qabiliyyəti aşağı səviyyədə olan nizam-intizamsız hərbi hissələri ləğv etməkdən və güclü nizami ordu yaratmaqdan ibarət idi [2].

1993-cü il noyabrın 1-də xalqımızı ordu quruculuğu məsələlərinə səfərbər etmək üçün Dövlət Müdafiə Şurası yaradıldı. Ordu quruculuğunda atılan məqsədyönlü addımlar nəticəsində köhnə 33 batalyon ləğv edildi və əvəzində yeni milli ordu hissələri yaradıldı. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Kəlbəcərin işğalı ilə bağlı 1993-cü il 30 aprel tarixli 822 saylı, Ağdamın işğalı ilə bağlı 29 iyul tarixli 853 saylı, Fizuli, Cəbrayıl və Qubadlının işğalı ilə bağlı 14 oktyabr tarixli 874 saylı və Zəngilanın işğalı ilə bağlı 11 noyabr tarixli 884 saylı qətnamələrində təcavüzkar ordunun işğal olunmuş Azərbaycan ərazilərindən tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Həmin 4 qətnaməni qətiyyən saya salmayan Ermənistanın silahlı qüvvələri 1993-cü ilin noyabr ayının ortalannda bütün cəbhə xətti boyu yenidən hücum əməliyyatlarına başladı. İşğalçılar bu zaman artıq Azərbaycan ordusunun ciddi müqaviməti ilə rastlaşdılar [4].

1993-cü il dekabrın ortalarında milli ordumuz düşmənin Beyləqan istiqamətində tank hücumunun qarşısını aldı və onun yeddi tankını məhv etdi. Azərbaycan döyüşçüləri əks-hücuma keçərək 30 km irəlilədilər. 1994-cü il yanvarın 5-də milli ordumuz uğurlu hərbi əməliyyatlar nəticəsində Füzuli rayonunun strateji əhəmiyyətli Horadiz qəsəbəsini və 22 kəndi düşməndən azad etdi və

hücumu genişləndirərək Cəbrayıl və Kəlbəcər rayonlarının 10-dan çox kəndini murdar düşməndən təmizlədi.

Ümumiyyətlə, 1993-cü ilin dekabr - 1994-cü ilin yanvar aylannda aparılan hərbi əməliyyatlarda qəhrəman döyüşçülərimiz tərəfindən xain düşmənin 4 min əsgər və zabiti, 50 zirehli texnikası və 15 artilleriya qurğusu məhv edilmişdi [2].

Cənubi Qafqaz bölgəsində öz mövqeyini qoruyub saxlamağa çalışan Rusiya tərəfindən hərbi cəhətdən gücləndirilmiş Ermənistanın silahlı qüvvələri 1994-cü ilin fevralında Azərbaycanın Kəlbəcər istiqamətində uğurla həyata keçirməyə başladığı "Murovdağ" əməliyyatının qarşısını ala bildi. Rusiyanın köməyilə Azərbaycana alçaldıcı sülh sazişi imzalatmaq üçün Ermənistan 1994-cü il aprelin 10-da bütün cəbhə boyu hücuma keçərək Ağdam rayonunun daha 18 kəndini və Ağdərə bölgəsində bir neçə kəndi işğal etdi. Azərbaycan bölgəyə əlavə qüvvələr yeritməklə Bərdə şəhəri üçün yaranmış təhlükəni aradan qaldırdı və düşmənin hücumları dayandırıldı. Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında 1994-cü il mayın 8-də Bişkek protokolu imzalandı və bu sənədə əsasən 1994-cü ilin may ayının 12-də iki dövlət arasında atəşkəs elan olundu [1]. O vaxtdan respublikamızın ərazi bütövlüyünün sülh və danışıqlar yolu ilə təmin olunmasını nəzərdə tutan çox çətin və uzunsürən atəşkəs dövrü başladı. 1994-1995-ci illərdə prezident Heydər Əliyev tərəfindən respublikada qanuni dövlət hakimiyyətinin bərqərar edilməsi və siyasi sabitlik yaradılması istiqamətində qətiyyətli addımlar atılmışdır [1].

Respublikada siyasi sabitliyi pozmaq istəyən baş nazir Surət Hüseynov Əlikram Hümbətov və Rəim Qazıyevlə qüvvələrini birləşdirərək, hələ 1993-cü ilin sentyabrında Bakıya hücum planı hazırlamışdı. Əsas məqsəd Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırmaq idi. Baş nazirin himayədarlığı ilə Azərbaycanın qərb rayonlarında qanunsuz hərbi qruplar da yaradılmışdı. 1994- cü ilin oktyabrın 4-də Gəncədə Baş nazir S.Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı şəxs şəhər icra hakimiyyətinin binasını və digər strateji obyektləri ələ keçirmişdi.

Bakıda da S.Hüseynovla bağlı olan bir qrup hərbçi artilleriya qurğuları ilə Prezident sarayını və digər strateji obyektləri nişan alaraq əmr gözləyirdi. Oktyabrın 4-nə keçən gecə Heydər Əliyevin müraciəti ilə on minlərlə adam Prezident sarayı qarşısına toplaşaraq, müstəqil dövlətçiliyimizin müdafiəsinə qalxdı. Hakimiyyət orqanlarının gördüyü qətiyyətli tədbirlər nəticəsində Gəncədə qiyam yatırıldı və dövlət çevrilişinə cəhdin qarşısı alındı. S.Hüseynov isə baş nazir vəzifəsindən uzaqlaşdırıldı.

Daxili işlər nazirinin müavini Rövşən Cavadova tabe olan xüsusi təyinatlı polis dəstəsinin əməkdaşları 1995-ci ilin martın 12-də Ağstafa və Qazax rayonlarında qiyam qaldıraraq dövlət idarələrini zəbt etdilər. Respublika prezidentinin xüsusi təyinatlı polis dəstəsinin ləğv edilməsi haqqında fərmanını yerinə yetirmək istəməyən xüsusi təyinatlılar 1995-ci il mart ayının 16-dan 17-nə keçən gecə R.Cavadovun başçılığı ilə Bakının "8-ci km" qəsəbəsindəki bazasından Prezident sarayını və digər strateji obyektləri ələ keçirmək üçün hərəkətə keçdi. Lakin hökumət qüvvələrinin çevik hərbi əməliyyatı nəticəsində dövlət çevrilişi cəhdinin qarşısı növbəti dəfə uğurla alındı. Heydər Əliyevin barışmaz mövqeyi və qətiyyətli addımları nəticəsində 1995-ci ildə artıq respublikada bir dənə də olsun, qeyri-qanuni silahlı dəstə qalmamış və ölkədə tam siyasi sabitlik təmin edilmişdi [3].

Heydər Əliyevin ordu quruculuğu sahəsində gördüyü tədbirlər nəticəsində hal-hazırkı Azərbaycan ordusu formalaşdı və dünyanın qalib çalmış orduları sırasına daxil oldu.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abdullayev M. Azərbaycan tarixi. Bakı, Bakı Universiteti, 2014, 380 s.
2. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 1-ci cild. Bakı –2013, 632 s.
3. Qəniyev H. Azərbaycan tarixi. Bakı, Elm və təhsil, 2019, 499 s.
4. Mahmudov Y. II cilddə. I cild. Bakı, Turxan, 2013, 500 s.

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU

Elvin İsa oğlu Cəfərli
Azərbaycan Dillər Universiteti
elvinjafarli94@gmail.com

XX əsrin sonlarında və XXI əsrin əvvəllərində dünya siyasətində baş verən fundamental dəyişikliklər fonunda Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək, ölkənin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasını təmin etmək kimi çətin vəzifələr qarşıda dururdu. Bu mürəkkəb tarixi mərhələdə Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi, siyasi iradəsi və zəngin dövlətçilik təcrübəsi Azərbaycanın xarici siyasət kursunun müəyyənləşdirilməsində və həyata keçirilməsində həlledici rol oynamışdır. Heydər Əliyevin rəhbərliyi ilə formalaşan xarici siyasət kursu milli maraqlara əsaslanan, balanslaşdırılmış, praqmatik və çoxşaxəli xarakter daşıyırdı. Bu siyasət ölkənin suverenliyinin və ərazi bütövlüyünün təmin olunması, beynəlxalq təcriddən çıxaraq regional və qlobal inteqrasiyanın gücləndirilməsi, xarici investisiyaların cəlbi və enerji resurslarının dünya bazarına çıxarılması kimi strateji məqsədlərə xidmət edirdi. Bu məqalədə Heydər Əliyevin xarici siyasət konsepsiyasının əsas prinsipləri, onun həyata keçirilməsi mexanizmləri, regional və beynəlxalq səviyyədə yaratdığı əməkdaşlıq formatları, həmçinin bu kursun çağdaş Azərbaycan diplomatiyasında davam etdirilməsi məsələləri təhlil olunacaqdır. Məqsəd, Heydər Əliyevin xarici siyasət kursunun Azərbaycan dövlətçiliyinin inkişafında oynadığı tarixi rolu və onun geosiyasi əhəmiyyətini elmi əsaslarla araşdırmaqdır. [1, s.65-71]

Xalqımızın taleyində Ulu öndər Heydər Əliyev böyük bir idarəçilik və siyasi rəhbərlik məktəbi yaratmışdır ki, onun layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin əldə etdiyi uğurları bunun bariz nümunəsidir. Təsadüfi deyildir ki, fitri istedadlar ən çətin vaxtlarda üzə çıxır. Ulu Öndər ölkəmizin ən çətin vaxtında Prezident seçildi və ilk olaraq ölkəmizin daxili siyasətindəki hərc-mərciliyi uğurla aradan qaldırdı. Bu zaman Ermənistan torpaqlarımızı işğal edirdi. Ordunu gücləndirən Ulu Öndər ilk növbədə xarici siyasətdə Azərbaycana qarşı aparılan qara piar kampaniyasının qarşısını uğurla aldı. Dahi şəxsiyyət ölkədə ordu, xalq və hakimiyyət birliyi yaratdı, 1994-cü ildə atəşkəsə nail oldu. Atşəskəş dövründə dövlətimiz həm siyasi, həm də hərbi cəhətdən daha da gücləndi. Təsadüfi deyildir ki, Ermənistanın dünyaya təbliğ etdiyi "Azərbaycan Ermənistan torpaqlarını işğal edir" kimi yanlış təbliğatı dayandırdı. Ulu Öndərin ən böyük qələbəsinin iki bariz sübutu kimi ABŞ konqresində qəbul edilən 907-ci düzəlişin dayandırılmasını və 1994-cü ildə 8 ölkə və 13 şirkət tərəfindən imzalanan "Əsrin müqaviləsi"ni göstərə bilərik. Bunlar həm də dünya ictimaiyyətində erməni diasporunun təbliği nəticəsində Azərbaycana qarşı yaranan etimadsızlığı məhv etdi. Ölkəmiz Ulu Öndərin səyi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq qonşu dövlətlərlə mehriban dostluq münasibətləri yaradırdı. Azərbaycanın xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri onun balanslaşdırılmış xarakter daşıması ilə səciyyələnməsidir. Ölkəmizin geosiyasi vəziyyəti və üzləşdiyi problemlər xarici siyasət kursunda müəyyən tarazlığı gözləməyi, Azərbaycanın manevr imkanlarını saxlamağı və regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadə etməyi zəruri edirdi. Azərbaycan Prezidenti Heydər Əliyevin xarici ölkələrə səfərləri, həmin ölkələrin dövlət başçıları, digər rəhbərləri və iş adamları ilə keçirdiyi məhsuldar görüşlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə təkan vermiş, onun keyfiyyətcə daha yüksək mərhələyə qədəm qoymasına münbit şərait yaratmışdır. [2, s.86-94]

Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında fəal təmsilçilik açıq və demokratik cəmiyyət quruculuğu yolu ilə sürətlə addımlayan müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasında bu gün də aparıcı istiqamətlərdən birini təşkil edir. Ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Bu təşkilatlarla siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri çoxşaxəli xarakter daşımaqla Azərbaycanın milli maraqlarının daha dolğun şəkildə ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlmişdir.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunun davamlılığını təmin edən Prezident İlham Əliyevin yüksək diplomatik məharəti sayəsində Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Bu gün dünyanı narahat edən bir sıra məsələlərdə böyük dövlətlərin başçıları Azərbaycanın – onun rəhbərinin mövqeyi ilə hesablaşırlar. Avropa və Asiyanın qovuşuğunda yerləşən mühüm geostrateji məkan kimi Azərbaycan regionda sülhün və sabitliyin təmin olunması üçün dayaq nöqtəsi kimi ən perspektivli tərəfdaş hesab edilir. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz. [3, s.55-59]

Müstəqilliyini bərpa etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin uğurla həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edib.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi Böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir. [5, s.66-74]

Ümummilli lider Heylər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan, 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ ilə dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində fəal əməkdaşlıq etmək imkanı qazandı.Bu baxımdan Azərbaycanın NATO ilə əməkdaşlığı sonrakı dövrdə də ildən-ilə yeni keyfiyyət almış, NATO mütəxəssisləri Azərbaycan Ordusunun modernləşdirilməsi üçün ölkəmizə müntəzəm olaraq texniki və təlim xarakterli yardım edib. Siyasi və iqtisadi cəhətdən durmadan inkişaf edən Azərbaycanda hərbi quruculuğun da yüksək səviyyədə olmasını artıq hamı etiraf edir. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının NATO standartları səviyyəsində yenidən qurulması isə bilavasitə Ümummilli liderimiz Heydər Əliyevin Brüsseldə imzaladığı məlum sənədin icrası nəticəsində mümkün oldu. Bununla yanaşı, Azərbaycan çoxtərəfli Trans-Atlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində, eləcə də onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhfə verir.

Bunun ardınca 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandı. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmi-

yyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüququ baza rolunu oynayır. Müqaviləni imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1999-cu il iyunun 22-dən qüvvəyə minən və Ümummilli lider Heydər Əliyevin imza atdığı bu saziş tərəflər arasında yüksək səviyyəli əməkdaşlığın təşəkkül tapmasını təsdiqləyir.

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də məhz Avropa Şurasıdır. 1996-cı il iyunun 26-28-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) növbəti sessiyası zamanı Assambleyanın Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul etdi. "Xüsusi dəvət edilmiş qonaq" statusu alması Azərbaycanın AŞPA-da təmsil olunmasına və Avropa Şurası tərəfindən qəbul olunmuş bəzi konvensiyalara qoşulmasına imkan yaratdı. Daha sonra Ümummilli lider Heydər Əliyevin 1996-cı il 8 iyul tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" Sərəncamı Avropa Şurası ilə ölkəmizin sonrakı illərdə fəaliyyət planı kimi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar Ümummilli Liderin uzaqgörən xarici siyasətinin və bu istiqamətdə görülmüş məqsədyönlü fəaliyyətinin nəticəsi idi. Az sonra yəni, yanvarın 25-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirildi və dövlətimizin üçrəngli bayrağı ucaldıldı. Bu hadisəni ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirərək dedi: "Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır" .[9, s.36-42]

Ümumiyyətlə, Heydər Əliyevin bu dövrdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüşdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə, ATƏT-in, NATO-nun, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində Ermənistan-Azərbaycan münaqişəsi həlli məsələləri müzakirə olunduHeydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər respublikamız üçün həlledici oldu. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilərək, Azərbaycan dünya birliyinə qovuşdu. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etməsi mühüm əhəmiyyət kəsb edirdi. Həmin illərdə çox ciddi islahatlar aparıldı. Belə ki, bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil edərək Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması geniş vüsət aldı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə formalaşan xarici siyasət kursu müasir Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasının əsasını qoymuşdur. Bu kursun əsas xüsusiyyəti milli maraqlara əsaslanması, çevik və balanslaşdırılmış yanaşmanı rəhbər tutması, geosiyasi reallıqları və beynəlxalq güc mərkəzləri ilə münasibətlərin zərurətini dəqiq qiymətləndirməsi ilə səciyyələnir. Heydər Əliyevin xarici siyasəti Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün qorunması, beynəlxalq hüququn prinsiplərinə əsaslanan ədalətli mövqe nümayiş etdirməsi, regionda və qlobal müstəvidə etibarlı tərəfdaş imici qazanması ilə nəticələnmişdir. Bu siyasət çərçivəsində BMT, ATƏT, İƏT, GUAM, Avropa Şurası və digər beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq qurulmuş, həmçinin enerji siyasəti vasitəsilə Azərbaycanın geosiyasi əhəmiyyəti daha da artırılmışdır.Xüsusilə neft strategiyası çərçivəsində gerçəkləşdirilən beynəlxalq layihələr – Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri – Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunmasında və Avropanın enerji təhlükəsizliyində əsas aktora çevrilməsində həlledici rol oynamışdır. Bu baxımdan, xarici siyasət energetika, iqtisadiyyat və təhlükəsizlik sahələrində məqsədyönlü inteqrasiya siyasətinə çevrilmişdir. Eyni zamanda Heydər Əliyev diplo-

matiyasının ən mühüm istiqamətlərindən biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyinin beynəlxalq aləmdə tanıdılması və hüquqi əsaslarla dəstəklənməsi olmuşdur. O, diplomatik vasitələrlə ölkənin haqlı mövqeyini beynəlxalq ictimaiyyətə çatdıraraq münaqişənin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə çalışmışdır. Bütün bu istiqamətlər göstərir ki, Heydər Əliyevin xarici siyasət kursu yalnız keçmişin uğurlu modeli deyil, həm də bu gün Azərbaycan dövlətinin xarici siyasətində davam və inkişaf etdirilən strateji xəttdir. Onun müəyyənləşdirdiyi xarici siyasət prinsipləri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycanın beynəlxalq nüfuzunu möhkəmləndirmiş, regional liderliyini və qlobal təşəbbüskarlığını təmin etmişdir.

Beləliklə, Heydər Əliyevin xarici siyasət kursu həm strateji baxımdan uzaqgörən, həm də praktiki nəticələr baxımından uğurlu dövlətçilik nümunəsidir və bu siyasət Azərbaycanın müstəqil, güclü və sabit dövlət kimi inkişafında əsas dayaqlardan biri olmuşdur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, H. (2000). *Müstəqilliyimiz əbədidir*. Bakı: Azərbaycan nəşriyyatı.
2. Əliyev, H. (2004). *Zaman və biz*. Bakı: Azərnəşr.
3. Alıyev, İ. (2011). *Qarabağ münaqişəsi: tarixi və hüquqi aspektlər*. Bakı: Hüquq ədəbiyyatı.
4. Cornell, S. E. (2011). *Azerbaijan Since Independence*. New York: M.E. Sharpe.
5. Hacıyev, T. (2010). *Heydər Əliyev və Azərbaycanın xarici siyasətində Avropa inteqrasiyası*. Bakı: Şərq-Qərb nəşriyyatı.
6. Kazimov, R. (2019). *Azərbaycanın xarici siyasəti və beynəlxalq təşkilatlarla münasibətləri*. Bakı: Elm və Təhsil.
7. Mahmudlu, C. (2014). *Azərbaycan diplomatiyası: tarix və müasirlik*. Bakı: Adiloğlu.
8. Nəsibov, A. (2021). *Qafqazda güc balansı və Azərbaycan diplomatiyasının transformasiyası*. Bakı: Elm və İnnovasiya.
9. Yunis, A. (2005). *Azərbaycanın xarici siyasət doktrinası: formalaşma mərhələləri*. Bakı: Qanun nəşriyyatı.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN HİMAYƏDARI

Tərlan Səttar qızı Bədəlova
Bakı Dövlət Universitetinin Qazax filialı
bedelova56@mail.ru

Azərbaycan xalqının əsrlər boyu formalaşmış yüksək mənəvi dəyərlərini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya ötən əsrdə məhz Ümummilli lider Heydər Əliyevin üzərinə düşmüşdür. Ulu Öndər müstəqil Azərbaycana rəhbərliyi dövründə çıxışlarında hər zaman xüsusi vurğulayırdı ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini də çağdaş zamanın aktual problemlərindən birinə çevirmişdir. Problemi aktuallaşdıran başlıca amil budur ki, total əxlaqın və çoxtərəfli inteqrasiyanın diqtələri bir çox hallarda əsrlərin "mirasına" – milli-mənəvi ideallara qarşı yönəlir. Ümummilli lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu təhdidi düzgün qiymətləndirməsi, daim diqqət mərkəzində saxlaması və potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır [2].

Heydər Əliyevin öz Vətəninə, xalqına, milli irs və ənənələrinə bağlılığı həmin təhdidlərin önündə də əzəmətli sipərə çevrildi, bütövlükdə xalqın genetik yaddaşını qorudu. Bu dahi şəxsiyyət hələ keçmiş sovetlər dövründə türkdilli xalqların min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların qorunması üçün əlindən gələni

əsirgəmədi. Tarixən yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli sərt sınaqlar qarşısında duruş gətirərək inkişafın əsasına çevrilir. Bu cür milli dövlət modeli isə, ilk növbədə, sağlam cəmiyyətdə intişar taparaq xalqın mənəvi dəyərlər sisteminə əsaslanır. Sağlam mənəviyyatlı, yüksək ixtisaslı insanlardan ibarət cəmiyyət qarşıya çıxan bütün problemləri asanlıqla həll edir, monolit bir qüvvə kimi fəaliyyət göstərə bilir. Cəmiyyətin sağlamlığını çoxlu əlamətlərdə axtarmaq olar, lakin bu əlamətlərin hamısı əsas bir göstəricidə özünü büruzə verir: ölkənin iqtisadi və mənəvi tərəqqi sürətində. Biz Azərbaycanda baş verən görünməmiş iqtisadi tərəqqinin şahidiyik. Bu sürət dünyanı da heyran qoymuşdur. Lakin təkcə biz yox, bütün dünya gərgin bir templə, mürəkkəb proseslər fonunda tərəqqi edir. Ona görə iqtisadi və mənəvi inkişaf templərinin sabah necə olacağına heç bir təminat yoxdur. Sabahkı uğurlara yeganə təminat – sağlam cəmiyyət quruculuğuna diqqəti artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır [4].

Mən "əzm" sözünü təsadüfi işlətmirəm. Bizim misilsiz mənəvi irsimiz olan Heydər Əliyev şəxsiyyəti bu anlayışla ayrılmaz surətdə bağlıdır. Əzmlə, ardıcıl olaraq xalq və milli dövlət dəyərlərinə xidmət onun şəxsiyyətinin əsas cizgiləri idi. Ulu Öndər bütün həyatını, ömrünü, ağlını, zəkasını böyük milli məqsədlərə sərf edib. Buna görə bütün xalqımız ona minnətdardır. Fəqət, minnətdarlıq azdır. Duyğular bizi Heydər Əliyev irsinin əsas məzmunundan yayındıra bilməz. Həmin məzmun unudulmaz rəhbərin xalqa xidmət idealları ilə bağlı idi. Onun tərəqqisinə xidmət edən işlər görmək dahi insanın ömrünün mənası idi. Rəhbərin dövlətçiliyi və millətçiliyi tarixi əhəmiyyət kəsb edən məqsədlərə tərəf ardıcıl və başlıcası isə, həmişə böyük nəticəli hərəkət idi. Bu da Heydər Əliyev şəxsiyyətinin çox qiymətli sosial və pedaqoji keyfiyyəti idi [1].

Ulu Öndərin nümunəsi bizi adi xidmətə yox, böyük tarixi və milli məqsədli xidmətə sövq edir. Xalqımızın sürətli tərəqqisinə nail olmaq planları böyük rəhbər üçün milli təhsil sisteminə gündəlik qayğı ilə ayrılmaz idi. Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın təhsili əslində yenidən quruldu. Ümummilli Lider hesab edirdi ki, qabaqcıl kadrları olmayan xalqın inkişaf etmiş dövləti ola bilməz. İqtisadiyyatda yaratdığı yeni sənaye sahələri üçün ulu öndər keçmiş sovetlər birliyinin bütün qabaqcıl ali məktəblərində kadrlar hazırladır, minlərlə gənci respublikadan kənara təhsilə göndərirdi. Bilik Günü məktəblərə gedir, təhsilimizin gələcəyi barədə öz vəsiyyətlərini şərh edirdi. Böyük rəhbər bu yanğısı, diqqəti və idrakı ilə həm də hamımızın müəllimi idi. Hər dövrdə, hər cəmiyyətdə tərbiyə o halda uğurlu olur ki, onun əyani şəxsi nümunəsi olsun. Tarix bu nümunəni bizə bəxş etməklə gənc nəslin tərbiyəsi işinə böyük töhfə vermişdir. Milli ruhda tərbiyə alan insanın ən yaxşı ideal nümunəsi ümummilli liderin mübarizələr və qələbələr dolu bioqrafiyasıdır. Etiraf etməliyik ki, biz bu bioqrafiyanın əsas mənasını, pedaqoji fəlsəfəsini kifayət qədər tədris və təbliğ edə bilmirik [3].

Heydər Əliyev şəxsiyyətindən söhbət gedəndə bura Azərbaycanı da əlavə etmək lazım gəlir. Çünki Heydər Əliyev şəxsiyyəti çoxdan Azərbaycanla bütövləşmiş, onun ruhu Azərbaycana, Azərbaycanın ruhu Heydər Əliyevə keçmişdir. Ümummilli liderin Vətəninin milli-mənəvi dəyərlərinə ruhən bu qədər vurğunluğunu da, görünür, elə bu bağlılıqda axtarmaq lazımdır. Heydər Əliyevin milli-mənəvi dəyərlər məsələsində irəli sürdüyü prinsiplər, həmin problemin həlli ilə bağlı müəyyənləşdirdiyi aydın xətt, atdığı addımlar bəzən əsl mahiyyəti üzrə şərh olunmur və elmi yanaşmalarda müəyyən yanlışlıqlara yol verilir [1].

Ümummilli Liderin bu sahədə xidmətlərinin, sadəcə olaraq, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə, təhsilinə, səhiyyəsinə yüksək qayğı kimi səciyyələndirilməsi bu işlərin gerçək miqyası üçün kifayət etmir. Çünki görülən işlər, sadəcə, qayğı olmaqla məhdudlaşa bilməz. Bütün bunlar ululərımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi tək qorunaraq, gələcək nəsillərə əmanət edilməsi, Azərbaycan şüurunun, mentalitetinin, əxlaqının bütün dünyada təbliği, qəbul olunması üçün atılan düşünülmüş, məqsədyönlü addımlardır. Tarixdə xalqına, onun maarifinə xidmət edən rəhbərlər az olmayıb. Amma onların milli dəyərlərdə təcəssüm tapmasına nədənsə nadir hallarda təsadüf olunur [4].

Heydər Əliyev məhz belə rəhbər və dövlət xadimi idi. Milli sözünün ehtiyatla işlədildiyi sovet dövründə də, Naxçıvanda yaşayanda da, müstəqillik dövründə də dahi rəhbər ən Böyük Azərbaycanlı olduğunu parlaq təcəssüm etdirən sadə və eyni zamanda, zəngin bir sima idi. Ulu öndərin ana

dilimizdə parlaq və sərrast nitqi bu dahi insanı əbədi olaraq millilik rəmzi kimi anmağımız üçün kifayətdir. Ümummilli Liderin xalqımız qarşısında xidmətləri çoxdur. Lakin onların arasında böyük rəhbərin natiqlik irsi xüsusilə müqəddəsdir. Heydər Əliyevin nitqinin xəlqiliyi azərbaycançılığın ən parlaq təcəssümü idi. Bu gün təsəvvür etmək çətindir ki, sərbəst işlənən doğma ana dilimiz bir vaxtlar öz varlığını yaşatmaq üçün mübarizələr aparırdı. Həmin mübarizələrin tarixində Heydər Əliyevin danılmaz rolu olmuşdur. Ümummilli lider ana dilimizin azadlığı uğrunda iki cəbhədə çalışırdı. Birinci cəbhə bu insanın özünün ana dilində danışması idi. ikinci cəbhə isə qanunverici və rəsmi yollarla dilimizin statusunun artırılması xətti idi. O zamanlar belə bir mübarizəyə qoşulmaq böyük cəsarətin, qətiyyətin və ən əsası isə Vətənə, millətə, onun milli sərvətinə sonsuz məhəbbətin nəticəsi idi [2].

Bu gün ulu öndərin adını şərəflə daşıyan Heydər Əliyev Fondu öz fəaliyyətində xeyirxahlıq qayəsini rəhbər tutaraq, dini ibadət ocaqlarının təmir, bərpa və inşasına xüsusi əhəmiyyət verir. Fondun xətti ilə son illər həm ölkə daxilində, həm də xaricdə bir çox məscid, kilsə, sinaqoq təmir və bərpa olunmuşdur.

Bu gün Azərbaycan bir müsəlman ölkəsi olaraq, islam dəyərlərinə və mədəniyyətinə sadiqliyini və bağlılığını qorumaqla yanaşı, həm də Qərbin müasir nailiyyətlərindən bəhrələnir. Azərbaycan bir çox istiqamətlərdə olduğu kimi, bu sahədə də nümunəvi müsəlman ölkəsi sayılır. Qarşıda duran əsas hədəf və məqsədlərdən biri də bu ənənəni yaşatmaq və gələcək nəsillərə çatdırmaqdır.

Qeyd etmək lazımdır ki, İkinci Qarabağ savaşında ölkəmizin möhtəşəm qələbəsində Azərbaycanın müstəqillik illərinin ilk günlərindən dini fəaliyyət sahəsində həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət çox ciddi rol oynadı.

İsifadə edilmiş ədəbiyyat siyahısı

1. Abdullazadə F. Heydər Əliyev. Siyasi portret. Bakı-XXI, 1998, 115 s.
2. Abdullayev M. Azərbaycan tarixi. Bakı-Bakı Universiteti, 2014, 380 s.
3. Qəniyev H. Azərbaycan tarixi. Bakı-Elm və təhsil, 2019, 499 s.
4. Mahmudov Y. II cilddə. I cild. Bakı-Turxan, 2013, 500 s.

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU (TRASEKA)

Dilşad İsrafil qızı Şəmilova
Bakı Dövlət Universitetinin Qazax filialı
dilshadshamilova7@gmail.com

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xətlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq, Azərbaycanda bu sahənin yenidən qurulması və modernləşdirilməsini iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Yeri gəlmişkən, bu strateji siyasi kurs Azərbaycan Respublikasının Prezidenti cınab İlham Əliyevin də son 5 il ərzində qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşdirilməsi istiqamətindəki fəaliyyətinin əsasını təşkil edib [3].

Məlum olduğu kimi, nəqliyyat dəhlizlərini və kommunikasiyalarını bəzən həyat arteriyası adlandırırlar. Çünki bunlar olmadan, zəngin təbii resurslara malik dövlətlər belə iqtisadiyyatının dirçəlişi və inkişafını təmin edə, dünya ölkələri ilə sərbəst ticarət əlaqələri qura bilməz. Odur ki, nəqliyyat-yükdaşıma sisteminə nəzarət etmək xarici ticarətə təsir imkanlarını əlində saxlamaq baxımından dünyada bu günün əsas geostrateji tələblərindəndir. Təsadüfi deyil ki, müxtəlif geosiyasi güc mərkəzləri arasında gedən beynəlxalq rəqabət yalnız təbii ehtiyatlar deyil, həm də bu ehtiyatları dünya bazarlarına çıxaracaq vasitələr – nəqliyyat dəhlizləri və kommunikasiyalar uğrunda aparıhr. SSRİ-nin dağılması və vaxtilə Sovet İttifaqının tərkibinə daxil olan respublikaların müstəqillik qazanmasından sonra Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi

daha aktual xarakter aldı. Regionu nəzarətində saxlamağa və alternativ enerji dəhlizlərinin yaranmasına mane olmağa çalışan Rusiyanın müqavimətinə baxmayaraq, Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı bu istiqamətdə səylərini aktivləşdirdilər. Onlar TRASEKA adlanan layihə çərçivəsində Avropanı Asiya ilə birləşdirən nəqliyyatkommunikasiya sisteminin qurulmasına, şərti olaraq, "Böyük İpək yolu" adlandırılan transmilli layihənin həyata keçirilməsinə başladılar. Bu gün rusiyalı analitiklər bildirirlər ki, Qərb, ilk növbədə isə Birləşmiş Ştatlar, Rusiyadan yan keçən qlobal nəqliyyat dəhlizi yaratmaqla, faktiki olaraq, Moskvanın Avrasiyadakı monopoliyasına son qoydular [5].

1995-ci ildə ABŞ-da nüfuzlu amerikalı siyasətçilər və politoloqların iştirakı ilə keçirilmiş konfransda açıq şəkildə bəyan edilib ki, "bu gün infrastruktur dəhlizlərinə nəzarət, dünya siyasətində dominantlıq üçün əsas vasitədir". Layihələrin ən önəmlilərindən biri, məhz Azərbaycanın mühüm rol oynadığı TRASEKA layihəsidir. Qeyd edək ki, bu, Avropa İttifaqının SSRİ dağıldıqdan sonra – 1991-ci ildən hazırladığı və maliyyələşdirdiyi TASİS proqramı çərçivəsində reallaşdırılan ən iri layihələrdən biridir. TASİS proqramı ilə Avropa İttifaqı yeni, müstəqil dövlətlərdə iş aparmaq, demokratik islahatlar keçirmək, bazar iqtisadiyyatı infrastrukturları yaratmaq, ölkələrarası ticarət, nəqliyyat, gömrük-keçid işlərini inkişaf etdirmək niyyətini ortaya qoymuşdu. Və məhz bu proqram çərçivəsində 1993-cü ildə Brüsseldə Avropa İttifaqının təşəbbüsü ilə TRASEKA (Trans-EuropeCaucasus-Asia) layihəsi irəli sürüldü və Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Ermənistan nümayəndələrinin iştirakı ilə onun müzakirəsi keçirildi. Müzakirənin nəticəsi olaraq imzalanmış "Brüssel bəyannaməsi"nə əsasən, qədim Şərq-Qərb "İpək yolu" dəhlizinin yeni şəraitdə bərpası, nəqliyyat-kommunikasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsi qərara alındı. Bu layihəni reallaşdırmaqda Avropa İttifaqı, ilk növbədə, müstəqil dövlətlərin alternativ nəqliyyat dəhlizləri vasitəsilə Avropa və dünya bazarlarına çıxışını təmin etmək, onların siyasi və iqtisadi cəhətdən ətraf ölkələrdən asılılığının qarşısını almaq, regional əməkdaşlığın möhkəmlənməsinə şərait yaratmaq və beynəlxalq maliyyə mərkəzlərinin regiona sərmayə qoyuluşunu həvəsləndirmək istəyirdi.

Azərbaycanın əlverişli coğrafi mövqeyi, bu nəqliyyat dəhlizinin əsas məntəqələrindən biri kimi çıxış etməsi, Ümummilli lider Heydər Əliyevin Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsində tutduğu prinsipial mövqe və yürütdüyü uzaqgörən xarici iqtisadi siyasət, TRASEKA layihəsinin reallaşmasına mühüm töhfə verdi. TRASEKA layihəsi üzrə ən mühüm tədbir – beynəlxalq konfrans da məhz Heydər Əliyevin diplomatik səyləri ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilib. Həmin konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri layihənin reallaşdırılmasının texniki və iqtisadi tərəflərini özündə əks etdirən "Avropa-QafqazAsiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" (Əsas Saziş) adlanan mühüm sənədi imzaladılar. Bu sənədin ərsəyə gəlməsində də Heydər Əliyevin əvəzsiz xidmətləri olub [1].

Təsadüfi deyil ki, TRASEKA hökumətlərarası komissiyasının daimi katibliyinin mənzil-qərargahı da Bakı şəhərində yerləşir. 21 fevral 2001-ci ildən Bakıda fəaliyyətə başlayan TRASEKA hökumətlərarası komissiyası daimi katibliyinin ofisi "Böyük İpək yolu" boyunca hərəkət edən beynəlxalq yüklərin daşınma və hərəkətini tənzimləmək, Əsas Sazişə qoşulan ölkələrdə qanunvericilik və maliyyə-iqtisadi mühitlə bağlı məsələlərin həll edilməsinə kömək məqsədilə yaradılıb. Avropa-Qafqaz-Asiya ölkələri arasında yüklərin daşınmasını təmin edən bu layihə keçən illərdə Azərbaycan iqtisadiyyatının inkişafında, nəqliyyat infrastrukturunun formalaşmasında ciddi rol oynayıb. Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir. Bundan başqa, TRASEKA layihəsi Avropa ilə Asiya arasında nəqliyyat yolunu qısaltmaqla külli miqdarda vəsaitə qənaət etmək imkanı yaradır. Bu gün Avropa ilə Asiya arasında ticarət dövriyyəsinin həcmi 2 trilyon dolları ötür, nəqliyyat xərcləri isə ildə 200 milyard dollara çatır [2].

Nəzərə alsaq ki, TRASEKA layihəsi çərçivəsində malların daşınması, hazırda Avropa ilə Cənubi Asiyanı birləşdirən Süveyş kanalından 20 gün tez başa gəlir, onda yaxın gələcəkdə Azər-

baycanın dünyanın əsas tranzit ölkələrindən birinə çevriləcəyini proqnozlaşdırmaq olar. Bu layihənin əsas vəzifəsi logistika imkanlarının, şəbəkələrin və multimodal nəqliyyatın qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi yolu ilə beynəlxalq ticarət və malların TRASEKA dəhlizi ilə hərəkəti-nə yardım etməkdir. Layihə çərçivəsində TRASEKA dəhlizi üzrə logistika mərkəzləri şəbəkəsinin yaradılmasını nəzərdə tutan maliyyə, texniki, ekoloji və institusional şəraitin yaradılması, tədqiqatların aparılması planlaşdırılır. Bu layihə Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynanı birbaşa, Bolqarıstan, Rumıniya və Türkiyəni isə bilavasitə əhatə edəcək.

Bundan əlavə, "TRASEKA ölkələrində aviasiya sahəsində ictimai və texniki təhlükəsizlik" layihəsinin gerçəkləşdirilməsinə başlanılıb. Reallaşma müddəti 24 ay olan bu layihə Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistanı əhatə edəcək. Məqsəd Avropa İttifaqı ilə qonşu ölkələrdə, həmçinin Mərkəzi Asiya ölkələrində mülki aviasiya sahəsində beynəlxalq və Avropa standartlarına uyğun hava nəqliyyatının ictimai və texniki təhlükəsizliyinin təkmilləşdirilməsidir. Nəhayət, reallaşdırılmasına başlanılan üçüncü layihə "Qara və Xəzər dənizlərində dəniz magistralları" layihəsidir. Beş ölkəni – Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Ukraynanı əhatə edən layihədə məqsəd Qara dəniz və Xəzər dənizində qarşılıqlı fəaliyyət şəbəkəsinin təkmilləşdirilməsi və multimodal nəqliyyat yolu ilə Avropa-Qara dəniz regionu – Qafqaz-Mərkəzi Asiya dəhlizində ticarətə və nəqliyyata yardımın göstərilməsidir. Əsas vəzifə Qara dəniz və Xəzər dənizi hövzəsi ölkələrini Avropa İttifaqının genişlənmiş ərazisi ilə birləşdirən "Dəniz magistralları" konsepsiyasına uyğun əlverişli intermodal yük nəqliyyatına təsir və dəstək göstərməkdən ibarətdir [4].

Bu gün Azərbaycanın Avropanın nəqliyyat-kommunikasiya, yükdaşımaları və enerji təhlükəsizliyində mühüm rol oynadığı dünyada hamı tərəfindən birmənalı etiraf olunur. Ümummilli lider Heydər Əliyevin yeni neft, nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinə dair strategiyasını inamla davam etdirən Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində Azərbaycan regionda heç bir ölkədən enerji asılılığı olmayan, öz tələbatını ödəməyə qadir yeganə dövlət qismində çıxış edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abdullayev M. Azərbaycan tarixi. Bakı, Bakı Universiteti, 2014, 380 s.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan, 2005, 631 s.
3. Qasımov M. Azərbaycan beynəlxalq münasibərlər sistemində (1991-1995). Bakı, 1996, 75s.
4. Qəniyev H. Azərbaycan tarixi. Bakı, Elm və təhsil, 2019, 499 s.
5. Mahmudov Y. II cilddə. I cild. Bakı, Turxan, 2013, 500 s.

HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ

Həqiqət Şəadət qızı Mehdiyeva
Bakı Dövlət Universitetinin Qazax filialı
heqiqet.mehdiyeva.91@mail.ru

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Heydər Əliyev hələ Azərbaycan Respublikası Ali Sovetinin Sədri olarkən 1993-cü ilin 22 sentyabrında ilk olaraq gənclərin nümayəndələri ilə görüşərək onlara müraciətində bildirmişdi: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda, müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin

gələcəyinin, xalqımızın daha firavan yaşamasının təməlini qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik." [5].

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin fonunda gənclərin qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları yaxşı bilən Ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994- cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı [1].

1995-ci ildə Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə də 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. 1997-ci il fevralın 1-də Forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Fərman imzaladı. Onu da qeyd edək ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edildi. 2 mart 1999-cu il tarixdə Azərbaycan Gənclərinin İkinci Forumundakı çıxışında Ulu öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi [1] .

Heydər Əliyev forumda "XXI əsr gənclərin əsridir" deyərək gənclərə verilən dəyəri və onların ölkənin inkişafı üçün üzərlərinə götürdüyü məsuliyyəti göstərmiş oldu. 1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan dövlət gənclər siyasəti haqqında Fərman bu sahəyə Prezident səviyyəsində böyük önəm verilməsinin təzahürü kimi qiymətləndirilə bilər. "Dövlət gənclər siyasəti haqqında" fərman çox geniş spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edir. Dövlət gənclər siyasəti bu məqsəd və prinsiplərin reallaşdırılması üçün hazırlanıb, müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumlarının icrasına yönəldilib. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib və 9 aprel 2002-ci il tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanıb [5].

Gənclər siyasətinin həyata keçirilməsi əsas cavabdeh dövlət qurumu kimi Gənclər və İdman Nazirliyinə tapşırılıb. Ulu Öndərin illər öncə əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Məhz bunun nəticəsidir ki, gənclər siyasəti ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməklə yanaşı, həm də müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq mahiyyət və keyfiyyətcə yeni bir mərhələyə yüksəldilib. Prezident İlham Əliyev Ulu Öndərin əsasını qoyduğu uğurlu gənclər siyasətinə böyük sadiqlik nümayiş etdirərək bu istiqamətdə əhəmiyyətli qərarlar qəbul edib və addımlar atıb. Son bir neçə ildə bilavasitə gənclərlə bağlı 20-ə qədər normativ sənədin qəbul olunması ölkəmizdə gənclərlə iş sahəsində, gənclərin sosial-iqtisadi inkişafına yönəldilmiş mükəmməl qanunvericilik bazasının formalaşdırılmasından xəbər verir [2].

Cənab Prezident tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir. Yeni mərhələdə cənab İlham Əliyev tərəfindən gerçəkləşdirilən siyasət ən müxtəlif sahələri əhatə etməklə çox geniş spektrlidir. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, gənclərin cəmiyyət

həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclər ölkədəki demokratiya quruculuğu istiqamətində uğurla həyata keçirilən çoxşaxəli fəaliyyətə öz töhfələrini verməkdədirlər. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir [3].

2 fevral – Azərbaycan Gənclər günü Ümummilli lider Heydər Əliyevin gənclərə olan ən dəyərli hədiyyəsidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abdullayev M. Azərbaycan tarixi. Bakı-Bakı Universiteti, 2014, 380 s.
2. Əliyev H.Ə. Gənclərin birlik, dostluq və əməkdaşlığının möhkəmləndirilməsi, sülh və sosial tərəqqi uğrunda. Bakı – 1981, 35 s
3. Əliyev H.Ə. Gənclərin əmək, əxlaq və ideya-siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli. Bakı – 1982, 66 s.
4. Qəniyev H. Azərbaycan tarixi. Bakı-Elm və təhsil, 2019, 499 s.
5. Mahmudov Y. II cilddə. I cild. Bakı-Turxan, 2013, 500 s.

HEYDƏR ƏLİYEV VƏ XARİCİ SİYASƏT KURSU

Püstə Qasım qızı Cəfərova
Naxçıvan Dövlət Universiteti
pusteceferova74@gmail.com

Giriş

Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin müasir tarixinə adını yazdıran bu bənzərsiz tarixi şəxsiyyətin fövqəladə siyasi fəaliyyəti və liderlik illəri bir İntibah dövrü, milli tərəqqi, milli oyanış və nəhayət, müstəqil dövlət quruculuğu mərhələsi kimi qiymətləndirilir. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti nəticəsində əldə olunmuş ən mühüm nailiyyət, onun birbaşa rəhbərliyi və xalqımıza bəxş etdiyi böyük töhfə — mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır. Hər bir xalq üçün milli azadlıq və dövlət müstəqilliyinə sahib olmaq həyati əhəmiyyət daşıyır.

XX əsrin sonunda milli müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı üçün bu tarixi fürsət keçmiş Sovetlər İttifaqının süqutu ilə yaranmışdır. Ulu öndər Heydər Əliyevin böyük səyləri və qətiyyəti sayəsində gələcək siyasi, iqtisadi və mədəni müstəqilliyin təmin olunması üçün güclü bir infrastruktur formalaşdırılmış, eyni zamanda əhali arasında müstəqil dövlətçilik ideyasına dərin inam yaranmışdır. Məhz bu iki amil – möhkəm əsaslara malik struktur və əhali arasında dövlət müstəqilliyinə olan inam – milli azadlığın təminatında həlledici rol oynamışdır. Azərbaycan, keçmiş SSRİ məkanında müstəqil dövlət olaraq yaşamaq şansı olan az sayda müttəfiq respublikalardan biri olmuşdur.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir. Daha sonra, 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində iştirak etmiş və səslərin 99 faizini qazanaraq Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başlamışdır. Prezident seçildikdən sonra qısa müddət ərzində ölkədə və beynəlxalq aləmdə baş verən hadisələrə çevik və məqsədyönlü şəkildə uyğunlaşmalı olmuşdur. Heydər Əliyev həm daxili, həm də xarici siyasətdə demokratik prinsiplərə sadiqliyini bəyan etmiş, hüquqi dövlət quruculuğunu dövlət idarəçiliyinin əsas istiqaməti kimi ön plana çıxarmışdır.

Bu dövrün ən mühüm problemlərindən biri Dağlıq Qarabağ münaqişəsi olmuşdur. 1980-ci illərin sonlarından etibarən başlanmış bu münaqişə təəssüf ki, bu günədək tam şəkildə həll olunmamışdır. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra münaqişənin hərbi yolla həllinə deyil, daha çox dinc vasitələrlə, yəni yumşaq güc alətlərindən istifadə etməklə məsələnin sülh yolu ilə

həllinə üstünlük vermişdir. O, münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, diplomatik yollarla ədalətli həllinə çalışmışdır.

Heydər Əliyev və Azərbaycan xarici siyasəti

Tanınmış dövlət adamı, Ümummilli lider Heydər Əliyev, Azərbaycan Respublikasının müstəqillik dövrünün vəzifələrini qətiyyətlə yerinə yetirmişdir. Heydər Əliyev, ictimai həyatın hər sahəsində dövlət idarəçiliyi islahatlarının və yenidən qurulmanın baş memarı olmuşdur. Məktəb islahatı, torpaq islahatı, yenilənmə və güclənmənin əsas prinsipləri Heydər Əliyev tərəfindən qərarlılıqla həyata keçirilmişdir. Heydər Əliyev, keçmiş Sovet hökuməti ilə yeni müstəqil dövlət anlayışı arasında o qədər güclü bir maneə yaratmışdır ki, heç kəs bir daha geriyə dönməyə cəsarət edə bilməmişdir. Azərbaycanı uzaqdan parçalamağa çalışanlar, Heydər Əliyevə dərin inamı olan və onun ətrafında sıx birləşmiş xalqın birliyinə qarşı durmaq məcburiyyətində qalmışdır. Ona qarşı çox çətin bir sosyo-siyasi mühitdə dövlət çevrilişi cəhdləri,separatçı meyllər, hərbi müxalifət və demokratik müxalifət birləşmişdir. Heydər Əliyev müstəqil bir dövlətin çarxının layiqli prinsiplərə əsaslanan harmonik işləməsini təmin etməyə müvəffəq olmuşdur. [1]

Heydər Əliyevi lider olaraq fərqləndirən vacib xüsusiyyətlərdən biri də, onun Azərbaycanı iki fərqli siyasi sistemdə idarə etməsi və hər dövrün sosyo-siyasi tələblərinə uyğun olaraq bütün fəaliyyətlərini Azərbaycan Respublikasının inkişafına, xalqın mənəvi və mədəniyyətinin yüksəlişinə həsr etməsidir. Heydər Əliyevin bütün siyasi və dövlət fəaliyyəti müasirdir. Onun həyatının və fəaliyyətinin xronologiyası böyük bir tarixi dövrün parlaq bir səhifəsini təşkil edir. Heydər Əliyevin Azərbaycan rəhbərliyindəki dövrləri, ölkənin iqtisadi, sosyo-siyasi, mədəni və mənəvi inkişafındakı artım və tərəqqi meylləri ilə seçilir. Azərbaycan tarixində keçmiş SSRİ kimi super gücün siyasi liderliyinin zirvəsinə yüksələn və praktiki fəaliyyəti ilə dünyaca məşhur dövlət adamları arasında ən önəmli və təsirli olduğunu sübut edən yeganə siyasətçidir. [4]

Azərbaycan Respublikasında prezidentliyinin ilk illərindən etibarən Heydər Əliyev Azərbaycanın iqtisadi və sosial problemlərini, mənəvi və mədəni həyatını heç vaxt unutmamış və bu sahədə böyük işlər görmüşdür. 1960-cı illərin sonları və 1970-ci illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi altında keçirilən toplantıların iqtisadi məsələlərdən daha çox mənəvi və mədəni narahatlıqlara fokuslanması təsadüfi deyildir. [3] Heydər Əliyevin prezidentlik dövründə imzaladığı fərman və sərəncamlar hüquqi, demokratik dövlət quruculuğu, müstəqil respublikanın gücləndirilməsi və inkişafı, sosial-iqtisadi islahatların tətbiqi və ictimai həyatın demokratikləşdirilməsi sahəsində əsas proqram və hüquqi-normativ əsas olmuşdur.

Heydər Əliyev dövründə Azərbaycan Hökumətinin üzərinə ən böyük məsuliyyətlərdən biri şübhəsiz Dağlıq Qarabağ məsələsinin həlli idi. Bunun üçün diplomatiyanın qarşısında duran ilk vəzifə, beynəlxalq sistemin dəstəyini qazanmaq olmuşdur. Hökumət müstəqil dövlətin dünyada tanınması, dünyanın inkişaf etmiş ölkələri ilə iqtisadi və mədəni sahələrdə əməkdaşlıq qurulması və eyni zamanda Dağlıq Qarabağ məsələsinə beynəlxalq aləmin diqqətini yönəltmək üçün qətiyyətli bir siyasət yürütməyə başlamışdır. Ölkənin neftinin vasitə olaraq istifadə edilməsi yolu ilə böyük dövlətlərin, beynəlxalq təşkilatların və şirkətlərin marağını cəlb etmək və Ermənistana bu məsələnin həlli istiqamətində təzyiq göstərilməsini təmin etmək məqsədilə planlı şəkildə fəaliyyətə başlanmışdır. Bu məsələnin yalnız insan haqlarının pozulması və ərazi bütövlüyünün pozulması mənasını daşımadığını, həm də dövlət müstəqilliyinin qarşısında bir maneəyə çevrildiyini dünya ictimaiyyətinə bildirmək çox vacib idi.

Azərbaycan 1991-ci ildə SSRİ-nin dağılması və əldə edilən müstəqillikdən sonra sərbəst bazar iqtisadiyyatına keçid qərarı qəbul etmişdi. Lakin bir tərəfdən Qarabağ müharibəsi, digər tərəfdən ağır iqtisadi, sosial və siyasi sabitliksizlik ölkəni bir kaos mühitinə sürükləmişdi. 1993-cü ildə Heydər Əliyevin prezident olaraq ölkənin qarşılaşdığı problemləri həll edə biləcək güclü bir hakimiyyət qurması və demokratik respublika yolunda irəliləyəcəyinə dair təminat verməsi ilə cəmiyyətdəki qarışıqlıq müəyyən dərəcədə aradan qaldırılmış, eyni zamanda iqtisadiyyatda da inkişaflar əldə olunmuşdur Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda xarici siyasətdə iki fərqli dövrün olduğu deyilə bilər. Bunlardan birincisi, Rusiyanı yatızdırma siyasətinin tətbiq edildiyi 1993-cü ilin iyun ayından 1994-cü ilin fevralına qədər olan dövr; ikincisi isə, Rusiyanın Azərbaycandakı "məqbul maraqlar"ını qarşılamaqla Rusiyanı qəzəbləndirməmək, lakin əvvəlki

hakimiyyətin Qərb ilə, xüsusən də Türkiyə ilə bu kontekstdə yaxınlaşma siyasətini davam etdirmək dövrü olaraq qiymətləndirilə biləcək 1994-cü ilin fevralından bu günə qədər olan dövrdür. Qərb ilə yaxınlaşmanın ilk əlaməti isə Prezident Heydər Əliyevin 8-10 fevral 1994-cü il tarixlərində Türkiyəyə etdiyi rəsmi səfər olmuşdur.[4]

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan müstəqil xarici siyasət yürütməyə başladı və Rusiyaya qarşı sərt siyasət tərk edildiyi halda, Heydər Əliyev, Rusiyanın bölgə üzərindəki maraq və təsirini nəzərə alaraq diqqətli bir balans siyasəti izləməyə başladı. Bu siyasətə uyğun olaraq, Heydər Əliyev hakimiyyətinin xüsusilə ilk dövrlərində Azərbaycan, Rusiya ilə çox yaxşı əlaqələr qurdu. Rusiyanın vasitəçiliyi ilə Qarabağ məsələsində də müsbət nəticələr əldə ediləcəyinə inanılırdı. HeydərƏliyevin ilk icraatlarından biri 24 sentyabr 1993-cü ildə Moskva şəhərinə gedərək MDB-yə qoşulma sazişini imzalamaq oldu. İzlənilən bu siyasət ilkin mərhələdə müsbət nəticələr verirmiş kimi görünürdü. Rusiyanın vasitəçiliyi ilə 12 may 1994-cü ildə Qarabağda tərəflər arasında atəşkəs razılaşması əldə edilmişdi. Lakin, Əliyev Rusiya ilə əlaqələri inkişaf etdirərkən, Rusiyanın Ermənistanı dəstəkləməyi qısa müddətdə dayandırmayacağını bilirdi. Buna görə də, Qarabağ münaqişəsinin həlli ilə bağlı əvvəlki dövrdə başlanan beynəlxalqlaşdırma siyasətini davam etdirdi. Bu çərçivədə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə danışıqlar davam etdirildi. 1996-cı ildə daimi üçlü həmsədrlik sisteminə keçilməsi və nəticədə Rusiya ilə yanaşı ABŞ və Fransanın da həmsədr olması ilə Rusiyanın bölgədəki təsiri nisbətən azalmışdır.

Azərbaycan dövlətinin tarixinə istisnai bir töhfə verən, fikirləri və idarəetmə təcrübəsi bu gün və sabah bizə rəhbərlik edən milli lider Heydər Əliyevin siyasi irsi o qədər zəngin, mənalı və qiymətlidir ki, nəsillər bu xəzinəni on illərlə istifadə edəcək vəziyyətdədir. Azərbaycanın, böyük liderin irəli görüşlü siyasətinin bir nəticəsi olaraq, strateji, iqtisadi və mədəni potensialını istifadə edərək dünyanın ən dinamik inkişaf edən ölkələrindən biri halına gəlməsi və Şərq ilə Qərb arasında etibarlı bir körpü olmağı mümkün olmuşdur. Onun adı hər zaman milli dövlət və müstəqilliklə əlaqələndirilmiş və olağanüstü bir siyasətçi olduğu aşikardır. Ölkədə müasir, demokratik, hüquqi və dünyəvi bir dövlətin qurulması, vətəndaş cəmiyyətinin inkişafı, milli və əxlaqi dəyərlərə dönüş və elm, təhsil və mədəniyyətin irəliləməsi sonsuza qədər Heydər Əliyev adı ilə anılacaqdır. "Mən bir çox məsələlərin adamıyam və həyatımı özümə deyil, xalqıma həsr etmişəm" deyən və həyatının mənasını Azərbaycan xalqının xidmətində görən milli lider Heydər Əliyev əslində bir dövrün simvoludur. "Həmişə qürur duydum və bu gün Azərbaycanlı olmaqdan qürur duyuram" ifadəsi ilə, hansı sahədə olursa olsun, sadiq bir hərbçi olaraq xalqının xoşbəxtliyi və müstəqilliyi üçün hər zaman hər cür çətinliyə hazır olduğunu da vurğulamışdır. [2] Onun qiymətsiz fikirləri, qərarlılığı və heç bir amillə ölçülə bilməyəcək qədər sağlam bir Azərbaycan ideologiyası mövcuddur.

Heydər Əliyev hakimiyyəti, ABŞ-ın Qafqazda Rusiya ilə kəsişən maraqlarından düzgün şəkildə faydalanmaq üçün balanslı bir siyasət yürütməyə başlamışdır. Xüsusilə Rusiya'nın Azərbaycan üzərindəki təsirini azaltmaq məqsədilə, Qərb ölkələri, MDB və digər bölgə ölkələri ilə iqtisadi əlaqələrin inkişaf etdirilməsi siyasəti izlənilməli idi. Azərbaycanın, Gürcüstan, Ukrayna, Qazaxıstan və Orta Asiya kimi iqtisadi və nəqliyyat təzyiqinə məruz qalan ölkələrlə yaxın əlaqələr qurulmuşdur. Bir tərəfdən Rusiya'nın gücünün zəiflədilməsi, digər tərəfdən isə Avropa və ABŞ-ın təsirinin gücləndirilməsi siyasəti həyata keçirilmişdir. İran ilə gərgin siyasi və ideoloji qarşıdurmalara son vermək, iki ölkə arasında əlaqələri yaxşılaşdırmaq məqsədilə bütün yollar sınaqdan keçirilmiş, yaxın qonşu münasibətləri qurulmağa çalışılmışdır. Əliyev, Azərbaycan Xalq Cəbhəsinin əksinə olaraq Rusiya və ya İran əleyhinə açıqlamalardan çəkinmiş, lakin Rusiya ordusunun "sərhəd mühafizəçiləri" və ya "sülhməramlı qüvvələr" adı altında Dağlıq Qarabağ'a geri dönmələrinə qarşı çıxaraq, Azərbaycan ərazisində Rusiyanın təsirinin artmasına icazə verməmişdir. 1993–1994-cü illərdə xarici siyasətdə artıq strateji bir dönüşüm başlamışdır

Azərbaycanda, Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar, müvəffəqiyyətli siyasi islahatlarla tamamlanmışdır. Həm konseptual, həm də struktur dəyişikliklərə xidmət edən bu islahatlar, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, optimallaşdırılması, effektivliyinin artırılması, qərar qəbul etmə mexanizmasının müasir tələblərə uyğunlaşdırılması və yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi məqsədini daşıyır. Eyni zamanda, Azərbaycanda demokratik qurumların gücləndirilməsi, siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin inkişafı,

insan hüquqları və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti qurumları üçün imkanların yaradılması, dövlət və özəl sektorda şəffaflıq və hesabatlılığın təmin edilməsi, dövlət idarəçiliyində institusional islahatlar və sosial xidmətlər islahatlarının həyata keçirilməsi yolu ilə yeni və ciddi keyfiyyət dəyişikliklərinin əldə edilməsi, bu dövrdə Azərbaycanda praktik, yaxşı düşünülmüş bir siyasi doktrinanın tətbiq edildiyini təsdiqləyir. [1]

Heydər Əliyev, ilk növbədə, dövlət müstəqilliyinə və Ermənistanın hücum siyasətinə qarşı daxili və xarici təhdidləri aradan qaldırmaq üçün sosial-siyasi sabitliyin təmin edilməsi istiqamətində mühüm addımlar atmışdır. Bu məqsədlə Azərbaycan dövlətinin suverenliyinə və ərazi bütövlüyünə qarşı təxribatçı hərəkətlər, çevriliş cəhdləri və etnik separatizm fəaliyyətləri qarşısı alınmışdır. Əliyev üçün müstəqil bir dövlət qurulmasında vətəndaş həmrəyliyinin yaradılması tarixi baxımdan böyük əhəmiyyət kəsb edirdi. [3]

Nəticə

XXI əsrin astanasında böyük bir dövlət müstəqilliyi və milli azadlıq təməli qurmağı bacaran Azərbaycan xalqı, bu tarixi fürsəti gerçəkləşdirmək üçün onilliklər boyu göstərilən xidmətləri qiymətləndirmişdir. Heydər Əliyev, siyasi dahiliyi ilə müasir bir Azərbaycan imici yaratmış və xalqın yaddaşında silinməz izlər qoymuşdur.

30 ildən artıq bir müddət ərzində Azərbaycanın tarixi talehi, xalqın sosial-siyasi, iqtisadi və mədəni həyatının hər sahəsində canlanması Heydər Əliyev adı ilə anılmışdır. Hər zaman irəliləmək üçün çabaladığı vətəni, Heydər Əliyevin liderliyi ilə bu dövrdə zəngin mədəniyyəti, böyük tarixi keçmişi və gələcək nəsillərin taleyini düşünərək qürur duyduğu ana yurdunu dövlətə çevirməyi bacarmışdır.

Heydər Əliyev yalnız bir dövləti idarə edən bir siyasətçi və lider deyil, həm də bir dövlət qurucusu, milyonlarla insanı böyük ideallar ətrafında səfərbər edən bir tarix memarıdır. Onun bütün həyatı, fəaliyyəti, hədəfləri və arzuları, dövlət qurma idealı, tarixi yaradıcılıq ətrafında formalaşmışdır. Heydər Əliyev, Azərbaycan elminin himayədarı və böyük bir düşünəndir. Onun varlığı xalqına və mədəniyyətlərinə xidmətlə doludur. Böyük Liderin sənətə, mədəniyyətə, teatra və ədəbiyyata göstərdiyi xidmətlər unudulmazdır. Sənətdə və ədəbiyyatda irəliləyiş və inkişaf yolunu seçməyin həmişə vacib olduğunu düşünmüşdür.

Bu günlərdə Heydər Əliyevin siyasətləri 2003-cü ildən etibarən Azərbaycanda uğurla həyata keçirildiyi məlumdur. 2003-cü il prezident seçkiləri kampaniyası zamanı müdrik lider, Azərbaycan xalqına səslənərək onları İlham Əliyevi dəstəkləməyə çağırmışdır. Xalq, bu çağrıya müsbət cavab vermiş və İlham Əliyevi prezident seçmişdir. Prezident İlham Əliyev, Heydər Əliyevə olan bağlılığını göstərərək Azərbaycanın uğura doğru aparılmasını təmin edir. Hazırda Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. O dövrlərdə insanlar əsas və sosial ehtiyaclarını qarşılamadığı kimi, elektrik, qaz və yollardan da məhrum idilər. Beləliklə, insanlar böyük şəhərlərə köçmək məcburiyyətində qalırdılar. Lakin indiki vəziyyət bənzərsiz bir səviyyəyə yüksəlmiş və hər sahədə nailiyyətlər əldə edilmişdir.

Bu gün Azərbaycanımız dünyada nüfuzlu bir ölkə olaraq tanınan və bölgədə lider olan güclü bir dövlətdir. Hazırda Azərbaycanın icazəsi olmadan bu bölgədə heç bir layihənin həyata keçirilməsi mümkün deyil və bu, Uıu öndər Heydər Əliyevin müdrik siyasətlərinin nəticəsi və təntənəsidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əhmədov M. Azərbaycan: Yeni Neft Erası və Beynəlxalq Siyasət, Bakı, Elm Nəşriyyat, 1997
2. Əliyev H. Müstəqilliyimiz Əbəddir, Bakı, Azərnəşr 1997
3. Əliyarlı. S. Azərbaycan Tarixi, Bakı, 1996
4. Nəsibli. N. Azərbaycan Geosiyasəti və Neft, Bakı, Xəzər Universiteti nəşriyyat, 2000

HEYDƏR ƏLİYEV MƏNƏVİ DƏYƏRLƏRİMİZİN HİMAYƏDARIDIR

Lətafət Nəsib qızı Süleymanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
elesgerov.adpu@mail.ru

"Hər xalqın öz adətənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik."

(Heydər Əliyev)

Məlumdur ki, hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. Bu baxımdan Ulu Öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: "...Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən kəşməkəşli mərhələlərində belə, mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək bu dəyərlərə həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu Öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir" [1].

Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan Sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə milli və dini əxlaqa söykənərək xeyirxah işlər görərək, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutaraq savab qazanmağa can atmışlar. Eyni zamanda, xalqımız həmin dövrdə bir çox qadağalara baxmayaraq milli (Novruz) və dini (Qurban, Ramazan) bayramlarını da qeyd etmişlər.

Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra xalqımızın dini bayramları dövlət səviyyəsində qeyd olunmağa başlanmış və milli-mənəvi dəyərlərimizin qorunması işinə dövlət tərəfindən ciddi qayğı göstərilməsi həyata keçirilmişdir. Məsələn, Azərbaycan Prezidentinin andiçmə mərasimində respublika Konstitusiyası ilə yanaşı, müqəddəs Qurani-Kərimə də əl basaraq dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə, milli-mənəvi və dini dəyərlərimizi qoruyacağına and içməsi yuxarıda dediklərimizə əyani sübutdur.

Respublikamızda ikinci dəfə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir.

Ümummilli Lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda

məscidlərə getməsi, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır [2] .

Məsələn, Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasını vurğulayan Ulu Öndər bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək demişdir: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir".

Xalqımızın milli-mənəvi dəyərlərinin təbliğində və gənclərimizin bu ruhda tərbiyə olunmasında, həmçinin cəmiyyətin bu istiqamətdə səfərbər edilməsində Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri danılmazdır. "Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirmiş Ümummilli Lider Heydər Əliyev bütün cəmiyyəti səfərbər edərək onu düzgün yola istiqamətləndirdi. Bu gün 90-cı illərin çətinliklərini artıq geridə qoymuşuq. Biz müasir Azərbaycan dövlətinin inkişafında yeni mərhələ yaşayırıq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır. Ölkəmizdə inkişafın yüksək sürəti təmin edilmişdir. İndi möhtəşəm və məsuliyyətli vəzifələrin öhdəsindən gəlmək üçün dövlətimizin kifayət qədər potensialı və təcrübəsi vardır".

Lakin milli dəyərlərin qorunub saxlanılmasından danışarkən biz heç də onların konservasiyasını nəzərdə tutmuruq. Biz daim irəliyə, gələcəyə baxmalı, insani, maddi və mənəvi resurslarımızı səfərbər etməliyik. Millətin tarixi keçmişi onun gələcəyə uğurla addımlaması üçün həm etibarlı zəmin, həm də ibrət dərsidir. Yeni inkişaf yolunu müəyyən edən strategiyada, sözsüz ki, varisliklə novatorluq vəhdət təşkil etməlidir.

Ümummilli lider Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət xadimi kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşdürmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, Ulu Öndərin cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi. Heydər Əliyev öyrədirdi ki, sərvət toplamaq, dünyanın ən ləzzətli təamlarını nuş etmək, son dəbdə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür. Lakin hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. Gələcək nəsillərə bəlkə də maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərməğan edilməlidir. Ulu Öndər özünün mənəviyyatla bağlı məşhur 2001-ci ilin avqust bəyanatında milli mentalitetlə əlaqədar demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Məlumdur ki, ölkəmiz müsəlman dünyasının ayrılmaz bir hissəsi olaraq islam mədəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir. Eyni zamanda, islam dini xalqımızın həm dini əqidəsi, həm də milli-mənəvi dəyərləri kimi insanların həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Xalqımızın mənəvi inkişafında gənclərimizin əxlaqının formalaşmasında, azərbaycanlıların ailə institutunun möhkəm təmələ söykənməsində islamın rolu əvəzsizdir. İslam bütün müsəlman dünyası tərəfindən qəbul edilə biləcək vahid ilahiyyat konsepsiyası yaratmışdır. İslamın həyat qabiliyyəti dini sistem çərçivəsində müxtəlif nöqteyi-nəzərlərin yanaşı mövcudluğuna imkan verməsi ilə təmin olunur. Ulu Öndər milli-mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, xüsusən dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Azərbaycan xalqının milli həmrəyliyinin bərqərar

olmasında Qurban bayramının xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Ümummilli Lider Heydər Əliyev 2003-cü ildə Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərkən demişdir: "Qoy bütün milli və dini bayramlarımız kimi mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha çox birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin" [3] .

Ulu öndərimiz Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan ümummilli lider Heydər Əliyev türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir.

Hazırda Azərbaycanın türkdilli ölkələrlə mədəni əlaqələrində Türksoy təşkilatı əsas rol oynamaqdadır. Türksoy təşkilatının əsası 1992-ci ilin yazında İstanbul şəhərində türkdilli dövlətlərin mədəniyyət nazirlərinin birinci görüşü zamanı qoyulmuşdur. Türksoyun idarəetmə orqanlarının strukturu və fəaliyyət mexanizmləri təşkilatın 1992-ci ilin dekabrında Bakıda keçirilən ikinci toplantısında formalaşdırılmışdır.

Bundan sonra "Türksoyun yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə" sənədi 12 iyul 1993-cü ildə Almatı şəhərində 6 təsisçi-dövlət və təşkilatın daimi üzvləri – Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan, Qırğızıstan və Özbəkistan respublikaları tərəfindən imzalanmışdır. Daha sonra bu müqaviləyə müşahidəçi dövlət qismində Tatarıstan, Başqırdıstan, Şimali Kipr türk respublikaları, həmçinin RF tərkibində olan Tuva, Xakasiya, Altay, Saxa-Yakutiya respublikaları və Moldova Respublikası tərkibində TAO Qaqauz Yeri qoşulmuşdur.

Türksoy təşkilatının əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir:

– Beynəlxalq münasibətlərin humanistləşdirilməsinə və stabilləşdirilməsinə istiqamətlənən beynəlxalq ictimaiyyətin mənəvi inkişafının prioritetlərini regional və planetar səviyyədə qəbul və təsdiq edilməsi;

– Beynəlxalq dialoqun təşkili və inkişaf etdirilməsi və Türksoya üzv dövlətlərin mədəni oxşarlıqlarının dəstəklənməsi;

– Türkdilli xalq və ölkələr arasında dost münasibətlərin va qarşılıqlı anlaşmanın qurulması;

– Türkdilli xalqların etnogenezi, gerçək tarixi, ədəbiyyat, mədəniyyət və incəsənətin öyrənilməsi sahəsində elmi araşdırmaların intensivləşdirilməsi;

– Öz xalqlarının milli tarixinin, doğma dilinin, ədəbiyyatının, mədəniyyət və incəsənətinin və ənənələrinin yeni nəsil tərəfindən öyrənilməsinin dəstəklənməsi və s.

Əlbəttə, həyat inkişaf etdikcə Türksoyun da fəaliyyət istiqamətləri genişlənir və çeşidli tədbirlər keçirilir. Türkdilli ölkələr arasında elmi-mədəni əlaqələrin genişləndirilməsi fikri 2-3 oktyabr 2009-cu il tarixində Türkdilli Dövlətlərin Dövlət Başçılarının Naxçıvan şəhərində keçirilmiş 9-cu Sammitində qəbul edilmiş Bəyannamədə öz əksini tapmışdır. Qeyd edək ki, Naxçıvan şəhərində keçirilmiş türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü Türksoyun fəaliyyətinə böyük dəstək göstərmiş və türk dünyasının mədəniyyət sahəsindəki əməkdaşlığına yeni yollar açmışdır. Türksoy "Bakı İslam Mədəniyyətinin Paytaxtı- 2009" mədəniyyət ili çərçivəsində keçirilən tədbirlərdə də fəal iştirak etmişdir. Bu məqsədlə Türksoyun Daimi Şurasının 26-cı toplantısı 16-17 oktyabr 2009-cu ildə Bakı şəhərində keçirilmişdir. Toplantını açan Azərbaycan mədəniyyət və turizm naziri Ə. Qarayev hesabat dövründə təşkilatın fəaliyyəti haqqında məlumat verərək bildirmişdir ki, Avrasiyanın türkdilli arealı çərçivəsində milli dil, tarix, mənəvi irs, mədəniyyət və incəsənət yaxınlığı ilə birləşən ölkə və xalqların regional əməkdaşlığını həyata keçirən Türksoy bu sahədə öz fəaliyyətini daha da genişləndirmişdir. Tədbirdə çıxış edən Türksoyun baş direktoru Düsen Kaseinov bu təşkilatın türk xalqlarının daha da yaxınlaşması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat vermişdir. Türk xalqlarının mədəni əlaqələrinin genişlənməsindən bəhs edən D.Kaseinov bildirmişdir ki, dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun "Koroğlu" operası artıq beş ölkədə böyük uğurla nümayiş etdirilmişdir. O qeyd etmişdir ki, dünyanın ən böyük operalarından olan "Koroğlu"nun türk xalqlarının teatr səhnəsində oynanılması bu xalqların mədəni həyatında böyük hadisədir. Türksoyun beynəlxalq əməkdaşlıq

sahəsindəki rolundan danışan D.Kaseinov vurğulamışdır ki, təşkilat YUNESKO, İSESKO, Avropa Şurası, Avrokomissiya, Dövlətlərarası Humanitar Əməkdaşlıq Təşkilatı (DHƏT) və MDB arasında əməkdaşlığın gücləndirilməsinə istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirmişdir.

Qeyd edək ki, Novruz bayramının YUNESKO-nun qeyri-maddı irs siyahısına daxil edilməsində Türksoyun müəyyən rolu olmuşdur. Bu baxımdan Türksoy 2010-cu ildə Novruz bayramını Parisdə YUNESKO-nun mənzil-qərargahında qeyd etməyi nəzərdə tutmuşdur.

Ümumiyyətlə, türkdilli ölkələrdə həyata keçirilən tədbirlər, o cümlədən "Türk dillərinin bədii tərcüməsinin problemləri və müasir vəziyyət" (İstanbul) və "Sivilizasiyaların dialoqunda türk dünyasının rolu" (Almatı) mövzularında simpoziumların, müxtəlif kino, teatr və musiqi festivallarının keçirilməsi həmin ölkələr arasında mədəni əməkdaşlığın genişləndirilməsində Türksoyun mühüm rol oynadığını göstərən faktlardır.

Türkdilli xalqların mədəni əlaqələrinin inkişafında Türksoyun fəaliyyətinin Ulu öndər Heydər Əliyev tərəfindən dəstəklənməsini türkdilli xalqların tarixən formalaşmış ortaq mənəvi dəyərlərinin qorunması sahəsində onun uzaqgörənliyi kimi dəyərləndirmək olar.

Ulu Öndərin daxili və xarici siyasətini uğurla davam etdirən, xalqımızın milli-mənəvi dəyərlərini həmişə uca tutan ölkə Prezidenti cənab İlham Əliyev də islam dini ilə bağlı tarixi ənənələrə və dini bayramlara hörmət və ehtiramla yanaşır. Bütün milli və dini bayramlarda Azərbaycan xalqını təbrik edən hörmətli Prezidentimiz builki Qurban bayramı münasibətilə təbrikdə demişdir: "Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd olunur. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir. Əziz bacı və qardaşlarım! Bu müqəddəs bayram günlərində bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram. Qurban bayramınız mübarək olsun!"

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Xalq qəzeti. 2008. səh.4-5.
2. Azərbaycan multukulturalizmi dərslik. 2017.
3. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrə qədər). Bakı, 1994.
4. Azərbaycan Milli ensklopediyası. Bakı, 2007.

HEYDAR ALIYEV AND THE TURKIC WORLD: BROTHERHOOD AND STRATEGIC COOPERATION

Jamala Hasanova
Azerbaijan State Pedagogical University
1980jama@gmail.com

The collapse of the Soviet Union in 1991 led to the emergence of several independent Turkic-speaking states across Central Asia and the Caucasus. In this new geopolitical reality, Heydar Aliyev, the national leader and third President of Azerbaijan, emerged as a visionary who saw the potential of pan-Turkic cooperation as both a cultural and strategic asset. His leadership played a crucial role in laying the groundwork for institutional and ideological ties among Turkic nations. This paper explores Heydar Aliyev's approach to strengthening relations within the Turkic world, focusing on his diplomatic initiatives, cultural policies, and enduring legacy.

Heydar Aliyev considered the unity of Turkic states not merely as a sentimental or ethnic aspiration, but as a foundation for political and economic partnership. Upon assuming leadership in independent Azerbaijan in 1993, Aliyev immediately prioritized strong bilateral relations with

Turkey, based on the principle of "One nation, two states." This phrase encapsulated the deep cultural, historical, and linguistic connections between the two countries (Aliyev Foundation, n.d.).

Aliyev also viewed regional integration among other Turkic republics — such as Kazakhstan, Kyrgyzstan, Uzbekistan, and Turkmenistan—as essential for regional security and prosperity. He emphasized the shared legacy of the Turkic peoples, and continuously advocated for cooperative policies that would allow the region to grow independently of external influence (Cornell, 2011).

One of Aliyev's major contributions to Turkic cooperation was his commitment to institutional dialogue. Starting in the early 1990s, he actively participated in and promoted the Summits of the Heads of Turkic Speaking States, which began in 1992. These meetings evolved into a platform for multilateral cooperation in various sectors, including economy, energy, education, and transport (Organization of Turkic States, 2021).

Although the Organization of Turkic States was officially established after Aliyev's presidency, his role in fostering the early foundations of Turkic multilateralism was instrumental. His vision anticipated the need for formal institutions to ensure long-term unity and collaboration.

In addition to political diplomacy, Aliyev placed great emphasis on cultural and educational initiatives to build a strong Turkic identity. He supported the transition to a unified Latin-based alphabet among Turkic nations, which was intended to promote literacy and ease communication between states (Huseynova, 2014).

Furthermore, Aliyev encouraged student exchanges, joint cultural events, and historical research on Turkic civilizations. Under his guidance, Azerbaijan hosted numerous conferences, forums, and artistic festivals dedicated to Turkic heritage. He believed that strong cultural awareness among the youth of Turkic nations would reinforce regional solidarity in the future.

Heydar Aliyev's vision continues to shape Azerbaijan's active involvement in Turkic cooperation today. His legacy is frequently referenced in the activities of the Organization of Turkic States, which now includes a wide range of collaborative initiatives—from infrastructure projects like the Trans-Caspian International Transport Route (Middle Corridor) to cultural institutions such as the Turkic Academy.

Aliyev's emphasis on sovereignty, mutual respect, and shared values continues to guide the foreign policies of Azerbaijan and influences regional diplomacy (Efegil, 2019). His leadership is seen as a foundational force in the rise of pan-Turkic consciousness in the 21st century.

Heydar Aliyev, the National Leader of Azerbaijan, played a pivotal role in shaping the modern Azerbaijani state and elevating its position in the international arena. Among his many achievements, one of the most remarkable aspects of his legacy is his strategic vision for fostering unity and cooperation among Turkic-speaking nations. His efforts laid the foundation for a stronger Turkic world built on shared history, cultural affinity, political alignment, and mutual interests. This article aims to explore Heydar Aliyev's contribution to the development of Turkic solidarity and strategic partnerships, emphasizing his vision of brotherhood and cooperation across the region.

The national leader of Azerbaijan, Heydar Aliyev, was a prominent statesman who made significant contributions not only on a national level but also in strengthening the unity and strategic cooperation of the Turkic world. His efforts in building and solidifying relations with Turkic states continue to hold great importance today.

For Heydar Aliyev, the Turkic world was not merely a geographic or ethnic concept. He viewed it as a model of brotherhood based on common history, language, culture, and national values. His famous statement, "We are one nation, two states," originally referring to Azerbaijan and Turkey, also reflected his broader vision for the unity of all Turkic peoples. Under his leadership, Azerbaijan established diplomatic, economic, and cultural relations with newly independent Turkic republics of Central Asia and the Caucasus. Heydar Aliyev played a vital role in Azerbaijan's active cooperation with organizations such as the Turkic Council, TURKSOY, and the Parliamentary Assembly of Turkic States (TurkPA), through which many joint projects were launched.

Heydar Aliyev strongly believed in the cultural and historical unity of the Turkic nations. His famous phrase "One nation, two states," referring to the relationship between Azerbaijan and

Turkey, became a symbol of his vision for broader Turkic integration. He consistently emphasized that the Turkic peoples share common roots, languages, values, and traditions, which should serve as the basis for political, economic, and cultural solidarity.

Aliyev's understanding of Turkic unity was not limited to emotional or cultural ties; it was a well-calculated political and geopolitical strategy aimed at enhancing the influence and cooperation of Turkic countries on the global stage. He believed that unity among Turkic states would contribute to regional peace, security, and development.

Heydar Aliyev gave great importance to strategic cooperation with Turkic states, not only on cultural and spiritual grounds but also in areas of mutual national interest such as energy, transportation, and security. The realization of the Baku-Tbilisi-Ceyhan oil pipeline under his leadership strengthened Azerbaijan's economic independence and created a foundation for energy cooperation with Turkey and other Turkic nations.

Initiatives like the Baku-Tbilisi-Kars railway and the development of the Zangezur Corridor are among the strategic projects that play a vital role today in the integration and logistical connectivity of the Turkic world.

Heydar Aliyev believed that the future of the Turkic world lay in the hands of the younger generation. He paid special attention to educational exchange programs, the promotion of shared literary and historical heritage, and the development of a common Turkic language. Cultural events, conferences, and initiatives carried out in collaboration with TURKSOY and other institutions are among the practical results of this vision.

Heydar Aliyev's loyalty to the Turkic world and his far-sighted policies laid the groundwork for today's unity and cooperation among Turkic states. His call — "The Turkic world must be united and stand together!" — remains relevant and continues to guide the future of the Turkic nations.

Heydar Aliyev transformed Azerbaijan's foreign policy to embrace and strengthen relations with Turkic states such as Turkey, Kazakhstan, Uzbekistan, Turkmenistan, and Kyrgyzstan. His active participation in the Turkic Summits, which began in the early 1990s, reflected his commitment to institutionalizing dialogue and collaboration among these countries. Under his leadership, Azerbaijan became a key player in the Turkic world and a driving force behind multilateral initiatives. He advocated for regular summits, bilateral agreements, and regional projects that would foster deeper political and economic ties. His diplomatic skills helped establish mutual trust among leaders of Turkic states, facilitating closer ties and long-term cooperation.

Heydar Aliyev understood that political rhetoric must be supported by tangible actions. Therefore, he promoted strategic infrastructure and energy projects that would connect Turkic nations economically and geographically. One of the most notable examples is the Baku-Tbilisi-Ceyhan (BTC) oil pipeline, which was initiated under his leadership and became a major regional energy corridor.

Although the pipeline also involved Georgia and Turkey, it symbolized the broader idea of regional cooperation and economic integration among Turkic and neighboring nations. Furthermore, the concept of the Baku-Tbilisi-Kars (BTK) railway, which was later implemented, also stemmed from the foundation laid by Aliyev's regional vision. These initiatives aimed not only to boost Azerbaijan's economy but also to ensure that Turkic countries have shared stakes in each other's stability and prosperity.

Heydar Aliyev placed significant emphasis on cultural diplomacy and educational exchange among Turkic peoples. He believed that shared heritage and historical consciousness were powerful tools for uniting nations. Under his guidance, Azerbaijan expanded cultural cooperation with other Turkic states, including organizing joint festivals, historical commemorations, academic conferences, and language programs. He also encouraged student exchange and the mutual recognition of educational qualifications.

Through such programs, young generations of Turkic countries were given the opportunity to build friendships and networks that would serve future cooperation. Heydar Aliyev's vision continues to guide Azerbaijani foreign policy and the broader Turkic cooperation framework today.

His ideas were further institutionalized with the establishment of the Turkic Council (now known as the Organization of Turkic States), which formalized the cooperation between member states. Azerbaijan remains one of the leading countries in this organization, actively shaping its agenda and priorities.

The political leadership in Azerbaijan, particularly under President Ilham Aliyev, has continued to honor and expand Heydar Aliyev's legacy by strengthening ties with Turkic states and supporting projects and platforms that reflect the principles of unity, mutual respect, and strategic collaboration.

Heydar Aliyev's contribution to the Turkic World goes beyond words; it is a deeply rooted legacy built on a comprehensive vision for unity, peace, and strategic partnership. His ability to translate historical and cultural commonalities into practical cooperation made him not only a national leader but also a statesman admired across the Turkic World.

Through diplomacy, infrastructure development, cultural promotion, and institution-building, he paved the way for a stronger and more integrated Turkic community. His legacy remains a guiding light for future cooperation, ensuring that the bonds of brotherhood among Turkic nations will continue to grow and thrive in the 21st century and beyond. His legacy will live on as a guiding light for the Turkic peoples and as an example for future generations.

Heydar Aliyev's efforts to promote unity within the Turkic world reflect a rare blend of cultural foresight and geopolitical strategy. Through his leadership, Azerbaijan positioned itself as both a bridge and a driving force within the Turkic community. His legacy remains an enduring symbol of the potential for cooperation based on shared identity, history, and mutual interests. As regional integration deepens among Turkic nations, Aliyev's contributions continue to resonate, reaffirming his role as a true architect of Turkic solidarity.

References

1. Aliyev, H. (2004). Speech at the Summit of Turkic-speaking Countries. Baku: Presidential Archives of the Republic of Azerbaijan.
2. Cornell, S. E. (2011). Azerbaijan Since Independence. M.E. Sharpe.
3. Efegil, E. (2019). Turkic Council: Possibilities and limits of regional integration among Turkic states. Alternatives: Turkish Journal of International Relations, 18(2), 35–52.
4. Huseynova, S. (2014). Cultural policy of Azerbaijan in the post-Soviet era: The role of Heydar Aliyev. Caucasus International, 4(1), 95–104.
5. Ismayilov, M. (2021). "Heydar Aliyev's Foreign Policy Strategy and Turkic Cooperation." Journal of Eurasian Studies, 13(2), 110-124.
6. Organization of Turkic States. (2022). History and Development of the Turkic Cooperation Process. Retrieved from https://www.turkkon.org

METEOROLOGİYANIN AVİASİYADAKI ROLU

[1,4]Vaqif Həsənov, [2,4]Oruc Hüseynov, [3,4]Şaiq Quliyev
[1]vgasanov2002@yahoo.com
[2]huseynovoruc2909@gmail.com
[3]saiq.guliyev1122@mail.ru
[4]Heydər Əliyev adına Hərbi İnstitut

Giriş

Aviasiya uçuşların təhlükəsizliyində, topa atışlarında, müasir kəşiyyat müşahidə sistemlərinin görüntü ala bilməsində, hərbi əməliyyatların planlaşdırılmasında və keçirilməsində hava şəraitinin ciddi təsiri vardır. Son illərdə ölkəmizdəki uğurlu aviasiya fəaliyyətlərində həmçinin hava nəqliyyatında da ciddi irəliləyişlər görülməkdədir. Bir çox şəhərlərimizdə, o cümlədən işğaldan azad

olunmuş Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarında yeni hava limanları açılmaqda, hava nəqliyyatı çox sürətli şəkildə artmaqdadır.

Eyni zamanda hərbi aerodromlarda modelləşdirilir və uçuşların meteoroloji təhlükəsizliyini yüksək səviyyədə təmin etmək məqsədilə ICAO standartlarına uyğun olan havanın avtomatlaşdırılmış müşahidə sistemi AWOS (Automated weather observing system) quraşdırılır. Hal-hazırda bir neçə aerodromda istismar olunan meteoroloji stansiyalar AWOS sistemidir. Digərlərində də quraşdırılması planlaşdırılır. AWOS sistemi aerodromda bütün meteoroloji parametrləri ölçür, hazırlayır, yadda saxlayır və əks etdirir.

Əsas hissə

Əslində hava şəraiti, heç bir zaman tərəfsiz deyildir, belə ki, istər müharibə zamanı, istərsə də sülh zamanı, həmişə qarşı tərəf və ya bizimlə bərabərdir: "Əgər biz hava şəraitindən öz mənafeyimizə uyğun istifadə edərsək müttəfiqimiz, etməzsək düşmənimiz olar." Nəticə olaraq döyüş və aviasiya tariximiz boyunca hava şəraitinə diqqət etmədiyimiz zaman havanın düşmənimiz, diqqət etdiyimiz zaman isə müttəfiqimiz olduğunu dəfələrlə rast gəlmişik [1].

Azərbaycanda hava nəqliyyatının meteoroloji təminatını həyata keçirən və bu işlə müntəzəm məşğul olan ilk aviameteoroloji stansiya 1933-cü ilin aprelində Bakı-Binə aeroportunda təşkil edildi, ikinci belə stansiya isə 1934-cü ildə Yevlax aeroportunda işə başladı [4, s.14]. Hərbi aerodromların meteoroloji xidmətləridə 40-cı illərdən sonra təşkil edilməyə başlandı.

Uçuş üçün hazırlanan hava proqnozlarının doğru və etibarlı olması şərtdir. Hər zaman hava şəraiti nəzərə alınaraq uçuş planları aparılmalıdır. Aviasiya və ya hər hansı bir sektora yatırımlar zamanı ərazinin meteoroloji vəziyyəti əsas götürülür, yoxsa uzun müddətə ciddi itkilərlə qarşı-qarşıya qalına bilər. Qışın çox sərt keçdiyi, turbulent hadisələrin sıx olduğu, dumanın heç əksik olmadığı bir ərazidə tikilən hava limani nə qədər müddət aktiv fəaliyyətdə ola bilər? Hava gəmiləri uçuş testlərini təhlükəsiz bir şəkildə necə edə bilər?

Aviasiya meteorologiyası – meteorologiyanın tətbiqi sahəsi olub uçuşların təhlükəsiz hərəkətinə xidmət edir. Meteoroloji amillərin və atmosfer hadisələrinin aviasiya nəqliyyatının fəaliyyətinə təsirini öyrənən, uçuşların meteoroloji təminatının nəzəri əsaslarını və praktiki üsullarını işləyib hazırlayan tətbiqi elmi fəndir. Aviasiya meteorologiyasının başlıca vəzifəsi qarşılıqlı əlaqədə olan iki suallar qrupunun həll olunmasında elmi-praktiki bilgilərin əldə edilməsidir. Birinci qrupa meteoroloji şəraitin hava nəqliyyatının uçuşlarına təsirinin öyrənilməsi, ikinci qrupa isə – onların təhlükəsizliyinin, müntəzəmliyinin və səmərəliliyinin meteoroloji şərait cəhətdən təmin edilməsi aiddir. Aviasiya texnikası isə atmosferin yuxarı təbəqələrinin öyrənilməsi üçün mühüm bir vasitədir [4, s.8].

Beynəlxalq Mülkü Aviasiya Təşkilatının (ICAO) rəsmi ststistikasına görə 1994-2003-cü illər ərzində 19.562 aviasiya qəzası baş vermişdir. Baş verən aviasiya qəzalarının 21.3 %-i hava şəraiti ilə əlaqədar olmuşdur. Hava şəraitinə görə baş verən qəzaların 48.1 %-i küləyə, 20.5 %-i görünüş və buludun aşağı sərhəddinə, 9.2 %-i trublentliyə, 7 %-i buzlaşmaya, 1.2 %-i külək sürüşməsinə və digər meteoroloji hadisələrə görə baş vermişdir (şək. 1).

Dünyada hava yolu ilə daşınan sərnişinlərin son 15 ildə 2.1 milyardan 4.5 milyarda çatması (və ya dünya əhalisinin 33 %-dən 58 %-ə artması) aviasiyadakı inkişafın nə qədər sürətli və böyük olduğunun başa düşülməsi baxımından çox vacibdir. Bu isə Aviasiya sahəsinin sürətli inkişafı ilə əlaqədar olaraq Aviasiya Meteorologiya Elm sahəsinin də daim inkişaf edəcəyi və gün keçdikcə istehsal olunacaq xidmətlərə ehtiyacın daha da artacağı deməkdir [1].

Meteoroloji məlumatlardan istifadə edilərək uçuşların planlaşdırılması da təhlükəsiz və rahat səyahət üçün əsas önəmli şərtlərdəndir. Həmçinin, eniş və qalxış zamanı meteoroloji məlumatlar pilotlar üçün vacibdir. Əsasən, aerodromlardakı görünüş məsafəsi, uçuş-enmə zolağı görünüş məsafəsi, buludun aşağı sərhəddinin hündürlüyü, yağıntının forması və intensivliyi, hündürlük üzrə təzyiq dəyəri, küləyin sürət və istiqaməti, turbulentlik və külək sürüşməsi kimi meteoroloji məlumatlar təyyarələrin təhlükəsiz eniş və qalxış etmələrində ən vacib amillərdəndir. Uçuş fəaliyyətləri baxımından önəm kəsb edən bu meteoroloji parametrlərin daim müşahidə edilməsi məqsədi ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) kriteriyalarına görə, hər bir hava limanında milli

və ya beynəlxalq meteoroloji məlumatların tələblərini qarşılayabiləcək ən azı bir meteoroloji xidmətin olması məcburidir.



Şək. 1. ICAO araşdırmalarına görə baş verən aviasiya qəzalarının statistikası

Pilotlar üçün meteorologiya elmini öyrənmək bir məcburiyyətdir, çünki atmosfer hava gəmilərinin uçduğu məkandır və meteoroloji hadisələrin cərəyan etdiyi bir mühit olan atmosferi bilmədən uçuşların idarə edilməsindən söhbət belə gedə bilməz. Hava gəmisinin uçuş marşrutu boyunca meteoroloji hadisələri bilməsi vacib olduğu kimi, uçuş zamanı hansı növ hava hadisələrinin inkişafda olduğuna dair proqnoz məlumatına və bu proqnoza görə hava gəmisinin təhlükəsiz uça bilməsinə, lazım olduqda meteoroloji proqnozlara uyğun olaraq uçuş planlarının yenilənməsinə, hətta uçuşların ləğv edilməsinə qədər gələn bir prosesin, pilotlar, uçuş planlaşdırıcıları, hava gəmisi sahibləri və digər əlaqəli mühəndislər tərəfindən işlədilməsi lazım ola bilər. Bildiyimiz kimi, atmosferin ən alt təbəqəsi troposferdir. Troposfer Yer səthindən təxminən 36 000 futa qədər (11 000 metrə) qədər olan hündürlüyü əhatə edir. Troposferin üzərində 150 000 futa (50 000 metrə) qədər stratosfer yerləşir. Uçuş fəaliyyətləri əsasən troposfer daxilində, çox az bir hissəsi isə stratosferin alt təbəqəsində həyata keçirilir [1]. Bu sahə ***aviasiya atmosferi*** adlanır. Meteorologiyanın uçuş fəaliyyətlərinə birbaşa təsir edən külək, turbulentlik, temperatur, duman, sis, yağışlar, don və buzbağlama kimi hadisələri daim nəzarətdə saxlayan və hava pronozları tərtib edən qolu Aviasiya Meteorologiyası adlanır.

Yuxarı hündürlüklərdə reaktiv axın adlanan güclü küləklər hava gəmilərinin uçuş marşrutu hesablamalarında nəzərə almalı olduğu önəmli amillərdən biridir. Yüksək sürətli küləklər yanacaq planlaması ilə birbaşa əlaqəlidir. Hava gəmisi güclü baş küləyin təsirinə məruz qalarsa, çatma nöqtəsinə sakit bir küləyin təsirində çatacağından daha uzun zamana çatar. Qüvvətli baş külək yanacaq sərfiyyatına iqtisadi baxımdan neqativ təsir edəcək. Hava gəmisi güclü quyruq küləyinə məruz qalırsa bu zaman küləyin hərəkəti dəstəkləyici bir rol oynayacaqdır. Beləcə yanacaq sərfiyyatı azalacaq və zamana da qənaət ediləcəkdir. Yüksək sürətli küləklər ilə bağlı diqqət edilməsi lazım olan ən önəmli nöqtə bu küləklərin, uçuş marşrutu boyunca yan təsirindən yayınmaqdır (yəni yan küləkdən qaçmaqdır).

Atmosfer hadisələrinin aviasiyada önəmi: Hava gəmisi mühərriklərinin istilik təzyiqi kimi dəyişkənliklərdən ən az təsirlənəcək şəkildə dizaynlanması, mühərriklərin hündürlükdə mümkün qədər məhsuldarlığını qoruya bilməsi, ən önəmlisi pilotların və sərnişinlərin təhlükəsiz bir yerdən digər yerə atmosferdə səyahət edə bilməsi üçün atmosferdə baş verən prosesləri bilmək və izləmək çox vacibdir. İstehsalçının mühərrik, turbo sistemi seçərkən təyyarənin təhlükəsiz uçacağı hündürlüyü nəzərə alması vacibdir. Nəticə olaraq, hava gəmisi hazırlanarkən mütləq meteoroloji məlumatlar nəzərə alınmalıdır.

Mühitdəki havanın istiliyi, təzyiq və rütubət məlumatları havanın sıxlığını müəyyən edir. Bütün digər amillərin dəyişməz qaldığını fərz etsək, bir hava limanının yerləşmə hündürlüyündənki artma orta təzyiqi azaldar və bu, havanın orta sıxlığına təsir edəcəkdir. Bu səbəblə yüksək hündürlükdə yerləşən hava limanlarında daha uzun QEZ-nin tikilməsinə ehtiyac var. Havanın sıxlığının azalmasının başqa bir təsiri də mühərriyin gücünün zəifləməsi, daşıma və sürtünmə qüvvələrini azaltmasıdır. Belə nəticəyə gəlinir ki, hündürlük üzrə sıxlığın dəyişimi ilə nəqliyyatın performansı tərs mütənasibdir. Məsələn, bir təyyarə dəniz səviyyəsinə görə 1000 fut hündürlükdə uçmasına baxmayaraq, atmosfer şəraitinə görə o hündürlüyə uyğun gələn sıxlığın hündürlüyü 2500 fut isə, təyyarənin performansı 2500 fut hündürlükdə uçurmuş kimi (və ya daha aşağı) reallaşacaqdır [1].

Aviasiya buludluluq önəmli bir amildir. Görünüş məsafəsini azaldan sis, duman, su buxarının kondensasiyasından əmələ gələn "buludluluq" kimi meteoroloji hadisələr hava gəmilərinin eniş və qalxmasında problem yaşamasına səbəb olur. Xüsusən sisli, dumanlı havada görünüş məsafəsinin bilinməsi təyyarələrin təhlükəsiz eniş və ya qalxış etməsi qərarlarının alınmasında ən önəmli amillərdən biridir. İnsan gözü, xüsusilə də gecə saatlarında görünüş məsafəsini təyin etməkdə səhv etməyə meyillidir. Buna görə də görünüş məsafəsi texniki bir alətlə (transmissometr) ölçülərək, pilotlara eniş və ya qalxışda görünüş məsafəsinin dəqiq nə qədər olması məlumatı çatdırılır.

Xüsusilə enişə gələn təyyarələrin pis hava şəraitində problem yaşamadan enəbilmələri üçün Cihazla Eniş Sistemi (İnstrument Landing System-İLS) istifadə edilərək, pilotların QEZ-ə yaxınlaşarkən təyyarələri təhlükəsiz idarə etmələri təmin edilir. İLS QEZ-də lazımlı olduğu kimi, təyyarələrin də İLS ilə əlaqəsini təmin edən uçuş cihazlarının təyyarələrdə olması vacibdir. İLS minimumlarına pilotun təhlükəsiz gələbilməsi üçün təyyarədəki İNS (İnertial Navigator System), GPS (Global Positioning System) kimi sistemlərin varlığına, nəqliyyat rabitəsi və yönləndirməsi edə biləcək bacarıqda yer radarlarına ehtiyac var [1].

Aerodroma eniş zamanı əsasən uçuş zolağının görünüş məsafəsinin (Runway Visibility Reading-RVR) pilotlar tərəfindən bilinməsi vacibdir. Bunun üçün gündüz "marker board" ları və ya gecə isə uçuş zolağının işıqlarını eniş və qalxış istiqamətində görəbilmək üçün UEZ astanasında 15 fut yüksəklikdən görüləbilən ən uzaq məsafə RVR olaraq ölçülür. RVR görünüşün 1500 m-dən aşağı qiymətlərində ölçülür. Uçuş şəraitinə görə 15 və ya 30 dəqiqədən bir transmissometr cihazı istifadə edilərək ölçmələr həyata keçirilir. RVR dəyərləri buludun aşağı sərhəddinin hündürlüyü, QEZ-in texniki strukturu və eniş edən təyyarənin texniki xassələri və nəhayət pilotun təcrübə səviyyəsi ilə ölçülür [1].

Uçuş zamanı buzlaşma meydana gəldiyində, hava gəmisinin aerodinamikasında ciddi müvəqqəti dəyişikliklər əmələ gəlir. Əsasən qanad quruluşunun pozulmasına səbəb olan buzbağlama, hava gəmisinin konfüqurasiyasının pozulmasına da gətirib çıxarır. Buzlaşma zamanı təyyarənin qaldırma qüvvəsi (lift) 30% azalarkən, sürtünmə qüvvəsi (drag) 40%-ə qədər artır və buna səbəb isə buzbağlama ilə əlaqəli olaraq təyyarənin çəkisinin artmasıdır. Təyyarənin ağırlığının artması daha yüksək sürətlərdə təyyarənin dayanma meylini artırır (hərəkət sürətinin zəifləməsi), bu da uçuşun təhlükəsizliyi baxımından istənməyən bir haldır. Eyni zamanda buzbağlamanın davam etməsi artan sürtünmə və ağırlıq səbəbilə təyyarənin yanacaq sərfiyatının artmasına, bəzi hallarda isə planlaşdırılmış təyinat yerinə çatmadan yanacağın bitməsinə, bu səbəblə də marşrutdakı yaxınlıqda yerləşən bir meydançaya enişlə nəticələnə bilər [7].

Aviasiya sənayesi qanad uclarında, qanadın ön hissələrində (aparıcı kənar), mühərrik hava ventilyatorlarlarında və.s. hissələrində "buza mane olucu" elektrikli müqavimətlərdən ibarət buzbağlamanın qarşısını alacaq tədbirlər inkişaf etdirilmişdir. Qalxış anında buzlaşma əlamətləri

mövcuddursa, meteoroloji proqnozlarda belə bir xəbərdarlıq varsa, qalxış öncəsi texniki heyət təyyarənin qanadlarına buzlaşmaya qarşı mübarizə üsuli kimi xüsusi kimyəvi qarışığı püskürtərək qalxışda təyyarələrin təhlükəsizliyi üçün lazım olan texniki dəstəyi verməlidir

Uçuşlara təsir edən digər önəmli bir meteoroloji hadisə isə Külək Sürüşməsidir (Wind Shear). Külək sürüşməsi atmosferdə iki nöqtə arasında küləyin sürət və ya istiqamətində, ya da hər ikisində meydana gələn şaquli və ya üfüqi ani dəyişikliyindən əmələ gəlir. Bu meteoroloji hadisə hava limanlarında uçuşlar üçün təhlükəli şərait yaradır. Əsasən də alçaq hündürlüklərdə meydana gələn külək sürüşməsi enişdə, qalxışda və QEZ boyunca təyyarələr üçün təhlükəli şərait yaradır. Bu nöqtələrdə meydana gələn külək sürüşməsi təyyarənin eniş zamanı enerji qazanmasına və ya itirməsinə, ani hündürlük dəyişikliklərinə, QEZ-dən kənara çıxmalara səbəb olarkən, qalxışda isə yenə çox ani hündürlük dəyişikliklərinə, enerji itirməsinə və qalxış zamanı çətinliklərə səbəb ola

Aerodromlardakı meteoroloji xidmətələr müəyyən edilmiş zaman aralıqları ilə mövcud hava şərtlərinin müşahidələrini qeyd edərkən, eyni zamanda gözlənilən hava şəraitinin də proqnozlarını hazırlamaqdadır. Cədvəl 1-də meteorologiyada istifadə edilən meteoroloji mənbələr, onların hansı xüsusiyyətlərlə əlaqəli olduğu və hansı məqsədlərlə istifadə edilməsi göstərilmişdir [7, s. 12].

Cədvəl 1

Meteoroloji mənbələr və onların istifadə məqsədləri

Meteoroloji mənbə	**Meteoroloji xüsusiyyət**	**İstifadə məqsədi**
Radar görüntüsü	Yağış	Qısamüddətli hava proqnozunda yağışın miqdarı, bövü və aerodrom üzərinə gəlmə zamanını proqnozlaşdırmaq üçün istifadə edilir.
Peyk görüntüsü	Buludluluq	Qısamüddətli hava proqnozunda buludların yuxarı sərhəddinin hündürlüyünü, bağlılıq dərəcəsin və aerodrom üzərinə gəlmə zamanını proqnozlaşdırmaq üçün istifadə edilir.
Yuxarı səviyyə xəritəsi	Buzlaşma	Buzlaşma səviyyəsi və şiddətini proqnozlaşdırmaq üçün istifadə edilir.
	Turbulentlik	Turbulentlik səviyyəsi və şiddətini proqnozlaşdırmaq üçün istifadə edilir.
	Bulud növü	Cumulonimbos (topa-yağış) və qalınlaşmış cumulus (topa) buludlarını proqnozlaşdırmaq üçün istifadə edilir.
Sinoptik xəritələr	Temperatur	Sinoptik müşahidələr nəticəsində əldə edilən məlumatların hər bir sinoptik stansiya üçün xəritələrə işlənməsinin nəticəsi hava kütləsi hərəkətinə görə gələcək hava vəziyyətini və cəbhələrin keçidlərini proqnozlaşdırmaq məqsədi ilə istifadə edilir.
	Buludluluq	
	Külək	
	Rütubət	
Meteoqram və Airoqram	Rütubət	Aid olduğu aerodrom və ətrafı üçün təzyiq, rütubət, yağış miqdarı və növü, səmanın buludla bağlılıq dərəcəsi və buludun aşağı sərhəddinin hündürlüyü, küləyin istiqamət və şiddəti, temperatur və şeh nöqtəsi temperaturunu proqnozlaşdırmaq üçün istifadə edilir. Bu məlumatların əldə edilməsi nəticəsində görünüş məsafəsini zəiflədən hadisə olan çən və duman kimi hadisələrin yaranmasını proqnozlaşdırmaq olar.
	Təzyiq	
	Yağış	
	Buludluluq	
	Külək	
	Temperatur	

Təyyarənin qalxış ağırlığını müəyyən etmək üçün qalxış aerodromu proqnozlarının, əsasəndə küləyin istiqaməti və şiddəti, temperatur dəyəri, təzyiq məlumatlarının pilotlara və uçuşu idarə edən heyətə ötürülməsi lazım ola bilər. Yol boyunca havadakı dəyişikliklər, güclü turbulent nöqtələri, buzlaşma səviyyələri və zonaları, tufan əməlgəlmələri və digər önəmli hadisələr, meteoroloji məlumatlar ən yenilənmiş vəziyyətdə çatdırılmalıdır. Eniş aerodromunun və yaxınlıqdakı ehtiyyat aerodromların yenilənmiş hava proqnozları və varsa inkişaf edən təhlükəli hava hadisəsi, pilota maneyəyə yaxınlaşma radarları tərəfindən ötürülərək, onun ən təhlükəsiz şəkildə planlaşdırdığı aerodroma enməsi və ya ehtiyyat aerodroma yönəlməsi gözlənilir. Meteoroloji stansiyalarda bu

mövzuda havanın faktiki məlumatlarını (METAR) və proqnozlarını (TAF - Terminal Aerodrome Forecas) pilota və uçuş idarəedicilərinə müəyyən edilmiş vaxtlarda çatdırılması vacibdir. Aviasiya ilə əlaqəli proqnoz növləri Cədvəl 2-də göstərilmişdir [1].

Cədvəl 2

Aviasiya məqsədli proqnoz növləri

Proqnoz tipi	Əhatə etdiyi sahə	Uçuş planlaşdırma mərhələsi
1. Aerodrom Proqnozu – TAF	Hava Limanı	Uçuş qabağı və uçuşda
2. Eniş və Qalxış Proqnozu	Hava Limanı (Əsasən də yaxınlaşma və toxunma zonası)	Uçuş qabağı və uçuşda
3. Marşrut Xətti Proqnozları	Marşrut Xətti	Uçuş qabağı və uçuşda
4. SİGMET Məlumatları	FIR (Flight İnformation Region) sahəsi	Uçuş qabağı və uçuşda
5. AİRMET Məlumatları	FIR (Uçuş Məlumat Zonası) sahəsi	Uçuş qabağı və uçuşda
6. Aerodrom Xəbərdarlıqları	Hava Limanı Yer Şərtləri	Park edən təyyarələr, Hava Limanı inşaatları
7. Külək Sürşməsi Xəbərdarlıqları	Hava Limanı və yaxınlaşma/qalxış yolu ilə QEZ arasındakı 500 m-lik səviyyə, ehtiyac halında daha yüksək səviyyələr	Uçuş qabağı, qalxışda və uçuş zamanı

Türkiyə Respublikasının Milli Texnologiya Həmləsinin ən önəmli sahələrindən olan Milli SİHA-ları hərbi sahələrdən, meşə yanğınlarına, qanunsuz miqrasiya axınlarını izləməyə qədər bir çox sahələrdə istifadə olunur. Bütün hava gəmilərinin uçuşlarında olduğu kimi PUA-ın uçuşu üçün də hava hərəkətlərinin həlledici rolu var. PUA-lar hava hərəkətləri və aerodinamik qüvvətlərdən faydalanaraq uçurlar. Uzaqdan tam avtonom bir sistemlə idarə olunan uçuşun dinamik dövrləri, atmosferin mövcud vəziyyətində bağlıdır. Bu səbəblə atmosferdə meydana gələn turbulentlik, fırtına, buzlaşma kimi təhlükəli hava hadisələri PUA-ların təhlükəsiz uçuşu üçün böyük əhəmiyyət kəsb edir. [7 - Səlcuk Bayraktar].

Meteoroloji xidmətlərin proqnozlarının verilmə müddəti 2 saatdan az, 24 saatdan çox olmayaraq və hər aerodrom 24 saatlıq proqnoz hazırlamaqdadır. Pilotsuz uçuş aparatlarının havada qalma müddəti ilə sərnişin təyyarəsinin havada qalma müddəti fərqlidir. Pilotsuz uçuş aparatlarının havada qalma müddəti 24 saat və daha artıq ola bilir. Buna görədə aerodrom proqnozlarının və ya digər meteoroloji nəticələrin də uçuş planlaşdırılmasındakı böyük əhəmiyyəti var.

İnkişaf edən aviasiya sektoruna və hava gəmilərinin meteoroloji ehtiyaclarına daha çox töhvə vermək və tələbləri qarşılamaq məqsədi ilə Ümumdünya Meteorlogiya Təşkilatı, əsasən də pilotsuz uçuş aparatlarına daha yaxşı bir dəstək vermək məqsədi ilə müəyyən qaydalarda dəyişikliklər etməkdə və bu dəyişikliklər uçuş təhlükəsizliyinə töhvə verməkdədir. Məsələn, pilotsuz uçuş aparatlarının daha çox uçduğu aerodromlarda bütün buludluluq məlumatına sahib olmaq məqsədi ilə aerodrom müşahidə kodlarından CAVOK (Cealing and Visiblity Okey) qısaldılması çıxarılmışdır. CAVOK qısaldılması görünüş və buludun aşağı sərhəddinin uçuş limitlərinə uyğun mənasına gəlməkdədir. Beləcə havadakı buludlar və səmanın bağlılıq dərəcəsi ilə əlaqəli məlumat verməkdə və buna görə havanın vəziyyətinin pilotsuz uçuş aparatlarının uçuşu üçün əlverişli olub-olmadığına qərar verilməkdədir [1].

Pilotlar, uçuş idarəetmə heyəti, meteoroloji mühəndislər kimi meteoroloji hadisələr və hava proqnozları çərçivəsində işlərini görən istifadəçilər arasında aviasiya meteorologiyasına istinad xüsusi və ortaq bir dil mənasında bir terminologiya inkişaf etdirilmişdir. Məsələn buludluluq üçün istifadə edilən aşağıdakı terminlər vardır:

- SKC (Sky Clear) – bulud yoxdur və ya aydın səma
- FEW – səmanın 2/8-i buludla bağlıdır və ya azbuludlu
- SCT (Scarted) – səmanın 4/8-i parçalı buludludur

- BKN (Broken) – səmanın 7/8-i, yəni hardasa tamamı buludla örtülüdür
- OVC (Overcast) – səmanın 8/8-i, yəni tamamı buludla örtülüdür.

Hər zaman hava şəraiti nəzərə alınaraq uçuş planları aparılmalıdır. Aviasiya və ya hər hansı bir sektor yatırımlar zamanı bölgənin meteoroloji vəziyyəti əsas götürülür, yoxsa uzun müddətə ciddi maliyyətlərlə qarşı-qarşıya qalına bilər. Qışın çox sərt keçdiyi, turbulent hadisələrin sıx olduğu, dumanın heç əksik olmadığı bir bölgədə tikilən hava limani nə qədər müddət aktiv fəaliyyətdə ola bilər? Hava gəmiləri uçuş testlərini sağlam bir şəkildə necə edə bilər? və s.

Hava şəraitnin yaxşı olduğu bölgələrdə hava limanları tikmək, hava gəmiləri istehsal edən şirkətlər test fəaliyyətlərini uçuş şərtlərinin ən yaxşı olduğu bölgələrdə etmək, həm yanacaq sərfiyyatı, həm də uçuş təhlükəsizliyi baxımından çox böyük önəmə sahibdir.

Ən azı 5 illik meteoroloji məlumatlar yeni hava limanının yeri və uçuş-enmə zolağı yerlərini müəyyən etmək üçün istifadə olunur. Bu məqsədlə aparılan təhlillərdə bütün meteoroloji şərait (duman, temperatur, küləyin üstünlük təşkil edən istiqaməti və sürəti, yağıntı (xüsusilə qar yağması), buzlanma effekti və s.) yoxlanılır və yerin hava limanı üçün yararlılığı qiymətləndirilir. İstifadə olunacaq uçuş-enmə zolağı istiqamətləri müəyyən edilmiş üstünlük təşkil edən hakim küləyin istiqamətinə uyğun olaraq müəyyən edilir (şək. 2). *Nəticədə, yeni yaradılan hava limanından təhlükəsiz və səmərəli istifadəni təmin edəcək ən mühüm amillərdən biri statistik meteoroloji məlumatların diqqətlə təhlilidir* [6].



Şək. 2. Hava limanı uçuş-enmə zolağının və hakim küləyin istiqaməti

Nəticə

Məqaləni yekunlaşdırarkən qey etmək istəyirəm ki, aviasiya və meteorologiya arasında çox önəmli əlaqələr mövcuddur. Hava gəmilərinin arzu olunan performansı təmin edəbilməsi üçün ideal hava şəraitində uçurulması və hazırlanan proqnozların doğru olması şərtdir.

Hava nəqliyyatının mürəkkəb hava şəraitinə görə təxirə salınmaması üçün planlaşdırma və iqtisadi strategiyaların, pilotlar və digər heyətlər üçün, meteoroloji məlumatlar olduqca önəmlidir.

Aviasiya sektorunun inkişafı onu göstərir ki, aviasiya fəaliyyətləri üçün lazımlı meteoroloji məlumatların əhəmiyyəti daha da artıracaqdır.

Gələcəkdə hərbi aerdromlarda hazırlanan müntəzəm faktiki hava məlumatları (METAR), hava proqnozları (TAF) və digər məlumatların İCAO tövsiyələrinə uyğun olaraq, 4 hərfli aerodrom indeksi üzərindən internet vasitəsilə yayılması, Milli Hidrometeorlogiya xidmətinin meteoroloji radar, aerozond və avtomatik meteoroloji stansiya məlumatlarının digər qrumlarla qarşılıqlı olaraq ötürülməsi, hərbi və mülkü aviasiya uçuşlarının meteoroloji təhlükəsizliyini daha səmərəli edə bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Fahrettin Öztürk, Temel Kotil. Havacılık ve Meteoroloji // (Elektron resurs) URL: https://www.researchgate.net// publication/352176232/.
2. Meteoroloji Ders Kitabı, Türk.//(Elektron resurs) URL: Hava Kuvvetleri 2 nci Ana Jet Üs Komutanlığı Yayınları. Türk Hava Kuvvetleri UÇAKLARI. Turkish air forces AIRCRAFTS. https://www.tayyareci.com/ digerucaklar/turkiye/index.asp web sayfasından alınmıştır (07.04.2020)
3. Mikdat Kadıoğlu. Askeri isthbarat və hava raporları.// (Elektron resurs) URL: https://www.hurriyet.com.tr/istihbarat-ve-hava-raporlari-20888532.
4. Quliyev H.İ, Məmmədov Ə.S,Məmmədov B.Ə, Aviasiya meteorologiyası. Dərslik. Bakı, 2013. 361 s. MAA-nın Poliqrafiya Mərkəzində çap olunmuşdur.
5. Havacılk meteorolojisi ve ekstrem meteoroloji koşuların havacılık için önemi // (Elektron resurs) URL:https://www.meteoroloji.org.tr/havacilik-meteorolojisi-ve-ekstrem-meteorolojik kosullarin-havaciliktaki-önemi.
6. Quliyev H.İ., Cuvarov R.P. Aviasiya hava xəritələri vasitəsilə uçuşların meteoroloji şəraitinin qiymətləndirilməsi / tədris-metodiki vəsait. Bakı 2005. – 135 s.MAA-nın Poliqrafiya Mərkəzində çap olunmuşdur.
7. Mikdat Kadıoğlu. Havaçılık Meteorolojisine Giriş. İstanbul, 2021, 468s. Nobel Yayım evi.
8. Quliyev H.İ., Hüseynov N.Ş. "Aviasiya meteorologiyası" fənni üzrə qisa mühazirələr kursu. – Bakı, 2004. – 80s. MAA-nın Poliqrafiya Mərkəzində çap olunmuşdur.
9. Savunma saneyisi/karqo İHA Türkiyediki ilk yükünü güvenlik gücleri için taşıyacak. //(Elektron resurs) URL: https://www.aa.com.tr/tr/savunma-sanayisi/kargo-iha-turkiyedeki-ilk-yukunu-guvenlik-gucleri-icin-tasiyacak/2955476.
10. Əhmədov T.C. Azərbaycanda aviasiyanın meteoroloji təminatına dair / Hidrometeorologiya və ətraf mühitin monitorinqi, №1, 1998, s. 89-91

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN TƏHSİLİNİN HAMİSİ

Osman Azad oğlu Əhmədzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
osman120895@gmail.com

"Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır."

(Heydər Əliyev)

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib. Ötən əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil edir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratdı. Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaş-

dırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu 1982-1987-ci illərdə də Azərbaycan gənclərinin respublikanın hüdudlarından kənarda təhsil almasına şərait yaradırdı. [2] Tez-tez azərbaycanlı tələbələrlə görüşür, onların problemlərinin həlli üçün bütün imkanlardan istifadə edirdi. Onları "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirirdi. "Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir", - deyən Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb. [1] İslahatlar təkcə təhsil müəssisələrini əhatə etmir, gənclərin təhsilə həvəsləndirilməsi üçün də əsaslı işlər görülürdü. Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında 2001-ci il 3 sentyabr tarixli Fərman bunun bariz nümunəsidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əhmədova S. Heydər Əliyevin dil siyasəti. Bakı – 2010, 212 s.
2. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı- Avropa, 2019, 594 s.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN DİLİNİN ALİ HİMAYƏDARI

Gülöyşə Azad qızı Əhmədzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
gulu010894@gmail.com

"Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir."
(Heydər Əliyev)

Dilin zaman-zaman hərtərəfli inkişaf etməsi və zənginləşib dolğunlaşması, tarixi şəxsiyyətlərin, qüdrətli dövlət başçılarının adı ilə də sıx bağlıdır. Ümummilli lider Heydər Əliyev belə tarixi şəxsiyyət idi. O 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu. Tam qətiyyətlə demək olar ki, Ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış və milli azadlıq ruhunu yüksəltdi. Ölkə rəhbərinin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də Konstitu-

siyanın dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarıldı. Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit (21-ci maddə) olundu. Azərbaycan Prezidentinin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, 506 saylı fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli, 76 nömrəli sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, 552 nömrəli sərəncam və nəhayət, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. [1] Bu sənədlərin hazırlanmasında böyük tarixi şəxsiyyət Heydər Əliyevin yüksək intellekti, zəngin dövlətçilik təcrübəsi, yenilməz məntiqi, vətəndaşlıq qeyrəti, ana dilinə misilsiz məhəbbəti mühüm rol oynayıb.

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda möhtərəm Heydər Əliyevin başladığı müqəddəs milli mücadilənin tarixi bir qərinədən çox davam etmişdir. Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi ulu öndərimizin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində mümkün olmuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmişin buxovlarından azad olunması, xalqın qan yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır. Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur". [2]

Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dilinin keşiyində durmaq Ulu öndər Heydər Əliyevin həyat fəaliyyətinə çevrilmişdi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əkbərov B. Heydər Əliyev mili konstitusiyamızın yaradıcısı və banisidir. Bakı, 1998, 96 s.
2. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, 2002, 232 s.

HEYDƏR ƏLİYEV VƏ SOSİAL İNKİŞAF STRATEGİYASI

Nərgiz Nazim qızı Niftəliyeva
Mingəçevir Dövlət Universiteti
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dissertantı
niftaliyeva.nargiz@mdu.edu.az

Azərbaycan Respublikasının hazırkı dayanıqlı inkişafı və hərtərəfli tərəqqisinin əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır.

Vaxtilə Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi islahatlar olmasaydı, Azərbaycanın hazırkı inkişafı ancaq xəyal olaraq qalardı. Bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahədən danışanda dünyamiqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin adı çəkilməsin.

Müasir dünyanın siyasət tarixinə siyasi müdriklik və əzəmətlə mənəvi kamilliyi şəxsiyyətində birləşdirən lider nümunəsi gətirən, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi hər iki dövr möhtəşəm quruculuq, dinamik və hərtərəfli inkişaf mərhələləri kimi tariximizin qızıl səhifələrinə çevrilib. Bu mərhələlərin hər biri Azərbaycanın müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişdiyi dövr olmaqla, Ulu Öndərimizin dövlətçilik fəlsəfəsinin əsasını təşkil edən sosial rifah amilinin də güclənməsi və etibarlı sosial müdafiə sisteminin formalaşması ilə müşaiyət olunub. Ölkəmizin bütün sahələrdə uzunmüddətli inkişafına xidmət edən genişmiqyaslı islahatların sosial hədəflərlə uğurlu şəkildə uzlaşdırılması təmin edilərək, milli iqtisadiyyatın inkişafında əhalinin sosial maraqlarının təminatı prinsipi ön planda saxlanılıb.

Məhz onun ölkəmiz və xalqımız qarşısındakı misilsiz xidmətləri sayəsində müasir Azərbaycan dövləti qurulmuş, dövlətçiliyimizin siyasi, iqtisadi əsasları yaradılmış, ölkəmiz dünyada öz layiqli yerini tutmuşdur. Təsadüfi deyildir ki, ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövr müstəqilliyimizin əbədi və dönməz xarakter alması, dövlətçiliyimizin möhkəmlənməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunmuş, Heydər Əliyevə fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazandırmışdır.

O, ölkənin daxili siyasi kursunu müəyyənləşdirərkən sosial siyasətə, xüsusən sosial müdafiə sahəsinə böyük diqqət ayırdı və sosial siyasəti ölkənin daxili siyasətinin prioritet istiqaməti kimi müəyyən etdi. Heydər Əliyev öz uzaqgörən siyasəti ilə əhalinin sosial müdafiəsinin təmin olunması ilə bağlı mühüm tədbirlərin həyata keçirilməsini ardıcıl olaraq həyata keçirdi. Total böhran səviyyəsində olan ölkə vətəndaşlarının sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə Heydər Əliyev 1994-cü ilin 15 iyun tarixində "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərman, Fərmandan irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" növbəti sənəd imzaladı. İnsanların sosial müdafiəsinin mükəmməl və etibarlı şəkildə təmin olunması üçün hüquqi bazanın daha da möhkəmləndirilməsi istiqamətində 1995-ci ildə Ümummilli Liderin birbaşa müəllifliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Həmin Konstitusiyanın 16-cı maddəsində deyilirdi ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır. Beləliklə də, ölkədə bu istiqamətdə hüquqi bazanın möhkəmləndirilməsi və təkmilləşdirilməsi məqsədilə ardıcıl addımlar atıldı. Qəbul edilən rasional qərarlar sayəsində əhalinin əmək haqları, müavinətləri və pensiyalarında və bütövlükdə əhalinin real gəlirlərinin artırılması sahəsində ciddi müsbət dəyişikliklər oldu. 2000-ci illərin əvvəlindən isə inkişaf prosesi daha da sürətləndi. Bu dövr ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı bir sıra sərəncamlar, fərmanlar imzalandı, qanunlar qəbul edildi. Xüsusilə əlillərin, şəhid ailələrinin, Qarabağ müharibəsi veteranlarının statusu və onların sosial müdafiəsini şərtləndirən və təmin edən qanunvericilik aktları qəbul olundu. Çernobıl əlillərinin, pensiyaçıların, sosial müavinət alanların, əlil uşaqların sosial müdafiəsi ilə bağlı bir sıra qanunlar qəbul edildi. [1]

Azərbaycan Respublikasında uğurla həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq, ölkədə demoqrafik vəziyyətin və əhalinin orta illik artım göstəricilərinin yaxşılaşmasına, ömür uzunluğunun artmasına və müsbət miqrasiya saldosuna, eləcə də əhali sahəsində digər göstəricilərin müsbət tendensiyasına nail olunmuşdur.

Bütün həyat və fəaliyyəti Azərbaycanın inkişafına həsr olunan Ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi hər bir dövrdə xalqın rifah halının yaxşılaşdırılmasını, etibarlı sosial müdafiə sisteminin qurulmasını dövlətin ən vacib vəzifələrindən biri kimi müəyyən edib.

Müasir müstəqil Azərbaycan dövlətinin qurulması və uzunmüddətli inkişaf yoluna səfərbər olunmasını təmin edən Ulu öndər Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən biri xalqın rifahının təmin olunması, sosial müdafiə sisteminin gücləndirilməsi, iqtisadi islahatların sosial yönümlü olmasının təmin edilməsi olub.

Eyni zamanda, həmin dövrdə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında

qanunlar, əlilliyin qarsısının alınması və reabilitasiyası üzrə ilk Dövlət Proqramı, Pensiya İslahatı Konsepsiyası, Demoqrafik İnkişaf Konsepsiyası hazırlanaraq təsdiq edilib. Əmək qanunvericiliyinə dövlət nəzarətini həyata keçirən dövlət qurumu - Dövlət Əmək Müfəttişliyi Xidməti yaradılıb. [2]

"Dövlət həm şəhid ailələrinə, həm də şəhidlərin balalarına daim qayğı göstərib və qayğı göstərəcəkdir. Buna əmin ola bilərsiniz. Biz şəhid ailələrini, şəhid balalarını heç vaxt yalqız qoymayacağıq. Buna tam arxayın ola bilərsiniz", - deyən Ulu öndər Heydər Əliyevin tapşırıqları əsasında şəhid ailələrinə dövlətin qayğısı ildən-ilə artırılıb. Həmçinin hələ ötən əsrin 90-cı illərində ölkəmizdə mühüm sosial proqramlara - şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan insanların mənzillə və fərdi evlərlə təminatı, müharibə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olanların minik avtomobilləri ilə təminatı proqramlarına başlanıb.

Onun müəyyən etdiyi vəzifələrə uyğun olaraq əlilliyi olan şəxslərin reabilitasiyası və cəmiyyətə fəal inteqrasiyası sahəsində geniş miqyaslı tədbirlərin həyata keçirilməsi, əlilliyi olan şəxslər üçün yeni bərpa-müalicə müəssisələrinin yaradılması təmin olunub. Əlilliyi olan şəxslərin istedad və qabiliyyətlərinin aşkara çıxarılaraq dəstəklənməsi, onların yaradıcılıq imkanlarının cəmiyyətə tanıdılması üçün ardıcıl tədbirlər həyata keçirilib.

Azərbaycanın gələcək taleyinin müəyyən olunduğu belə bir ağır zamanda dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla, ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan ulu öndər Azərbaycanı xaos və böhrandan qurtardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, böyük xilaskar missiyasını yerinə yetirdi. Hakimiyyətə "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm" prinsipi ilə qayıdan Heydər Əliyev ömrünün sonunadək bu strateji xəttə sadiq qaldı. Bu gün də tam əminliklə demək olar ki, əgər o vaxt ölkədə baş verən hadisələrə Ümummilli Liderin şəxsi müdaxiləsi, prisipiallığı olmasaydı, Azərbaycan adlı dövlət dünya xəritəsində olmazdı. [3]

Beləliklə, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial inkişaf strategiyası da Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməklə, sosial nailiyyətlər, vətəndaş rifahının təminatı sahəsində irəliləyişlər davamlı xarakter alıb.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Quliyeva X.N. Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat/ - Bakı: Elm, 2019. S.416
2. Qurbanov S.H. Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi. İzə, Bakı, 2022. S.436
3. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı: Avropa, 2019, 594 s.

HEYDƏR ƏLİYEV İRSİNİN GƏNCLƏR SİYASƏTİNƏ TƏSİRİ: KEÇMİŞİN TƏCRÜBƏSİ, GƏLƏCƏYİN İNKİŞAFI

Qaragöz Kərim oğlu Kərimov
Müngəçevir Dövlət Universiteti
Azərbaycan Texniki Universitetinin doktorantı
qaragoz.karimov@mdu.edu.az

Giriş

Heydər Əliyev Azərbaycanın müasir dövlət quruculuğu tarixində mühüm rol oynayan liderdir. O, 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra gənclərin sosial-iqtisadi və siyasi həyata inteqrasiyasına dair ardıcıl siyasət yeritmişdir [1].

Heydər Əliyevin gənclər siyasətinin əsas istiqamətləri təhsil, elm, idman və mədəniyyət sahələrini öz əhatəsində birləşdirir.

Gənclərin ölkənin ictimai-siyasi həyatında aktiv iştirakının təmin edilməsi üçün müxtəlif hüquqi və iqtisadi tədbirlər görülmüşdür. Heydər Əliyevin bu sahədə apardığı islahatlar müasir dövrdə də öz əhəmiyyətini qoruyub saxlayır [2].

Heydər Əliyev vəənclər siyasəti

Heydər Əliyev dövlət siyasətinin vacib istiqamətlərindən biri kimi gənclərin hüquqi və sosial rifahını üstün tələblər sırasında qoymuşdur. 1994-cü ildə "Gənclər Siyasəti Haqqında" dövlət proqramını təsdiqləməsi, 1996-cı ildə "Azərbaycan Gənclər Günü"nün elan olunması bu sahədə atılan əsas addımlardan olub. O, eyni zamanda xaricdə təhsil alan azərbaycanlı gənclərin dəstəklənməsi təşəbbüsünü irəli sürmüş, elm və texnologiya sahəsində innovativ yanaşmalara üstünlük vermişdir [3].

Heydər Əliyev dövründə gənclərin təhsil səviyyəsinin artırılması əsas hədəflərdən biri olmuşdur. 1998-ci ildə imzalanmış "Dövlət Gənclər Siyasəti haqqında" fərman çərçivəsində xaricdə təhsil proqramları, universitetlərin maddi-texniki bazasının gücləndirilməsi və elmi tədqiqatların stimullaşdırılması istiqamətində addımlar atılmışdır [4].

Gənclərin ictimai və siyasi proseslərə inteqrasiyası Heydər Əliyevin siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. O, 1999-cu ildə Azərbaycan Gənclər Forumunun keçirilməsinə nail olmuş və gənclərin siyasi fəallığının artırılmasını dəstəkləmişdir [5].

Heydər Əliyev mədəniyyət və idman sahələrinin inkişafını da gənclər siyasətinin ayrılmaz hissəsi kimi görürdü. Onun təşəbbüsü ilə ölkədə bir çox beynəlxalq idman tədbirləri keçirilmiş, gənc idmançıların yetişdirilməsi üçün şərait yaradılmışdır. O, həmçinin milli-mədəni irsin qorunmasına və gənclər arasında təbliğinə böyük diqqət yetirmişdir.

Müasir Azərbaycan gəncliyinin formalaşması

Müasir Azərbaycan gəncliyi Heydər Əliyevin mənimsətdiyi prinsiplər əsasında formalaşmışdır. Hazırda Prezident İlham Əliyev tərəfindən bu siyasət davam etdirilir və gənclərin potensialının artırılması istiqamətində yeni proqramlar həyata keçirilir. 2011-ci ildə yaradılan Gənclər Fondu və "2020-2025-ci illər üçün Gənclər Strategiyası" bu istiqamətdə dövlət siyasətinin inkişafına işarə edir.

Bununla yanaşı, gənclər təşkilatlarının inkişafı, startap layihələrinin dəstəklənməsi və gənclərin iqtisadi fəaliyyətə cəlb olunması ilə bağlı müxtəlif proqramlar həyata keçirilir [4]. Gənclərin liderlik qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə beynəlxalq təcrübəyə əsaslanan təlimlər təşkil edilir.

Gənclərin innovasiya və texnologiya sahələrində fəal iştirakı Azərbaycan dövlətinin inkişaf strategiyasının prioritet istiqamətlərindən biridir. Rəqəmsal iqtisadiyyatın genişləndirilməsi və startap ekosisteminin gücləndirilməsi gənclərimizin gələcəkdə daha böyük nailiyyətlər qazanmasına imkan yaradır [2].

Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti bu gün də uğurla davam etdirilir. Gələcəkdə gənclərin daha geniş şəkildə innovasiya və texnologiya sahələrinə yönləndirilməsi, onların beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və ekoloji problemlərlə bağlı maarifləndirilməsi kimi istiqamətlərdə yeni strategiyalar formalaşdırılması vacibdir [3].

Nəticə

Heydər Əliyevin həyata keçirdiyi gənclər siyasəti, təhsil, elm, mədəniyyət və idman sahələrində əsaslı inkişafa yol açmışdır. Müasir dövrdə bu siyasətin davam etdirilməsi Azərbaycan gənclərinin cəmiyyətə inteqrasiyasını və liderlik potensialını artırmağa xidmət edir.

Gələcək perspektivlər baxımından, gənclərin rəqəmsal texnologiyalar və innovativ sahələrdə daha fəal iştirakı təşviq edilməlidir. Eyni zamanda, gənclərin beynəlxalq təcrübədən faydalanaraq Azərbaycan iqtisadiyyatına və sosial inkişafına töhfə verməsi üçün xarici təhsil imkanları genişləndirilməlidir. Hökumət tərəfindən gənclər üçün sahibkarlıq dəstəyi proqramlarının gücləndirilməsi, startap ekosisteminin inkişafı və ekoloji şüurun artırılması vacibdir. Bu istiqamətdə atılacaq addımlar Heydər Əliyevin siyasi irsinin müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirilməsinə və gənclərin daha güclü və vətənpərvər bir nəsil kimi yetişməsinə zəmin yaradacaqdır.

Müsrik Heydər Əliyevin uzaqgörən siyasəti Azərbaycan gəncliyinin formalaşmasına, təhsilin, mədəniyyətin, idmanın və elmin inkişafına ciddi təsir göstərmişdir. Müasir dövrdə onun siyasi kursunun davam etdirilməsi Azərbaycanın beynəlxalq məkanlardakı rolunun artmasına şərait yaradmışdır.

Gənclərin inteqrasiyası və innovativ təşəbbüslərinin dəstəklənməsi Azərbaycan cəmiyyətinin gələcək inkişafına töhfə verəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi. (2020). Azərbaycan gənclər siyasəti strategiyası. Bakı: GİN Nəşriyyatı.
2. Qasımov, Ə. (2018). Gənclər və dövlət siyasəti: Müasir yanaşmalar. Bakı: Təhsil Nəşriyyatı.
3. Hüseynov, S. (2021). Azərbaycan gənclərinin inkişaf strategiyası: çağırışlar və perspektivlər. Bakı: Universitet Nəşriyyatı.
4. Məmmədov, R. (2015). Heydər Əliyev siyasətində gənclərin rolu. Bakı: Elm və Təhsil.
5. Əliyev, H. (1996). Azərbaycan Gəncləri Günü. Bakı: Prezident Kitabxanası.

HEYDƏR ƏLİYEV: AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA İNVESTİSİYA-İNNOVASİYA QOYULUŞLARI VƏ BEYNƏLXALQ MALİYYƏ BAZARINA ÇIXIŞI

Aytən İlham qızı Nadirova
Mingəçevir Dövlət Universiteti
Ankara Hacı Bayram Veli Üniversitesinin (Türkiye) doktorantı
ayten.nadirova@mdu.edu.az, nadirova.aytan01@ogr.hbv.edu.tr

Giriş

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası 1990-cı illərin iqtisadi böhranından çıxaraq, qlobal maliyyə və investisiya sisteminə inteqrasiya yolunda mühüm addımlar atdı. Bu dövrdə dövlətin əsas strategiyası – xarici investisiyaların cəlb olunması, neft gəlirlərinin düzgün idarə olunması və innovativ iqtisadi modelin təməl prinsiplərinin formalaşdırılması oldu. Bu strategiya Azərbaycanın beynəlxalq maliyyə bazarındakı nüfuzunu və iştirakını gücləndirdi.

Heydər Əliyevin iqtisadi inkişaf strategiyası və siyasi sabitliyin və iqtisadi idarəetmənin təmin edilməsi sahəsində önəmli işlər gördmüşdü. 1993-cü ildən başlayaraq siyasi sabitlik və hüquqi çərçivənin formalaşdırılması. Özəlləşdirmə proqramları, torpaq islahatı, bank sektorunun yenidən təşkili.

Neft və qeyri-neft sektoruna paralel yanaşma

"Əsrin müqaviləsi" (1994) ilə neft sektoruna milyardlarla dollar dəyərində investisiya axını, eyni zamanda kənd təsərrüfatı, sənaye, nəqliyyat və informasiya-kommunikasiya texnologiyaları (İKT) kimi sahələrin inkişafına zəmin yaradıldı.

İnvestisiya qoyuluşları və onların beynəlxalq maliyyə bazarlarına çıxışı, xarici sərmayələrin ölkəyə cəlbi.

ABŞ, Böyük Britaniya, Rusiya, Norveç və s. ölkələrdən gələn sərmayələr. Dövlətlərarası investisiya razılaşmaları və vergi güzəştləri həyata keçirilməyə başalnıldı.

Dövlət Neft Fondu (SOFAZ)

SOFAZ-ın yaradılmasının zəruriliyi və Heydər Əliyevin baxışı

Neft gəlirlərinin effektiv idarə olunması

Ümummilli lider Heydər Əliyev neft gəlirlərinin yalnız büdcə xərclərinə yönəlməsini deyil, həmçinin uzunmüddətli strateji ehtiyat kimi qorunmasını vacib sayırdı. Bununla bağlı Ulu Öndərin bir fikrini xatırlatmaq yerinə düşər: "Neft Azərbaycanın milli sərvətidir və bu sərvət xalqın rifahı üçün ədalətli və səmərəli istifadə olunmalıdır."

Gələcək nəsillərin maraqlarının qorunması fondu yaratmaqla, o gələcək nəsillərə bu sərvətin ötürülməsini və bu gəlirlərin istismar edilmədən səmərəli istifadəsini təmin etdi.

Heydər Əliyevin Dövlət Neft Fondunun formalaşmasına verdiyi dəstəklər hüquqi baza və strukturun yaradılması 29 dekabr 1999-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə SOFAZ təsis edildi. Fondun fəaliyyətinin şəffaflığını və hesabatlılığını təmin edən ilk Əsasnamə məhz Heydər Əliyevin təşəbbüsü ilə təsdiqləndi. Şəffaflıq və beynəlxalq təcrübəyə uyğun idarəetməsi. Heydər Əliyev fondun idarə olunmasının şəffaf, hesabatlı və müstəqil olmasını tələb edirdi. O, fondun beynəlxalq maliyyə institutlarının qaydalarına uyğun şəkildə idarə olunmasına xüsusi önəm verirdi (bu, sonradan Azərbaycanın EITI – Şəffaflıq Təşəbbüsü üzrə nümunəvi ölkə kimi tanınmasına gətirib çıxardı). Fondun məqsədyönlü istifadəsi üçün ölkə inkişafı və beynəlxalq arenada müsbət yöndə tanınması üçün bir çox addımlar atmışdır.

Neft gəlirləri yalnız cari xərclərə deyil, həm də strateji layihələrə, o cümlədən sosial proqramlar, infrastruktur layihələri, təhsil və səhiyyə investisiyaları regionların inkişafı kimi məqsədlərə yönəldildi.

SOFAZ-ın beynəlxalq maliyyə sistemində rolu və Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi Heydər Əliyev fondunun yalnız ölkədaxili iqtisadi sabitlik üçün deyil, Azərbaycanın beynəlxalq iqtisadi imicinin formalaşması üçün də mühüm vasitə olduğunu başa düşürdü. SOFAZ-ın aktivləri qlobal bazarlarda yerləşdirilməyə başladı (səhm portfelləri, xarici dövlət istiqrazları, daşınmaz əmlak).

Azərbaycanın beynəlxalq investorlara etibarlı və sabit tərəfdaş olduğunu sübut etdi. Fondun uğurlu fəaliyyəti nəticəsində, Azərbaycan kredit reytinqlərində yüksəliş yaşadı və xarici investisiyalar üçün daha cəlbedici hala gəldi.

Neft gəlirlərinin şəffaf və effektiv idarə olunması (1999-cu ildən)

Fondun aktivləri beynəlxalq maliyyə bazarlarında yerləşdirildi (səhmlər, istiqrazlar, daşınmaz əmlak və s.) Beynəlxalq maliyyə reytinqləri: Fitch, S&P, Moody's kimi qurumlar Azərbaycanın kredit qabiliyyətini tanımağa başladı.

İnnovasiya siyasəti və rəqəmsallaşma təməlləri

Heydər Əliyev dövründə texnoloji və innovativ iqtisadi modelə keçid hələ ilkin mərhələdə idi. İKT sahəsinə dövlət dəstəyi göstərildi.

Rəqəmsal bankçılıq və elektron ödəniş sistemlərinə keçid üçün texniki hazırlıq başladı. Kadr hazırlığı və təhsil sahəsində yeni proqramlar tətbiq olundu (texniki ixtisaslar üzrə). Bu addımlar Azərbaycanın sonrakı illərdə "rəqəmsal iqtisadiyyat" modelinə keçidini asanlaşdırdı və sürətləndirdi. Beynəlxalq maliyyə bazarlarında Azərbaycanın mövqeyinin güclənməsi üçün vacib işləri həyata keçirdi

Heydər Əliyevin iqtisadi strategiyasının nəticələri

Azərbaycan qlobal enerji bazarının mühüm iştirakçısına çevrildi. SOFAZ kimi dövlət investisiya fondları vasitəsilə qlobal investisiya portfelləri yaradıldı. Yerli şirkətlərin və bankların beynəlxalq maliyyə institutları ilə birbaşa əməkdaşlığı başladı (EBRD, IFC, WB və s). Azərbaycan maliyyə texnologiyalarına (*fintech*) açıq və investe olunabilən ölkə kimi tanınmağa başladı.

Ümummilli lider Heydər Əliyevin siyasi uzaqgörənliyi və iqtisadi strategiyası nəticəsində, Azərbaycan müstəqilliyinin ilk illərində ciddi iqtisadi transformasiya yaşadı. Yaradılan investisiya mühiti, strateji resursların səmərəli idarə edilməsi və innovasiya infrastrukturu üçün təməllər, ölkənin beynəlxalq maliyyə bazarlarında mövqeyini gücləndirdi və rəqəmsal əsrə keçidini asanlaşdırdı.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev. Dərs vəsaiti. Bakı – 2018
2. Mirzəyev R. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. – Bakı : [s. n.], 2001. – 124 s.
3. Mirzəyev R. Heydər Əliyev və Müstəqil Azərbaycan Dövlətinin yeni neft strategiyası = Heydar Aliyev and new oil strategy of independent Azerbaijan. – Bakı : Göytürk, 1999. – 89 s.
4. https://report.az/ru/analitika/reformy-gejdara-alieva-put-k-ekonomicheskomu-liderstvu/
5. https://azertag.az/ru/xeber/strategiya_glubokih_ekonomicheskih_reform-1054804

MİLLİ İDENTİKLİYİN FORMALAŞMASINDA LİDERİN ROLUNUN PSİXOLOJİ ASPEKTLƏRİ

Aydın Xalid oğlu Kərimov
Mingəçevir Dövlət Universiteti
Gəncə Dövlət Universitetinin doktorantı
aydin.karimov@mdu.edu.az

Giriş

Milli identiklik, bir cəmiyyətin özünəməxsus xüsusiyyətlərini dərk etməsi və bu xüsusiyyətlərə emosional və mənəvi bağlılığını ifadə etməsi ilə formalaşan kompleks psixoloji prosesdir. Sosial psixologiya və siyasi psixologiya sahələrində bu fenomen, xüsusilə keçid dövrlərində – müstəqillik, sosial dəyişikliklər və milli təhlükəsizlik məsələlərinin aktuallaşdığı zamanlarda daha da əhəmiyyətli hala gəlir. Bu baxımdan, 1990-cı illərdə Azərbaycan Respub-likasının yaşadığı mürəkkəb siyasi, iqtisadi və psixoloji durum milli identiklik məsələsini yenidən gündəmə gətirmişdir.

Azərbaycan xalqının bu çətin dönəmdə özünü dərk etməsi, dövlətinə və gələcəyinə inamını bərpa etməsi Heydər Əliyev şəxsiyyəti və liderliyi ilə sıx bağlıdır. Onun siyasi ritorikası, ideoloji yanaşmaları və milli ruhu yüksəltməyə yönəlmiş fəaliyyəti təkcə inzibati və siyasi ölçülərlə deyil, həm də dərin psixoloji aspektlərlə analiz olunmalıdır. Xüsusilə "Azərbaycançılıq" ideologiyasının formalaşması və vətəndaşların bu ideologiya ətrafında birləşməsi, liderin psixoloji təsir gücünü və kollektiv identiklik yaratmadakı rolunu göstərir [1].

Bu tezisdə milli identiklik anlayışı psixoloji aspektdən təhlil olunur və lider fiqurunun bu prosesdə oynadığı rola diqqət yetirilir. Tədqiqat çərçivəsində Azərbaycan Respublikasının müasir tarixində xüsusi yeri olan Heydər Əliyev şəxsiyyəti nümunə kimi götürülərək, onun ritorikasının və liderlik stilinin Azərbaycan xalqının milli kimlik şüurunun formalaşmasındakı psixoloji təsirləri araşdırılır.

Teorik baza olaraq, Henri Tajfelin sosial identiklik nəzəriyyəsi, Eriksonun identitet yanaşması, eləcə də Jung və Freudun kollektiv şüur və lider fiquru ilə bağlı nəzəri fikirləri əsas götürülmüşdür. Təhlillər göstərir ki, Heydər Əliyevin çıxışlarında yer alan "Azərbaycançılıq", "biz", "xalqımız", "müstəqillik" kimi ifadələr xalqda kollektiv mənsubiyyət hissini gücləndirərək milli identiklik dəyərlərini psixoloji müstəvidə möhkəmləndirmişdir.

Xüsusilə 1990-cı illərin əvvəllərində cəmiyyətin keçirdiyi travmatik hadisələr fonunda liderin ritorikası xalqın emosional sabitliyi və gələcəyə inamı üçün mühüm mənbə rolunu oynamışdır. Nitqlərdəki simvolik, motivasiyaedici və emosional elementlər fərdi kimliyi milli dəyərlərlə birləşdirmiş, vətəndaşlıq şüurunun formalaşmasına səbəb olmuşdur.

Nəticə olaraq, milli identiklik formalaşmasında liderlik yalnız inzibati deyil, həm də psixoloji bir proses kimi çıxış edir. Heydər Əliyev nümunəsində bu prosesin uğurla həyata keçirildiyi və liderin kollektiv psixologiyanın yönləndirilməsində mühüm rol oynadığı aydın olur.

Yaxın keçmişə nəzər saldıqda milli identikliyin formalaşması prosesinin ölkəmizdə Heydər Əliyev iris ilə gözəl şəkildə vəhdət təşkil etdiyini görərik. Bu məqalədə məqsəd Ulu öndər Heydər Əliyevin milli identiklik üzərindəki psixoloji təsirini araşdırmaq, onun liderlik davranışlarının və nitqlərinin Azərbaycan cəmiyyətində mənsubiyyət hissinin formalaşmasına necə xidmət etdiyini təhlil etməkdir.

Tədqiqat, siyasi psixologiya və kollektiv kimlik nəzəriyyələri çərçivəsində aparılacaq, Heydər Əliyevin çıxış nümunələri üzərindən analitik təhlillərlə dəstəklənəcəkdir.

I. Milli İdentiklik və Liderlik: Teorik Yanaşmalar

1.1. Milli identiklik anlayışı və psixoloji əsaslar

Milli identiklik insanın özünü müəyyən bir etnik, mədəni və ya siyasi topluluğa mənsub hiss etməsi ilə formalaşan psixoloji bir qurumdur. "Fərdlər öz mənliklərini qrup üzvlüyü vasitəsilə müəyyənləşdirirlər. Bu mənlik hissi həm də qrupun sosial dəyərləri və prestiji ilə birbaşa əlaqəlidir" fikirləri ilə Henri Tajfel sosial identiklik nəzəriyyəsinə əsasən, fərdlər özünü müəyyən qrupların

üzvü kimi qəbul etməklə həm öz mənlik hissini formalaşdırır, həm də bu qrupun dəyərlərini mənimsəyirlər. Erikson isə milli identikliyi insanın həyat boyu keçdiyi identitet böhranlarının bir mərhələsi kimi görür ("Milli və ya mədəni identiklik fərdin psixoloji bütövlüyü ilə millətin tarixən qəbul olunmuş simvolları arasında qarşılıqlı əlaqədir.") və onu şəxsiyyətin sabitliyində əsas komponent hesab edir [3,4].

Azərbaycan cəmiyyəti üçün milli identiklik yalnız mədəni və dil birliklərini əhatə etməklə qalmayıb, həm də tarixi yaddaş, torpaq uğrunda mübarizə və siyasi sabitlik kimi elementləri özündə birləşdirir. Bu identikliyin formalaşmasında güclü və simvolik lider fiquru mühüm yer tutur.

1.2. Liderlik və kollektiv identikliyin psixoloji əlaqəsi

Liderlik sadəcə təşkilati və ya siyasi idarəçilik deyil, eyni zamanda kütlənin emosional və psixoloji ehtiyaclarını dərk etmə və onları birgə məqsədlər ətrafında səfərbər etmə bacarığıdır. Sigmund Freud kollektivin liderə olan bağlılığını ataya olan uşaq bağlılığına bənzədərək lideri kollektiv şüuraltının "istək obyektinə" çevirir. Carl Jung isə "Lider, xalqın kollektiv şüuraltında yer alan arxetiplərin təcəssümüdür – o, cəmiyyətin qorxularını və ümidlərini öz simasında birləşdirir" fikrləri ilə lideri arxetipik qəhrəman kimi dəyərləndirir – kollektivin ümumi ruh halını özündə təcəssüm etdirən fiqur [6].

Bu yanaşmalar fonunda Heydər Əliyevin liderlik obrazı həm rasionallıq, həm də emosional bağlılıq üzərində qurulmuşdur. Onun çıxışlarında "Azərbaycançılıq", "birlik", "müstəqillik", "xalqın gücü" kimi anlayışlar milli identikliyi həm rəmzi, həm də praktik müstəvidə ifadə edir.

II. Heydər Əliyevin Liderlik Fiquru və Milli İdentiklik

2.1. Tarixi kontekst və psixoloji ehtiyaclar

Erich Fromm "Azadlıqdan qaçış" əsərində deyir: "Kütlə, qeyri-müəyyənlik və təhlükə ilə üzüzə qaldıqda, onu azadlığa deyil, güclü bir liderə təslim olmağa meyllidir" [5].

1990-cı illərin əvvəllərində Azərbaycan xalqı dərin bir kimlik böhranı ilə üzləşmişdi. Sovet ideologiyasının çökməsi, müharibə şəraiti və siyasi qeyri-sabitlik nəticəsində həm fərdi, həm də kollektiv səviyyədə ciddi emosional dezinteqrasiya yaşanırdı. Bu dövrdə xalqın özünü tanımağa, sabitliyə və bir rəhbərə ehtiyacı vardı – bu ehtiyac isə Heydər Əliyevin liderlik ritorikası və hərəkətləri ilə qarşılandı. Qorxu, ümid və inam hisslərinin düzgün şəkildə yönləndirilməsi və düzgün yönləndirilmənin sonunda ərsəyə gələn nəticələrin idarə edilmə forması Heydər Əliyev irsini tədqiq edən alimləri heyrətə gətirmişdir.

Heydər Əliyev xalqın "birlik" hissini yenidən dirçəltmək üçün bir çox çıxışlarında və təşəbbüslərində milli birliyi, mədəni mirası və dövlətçilik ruhunu vurğuladı.

2.2. Nitqlərdə milli identiklik elementləri və psixoloji təsir

Heydər Əliyevin nitqləri həm məzmun, həm də emosional quruluş baxımından kollektiv identikliyi möhkəmləndirən əsas vasitələrdən biri olmuşdur. Onun 1994-cü ildəki çıxışında səsləndirdiyi "Azərbaycan xalqı öz dövlətinə sahib çıxmalıdır. Bu bizim varlığımızdır." ifadəsi, psixoloji mənsubiyyət hissinin təşviqinə yönəlmişdir. Digər bir çıxışında "Azərbaycançılıq- bu, hər bir vətəndaşın Azərbaycanı vəsf etməsi, onu sevməsi, onunla fəxr etməsidir" deyərək Heydər Əliyev vətəndaşlarımızda dövlətinə, millətinə emosional bağlılığı (sevməsi, fəxr etməsi və s.) gücləndirmişdir.

1993-cü ildə Ümummilli Lider tərəfindən səsləndirilmiş digər bir cümləyə nəzər yetirək: "Müstəqillik bizim ən böyük sərvətimizdir və onu qorumaq hər bir azərbaycanlının borcudur". Cümlənin psixoloji təhlili zamanı dinləyicilərə "vətəndaşlıq şüuru", müstəqilliyin qorunması uğrunda xalqın ortaq məsuliyyətə cəlb olunması və kollektiv identikliyin təbliği nümunələrinə rast gəlinir.

1999-cu ildə Heydər Əliyev gənclərə müraciət edərək deyir: "Siz – Azərbaycanın gələcəyisiniz. Sizin düşüncəniz, bilik və bacarığınız bizim sabahımızı müəyyən edir". Bu kəlamları təhlil edən zaman görürük ki, gənclərə sətiraltı məsuliyyətlər yüklənir, özlərini mühüm hiss etmələrinə şərait yaradılır, digər bir tərəfdən Ümummilli Lider motivasiya və idetifikasiya tandemində gəncləri ruhlan-dırır [2].

Nitqlərdəki əsas psixoloji elementlər:

- Mənsubiyyət hissi ("bizim dövlətimiz", "xalqımızın iradəsi")

- Birgə keçmiş və gələcək anlayışı ("keçmişimizdən dərs çıxaraq gələcəyimizi qururuq")
- Emosional motivasiya (ümid, qürur, fədakarlıq)
- Bu ritorika vasitəsilə xalq özünü həm keçmişlə, həm liderlə, həm də gələcəklə bağlı hiss edir.

Nəticə

Araşdırma nəticəsində məlum oldu ki, milli identikliyin formalaşması yalnız mədəni və tarixi amillərlə deyil, həm də güclü lider fiqurunun psixoloji təsiri ilə sıx bağlıdır. Heydər Əliyevin Azərbaycan xalqına müraciət forması, istifadə etdiyi ritorik vasitələr və ideoloji çağırışlar insanlarda mənsubiyyət hissini möhkəmləndirmiş, cəmiyyətin özünü bir bütöv olaraq dərk etməsinə şərait yaratmışdır.

Onun nitqlərindəki "biz", "xalqımız", "dövlətimiz" kimi ifadələr fərdlərin öz mənliklərini milli kimliklə eyniləşdirməsinə səbəb olmuşdur. Liderin keçmişə hörmət, gələcəyə inam və bu günə bağlılıq arasında yaratdığı tarazlıq, kollektiv emosional sabitliyin və sosial inteqrasiyanın təmin olunmasında mühüm rol oynamışdır.

Heydər Əliyev fenomeni sübut edir ki, milli identiklik siyasi ideologiya deyil, həm də psixoloji bir prosesdir və bu prosesin mərkəzində xalqla psixoloji rezonans yaradan lider fiquru durur.

Nəticə və təkliflər

- Təhsil proqramlarında milli identiklik və psixoloji faktorlar əlaqələndirilməlidir. Heydər Əliyevin çıxışlarının psixoloji analizi orta və ali məktəblərin vətəndaşlıq və psixologiya dərslərində istifadə oluna bilər.
- Yeni nəsil liderlər üçün təlimlərdə psixoloji liderlik bacarıqları önə çəkilməlidir. Ritorika, emosional intellekt və kütlə ilə psixoloji ünsiyyət bacarıqları milli kimlik quruculuğunda əsas amillərdən biridir.
- Milli identiklik sahəsində tədqiqatlar genişləndirilməlidir. Xüsusilə psixologiya və tarix sahələri üzrə multidissiplinar yanaşmalarla lider fiqurlarının təsiri dərinləşdirilməlidir.
- Lider nitqlərinin psixoloji və diskursiv analizi üçün rəqəmsal baza yaradılmalıdır. Bu, həm elm adamlarına, həm də gənc tədqiqatçılara yeni imkanlar təqdim edəcək.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Həsənov, Ə. (2006). Heydər Əliyev və Azərbaycan Dövlətçiliyi. Bakı.
2. Əliyev, H. (2000). Çıxışlar və Nitqlər Toplusu (1993–2000). Bakı: Azərbaycan Nəşriyyatı.
3. Tajfel, H. (1981). Human Groups and Social Categories: Studies in Social Psychology.
4. Erikson, E. H. (1968). Identity: Youth and Crisis.
5. Fromm, E. (1941). Escape from Freedom.
6. Jung, C. G. (1959). The Archetypes and the Collective Unconscious.

МОДЕЛЬ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНЕ: ИСТОРИЧЕСКИЙ КОНТЕКСТ И СОВРЕМЕННЫЙ ВЗГЛЯД

Гамида Шамиль кызы Самедова
докторант
Академия государственного управления при Президенте Азербайджанской Республики
hemidesamedova63@gmail.com

Развитие общества в значительной степени зависит от качественного управления, создания адаптивной системы управления и эффективных механизмов, а также их целенаправленного использования. Это касается качественного государственного управления, которое отвечает за организацию социально-политической структуры общества. Государственное управление можно рассматривать как систему, в рамках которой принимаются политические и административные решения с использованием администра-тивно-государ-

ственного аппарата. Современный международный опыт показывает что, несмотря на существующие различия, в цивилизованных странах достижение достойного уровня жизни для каждого гражданина возможно лишь при условии эффективного и рационального государственного управления.

Важно отметить, что государственное управление включает не только официальные органы, но и широкий набор институтов и механизмов. Здесь речь идет о том, что государственное управление, основывающееся на законах и других нормативно-правовых актах, включает не только исполнительную, законодательную и судебную ветви власти, но и работу местных органов самоуправления, а также общественных и неправительственных организаций. В тех странах, где отсутствует эффективное государственное управление в таком широком масштабе невозможно ожидать быстрого и значительного прогресса в социальных и экономических сферах, а также в развитии демократических ценностей и плюрализма.

Эффективное государственное управление требует учета традиций государственности каждой конкретной страны, её национально-духовных ценностей и гармоничного сочетания этих аспектов с современными вызовами. Это подразумевает, что управление, которое интегрирует человеческие идеалы, передовые мировые практики и исторические традиции, представляет собой весьма сложный процесс.

Данная тема особенно важна для стран, которые переходят к политическим системам, основанным на новых тенденциях.

В конце XX века, после распада Советского Союза, Азербайджан вновь ставший независимым столкнулся с множеством внутренних проблем в процессе создания современного государственного управления. В тот период неэффективная политика некомпетентных руководителей оказала негативное влияние на государственную систему, что привело к её кризисному состоянию. Эта ситуация в целом способствовала хаосу в стране и поставила под сомнение будущее Азербайджана. Иными словами, национальная государственность оказалась под угрозой исчезновения.

В результате настойчивых требований и решительного призыва народа Азербайджана, который не желал мириться с текущей ситуацией Общенациональный лидер Гейдар Алиев вернулся к власти. Он не только обеспечил настоящую государственную независимость Азербайджана, но и привнес в государственное управление, строительство и администрирование новые теоретические и практические подходы, которые имеют огромное значение для всех эпох. Благодаря неустанному труду этого выдающегося лидера в Азербайджане были заложены основы эффективного и демократического управления, улучшена оперативность и прозрачность работы государственных органов, а также возросло внимание к нуждам и заботам граждан. Принцип ответственности в управлении стал приоритетным. В результате всего этого восстановилось доверие народа к государственным органам и вера в власть.

Благодаря своей многогранной деятельности и выдающейся личности, оставившей заметный след в истории Азербайджана Гейдар Алиев, вернувшись к власти во второй раз всего за 10 лет создал совершенную государственную концепцию. Эта концепция основывалась на глубоких научных знаниях и богатом интеллектуальном потенциале, что стало основой для прогрессивного опыта в области государственного управления. Данный период можно рассматривать не только как новую эру в политической истории Азербайджана, но и как время когда были заложены основы новых идеологических и концептуальных подходов к вопросам, касающимся жизни и судьбы народа.

С возвращением Гейдара Алиева к власти в Азербайджане начался новый этап в истории нашей независимости. После его избрания Президентом независимого государства великий лидер обозначил ключевые задачи, направленные на защиту, укрепление и развитие суверенитета страны, заявив: "укрепление государственной независимости, создание независимого государственного строя, формирование и развитие государственных атрибутов, обеспечение территориальной целостности и полного суверенитета Азербайджанской Республики, вывод страны из состояния войны, улучшение благосостояния граждан, созда-

ние необходимых условий для их жизни — эти задачи станут основными направлениями моей президентской деятельности."

Общенациональный лидер разработал концепцию независимого государственничества, основываясь на глубоком анализе сущности, целей и факторов, влияющих на процессы внутри страны, в регионе и на международной арене, а также на создании соответствующих программ действий, учитывающих текущую ситуацию.

Идеология азербайджанства, созданная Гейдаром Алиевым с выдающейся мудростью и дальновидностью постепенно эволюционировала в мощную и здоровую идею, объединяющую народ и общество вокруг своего государства. Эта идеология с достоинством преодолевшая самые сложные испытания своего времени с годами только укреплялась и обрела вечную ценность.

В концепции государственного управления этого выдающегося деятеля важное место занимало осознание сильного государства. Это подразумевало наличие эффективного механизма как центрального так и местного управления, стабильной общественно-политической системы, идеальной нормативно-правовой базы и действенных законов, а также справедливого общества, которое ставит интересы народа на первое место, и непоколебимого, устойчивого национального единства.

В ноябре 1995 года на всенародном референдуме была принята первая национальная Конституция независимого Азербайджана. Этот выдающийся документ автором которого является Гейдар Алиев отражает принципы государственного управления, соответствующие современным требованиям.

Наша Конституция, являясь синтезом международного опыта и национальных ценностей, провозгласила народ единственным источником государственной власти в Азербайджане. Она закрепила принцип разделения властей (законодательной, исполнительной и судебной), предоставила гражданам обширные права и свободы, а также включила положение о недопустимости узурпации власти. Все это стало ярким примером формирования модели государственного управления, основанной на демократических принципах.

12-я статья Конституции установила защиту прав и свобод человека и гражданина, а также обеспечение достойного уровня жизни как главную цель государства. Понимая свою ответственность за достижение этой цели каждый государственный служащий стремился наладить взаимодействие между государством и гражданами, а также между государством и обществом, основываясь на общих интересах.

В результате, концепция государственности, разработанная Гейдаром Алиевым, предусматривала равенство всех граждан перед законом, независимо от их статуса, должности или других привилегий. Также она обеспечивала равные возможности для доступа к материальным и духовным ресурсам государства и участия в различных сферах государственной власти в соответствии с индивидуальными способностями и возможностями.

В 1996 году по указу Гейдара Алиева была учреждена «Комиссия по правовым реформам» перед которой стояли важные задачи. С этого момента начался процесс формирования и развития законодательной базы вновь обретённого независимого государства. Основной задачей стало принятие конкретных мер по созданию системы государственного управления и государственной службы, соответствующих современным требованиям. В этот период особое внимание уделялось изучению передового опыта ведущих стран мира в области государственного управления [1, с.12].

Гейдар Алиев полагал, что процесс создания и дальнейшего улучшения системы государственного управления должен быть сосредоточен на внедрении эффективных мер, которые обеспечат полное утверждение демократических принципов и активное развитие гражданского общества в Азербайджане. В соответствии с его политическими взглядами, реформы в области государственного управления были направлены на реализацию действий, соответствующих национальным целям развития и на создание системной законодательной базы, способствующей укреплению идей правового государства в стране. Кроме того,

использование передового международного опыта и адаптация государственного управления к новым целям стали необходимыми условиями для формирования гибкой и эффективной системы управления в Азербайджанской Республике.

29 декабря 1998 года Гейдар Алиев издал указ «О создании Государственной комиссии по проведению реформ в системе государственного управления Азербайджанской Республики». Этот документ стал отправной точкой для реформ, направленных на создание эффективной системы государственного управления.

В указе была обозначена цель достижения конкретных результатов в процессе реализации реформ. В целом, планировалось провести реформы в системе государственного управления по четырем основным направлениям:

1) реорганизация управления государственными расходами;
2) реформа аудиторской системы;
3) реформа государственного управления;
4) реформа правовой и судебной систем [3, с.3].

Закон «О государственной службе» сыграл важную роль в создании и развитии квалифицированного и профессионального кадрового состава, который обеспечивает эффективное выполнение задач, возложенных на государственные органы. Следует подчеркнуть, что принятие этого закона установило основные критерии и принципы на которых базируется реформа государственной службы в стране. Было введено четкое разграничение функций и должностей между различными категориями государственных служащих, а также создана система аттестации и классификации, которая гарантирует выполнение служащими своих обязанностей. Кроме того, закон дал возможность оценивать эффективность работы государственных служащих выявлять необходимость повышения квалификации, а также установил зависимость карьерного роста от личных качеств и профессионального уровня сотрудников, что создало условия для продвижения высококва-лифицированных кадров в государственной службе через внедренную систему контроля.

После принятия Закона «О государственной службе» были предприняты значительные шаги для формирования правовой основы его реализации. В этом контексте было принято множество других законов и постановлений, а также изданы указы и распоряжения, направленные на достижение поставленных задач. Среди этих законов можно выделить «Об обязательном страховании государственных служащих», «О правилах этического поведения государственного служащего» и ряд других.

Для более эффективной организации и управления государственной службой в период руководства выдающегося лидера нашей страны был создан Совет по управлению государственной службой. Основной задачей этого органа стало участие в разработке единой государственной кадровой политики, подготовка проектов нормативных актов и методических рекомендаций, касающихся организации и функционирования государственной службы, анализ состояния и эффективности государственной службы в органах власти, а также выработка предложений по повышению этой эффективности и решение других вопросов, связанных с государственной службой [0, с.6].

Приятно отметить, что концепция государственности, заложенная Общенациональным Лидером продолжает успешно развиваться под руководством достойного преемника Гейдара Алиева — Президента Ильхама Алиева, который демонстрирует высокую профессиональную компетентность, новое мышление и современный подход. Период с 2003 года до настоящего времени наглядно продемонстрировал, что принцип достойного служения народу является основополагающим в политике Ильхама Алиева. Оставаясь верным принципам социальной справедливости, правам и свободам человека, Ильхам Алиев обосновал взаимосвязь между процессами быстрого социально-экономического развития и демократизации в Азербайджане, рассматривая их не как отдельные направления, а как единый фундамент для процветания страны.

В данном контексте реализация необходимых реформ под руководством Президента Ильхама Алиева акцентировала внимание на модернизации работы государственных учреж-

дений в соответствии с современными стандартами, а также на формировании высококвалифицированного кадрового состава. Одним из ключевых требований, которые Президент Азербайджана ставит перед государственными служащими, является служение народу и выполнение задач в рамках их полномочий для решения проблем и трудностей, с которыми сталкиваются граждане. По этому поводу Президент Ильхам Алиев подчеркнул: «Независимо от того, является ли человек Президентом страны, главой исполнительной власти или руководителем в другой области, обязанность каждого лидера заключается в устранении существу-ющих проблем и решении вопросов, вызывающих беспокойство у населения» [2, с.45].

Под руководством Президента Ильхама Алиева в Азербайджане с 2007 по 2011 год была реализована «Национальная стратегия по увеличению прозрачности и борьбе с коррупцией», направленная на улучшение работы государственных органов в соответствии с современными стандартами. Согласно указу Президента от 23 мая 2011 года, который касался организации предоставления электронных услуг государственными органами, были внедрены электронные услуги. В Национальном плане действий на 2012–2015 годы, направленном на поддержку открытого правительства, одной из основных мер по повышению прозрачности и реализации принципов открытого правительства стало совершенствование электронных услуг [2, с.34].

Одним из ключевых шагов к модернизации государственного управления, улучшению прозрачности и формированию нового подхода в управлении стало создание Государственного агентства по обслуживанию граждан и социальным инновациям при Президенте Азербайджанской Республики. Это произошло в соответствии с указом Президента Ильхама Алиева, подписанным 13 июля 2012 года. Агентство было основано для повышения прозрачности работы государственных учреждений, обеспечения качественного, удобного и современного обслуживания граждан с использованием инновационных решений, соблюдения этических стандартов в отношениях с населением и достижения высокого уровня удовлетворенности граждан. Данный процесс продолжается и по сей день на самом высоком уровне.

Таким образом, Гейдар Алиев, создав прочный базис для системы государственного управления в период независимости, навсегда оставил свой след в новейшей истории Азербайджана благодаря осуществленным положительным инициативам.

Традиции, заложенные Великим Лидером, продолжают успешно развиваться и сегодня под руководством его политического преемника — дальновидного лидера нашего государства, Президента Ильхама Алиева, который демонстрирует высокий уровень профессионализма.

С учетом масштабных преобразований и реформ, происходящих в нашей стране в настоящее время, можно с уверенностью утверждать, что эта динамика развития станет основой для дальнейшего роста современной азербайджанской государственности, позволяя ей достичь еще более высоких высот в будущем.

Список использованной литературы

1. Həbibbəyli İ., Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Əcəmi NPB. 2013, s.12 2.
2. Quliyeva X., Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Bakı, Elm. 2019, s. 34-45
3. Məmmədova D., Heydər Əliyev Azərbaycanda müasir dövlət qulluğu sisteminin banisidir. 2013, Azərbaycan qəzeti, s.3

Mirbəşir E., Heydər Əliyev və Azərbaycanda müasir dövlət idarəçiliyi. Qanun jurnalı, 2023, s.6

HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİNİN LEGİTİMLİYİ: KONSTİTUSİYA

Tural Tahir oğlu Ələkbərov
doktorant
Gəncə Dövlət Universiteti
turalekbarov@gmail.com

Rəqəmsal transformasiya müxtəlif sahələrə təsir göstərmişdir və mühasibatlıq da bu prosesdən kənarda qalmamışdır. Bu məqalədə çağdaş bank sektorunda mühasibatlığın rəqəmsallaşdırılması ətraflı təhlil olunur. Tədqiqat rəqəmsal texnologiyaların mühasibatlıq əməliyyatlarına təsirini araşdırır, onun yaratdığı üstün cəhətləri, qarşıya çıxan çətinlikləri və banklar üçün mümkün nəticələri ön plana çıxarır. Rəqəmsal mühasibatlıq vasitələri bu sahədə əsaslı dəyişikliklərə səbəb olmuş, maliyyə institutları üçün yeni imkanlar və üstünlüklər təmin etmişdir. Bu texnologiyalar ənənəvi mühasibat yanaşmalarını dəyişdirməklə yanaşı, fəaliyyətin səmərəliliyini, məlumatların dəqiqliyini və strateji qərarların qəbul edilməsini gücləndirə, maliyyə idarəetməsini daha da inkişaf etdirə bilər. Araşdırmanın nəticələri rəqəmsallaşmanın mühasibatlıq sistemində necə dönüş yaratdığını daha dərindən başa düşməyə imkan verir və bu texnologiyalardan effektiv istifadəni planlaşdıran banklar üçün faydalı tövsiyələr təqdim edir.

Rəqəmsal inqilabın baş verməsi bir çox sahələrə əhəmiyyətli şəkildə təsir etmişdir və bu təsirdən mühasibatlıq sahəsi də kənarda qalmamışdır. Sayısal texnologiyaların mühasibatlıq əməliyyatlarına daxil edilməsi bankların maliyyə məlumatlarını idarə etmə və analiz etmə üsulunu əsaslı şəkildə transformasiya etmişdir. Bu məqalədə çağdaş bank sektorunda mühasibatlığın elektronlaşdırılması geniş şəkildə təhlil olunur, eyni zamanda rəqəmsal texnologiyaların dəyişdirici imkanlarını araşdırmaq və bu texnologiyalardan effektiv yararlanmaq istəyən maliyyə qurumları üçün dəyərli məlumatlar təqdim etmək hədəflənir.

Mühasibatlığın rəqəmsallaşdırılmasının faydaları yalnız səmərəliliyin yüksəldilməsi ilə yekunlaşmır. Bulud əsaslı mühasibatlıq sistemlərinin tətbiqi vasitəsilə kredit təşkilatları genişlənəbilənlik, sərfəlilik və əməkdaşlığın gücləndirilməsi kimi bir sıra üstünlüklər əldə edə bilərlər. Əlavə olaraq, süni intellekt texnologiyalarının mühasibatlıq proseslərinə tətbiqi ağıllı məlumatların analizi, fırıldaq hallarının müəyyənləşdirilməsi və qabaqlayıcı analiz imkanlarının həyata keçirilməsinə şərait yaratmışdır. Bununla yanaşı, blokçeyn texnologiyası maliyyə əməliyyatlarında və qeydiyyat sistemində şəffaflığın, məlumatların bütövlüyünün və təhlükəsizliyin yüksəldilməsinə töhfə verir. Lakin bütün bu üstünlüklərə baxmayaraq, mühasibatlığın rəqəmsallaşması kommersiya bankları üçün bir sıra həll olunmalı problemlər ortaya çıxarır. Məlumatların qorunması ilə bağlı risklər, işçilərin yeni texnologiyalara uyğunlaşması üçün zəruri bacarıqların inkişaf etdirilməsi və süni intellektlə avtomatlaşdırmaya dair etik məsələlər bu dövrdə bankların üzləşdiyi əsas çətinliklər sırasındadır. Banklar rəqəmsal mühasibatlıq alətlərindən tam şəkildə faydalanmaq üçün bu maneələri düzgün şəkildə anlamalı və effektiv şəkildə idarə etməyi bacarmalıdırlar.

Problemlər

Bank sistemində mühasibatlığın elektronlaşdırılması kredit təşkilatları üçün həm imkanlar, həm də çətinliklər yaradır və bu proses effektiv şəkildə idarə olunmalıdır. Rəqəmsal texnologiyalar avtomatlaşdırma, məlumatların dəqiqliyinin artırılması və real vaxtda maliyyə hesabatlarının təqdim olunması kimi bir çox üstünlüklər təklif etsə də, onların tətbiqi müəyyən problemləri də gündəmə gətirir.

Mühasibatlığın rəqəmsallaşdırılması mövcud mühasibatlıq təcrübələrinə rəqəmsal texnologiyaların fasiləsiz inteqrasiyasına mane olan çətinlikləri ortaya çıxarır. Banklar məlumatların təhlükəsizliyi, əməkdaşların bacarıqlarının artırılması və etik məsələlər kimi sahələrdə problemlərlə üzləşirlər və bu problemlər rəqəmsal mühasibat sistemlərinin uğurla tətbiqi və istifadəsi üçün aradan qaldırılmalıdır. Bu çətinlikləri başa düşmək və yumşaltmaq rəqəmsallaşmanın tam potensialından istifadə etmək və rəqəmsal dövrdə mühasibatlıq proseslərinin effektivliyini və etibarlılığını təmin etmək üçün mühüm əhəmiyyət daşıyır.

Faydalar

1. *Avtomatlaşdırma* – Mühasibatlığın rəqəmsallaşdırılmasının başlıca üstünlüklərindən biri təkrarlanan və əl ilə icra olunan tapşırıqların avtomatik həyata keçirilməsidir. Rəqəmsal mühasibat sistemləri məlumatların daxil edilməsi, əməliyyatların qeydiyyatı və uyğunlaşdırılması kimi prosesləri optimallaşdıraraq həm zaman itkisini azaldır, həm də potensial səhvlərin qarşısını alır. Bu texnologiyalar mühasiblərə daha analitik və strateji yönümlü məsələlərə – məsələn, maliyyə təhlili və qərarların qəbuluna – fokuslanmaq imkanı verir.

2. *Məlumat dəqiqliyinin təkmilləşdirilməsi* – Rəqəmsal mühasibatlıq alətləri ənənəvi, əl ilə icra olunan proseslərlə müqayisədə daha yüksək səviyyədə dəqiqlik təmin edir. Bu sistemlər insan səhvlərini minimuma endirir və avtomatik hesablamalar vasitəsilə maliyyə məlumatlarının düzgünlüyünü və bütövlüyünü qoruyur. Dəqiq və real vaxtlı məlumatlar daha əsaslı qərarların qəbul edilməsinə imkan yaradır və maliyyə hesabatlarının ümumi keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

3. *Yoxlama izlərinin təkmilləşdirilməsi* – Rəqəmsal mühasibat sistemləri maliyyə əməliyyatları və qeydlərdə baş verən bütün dəyişiklikləri əks etdirən ətraflı yoxlama izləri yaradır. Bu cür şəffaflıq və izlənəbilənlik səviyyəsi hesabatlılığı gücləndirir, həm daxili, həm də xarici auditlərin effektiv həyata keçirilməsini asanlaşdırır və normativ qaydalara uyğunluğun təmininə dəstək olur. Eyni zamanda, yoxlama izləri potensial fırıldaqçılıq hallarının vaxtında aşkarlanmasına və onların qarşısının alınmasına şərait yaradır, çünki şübhəli fəaliyyətlər tez bir zamanda izlənərək araşdırıla bilir.

4. *Real vaxtlı maliyyə hesabatları* – Rəqəmsal mühasibat texnologiyaları maliyyə hesabatlarının dərhal hazırlanmasını və əsas göstəricilərə ani çıxışı mümkün edir. Bank rəhbərləri bu texnologiyalar sayəsində maliyyə vəziyyətini operativ şəkildə izləyə, trendləri analiz edə və ən son məlumatlara əsaslanaraq vaxtında və düzgün qərarlar qəbul edə bilirlər. Real vaxtda təqdim olunan hesabatlar maliyyə idarəçiliyində operativliyi və çevikliyi artırır, təşkilatların bazardakı dəyişikliklərə sürətlə reaksiya verməsinə və yeni imkanlardan effektiv şəkildə faydalanmasına əlverişli şərait yaradır.

Kommersiya banklarında mühasibatlığın rəqəmsallaşdırılması zamanı ortaya çıxan konkret çətinliklər aşağıdakılardır:

Məlumatların qorunması – Rəqəmsal platformalardan və bulud əsaslı sistemlərdən istifadənin genişlənməsi ilə banklar məlumat sızması, icazəsiz müdaxilə və həssas maliyyə informasiyalarının itirilməsi və ya dəyişdirilməsi kimi risklərlə qarşılaşırlar. Bu səbəbdən maliyyə məlumatlarının məxfiliyinin və bütövlüyünün təmin olunması üçün effektiv təhlükəsizlik mexanizmlərinin tətbiqi və potensial zəifliklərin vaxtında aradan qaldırılması böyük əhəmiyyət kəsb edir.

Əməkdaşların sərişətələrinin gücləndirilməsi – Rəqəmsal mühasibatlıq texnologiyalarının tətbiqi, mühasibatlıq sahəsində çalışan mütəxəssislərdən fərqli bilik və bacarıqlara yiyələnmələrini tələb edir. İşçilər rəqəmsal alətləri səmərəli şəkildə istifadə edə bilmək üçün müasir texnologiyalardan istifadə, məlumatların analizi və interpretasiyası üzrə yeni bacarıqlar qazanmalıdırlar. Bu sahədə mövcud bacarıq çatışmazlıqlarının müəyyənləşdirilməsi və uyğun təlim proqramlarının təşkili, əməkdaşların lazımi ixtisaslara sahib olmasını təmin etmək baxımından mühüm əhəmiyyət daşıyır.

Etik çətinliklər – Mühasibatlıq sahəsində süni intellekt, avtomatlaşdırma və maşın öyrənməsi texnologiyalarının tətbiqi bir sıra etik dilemmlərə səbəb olur. Qərəzlilik riski, məxfi məlumatların qorunması və avtomatlaşdırılmış qərarların nəticələri kimi məsələlər, kredit təşkilatlarını rəqəmsal texnologiyaların istifadəsini tənzimləyən etik prinsiplər və qaydalar formalaşdırmağa vadar edir. Bu cür çərçivələr etik standartlara riayət olunmasını və məsuliyyətli texnologiya istifadəsini təmin etmək baxımından vacibdir.

İnteqrasiya məsələləri – Rəqəmsal mühasibatlıq texnologiyalarının mövcud təşkilati infrastruktur, köhnə proqram təminatları və mövcud iş prosesləri ilə uyğunlaşdırılması çətin və zaman tələb edən bir proses ola bilər. Sistemlər arasında uyğunsuzluq və proseslərin uyğunlaşmaması riskini azaltmaq üçün inteqrasiyanın ardıcıl şəkildə həyata keçirilməsi və texniki uyğunluğun təmin olunması vacibdir. Bu yanaşma rəqəmsallaşmanın yaratdığı imkanlardan tam şəkildə bəhrələnmək üçün əsas şərtlərdən biridir.

Normativ tələblərə uyğunlaşma – Rəqəmsal mühitdə təşkilatların qanunvericilik və normativ sənədlərə riayət etməsi mühüm, lakin eyni zamanda mürəkkəb bir vəzifədir. Məlumat təhlükəsizliyi, maliyyə hesabat standartları və sahəyə xas spesifik tələblər tez-tez dəyişdiyi üçün banklar öz rəqəmsal mühasibat sistemlərini və iş proseslərini daim yeniləməli, hüquqi dəyişiklikləri diqqətlə izləməlidirlər. Bu yanaşma həm normativ uyğunluğu qorumağa, həm də potensial cərimə və hüquqi risklərin qarşısını almağa xidmət edir.

Bu problemlərin həlli, mühasibatlıq fəaliyyətlərini rəqəmsal imkanlarla optimallaşdırmaq, maliyyə qərarlarının qəbulunu daha səmərəli etmək və ümumilikdə təşkilatın fəaliyyət effektivliyini artırmaq istəyən banklar üçün böyük əhəmiyyət kəsb edir. Bu çağırışları düzgün şəkildə analiz etməklə və başa düşməklə, banklar uyğun strategiyalar formalaşdıra, effektiv yanaşmalar tətbiq etməklə bu çətinlikləri dəf edə və müasir bazar şəraitində rəqəmsal mühasibatlığın təqdim etdiyi imkanlardan tam şəkildə yararlana bilərlər.

Nəticə

Tədqiqat göstərir ki, rəqəmsallaşma mühasibatlıq sahəsində dönüşedici imkanlara malikdir. Bu, sürətlə inkişaf edən rəqəmsal mühitdə rəqabət üstünlüyünü qorumaq üçün kredit qurumlarının rəqəmsal texnologiyaları tətbiq etməsinin zəruriliyini önə çıxarır. Kommersiya bankları qarşılaşdıqları çətinlikləri aradan qaldırmaqla və rəqəmsallaşmanın təqdim etdiyi imkanlardan yararlanmaqla müasir mühasibatlıq texnologiyalarını uğurla tətbiq edə və maliyyə idarəetmə sistemlərini müasirləşdirə bilərlər. Rəqəmsal mühasibatlıq alətlərinin məqsədyönlü və düzgün tətbiqi banklara əməliyyat səmərəliliyini artırmaq, məlumatların dəqiqliyini təmin etmək və qərar qəbul-etmə bacarıqlarını gücləndirmək imkanı verir ki, bu da daha uğurlu maliyyə göstəricilərinə və ümumi təşkilati fəaliyyətin yaxşılaşdırılmasına şərait yaradır. Nəticə etibarilə, rəqəmsal mühasibatlıq texnologiyaları bu sahədə əsaslı yeniliklərə səbəb olmuş, banklar üçün geniş üstünlüklər və strateji perspektivlər açmışdır.

Bu texnologiyalar klassik mühasibatlıq yanaşmalarını dəyişdirməklə, səmərəliliyi və qərar-vermə imkanlarını artıraraq maliyyə idarəçiliyini yeni mərhələyə çıxara bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Smith, A., & Johnson, B. (2018). The transformative potential of digitalisation in accounting. Journal of Accounting and Finance, 150-167.
2. Brown, C., & Jones, D. (2019). Benefits of digital accounting: Automation, accuracy, and real-time reporting. International Journal of Accounting Information Systems, 100-115
3. Lee, S., & Davis, E. (2020). The role of audit trails in digital accounting systems: Enhancing transparency and fraud prevention. Journal of Forensic Accounting Research, 67-82.
4. Chen, L., & Wang, Y. (2021). Real-time financial reporting and business agility: A review of digital accounting literature. International Journal of Financial Management, 235-250.
5. Johnson, M., & Wilson, K. (2019). Data security risks in digital accounting: Challenges and solutions. Journal of Information Systems and Technology, 87-104.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV – ƏSAS QANUNUMUZUN TƏMİNATÇISIDIR

Mirzə Cavad oğlu Cavadov
Mingəçevir Dövlət Universiteti
mirza.cavadov@mdu.edu.az

Danılmaz həqiqətdir ki, qərinədən artıq uğurla rəhbərlik etmiş müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu ulu Öndər Heydər Əliyev dövlət və cəmiyyət həyatının bütün sahələrində xalqımıza şərəflə tarixi xidmətlər göstərmişdir. Bu xidmətlər sırasında 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş və noyabrın 27-də hüquqi qüvvəyə minmiş müstəqil və suveren Azərbaycan Respublikasının Konstitusiyası – Əsas Qanunumuz xüsusi əhəmiyyət və prioritet təşkil edir. Çünki Əsas Qanunumuzun, milli dövlətimizin

formalaşmasında, hüquq sisteminin və milli qanunvericiliyin inkişafında, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasında rolu və yeri əvəzedilməzdir.

Tarixi gerçəklik və ədalət naminə qeyd etməliyik ki, istər Konstitusiya layihəsinin işlənib hazırlanması və onun ümumxalq müzakirəsinə təqdim edilməsi, istərsə də dünyanın ən demokratik Konstitusiyaları ilə müqayisə ediləcək səviyyədə qəbul olunmasında ümummilli lider Heydər Əliyevin böyük rəhməti və rolu vardır. Ulu Öndər xatırlayırdı: "Üzərimizə düşən məsuliyyəti biz vicdanla, xalqımıza, vətənimizə sədaqətlə həyata keçirmişik və gördüyümüz işə, xalqa təqdim etdiyimiz layihəyə görə fəxr edə bilərik. Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var. Yəni biz tarixi bir sənədin yaradılmasının iştirakçılarıyıq və bununla fəxr edə bilərik. Mən şəxsən bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyim ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü və gələcəyi üçün çox böyük bir siyasi – hüquqi sənəd yaratmışıq".

Məlumat üçün bildirirəm ki, Sovet hakimiyyətinin mövcud olduğu illərdə Azərbaycan SSR-də Konstitusiya dörd dəfə qəbul edilmişdir: 1921, 1925, 1937 və 1978-ci illərdə. Lakin həmin Konstitusiyalarda nəzərdə tutulan hüquq və azadlıqlar formal xarakter daşıyır və cəmiyyətdə mövcud həqiqətləri ifadə etmirdi.

Bunlardan fərqli olaraq, Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və suverenlik ili elan edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixdə imzaladığı sərəncamda qeyd edildiyi kimi "Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını qoydu, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi hesab etdi [7].

Konstitusiyamızın preambulasında Azərbaycan xalqının, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq və s. kimi ülvi niyyətlər bəyan edilmişdi.

Konstitusiyanın 147-ci maddəsi birmənalı şəkildə təsbit edir ki, Azərbaycan Respublikası Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir və qanunvericilik sisteminin əsasını təşkil edir [2].

Əsas Qanunumuzda Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqının olduğu təsbit edilmiş və göstərilmişdi ki, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir.

Konstitusiyamız Azərbaycan dövlətini demokratik, dünyəvi, unitar respublika elan etmişdir.

Hər bir şəxs üçün layiqli həyat şəraitinin və azad inkişafın təmin olunmasına istiqamətlənmiş sosial dövlət konsepsiyası Konstitusiyada öz geniş əksini tapmışdır.

Onu da qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının dövlət dəstəyi ilə əhatə olunması, Avroatlantik məkana inteqrasiya prosesinin yüksək dinamizmlə davam etdirilməsi, bütövlükdə respublikanın həyatında özünü qabarıq surətdə göstərən fundamental dəyişikliklər və pozitiv yeniliklər Azərbaycan Respublikası Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklərin edilməsini gündəmə gətirdi. Sürətlə birbirini əvəzləyən uğurlar milli Konstitusiyamıza nəzər salmağı və daha da təkmilləşdirməyi zəruri etdi. Bu zərurətdən irəli gələrək 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlar nəticəsində Konstitusiyanın mətninə bir sıra müvafiq əlavə və dəyişikliklər edilmişdir.

Konstitusiyamızın qəbul edilməsindən keçən 30 il ərzində cəmiyyətimizin həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlar öz mənbəyini məhz milləti əhatə edən genişmiqyaslı islahatlar öz mənbəyini məhz müəllifi Ümummilli lider Heydər Əliyev olan Konstitusiyamızdan götürmüş, ölkəmizdə siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə gedən davamlı inkişafın əldə olunmasına zəmin yaratmışdır.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş tarixi qələbə və 2023-cü ilin sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərimizdə bərqərar olmuşdur [9]. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdi.

İnamla demək olar ki, Əsas Qanunumuz bu gün də ölkəmizdə möhtərəm Prezidentimizin uğurla həyata keçirdiyi nəhəng islahatlar prosesinin istinad etdiyi ən etibarlı və mükəmməl dövlət sənədidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018
3. Azərbaycan tarixi.7 cilddə, VII cild, Bakı, 2007
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 41 cilddə, Bakı, 1997-2012
5. İlham Əliyev. İnkişaf məqsədimizdir. Bakı, 2011
6. İlham Əliyev. Azərbaycan Respublikasında 2003-cü ilin Heydər Əliyev ili elan edilməsi haqqında sərəncam. Bakı, 2022-ci il
7. İlham Əliyev. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında sərəncam. Bakı, 2024-cü il
8. İradə Hüseynova. Müstəqilliyimizin təminatçısı. Bakı, 2003
9. Zəfər tarixi. Bakı, 2021

TƏHSİL İSLAHATLARININ TƏMƏLİ – HEYDƏR ƏLİYEV İDEYALARINDA

Günel Alim qızı Nəcəfova
Mingəçevir Dövlət Universiteti
gunel.necefova@mdu.edu.az

"Mən fəxr edirəm ki, Azərbaycanlıyam". İllər ötsədə Ulu öndər H.Əliyevin söylədiyi bu müqəddəs kəlam öz qiymətini itirməyib və Azərbaycan dövləti, xalqı qarşısında işıq saçan bir mayaq olmuşdur. Azərbaycan dövlətinin müstəqilliyi və ikinci çiçəkləyən dövrü, yəni 1993-cü ilin iyun ayından sonrakı dövr vətənimizə böyük uğurlar qazandırmışdır. Azərbaycan uğurlu xarici siyasət yeritməklə yanaşı səmərəli iqtisadi siyasət yeritməyə başlamışdır. Respublikamız dünyaya inteqrasiya prosesində öz inamlı addımlarını atmışdır. Azərbaycan iqtisadiyyatı inkişaf edərək, dünya iqtisadiyyatı səviyyəsinə qalxmışdı. Savadlı , bilikli mütəxəsislərin olması üçün yeni təhsil sistemimndə yeni təhsil texnologiyalarını tətbiq edərək, Təhsil İnstitutunun nəzdində dünya səviyyəsinə malik olan 7 pilot mərkəz, 20 pilot məktəb fəaliyyətə başlamışdı. Bu metodlarla hazırlanmış gənc kadrlar dünya və Avropa ölkələrində cox məharətlə işə qoşula bilirdilər. Türkiyənin ölkəmiz üçün hazırladığı gənc kadrlar artıq dünya tendensiyalarını təhlil etmək iqtidarına malikdirlər.

Gənclərlə iş sahəsində dövlət siyasətinin müəyyənləşdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, onların layiqli vətəndaş kimi formalaşmasına hərtərəfli şəraitin yaradılması Heydər Əliyevin hakimiyyətə qayıtdığı ilk günlərdən fəaliyyətinin əsas istiqamətlərindən olmuşdur. Cəmiyyətin inkişafında gənclərin rolunu yüksək qiymətləndirən Ulu

öndər Heydər Əliyev daim onlara diqqət və qayğı göstərmiş və Azərbaycan gəncliyinin də itmiş inamı özünə qaytarmışdı. Hələ keçmiş SSRİ dövründə respublikaya rəhbərlik edən Heydər Əliyevin göstərişi ilə minlərlə azərbaycanlı gənc müttəfiq respublikaların ən nüfuzlu ali təhsil ocaqlarında oxumuş və yüksək biliklərə yiyələnmiş mütəxəsis kimi vətənimizə qayıtmışlar. Həmin gənclərin işlə təmin olunmasında H.Əliyevin böyük əməyi olmuşdur. Vətənini ürəkdən sevən, Azərbaycanı hər zaman uca görmək istəyən , xalqımıza qayğı ilə yanaşan ulu öndər Azərbaycanı hər tərəfli inkişaf etmiş bir dövlət kimi görmək istəyirdi. Ordusu olmayan, həttda bayrağı belə həbsdə olan Azərbaycanda 1972-ci ildə C.Naxçıvanski adına Bakı Hərbi Məktəbinin açılması Heydər Əliyevin böyük qələbəsi idi. Hazırda müstəqil Azərbaycan ordusunda xidmət edən zabitlərimizin əksəriyyəti həmin məktəbin məzunlarıdır. Heydər Əliyevin Azərbaycana bəxş etdiyi bu məktəb xalqımızın qürur mənbəyidir.

Gənclərin bacarığına yüksək qiymət verən, vətənimizin gələcəyini gənclərlə bağlı olduğunu hiss edən Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdan kimi gənclər təşkilatının nümayəndələri ilə görüşmüş onların problemləri ilə yaxından tanış olduşdur. 1994-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında imzalanan fərman gənclərə verilən ən yüksək qiymətdir. Bu dövrdən başlayaraq gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində bir sıra işlər görüldü. Ümumiyyətlə, nazirliyin yarandığı ilk günlərdən qarşıya qoyulan məqsədlərdən biri gənc nəsli vətənə sədaqət, Azərbaycan xalqının dilinə, tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, dövlət rəmzlərinə hörmət və məhəbbət ruhunda tərbiyə etmək olmuşdur.

1995-ci ildə H.Əliyev Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi .Forumda Ulu öndər Heydər Əliyev şəxsən özü iştirak etdi.Gəncləri ürəkdən sevən, onların qayğısını çəkən Heydər Əliyev hər zaman onları sevindirmək, onlarda həyat eşqini canlandırmaqdan ötrü hər an yeni qanunlar, sərəncamlar verməkdən çəkinmirdi. Axı gənclər sabaha ümüdlə ,inamla baxmalı və vətən, xalq qarşısında olan borclarını unutmamalı vətənə layiqli övlad olmalı idilər. Bunun üçün 1 fevral 1997-ci il tarixində Heydər Əliyev yeni bir sərəncam imzaladı. O, gəncləri yeni bir bayramla təbrik etdi. 2 fevral - Azərbaycanda Gənclərin günü oldu. Həmin günü təkcə gənclər günü deyil, uşaqlarda, yaşlılarda çox sevdi. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Özünü mənən gənc hesab edən Heydər Əliyevin gənclərə bəxş etdiyi bu bayram bu gündə sevilə-sevilə qeyd olunur. Heydər Əliyev idmanıda çox sevirdi. Bütün şəhər və rayonlarda idman mərkəzləri açılmış və gənclərin idmanın bütün növləri ilə məşğul olması üçün şərait yaradılmışdır. Heydər Əliyev çox istəyirdi ki, gənclər idman yarışlarinda yüksək yerlər tutsunlar və bayrağımız hər zaman birincilər sirasında dalğalansın.O, gənclərdən ilham alırdı və istəyirdi ki, gələcək nəsillərə azad, müstəqil Azərbaycan bəxş etsin. Onun ən böyük arzusu gənclərimizə arxalanaraq mətn addimlarla irəli getmək və bu yolda gənclərə kömək etmək idi.O, arzusuna çatdı. Gənclərimiz başda Heydər Əliyev olmaqla onun ruhu qarşısında söz verərək, İlham Əliyevlə gələcəyə ilhamla, mətin addimlarla gedirlər.

Bu gün Azərbaycanın qüdrətli ordusu, göylərdə dalğalanan üçrəngli, aylı, ulduzlu bayrağı, mətanətli xalqı və bu xalqı qəlbən sevən Heydər oğlu İlhamı var. Biz inanırıq, onun ruhu bunları görür və duyur. O, bizim gənclərlə fəxr edir, çoxlu dövlət işləri olmasına baxmayaraq, gənclərin bayramların bayrağına gəlir və onlara ürək sözlərini bildirir. O, bu bayramdan ruhlanaraq, gənclərdən ilham alaraq, gənclərə arxalanaraq, Azərbaycanı daha qüdrətli etməyə çalışır və yeni bir fərman imzalamaqla gəncləri təhsildə irəli getməyə, sağlamlıqlarını qorumağa dövlətin təşkil etdiyi hüquq qaydalarına əməl etməyə sağırırdı." Mən sizi gördükcə gələcəyə daha inamla baxıram və inaniram ki, məndən sonrada siz Azərbaycanin əsl vətəndaşı olacaqsınız"öz çıxışlarında qetd edirdi. [1; 38]

2 fevral 1998-ci il Heydər Əliyevin Azərbaycan Gənclərinə bəxş etdiyi ən gözəl gündür. 1999-cu ildə Heydər Əliyev yeni bir Fərman imzaladı. Heydər Əliyev kimsəsiz, atasını I Qarabağ döyüşlərində itirən şəhid balalarına xüsusi qayğını əsirgəmir, onların təhsilinə ciddi yanaşmaları üçün xüsusi qurumlara təlimat verdirirdi. "Dövlət Gənclər Siyasəti haqqında" Fərman bu təlimatları özündə əks etdirir.Şəhid övladlarının təhsil haqqindan azad edilməsi Prezident səviyyəsində böyük bir addim idi. Gənclər dövlətin bu qayğısına etinasız qalmır, vətəninə, xalqına layiqli övlad olmağı

üçün səylə çalışırlar. Ölkə gənclərinin idmanla məşğul olmalarını Heydər Əliyev vacib amil sayırdı. 1996-cı ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya Oyunlarına qatıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu öndər Heydər Əliyev kursunu layiqli şəkildə davam etdirərək gənclər siyasətinə eyni diqqətlə yanaşır. Prezidentimiz tərəfi ndən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında 06 aprel 2011-ci il tarixdə imzalanan sərəncamın ardınca, aprel ayının 21-də bir qrup gənci və tələbə gənclər təşkilatlarının nümayəndələrini cənab İlham Əliyevin qəbul etmişdir. Beləliklə, Yeni dövrdə nə istədiyini, nə etmək lazım gəldiyini, Azərbaycan gəncliyi çox aydın dərk edir və ulu öndər Heydər Əliyevin milli ideyalarının reallaşması üçün əlindən gələni edir, Azərbaycanın dünya səviyyəsində tanınması üçün çalışırlar.

Türk dünyasının böyük oğlu, Ümummilli liderimiz Heydər Əliyev hər bir azərbaycanlının milli iftixarıdır. Dünya şöhrətli siyasətçi olan Ulu Öndərimiz misilsiz xidmətləri ilə tariximizin şanlı səhifəsini yazdı. O, müasir dünyanın demokratik dövlətləri sırasına gənc Azərbaycan Respublikasını çıxaran qüdrətli bir şəxsiyyətdir.

Həyatının ən şirin anlarını fəxr etdiyi Azərbaycan xalqına verən Heydər Əliyev bu gün istər yaşlı nəslin, istərsə də gənc nəslin böyük hörmətlə andığı şəxsiyyətdir. O, məktəblilər arasında da sevilən bir dahidir. Biz xoşbəxtik ki, onun böyüklüyünü, dahiliyini hələ kiçik yaşlarında olan uşaqlar, məktəblilər dərk edirlər. Azərbaycanlı ailəsində bu qüdrətli şəxsiyyətə bəslənilən məhəbbət hələ kiçik yaşlarından uşaqların dünya görüşünün formalaşmasına, onun böyüklüyünün dərk edilməsinə imkan verir.

Milli ideologiyamızın nəzəri əsaslarını işləyib hazırlayan, onu dövlət quruculuğunda önə çəkən, bütün xalqı bu müqəddəs ideya ətrafında sıx birləşdirməyə qadir olan Heydər Əliyevin həyat yolunun və irsinin orta ümumtəhsil məktəblərində öyrədilməsinə, əlbəttə, böyük ehtiyac var. Bu, gələcək nəslin ideoloji tərbiyəsində, vətənpərvərlik və azərbaycançılıq ruhunda böyüməsində önəmli rol oynayacaq.

Ümummilli lider Heydər Əliyev daim gənc nəslin savadlı və sağlam böyüməsinin qayğısına qalmışdı. Gələcəyin gənc nəslə məxsus olduğunu, Azərbaycan dövlətinin inkişafının və gələcəyinin onlardan asılı olduğunu söyləyən Heydər Əliyev hər birimizə gənc nəslin qayğısına qalmağı, əsl vətəndaş kimi böyüməsini təmin etməyi tövsiyə edərək ən böyük nümunəni özü göstərmişdir. O. milli təhsilin inkişafına böyük əhəmiyyət verən dahi şəxsiyyət idi.

Hazırda respublikamızın ümumtəhsil məktəblərində şagirdlərinin tərbiyə məsələləri ön plana çəkilir, tərbiyə prosesində Heydər Əliyevin şəxsi nümunəsindən istifadə əhəmiyyətli vəzifə sayılır.

Ümummilli lider Heydər Əliyev hakimiyyətinin həm birinci və həm də ikinci mərhələsində təhsilin inkişafına xüsusi diqqət yetirirlmiş, Azərbaycanda orta ixtisas, ümumtəhsil və ali məktəblərinin sayının artırılmasına, maddi texniki bazanaın təkmilləşdirilməsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olunmuş, yksək ixtisaslı, səriştəli müəllim kadrlarının hazırlanması üçün xüsusi göstəriş və sərəncamlar verilmişdir

Hələ 1969-1982-ci illərdə Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyinin birinci mərhələsində təhsilimizə çox böyük qayğı ilə yanaşaraq Avropa standartlarına cavab verən çoxsaylı məktəb binası tikilərək istifadəyə verilmişdir. Ölkəmizdə yeni Ali təhsil müəssisələri açılaraq, maddi-texniki bazası möhkəmləndirilərək lazımi avadanlıqlarla təchiz olunmuşdur. Təhsilin cəmiyyətin tərəqqisində və inkişafında mühüm yer tutduğunu yüksək dəyərləndirən Heydər Əliyev deyirdi: "*Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Təhsil millətin gələcəyidir"*[1, s. 438].

Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyi dövründə elm və təhsilin inkişafına bir pedaqoq məharəti ilə xüsusi diqqət yetirərərk, elm və təhsil, maarif və mədəniyyət, mənəviyyat və əxlaq, məktəb, ailə və ictimaiyyət problemərinə kompleks şəkildə yanaşmışdır. Dövlət başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirliməsi məqsədilə ciddi tədbrilər həyata keçirmiş və mühüm tarixi fərmanlar, sərəncamlar imzalamışdır. 1992-ci Təhsil Qanununun

qəbul olunması, ali və orta ixtisas məktəblərində qəbulun test usulu ilə aparılması, qeyri-obyektivliyə və mənfi hallara qarşı mübarizənin aparılması müstəqilliyin ilk dövrlərində təhsil sisteminin təkmilləşdiirliməsində atılan mühüm addımlardan idi. Təhsil sahəsində aparılan işləri sistemli və planlı şəkildə həyata keçirmək məqsədi ilə ölkə Prezidenti Heydər Əliyevin 1998-ci il 30 mart tarixli sərəncamı əsasında *"Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası"* yaradıldı. Bu islahat proqramı Azərbaycan təhsili sahəsində yeni, uzunmüddətli və ən mütərəqqi mərhələnin əsasının qoyulması demək idi. Heydər Əliyev aparılacaq bu ciddi və uzun müddətli təhsi islahatına xüsusi diqqət və böyük həssalıqla yanaşılmasını tövsiyə edir və deyirdi: *"Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir şey yaradasan."* [2].

Dövlət Komissiyası tərəfindən hazırlanmış *"Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"* xalqın geniş müzakirəsinə verildikdən sonra prezident Heydər Əliyev tərəfindən 1999-cu il iyunun 15-də tarixi bir gündə - Milli qurtuluş günündə bu proqrm xüsusi sərəncamla təsdiqləndi [3].

Beləliklə, müasir təhsil tariximizin parlaq bir səhifəsinə mərhələli olaraq dinamik xarakterli təhsil islahat proqramı hazırlanmış oldu. Bu prqrama sonrakı illərdə daha yeni təhsil sənədləri - təhsil standartları, təhsil Qanunu, kurikulumlar, Dövlət təhsil strategiyası yazıldı. Bu islahat proqramı təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, diferensiallaşdırılması və inteqrasiyası kimi prinsipləri özündə birləşdirərərək, Azərbaycan milli təhsilinin əsasını qoydu.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkəmizin möhtərəm Prezidenti, cənab İlham Əliyev milli təhsil sisteminin inkişafı məsələsinə Azərbaycanın gələcək inkişafının əsas strateji xətti kimi baxır. Prezident belə hesab edir ki, *Azərbaycanın inkişafının yeganə yolu təhsildən, müasir biliklərdən, intellektual əməyin inkişafından, informasiya və kompyüter texnologiyalarının geniş tətbiqindən keçir.* Ölkə Prezidenti cənab İlham Əliyevin *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı* təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir mərhələ açmışdır [4]. Bu mühüm dövlət sənədini təhsil sistemimizin metodoloji əsası, pedaqoji elmimizin təməl prinsipi hesab edə bilərik.

Tezisimi Ulu Öndərimizin sözləri ilə bitirmək istərdim: "Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Onların nümayəndələri bugünkü uşaqlardır, yetişən gənclərdir.

Yaşasın Azərbaycanın gəncləri!

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev H.Ə. Müstəqillik yollarında. Bakı, Azərbaycan, 1997, 538 s.
2. Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin giriş və yekun sözü - 17 mart 1999-cu il / Xalq qəz., 19 mart, 1999 .
3. Əliyev H.Ə. "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı". Bakı, Çaşıoğlu, 1999, 72 s.
4. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı/ Xalq, 25 oktyabr 2013-cü il.

HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT GƏNCLƏR SİYASƏTİ

Gülnaz Mirələm qızı İsmayılova
Mingəçevir Dövlət Universiteti
gulnaz.ismayılova@mdu.edu.az

Hər bir xalq, o cümlədən Azərbaycan xalqı üçün mühüm tarixi nailiyyət olan dövlət müstəqilliyini əldə etməkdən böyük hadisə yoxdur. Müstəqil dövlətçilik Azərbaycanın çoxəsrlik tarixində ən böyük hadisədir.

20-ci əsrin əvvəllərində Azərbaycanda əldə edilən ilk dövlət müstəqilliyi bütün türk-müsəlman dünyasının tarixində dönüş nöqtəsi yaratdı. Lakin acı həqiqətdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli müstəqilliyinin taleyi müstəqilliyin əldə edilməsindən daha çox qorunub saxlanmasının və möhkəmləndirilməsinin vacibliyini inandırıcı şəkildə nümayiş etdirdi.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra gənc nəslə diqqətin artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi, gənclərin respublikamızın sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin edilməsi, gənclərin sosial-məişət ehtiyaclarının ödənilməsi, onların sosial-məişət ehtiyaclarının ödənilməsi üçün şərait yaradılması onun çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən biri olmuşdur. Bu da təbiidir, çünki gənclik xalqın ümididir, onun inkişaf və tərəqqisinin əsas meyarı və barometridir, hər bir cəmiyyətin maddi-mənəvi tərəqqisi bilavasitə düzgün strukturdan, təşkilatçılıqdan, idarəçilikdən asılıdır.

90-cı illərin əvvəllərində. SSRİ-də yeganə gənclər təşkilatı olan komsomolun fəaliyyətinə xitam verildi. Müstəqilliyin ilk illərində əhalinin bütün təbəqələri və sosial qrupları arasında müşahidə olunan milli oyanış, ictimai-siyasi fəallıq gənclərdən də yan keçmədi.

Azərbaycan gənclərində yeni, müasir prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi forma-laşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyət sahələrinə, sosial tərkibinə görə bir-birindən fərqlənən yeni müstəqil gənclər təşkilatları yaradılmağa başladı. İlk gənclər təşkilatları, əsasən, respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə aparan xalq hərəkatının təsiri altında kortəbii şəkildə formalaşmağa başladı. Lakin 1991-1993-cü illərdə respublikada forma-laşmış əksəriyyətdə gənclər təşkilatlarında çaşqınlıq və xaos şəraitində siyasiləşmə və populizm meylləri üzə çıxdı. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən çoxistiqamətli siyasi partiyaların və qrupların təsiri altına düşdü. Zaman gəncləri səfərbər etmək, gənclərin siyasi qruplarını hazırlamaq və həyata keçirmək vəzifəsini qoyub Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşır, ölkədə hüquqi demokratik dövlət quruculuğu proseslərinə xidmət edir" [6].

1993-cü il sentyabrın 22-də Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyev gənclər qruplarından biri ilə görüşərək Azərbaycan gənclərini ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə, onun taleyinə biganə qalmamağa çağırıb.

Gənclərlə iş sahəsində dövlət siyasətinin əhəmiyyətini nəzərə alan Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il iyunun 26-da bu siyasəti həyata keçirmək vəzifəsi qoyulmuş yeni hökumət strukturunun – Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman verdi [4]. Yeni nazirliyin qarşısında duran mühüm vəzifələrdən biri də gənc nəslin Vətənə, xalqa məhəbbət ruhunda tərbiyəsi, mənəvi tələbatlarının ödənilməsi, gənclərin sosial-iqtisadi problemlərinin həlli, gənc nəslin hərtərəfli inkişafı üçün real şəraitin yaradılması olmuşdur.

Azərbaycanda o vaxtkı şəraitdə fəaliyyət göstərən çoxsaylı gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək zərurəti yarandı. Bu mühüm işin həyata keçirilməsini təmin etmək üçün Prezident Heydər Əliyevin xüsusi Fərmanı ilə 1996-cı il fevralın 2-də Müstəqil Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi vacibdir. Forumda bütün kateqoriyaları təmsil edən iki mindən çox gənc iştirak edib.

Gənclər – tələbələr, hərbçilər, jurnalistlər, siyasi partiyalar və gənclər təşkilatları. Respublika Prezidentinin başçılıq etdiyi bütün dövlət orqanlarının rəhbərləri forumun işində fəal iştirak etmişlər.

Gənclərin iradlarını, təklif və istəklərini dinləyən, ölkə gənclərinin problemlərini hərtərəfli öyrənən Forumda çıxış edən Azərbaycan Prezidenti gənclərin qarşısında çox böyük vəzifələr durması fikrini vurğuladı, o cümlədən, əsas vəzifələrdən biri müstəqil Azərbaycan Respublikasının inkişafına, Azərbaycan dövlətinin əbədiyaşarlığına öz gücünü, bacarığını və istedadını sərf etməsidir [9, s. 315].

Dövlət başçısı çıxışında həmçinin gənclərə Azərbaycan Konstitusiyasını öyrənməyi, onun prinsiplərinə əməl etməyi tövsiyə edib. Prezident gənclərin diqqətini ona yönəltdi ki, Azərbaycan gənclərinin qarşısında duran mühüm vəzifə ölkənin ərazi bütövlüyünü təmin etmək, zəbt olunmuş torpaqları azad etmək, dövlət sərhədlərini bərpa etməkdir [9, s. 319].

Prezident qarşıya qoyulan məqsədlərə nail olmaq üçün gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini, ordunun gücləndirilməsinə diqqətin artırılmasını tələb edib. Vurğulayıb ki, gənclər təşkilatının əsas vəzifəsi hər bir gənci orduya hazırlamaq olmalıdır.

"Hər bir gənc hərbi səfərbərliyə hazır olmalı və onun sıralarında xidmət etməli, bunu özü üçün böyük şərəf hesab etməlidir" [9, s. 321]. Prezidentin bu sözləri Azərbaycan gəncliyinin həyat şüarına çevrilib.

Hələ SSRİ-nin mövcud olduğu dövrdə də Ümummilli Lider Azərbaycan SSR-in rəhbəri olmaqla Azərbaycanın gələcəyini daim düşünmüş, onun yüksək ixtisaslı zabit kadrlarına ehtiyacını nəzərə alaraq, ardıcıl olaraq düşünülmüş tədbirlər həyata keçirmişdir. Beləliklə, 1972-ci ildə bilavasitə onun təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb açıldı ki, bu da çox böyük rol oynadı.

Azərbaycan milli ordusunun yaradılmasında və formalaşmasında rolu

Sonra hər il məktəbi müvəffəqiyyətlə bitirən 800-900 tələbə Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərinə göndərilirdi. Şərəflə qeyd edirik ki, hazırda ordumuzda xidmət edən zabitlərin əksəriyyəti bu Bakı hərbi məktəbinin məzunlarıdır. Bildirib ki, gənclərimizin qarşısında duran mühüm vəzifə müasir dövrün ən yüksək tələblərinə cavab verən təhsil almaqdır. Ulu öndər gənc nəslin əxlaqi tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirmiş, gənclərə ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən və hərtərəfli öyrənməyi, mənimsəməyi tövsiyə etmiş, çox haqlı olaraq qeyd etmişdir ki, milli dəyərləri, milli adət-ənənələri, dili, dini və tarixini bilməyən və mənimsəməyən gənclər öz Vətəninin vətənpərvər ola bilməzlər. "Vətənpərvərlik təkcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, doğma torpağı sevmək, onu qoruya bilmək deməkdir.Vətənpərvərlik budur" hesab edən dövlət başçısı öz çıxışlarında "vətənpərvərlik" məfhumunun mahiyyətini açıqlamışdır [9, s. 324–326].

Ölkə rəhbəri bütün dövlət qurumlarına gənclərin dövlət quruculuğu prosesində öz potensiallarını reallaşdıra bilmələri üçün onlara əlverişli şərait yaratmağı tövsiyə edib. Bu göstərişin konkret nəticəsi gənc kadrların dövlət idarəçiliyində ən məsul vəzifələrə irəli çəkilməsi idi.

İndi ölkənin xalq təsərrüfatının ən müxtəlif sahələrində - yerli icra hakimiyyətlərində, bələdiyyələrdə, nazirlik və idarələrdə yüzlərlə gənc üzərlərinə düşən vəzifələrin öhdəsindən məsuliyyətlə yanaşırlar.

1997-ci il fevralın 1-də Azərbaycan Respublikası Prezidentinin gənclər təşkilatının nümayəndələri ilə görüşündən sonra onların xahişini təmin edən Heydər Əliyev fevralın 2-nin Gənclər Günü elan edilməsi haqqında fərman imzaladı [2, 8, 9, s. [351]. Bu fərman gənc istedadların "Qızıl kitabı"nın, Gənc İstedadlara Yardım Fondunun yaradılmasını tələb edirdi [9, s. 352–353].

Heydər Əliyev Azərbaycanın müstəqilliyi dövründə ölkəyə rəhbərlik etdiyi on il ərzində öz humanist prinsiplərinə sadiq qalaraq, dəfələrlə gənc əsir və ordudan fərariliyə görə amnistiya haqqında qərarlar qəbul etmiş, onların ölkəmizə layiqli vətəndaş kimi yetişmələri üçün hər cür şərait yaratmışdır.

1999-cu il martın 2-3-də Azərbaycan Gənclərinin II Forumu keçirildi.

Bu forumda Heydər Əliyev son üç ildə həyata keçirilən fəaliyyətlərə yekun vuraraq, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə vəzifələr müəyyənləşdirib qoymuşam, dövlət orqanlarına gənclərin problemləri ilə daha dərindən məşğul olmağı tövsiyə etmişəm ki, onlar ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak edə bilsinlər [2, s. 7–22].

Gənclər siyasəti ilə bağlı qəbul edilən qanun və sərəncamların əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmək qabiliyyət və bacarıqlarının reallaşdırılmasına kömək etmək, bacarıqlı və istedadlı gəncləri aşkara çıxarmaq, onlara dövlət idarəçiliyi vərdişlərini aşılamaq, gənclər arasında hüquqpozmaların, cinayətlərin və digər neqativ halların qarşısının alınmasından ibarətdir.

Dövlət gənclər siyasəti dövlətin daxili siyasətinin mühüm tərkib hissəsidir. Gənclər siyasətinin əsas məqsədi, prinsipləri və istiqamətləri Prezident və Ali Məclis tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikası. Bu siyasətin həyata keçirilməsində mərkəzi və yerli hakimiyyət orqanları, bələdiyyələr də öz səlahiyyətləri daxilində iştirak edirlər. Hazırda Azərbaycan Respublikasında Gənclik Dövlət Proqramının həyata keçirilməsi üçün idarəetmə strukturları formalaşdırılıb və bu strukturlarda yüksək ixtisaslı gənc mütəxəssislər çalışır.

Respublikamızda demokratik dövlət quruculuğunun uğurla davam etdirilməsi, gənclər siyasətinin inkişafı ölkə gəncləri arasında beynəlxalq əlaqələrin formalaşmasına və möhkəmlən-məsinə güclü təkan vermişdir.

Azərbaycanın gənclər təşkilatlarının nümayəndələrinə müxtəlif səviyyələrdə keçirilən dünya, Avropa, regional tədbirlərdə iştirak etmək, gənclərlə sahə işində dünya təcrübəsini öyrənmək və ölkəmizdə tətbiq etmək imkanı yaradılıb. Ayrı-ayrı milli gənclər təşkilatları müxtəlif ümumavropa strukturları ilə - Avropa Şurasının, Avropa Gənclər Direktorluğu İttifaqının gənclər təşkilatlarının direktorları ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır, birgə layihə və proqramlar həyata keçirirlər.

2000-ci ilin aprelində Azərbaycan Gənclər Təşkilatları Milli Şurası Avropanın ən nüfuzlu qeyri-hökumət təşkilatı olan Avropa Beynəlxalq Forumunun tamhüquqlu üzvü, 2002-ci ilin yanvarında isə İqtisadi və BMT-nin Sosial Şurasının müşahidəçi üzvü seçilib. Azərbaycan Skaut Assosiasiyasının qəbul edilməsi Skaut Hərəkatının Beynəlxalq Təşkilatına, Gənc Hüquqşünaslar Şurasının Beynəlxalq Assosiasiyasına, Demokratik Tələbə Gənclər Təşkilatının Beynəlxalq Demokratik Tələbələr İttifaqına üzv qəbul edilməsi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasının mühüm vasitəsi, xalqımızın haqq səsi [10, s. [243].

Azərbaycanda dövlət gənclər siyasətinin parlaq göstəricilərindən biri ölkəmizdə gənclər hərəkatının, o cümlədən qeyri-hökumət təşkilatlarının (QHT) inkişafıdır. Vətəndaş cəmiyyətinin mühüm amillərindən biri də QHT-lərdə birləşmək hüququnun həyata keçirilməsidir.

Son illərdə birləşən YOX-un xüsusi xidmətləri var, onların sıralarında gənclərin sayı getdikcə artır, ölkədə dövlət xidmətlərinin inkişafında, strukturlarda, fondlarda, demokratik dəyərlərin formalaşmasında. Gənclər dünyada qəbul olunmuş sivil intellektual forma və üsullardan istifadə edərək gənclərin müxtəlif problemlərini nəzərdən keçirir, cəmiyyətimizin sosial-iqtisadi, mənəvi və mədəni inkişafına öz töhfəsini verir.

Əgər 1998-ci ilin əvvəlində II Gənclər Forumu ərəfəsində NO-ların sayı 601-ə yaxın idisə, bu gün onların sayı iki dəfə artaraq 120-dən çox olmuşdur [10, s. 241]. Bu təşkilatların 40-dan çoxu uşaq, 80-ə yaxını isə gənclər təşkilatıdır. Onların əksəriyyəti siyasi partiyaların gənclər qolu olmaqla siyasi fəaliyyətlə məşğul olsalar da, onların mütləq əksəriyyəti gənclərin spesifik maraqlarını təmsil edərək sırf gənclərlə bağlı məsələlərlə məşğul olur, müxtəlif proqramlarla nizamnamə məqsədlərini həyata keçirməyə çalışırlar. Gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə 1995-ci ildə Azərbaycan Gənclər Təşkilatları Milli Şurası yaradıldı və bu şura milli gənclər hərəkatının inkişafında mühüm rol oynamağa davam edir.

Yada salaq ki, 2001-ci ildə ölkəmiz tamhüquqlu üzvlüyə qəbul edilərkən Avropa Şurasına üzvlük də, Azərbaycandakı gənclər hərəkatını müsbət qiymətləndirən Avropa İttifaqının Gənclər və İdman Direktorlarının hesabatı da böyük əhəmiyyət kəsb edirdi.

Dövlət gənclər siyasətinin müasir tələblərə uyğun qurulması gənclərin, o cümlədən idman sahəsində uğurlu nəticələr əldə etmələrinə münbit şərait yaratmışdır.

Dövlətin diqqət və qayğısına cavab olaraq, idmançılar beynəlxalq yarışlarda yüksək nəticələr əldə ediblər. Azərbaycan idmançılarının xüsusilə yüksək nailiyyətləri (iki qızıl və bir bürünc medal) 2000-ci ildə Sidneydə keçirilən Yay Olimpiya Oyunları gələcək qələbələrə olan ümidlərimizi xeyli gücləndirdi. 2003-cü ilin nəticələri bunu inandırıcı şəkildə təsdiqlədi. Əgər 2002-ci ildə beynəlxalq

yarışlarda idmançılarımız 175 medala layiq görülmüşdürsə [10, s. 245], sonra 2003-cü ildə bu rəqəm 188-ə çatmışdır [12].

Beləliklə, müstəqilliyin ilk illərində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət gənclər siyasətinin əsas istiqamətləri formalaşdırıldı və bu istiqamətlər respublikada yeni yaranan gənclər hərəkatının əsasını təşkil etdi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. – Bakı, 1989.
2. Azərbaycan Gənclərinin II Forumu. – Bakı, 2000.
3. "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. – 1996. – 22 iyun.
4. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. – 1994. – 27 iyul.
5. Azərbaycan Prezidentinin gənclərlə görüşü. – Bakı, 1997.
6. "Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. – 1999. – 30 iyul.
7. "Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan. – 2002. – 10 aprel.
8. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir. I və II hissələr / Heydər Əliyev. - Bakı, 1998
9. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. – Bakı, 2003.
10. Əliyev, V. Heydər Əliyev və müasir gənclik / V. Əliyev // "Tarix və onun problemləri" jurnalı. – 2003. – № 3. – S. 235–246

ГЕНЕЗИС И ПРОБЛЕМЫ ИДЕНТИФИКАЦИИ СЛОЖНЫХ СЛОВ СО СТРУКТУРОЙ СУЩЕСТВИТЕЛЬНОЕ + СУЩЕСТВИТЕЛЬНОЕ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Вафа Тофиговна Балакишиева
Мингячевирский государственный университет
vafa.balakishiyeva@mdu.edu.az

Образование семантики сложных слов N+N относится к словам, образующим существительные. Часто слова, образующие существительные, обладают потенциалом значения логического объекта. Роль того или иного продуктивного существительного зависит от его семантики. По мнению Е.С.Кубряковой, к числу важных понятий, характеризующих существительные слова, относятся подлежащее, лицо, место и другие понятия (1, 56). Существительные среды обитания концептуализируются как места, а объекты специального назначения концептуализируются как инструменты. Это утверждение подтверждается не только массой простых, непроизводных названий со схожим значением, но и nomina loci, nomina Agentis и т. д. подтверждается существованием специальных словоисправительных формативов, создающих категории.

Все существительные в английском языке можно классифицировать по ролевой классификации существительных. Выделенный им первый класс существительных – активный. Он состоит преимущественно из инструментов и механизмов, например, игла – то, что втыкает, молоток – то, что забивает гвозди, нож – то, что режет и т. д. Объекты, описывающие вещи, концепции, имена концепций, имеют роли, которые не играют важной роли в стандартном варианте использования.

Например, дверь — это то, что открывается и закрывается, пол — это то, по чему вы ходите, дом — это то, где вы живете и т. д. При формировании значения сложного слова понятия, передаваемые продуктивными существительными, объединяются в единую понятийную структуру.

На уровне связи понятия устанавливается связь между двумя понятиями предметной области, выраженными существительными, с помощью понятия, выражающего процессуальный признак, выраженный глаголом. Мереология, являющаяся с точки зрения исследователей частью логики, описывает отношения между целым и его частями, множеством и его элементами. В рамках структурно-семантического подхода проблема генезиса сложного слова привлекла внимание многих лингвистов. Традиционно сложные слова образуются двумя способами: из выражений и из моделей. Особенности образования сложных слов из выражений были показаны Г.Павлом в книге «Основы истории языка» (2, 91). По мнению исследователя, при образовании сложного слова из словосочетания значение обособляется. В результате значение сложного слова отличается от значения исходного выражения. И.В.Арнольд отмечает, что процесс образования сложного слова, из которого выражается выражение, начинается с изменения значения. Он считает, что развитие сложных слов из словосочетаний может происходить по-разному.

Таким образом, некоторые выражения и сложные слова первоначально выражали одни и те же или почти сходные понятия. После образования сложных слов выражения перестали существовать (завтрак, шкаф, жилет). Другие сложные слова, по мнению И.В.Арнольда, основаны на свободных выражениях, «...не обозначающих какой-либо конкретный предмет, но служащих для обозначения различных случайных предметов, имеющих определенные характеристики».

В результате изоляции значения этих выражений возникли сложные слова, тогда как свободные выражения продолжают функционировать параллельно. {темная комната – любая темная комната (свободное выражение); темная комната, специальная комната для фоторабот (сложное слово). Существование иного способа образования сложных слов определяется тем, что иногда сложные слова не имеют своего прототипа в виде словосочетания, так как структура этих слов противоречит нормам синтаксиса. Многие исследователи [Степанов 1953; Хидекель 1953; Арутюнова 1961; Степанова, Чернышева 1962; Царев 1976; Каращук 1977; Харитончик 1983; Мешков 1976, 1986] отмечает, что образование сложных слов в большинстве случаев осуществляется на основе исторически сложившихся в языке словообразовательных моделей.

В связи с этим З.А.Харитончик, в данном исследовании под словообразовательной моделью или словообразовательным типом мы понимаем «схему, образец, аналог, все то, что определяет порядок построения производных слов, тип основных порождающих и словообразовательных средств, обобщенный семантика однотипных слов, возникающая в результате их взаимодействия» (4, 19). По мнению О.Д.Мешкова, модели словообразования существенно отличаются друг от друга по многим параметрам. Составив матрицу частей речи и определив их возможные соответствия, он определил 196 моделей сложных слов (5, 76). О.Д.Мешков предложил три типа моделей словообразования:

- продуктивные модели, в которых генерируются сотни и тысячи сложных слов;
- модели, в которых создано всего несколько или даже одно сложное слово;
- закрытые модели, поэтому новые сложные слова больше не создаются и не могут быть созданы (5, 86).

Один многие исследователи считают, что модель N+N является одной из наиболее продуктивных моделей [Гутерман 1955; Мешков 1971, 1975, 1976, 1984; Мостовой 1973; Царев 1979, 1984; Шамлиди 1988; Бауэр 1983; Райдер 1994]. О.Д.Мешков выделил ряд причин, определяющих продуктивность этой модели: модель N+N предоставляет большие возможности для номинации реальных объектов и событий; в английском языке сопоставление двух существительных возможно в любых смысловых отношениях; Распространению сложных слов образца N+N способствует простая морфологическая структура английского слова; Конструкция типа N+N отличается большей синтаксической легкостью по сравнению с выражением «существительное + предлог + существительное» (5, 19). Л.Бур, работая в рамках психолингвистического подхода, выделяет подгруппу Герундий+N в группе сложных

слов, образованных по модели N+N (6,198). У него есть эта идея приводит два аргумента в подтверждение этого.

Во-первых, в отличие от других сложных слов, содержащих глаголь-ный компонент, глагольный компонент этих сложных существительных имеет окончание -ing.

Во-вторых, семантические отношения между компонентами сложного слова больше похожи на отношения между компонентами сложных слов, образованных по модели N+N, чем по модели Verb+N.

Поэтому, следуя Л.Буру, в данном исследовании мы считаем, что сложные существительные, образованные по модели Герундий+N, образуют особую подгруппу сложных слов, образованных по модели N+N, и являются очень продуктивными.

Помимо вышеперечисленных способов образования сложных слов, О.Д.Мешков определяет третий способ образования сложных существительных (5, 23-24). По его мнению, сложные слова могут образовываться по аналогии с существующими сложными словами путем замены одного из компонентов. С помощью этого метода можно образовать большое количество сложных слов, которые могут быть нейтральными, образными и носить индивидуально-авторский характер.

Например, сложное слово звездотрясение построено по аналогии со сложным словом землетрясение; комедийный писатель-драматург по композиционной аналогии; миротворец – поджигатель войны по аналогии со сложным словом.

Таким образом, изучение генезиса сложных слов легло в основу дальнейшего развития научной мысли в области словосочетания. В результате решается проблема идентификации сложных слов, их лексической полноты.

Список использованной литературы

1. Кубрякова, Е.С. Что такое словарный запас, М.: Наука. (1965)
2. Поль, К. Основы истории языка, М.: Наука. (1960)
3. Арнольд, И.В. Лексические исследования Министерства образования СССР в различных учебных заведениях для педагогических институтов иностранных языков. М.: Наука. (1959)
4. Харитончик, З.А. Лексикология древнерусского языка. Министерство образования Республики Беларусь в категории учебных пособий для студентов институтов и факультетов высших языковых специальностей, Минск: Высшая школа(1992)
5. Мешков, О.Д. Лексикология древнерусского языка. Министерство просвещения СССР в категории учебных пособий для студентов институтов и факультетов высших языковых специальностей. Московская высшая школа(1985)
6. Бауэр, Л. Английское словообразование. Кембридж, Изд-во Кембриджского университета. (1983)

HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ

Kəmalə Həşim qızı Aslanova
Bakı Slavyan Universiteti
r-gd.k@bsu-uni.edu.az

Heydər Əliyev, Azərbaycan Respublikasının müstəqilliyi və inkişafı yolunda ən mühüm liderlərdən biri olmuşdur. Onun rəhbərliyi dövründə həyata keçirilən gənclər siyasəti ölkənin gələcəyinin formalaşdırılması üçün böyük əhəmiyyət daşıyırdı. Azərbaycan gəncliyi, yalnız təhsil və işlə təminat sahələrində deyil, həm də milli dəyərlərə bağlılıq və vətənpərvərlik ruhunun artırılması baxımından dövlətin xüsusi diqqətinə layiq görülmüşdür. Bu məqalə Heydər Əliyevin gənclər siyasətini geniş şəkildə analiz edəcək, onun Azərbaycandakı gənclərin inkişafına olan təsirini araşdıracaqdır.

Heydər Əliyevin gənclərə diqqəti yalnız müstəqillikdən əvvəl, Sovet dövründə də mövcud idi. Onun fəaliyyətinə birgə nəzər yetirildikdə, həm müstəqil dövrdə, həm də Sovet dövründə Azərbaycan gənclərinin inkişafına yönəlmiş siyasətlərin ardıcıl olaraq həyata keçirildiyini görmək olar. Onun rəhbərliyi dövründə, gənclərə verilən dəstək və onların inkişafı məqsədilə müxtəlif təşəbbüslər irəli sürülmüşdür [1].

Ulu öndər Heydər Əliyev Azərbaycan gənclərinin təhsilini xüsusi önəmli bir sahə olaraq, qiymətləndirmişdir. Onun dövründə təhsil sistemində aparılan uğurlu islahatlar nəticəsində gənclərə beynəlxalq səviyyədə rəqabət qabiliyyəti qazandırılmışdır. Təhsil sahəsində aparılan islahatlar, həmçinin gənclərə xarici ölkələrdə təhsilalma imkanları yaratmışdır. Beləliklə, Heydər Əliyev gənclərin dünyagörüşünü genişləndirmək və onları müasir cəmiyyətə uyğun hazırlamaq məqsədini güdmüşdür [2].

Gənclərin fiziki və mədəni inkişafı Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Mədəniyyət və idman sahələrində görülən işlər, gənclərin sağlamlığını və milli kimliyini qorumaqla yanaşı, onların sosial inkişafını da təmin etmişdir. Azərbaycanın müxtəlif bölgələrində idman və mədəniyyət tədbirlərinin təşkil edilməsi, gənclərin müxtəlif sahələrdə özlərini ifadə etməsinə şərait yaratmışdır. Bu məqalə Heydər Əliyevin gənclər siyasətini, onun tətbiq etdiyi proqramları və bu siyasətin nəticələrini təhlil edəcəkdir. Gənclərin təhsilindən tutmuş, iş imkanları, mədəniyyət və idman sahələrində göstərilən dəstəyə qədər bütün aspektlərə geniş yer veriləcəkdir. Məqsədimiz, Heydər Əliyevin gənclər siyasətinin ölkənin sosial və iqtisadi inkişafına necə təsir etdiyini və bu siyasətin müasir dövrə necə təsir etdiyini araşdırmaqdır.

Heydər Əliyevin gənclərə göstərdiyi diqqət yalnız müstəqil Azərbaycanın başlanğıc dövrü ilə məhdudlaşmamışdır. Sovet İttifaqı dövründə də Heydər Əliyev gənclərin inkişafı üçün müxtəlif proqramların və təşəbbüslərin həyata keçirilməsində fəal olmuşdur. Gənclərin Sovet dövründəki idarəetmə və sosial fəaliyyətlərə qatılmaları üçün yaradılan təşkilatlar, böyük ölçüdə Heydər Əliyevin gənclərin inkişafına verdiyi önəmin nəticəsi idi.

1991-ci ildən sonra isə Heydər Əliyev gənclərin yalnız sosial və iqtisadi problemlərinə deyil, həm də milli dəyərlərə bağlılıq məsələlərinə diqqət yetirərək, gənclər siyasətində yeniliklər etmişdir. Müstəqil Azərbaycan dövlətinin yaranması ilə yanaşı, gənclərin öz gələcəklərini qurması üçün sağlam bir zəmin yaradılmışdır. Bu siyasət, həm gənclərin müasir dünyanın tələblərinə cavab verən bir şəkildə təhsil almasını, həm də öz millətinə və dövlətinə xidmət edən vətəndaşlar olmalarını hədəfləyirdi [1].

Heydər Əliyev gənclərin təhsilinə xüsusi önəm vermişdir. Azərbaycan Respublikasının müstəqilliyi dövründə onun rəhbərliyi ilə həyata keçirilən islahatlar gənclərin təhsil sahəsində böyük irəliləyişlər əldə etməsinə şərait yaratmışdır. Heydər Əliyevin dövründə təhsilin inkişafı, yalnız məktəb və ali təhsil müəssisələri ilə məhdudlaşmamış, həm də gənclərin xaricdə təhsil almaları və beynəlxalq standartlarla tanış olmaları məqsədini güdmüşdür.

Müasir dövrün tələblərinə uyğun olan təhsil islahatları gənclərin dünya miqyasında rəqabət qabiliyyətini artırmışdır. Azərbaycanın müxtəlif təhsil müəssisələri dünya universitetləri ilə əməkdaşlıq edərək, tələbələrinə keyfiyyətli təhsil imkanı yaratmışdır. Həmçinin, gənclər üçün müxtəlif beynəlxalq təqaüd proqramları təqdim edilmiş və bu, Azərbaycan gənclərinin dünya səviyyəsində təhsil almalarını təmin etmişdir [2].

Gənclərin yüksək təhsil alması, eyni zamanda onları sosial məsələlərə daha həssas hala gətirmiş, onların iqtisadi və sosial həyatda fəal iştirakını təmin etmişdir. Təhsil, yalnız karyera qurmaq üçün deyil, həm də şəxsiyyətin inkişafı, dünya görüşünün genişlənməsi və cəmiyyətə xidmət məqsədini daşıyan bir vasitə olmuşdur.

Heydər Əliyev, gənclərin yalnız intellektual deyil, həm də fiziki inkişafını təmin etmək məqsədilə idman və mədəniyyət sahələrinə xüsusi diqqət ayırmışdır. Onun dövründə gənclərə idmanla məşğul olmağa, müxtəlif idman yarışlarında iştirak etməyə və milli dəyərləri yaşatmağa

şərait yaradılmışdır. Gənclərin fiziki inkişafı ilə yanaşı, mədəniyyət sahəsindəki fəaliyyəti də yüksək səviyyədə təşviq edilmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə müxtəlif gənclər festivalları, mədəniyyət tədbirləri və idman yarışları təşkil edilmişdir. Bu tədbirlər gənclərə öz istedadlarını nümayiş etdirmək, digər gənclərlə tanış olmaq və sosial şəbəkələrini genişləndirmək imkanı yaratmışdır. Beləliklə, Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan gəncliyi yalnız təhsil deyil, həm də sağlam həyat tərzi və milli dəyərlər istiqamətində inkişaf etmişdir [3].

Heydər Əliyev gənclərin işlə təmin olunması məsələsinə xüsusi diqqət ayırmışdır. Onun rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar, gənclərin əmək bazarına daxil olmalarına və öz sahələrində müvəffəqiyyət əldə etmələrinə imkan yaratmışdır. Bu siyasət nəticəsində, işsizlik səviyyəsi azalmış, gənclərin peşə bacarıqları inkişaf etmiş və yeni iş yerləri yaradılmışdır Heydər Əliyev gənclərin işlə təmin olunması məsələsinə xüsusi diqqət ayırmışdır. Onun rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar, gənclərin əmək bazarına daxil olmalarına və öz sahələrində müvəffəqiyyət əldə etmələrinə imkan yaratmışdır. Gənclərin iş imkanları ilə təmin olunması iqtisadi inkişafın bir hissəsi olmaqla yanaşı, sosial rifahın təmin edilməsi üçün də olduqca vacibdir.

Həm dövlət sektoru, həm də özəl sektor gənclərin işlə təmin olunması məsələsində fəal olmuşdur. Heydər Əliyev gənclər üçün yeni iş yerlərinin yaradılması məqsədilə müxtəlif layihələr və proqramlar həyata keçirmişdir. Bu, gənclərin iqtisadi baxımdan müstəqil olmalarına və öz gələcəklərini qurmaqda əhəmiyyətli rol oynamalarına imkan yaratmışdır [4].

Heydər Əliyevin gənclər siyasətindəki əsas prinsiplərdən biri də milli kimliyin qorunması və gücləndirilməsidir. O, Azərbaycan gənclərinə öz xalqının tarixini, mədəniyyətini və adət-ənənələrini öyrətməyə, onların bu dəyərləri gələcək nəsillərə çatdırmasına şərait yaratmağa çalışmışdır. Heydər Əliyevin gənclər siyasəti, eyni zamanda, Azərbaycan dilinin və milli mədəniyyətinin yaşadılmasına yönəlmişdir Heydər Əliyevin gənclər siyasətinin vacib aspektlərindən biri də milli kimliyin qorunması və gücləndirilməsidir. Onun dövründə, gənclərə öz ölkəsinin mədəniyyətini, tarixini və adət-ənənələrini öyrətmək məqsədilə müxtəlif təşəbbüslər irəli sürülmüşdür. Heydər Əliyev milli dəyərlərin gənclər arasında geniş yayılmasına və bu dəyərlərin gələcək nəsillərə ötürülməsinə çalışmışdır.

Gənclər, yalnız müasir dünyanın tələblərinə uyğun təhsil almalı deyildilər, həm də Azərbaycan xalqının keçmişini öyrənməli və bu mədəni irsi yaşatmalıdırlar. Heydər Əliyev gənclərin milli kimliklərinə bağlılıq duyğusunun artırılması məqsədilə milli bayramlar və ənənəvi tədbirlər təşkil etmişdir [5].

Gənclərin siyasi həyatdakı fəallığı da Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Gənclərin siyasi təhsil alması, onları demokratik dəyərlərlə tanış edilməsi, ölkə siyasətində fəal iştirak etmələri məqsədilə bir sıra təşəbbüslər irəli sürülmüşdür. Heydər Əliyev, gəncləri yalnız gələcək liderlər kimi deyil, həm də cəmiyyətin aktiv vətəndaşları olaraq yetişdirməyə çalışmışdır Gənclərin siyasi həyatdakı fəallığı Heydər Əliyevin rəhbərliyi altında genişlənmişdir. Onun dövründə gənclərin siyasi iştirakını təşviq edən müxtəlif proqramlar və tədbirlər həyata keçirilmişdir. Gənclər, ölkənin idarəetmə strukturunda fəal iştirak edərək, demokratik dəyərləri daha yaxşı mənimsəmiş və cəmiyyətin inkişafında mühüm rol oynamışdır [6].

Heydər Əliyevin gənclər siyasəti, Azərbaycan gəncliyinin inkişafına mühüm töhfələr vermişdir. Təhsil, mədəniyyət, idman, iş imkanları və milli kimlik məsələlərində həyata keçirilən islahatlar nəticəsində gənclər həm fərdi, həm də kollektiv olaraq inkişaf etmişlər. Bu islahatlar nəticəsində gənclərin gələcəkdə ölkənin iqtisadi və sosial inkişafına daha böyük töhfələr verəcəyi gözlənilir [7].

Heydər Əliyevin gənclər siyasəti, Azərbaycan üçün müasir dövrün ən önəmli strateji sahələrindən biridir. O, gənclərə yalnız təhsil verməklə qalmamış, onları ölkənin gələcəyini forma-

laşdırmaq üçün hazırlamışdır. Gənclər, Heydər Əliyevin dövründə öz potensiallarını kəşf etmiş, milli dəyərləri mənimsəmiş və sosial məsuliyyətli vətəndaşlar kimi yetişmişlər. Bu siyasət nəticəsində Azərbaycan gəncliyi gələcəkdə daha da güclənəcək və ölkənin inkişafında mühüm rol oynayacaqdır [8].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, H. (2000). Gənclər və inkişaf. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.
2. Məhərrəmov, S. (2005). Azərbaycanın gənclər siyasəti: tarixi və müasir dövr. Bakı: Elm və Təhsil.
3. Əliyeva, T. (2010). Heydər Əliyev və Azərbaycan gəncliyi. Bakı: Şərq-Qərb nəşriyyatı.
4. Rəhimov, R. (2008). İqtisadi inkişaf və gənclər siyasəti. Bakı: Baku Press.
5. Həsənov, A. (2012). Milli kimlik və gənclik. Bakı: Gənclər Nəşriyyatı.
6. Quliyev, M. (2007). Gənclər və siyasət. Bakı: Azərbaycan Universiteti.
7. Məmmədov, N. (2011). Gənclərin iqtisadi inkişafda rolu. Bakı: Elm və Təhsil.
8. Əliyev, H. (2001). Azərbaycan gəncliyi: gələcək perspektivlər. Bakı: Şərq-Qərb

MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİMİZİN HİMAYƏDARI

Aynurə Cabbar qızı Məmmədova
AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnsititutu
aynuramammadova07@gmail.com

"Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət- ənənələrimizlə fəxr edirik."

(Heydər Əliyev)

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticəsində dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır.

Hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli- mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir. Dünya xalqları arasında milli mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Bildiyimiz kimi, uzun illər ərzində öz müstəqilliyini itirmiş Azərbaycan xalqının bir çox milli-mənəvi dəyərləri deformasiyaya məruz qalmış, tarixin yalnız şifahi yaddaşına çevrilmişdir.

Keçmiş Sovet dövlətinin kommunist ideoloji mühiti isə dini-milli adət və ənənələrimizin öyrənilməsinə və təbliğinə qadağalar qoymuşdur. Yeni adət və ənənələr adı altında əsasən sosialist həyat tərzinin mahiyyətini və məzmununu ifadə edən ideoloji, siyasi xarakterli mənəvi cəhətlər diqqət mərkəzinə çıxarılmışdır. Sözsüz ki, xalqımıza, onun milli xüsusiyyətlərinə və iradəsinə

uyğun olmayan cəhətlər də hakim zümrələr tərəfindən bədii sənət aləminə diqtə edilmişdir. Xüsusilə, uzun illər aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Ümummilli lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu dəyərləri düzgün qiymətləndirməsində, daim diqqət mərkəzində saxlamasında idi. Ümummilli Liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev milli mənəvi dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edirdi: dil, din, adət-ənənə [1]

Heydər Əliyev Azərbaycanın milli-mənəvi dəyərlərinə böyük önəm verən, onların qorunması və inkişaf etdirilməsi üçün mühüm addımlar atan bir lider olmuşdur. O, milli kimliyimizin əsas dayaqlarından biri olan mənəvi dəyərləri qorumağı və gənc nəsillərə ötürməyi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi qəbul edirdi. Hələ sovet dövründə Azərbaycan SSR-ə rəhbərlik edən Heydər Əliyev mədəniyyət müəssisələrinin yaradılmasına xüsusi diqqət yetirmişdir. Müstəqil Azərbaycan Respublikası yarandıqdan sonra da özünün quruculuq ənənələrindən uzaqlaşmamış, mədəniyyətin inkişafına bir prezident kimi qayğı göstərməyi davam etdirmişdir.

Heydər Əliyev və Milli-Mənəvi Dəyərlər deyəndə İslam və Ənənəvi Dəyərlərin Qorunması, Dil və mədəniyyətin inkişafı, Milli birlik və vətənpərvərlik, Ənənəvi ailə dəyərlərinin qorunması, və Mili mənəvi dəyərlərin gənc nəsillərə aşılanması nəzərdə tutulmuşdur. Belə ki.Heydər Əliyev Azərbaycan xalqının İslam dininə bağlılığını və bu dinin milli dəyərlərimizlə uzlaşmasını xüsusi vurğulayırdı. Onun rəhbərliyi dövründə ölkədə dini azadlıqlar təmin edildi, məscidlər bərpa olundu və yeni ibadət yerləri tikildi. [3] Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi Heydər Əliyevin milli siyasətinin əsas istiqamətlərindən biri idi. Totalitar sovet rejiminin tətbiq etdiyi bütün baryerləri aşaraq bütün təntənəli tədbirlərdə səlis Azərbaycan dilində çıxış etməklə Heydər Əliyev cəmiyyətə doğma dilin digər dillər üzərində üstünlüyünü qabartmaqla Azərbaycan dilinə bağlı olmağın və tarixi irsi yaşatmağın nümunəsini ortaya qoymuşdur. Onun təşəbbüsü ilə Azərbaycan dili dövlət dili statusunu aldı və bu sahədə mühüm qanunlar qəbul olundu. Eyni zamanda, mədəni irsimizin qorunması üçün teatrlar, muzeylər və mədəniyyət ocaqları dövlət qayğısı ilə əhatə olundu.

Heydər Əliyev milli birlik və vətənpərvərlik ruhunun gücləndirilməsinə xüsusi diqqət yetirirdi. Onun çıxışlarında və qərarlarında daim Azərbaycan xalqının birlik və həmrəyliyinin vacibliyi vurğulanırdı. Bu ideyalar gənclər siyasətində də əksini tapmışdır. Ailə institutunun möhkəmləndirilməsi, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunması Heydər Əliyevin mühüm prioritetlərindən idi. O, ailənin cəmiyyətin sütunu olduğunu bildirir və Azərbaycan ailə modelinin qorunmasını dəstəkləyirdi. Gənclərin milli ruhda böyüməsi, onların Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatı ilə dərindən tanış olması üçün xüsusi proqramlar və təhsil siyasəti həyata keçirilmişdir. Heydər Əliyev milli dəyərlərin təbliğində müəllimlərin və ziyalıların rolunu xüsusi vurğulayırdı.

Ümummilli lider Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşdürmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, ulu öndərin cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi.

Heydər Əliyev öyrədirdi ki, sərvət toplamaq, dünyanın ən ləzzətli təamlarını nuş etmək, son dəbdə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür. Lakin hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. Gələcək nəsillərə bəlkə də maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərməğan edilməlidir. Ulu Öndər özünün mənəviyyatla bağlı məşhur 2001-ci ilin avqust bəyanatında milli mentalitetlə əlaqədar demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Çıxışlarında deyirdi: "Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir.

Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik". [3]

Eyni zamanda Heydər Əliyev keçmiş zamanlarda yaranmış adət və ənənələrimiz də unudulmur, onlara müasir həyat tərzinin tələblərinə uyğun olaraq, dövlət səviyyəsində qayğı göstərilir. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Heydər Əliyev hər il qədim milli bayramımız olan Novruzda əhali ilə bayramlaşmağa çıxır, azad və müstəqil xalqımızın Novruz sevinclərindən xüsusi zövq alırdı. Heydər Əliyev bu tədbirləri təkcə Azərbaycan yox, bütün türk dünyası miqyasında həyata keçirirdi. Fəsil bayramımız olan "Novruz"un şəxsən ölkə Prezidentinin iştirakı ilə qeyd olunması ənənəvi hal almışdır. Məlum olduğu kimi, Novruz bütün bayramlardan fərqli olaraq həmişə xalq tərəfindən sevinc hissi ilə qarşılanmışdır. Çünki o, öz gəlişi ilə xalqın həyat şəraitinin yaxşılaşacağına ümidlər yaratmışdır. Bu bayram əkinçilik, məhsul bolluğu yaratmaq etiqadları ilə zənginləşmişdir. Bir vaxtlar Heydər Əliyev, bu gün isə Prezidentimiz İlham Əliyev ailəsi ilə həmin gün də elin, camaatın içərisinə çıxır, meydanlarda, şənliklərdə xalqın sevincinə şərik olur və bu bayram münasibətilə xalqı təbrik edir. Musiqiçilərimiz, aktyorlarımız bayram xüsusiyyətlərinə uyğun tamaşalar göstərir, musiqilər ifa edirlər" Novruz bayramının keçirilməsi nə qədər qədim tarixə malik olsa da, o bütün dövrlərdə özünün mədəni əhəmiyyətini itirməmiş, əksinə olaraq, yeni adət və ənənələrlə, bədii folklor nümunələri ilə zənginləşmişdir. Xalqımızın əsrlər boyu yaratdığı adət və ənənələr dövlət səviyyəsində qayğı ilə əhatə olunduqca hər bir vətəndaşın mənəvi irsə, mədəni köklərə bağlılığı daha da artır. Mədəniyyət müəssisələri isə bu qayğıdan istifadə edərək adət və ənənələrimizin, milli yaradıcılıq təcrübəmizin inkişafına əsaslı zəmin yaradır. Bütün mədəni dəyərlərimizin toplusu kimi müstəqil Azərbaycan dövlətinin mənəvi dayaqlarının möhkəmlənməsində, ənənəvi milli xüsusiyyətlərin qorunub gələcək nəsillərə ötürülməsində Novruz bayramının mədəniyyət müəssisələrində də qeyd olunmasının böyük əhəmiyyəti vardır.

Milli mənəvi dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli mənəvi dəyərlərinin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin Heydər Əliyevin milli-mənəvi dəyərlərə verdiyi əhəmiyyət onun dövlət siyasətinin ayrılmaz hissəsi olmuşdur. Onun irsi bu gün də Azərbaycan cəmiyyətinin inkişafında mühüm rol oynayır və bu dəyərlər əsasında formalaşan gənc nəsil milli kimliyimizi qoruyaraq gələcəyə daşıyır. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. [1]

Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan hələ ötən əsrin 70-ci illərində görkəmli dövlət xadimi, müdrik şəxsiyyət kimi o, yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir. Bir sözlə, Heydər Əliyev milli adət və ənənələrimizin və bu müstəvidə formalaşdırılan milli dəyərlər sisteminin qorunub saxlanıl-masında və bunun əsasında güclü və qüdrətli dövlət qurulması istiqamətində mühüm tədbirlər həyata keçirdi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. İlqar Hüseynov. Azərbaycan Milli adət və ənənələrinin bədii estetik mahiyyəti. Bakı, 2002, 305 s.
2. Vüqar Rəhimzadə. Milli mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu: medianın dəstəyi və qiymətləndirməsi prizmasında. Strateji təhlil," 2017, 7 s.
3. https://tehsiljurnali.az/sagxeberler/4071-heydr-liyev-v-milli-mnvi-dyrlrimiz.html

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA GƏNCLƏR SİYASƏTİ

Qurban Fikrət oğlu Qurbanov
Azərbaycan Dövlət Universitetinin Ağcabədi filialı
qurban6891@gmail.com

XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyətlərdən biri, dünya şöhrətli siyasətçi, təcrübəli dövlət rəhbəri Heydər Əliyevin bənzərsiz ömür yolu, zəngin ictimai və siyasi fəaliyyəti müasir tariximizdə mühüm və şərəfli mərhələ təşkil edir. Təkcə Respublikamızın ictimai-siyasi həyatında, bu günkü reallıqlara obyektiv qiymət vermək üçün yaxın keçmişimizə nəzər salmaq daha düzgün olar. 34 il bundan əvvəl, müasir Azərbaycan tarixinin dönüş nöqtələrindən biri sayılan 14 iyul 1969-cu il tariximizə Heydər Əlirza oğlu Əliyevin bu gündə Azərbaycana rəhbərlik etdiyi böyük bir tarixi dövrün başlanğıcı kimi daxil olub. Heydər Əliyev sovet imperiyası dövründə sərt totalitar rejimin az da olsa verdiyi imkanlardan maksimum istifadə edərək, bəzən isə məhdudlaşdırıcı qanunlardan məharətlə yan keçərək, Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni inkişafı, bütövlükdə onun çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə mübarək qəlişiylə ölkəmiz tərəqqi və inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Respublika fəallarını, bütün xalqı Vətənimizin daha da çiçəklənməsi naminə səfərbər edən o vaxtkı Azərbaycan Kommunist Partiyasının birinci katibi Heydər Əliyev az bir vaxt ərzində ölkəni sözün həqiqi mənasında əsl quruculuq, yarış mey danına çevirdi. Azərbaycan neftçilərinin, metallurqlannın, fabrik, zavod fəhlələrinin, kənd təsərrüfatı əməkçilərinin əldə etdikləri yüksək nailiyyətlər xalqın sosial həyat tərzinin, gün-güzəranın daha da yaxşılaşmasına şərait yaradırdı. Şəhərlər inkişaf edir, kəndlər, qəsəbələr öz simasını dəyişirdi. Şamaxı, Cəlilabad, Xaçmaz üzümçülərinin, Muğan, Mil pambıqçılarının, Lənkəran tərəvəzçilərinin, Naxçıvan taxılçılarının səsi-sorağı ali məclisdən gəlirdi, Xəzər neftçilərinin, Sumqayıt kimyaçılarının, Mingəçevir energetiklərinin şəninə nəğmələr qoşulurdu. Azərbaycanın paytaxtı Bakı şəhəri görünməz dərəcədə genişlənmiş, yeni qəsəbələr, yaşayış massivləri salınmış, hündür və yaraşıqlı binaların sayı xeyli artmışdır.

Həmin dövrdən başlayaraq, komsomolda Heydər Əliyev tərbiyə məktəbini keçmiş gənclərin partiyaya axını artırdı. 1979-cu ildə Sov.İKP üzvlüyünə qəbul edilənlərin 70 faizindən çoxu komsomolçular idilər. Partiya təşkilatları komsomol fəalları içərisindən kadrlar seçib götürərək, ən yetkin, ideyaca savadlı, əmək mətinliyi olan gəncləri rəhbər işə irəli çəkirdi. Ötən illər ərzində Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan partiya təşkilatı ictimai-siyasi və iqtisadi həyatın bütün sahələrində zəngin nəticələr əldə etmişdir.

Heydər Əliyev rəhbərliyi altında o dövrün gəncləri partiyanın iqtisadi siyasətini daha artıq əzmlə, daha artıq qətiyyətlə həyata keçirmiş, daha yaxşı nəticələrə nail olmuşdurlar. Bunun yolu ən əvvəl idarəetmənin səviyyəsini yüksəltməkdən, təsərrüfat mexanizmini yaxşılaşdırmaqdan, iş üsulunu və metodunu təkmilləşdirməkdən, yüksək tələbkarlıq, mütəşəkkillik, işə yaradıcı münasibət şəraiti yaratmaqdan ibarət idi [5].

Gənclik hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı qüvvədir. Ona görə də hər bir müstəqil dövlət gələcəyi üçün gənclərlə bağlı olan siyasəti həyata keçirir və bununla əlaqədar qarşıya qoyduğu vəzifələri yerinə yetirməyə çalışır. Çünki ölkənin gələcəyi, müqəddəratı gənclərdən, onların fəaliyyətlərindən xeyli dərəcədə asılıdır.

Gənclərimizin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında, Ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri vardır. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Heydər Əliyev ölkədə gənclərlə bağlı aparılan siyasətə çox böyük əhəmiyyət verərək deyirdi ki, Azərbaycan Prezidenti kimi mən bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən asılıdır.

Lakin ötən əsrin 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında baş verən qarışıqlıq, hakimiyyət çəkişmələri, Qarabağda ağır və acınacaqlı məğlubiyyətlər gənclər arasında həyata sönük münasibətlərin formalaşmasına zəmin yaratmış, onlarda cinayətkarlığa, hüquq pozuntularına meyli artırmışdı. Cəmiyyətin aparıcı qüvvəsi olan gənclər arasında heç bir iş aparılmamış, onlar diqqət mərkəzindən kənarda qalmışlar [7].

Elmin inkişafını daim diqqət mərkəzində saxlayan ölkə başçısı Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq, 7 avqust 2002-ci il tarixdə AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalamışdır.

Naxçıvan Bölməsinin yaradılması barədə bu sərəncam regionun müxtəlif problemlərinin araşdırılıb öyrənilməsinə, burada gənc istedadların elm sahəsinə daha mütəmadi cəlb olunmasına, bütövlükdə respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə çox mühüm təsir göstərəcəkdir. Ölkədə elmin regional inkişafının bu mühüm istiqamətinin ilk növbədə blokada şəraitində olan Naxçıvanda həyata keçirilməsinin həm də dövlətçiliyimizin, ərazi bütövlüyünün möhkəmləndirilməsi baxımından da müstəsna əhəmiyyəti vardır. Elm tariximizdə misilsiz dəyərə malik olan, Naxçıvan üçün 1945-ci ildə Akademiyanın yaradılması qədər əhəmiyyətli olan bu sənəd Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvanın respublikamızın zəngin elmi mərkəzlərindən birinə çevrilməsinə real imkanlar açmaqdadır [4].

Ümummilli Lider hər bir sahəyə qayğı ilə yanaşdığı kimi, gənclərin gələcəyi naminə onlara xüsusi diqqət göstərib. Ulu öndər hesab edirdi ki, Azərbaycanın parlaq gələcəyi yalnız savadlı, bilikli, intellektual səviyyəsi yüksək olan gənclərdən asılıdır. Artıq gəncliyin yüksəliş yolu müəyyənləşdirilmiş, tərəqqisi üçün hüquqi baza yaradılmışdı. 1996-cı il fevralın 2-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev şəxsən iştirak edirdi.

Ulu Öndərimiz Azərbaycan gəncləri forumunun ilk ildönümü münasibətilə keçirilən tədbirdə gənclərə müraciətində bildirirdi: "Mən sizi gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin - gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, Ulu öndərimiz Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdığı ilk gündən bu məsələyə müdrik yanaşaraq, gənclərin necə böyük bir qüvvəyə malik olduğunu nəzərə almış və onların inkişafı, yüksək səviyyəli təhsil ala bilməsi üçün hərtərəfli şəraitin yaradılmasına yönələn gənclər siyasətini həyata keçirirdi. Heydər Əliyev Azərbaycanın düşdüyü mürəkkəb şəraiti dərindən təhlil edərək, gəncləri ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırdı. 1993-cü ildən etibarən gənc nəslə diqqət dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməyə başladı.

Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndərimiz böyüməkdə olan gənc nəslə qayğını hər zaman önə çəkirdi. Hüquqi və dünyəvi dövlət quruculuğu prosesində, çoxşaxəli islahatların reallaşdırıldığı bir vaxtda gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün qiymətləndirən Heydər Əliyev müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə sərəncamlar imzalayıb. Ümummilli Liderin müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi gənclərin qarşısında duran problemlərin həllinə münasibətin köklü surətdə dəyişməsinə imkan yaratdı və onları vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşdirdi [2].

Müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq, regional tədbirlərdə Azərbaycan gənclərinin nümayəndə heyətləri müntəzəm iştirak etməyə başlamışdılar. Gənclər siyasətinin düzgün həyata keçirilməsi dövlətin cəmiyyətdəki dayaqlarını möhkəmləndirməklə yanaşı, onun həyata keçirməyə çalışdığı siyasətin dəstəklənməsinə və müvəffəqiyyətlə həyata keçirilməsinə də gətirib çıxarır. Çünki gənclər dövlətin gələcək idarəçiləri, qabaqcıllarıdır. Məhz ulu öndərin qətiyyətli səyilə gənclərlə dialoq yaranmış, özünəinam artmış, onlar dövlətin ictimai-siyasi həyatında iştiraka cəlb olunmağa başlamışlar. Sağlam düşüncəyə, təfəkkürə, əqidəyə malik gənclərin formalaşması dövlətin gələcəyinin əsas təmini rolunda çıxış edir. 90-cı illərin ortalarında Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində öz yurd-yuvalarından didərgin düşmüş qaçqın və köçkün əmək qabiliy-

yətli gənclərin bir hissəsinin işlə təmin olunmaması probleminin olmasını nəzərə alaraq, Ulu öndər Heydər Əliyev bu təbəqələrdən olan gənclərə xüsusi qayğı, diqqət göstərməyi bütün dövlət orqanlarının, birinci növbədə, Gənclər və İdman Nazirliyinin əsas vəzifəsi hesab edirdi. Azərbaycan gənclərinin II Forumunda çıxış edərkən o, gənclərlə bağlı həyata keçirilməsi vacib olan vəzifələrdən danışarkən demişdir: «Azərbaycan gənclərinin bir hissəsi işğal olunmuş torpaqlarımızdan zorla köçürülmüş ailələrin övladlarıdır, həmin torpaqların gəncləridir. Biz yerindən, yurdundan didərgin düşmüş bütün soydaşlarımıza daim qayğı və diqqət göstər məliyik və göstəririk. Ancaq köçkün, qaçqm ailələrin uşaqlarına, gənclərinə diqqət və qayğı xüsusi olmalıdır [1].

Bu gün dövlətin apardığı gənclər siyasəti daha yüksək səviyyədədir. Bununla yanaşı, gənclərin üzləşdiyi problemlərin elmi şəkildə öyrənilməsi bütün dövrlərin vacib məsələsidir və zaman dəyişdikcə, illər ötdükcə dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində həlli vacib bir sıra məsələlər ortaya çıxır. Müstəqil dövlət quruculuğu prosesi gənclərlə bağlı siyasətin yeni şəraitə və reallıqlara uyğun həyata keçirilməsini, Azərbaycan gənclərinin yenidən təşkilatlanmasını zəruri edirdi. Gənclər hərəkatını əlaqələndirmək, gənclərin problemlərini sistemli şəkildə həll etmək, gənclərlə bağlı dövlət siyasətini həyata keçirmək üçün xüsusi dövlət strukturunun yaradılması günün tələbinə çevrilmişdi. Gənclərlə iş sahəsində vahid dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə 26 iyul 1994- cü il tarixində Gənclər və İdman Nazirliyi yaradıldı. Fərmanda yeni yaradılmış Nazirliyin qarşısında ölkənin sosial-iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun olaraq gənc nəslin tərbiyəsi, gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən siyasətin həyata keçirilməsi, gənclərin qüvvə və bacarıqlarının səmərəli şəkildə istifadə olunması və s. kimi vəzifələr qoyulmuşdu. 1994-cü ildən başlayaraq bu istiqamətdə ayrı-ayrı dövlət proqramları həyata keçirilmiş, onların müxtəlif sahələrdə reallaşması, mühüm vəzifələrin gənclərə həvalə edilməsi prosesi sürətlənmişdir. [3]

Ulu Öndərin milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişafı, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların aparılması, eyni zamanda, gənclər siyasəti ilə bağlı irəli sürdüyü ideya və prinsiplər Azərbaycanın bugünkü və gələcək inkişaf strategiyasının əsasını təşkil edir.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Dövlətimizin başçısının gənclərə daim diqqət yetirməsi, onların problemlərinin həlli istiqamətində atdığı addımlar nəticəsində müasir düşüncəli, vətənpərvər ruhlu Azərbaycan gəncliyi yetişib. Mənəvi və fiziki cəhətdən sağlam, ölkəsinə, xalqına bağlı Azərbaycan gəncləri onlara həvalə edilmiş tarixi missiyanın öhdəsindən uğurla gəlirlər. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində gənclərimizin döyüş meydanında göstərdiyi şücaət və qəhrəmanlıq nəticəsində parlaq Qələbə qazandıq. 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız düşmən tapdağından azad edildi. Əminliklə deyə bilərik ki, Azərbaycan gəncliyi bundan sonra da Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin daha da inkişafına öz dəyərli töhfəsini verəcək [6].

İstiafdə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan gənclərinin II Forumu, 2-3 mart 1999-cu il. Bakı: Azərbaycan, 2000, 224 s.

2. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumunda çıxış. 2 fevral 1996-cı il.

3. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il.

4. Hacıyev R. Heydər Əliyev və Azərbaycan Respublikasında gənclər siyasəti (1993-2003-cü illər). Tarix elm. namizədi dis. avtoreferatı: 5503.02 (07.00.02). Naxçıvan, 2012, 25 s.

5. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. (2003). Bakı: Qapp-poliqraf.

6. Xalq qazeti. – 2023. -2 fevral.

7. İsmayıl Hacıyev. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan, 2013, "Əcəmi" Nəşriyyat-Poliqrofiya Birliyi, 296 s.

AZƏRBAYCAN SILAHLI QÜVVƏLƏRİNİN MODERNLƏŞDİRİLMƏSİ VƏ ULU ÖNDƏRİN STRATEJİ YÖNÜ

Turan Nadir oğlu Əhmədli
Milli Aerokosmik Agentliyinin Xüsusi Konstruktor Texnoloji Bürosu
muharrembeyturan@gmail.com

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dövlətçiliyimizin banisi olmaqla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin formalaşması, modernləşdirilməsi və gücləndirilməsi sahəsində də misilsiz xidmətlər göstərmişdir. Onun rəhbərliyi dövründə Azərbaycan ordusu yalnız müstəqil dövlətin təhlükəsizlik qarantı kimi deyil, həm də milli qürur və özünüdərkin simvolu kimi formalaşmışdır.

Bu məqalədə Heydər Əliyevin Silahlı Qüvvələrin inkişafına verdiyi töhfələr, onun uzaqgörən siyasəti və qəbul etdiyi taleyüklü qərarlar ətraflı təhlil ediləcəkdir.

Azərbaycanın hərbi tarixi çox qədim dövrlərə gedib çıxır. Lakin müasir mənada nizami ordunun yaradılması 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə başlanmışdır. 26 iyun 1918-ci ildə AXC Nazirlər Şurasının qərarı ilə "Əlahiddə Azərbaycan Korpusu"nun təsis edilməsi milli ordunun əsasını qoymuşdur. Ancaq Cümhuriyyətin süqutundan sonra bu proses yarımçıq qalmış, Sovet dövründə isə Azərbaycanın hərbi potensialı məhdudlaşdırılmışdır. Sovet İttifaqının tərkibində azərbaycanlılar hərbi xidmətə cəlb olunsalar da, əsasən tikinti batalyonlarında xidmətə göndərilir, döyüş hissələrində isə iştirakları minimal idi.

1991-ci ildə müstəqilliyin bərpasından sonra Azərbaycan yenidən öz silahlı qüvvələrini yaratmaq məcburiyyətində qaldı. Lakin bu dövr ölkə üçün ağır sınaqlarla müşayiət olundu. Ermənistanın təcavüzü, daxili siyasi böhran və iqtisadi çətinliklər nizami ordunun formalaşmasını çətinləşdirirdi. 1991-1993-cü illər arası Azərbaycan Silahlı Qüvvələri müxtəlif özünümüdafiə qrupları və könüllü batalyonlardan ibarət idi ki, bu da vahid komandanlığın və intizamın olmaması ilə nəticələnirdi. Məhz bu şəraitdə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin hərbi qüdrətinin bərpası üçün dönüş nöqtəsi oldu [1].

Heydər Əliyev 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkədəki xaosu aradan qaldırmaq və dövlətçiliyi möhkəmləndirmək üçün sistemli islahatlara başladı. Bu islahatların əsas istiqamətlərindən biri Silahlı Qüvvələrin yenidən qurulması idi. O, ilk olaraq yerli özünümüdafiə qruplarını və qanunsuz silahlı birləşmələri ləğv edərək vahid komandanlığa tabe olan nizami ordu yaratdı. Bu, orduda intizamın və mərkəzləşdirilmiş idarəetmənin bərqərar olması üçün ilkin şərt idi.

Heydər Əliyev başa düşürdü ki, müstəqil dövlətin varlığını davam etdirməsi üçün güclü ordu vacibdir. 1993-cü il noyabrın 2-də xalqa müraciətində o, Ermənistanın təcavüzünə qarşı mübarizəni gücləndirmək və ordunun döyüş qabiliyyətini artırmaq üçün konkret tapşırıqlar verdi. Bu müraciət Azərbaycan Silahlı Qüvvələrinin yenidən qurulmasında "Heydər Əliyev mərhələsi"nin başlanğıcı hesab olunur. 1994-cü ildə atəşkəsə nail olunması isə ölkəyə iqtisadi və hərbi baxımdan toparlanmaq üçün vaxt qazandırdı. Heydər Əliyev bu fürsətdən istifadə edərək ordunun maddi-texniki bazasının gücləndirilməsinə və kadr potensialının artırılmasına diqqət yetirdi[2].

Heydər Əliyevin Silahlı Qüvvələrin modernləşdirilməsi strategiyası bir neçə əsas istiqamətdən ibarət idi: peşəkar kadrların hazırlanması, hərbi təhsil sisteminin inkişafı, maddi-texniki təminatın yaxşılaşdırılması və beynəlxalq əməkdaşlıq. Bu istiqamətlər üzrə atılan addımlar Azərbaycan ordusunu müasir standartlara uyğunlaşdırmaqda mühüm rol oynadı.

Peşəkar kadrların hazırlanması: Heydər Əliyev hələ Sovet dövründə, 1969-cu ildə respublikaya rəhbər təyin olunduqdan sonra hərbi kadrların yetişdirilməsinə xüsusi önəm vermişdi. Onun təşəbbüsü ilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı ki, bu da gələcəkdə Azərbaycanın milli zabit kadrlarının formalaşmasına zəmin oldu. Müstəqillik dövründə isə bu proses daha da genişləndi. 1997-ci ildə Türkiyə ilə imzalanmış protokola əsasən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi təsis olundu. Bu məktəbdə hərb elminin dünya standartlarına uyğun tədris olunması təmin edildi. Bundan əlavə, Hərbi Akademiya, Gizirlər

Məktəbi və Çavuşlar Məktəbi kimi təhsil müəssisələrinin yaradılması ordunun peşəkar kadrlarla təchiz olunmasına xidmət etdi[3].

Maddi-texniki təminat: Heydər Əliyev ordunun müasir silahlarla təchiz edilməsinə böyük diqqət ayırırdı. 1990-cı illərin sonlarında iqtisadi vəziyyətin məhdud imkanlarına baxmayaraq, o, dövlət büdcəsindən hərbi xərclərə ayrılan vəsaiti artırmağa nail oldu. Bu vəsaitlər yeni texnikaların alınmasına, mövcud silahların modernləşdirilməsinə və hərbi infrastrukturun inkişafına sərf edildi. Nəticədə, Azərbaycan ordusu tədricən köhnəlmiş Sovet texnikasından müasir döyüş vasitələrinə keçid etməyə başladı.

Beynəlxalq əməkdaşlıq: Heydər Əliyev Azərbaycanın hərbi potensialını gücləndirmək üçün beynəlxalq əməkdaşlığa da xüsusi önəm verirdi. Türkiyə ilə sıx hərbi əlaqələr qurulması, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması və digər ölkələrlə hərbi təlimlərin keçirilməsi ordunun müasir təcrübələrdən faydalanmasına imkan yaratdı. Türkiyənin hərbi təcrübəsi və texniki dəstəyi Azərbaycan ordusunun modernləşməsində mühüm rol oynadı.

Heydər Əliyevin rəhbərliyi dövründə Silahlı Qüvvələrin gücləndirilməsi sahəsində əldə olunan nailiyyətlər Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə böyük töhfə verdi. 1994-cü ildə Horadizin düşməndən azad edilməsi onun Ali Baş Komandan kimi ilk hərbi uğuru oldu. Bu əməliyyat Azərbaycan torpaqlarının müharibə yolu ilə geri alınmasının mümkünlüyünü sübut etdi və ordunun döyüş ruhunu yüksəltdi.

Bundan əlavə, Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanı ilə 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günü elan edildi. Bu qərar tarixi ədalətin bərpası və ordu quruculuğunda varislik ənənələrinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edirdi. O, həmçinin ordunun sosial-məişət şəraitinin yaxşılaşdırılmasına diqqət yetirərək hərbi qulluqçuların maaşlarının artırılmasına və mənzil təminatına nail oldu. Bu addımlar əsgər və zabitlərin motivasiyasını artırmaqla yanaşı, ordunun cəmiyyətdəki nüfuzunu da yüksəltdi [4].

Heydər Əliyevin Silahlı Qüvvələrin modernləşdirilməsi və gücləndirilməsi sahəsində qoyduğu təməl bu gün də öz bəhrəsini verir. Onun siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mirası uğurla inkişaf etdirərək, Azərbaycan ordusunu regionun ən qüdrətli hərbi qüvvələrindən birinə çevirmişdir. 2020-ci il Vətən müharibəsində qaza-nılan tarixi qələbə məhz Heydər Əliyevin illər əvvəl başlatdığı ordu quruculuğu prosesinin məntiqi nəticəsi idi.

İlham Əliyevin rəhbərliyi ilə ordunun maddi-texniki bazası daha da gücləndirilmiş, müasir silahlarla təchiz olunmuş və hərbi sənaye kompleksi yaradılmışdır. Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində formalaşmış peşəkar kadr potensialı və intizamlı ordu strukturu 44 günlük müharibədə özünü tam doğrultdu. Bu qələbə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Heydər Əliyevin ordu quruculuğuna verdiyi töhfələrin əhəmiyyətini bir daha sübut etdi.

Heydər Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsi və gücləndirilməsi sahəsindəki tarixi xidmətləri müstəqil dövlətçiliyimizin ən mühüm dayaqlarından birini formalaşdırmışdır. Onun uzaqgörən strategiyası, peşəkar kadrlara verdiyi dəyər və hərbi infrastruktura yatırdığı səylər Azərbaycan ordusunu XXI əsrin tələblərinə uyğun səviyyəyə çatdırmışdır. Bu gün Azərbaycan xalqı qürurla deyə bilər ki, Heydər Əliyevin mirası sayəsində ölkəmiz öz suverenliyini və ərazi bütövlüyünü qorumağa qadir güclü bir orduya malikdir. Onun xidmətləri nəinki Azərbaycanın hərbi tarixində, həm də ümumi dövlətçilik salnaməsində əbədi olaraq qalacaqdır [5].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. https://mdi.gov.az/az/xeberler-30/azerbaycan-mudafie-senayesinin-inkisafi-nailiyyetleri-ve-daim-artan-potensiali-955
2. https://anl.az/down/meqale/azerbaycan/2010/iyun/124807.htm
3. https://www.anl.az/down/meqale/xalqqazeti/2014/may/369124.htm
4. https://president.az/az/articles/view/2537/print
5. https://www.elibrary.az/docs/qazet/qzt2018_758.htm

HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ

Qismət Şahin qızı Muradova
Sumqayıt Dövlət Universiteti
muradovsahin2016.12@gmail.com

"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir."

(Heydər Əliyev)

XXI əsr elm, təhsil və qlobal düşüncə Azərbaycan təhsilinin dünyaya inteqrasiyası dövrü kimi səciyyələnir, an və məkan müstəvisi baxımından yeni təfəkkürün formalaşması sivilizasiyanın yeni mərhələsi kimi tarixə yazılır, əbədiləşir.

Hazırda bütün dünyada xalqların, dövlətlərin inkişafı ilə bağlı müasir çağırışlar ilk növbədə məhz təhsillə, cəmiyyətin intellektual inkişaf səviyyəsi ilə bağlıdır. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan edib. Yüksək intellektə malik insan kapitalının formalaşmasında ,davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu, xüsusilə heç vaxt indiki qədər aktual olmayıb.

Müasir təhsil sistemində yeni paradiqmaların mahiyyəti Böyük 8-liyin 2006-cı il Sankt Peterburq sammitində qəbul edilmiş "21-ci əsrdə İnnovativ Cəmiyyətlər üçün Təhsil" adlı müraciətində konkret ifadə olunmuşdur:

"Təhsil insan inkişafının kökündə durmuşdur. 21-ci əsrdə iqtisadi və sosial tərəqqi dövlətlərin öz cəmiyyətlərinin bütün üzvlərini sürətlə dəyişən dünyada qabağa getməyə hazırlaşdıracaq təhsil ilə təmin edə bilməsindən asılıdır. İnnovasiya cəmiyyəti öz insanlarını dəyişikliklərə uyğunlaşmağa hazırlamalıdır."

Son dövrlər tez-tez hallandırılan "təhsildə Avropa meyarları" konsepsiyası ilk növbədə təhsildə inkişafa təkan verən, bütün avropalılar tərəfindən həyata keçirilən, uğur qazanan bir təcrübədir. Bu təcrübənin nüvəsində Bu əməkdaşlıq pedaqogikası , fizialogiya , sosial və pedaqoji psixologiya eləcə də digər elmlərin son nailiyyətləri durur. Belə təhsilin başlıca məqsədi və vəzifəsi təhsilin, şəxsiyyətyönümlü olmasıdır.

Təhsil sahəsində həyata keçirilən islahatlar yüksək qiymətləndirilməlidir. Çünki təhsil hər bir ölkə üçün strateji bir sahədir. Belə ki, təhsil və gənclərlə əlaqədar həyata keçirilmiş çoxşaxəli dövlət siyasətinin bir nümunəsi kimi yalnız Təhsil Nazirliyi tərəfindən icra olunmuş proqramların bir neçəsini sadalamaq olar:

- 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sistemininin informasiyalaşdırılması üzrə Dövlət Proqramı [2]: proqram ölkə səviyyəsində məktəblərdə informasiya texnologiyalarının və kommunikasiyanın maksimal dərəcədə yüksək səviyyəyə çatdırılması üçün həyata keçirilir.
- Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012): texniki peşə təhsilinin gücləndirilməsi, yüksək səviyyəli kadrların hazırlanması, ölkənin iqtisadi inkişafına təkan verən bacarıqların hazırlanmasına xidmət edir.
- 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət Proqramı: yüksək savada və biliyə malik olan insan kapitalının inkişafı üçün müxtəlif sahələrdə dünya təcrübəsinə malik professional mütəxəssislərin, idarəçilərin yetişdirilməsi üçün həyata keçirilir.

Xaricdə təhsil proqramları mahiyyətinə görə müxtəlif formalarda həyata keçirilir :

1. öz imkanları hesabına xaricdə təhsil;
2. müxtəlif təhsil mübadilə proqramlarını həyata keçirən təşkilat və digər donor qurumların təqaüdləri hesabına xaricdə təhsil ;
3. dövlət xətti ilə, təhsil sahəsində əməkdaşlıq haqqında ikitərəfli razılaşmalar əsasında Azərbaycan vətəndaşları üçün ayrılan təqaüdlər hesabına Təhsil Nazirliyi tərəfindən həyata keçirilən xaricdə təhsil.

- 2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatların keçirilməsi üzrə Dövlət Proqramı: ali təhsil məzmununun "Balonya" prosesi prinsiplərinə uyğunlaşdırılması, müasir cəmiyyətin tələblərinə cavab verən, iqtisadiyyata əsaslanan bilik və bacarıqların yüksəldilməsi yolu ilə ali təhsildə islahatların həyata keçirilməsi.

2012-ci ilin dekabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasıböyük əhəmiyyətə malik olan strateji bir sənəddir. 2020-ci ilədək Azərbaycanda milli inkişaf strategiyasının istiqamətlərini müəyyənləşdirən bu sənəddə təhsilə bilavasitə və birbaşa aidiyyəti olan hissələrdə elmi potensialın möhkəmləndirilməsi, innovasiya fəaliyyətinin dəstəklənməsi, informasiya və kommunikasiya texnologiyalarının inkişafı, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və müasir təhsil sisteminin formalaşdırılması kimi prioritetlər irəli sürülmüş, konkret fəaliyyətlər müəyyənləşdirilmişdir.

"Azərbaycan 2020: Gələcəyə Baxış" konsepsiyasının təhsillə bağlı ana xəttinə uyğun olaraq, 2013-cü ilin 24 oktyabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" qəbul edilmişdir. Strategiya Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur:

- Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

- İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

- Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

- Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir.

- Beşinci strateji istiqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır. Bu istiqamət, o cümlədən müxtəlif mənbələrdən istifadə olunmaqla təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini, Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur.

Göründüyü kimi, bütün bu sənədlər keyfiyyətli Azərbaycanın təhsilinin gələcəkdəki təminatçısıdır. Elə buna görə də 2017-2018-ci dərs ili ölkənin dövlət ümumi təhsil müəssisələrində "Təhsildə keyfiyyət ili" elan olunub.Azərbaycanda təhsilə ayrılan dövlət proqramlarının köməyi ilə "insan qızılı" anlayışına xüsusi diqqət yetirilir. Dövlət təhsil proqramlarının əsas prioritet istiqamətləri üzrə hazırlanan insan resurslarının sektorlar üzrə bərabər paylanılması buna bir nümunədir.

Gənclər hər bir ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında mühüm rola malik bir qüvvədir. Təsadüfi deyil ki, bu gün həyata keçirilən dövlət siyasətin önəmli tərkib hissəsini məhz gənclər siyasəti təşkil edir.. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Bu gün də Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır.

Dövlət gənclər siyasətinin əhəmiyyətini faktlarına əsasən ilk olaraq, 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldı [1, s.348]. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə keçirilən gənclərin I Forumunun xüsusi rolu oldu. 1996-cı il fevralın 2-də keçirilən bu forum Ümummilli lider Heydər Əliyevin gəncliklə bağlı strategiyasının ilk təntənəsi kimi dəyərləndirildi. 1997-ci ildə Ümummilli lider Heydər Əliyevin Sərəncamı əsasında I Forumun keçirildiyi tarix-yəni 2 fevral Azərbaycanda Gənclər Günü kimi elan edildi. Milli Məclis tərəfindən isə "Dövlət gənclər siyasəti haqqında" qanun qəbul olundu.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi, *"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı* [3]" haqqında Sərəncamın imzalanması, 19 dekabr 2011-ci il tarixli Fərmanı əsasında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması, 2 iyul 2013-cü il tarixli Fərmanı ilə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi əhəmiyyətli addımlardandır. Məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir.

Ulu Öndərin illər öncə əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Məhz bunun nəticəsidir ki, gənclər siysəti ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Adıgözəlov Z., Mustafayev İ. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi, Bakı 2003, 368 s.
2. https://e-qanun.az/framework/14766
3. https://e-qanun.az/framework/21472

GENEL LİDER HEYDAR ALİYEV'İN PETROL STRATEJİSİ AZERBAYCAN EKONOMİSİNDE ÖNEMLİ YERLERDEN BİRİDİR

Khatira Ismayilova
Akad. Yusif Mammadaliyev Petrokimya Prosesleri Enstitüsü
xatire19667@gmail.com

"Azerbaycan'ın Bakü şehri, XIX. yüzyılın ikinci yarısından XX. yüzyılın başlarına kadar petrolüyle dünya şirketlerinin ve iş adamlarının ilgisini çekmiş, birçok yabancı şirket burada başarıyla faaliyet göstermiş ve petrol üretimi sağlamıştır."

(Haydar Aliyev)

Azerbaycan'ın tarihi her aşamada petrol üretimi ve işlenmesiyle yakından bağlantılı olmuştur.Abşeron toprakları ise uzun süre "siyah altın" kaynaklarıyla ünlüydü. Petrol üretimi ilk olarak MÖ VII-VI. yüzyıllara dayanan tarihi kaynaklarda bildirilmiştir. Ancak Azerbaycan'da ticari petrol üretiminin tarihi XIX. yüzyılın başlarında başlamıştır. Petrol üretiminin büyümesi o dönemde teknik gelişmeyle sağlanmıştır. 1898 yılında, [3] Azerbaycan, ABD'yi geride bırakarak petrol

üretim oranında dünyada birinci sıraya yerleşmiştir. "Siyah altın" üretiminin artması, petrol işleme sektörüne olan ilginin ve gelişimin artmasını teşvik etmiş, bu da karşılığında değerli petrol ürünlerinin üretimi için fırsatlar sağlamıştır [3].

İlk iki gazyağı fabrikası, Rus bilim adamı D.I.Mendeleyev'in yardımıyla sanayici Kokorev tarafından 1837'de Balakhany'de ve 1861'de Surakhany'de kuruldu. 1863'te Bakü teknisyeni Javad Melikov, Bakü'deki ilk petrol işleme tesisini kurdu. Böylece Bakü'deki gazyağı üretimi 1866'da 100 bin pud'a ulaştı. Kısa bir süre sonra Bakü teknisyeni A.Tebrizov, petrolün kesintisiz işlenmesi için bir süreç tasarladı ve gazyağı üretimi daha sonra 1875'te 847,7 bin pud'a kadar çıktı. [6]

XX yüzyılın 30'larında, Bakü'deki küçük petrol damıtma ve işleme tesisleri, Stalin'in petrol işleme tesisinin kurulmasının temelini oluşturdu. 1961'de işletmenin adı petrol rafinerisi olarak değiştirildi ve "XXII Parti Kongresi"nin adını aldı, 1981'de "Azerneftyag" oldu. 1994'te tesisin temelinde "Azerneftyag" JV kuruldu. Mart 2003'ten itibaren işletme Bakü petrol rafineri tesisi "Azerneftyag" olarak faaliyet göstermektedir.

Bu tesis belirli yıllarda 25 markaya kadar petrol işlemiştir. Bu, üretim sürecinde daha yeni teknolojilerin uygulanmasını gerektirmiştir. Ekonomik zorluklara rağmen, SSCB Hükümeti Bakü petrol işleme tesisi için özel yabancı makineler satın alıyordu.

1930'larda tesiste bir dizi geniş çaplı inşaat çalışması yürütülmüştür. İşletmeye Amerikan şirketleri Bayer ve Grever Corporation tarafından üretilen boru ısıtıcıları, Sovyet boru ısıtıcıları, termal çatlatma cihazları, vakum tesisleri ve diğer çok amaçlı çalışma makineleri sağlandı. 1940 yılına gelindiğinde Azerbaycan, SSCB'de petrol üretimi sağlıyordu. II. Dünya Savaşı sırasında Azerbaycan'ın petrol endüstrisi işçileri, cephelere yakıt tedarik etme gibi oldukça sorumlu ve ciddi bir görevi yerine getiriyorlardı. Savaş zamanında askeri eylemlerin sonuçlarını önceden belirleyen uçak ve tankların demir "kalplerini" harekete geçiren Bakü petrolüydü. II. Dünya Savaşı sırasında petrol üretimi alanında çeşitli yenilikler tasarlayan Bakü petrol endüstrisi işçileri ve bilim adamları, Sovyet Ordusuna yakıt ve yağlayıcıların ana tedarikçileriydi. Sadece 1941 yılında Azerbaycan'ın özverili petrol endüstrisi işçileri tarafından toplam 23 milyon 541 bin ton petrol üretildi. Azeri bilim adamları ve mühendisler ayrıca yüksek oktanlı benzin üretim teknolojisi geliştirdiler. II. Dünya Savaşı yıllarında Sovyet Fonu'na 75 milyon ton petrol, 22 milyon ton benzin ve diğer petrol ürünleri tedarik edildi. Petrol işleme ürünleri, savaş sonrası barış yıllarında Azerbaycan'ın şehir ve köylerine elektrik ve ısı temininde önemli bir rol oynamıştır. [4-6]

50'li yılların sonu - 60'lı yılların ortasında Azerbaycan ekonomisinin petrol sektöründe yürütülen inşaat çalışmaları, çoğu durumda "ilk kez" ifadesiyle birlikteydi

1966'da tesis, furaldehit ile petrolün seçici arıtımı için yeni cihazlar kurdu. Yağ katkı maddelerinin üretimi için disk sözleşmeleri ve şişelenmiş gazla katran asfalt giderme gibi teknolojiler, 1970'te çıkarma kollarının yerine uygulandı. Bu, motor yağı üretiminin kalitesini önemli ölçüde artırdı. Petrol işleyicileri ayrıca yağın mumunu giderme görevini de çözmek zorundaydı. 1962'den itibaren, üre solitonları ile trafo sıvısının suyunu giderme cihazları devreye alındı. Motor yağlarının soğuk susuzlaştırılması için atölyeler 1968'den sonra kuruldu.

1950'den itibaren Azerbaycan'daki petrol üretimi aniden azalmaya başladı ve bunun petrol işleme endüstrisi üzerinde olumsuz etkisi oldu. Ulusal lider Haydar Aliyev 14 Eylül 1969'da Azerbaycan SSR'nin başına atandığında, Petrol Kayalıkları ve Orta Hazar'daki ilk petrol çeşmesinin üretiminden bu yana 20 yıl geçmişti.

Akıllı devlet adamı Haydar Aliyev, iktidara geldiği ilk günden itibaren petrol sektöründeki durgunluğa son verdi ve bağımsız Azerbaycan Cumhuriyeti'nde petrol endüstrisinin gelişmesine yeni bir ışık tuttu. [1-2]

Yeni petrol zengini sahaların keşfi ve geliştirilmesi, petrol ihtişamını yeniden kazanmak ve bir zamanlar gelişen petrol endüstrisini gelişme yoluna sokmak için yeterli değildi.

Geliştirilmekte olan petrol sahaları üzerinde günlük kontrol ve sürekli prospekt ve keşif sondajı talep edildi. Enerjisi, kararlılığı ve olağanüstü ve yönetim becerileri sayesinde Haydar Aliyev, petrol/gaz endüstrisi de dahil olmak üzere ulusal ekonominin restorasyonuna yönelik ciddi adımlar atmaya başladı. Çabalarının sonucunda, petrol üretimi düşüşü 1970'te %7,2'den %4,3'e düştü - H.Aliyev'in Azerbaycan'ın başına atanmasından sadece bir yıl sonra. Petrol endüstrisindeki

jeolojik keşif çalışmalarının verimliliği de önemli ölçüde iyileşmiştir. Ticari petrol rezervleri üç katına, gaz rezervleri ise iki katına çıkmıştır. Haydar Aliyev, muazzam otoritesi sayesinde, Sovyet bütçesinden Azerbaycan petrol endüstrisine sağlanan sübvansiyonların artırılmasını ve Azerbaycan açıklarındaki sondaj çalışmalarının genişletilmesini ve yoğunlaştırılmasını başarmıştır. 1970'lerden başlayarak, ulusal lider Haydar Aliyev, daha sonra Azerbaycan Cumhuriyeti'nin ekonomik bağımsızlığının sağlanmasında çok önemli bir rol oynayan petrol stratejisinin temel maddelerini aşama aşama uygulamaya koymuştur.

O zamanlar Azerbaycan'a açık deniz üretimi için benzersiz sondaj kuleleri ve özel gemiler sağlanmasaydı, çağdaş Azerbaycan'ın lstiglal sondaj kulesi olmazdı. Dede Gorqud ve lider. Aynı dönemde Azerbaycan'da %65 petrol üretimi sağlayan Güneşli sahası keşfedildi ve faaliyete geçirildi. 1970'lerde ve 80'lerin başında Çırak, Azeri ve Kapaz'ın da aralarında bulunduğu sekiz büyük hidrokarbon sahası keşfedildi. [2]

Petrol endüstrisinin gelecekteki gelişiminde petrol işlemenin önemini yansıtan Azerbaycan'da petrol üretimi ve işleme sektörünün restorasyonu planı, 70'li yılların başında ulusal lider Haydar Aliyev tarafından onaylandı.

Bakü'deki petrol işleme kompleksinin geliştirilmesi ve modernizasyonunun temeli, kendi ileri görüşlü ve bilge politikası sayesinde atılmıştır. Haydar Aliyev, 1976 yılında Azerneftyanacaq petrol işleme tesisinde ve 1981 yılında Azerneftyag işleme tesisinde petrolün ilk işlenmesi için ELOU-AVT-6 tesislerinin kurulumunu taklit etmiştir. [5]

20 Eylül 1994'te, Haydar Aliyev liderliğindeki yabancı şirketler arasında yüzyılın sözleşmesi imzalandı. Bununla, bağımsız Azerbaycan'ın sürekli gelişimi ve yükselişi için sağlam bir temel atıldı. Bugün bile, ulusal lider Haydar Aliyev'in vizyoner politikasının bir sonucu olarak. [4]

Böylece 20. yüzyılın en görkemli küresel projeleri hayata geçirilmiş oldu. Böylece söz konusu projelerin hayata geçirilmesi, ülke ekonomisinin güçlenmesine, Hazar Denizi'nin derin sularında keşfedilen sahaların işletilmeye başlanmasına, saygın yabancı petrol şirketleriyle etkin işbirliğinin kurulmasına ve modern teknolojiye sahip yeni nesil ekipmanların devreye girmesine yol açtı.

Büyük lider Haydar Aliyev'in kaleme aldığı petrol stratejisi, Azerbaycan'ın bugün bağımsız bir devlet olarak kendi milli servetine sahip çıkmasına ve en önemlisi 21. yüzyılda yüksek düzeyde gelişmiş bir Azerbaycan devletinin yaratılmasına önem vermiştir.

Kaynakça

1. Haydar Aliev. “Azerbaycan nefti dünya siyasetinde”. Bakü. Azərbaijcan nawiriyyati-1997
2. Haydar Alievin neft stratejiyası Azerbaycan'ın musteqilliyi namine. Azerbaycan Respub. prezidentinin katiblyi. Bakü.2001,
3. Eşurbeyli Sara. Istoriya qoroda Bakü. Perid spednevekovya. Azerbaycanskoe qosudarstvennoe izdatelsko poliqrafuceskoe obedunenie. Baki-1992.s.104-109 ve s. 224-232.
4. İsmailova Xatirə, İsmailzadə Xasmurad, Rizvanlı Samadaqa. “Ulu onder Haydar Aliev ve Azerbaycanda neft senayesinin inkiwafi”. “Haydar Aliev muasir Azerbaycanın xilasgarı qurucusudur” movzusunda H.Alievin anadan olması 101 -ci ildonumunə hesr olunmuw Respublika elmi konfransı. Mingecevir Dovlat Üniversitesi.3-4 Mayıs 2024
5. İsmayiova Xatirə, İsmayizadə Xasmurad “Ulu onder Haydar Aliev ve Azerbaycanda neft emalı sanayesinin inkiwafının tarixi merhelesi” Haydar Alievin -100. anadan genel 100 illiyinə hesr olunmuw “Kimya ve kimya texnologiyasının aktual movzuları” genc alim, doktorant ve magistrantların 3 -cu elmi konfransı. Baku Dovlət Universiteti.4-5 mayıs 2023
6. M.Suleymanov. “Ewitlerim, oxuduqlarım, gördüklerim” Azer.Dovlət Newriyyat Bakü,1989. s.64-75

ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA İNFORMASİYA RESURSLARININ İDARƏ EDİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Nərmin Qabil qızı Mirzəzadə
Azərbaycan Dövlət Aqrar Universiteti
narminmirzazada@gmail.com

Mövcud iqtisadi vəziyyət əsasən informasiya iqtisadiyyatının inkişafı ilə müəyyən edilir. Bu şəraitdə idarəetmə informasiya sistemlərinin fəaliyyəti müəssisənin inkişafının strateji məqsədlərindən birinə çevrilir. İnformasiya sistemlərinin inkişafının ən mühüm istiqaməti biznesin informasiyaya artan tələbatını ödəmək üçün nəzərdə tutulmuş texniki rabitə vasitələrinin müasirləşdirilməsidir. Müasir informasiya sistemlərinin inkişafının digər tendensiyası onların korporativ məlumat bazalarının formalaşmasına gətirib çıxaran bazar subyektləri arasında informasiya və kommunikasiya mübadiləsi əsasında qarşılıqlı əlaqənin yüksələn səviyyəsini təmin etməkdir.

Müasir informasiya sistemləri biliklərin idarə edilməsi konsepsiyası əsasında qurulur və müəssisəyə mövcud təcrübə, intellektual kapital əsasında effektiv marketinq qərarları qəbul etməyə imkan verir. Hazırda mövcud informasiya sistemləri Amerika İstehsal və Ehtiyatların İdarə Edilməsi Cəmiyyəti tərəfindən təklif olunan idarəetmə standartlarının transformasiyasına uyğun olaraq öz inkişafında müəyyən inkişaf mərhələlərini keçmişdir. Bu standartlar biznesin qurulması və ən vacib daxili proseslər üçün əsas kimi xidmət edir. İnformasiya sistemləri bir çox idarəetmə funksiyalarını avtomatlaşdırır, bunlardan başlıcası təhlil, planlaşdırma, sistemləşdirmə və s. Onlara iri korporasiyaların işində istifadə olunan inteqrasiya olunmuş informasiya sistemlərinə aid olan R-3, Baan, ID Edwards sinif sistemləri daxildir.

Hazırda informasiya sistemlərinin idarə olunması prosesinin avtomatlaşdırılması üç yolla həyata keçirilir [1, s.105]:

1) Fərdi iş proseslərinin və ya idarəetmə funksiyalarının avtomatlaşdırılması.

2) Sonradan vahid idarəetmə sisteminə birləşdirilən ixtisaslaşdırılmış sistemlərin tətbiqi yolu ilə müəyyən iş sahələrinin qismən avtomatlaşdırılması.

3) İdarəetmə funksiyalarının əksəriyyətinin avtomatlaşdırılmasına imkan verən inteqrasiya olunmuş sistemin həyata keçirilməsi.

Təqdim olunan metodların hər biri öz çatışmazlıqlarına malikdir. Birinci avtomatlaşdırma yolu müəssisənin inteqrasiya olunmuş idarə edilməsinə imkan vermir və resursların, vaxtın əsassız xərclənməsinə səbəb olur. Qismən avtomatlaşdırmanın əhəmiyyətli çatışmazlığı sistemin inkişafı və yenilənməsi ilə bağlı çətinliklər, habelə müəssisənin idarəolunma səviyyəsinə təsir edən çevikliyin olmamasıdır. Sonuncu istiqamət daha çox üstünlük təşkil edir, lakin eyni zamanda müddət və mürəkkəblikdən qaynaqlanan problemlərə səbəb olur.

İdarəetmə prosesinin avtomatlaşdırılmasının təqdim olunan sahələrinə əlavə olaraq, bir çox iqtisadçılar vahid və standartlaşdırılmış idarəetmə sistemlərinin istifadəsini təklif edirlər. Bununla belə, elə zənn etmək olar ki, bu halda müəssisələr daha çox çətinliklərlə üzləşəcəklər, çünki bu cür sistemlərin tətbiqi bütün iş proseslərinin rəsmiləşdirilməsini və standartlaşdırılmasını nəzərdə tutur [2, s.241]. Azərbaycanda müəssisələrin məlumat axınları ilə işləmək səmərəliliyini artırmağa mane olan ən mühüm amillərə aşağıdakılar daxildir:

- informasiya bazarının zəif inkişafı və qapalılığı;
- müəssisə səviyyəsində informasiyalaşdırmanın inkişafı üçün kifayət qədər maliyyələşmə;
- müəssisələr daxilində əhəmiyyətli təşkilati məhdudiyyətlər;
- işçilərin aşağı informasiya savadlılığı;
- regional və yerli informasiya sistemlərinin olmaması və ya qeyri-adekvatlığı və s.

İnformasiya xidmətləri bazarının inkişaf etməməsi bazarda sivil münasibətlərin olmaması, yüksək keyfiyyətli və etibarlı məlumatların çatışmazlığı, iqtisadi proseslərin informasiyalaşdırılması sahəsində yerli inkişafların olmaması, xarici informasiya məhsullarının yüksək qiyməti və s. ilə müəyyən edilir. Bu, bütövlükdə ölkədə informasiya sistemlərinin inkişaf sürətinin azalmasını müəyyən edir [3, s.252].

Böyük problem həm region, həm də bütövlükdə ölkə səviyyəsində vahid informasiya məkanının qeyri-kafi inkişaf səviyyəsi olaraq qalır ki, bu da nəinki məhsul istehsalçıları və istehlakçıları üçün informasiya təminatının keyfiyyətini, həm də məhsuldarlığı yaxşılaşdırmağa imkan verir.

İnformasiyalaşdırma proseslərinin kifayət qədər maliyyələşdirilməsi müəssisələrdə sistemli vəsait çatışmazlığı və menecerlər arasında informasiya sistemlərinin,eyni zamanda informasiya təminatı sistemlərinin inkişafı üzrə strateji təlimatlara dair dəqiq mövqenin olmaması ilə müəyyən edilir. Hazırda ən mühüm iqtisadi göstəricilərin statistikası, bir qayda olaraq, məlumatların təkrarlanması, onun etibarlılığının və səmərəliliyinin son dərəcə aşağı səviyyəsi ilə əlaqələndirilir.

Qərb bazarında əsas rəqabət üstünlüyü hal-hazırda hansı şirkətlərin mürəkkəb bazar araşdırması sistemlərini inkişaf etdirdiyini və innovativ informasiya vasitələrindən istifadə etdiyini təmin etmək üçün istehlakçı məlumatlılığının yüksək səviyyəsi kimi qəbul edilir [4, s.13].

Bizdə isə hər şey fərqlidir ki, bu da bazarın inkişafının aşağı səviyyəsi və yerli istehsalçıların rəqabət mövqelərinin zəifliyi ilə izah olunur. Eyni təsir, istehsalçıları marketinq emalının yeni yollarını axtarmağa sövq etməyən əhalinin qeyri-kafi effektiv tələbi ilə əlaqədardır. Belə bir nəticəyə gələ bilərik ki, müəssisələr üçün marketinq məlumatları rəqabət qabiliyyətinin səviyyəsini artırmaq üçün həlledici əhəmiyyət kəsb etmir, buna görə də marketinq informasiya sistemlərinin inkişafı xərcləri çox vaxt özünü doğrultmur.

Qeyd etmək olar ki, ümumiyyətlə, ölkədə müəssisələrin işində istifadə olunan informasiya sistemləri xarici təcrübədən əhəmiyyətli dərəcədə fərqlənir. Müəssisələrdə istifadə olunan informasiya aşağı səviyyədə etibarlılıq, vaxtında, tamlıq, dinamizm və kifayət qədər sıxılma səviyyəsi ilə xarakterizə olunur.

Beləliklə, hazırda həll edilməsi məqsədəuyğun olan əsas vəzifə həm ayrı-ayrı müəssisələr səviyyəsində, həm də region və bütövlükdə ölkə səviyyəsində yüksək keyfiyyətli informasiya sistemlərinin təşkili vəzifəsidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ипатова Е.Р. Методология и технологии системного проектирования информационных систем: Учебное пособие. 3-е издание, удалено. Москва: ФЛИНТА, 2021. 256 с.
2. Крахин А.В. Информационные технологии и системы в управленческой деятельности: учебник. Москва: ФЛИНТА, 2020. 256 с.
3. Оверби Х. Цифровая экономика: как информационные и коммуникационные технологии влияют на рынки, бизнес и инновации: справочник; Российская академия народного хозяйства и государственной службы при Президенте Российской Федерации. М: Дело, 2022. 288 с.
4. Gribanov Yu.I. Digital transformation of business. 2nd edition. M: Dashkov and Co., 2021. 214 p.

HEYDAR ALIYEV AND THE ORGANIZATION OF TRANSLATION WORK IN AZERBAIJAN

Turkan Khalilsoy
Nakhchivan State University
xelilsoyturkan@gmail.com

The importance of translation in intercultural communication is immense. Translation is one of the primary means of facilitating the exchange of information, ideas, and values between different cultures. This process not only removes language barriers but also creates a foundation for understanding and respecting cultural differences. The significance of translation in intercultural communication can be explained through several key points: Translation helps different cultures understand each other. Through the translation of literary works, scientific papers, historical documents, and modern media content, people become acquainted with the values, traditions, and

worldviews of other cultures. This fosters mutual respect and tolerance. It enables the dissemination of scientific knowledge and technological innovations across different countries. The translation of scientific articles, technical manuals, and research works allows scholars and experts to benefit from each other's experiences and expands international collaboration. It preserves the richness of various cultures and introduces their unique features to the world. This helps in safeguarding and promoting cultural diversity. Through translation, even smaller cultures can make their voices heard globally [1, p. 200; 2, p. 99]. Therefore, during the leadership of Heydar Aliyev, the national leader of Azerbaijan, translation work was given significant attention, with numerous recommendations and tasks issued, and important initiatives undertaken.

Heydar Aliyev, as a prominent statesman and political leader of Azerbaijan, played a crucial role in the country's modern history. His activities encompassed state-building, economic development, as well as culture and education. The national leader repeatedly emphasized the importance of translation for Azerbaijan's independence and the development of its national culture. He supported high-quality translations of foreign works into Azerbaijani and the promotion of Azerbaijani literature globally. With the development of digital technologies, literary translations were also published in electronic formats. During his tenure, several initiatives in the field of translation were implemented. Heydar Aliyev paid special attention to the translation of classical and contemporary literary works to ensure the integration of Azerbaijani literature with world culture. Azerbaijan achieved significant success in the field of translation, both in classical and contemporary literature, as well as in scientific works. Azerbaijani translators successfully translated prominent works of world literature, including those by Shakespeare, Dante, Pushkin, Tolstoy, Dostoevsky, and Hemingway, into Azerbaijani. These translations played a crucial role in introducing Azerbaijani readers to world literature. Azerbaijani translators also worked to promote Azerbaijani literature globally. Works by Azerbaijani classics such as Nizami Ganjavi, Fuzuli, Samad Vurgun, and Mirza Ibrahimov were translated into various languages and presented to international readers. These translations helped in the global recognition of Azerbaijani culture and literature. Books and journals related to the translation of classical and contemporary literature were published. International conferences and seminars were organized to study and exchange international experiences. Additionally, relevant institutions actively worked to organize translation efforts: publishing houses such as "Azerneşr," "Şərq-Qərb," and "Qanun" were engaged in translating foreign literature into Azerbaijani and publishing Azerbaijani literature in foreign languages.

The national leader's support for young translators, the preservation of Azerbaijan's cultural and literary heritage, and the expansion of international relations are invaluable. Initiatives in this field enhanced the professional training of the younger generation and revealed their creative potential. He supported the implementation of relevant programs in educational institutions to improve the professional training of translators. For this purpose, translation faculties and courses were established at universities. He emphasized the role of translation in strengthening international cultural and scientific relations. The participation of translators in cultural exchanges and collaborations with foreign countries was considered essential. Competitions, grants, and training programs were organized for young translators. The "Young Translators" competition is one of the successful examples in this field. Additionally, financial support was provided for young translators to study, train, and exchange experiences abroad. Opportunities were created for young people to collaborate with organizations such as UNESCO and FIT (International Federation of Translators). Experienced translators participated in mentorship programs to support the younger generation. Through individual mentorship, young translators received personalized advice from experienced professionals [3, p. 129]. Various opportunities were created for the publication of young translators' works. Their translations were published in books and journals. Digital publications were expanded, and young translators' works were published on digital platforms. Various awards were presented to recognize the achievements of young translators. Young translators who excelled in the field were honored by state and non-governmental organizations. Supporting young translators has been an important direction for the development of Azerbaijan's cultural, literary,

and scientific potential. Training a new generation of professionals in the field of translation and promoting their activities have been crucial for both preserving national culture and expanding international relations. Various initiatives and programs have been implemented for this purpose. Modern programs have been introduced in educational institutions to enhance the professional training of young translators, improving their learning and educational opportunities. Translation faculties and courses have been established at universities such as Baku State University, Azerbaijan University of Languages, and other higher education institutions [4]. Modern technologies have been utilized to create additional educational opportunities for young translators. During Heydar Aliyev's leadership, the Institute of Translation at the Azerbaijan National Academy of Sciences contributed to the preparation of literary, scientific, and technical translations, organizing translation work systematically [8; 10]. Various courses and training programs were organized to improve the professional skills of translators. He supported the expansion of international collaboration: International events were organized. Azerbaijani translators were invited to translation forums and seminars held abroad.

The national leader's policy in promoting literary translations strengthened the integration of Azerbaijani culture with the world and created opportunities for Azerbaijani readers to access foreign literature. These initiatives played an irreplaceable role in preserving and developing Azerbaijan's cultural and literary heritage. His policy in the field of translation served to present Azerbaijan's cultural and scientific potential to the world and promote foreign cultures within the country. His legacy continues to form the basis of Azerbaijan's achievements in the field of translation [5, p. 1030; 6, p. 235]. In recent years, the application of modern technologies in the field of translation has also become widespread in Azerbaijan. Particularly, technologies such as computer-assisted translation (CAT tools) and machine translation have made translators' work easier, enabling faster and more accurate translations. Additionally, Azerbaijani translators participate in international conferences, seminars, and training programs, exchanging experiences and familiarizing themselves with the latest developments in the field of translation. This enhances their professional skills and creates opportunities for producing higher-quality translations [8, p. 110].

The organization of translation work also places significant emphasis on the quality teaching of foreign languages, including English. Therefore, Heydar Aliyev paid special attention to the study of foreign languages, particularly English. During his leadership, the role of foreign languages, including English, increased in the formation of Azerbaijan's modern education strategy. This aimed to strengthen Azerbaijan's international relations in a globalized world and provide the younger generation with education that meets world standards. Several initiatives were implemented within Heydar Aliyev's education policy. He further emphasized the teaching of foreign languages.

The teaching of English was expanded in schools and universities, with modern methods and textbooks being introduced. This was important for Azerbaijani students to study abroad and enhance their competitiveness in the international job market. International education programs were organized. Azerbaijan joined several international education programs, and student and teacher exchange programs were expanded [7; 9]. This also gave a boost to the study of English. Heydar Aliyev initiated various state-level measures to improve young people's knowledge of foreign languages, particularly English. The provision of modern resources for teaching foreign languages, teacher training courses, and other initiatives further increased the importance of English. In the modern era, English has become the primary means of international communication, and its study has become a necessity. The teaching of English has become one of the key directions of Azerbaijan's education strategy. This has been of great importance for Azerbaijan's integration into the global space and enhancing the competitiveness of the younger generation at the international level.

References

1. Abdullayeva N. , Məmmədov Z. Nitq mədəniyyətinin əsasları. Bakı, 2010, 325 s.

2. Abdullayev A.Nitq mədəniyyəti və Natiqlik məharəti haqqında. Bakı, 1968, 250 s.
3. Abdullayeva M. Heydər Əliyev siyasətində dilimiz, mədəniyyətimiz və təhsilimiz. Heydər Əliyev və türk dünyası: ictimai, iqtisadi və mədəni əlaqələr.Beynəlxalq elmi konfrans. 04-05 may.2023, s. 121-129.
4. Bayramov C. Uğurlu təhsil islahatlarının banisi.Azərbaycan müəllimi. 12 iyun 2019.
5. Hüseynova, L. (2023). Azərbaycan Respublikasının Təhsil Sisteminin Formalaşdırılması (1991-2011). Akademik Tarih ve Düşünce Dergisi, 10 (4), 1028-1037.
6. Məhərrəmova, S. (2023). Heydər Əliyevin Təhsil Konsepsiyası və Davamlı İnkişaf Meylləri. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10 (1), 230-242.
7. Novruzov R. Xalq qəzeti. Heydər Əliyevin təhsil siyasəti. 2018.- 5 may. - № 101.
8. Səmədov A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Dərs vəsaiti. Gəncə. 2010.
9. https://www.muallim.edu.az/news.php?id=24908. Hacıyev. B. Azərbaycan təhsil sisteminin inkişaf strategiyasını Heydər Əliyev yaratdı.

ƏNƏNƏVİ, YOXSA DİSTANT TƏHSİL – PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

[1,4]Günel Səfər qızı Baxşıyeva, [2,4]Validə Aydın qızı Nuriyeva, [3,4]Leyla Niyazi qızı Şükürova
[1]gunel.baxshiyeva@mdu.edu.az
[2]valida.nuriyeva@mdu.edu.az
[3]leyla.shukurova@mdu.edu.az
[4]Mingəçevir Dövlət Universiteti

Giriş

Distant təhsillə biz 2020-ci ildə, dünyanı qorxuya salan, yoluxucu COVID-19 dövründə tanış olduq. Amma onun tarixi XVIII əsrdə ABŞ-ın Boston şəhərində poçt xidməti vasitəsilə keçirilən ilk qiyabi kursa gedib çıxır.

Dövrümüzdəki texnoloji inkişaf bu cür kursların əlçatanlılığını artırdı və öyrənməni virtual dünyaya köçürdü. Çoxlarının həyatını sonlandıran, mərhəmətsiz Covid-19 pandemiyası dövründə biz tədris prosesində inqilabın şahidi olduq. Demək olar ki, bütün təhsil ocaqları onlayn rejimə keçmişdi. Bizim ölkədə bu cür təhsil tam bir il yarım davam etdi. Bu rejim bir çoxlarının psixikasını pozdu, bir çoxlarına çətin vəziyyətdən səmərəli istifadə etməyi öyrətdi. Bir başqalarını isə təmamilə tənbəlləşdirdi. Bəşəriyyət bu cür dramatik dəyişiklik üçün nə hazir, nə də məlumatlı deyildi. Xüsusilə tibb, kompüter elmləri, təsviri incəsənət və ya memarlıq və s. sahələr üçün bu cür dəyişiklik çətin oldu. Bu yazıda biz həm orta, həm də ali təhsil müəssisələrində müəllim və tələbələrin fikirlərini nəzərə alaraq, distant təhsilin üstün və çatışmayan cəhətlərini nəzərdən keçirəcəyik.

Distant təhsil bir-birindən uzaq fiziki məkanlarda yerləşən tələbələr və onların müəllimləri arasında müxtəlif texnologiyalardan istifadə etməklə ötürülən təhsil növüdür. Distant təhsili iki kateqoriyaya ayırmaq olar:

- asinxron təlim;
- sinxron təlim.

Asinxron distant təlim - müxtəlif vaxtlarda qeydə alınmış mühazirələrə qulaq asmaq və ya videoları izləmək kimi fərqli vaxtlarda müəllim və şagird arasında qarşılıqlı əlaqəyə əsaslanır. Asinxron distant təhsilin tarixi daha qədimdir, çünki sinxron distant təhsil telekommunikasiya texnologiyalarının inkişafından sonra mümkün olmuşdur. Hər iki üsul artıq populyarlaşıb. Bəzi hallarda şagird və müəllimlər sinxron və asinxron distant təhsilin qarışığından istifadə edirlər. Müasir distant təhsil çatdırılma üsulu kimi kompüterlərdən və internetdən istifadə edir [1].

Bir neçə il əvvəl müəyyən bir sahədə təhsil almaq üçün insanlar fiziki cəhətdən dərslərdə iştirak etməli idilər. İndi insanlar onlayn qeydiyyatdan keçmək üçün sadəcə bir neçə dəqiqə sərf

etməli olurlar. Onlar evlərini tərk etmədən dünyanın müxtəlif yerlərindən hər kəs üçün açıq olan onlayn kurslardan istifadə edə bilirlər. Həm də bu təhsil forması bahalı deyil. Həmçinin sadəcə ailə və sağlamlıq problemləri olanlar üçün də deyil. Bu cür kurslardan hər kəs istifadə edə bilər. Mövzu seçimindən asılı olmayaraq, onlayn kurslar həm yeni başlayanlar üçün, həm də müəyyən biliyə malik tələbələr üçün mövcuddur [2]. Fizikanın əsaslarından tutmuş kvant xromodinamikasına kimi hər şeyi onlayn öyrənmək olar.

Keçmişdən fərqli olaraq, bu gün onlayn təhsil stasionar kompüterlərdən istifadə tələb etmir. Noutbuk, planşet, smartfon və virtual reallıq eynəklərindən istifadə etməklə onlayn dərslərə qoşula və ondan faydalana bilərik. 2020-ci ilə qədər distant təhsilin əsas səbəbi ya tələbələrin tədris mərkəzindən uzaqda yaşaması, ya da yoxsulluq idi. Azərbaycanda isə demək olar ki, distant təhsil anlayışı yox idi. 2020-ci ildə COVİD-19 pandemiyasının yayılmasını yavaşlatmaq üçün məktəblər üzbəüz tədrisi məhdudlaşdırmağa və heç olmasa bir müddətlik rəqəmsal dünyaya, yəni distant təhsilə keçməyə məcbur oldular. Azərbaycan dövləti də pandemiya səbəbindən bütün respublikanın nəinki təhsil ocaqlarını, həmçinin mümkün olan bütün müəssisələrini onlayn iş rejiminə keçirtdi [3]. Bu dəyişiklik çox sürətli və müəyyən mənada qəddar idi. Əksər müəssisələr bu dəyişikliyə hazır deyildi. Çətin olsa da məktəblər, universitetlər və digər sahələr bu dəyişikliyin də öhdəsindən gələ bildi.

İlk öncə müəllimlər və tələbələr sistemli şəkildə məlumatlandırıldılar, sonra isə nizamlı şəkildə onlayn dərslər tətbiq olunmağa başladı.

Hazırda artıq bütün dünya, həmçinin Azərbaycan ənənəvi təhsil qaydasına qayıdıb. Qısa zaman çərçivəsində də olsa insanlar onlayn təhsilin üstün və çatışmayan cəhətlərini ayırd edə bildilər.

Mingəçevir Dövlət Universitetinin bir sira müəllim-tələbə heyyəti, həmçinin Mingəçevir şəhər 13 saylı orta məktəbin müəllim-şagird heyyəti ilə apardığımız sorğunu sizə təqdim etmək istəyirəm. İlk öncə Mingəçevir Dövlət Universitetinin Mühəndislik fakultəsində sorğu apardıq. Bir sıra müəllimləri, tələbələri dinlədik. Bəzi müəllimlər onlayn tədrisə heç cür alışa bilmədiklərini bildirdilər. Tələbələrin daha məsuliyyətsiz davrandıqlarını bildirdilər. Kollokvium və imtahan vaxtı asanlıqla köçürmə hallarının yarandığını bildirdilər. Bəzi müəllimlər isə onlayn tədrisi bəyəndiklərini bildirdilər. Yola sərf etdikləri zamanı faydalı işlərə, məsələn məqaləyə, elmi işə sərf etdiklərini bildirdilər. Ev şəraitində daha rahat dərs apardıqlarını dilə gətirdilər.

Tələbə və şagirdlər də həmçinin, bəziləri bu vəziyyətdən faydalandığını, bəziləri isə istifadə etdiyini bildirdi. Bəzi tələbə və şagirdlər sosial həyat, azadlıq üçün darıxdıqlarını bildirdilər. Yoldaşlarla vaxt keçirmək, əyləncələrə qatılmaq istədiklərini bildirdilər.

Həqiqi elm öyrənmək istəyənlər üçün isə çox da böyük fərqin olmadığını bildirdilər. Həm ənənəvi təhsil vəziyyətində, həm də onlayn təhsil vəziyyətində israrla çalışdıqlarını, elmin bütün incəliklərini öyrənmək üçün səy göstərdiklərini söylədilər.

Hazırda biz artıq ənənəvi təhsil formasına qayıtmışıq, ancaq onlayn təhsildən, kurslardan istifadə edənlərin sayı günü-gündən artmaqdadır. Buna onlayn formada xaricdə təhsil alanları, onlayn dil kursundan yararlananları misal göstərmək olar.

Nəticə

Belə görünür ki, distant təhsil müasir bir sahə deyil. Kompüterlər dövründən əvvəl bu təhsil forması poçt xidmətləri vasitəsilə mümkün olub. XX əsrin distant təhsili yüksək əlçatan avadanlıq və öyrənənlər üçün əlavə xərclərin olmaması səbəbindən əsasən radio və televiziya vasitəsilə həyata keçirilirdi. Təəssüf ki, müəllimə sual vermək və ya ünsiyyət qurmağın yeganə yolu maarifləndirici verilişin aparıldığı studiyaya məktub göndərmək idi. Son illərdə kommunikasiya texnologiyalarının və kompüter sistemlərinin sürətli inkişafı multimediya texnologiyasının yaranmasına səbəb olmuşdur. Nəticədə distant təhsil yazışma və radiodan uzaqlaşaraq audio-video yayıma, telekonfranslara, kompüter yardımlı təlimatlara, onlayn öyrənmə və s.kimi reallıqlara keçdi.

Distant təhsilin ənənəvi, üz-üzə tədris və təlimlə müqayisədə bir çox üstünlüklərini görə bildik. Ən əhəmiyyətlisi yer və zaman müstəqilliyidir. Bu tələbələrə günün istənilən vaxtında və yerində öyrənmə imkanı verir ki, bu da təhsilin ucqar ərazilərə və cəmiyyətlərə yayılması ilə nəticələnir.

Biz bütün dünya ilə birgə COVİD-19 dövründə əsl distant təhsil sınağına məruz qaldıq. Düşünürəm ki, bu sınaqdan uğurla keçə bildik. Onun üstün və mənfi cəhətlərini əyani olaraq gördük. Bir çox şeyləri öyrəndik. Başa düşdük ki, ənənəvi təhsilin ən üstün cəhəti müəllim tələbə arasında daimi, birbaşa əlaqədir. Bunu hətta ən son texnologiya ilə əvəz etmək çətindir. Bir neçə peşə üçün əsas olan praktiki biliklər əvəz edilə bilməz. Müəllim, xüsusilə ibtidai və orta məktəbin ilk pillələrində uşaqlara əyani dərs verməyə məcburdur.

Çox vaxt tələbə ilə birbaşa təmasda olmaqla və onların davranışlarını müşahidə etməklə, müəllim uşağın probleminin olub-olmadığını bilə və tez reaksiya verə bilər. Bundan əlavə, məktəbdə oxuyan uşaqlar öz həmyaşıdları ilə təmasda olurlar ki, bu da onların inkişafına əhəmiyyətli dərəcədə təsir göstərə bilir. Üstəlik, distant təhsil əl bacarıqlarının öyrənildiyi praktiki seminarları əvəz edə bilmir. Ancaq təhsilə çıxışın məhdud olduğu hallarda distant təhsil əvəzolunmaz, dəyərli çıxış yoludur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hüseynova A. (2021) Azərbaycanda distant təhsil: problemlər və perspektivlər. Azərbaycan məktəbi.№ 4 (697), səh.98-104
2. Əlizadə T. (2019). Distant təhsilin əsas modelləri və metodları. Azərbaycan məktəbi. № 3 (688), s.123-132
3. Mahmudov M. (2014). Dünyada təhsil sistemləri. Bakı: Mütərcim, 480 s.

MİLLİ STANDARTLAŞDIRMA SİSTEMİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Sima Vəli qızı Mahmudova
Mingəçevir Dövlət Universiteti
sima.mahmudova@mdu.edu.az

Giriş

Milli standartlaşdırma sistemi hər bir ölkənin iqtisadi inkişafında, islahat proseslərinin təkmilləşdirilməsində və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır. Azərbaycan Respublikassında standartlaşdırma sisyeminin formalaşması və inkişafı müstəqillik dövründə mühüm mərhələlərdən keçmiş, bu prosesdə Ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Heydər Əliyev ölkənin sənaye, nəqliyyat, enerji və digər strateji sahələrinin inkişafı üçün vahid standartların tətbiqinə xüsusi diqqət yetirmiş, Azərbaycanın beynəlxalq standartlaşdırma qurumlarına inteqrasiyasına şərait yaratmışdır. Onun rəhbərliyi altında qəbul edilən normativ-hüquqi aktlar, dövlət standartlarının işlənib hazırlanması və keyfiyyətə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi sahəsində həyata keçirilən islahatlar milli iqtisadiyyatın inkişafında mühüm töhfə vermişdir. [5].

Azərbaycan müstəqillik əldə etdikdən sonara standartlaşdırma sisteminin vəziyyəti mürəkkəb idi. Sovet İttifaqının dağılması ilə ölkə iqtisadiyyatında xaos yaranmış, planlı iqtisadi sistemin dağılması nəticəsində sənaye və istehsalat sahələri ciddi problemlərlə üzləşmişdi. SSRİ dövründə tətbiq olunan standartlar (GOST, OST) əvvəlki kimi işləkliyini qoruya bilmirdi, çünki, onların çoxu birbaşa keçmiş ittifaqın vahid təsərrüfat modelinə əsaslanırdı.

Müstəqilliyin ilk illərində Azərbaycan beynəlxalq bazara inteqrasiya etməkdə çətinlik çəkirdi, çünki milli standartlaşdırma sisteminin olmaması yerli məhsulların beynəlxalq tələblərə uyğunluğunu təsdiq etməyə imkan vermirdi. Bu dövrdə ölkədə keyfiyyətə nəzarət mexanizmləri zəif idi, standartlaşdırma və sertifikatlaşdırma institutları isə yetərincə formalaşmamışdır.

Heydər Əliyev hakimiyyətə gəldikdən sonar bu sahədə mühüm islahatlar başladı. Standartlaşdırma sisteminin hüquqi bazası yaradıldı, beynəlxalq təşkilatlarla əməkdaşlıq quruldu və milli standartlaşdırma institutları gücləndirildi.

1993-cü ildən etibarən dövlət siyasəti çərçivəsində yerli standartların beynəlxalq standartlarla uyğunlaşdırılması istiqamətində addımlar atıldı. 1999-cu ildə "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul ulundu və bu, ölkədə vahid standartlaşdırma sisteminin hüquqi əsaslarını formalaşdırdı.

Bu dəyişikliklər Azərbaycanın iqtisadi inkişafına və beynəlxalq bazara inteqrasiyasına mühüm təsir göstərdi. Standartlaşdırma sistemi beynəlxalq tələblərə cavab verməyə başladı, məhsulların keyfiyyəti və təhlükəsizliyi sahəsində ciddi nəzarət mexanizmləri yaradıldı. Bu islahatlar sertifikatlaşdırma və uyğunluq qiymətləndirmə sistemlərinə qoşuldu, ölkədə istehsal olunan məhsullar dünya bazarına daha asan çıxış əldə etdi.

Milli standartlaşdirma sisteminin formalaşmasi

Milli standartlaşdırma sistemi, bir ölkənin iqtisadiyyatının və sənayesinin inkişafında mühüm rol oynayır. Bu sistem məhsul və xidmətlərin keyfiyyətinin təmin edilməsi, beynəlxalq bazarlara çıxışın asanlaşdırılması və istehlakçıların hüquqlarının qorunması üçün vacibdir. Azərbaycanda milli standartlaşdırma sisteminin formalaşması və inkişafı prosesində Ümummilli lider Heydər Əliyevin rolu əhəmiyyətlidir.

Azərbaycanda standartlaşdırma fəaliyyətinin əsası hələ 1920-ci illərdə - sovetlər dönəmində qoyulmuşdur Bu dövrdə standartlaşdırma fəaliyyəti mərkəzləşdirilmiş şəkildə həyata keçirilir və əsasən sənaye məhsullarının keyfiyyətinin təmin edilməsinə yönəldilmişdi. Lakin 1991-ci ildə ölkə müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası milli standartlaşdırma sisteminin yaradılması və inkişaf istiqamətində mühüm addımlar atılmış, beynəlxalq standartlara inteqrasiya etməyə başladı.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli standartlaşdırma sisteminin gücləndirilməsi və beynəlxalq normalara uyğunlaşdırılması məqsədilə ciddi islahatlar aparıldı. 1993-cü ildə Ulu öndər Heydər əliyevin sərəncamı ilə "Standartlaşdırma haqqında" ilk Qanun qəbul edilmişdir. Bu Qanun ölkədə standartlaşdırma fəaliyyətinin hüquqi əsaslarını müəyyən etmişdir [2].

Azərbaycanın müstəqillik qazanmasından sonra ölkədə sənaye və iqtisadi inkişafın əsas istiqamətlərindən biri də milli standartlaşdırma sisteminin yaradılması olmuşdur. SSRİ dövründə standartlaşdırma, əsasən, Moskvanın nəzarətində olduğu üçün Azərbaycanın özünəməxsus milli standartları yox idi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu sahədə ciddi islahatlar həyata keçirildi. Ölkənin müasir sənaye və istehsal sektorunun inkişafı üçün milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun qurulması vacib idi. Buna görə də 1993-cü ildən yeni standartların formalaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın etibarən artırılması üçün addımlar atıldı.

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda milli standartlaşdırma sisteminin təməli qoyulmuş və bu sahədə mühüm nailiyyətlər əldə edilmişdir. Onun rəhbərliyi altında həyata keçirilən islahatlar və qəbul edilən qərarlar, ölkəmizin beynəlxalq aləmdə rəqabət qabiliyyətinin artırılmasına və milli maraqların qorunmasına xidmət etmişdir.

Heydər Əliyevin standartlaşdirma siyasəti

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə standartlaşdırma sahəsində vahid dövlət siyasəti formalaşdırılırdı və beynəlxalq tələblərə uyğun yeni standartlaşdırma mexanizmləri tətbiq olundu. Bu siyasət təkcə istehsalat və sənaye sahələrində deyil, həm də nəqliyyat, energetika, qida təhlükəsizliyi, tibb və digər strateji sahələrdə keyfiyyətin təmin edilməsi üçün geniş istifadə olundu.

Sovet İttifaqı dövründə Azərbaycan iqtisadiyyatı ümumi ittifaq planına uyğun inkişaf edirdi və əsasən GOST və OST standartlarına əsaslanırdı. Lakin bu standartlar yerli tələbləri nəzərə almırdı və yalnız sovet təsərrüfat modelinə xidmət edirdi. 1991-ci ildə müstəqillik əldə edildikdən sonra Azərbaycan yeni milli standartlaşdırma sisteminin formalaşdırılması ilə bağlı çətinliklərlə üzləşdi.

Bu dövrdə əsas problemlər aşağıdakılar idi:

- Beynəlxalq standartlarla uyğunluq yox idi.
- Sovetdən qalma normativ bazanın əksəriyyəti köhnəlmişdi.
- İstehsal və ixrac sahələrində məhsulların keyfiyyətinin qiymətləndirilməsi üçün vahid standartlaşdırma qurumu mövcud deyildi.

- Azərbaycan məhsullsrının beynəlxalq bazarlarda sertifikatlaşdırılması çətinlik törədirdi.

Məhz bu səbəblərdən Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə standartlaşdırma sahəsində köklü islahatlara start verildi.

Heydər Əliyevin rəhbərliyi altında 1999-cu ildə qəbul edilən "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu ölkədə standartlaşdırma sisteminin əsas hüquqi bazasını yaratdı və aşağıdakı məsələləri tənzimlədi:

- Milli standartlaşdırma sisteminin yaradılması və inkişafı.
- Standartların beynəlxalq tələblərə uyğunlaşdırılması.
- Məhsul keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması üçün yeni nəzarət mexanizmlərinin tətbiqi.
- Dövlət standartlaşdırma orqanlarının yaradılması və səlahiyyətlərinin müəyyən edilməsi.

2001-ci ildə isə Prezident Heydər Əliyevin 623 saylı Fərmanı ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi təsis edildi. Bu qurumun yaradılması ölkədə standartların tətbiqinin vahid mərkəzdən idarə olunmasını təmin etdi. [1]

2017-ci ildə isə bu sahədə idarəetmənin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) public hüquqi şəxs olaraq təsis edilmişdir. AZSTAND standartların hazırlanması və tətbiqi sahəsində fəaliyyət göstərir. [2]

Heydər Əliyevin beynəlxalq standartlara inteqrasiya siyasəti

Heydər Əliyevin siyasətində Azərbaycanın beynəlxalq bazara inteqrasiyası əsas prioritetlərdən biri idi. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan Respublikasının beynəlxalq standartlara inteqrasiyası istiqamətində mühüm addımlar atılmışdır. Bu siyasət ölkənin iqtisadi, siyasi və social sahələrdə inkişafına, eləcə də beynəlxalq aləmdə mövqeyinin güclənməsinə xidmət etmişdir.

Heydər Əliyevin xarici siyasəti çoxvektorlu və balanslaşdırılmış xarakter daşıyır. O, Azərbaycanın milli maraqlarını qorumaqla yanaşı, beynəlxalq standartlara uyğun siyasət yürüdərək ölkənin dünya birliyinə inteqrasiyasını təmin etmişdir. Bu siyasət nəticəsində Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirmiş, regional və qlobal layihələrdə fəal iştirak etmişdir [4].

Bu məqsədlə, ölkə bir sıra beynəlxalq təşkilatlara üzv oldu və beynəlxalq standartların tətbiqini genişləndirdi:

- Azərbaycanın beynəlxalq ticarətə açıq ölkəyə çevrilməsi üçün Heydər Əliyev milli standartların beynəlxalq normalarla uyğunlaşdırılmasını təşviq etdi. Azərbaycan ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) və digər nüfuzlu beynəlxalq qurumlara üzv olaraq, öz standartlaşdırma sistemini beynəlxalq səviyyəyə çıxardı. 2001-ci ildə ölkə ISO-ya tamhüquqlu üzv oldu və bu, Azərbaycan məhsullarının beynəlxalq bazarda rəqabət qabiliyyətini artırdı . [3]
- İEC (Beynəlxalq Elektrotexnika Komissiya) –Enerji və elektronika sahəsində beynəlxalq standartların tətbiqi üçün addımlar atıldı.
- Codex Alimentarius – Qida təhlükəsizliyi sahəsində beynəlxalq normativlər qəbul edildi.
- WTO (Ümumdünya Ticarət Təşkilatı) ilə əməkdaşlıq – Azərbaycan məhsullarının dünya bazarında sertifikatlaşdırılması və ixrac imkanlarının genişləndirilməsi üçün beynəlxalq tələblərə uyğun qanunvericilik bazası yaradıldı.

Azərbaycan ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) və digər nüfuzlu beynəlxalq qurumlara üzv olduqdan sonra ölkədə standartların beynəlxalq bazar tələblərinə uyğunlaşdırılması prosesi sürətləndirildi. [6]. 2001-ci ildə Azərbaycan ISO-ya tam hüquqlu üzv oldu və bu, ölkənin beynəlxalq bazarda rəqabət qabiliyyətini artırdı. ISO standartlarına uyğunlaşdırılmış yeni sənaye məhsullarının istehsalı və keyfiyyətə nəzarət sistemlərinin tətbiqi ölkənin ixrac potensialını artıraraq, milli iqtisadiyyatın dayanıqlı inkişafına mühüm töhfə verdi. [3].

Ümumilikdə, Heydər Əliyevin standartlaşdırma sahəsində gördüyü işlər Azərbaycan iqtisadiyyatının beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmağa kömək etdi. Onun rəhbərliyi altında qəbul edilən qanunlar və standartlaşdırma siyasəti bu gün də öz əhəmiyyətini qoruyur. Ölkədə istehsal olunan məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması həm ixrac imkanlarını genişləndirdi, həm də istehlakçıların hüquqlarını qorumağa xidmət etdi. Gələcəkdə Azərbaycan

standartlaşdırma sahəsində innovativ texnologiyaların tətbiqini sürətləndirməli, beynəlxalq əməkdaşlığı daha da genişləndirməlidir. Standartlaşdırma və sertifikatlaşdırma sahəsində peşəkar kadrların yetişdirilməsi də əsas prioritetlərdən biri olmalıdır.

Nəticə

Heydər Əliyevin milli standartlaşdırma sisteminin inkişafına verdiyi töhfələr müasir dövrdə də öz əhəmiyyətini qoruyur. Onun rəhbərliyi altında həyata keçirilən islahatlar Azərbaycanın beynəlxalq bazarlara inteqrasiyasını sürətləndirmiş, yerli istehsalın keyfiyyətini artırmış və ölkənin iqtisadi inkişafına mühüm töhfə vermişdir.

Bu suyasətin nəticəsində Azərbaycan milli standartlaşdırma sistemini quraraq, beynəlxalq təşkilatlarla əməkdaşlıq etmiş və beynəlxalq standartlara uyğun sertifikatlaşdırma və uyğunluq qiymətləndirmə mexanizmlərini tətbiq etmişdir. 2001-ci ildə ölkənin İSO-ya üzv olması, standartlaşdırma sisteminin beynəlxalq səviyyədə tanınmasını təmin etmiş və yerli məhsulların dünya bazarında rəqabət qabiliyyətini artırmışdır.

Bununla yanaşı, Heydər Əliyevin həyata keçirdiyi islahatlar yalnız iqtisadi sahə ilə məhdudlaşmamışdır. Onun təhsildə, elmdə və sənayedə standartlaşdırma siyasətinə verdiyiönəm nəticəsində milli texniki tənzimləmə sistemi formalaşmış və qida, energetika, sənaye, nəqliyyat, tikinti kimi strateji sahələrdə beynəlxalq tələblərə cavab verən yeni normalar qəbul edilmişdir.

Gələcəkdə standartlaşdırma sahəsində innovative texnologiyaların tətbiqinin sürətləndirilməsi, beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi və bu sahədə peşəkar kadrların hazırlanması əsas prioritetlərdən biri olmalıdır. Azərbaycan beynəlxalq standartlara uyğunlaşmanı davam etdirməklə, dünya bazarında daha möhkəm mövqe tuta bilər və iqtisadi dayanıqlığını artıra bilər.

Ümumilikdə, Heydər Əliyevin standartlaşdırma siyasəti ölkənin inkişaf strategiyasının ayrılmaz hissəsinə çevrilmişdir. Onun rəhbərliyi altında atılmış addımlar bu gün də Azərbaycan Respublikasıının iqtisadi və texnoloji tərəqqisinə töhfə verməkdədir. Gələcək illərdə bu siyasətin davam etdirilməsi, ölkənin qlobal bazarlarda mövqeyini daha da gücləndirəcək və milli iqtisadiyyatın rəqabət qabiliyyətini artıracaqdır.

Heydər Əliyevin milli standartlaşdırma sisteminin inkişafına verdiyi töhfələr müasir dövrdə də öz əhəmiyyətini qoruyur. Onun rəhbərliyi altında formalaşan sistem bu gün Azərbaycan məhsullarının beynəlxalq bazarlara çıxışını asanlaşdırır və ölkənin iqtisadi inkişafına müsbət təsir göstərir.

Ulu öndər Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə standartlaşdırma sahəsində islahatlar uğurla davam etdirilərək bu sahədə beynəlxalq təcrübəyə uyğun qanunvericilik bazası təkmilləşdirilmişdir. Bu siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş imici möhkəmlənmişdir.

Gələcəkdə standartlaşdırma sahəsində innovativ texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlıqların genişləndirilməsi daha da gücləndirilməlidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Agentliyi. (2024). Milli standartlaşdırma sistemi haqqında hesabatlar.
2. Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND). (2024). Rəsmi sayt: https://azstand.gov.az
3. Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO). (2024). Azərbaycan və beynəlxalq standartlar.
4. Beynəlxalq Münasibətlərin Təhlili Analiz Mərkəzi. AZƏRTAC. 2023
5. Heydər Əliyev Fondu. (2024). Heydər Əliyevin iqtisadi islahatları. https://heydar-aliyev-foundation.org
6. ISO rəsmi saytı /https://www.iso.org/home.html

HUMANİZM VƏ VƏTƏNPƏRVƏRLİK ÖRNƏYİ LİDERLİK NÜMUNƏLƏRİNDƏ

[1,3]Mətanət Məmməd qızı Məmmədova, [2,3]Aynur Müsbət qızı Əzizova
[1]matanat.mammadova@mdu.edu.az
[2]Naxçıvan Dövlət Universitetinin dissertantı
aynur.azizova@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

Liderlik institutu hər zaman siyasətşünas və filosofların əsas müzakirə mövzularından olmuş, bu fenomeni dərindən öyrənməyə çalışmış böyük mütəfəkkirlər bir-birindən maraqlı, dəyərli nəzəriyyələr yaratmışlar. Geniş fikir müxtəlifliyinə rəğmən, ümumi qənaət bundan ibarətdir ki, iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin hərtərəfli inkişafı milli lider amili ilə bilavasitə bağlıdır. Liderlik anlayışının başlıca tərkib hissəsini şəraiti dəqiq qiymətləndirmək, qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, hansısa qərarın yerinə yetirilməsi naminə insanların zəkasına və enerjisinə pozitiv təsir göstərmək, onları konkret ideya, fikir və məqsəd ətrafında səfərbər etmək, idarə olunanların liderin qəbul etdiyi qərarları, verdiyi göstərişləri öyrənməsinə və fəal müdafiə etməsinə nail olmaq kimi mühüm keyfiyyətlər təşkil edir. [4]. Liderlik funksiyasını öz şəxsi nüfuzu, yüksək təşkilatçılığı, fəallığı, təşəbbüskarlığı, yaradıcılığı və enerjisi ilə fərqlənən, xüsusi idarəçilik və xarizmatik keyfiyyətlərinə malik olan, xalqın böyük hörmət və sevgisini qazanan dahi insanlar yerinə yetirirlər. Bu statusa yiyələnmiş şəxslərin fəaliyyətinin universallığı onunla şərtlənir ki, insan qruplarının, təşkilatların və hərəkatların birgə fəaliyyətinin bütün növləri liderə ehtiyac duyur. Siyasi lider isə sadəcə, siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyalarını həyata keçirən, siyasi təşkilatları və hərəkatları öz ardınca aparan şəxs deyil. O, hər şeydən əvvəl, hadisələrin gedişini dəyişdirməyə, siyasi prosesləri istiqamətləndirməyə qadir olan şəxsiyyətdir. Görkəmli şəxsiyyətlər özləri situasiya yaradır və onu lazımi istiqamətə yönəltməklə qarşıya qoyduqları məqsədləri reallaşdırmağa nail olurlar.

XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri, Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan xalqını əzəmətli bir reallığa qovuşdurmuş, bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir. Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Ötən əsrin 70-80-ci illərindən respublikamızda milli müstəqilliyə etibarlı zəmin formalaşdıran sosialiqtisadi, hüquqi və mənəvi intellektual mühit formalaşdıran Ulu öndər Heydər Əliyev xalqımızın məhz bu möhkəm bünövrə üzərində azadlıq, istiqlaliyyət və müstəqillik ideallarına qovuşmasını təmin etmişdir. Bu günün zirvəsindən baxdıqda, o illərdə Heydər Əliyevin xalqının hüquqlarını qoruyan, haqqı nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla həm də ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri daha qabarıq sezilir. Azərbaycan xalqı dahi liderinin rəhbərliyi altında yüksək iradə sərgiləməklə, milli yaddaşını, mənəvi, əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumaq əzmini toparlaya bilmiş, dövlət müstəqilliyi üçün zəruri potensial formalaşdırmışdır. Keçmiş imperiya daxilində hansı qlobal proseslərin getdiyini daha dərindən müşahidə etmək imkanına malik olan Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqillik əldə edəcəyini öncədən görmüş, bu prosesi sürətləndirən mühüm addımlar atmışdır. Qeyd etmək lazımdır ki, Heydər Əliyevi rəhbər kimi başqalarından fərqləndirən mühüm bir keyfiyyət ondan ibarətdir ki, onun dövlətçilik və siyasi fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və bunların imkanlarından bacarıqla istifadə edib hər bir dövrün ictimai-siyasi tələblərinə uyğun olaraq, özünün bütün varlığını Azərbaycan Respublikasının yüksəlişinə, xalqın mənəvi-mədəni inkişafına həsr etmiş və ölkəmizin hərtərəfli tərəqqisini təmin etmişdir.

Böyük strateqin rəhbərliyi altında hazırlanaraq, 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi

kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. Konstitusiyada əksini tapmış müddəaların üçdə ikisinin sırf insan hüquqları ilə bağlı olması da Ulu Öndərimizin insan hüquqlarına necə böyük həssaslıqla yanaşmasının bariz təcəssümüdür.

Azərbaycanın demokratik dövlət olmasını şərtləndirən əsas meyarlardan biri də xalqın hakimiyyətin əsas mənbəyini təşkil etməsi və idarəçilik mandatının yalnız xalqa malik olmasıdır. Bu gün bu ideyaları öz əməlləri ilə davam etdirən Prezidentimiz, cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu qərar məhz Azərbaycanda hakimiyyətin əsas mənbəyi kimi xalqı və əsas məqsədi kimi onun maraqlarının təmin edilməsini qəbul etməsi, eyni zamanda hüquqi dövlətin mövcudluğunu şərtləndirir.

Ümummilli lider Heydər Əliyevi böyük şəxsiyyət və insan kimi xarakterizə edən mühüm keyfiyyətlərdən biri də onun yeritdiyi siyasətin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanması olmuşdur. 1995-2003-cü illər ərzində Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3091 məhkuma şamil edilmişdir. UluÖöndərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003-ci illərdə 8 amnistiya haqqında qanun imzalamış, 31 mindən artıq məhkum azadlığa buraxılmış və yaxud cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır. Bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cəmiyyətdə pak mənəvi dəyərlər, humanizm hissi aşılamış, ölkədə cinayətkarlığın dinamikasının azalmasını təmin etmişdir.

1998-ci ilin 22 fevralında Ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. insan hüquqları sahəsində proqram rolunu bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyun tarixdə isə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Bu memorandumа əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Ulu öndərimiz Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan sivil dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, qlobal məkanda cərəyan edən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur.

Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Böyük öndərin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə, habelə siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin əsasını qoyduğu unikal liderlik institutunu və dövlətçilik sistemini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüşü kimi qəbul edir. Qlobal miqyasda aparıcı dövlətlər, o cümlədən, Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür

etmirlər. Heydər Əliyevin xarici siyasət doktrinası bu fəlsəfi dünyagörüşün mahiyyəti barədə real təsəvvürlərin ortaya çıxmasını şərtləndirir [2].

Ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratik tərəqqisi üçün zəruri inkişaf kursunu irəli sürərək bu kursun alternativsizliyini real addımlar, əməli nəticələrlə sübuta yetirməklə bərabər, banisi olduğu dövlətçilik irsinin əbədiliyini təmin edəcək qüdrətli varis və lider yetişdirmişdir. Ulu Öndərin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə bağlı lider olduğu bir daha aydın görünür. Reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, sadəliyi, səmimiliyi, təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə sevgisi, nəcibliyi, ziyalılığı, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini daha da artıran ən mühüm mənəvi keyfiyyətlərdir.

İntellektlə istedadın, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bugünü və sabahına sonsuz, sarsılmaz sədaqət hissləri İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir. Mövcud reallıqlar Azərbaycanın müasir dövlətçilik tarixində İlham Əliyev faktorunun prioritet, həlledici mahiyyətini bir daha ortaya qoyur. Bu səbəbdən də, İlham Əliyevin pozitiv siyasi obrazının mahiyyətini ictimai rəyin adekvat münasibətində axtarmaq lazımdır.

Cənab İlham Əliyev həm də müasir dünyanın qloballaşma və yeni geosiyasi reallıqlardan irəli gələn siyasi mənzərəsinin əsas cizgilərinə cavab verən siyasi liderdir. Prezident İlham Əliyevin ictimai rəydəki statusunun möhkəmlənməsinə təsir göstərən ən başlıca məqamlardan biri də dövlət rəhbərimizin kifayət qədər təkmil siyasi təlimə ulu öndər Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsinə istinad etməsidir. Bu amilin Azərbaycan dövlətçiliyinin tarixi taleyindəki böyük rolu barədə geniş söhbət açmağa lüzum yoxdur. Həmin təlim Azərbaycanın müstəqilliyinə, dövlət müstəqilliyimizin əbədi, dönməz xarakter daşımasına təminat verir. Eyni zamanda, bu təlim dövlətin idarə edilməsi missiyasını üzərinə götürmüş şəxsdən daha məsuliyyətli və qətiyyətli olmağı tələb edir. Azərbaycan Prezidenti xarizmatik liderdir və onun mütərəqqi siyasi keyfiyyətləri vizual görüşündə tam nəzərə çarpır.

Azərbaycan Prezidentinin fəaliyyətinin təhlili göstərir ki, ötən illərdə konturları hələ böyük strateq Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmiş, zəruri hallarda məhz onun təşəbbüsü ilə dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir. İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin sınaqdan çıxmış təcrübəsi göstərir ki, siyasi hakimiyyətin müəyyən zaman intervalında əldə etdiyi uğur və nailiyyətləri şərtləndirən başlıca amil məhz sosial məsuliyyət prinsipidir. Cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqlik nümayiş etdirən hakimiyyət komandası xalqa layiqli xidmət məramını əsas tutmaqla, ölkənin bütün mövcud resurslarını qarşıya qoyduğu strateji məqsədlərin gerçəkləşdirilməsi naminə səfərbər edir, siyasətində hər bir fərdin maraq və mənafeyini nəzərə almağa çalışır. Fəaliyyətini hər zaman ictimai inam və etimadı doğrultmaq məramı üzərində quran, hakimiyyətin mütəmadi olaraq gördüyü işlərlə bağlı xalqa hesabat verməsini idarəçilikdə mütərəqqi ənənə kimi formalaşdıran Azərbaycan Prezidenti İlham Əliyev də məhz fenomenal liderlik keyfiyyətləri sayəsində respublikamızı qısa müddətdə bütün sahələrdə sürətli inkişaf yoluna çıxarmışdır.

Bu gün inamla demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin demokratikləşdirilməsi sahəsində yeritdiyi ardıcıl siyasətə Heydər Əliyev Fondu da öz töhfəsini verir. 2004-cü ildən analoqu olmayan əlahiddə statuslu ictimai qurum kimi fəaliyyət göstərən Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə tapınaraq Ümummilli Liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyətində ümummilli liderin zəngin dövlətçilik və idarəçilik fəlsəfəsinə əsaslanaraq milli-mənəvi və intellektual yüksəlişə xidmət edən idealların cəmiyyətdə daha da möhkəmlənməsinə çalışır [3].

Azərbaycanın birinci xanımının istər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların

fiziki-mənəvi sağlamlığının təminatı yönümündə həyata keçirdiyi strateji layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür. Cəmiyyətdə bir sıra mütərəqqi yeniliklərin təşəbbüskarı kimi çıxış etməklə yanaşı, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" ənənəsini də öz fəaliyyəti ilə məhz Mehriban xanım Əliyeva formalaşdırmış, bu statusda böyük ictimai rəğbət və etimad qazanmışdır. Məhz Azərbaycanın birinci xanımının timsalında bu status humanist fəaliyyətə, qayğıkeşliyə, eləcə də hansısa problemlərlə qarşılaşan, hansısa məqamda hüquqları pozulan sıravi vətəndaşların ümid yerinə çevrilmişdir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən bir ümumi ortaq xətt isə məhz milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır. Azərbaycanın birinci xanımı haqlı olaraq informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir. Bu baxımdan Fondun həyata keçirdiyi xoşməramlı tədbirlər sırasında elm və təhsilə qayğının xüsusi yer tutması da təsadüfi olmayıb, milli-mənəvi irsin qorunması məqsədinə xidmət edir.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti, eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə tanıdılması, mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir. Son illərdə məhz Mehriban xanım Əliyevanın təşəbbüsü, YUNESKO-nun iştirakı ilə Bakıda təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun genişləndirilməsi, dini-irqi ayrı-seçkiliyin, savadsızlığın aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil etmişdir.

Azərbaycanın qazandığı böyük nailiyyətlər cənab İlham Əliyev klassik siyasətdən XXI yüzilliyin modern siyasətinə uğurlu keçid formulunu ilk dəfə, özü də müvəffəqiyyətlə sınaqdan çıxaran siyasətçi obrazının daşıyıcısı olaraq siyasətdə, diplomatiyada eyni dərəcədə mühafizəkar, ənənəçi və yenilikçi, liberal olmaqla, mötədil dəyərləri sintez etməyi bacarır. Prezident İlham Əliyev iti zəkası, vaxtında qərar qəbul etmək bacarığı, fəhmi, hazırlıq səviyyəsi, analitik təhlil qabiliyyəti hesabına istər fərdi qaydada, istərsə də komanda halında uğurlu fəaliyyət göstərir. Bütün bunlar tam və qəti şəkildə deməyə əsas verir ki, İlham Əliyev fenomeni bu gün müstəqil Azərbaycanın siyasi simasını müəyyən edir və onun rəhbərliyi altında ulu öndər Heydər Əliyevin dövlətçilik irsinin davam etdirilməsi tarixi zərurət, başqa sözlə desək, sosial sifarişdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev İ. Azərbaycanın strategiyası // Dirçəliş-XXI əsr, 2004, № 82-83. s. 3-7
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərbaycan, 1994, 174 s.
3. Hüseynova İ. Mehriban xanım Əliyevanın fəaliyyəti nəciblik və mərhəmət nümunəsidir // Dirçəliş-XXl əsr , 2005-2006, № 94-95. s. 39
4. Hüseynova İ. Liderlik nümunəsi // Dirçəliş-XXI əsr, 2009, № 130-131, s. 90-98
5. Hüseynova İ. Azərbaycan Qafqazda lider dövlətdir // Dirçəliş-XXl əsr, 2008, № 118-119, s. 344 - 354
6. Xəlilov S. Lider, Dövlət, Cəmiyyət. Bakı, 2001

HEYDƏR ƏLİYEV İRSİNİN AZƏRBAYCANIN GƏLƏCƏK İNKİŞAFINA TÖHFƏSİ

Aynur Məhəmməd qızı Namazova
Mingəçevir Dövlət Universiteti
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı
aynur.namazova@mdu.edu.az

Hər bir xalqın milli-mənəvi irsini qoruyub saxlamaq, tarixi kimliyini gələcək nəsillərə ötürmək missiyası onun taleyində müstəsna rol oynamış nadir şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Müdrik sayılan belə insanlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə olmuşlar. Tarix belə fenomen şəxsiyyətlərin, liderlərin siyasəti ilə irəli gedir, yüksəlişə nail olurlar.

Azərbaycanın da tarixində nadir zəkası və əfsanəviləşən hünəri ilə şərəfli bir silsilə təşkil edən şəxsiyyətlərin sırasında ümummilli lider səviyyəsinə yüksəlmək XX əsrdə xalqımıza rəhbərlik etmiş, onun hərtərəfli inkişafına nail olmuş, milli dövlətçiliyimizin bərpası və əbədiləşdirilməsi uğrunda mübarizənin öndəri olmuş, respublikamızı tarixi inkişafın ən uca mərtəbəsinə qaldırmış və sağlığında əfsanəviləşmiş Heydər Əlirza oğlu Əliyevə nəsib olmuşdur. Ulu Öndər müdrikliyi, zəkasını bütünlüklə əmələ çevirən rəhbər kimi xalqımızın qəlbində əbədiyyət qazanmış dahilərimizin ən birincisidir. Dahi rəhbər, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev əbədiyyətə qovuşsa da, yaratdığı ən yeni tariximiz XXI əsrin ilk onilliklərı boyunca zənginləşməkdə, onun ən layiqli və sadiq davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etməkdədir.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində Ümummilli Liderimizin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli amallarını, yaşatdığı dövlətçilik ənənələrini, Heydər Əliyevin sayəsində gerçəkləşdirdi, yenidən müstəqil Azərbaycan dövlətini qura bildi. Ulu Öndər Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran, cəmiyyətdə qanunçuluğu, hüquq qaydalarını təmin edən bir rəhbər idi. Müstəqil Azərbaycanın rəhbəri kimi onun miqyaslı və dərin siyasəti bütün dünyanı ehtiva edə bilirdi, regionun perspektiv yolunu düzgün istiqamətə yönəldirdi. Heydər Əliyev dünyanın bir çox ölkələri ilə, hətta xain və məkrli düşmənlərimizlə də "sülh dili" ilə danışmağı bacarır, onların təcavüzkar siyasətinin məhvə məhkumluğunu bəyan edirdi.

Ulu Öndərin ali keyfiyyətləri – fenomen xarakteri, insanlara sevgisi, hərəni öz dilində danışdırmaq məharəti, xeyirxahlığı onu tanıyanların sevimlisinə çevirirdi. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, həmişə obyektiv mövqe tutması, yüksək intellekti, analitik təfəkkürü, sadə davranışı, heyrətamiz enerjisi dünyanın hər yerindən görünürdü. Azərbaycan xalqının Ümummilli Lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə, demokratik dövlət quruculuğu prinsiplərinə sadiq bəşəri şəxsiyyət idi. Onun fəaliyyəti yalnız konkret sahələri əhatə etmir, həm də ümummilli və qlobal əhəmiyyətli problemlərin aradan qaldırılmasına xidmət edirdi. Bu baxımdan, Heydər Əliyevin ali keyfiyyətləri və siyasi potensialı onun müxtəlif sistemlərdə və coğrafi məkanlarda rəhbər elitanın ən yüksək pilləsində qərarlaşmasını təmin etmişdi. Ulu Öndər Azərbaycan xalqının zaman-zaman fəxr edəcəyi və həyat yolundan ibrət götürəcəyi böyük bir mütəfəkkirdir. Heydər Əliyev təkcə gələcəyi görmür, həm də o gələcəyi yaradırdı [1].

Onun 1969-cu ildə Azərbaycana siyasi hakimiyyətə gəlişi tarixi hadisə idi. Çünki Ulu Öndərin rəhbəliyinin birinci dövründə respublikada köklü dəyişikliklər baş vermişdi. Əgər Heydər Əliyevin rəhbərliyi altında ötən əsrin 70-80-ci illərində dövlətimizin sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən zəruri işlər olmasaydı, bu gün Azərbaycanın suveren dövlət kimi mövcudluğundan danışa bilməzdik. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra respublika iqtisadi və sosial baxımdan mühüm inkişafa doğru addım atdı. O, milli özünüdərkin idarə edilməsini prioritet istiqamətə çevirərək, Azərbaycan SSR-də milli şüurun oyanmasında mühüm rol oynadı. Milli kadrların yetişdirilməsi, təhsilin inkişafı və milli dəyərlərin qorunması onun fəaliyyətinin əsas istiqamətlərindən biri idi [2].

1990-cı illərin əvvəllərində hökm sürən siyasi xaos, vətəndaş qarşıdurması və Qarabağ müharibəsinin ağır nəticələri müstəqilliyin itirilməsi təhlükəsini reallaşdırırdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev ölkəni parçalanmaqdan xilas etdi.

Böyük rəhbər respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək, gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu. Heydər Əliyevin ən mühüm addımlarından biri də 1994-cü ildə "Əsrin müqaviləsi" kimi tanınan neft strategiyasının imzalanması idi. Bu müqavilənin təbii sərvətlərinin beynəlxalq iqtisadiyyata kompleks təminatı ilə yanaşı, dövlətin müstəqil xarici siyasət kursunun əsaslarını qoydu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və

investisiya imkanları yaratdı. Heydər Əliyev demişdi: "Neft Azərbaycanın milli sərvətidir və biz bu sərvətdən xalqımızın rifahı üçün istifadə etməliyik!"

Ümummilli Liderin irsində mədəniyyətə, ədəbiyyata, ana dilinə və tarixi yaddaşa da diqqəti xüsusi yer tuturdu. Onun təşəbbüsü ilə Novruz bayramının rəsmi statusu alması, Füzulinin 500 illik yubileyi, Nizami Gəncəvi irsinin təbliği kimi addımlar mənəvi irsin qorunmasına xidmət edirdi.

Heydər Əliyev fəaliyyətinin 1993–2003-cü illəri də bir ömrün qızıl salnaməsi, Azərbaycanı daim müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir. Ümummilli Lider həmin illərdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqil Azərbaycanın bəhrəsini bəxş etdi. Heydər Əliyev öz əməli fəaliyyəti ilə nəinki Azərbaycan, eləcə də insanlıq, bəşəriyyət üçün dəyərli bir tarix yaratdı. Bu, bəşəri ideyaların ölməzliyi, azadlığın, insanlığın, ağıl və təfəkkürün, xalq məhəbbətinin yenilməzliyi tarixidir. Ulu Öndər ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Heydər Əliyev qanlı müharibədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Azərbaycanın günbəgün beynəlxalq nüfuzu artdı, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırıldı. Dünya inkişafının perspektivini aydın görən, ona doğru addımlayan və ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti müasir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını təmin edərək, onun müstəqilliyini əbədi və dönməz etdi. Bu siyasət: hər şeydən əvvəl, uzunmüddətli sabitliyin bərqərar olunmasına yönəlmişdi; ikincisi, zaman çərçivəsi ilə məhdudlaşmayıb gələcəyə hədəflənmişdi; üçüncüsü, geopolitik maraqların Azərbaycanın milli mənafeləri ilə uzlaşması harmoniyasını yaradırdı; nəhayət, hələ uzun illər Azərbaycanın daxili və xarici siyasət doktrinasının özəyini, milli inkişafımızın təməlini təşkil edəcəkdir. Bir həqiqətsə heç zaman dəyişməyəcək: Heydər Əliyevin müasir Azərbaycanın qurucusu olmaqla yanaşı, tərəqqi və ədalət, sülhpərvərlik və humanizm ideyalarına, bəşəri dəyərlərə əsaslanan geniş spektrli fəaliyyəti ilə bəşər tarixinin yetişdiriyi nadir şəxsiyyət olması həmişə etiraf olunacaq.

Azərbaycanda siyasi hakimiyyətin Heydər Əliyevin yaratdığı dövlətçilik təməli üzərində inkişaf etdirilməsi, möhkəmləndirilməsi zərurəti üzərində düşünərkən artıq çoxdan təsdiqini tapmış belə bir həqiqəti dərk edirik ki, Heydər Əliyevin siyasi uzaqgörənliyinin zirvəsi onun özündən sonra siyasi kursunu hər kəsdən yaxşı davam etdirərək, Azərbaycanın müstəqilliyini hamıdan yaxşı qoruya biləcək, dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün liderini – İlham Heydər oğlu Əliyevi Azərbaycana bəxş etməsidir. Azərbaycanı Qafqazın ən qüdrətli dövlətinə çevirmiş, ölkəsinin bütün sahələrdə qalibiyyət potensialını üzə çıxarmış Prezident İlham Əliyevlə xalqımız özünə ən etibarlı siyasi gələcək qazandı, mütərəqqi inkişaf yolunu qoruyub saxladı. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət quruculuğu prosesini Prezident İlham Əliyevin yüksək dinamizm və əzmkarlıqla davam etdirilməsi xalqımızın sabaha inamının qaynağıdır. Onun 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünyaya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Ümummilli lider Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar sayəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai həyatında əsaslı yenilənmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. Azərbaycan Respublikasının Prezidenti zaman etibarilə qısa, mahiyyətcə çəkili bir dövr ərzində yeni əsrin lideri kimi sübuta yetirdi ki, xalq öz taleyini ona etibar etməkdə qətiyyən yanılmamışdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürü və eyni zamanda, müstəqil Azərbaycan uğrunda və Heydər Əliyevin ölməz ruhu qarşısında fədakarlıqla çalışmağın nəticəsidir.

Bəli, Heydər Əliyev möhtəşəm quruculuq siyasəti ilə Azərbaycanın ən yeni tarixini yazmış fenomen şəxsiyyətdir! Müstəqil Azərbaycan məhz cənab İlham Əliyevin rəhbərliyi altında qarşıda

duran ümummilli məqsədləri dəqiq müəyyən edərək, onların gerçəkləşdirilməsi istiqamətində ardıcıl, sistemli fəaliyyət göstərən ölkə kimi dünyanın yeni iqtisadi fenomeninə çevrilmişdir. Prezident İlham Əliyev xalqa arxalanmaqla ucalmağı bacaran liderdir.

Bu gün Prezident İlham Əliyev tərəfindən daxili və xarici siyasət kursu Heydər Əliyevin siyasi fəlsəfəsinə çatır. Azərbaycanın əldə etdiyi uğurlar – iqtisadi artım, beynəlxalq nüfuz, torpaqlarımızın azad edilməsi və milli birlik – məhz bu irsin davamlılığının gostaricisidir. Heydər Əliyev Fondu və onun inkişafı layihələri də bu irsin yaşadılmasında mühüm rol oynayır.

Heydər Əliyevin öz sözləri ilə desək: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam!" Bu fəxr, bu hiss hər bir Azərbaycan vətəndaşı üçün bir örnək, bir ilham, qürur mənbəyi, ən dəyərli mənəvi mirasdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Elektron Sənədlər Toplusu. Məqalələr (2009 – 2015-ci illər).
2. https://president.az/az/pages/view/azerbaijan/leader

BORÇALI: QƏDİM TÜRK YURDU TARİXİ ETNOQRAFİK BAXIŞ

Gülər İlham qızı Əjdərzadə
Mingəçevir Dövlət Universiteti
Azərbaycan Milli Elmlər Akademiyasının dissertantı
gular.ajdarzada@mdu.edu.az

Giriş

Borçalı bölgəsi tarixi etibarilə yalnız coğrafi ərazi deyil, həm də türk mədəniyyətinin və etnosunun mühüm daşıyıcısı olmuşdur. Müasir Gürcüstanın cənub-şərqində yerləşən bu ərazi tarix boyunca müxtəlif türk tayfalarının məskəni kimi tanınmış və onların siyasi, mədəni və ictimai fəaliyyətlərində mühüm rol oynamışdır. Bu tezisdə Borçalı bölgəsinin etnik tərkibi, toponimi və siyasi tarixi mərhələlərinə əsasən bir baxış təqdim olunur.

Borçalı toponimi qədim türk tayfalarının – xüsusilə barsillərin – adları ilə bağlıdır. Tarixi mənbələrdə bu bölgə 'Börüçala', 'Berşeliya', 'Qurd çalası' kimi adlarla çəkilmiş, bu da 'bozqurd' simvolikasına birbaşa işarədir. Bu adların müxtəlif dillərdə (ərəb, gürcü, fars) paralel şəkildə işlədilməsi, Borçalı əhalisinin türk mənşəli olmasını sübut edir [1].

Borçalı toponimi yalnız coğrafi bir anlayış deyil, eyni zamanda türk etnosunun qədim mifoloji və tarixi yaddaşında möhkəm yer tutmuş 'bozqurd' simvolikasının daşıyıcısıdır. Türk dünyasında 'bozqurd' qəhrəmanlıq, azadlıq və yolgöstərici kimi qəbul olunmuşdur. Bu simvolun Borçalı adında əks olunması, burada yaşayan tayfaların öz etnik mənsubiyyətlərini toponimlər vasitəsilə qoruyub saxladıqlarının sübutudur. Ərəb tarixçiləri, eləcə də alban və gürcü mənbələri bu adı müxtəlif formalarda qeyd edərək bölgənin qədimliyini təsdiqləyirlər. Bu da onu göstərir ki, Borçalı sadəcə coğrafi deyil, milli identiklik göstəricisi olmuşdur. Borçalı bölgəsində yaşayan əhalinin böyük əksəriyyəti qədim türklər – buntürklər, barsillər, qıpçaqlar, oğuzlar və qarapapaqlardan ibarət olmuşdur. Gürcü tarixşünaslığında bu ərazilərdə türklərin yalnız Şah Abbas dövründə məskunlaşması iddia edilsə də, çoxsaylı mənbələr bu fikri inkar edir [2].

E.ə. IV əsrə aid gürcü salnamələrində belə Borçalıda türk tayfalarının yaşadığı qeyd olunur. Xüsusilə, qarapapaqların bölgədə geniş yayılması, onların həm qıpçaq, həm də oğuz mənşəli olmaları ilə izah edilir.

Borçalı tarix boyu müxtəlif dövlətlərin – Albaniya, İberiya, Sasani, Ərəb xilafəti, Səlcuq, Hülakülər və Səfəvilər kimi güclü imperiyaların tərkibində olmuşdur. Bölgə həm siyasi, həm də hərbi cəhətdən strateji əhəmiyyətə malik olmuş və daim mübarizə obyektinə çevrilmişdir. Xüsusilə Səlcuq sultanı Alp Arslanın və Atabəylər dövlətinin yürüşləri nəticəsində Borçalı ərazisi uzun müddət türk-müsəlman idarəçiliyində qalmışdır [1].

XVII əsrdə Səfəvilər tərəfindən Borçalı sultanlığının yaradılması bölgənin siyasi tarixi baxımından mühüm mərhələ olmuşdur. Borçalı bölgəsi təkcə coğrafi və inzibati bir vahid deyil, həm də türk tarixinin canlı izlərini daşıyan bir mədəniyyət və etnik yaddaşdır. Bölgənin adından tutmuş etnik tərkibinə, siyasi əlaqələrindən dövlətçilik ənənələrinə qədər hər bir aspekt onun qədim türk yurdu olduğunu göstərməkdədir. Bu baxımdan Borçalının tarixi yalnız Azərbaycan deyil, ümumtürk tarixinin də ayrılmaz tərkib hissəsidir.

Qədim dövrlərdən etibarən Borçalıda məskunlaşmış buntürklər, barsillər, bulqarlar, qıpçaqlar və qarapapaqlar bölgənin etnik mənzərəsini formalaşdırmışlar [3]. Tarixi mənbələrdə bu tayfaların bir-biri ilə qohum olduqları, müxtəlif dövrlərdə birgə yaşam sürmələri göstərilir. Xüsusilə qıpçaqların və oğuzların izləri bölgənin dilində, adət ənənəsində, toponimlərində və hətta folklor nümunələrində də hiss olunur [2].

Əhalinin tərkibində baş verən assimilyasiya prosesi türk tayfalarının bir-biri ilə qarışmasına səbəb olmuş, bu da vahid türk etnosunun formalaşmasına zəmin yaratmışdır. Bu baxımdan Borçalı, türk birliyinin kiçik modeli kimi də qəbul edilə bilər.

Borçalı sultanlığı XVII əsrin əvvəllərindən başlayaraq Qarabağ bəylərbəyliyinin tərkibində fəaliyyət göstərmiş, bölgənin idarəsində mühüm rol oynamışdır. Səfəvilər və Osmanlılar arasında gedən müharibələrdə Borçalı bölgəsi mübarizənin əsas mərkəzlərindən birinə çevrilmiş, bu da əhalinin taleyində ciddi izlər buraxmışdır. Osmanlıya meyilli əhalinin bir hissəsi köçürülmüş, Səfəvilərə sadiq olanlar isə qorunmuşdur [1].

Bu dövrün sonunda Rusiya imperiyasının Cənubi Qafqazda fəallaşması nəticəsində Borçalı 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə Rusiyaya ilhaq edilmişdir. Beləliklə, bölgə yeni bir tarixi mərhələyə qədəm qoymuşdur.

Borçalıda mədəni həyat və türk kimliyinin qorunması

Borçalı bölgəsində mədəni həyat tarix boyu türk kimliyi ilə sıx bağlı olmuşdur. Xüsusilə xalq arasında yayılmış dastanlar, aşıq sənəti, şifahi ədəbiyyat nümunələri türk mədəniyyətinin bu bölgədə nə qədər dərin kök saldığını göstərir. Borçalı türklərinin geyim tərzi, toy və yas mərasimləri, xalq oyunları və dini bayramlar kimi mədəni elementlər, onların öz kimliklərini əsrlər boyu qoruyub saxlamasına şərait yaratmışdır.

Gürcüstanda assimilasiya siyasətinə baxmayaraq, Borçalı türkləri öz dillərini, dini inanclarını və milli dəyərlərini qorumağı bacarmışlar. Bu gün Gürcüstan Respublikasının ərazisində yaşayan Borçalı türkləri hələ də etnik və dil hüquqları ilə bağlı müəyyən çətinliklərlə qarşılaşsalar da, milli varlıqlarını qoruyub saxlamaqda israrlıdırlar. Onlar öz soy-kökünü, tarixini və mədəni kimliyini yaşatmaq üçün müxtəlif ictimai birliklər, mədəni tədbirlər və təhsil layihələri ilə fəaliyyət göstərirlər. Bu baxımdan Borçalı bölgəsinin öyrənilməsi yalnız keçmişin deyil, eyni zamanda bu günün və gələcəyin də dərk olunması baxımından önəmlidir.

Nəticə

Borçalı bölgəsinin etno-siyasi tarixinə qısa baxış onu göstərir, bu ərazi hələ antik dövrlərdən etibarən müxtəlif türk tayfaları ilə məskunlaşdırılmış, Cənubi Qafqazda türklərin yaşadığı ən qədim yurd yerlərindən biri olmuşdur. Borçalı bölgəsi öz tarixi, etnik tərkibi, siyasi keçmişi və mədəni dəyərləri ilə bütöv bir türk dünyasının güzgüsüdür. Bu ərazi tarix boyu türk tayfalarının həm coğrafi, həm də ideoloji mənada dayağı olmuşdur.

Bu gün də Borçalı türk kimliyinin yaşadığı və yaşadıldığı bir məkandır. Onun keçmişinə işıq tutmaq həm elmi, həm də milli vəzifə kimi qiymətləndirilməlidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bala M. Karapapak, İslam Ansiklopedisi, MEB Yay., C. 6.İstanbul,1977,s.330.
2. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: "Şərq-Qərb", 2007, 144 s.
3. Məmmədov K. Unudulan və unutdurulan tarix. "Borçalının səsi", №01,02-09 iyul 2005-ci il

LİSSABONDA QAZANILAN DİPLOMATİK UĞUR (1996-CI İL 2-4 DEKABR)

Səbuhi Mütalif oğlu Quliyev
doktorant
Bakı Dövlət Universiteti
quluyevsebuhi67@gmail.com

1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyini elan edən Azərbaycan 1992-ci ilin 30 yanvarında ATƏM-ə (1995-ci il 1 yanvar tarixinə qədər Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi, **red. - S.Q**) üzv qəbul olundu. Həmin vaxtda Azərbaycanın Dağlıq Qarabağ bölgəsində kəskinləşən erməni hücumları, torpaqların itirilməsi beynəlxalq arenanın diqqətindən yayınmadı. Əsas qayəsi Avropada sülhü, təhlükəsizliyi qorumaq və müharibələrsiz bir dünya nizamı formalaşdırmaq olan ATƏT Dağlıq Qarabağ münaqişəsinin də siyasi yolla həlli sahəsində bir sıra işlər görmüşdür. Təzahür edən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə, diplomatik vasitələrlə həllinə nail olmaq üçün 1992-ci il martın 24-də ATƏT-in Minsk qrupu yaradıldı. 1994-cü il 4-6 dekabr tarixlərində ATƏT-in baş tutan Budapeşt sammitində ölkə rəhbərləri arasında birbaşa danışıqların vacibliyi, Minsk qrupunun bu prosesin təşkilində fəaliyyətinin intensivləşdirilməsi qərara alındı. Lissabon sammitinə qədər keçən 2 il ərzində Ermənistan-Azərbaycan prezidentləri arasında münaqişəyə son qoyulması, atəşkəsin möhkəmləndirilməsi sahəsində uzun müzakirələr gedib. Keçən 2 il ərzində baş verən proseslər barədə Ulu öndər Heydər Əliyev belə qeyd edib: *"Budapeştdən Lissabona qədər keçən dövrü çox yaxşı qiymətləndirirəm"* [2, s. 86-87].

Hələ Lissabonda keçiriləcək yüksək səviyyəli görüş ilə əlaqədar Azərbaycan Prezidenti Heydər Əliyev noyabr ayının 6-da ATƏT-in iştirakçısı olan ölkələrin dövlət və hökümət başçılarına xüsusi məktub göndərmişdir. Məktubun məzmunu məhz Budapeşt sammitindən sonra Ermənistan-Azərbaycan münaqişəsinin hərtərəfli təhlil olunması, Portuqaliyanın paytaxtı Lissabonda keçiriləcək növbəti sammitdə bu barədə ciddi qərarların qəbul edilməsinin zəruriliyinə həsr olunmuşdur. Alınan cavab məktublarında ABŞ, Fransa, Böyük Britaniya, Türkiyə və digər dövlətlərin rəhbərləri Azərbaycanın təkliflərinin məzmunu ilə dərindən tanış olaraq bunlara yüksək qiymət verdilər. Bu vəziyyət isə artıq Lissabonda Azərbaycanın ədalətli mövqeyi ilə bağlı son dərəcə vacib qərarların qəbul ediləcəyindən xəbər verirdi [5, s.2].

1-2 dekabr tarixlərində Prezident Heydər Əliyevin bir sıra dövlət və hökümət başçıları, nümayəndələri ilə görüşü Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Həmçinin, bağlı qapılar arxasında dekabrın 2-də Ermənistan prezidenti Levon Ter-Petrosyanla Heydər Əliyevin görüşü zamanı növbəti dəfə Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları müzakirə edildi [3, s.220].

Danişiqların davamı olaraq dekabr ayının 3-də Zirvə görüşünün yekun iclası zamanı Azərbaycanın təklif etdiyi 3 prinsip bunlardan ibarət idi:

1. Azərbaycan Respublikası və Ermənistan Respublikasının ərazi bütövlüyü;
2. Dağlıq Qarabağa Azərbaycanın daxilində ən yüksək özünüidarəetmə status hüququ;
3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi.

Həmin prinsiplər Sammitin bəyannaməsinin 20-ci bəndi olaraq müəyyən olundu [8].Lakin Ermənistan rəhbərliyi bu bəndə hələ yekun iclasdan əvvəl keçirilən danışıqlar zamanı konsensus verməyəcəyini, bu bəndi qəbul etməyəcəyini bildirdi.

Buna cavab olaraq, Heydər Əliyev öz veto hüququndan istifadə edərək zirvə görüşü bəyannaməsinin qəbul olunmasına razılıq verməyəcəyini elan etdi. Bu isə 55 ölkənin dövlət və hökümət başçıları, rəsmilərinin iştirakı ilə keçirilən sammitin heç bir nəticəyə gəlinməyərək, uğursuz yekunlaşması demək olacaqdı [1, s.95].

Yaranmış vəziyyətdə ABŞ vitse-prezidenti Albert Qor Portuqaliyanın Baş naziri Antonio Qutyerresin sədrliyi ilə keçirilən yekun iclasda 20-ci maddənin mahiyyətinin bəyannamənin ümumi sənədindən götürülərək bunun ATƏT-in indiki sədrinin bəyanatına daxil edilməsini xahiş etdi. ATƏT-in sədri Flavio Kotti həmin təklifi yüksək qiymətləndirərək, Cənab Prezident Heydər Əli-

yevdən onun mövcud şərtlərlə bəyannamə üzərində qoyduğu kvadrat şəkilli mötərizələrin götürülməsinin mümkünlüyünü soruşduqda Heydər Əliyev buraya toplaşmış və iki gün ərzində Avropada təhlükəsizliyin və əməkdaşlığın çox mühüm məsələlərini müzakirə etmiş həmkarlarına olan hörmətini ifadə edərək, buna razılıq verdi. ATƏT sədri bütün iştirakçılar adından həmin prinsiplərin qəbul olunduğunu və dəstəkləndiyini bildirərək Lissabon sammitinin sənədlərinə daxil ediləcəyini bildirdi. Ermənistan istisna olmaqla sammitin 53 ölkəsi tərəfindən həmin prinsiplər qəbul olundu. Azərbaycanın həyata keçirdiyi fəal xarici siyasətin, Ümummilli lider Heydər Əliyevin uzaqgörən, sarsılmaz və qətiyyətli addımlarının nəticəsində Azərbaycanın Ermənistanın məkrli planlarının həyata keçirilməsinə yol verilmədi. Məhz sonrakı illərdə Lissabon sammitinin nəticələrindən bəhs edərkən *"diplomatik uğursuzluqlarımızın bünövrəsi məhz Lissabon sammitində qoyuldu",* - deyə qeyd edib [6, s. 2].

Lissabon sammitindən Azərbaycan üçün bir sıra əhəmiyyətli hadisələrə yol açdı:

1. **Azərbaycanın haqq səsi beynəlxalq səviyyədə tanındı** – Ölkə dünya ictimaiyyətinə torpaqlarının 20%-nin işğal altında olduğunu və bir milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrildiyini çatdırd;
2. **Beynəlxalq dəstək təmin edildi** – ATƏT-in 53 üzv dövləti, Ermənistan istisna olmaqla, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədi;
3. **Ermənistanın siyasi iflası** – Özünü "əzilən xalq" kimi təqdim etməyə çalışan Ermənistanın planları iflasa uğradı, beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı mövqeyini təsdiqlədi;
4. **Azərbaycanın sülhsevər mövqeyi təsdiq olundu** – Zirvə görüşü Ermənistanın təcavüzkar siyasətini ifşa etdi və Azərbaycanın münaqişənin sülh yolu ilə həllinə sadiq olduğunu nümayiş etdirdi.

Nəticə

Lissabon Sammiti Azərbaycanın diplomatik uğurlar tarixində mühüm dönüş nöqtələrindən biri kimi yadda qaldı. Bu sammit Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq müstəvidə müzakirəyə çıxarılması və Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyırdı. Sammitdə Heydər Əliyevin nümayiş etdirdiyi prinsipial mövqe və diplomatik məharət nəticəsində Azərbaycanın təklif etdiyi üç əsas prinsip – ölkənin ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusunun verilməsi və bölgənin bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi – ATƏT tərəfindən qəbul edildi. Bu, Azərbaycanın ərazi bütövlüyü prinsipinin beynəlxalq ictimaiyyət tərəfindən tanındığını və dəstəkləndiyini təsdiqlədi.

Bununla yanaşı, sammitdə Ermənistanın qeyri-konstruktiv mövqeyi və kompromisdən imtina etməsi açıq şəkildə göründü. Ermənistan rəhbərliyi Azərbaycanın təklif etdiyi prinsiplərə konsensus verməkdən imtina edərək, bölgədə sülhün bərqərar olması üçün aparılan beynəlxalq səylərə mane oldu. Lakin Ermənistanın bu cəhdi uğursuzluqla nəticələndi. Azərbaycanın qətiyyətli diplomatik addımları sayəsində ATƏT-in 53 üzv dövləti, Ermənistan istisna olmaqla, Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəklədi və bu yanaşmanı qəbul etdi.

Zirvə görüşünün yekun bəyannaməsində Azərbaycanın təklif etdiyi prinsiplərin yer almasına Ermənistan mane olmağa çalışsa da, Heydər Əliyevin veto hüququndan istifadə edəcəyini bəyan etməsi vəziyyəti Azərbaycanın xeyrinə dəyişdi. ABŞ vitse-prezidenti Albert Qor və ATƏT sədri Flavio Kottinin təşəbbüsü ilə həmin prinsiplər sammitin rəsmi sənədlərinə daxil edildi.

Lissabon Sammitinin qərarları sonrakı illərdə Azərbaycanın diplomatik fəaliyyətində mühüm rol oynadı. 30 il sonra, 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Qələbə Lissabon Sammitində qəbul edilən prinsiplərin real şəkildə icrası oldu. Azərbaycan bu prinsipial mövqeyi sayəsində öz ərazi bütövlüyünü tam bərpa etdi və beynəlxalq hüquq çərçivəsində haqqını təmin etdi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev H.Ə. ATƏT-in Lissabon zirvə görüşünün yekun iclasında nitq. 3 dekabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab,

2. Əliyev H.Ə. ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon zirvə toplantısında iştirak etmək üçün yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərə verdiyi bəyanat. 30 noyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.86-87.
3. Həsənov Ə, Şahməmmədov Ş, Lissabon sammiti-1996, Bakı: Azərnəşr, 1997, 312 s.
4. Qasımlı M, Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), Bakı: Mütərcim, 2015, 648 s.
5. Mirzəbəyli İ, 2-4 dekabr 1996-cı il: Azərbaycan diplomatiyasının Lissabon qələbəsi, Bakı: Xalq qəzeti, 3 dekabr 2024, № 266, 3 s.
6. Məmmədov S. Lissabon sammiti: Ermənistanın ağır məğlubiyyətinin başlanğıcı, Xalq qəzeti, 3 dekabr 2020, 3 s.
7. https://www.osce.org/mc/39539
8. https://www.osce.org/files/f/documents/1/0/39539.pdf
9. https://www.cvce.eu/content/publication/2003/2/21/968bae91-2288-432f-b3be-6916f927a73c/publishable_en.pdf

HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI: AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ QARDAŞLIQ VƏ STRATEJİ ƏMƏKDAŞLIQ

Günel Yalçın qızı Yusibova
dissertant
Gəncə Dövlət Universiteti
gunel.yusibova@gdu.edu.az

Ümummilli lider Heydər Əliyev Türk dünyası ilə əlaqələrin inkişafına xüsusi önəm verirdi. O, Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk illərdən etibarən türkdilli dövlətlərlə siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişlənməsini xarici siyasiətin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdi. Heydər Əliyev dəfələrlə vurğulayırdı ki, "bizim köklərimiz, dilimiz, dinimiz birdir, bizim aramızda heç bir süni sərhəd ola bilməz" [2]. Türk dünyasının isteqrasiyası ideyası onun fəaliyyətində strateji bir xətt kimi yer alırdı. Məhz onun təşəbbüsləri və qətiyyəti sayəsində Azərbaycan Türk Dövlətləri arasında körpü rolunu oynamağa başlamışdı. O, türkdilli ölkələrin dövlət başçılarının sammitlərinin təşəbbüskarlarından biri olmuş və bu formatın davamlı olmasına xüsusi diqqət yetirmişdir.

Azərbaycan-Türkiyə münasibətləri tarix boyu mədəni, etnik və dil baxımından ortaq köklərə əsaslanmış, müasir dövrdə isə strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Xüsusilə, XX əsrin sonlarında müstəqilliyini yenidən qazanan Azərbaycanın siyasi istiqamətini müəyyənləşdirmək və beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirmək prosesində Türkiyə ilə əlaqələrin gücləndirilməsi zəruri bir məsələ idi. Bu baxımdan, ümummilli lider Heydər Əliyevin rolu həlledici olmuşdur. Onun "Bir millət, iki dövlət" ideologiyası yalnız Azərbaycan-Türkiyə münasibətlərinin əsas sütununa çevrilməklə qalmamış, həm də türk dünyasının inteqrasiyası üçün ideoloji əsas formalaşdırmışdır. Türkiyə ilə yanaşı, Orta Asiya respublikaları – Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanla da münasibətlər dərinləşmiş, qarşılıqlı səfərlər və sazişlər sayəsində əlaqələr çoxşaxəli xarakter almışdı.

1990-cı illərdə regionda sabitliyin təmin olunması, nəqliyyat və enerji layihələrinin reallaşdırılması baxımından türkdilli ölkələrin əməkdaşlığı ulu öndər Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, türk dövlətləri arasında həmrəyliyi gücləndirmək üçün mədəni dəyərlərin paylaşımını da vacib sayır, ortaq tarix və mədəniyyətə əsaslanan birliyin möhkəmləndirilməsini siyasi və mənəvi borc kimi qiymətləndirirdi.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan ilə Türkiyə arasında münasibətlər təkcə siyasi sahədə deyil, həmçinin iqtisadi, hərbi və mədəni sahələrdə də dərinləşmiş, ortaq maraqlar üzərində qurulan strateji əməkdaşlıq çərçivəsində yeni mərhələyə qədəm qoymuşdur. Bu məqalədə

Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına verdiyi töhfələr qardaşlıq və strateji əməkdaşlıq kontekstində təhlil olunacaq.

Qeyd etdiyimiz kimi, Ümummilli lider Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinə baxışının əsasını "bir millət, iki dövlət" prinsipi təşkil edirdi. Bu ideya, tarixi, mədəni və dil birliyindən qaynaqlanan Azərbaycan-Türkiyə münasibətlərinin siyasi ifadəsi kimi meydana çıxmış və iki ölkə arasında qardaşlıq əlaqələrinin rəsmi səviyyədə tanınmasına xidmət etmişdir. Heydər Əliyev ilk dəfə bu ifadəni rəsmi şəkildə 1994-cü ildə Ankaraya səfəri zamanı dilə gətirmiş və o vaxtdan etibarən bu fikir hər iki ölkədə dövlətlərarası münasibətlərin əsas ideoloji çərçivəsinə çevrilmişdir. Onun sözlərinə görə: "Türkiyə və Azərbaycan ayrı dövlətlər ola bilər, amma bizim dilimiz, dinimiz, tariximiz birdir. Biz bir millət, iki dövlətik" [4].

Bu ideya təkcə diplomatik ritorika ilə məhdudlaşmayaraq, konkret siyasi qərarlarda və əməkdaşlıq platformalarında da öz əksini tapmışdır. Məsələn, Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı illərdə keçirilən Azərbaycan-Türkiyə dövlət başçılarının mütəmadi görüşləri zamanı bu prinsip əsas götürülərək strateji əməkdaşlığın müxtəlif istiqamətləri üzrə razılaşmalar əldə olunmuşdur. Bu ideoloji yanaşma yalnız Azərbaycan və Türkiyə arasında deyil, ümumilikdə türk dünyasının inteqrasiyası baxımından da önəmli idi. Ulu öndər Heydər Əliyev türkdilli dövlətlər arasında həmrəyliyin artırılması və Türk dünyasının beynəlxalq nüfuzunun gücləndirilməsi üçün dəfələrlə çağırışlar etmiş, bu məqsədlə keçirilən sammitlərdə fəal iştirak etmişdir [5].

Qeyd olunduğu kimi, Heydər Əliyevin siyasi kursunda Azərbaycan-Türkiyə münasibətləri xüsusi yer tuturdu. Onun hakimiyyətə qayıdışından sonra Türkiyə ilə münasibətlərin strateji əsasda inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri oldu. İlk növbədə, diploatik münasibətlər möhkəmləndirildi və qarşılıqlı səfərlər intensiv xarakter aldı. 1994-cü ildə Heydər Əliyevin Ankaraya rəsmi səfəri zamanı Azərbaycan-Türkiyə əlaqələrinin gələcək inkişafı üçün mühüm sənədlər imzalandı. Bu səfər iki ölkə arasında siyasi əlaqələrin yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir [6].

Ermənitan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində Türkiyənin Azərbaycana verdiyi siyasi dəstək Heydər Əliyevin diplomatik fəaliyyətində mühüm yer tuturdu. Onun fəaliyyəti dövründə Türkiyə Azərbaycanı daim dəstəkləmiş, xüsusilə Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir. Türkiyə Ermənistanla sərhədlərini bağlı saxlayaraq, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi və bu, Azərbaycan cəmiyyətində böyük rəğbətlə qarşı-landı. Heydər Əliyev isə beynəlxalq platformalarda Türkiyənin regionda sülhün təminindəki rolunu dəstəkləyir, onunla koordinasiyalı xarici siyasət yürüdürdü.

1990-cı illərin sonlarında türkdilli dövlətlərin əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasında da Azərbaycan-Türkiyə tandemi aparıcı rol oynadı. Heydər Əliyevin təşəbbüsü ilə təşkil olunan Türk Dövlətləri Zirvə görüşlərində Azərbaycan fəal iştirak etmiş, bu tədbirlər vasitəsilə Türk dünyasında siyasi həmrəylik gücləndirilmişdir. Bu baxımdan 1998-ci ildə Almatıda keçirilən Türk dövlətləri Zirvəsi mühüm əhəmiyyət kəsb edir və Heydər Əliyev burada çıxış edərək Türk birliyinin gələcək inkişaf yolları ilə bağlı mühüm fikirlər irəli sürmüşdür[3].

Azərbaycanın müstəqilliyinin ilk illərində ordu quruculuğu sahəsində ciddi problemlər mövcud idi. Heydər Əliyev bun sahədə islahatlara başlayarkən Türkiyə ilə hərbi əməkdaşlığı prioritet seçdi. 1996-cı ildə imzalanan hərbi əməkdaşlıq haqqında saziş bu sahədə hüquqi baza yaratdı. Türkiyənin tərcübəli hərbiçiləri Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırılmasında iştirak etdilər, Azərbaycan zabitlərinin Türkiyədə təhsil alması təmin olundu .[1]

Heydər Əliyevi rəhbərliyi ilə təşkil olunan birgə hərbi təlimlər, təhlükəsizlik üzrə məsləhətləşmələr və müdafiə sənayesində təcrübə mübadiləsi bu sahədə əməkdaşlığın sistemli və davamlı xarakter almasına səbəb oldu. Türkiyə Azərbaycanın NATO ilə münasibətlərində də vasitəçi rolunu oynadı və Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmasını dəstəklədi.

Heydər Əliyevin bu istiqamətdə atdığı addımlar, Azərbaycanın müstəqil və peşəkar orduya malik olması ilə nəticələndi ki, bu da sonrakı mərhələlərdə ölkənin hərbi potensialının güclənməsinə zəmin yaratdı.

Azərbaycan-Türkiyə münasibətlərinin mühüm sütunlarından biri də enerji sahəsində əməkdaşlıq idi. Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac

neft kəməri layihəsi, bu əməkdaşlığın kulminasiya nöqtəsi hesab olunur. 1990-cı ildə İstanbulda imzalanan BTC sazişi Azərbaycanın Xəzər neftini Türkiyə vasitəsilə dünya bazarına çıxarmaqla həm iqtisadi, həm də geosiyasi baxımdan mühüm nəticələrə gətirib çıxardı.

Bu layihə təkcə iqtisadi səmərəlilik deyil, həm də enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət kəsb edirdi. Heydər Əliyev BTC-ni "XXI əsrin enerji magistralı" adlandıraraq, onun Türk dünyasının birləşdirici faktorlarından biri olacağını vurğulamışdı.

Bundan əlavə, nəqliyyat, ticarət və investisiya sahələrində də əməkdaşlıq genişlənmiş, Türkiyə Azərbaycanda iri infrastruktur layihələrinin həyata keçirilməsində fəal iştirak etmişdir. Heydər Əliyev bu əməkdaşlığı "qardaş ölkənin Azərbaycanın inkişafında payı" kimi dəyərləndirirdi.

Qeyd olunan sahələrlə yanaşı, Heydər Əliyev türk dünyasının ortaq mədəni və mənəvi dəyərlərinin qorunmasını və inkişafını da prioritet hesab edirdi. O, dəfələrlə qeyd edirdi ki, Azərbaycan və Türkiyə yalnız din, dil və tarixi baxımdan deyil, həm də mədəni kimlik baxımından bir-birinə bağlı xalqlardır. Bu baxışa əsaslanaraq, hər iki ölkənin mədəni institutları arasında əlaqələrin genişlənməsinə şərait yaradıldı. 1990-cı illərdən başlayaraq azərbaycanlı tələbələrin Türkiyə universitetlərində təhsil alması üçün kvotalar ayrıldı. 1997-ci ildən etibaən TÜRKSOY çərçivəsində elm və mədəniyyət sahəsində ortaq layihələr həyata keçirildi.

Heydər Əliyev türk dilinin ortaq ünsiyyət vasitəsi kimi qorunmasını vacib hesab edirdi. Onun təşəbbüsü ilə Azərbaycanda latın qrafikalı əlifbaya keçid sürətləndirildi. Bu dəyişiklik Azərbaycan-Türkiyə mədəni inteqrasiyasını daha da gücləndirdi.

Nəticə

Ulu öndər Heydər Əliyevin siyasi irsi təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün mühüm əhəmiyyət daşıyır. Onun uzaqgörən siyasəti nəticəsində Azərbaycanın türkdilli dövlətlərlə münasibətləri əhəmiyyətli dərəcədə güclənmiş, bu əlaqələr qardaşlıq və strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir.

Ümummilli lider Heydər Əliyev türk dövlətləri arasında həmrəyliyin, mədəni və mənəvi birliyin, qaşılıqlı dəstəyin vacibliyini daim ön planda saxlamış, bu ideyaları real addımlarla möhkəmləndirmişdir.

Heydər Əliyev Azərbaycan-Türkiyə münasibətlərinin strateji təməllərinin yaratmaqla, bu əlaqələri yalnız dövrün siyasi maraqları ilə deyil, həm də tarixi və mənəvi bağlarla əsaslandırmışdır. Onun "Bir millət, iki dövlət" ideologiyası bu münasibətlərin ruhunu təşkil edərək, hazırda da hər iki ölkənin xarici siyasətində də önəmli yer tutur.

Heydər Əliyevin hakimiyyəti dövründə qurulan siyasi, hərbi və iqtisadi əməkdaşlıq mexanizmləri bu gün də davam etdirilir və daha da dərinləşir. Ulu Öndərin türk dünyası, xüsusilə də, Azərbaycan-Türkiyə münasibətləri üçün qoyduğu zəngin siyasi irs, müasir dövrdə də öz aktuallığını qoruyur.

Ulu öndər Heydər Əliyevin başlatdığı, onun layiqi davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin davam etdirdiyi bu strateji yol, gələcəkdə də Türk dünyasının regional liderliyi üçün əsas təşkil edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bakı-Türkiyə Müdafiə Sazişi. (1996). Azərbaycan Respublikası Müdafiə Nazirliyi Arxivi.
2. Əliyev, H.(1996). Türk dünyası ilə əlaqələr bizim üçün strateji xəttdir. Bakı: "Elm".
3. Əliyev, H. (1998). Türk Dövlətləri Zirvə Görüşündə çıxış. Almatı.
4. Əliyev, H. (2000). Çıxışlar, məruzələr və müsahibələr (1993-2000). Bakı: Azərnəşr.
5. Məmmədov, M. (2012). Türk dünyası və Azərbaycan-Türkiyə münasibətləri. Bakı: Elm və Təhsil.
6. Yalçın, A. (2005). Türkiye-Azerbaycan ilişkilerinde Stratejik Ortaklık. Ankara: TİKA

HEYDƏR ƏLİYEVİN TƏŞƏBBÜSÜ İLƏ HƏYATA KEÇİRİLƏN ELMİ İSLAHATLARIN MƏZMUNU

Arzu Nemət qızı Baxşəliyeva
Azərbaycan Dillər Universiteti
Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantı
arzubaxseliyeva555@gmail.com

Elmin inkişafı hər bir cəmiyyətin tərəqqisinin və davamlı yüksəlişinin əsas şərtlərindən biridir. Bu sahədə əldə olunan nailiyyətlər yalnız texnoloji tərəqqiyə deyil, eyni zamanda sosial, iqtisadi və mədəni inkişaflara da bilavasitə təsir göstərir. Elm və biliklər əsasında formalaşan cəmiyyətlər daha çevik, dayanıqlı və innovativ olur, gələcəyə inamla addımlayır. Məhz bu səbəbdən dünyanın qabaqcıl ölkələri elmi-texniki potensialın gücləndirilməsini və yüksək ixtisaslı kadrların hazırlanmasını strateji prioritet kimi müəyyənləşdirirlər. Bu yanaşma onların beynəlxalq rəqabət qabiliyyətini artırmaqla yanaşı, insan kapitalının səmərəli istifadəsinə və davamlı inkişafa zəmin yaradır.

Azərbaycan Respublikasının inkişaf tarixində isə elmin və təhsilin prioritet sahələrdən biri kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Onun uzaqgörən siyasəti nəticəsində elm və təhsil sahələri milli inkişaf strategiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Heydər Əliyev bu sahələri cəmiyyətin mənəvi və intellektual inkişafının dayağı kimi qiymətləndirir, onların davamlı inkişafını ölkənin gələcəyinin təminatçısı hesab edirdi. O, daim vurğulayırdı ki, təhsil və elmə qoyulan sərmayə əslində xalqın və dövlətin gələcəyinə qoyulan sərmayədir [1]

Ulu Öndər respublikanın elmi və təhsil mühitinin inkişafına xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində elmi müəssisələr modernləşdirilmiş, fundamental və tətbiqi tədqiqatların aparılması üçün zəruri şərait yaradılmış, gənclərin elmə marağı artırılmışdır. Elmin iqtisadiyyatla, sənaye ilə və ictimai həyatla qarşılıqlı əlaqəsi gücləndirilmiş, elmi ideyaların praktikaya tətbiqi üçün institusional baza formalaşdırılmışdır.

Heydər Əliyevin elmi strategiyası milli-mənəvi dəyərlərə əsaslanan, eyni zamanda beynəlxalq elmi məkanla inteqrasiyanı nəzərdə tutan bir model üzərində qurulmuşdu. Bu siyasət nəticəsində Azərbaycanda formalaşan elmi potensial bu gün də ölkənin inkişafının aparıcı qüvvələrindən biri kimi çıxış edir.

Heydər Əliyevin elmi islahatları sistemli və məqsədyönlü yanaşmaya əsaslanırdı. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın plenumunda Heydər Əliyevin birinci katib seçilərək, respublikaya rəhbərlik etməsi Azərbaycan tarixində dönüş nöqtəsi olmuşdur [2]. Bu dövrdən etibarən elm və texnologiyanın inkişafı onun siyasi gündəliyində mühüm yer tutmuşdur. Ulu Öndər bu sahəni ölkənin sosial-iqtisadi tərəqqisinin və intellektual potensialının yüksəldilməsinin təməl sütunlarından biri kimi qiymətləndirirdi. Onun rəhbərliyi ilə qəbul edilən qərar və sərəncamlar, həyata keçirilən təşəbbüslər Azərbaycanın elmi mühitində keyfiyyət dəyişikliyinin əsasını qoymuşdur.

Bu dövrdə elmi-tədqiqat institutlarının fəaliyyətinin səmərəliliyinin artırılması, onların müasir tələblərə uyğunlaşdırılması məqsədilə mühüm struktur islahatları həyata keçirilmiş, idarəetmə mexanizmləri təkmilləşdirilmiş, elmi idarələrin kadr potensialı gücləndirilmişdir. Eyni zamanda, elmi müəssisələrin maddi-texniki bazasının yenilənməsi və laboratoriyaların müasir avadanlıqlarla təchiz olunması istiqamətində böyük addımlar atılmışdır. Bu, tədqiqatçılar üçün daha əlverişli iş şəraiti yaratmaqla yanaşı, elmi fəaliyyətin praktiki nəticələr verməsinə də zəmin yaratmışdır.

Bununla yanaşı, elmin sənaye ilə inteqrasiyasına xüsusi diqqət ayrılmışdır. Fundamental və tətbiqi elmin inkişafı paralel şəkildə stimullaşdırılmış, iqtisadiyyatın ehtiyaclarına cavab verən araşdırmaların aparılması təşviq olunmuşdur. Bu isə öz növbəsində, elmin yalnız nəzəri deyil, həm də praktiki fayda gətirən bir sahəyə çevrilməsinə səbəb olmuşdur.

Heydər Əliyevin elmi islahatları təkcə institutların yenidən qurulması ilə məhdudlaşmamışdır. O, elm adamlarının sosial statusunun artırılması, onların cəmiyyət içində nüfuzunun yüksəldilməsi,

eləcə də gənc nəslin elmə cəlb olunması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirmişdir. Məhz bu sistemli yanaşma nəticəsində Azərbaycanda elmi mühitin dirçəlişi baş vermiş və yeni intellektual təbəqənin formalaşmasına təkan verilmişdir.

Müstəqillik əldə olunduqdan sonra Azərbaycan elmi yeni çağırışlarla üz-üzə qaldı. Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə elmi idarəetmənin yenidən təşkili prosesi başlandı. Azərbaycan Milli Elmlər Akademiyası əsas elmi mərkəz kimi qorunub saxlanıldı və onun fəaliyyətinin müasirləşdirilməsi üçün islahatlar həyata keçirildi. Akademiyanın institutlarında fundamental və tətbiqi tədqiqatlara daha çox üstünlük verildi, elmi istiqamətlər üzrə prioritet sahələr müəyyən olundu [5].

Heydər Əliyev elmi yalnız nəzəri biliklərin toplusu kimi deyil, eyni zamanda cəmiyyətin inkişafına töhfə verən praktik güc kimi qiymətləndirirdi. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində tətbiqi xarakterli tədqiqatlara geniş yer verildi. Sənaye, kənd təsərrüfatı, tibb, ekologiya və digər sahələrdə elmi nəticələrin praktiki tətbiqinə şərait yaradıldı. Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan elmi dünya elmi ictimaiyyəti ilə əlaqələrini genişləndirdi. Elmi jurnalların nəşrinin stimullaşdırılması, beynəlxalq konfransların keçirilməsi və Azərbaycan alimlərinin xarici elmi mərkəzlərlə əməkdaşlığı dövlət səviyyəsində dəstəkləndi. Bu isə elmin beynəlxalq nüfuzunun artmasına şərait yaratdı.

Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən elmi islahatlar, Azərbaycanın elmi və texnoloji inkişafına yönələn ən əhəmiyyətli addımlardan biri olmuşdur. Onun liderliyi ilə aparılan islahatlar yalnız ölkənin elmi mühitini yenidən qurmaqla kifayətlənməmiş, həm də Azərbaycanın beynəlxalq elmi arenada mövqeyini möhkəmləndirmişdir. Ulu Öndər Heydər Əliyev elmi, cəmiyyətin inkişafında mühüm yer tutan bir amil kimi qəbul edirdi və bu sahəyə verilən hər bir töhfə, ölkənin iqtisadiyyatı, sosial həyatı və mədəni inkişafı üçün vacib hesab olunurdu. Elmi islahatlarının əsas məqsədi müstəqillik dövründə Azərbaycan elmini dünya elmi ilə inteqrasiya etmək, yeni tədqiqat sahələrində yerli alimlərin daha fəal iştirakını təmin etmək və müasir elmi tələblərə cavab verən infrastrukturların qurulması idi. Bu məqsəd doğrultusunda bir sıra elmi-tədqiqat institutları müasir avadanlıqlarla təchiz olunmuş, elmi işlərin tətbiqi sahələrində geniş imkanlar açılmışdır. Ulu Öndər bu istiqamətdə həm elmi müəssisələrin maddi-texniki bazasının gücləndirilməsini, həm də elmi işçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasını vacib hesab edirdi [7].

Ulu Öndər elmin yalnız nəzəri cəhətlərini deyil, həm də onun praktiki tətbiqini ön plana çəkirdi. Bu yanaşma elmin daha məhsuldar, daha funksional olmasını təmin etdi. Onun təşəbbüsü ilə elmi tədqiqatların, xüsusən də tətbiqi elmlərin sənayelə, kənd təsərrüfatına, tibb və ekoloji sahələrə yaxınlaşması təşviq edildi. Bu yanaşma sayəsində Azərbaycanda bir çox yeni texnologiyalar tətbiq edildikcə, iqtisadiyyatın müxtəlif sahələrində müsbət nəticələr əldə olundu.

Beləliklə, Heydər Əliyevin elmi islahatları Azərbaycanın elmi mühitinin müasirləşdirilməsi və inkişafında həlledici rol oynamış və gələcək nəsillər üçün möhkəm bir elmi təməl qoymuşdur. Bu islahatlar yalnız elmin inkişafını deyil, həm də cəmiyyətin ümumi inkişafını dəstəkləyən, iqtisadiyyatın daha rəqabət qabiliyyətli və dinamik olmasına şərait yaradan əsas amilə çevrilmişdir. Bu irs, Azərbaycan elminin gələcək inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyeva, F. (2013). *Azərbaycan elmi Heydər Əliyev mərhələsində*. Bakı: Elm., səh 45
2. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA). (2009). *Azərbaycan elminin inkişafı: tarix və müasirlik*. Bakı: Elm., səh 112
3. http://www.anl.az/down/meqale/iki_sahil/2017/may/540456.htm
4. https://www.researchgate.net/publication/374530234_Azrbaycan_elminin_inkisafinda_Heydr_liyevin_rolu
5. http://www.anl.az/down/meqale/azerbaycan/2015/may/436295.htm
6. https://report.az/analitika/heyder-eliyevin-islahatlari-iqtisadi-liderliye-aparan-yol/

http://www.n/374530234_Azrbaycan_elminin_inkisafinda_Heydr_liyevin_rolu/links/65215f30fc5c2a0c3bbe5889/Azrbaycan-elminin-inkisafinda-Heydr-liyevin-rolu.pdf

HEYDƏR ƏLİYEVİN HÜSEYN CAVİD DÜNYASINA TƏSİRİ

Səbinə Fəxrəddin qızı Dünyamalıyeva
dissertant
Naxçıvan Müəllimlər İnstitutu
sabinadnyml@gmail.com

"Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə!"
(Heydər Əliyev)

Ölkəmizin qədim güşələrindən biri – qədim Nuh yurdu olan Naxçıvan Azərbaycan ədəbiyyatına, siyasətinə unikal şəxsiyyətlər bəxş etmişdir. Belə tarixi şəxsiyyətlər sırasında Azərbaycan xalqının Üümummilli lideri Heydər Əliyev və böyük mütəfəkkir-şair Hüseyn Cavid xüsusi mövqelərə sahibdirlər. "Hüseyn Cavid romantik ədəbiyyatımızın nə qədər dahi sənətkarıdırsa, Heydər Əliyev də dövlətçiliyimizdəki romantik vüsətin o qədər böyük memarı və qurucusudur" [2, s.41].

Ensiklopetik sənətkar olan Heydər Əliyev Turan Cavidlə olan söhbətində bildirmişdir ki, onun Cavid ailəsi ilə tanışlığı uşaqlıq illərinə təsadüf edir. Cavidin böyük qardaşı Şeyx Məhəmməd Naxçıvanda onun ilk ana dili müəllimi olmuşdur və Heydər Əliyev Azərbaycan dilinin incəliklərini Şeyx Məhəmməddən öyrənmişdir. Ulu Öndər xatirələrinin birində Ərtoğrul Cavidi və Cavidin həyat yoldaşı Mişkinaz xanımı da gəncliyində gördüyünü qeyd edirdi. Bu faktlar sübut edir ki, Heydər Əliyev Cavid ailəsi və Cavid fəlsəfəsi ilə uşaqlıq, gənclik dövrlərindən tanış idi. Bu tanışlıq və Heydər Əliyevin milli-mənəvi dəyərləri özündə əks etdirən ədəbiyyata bağlılığı Cavid taleyinə təsirsiz ötüşməmişdir. Belə ki, XX əsr Azərbaycan ədəbiyyatının, romantizm ədəbi cərəyanının unikal şəxsiyyətlərindən biri olan Hüseyn Cavid 1882-ci ildə anadan olmuşdur. Ancaq bir sənətkar, şəxsiyyət kimi həm cismən, həm də ruhən vətəni ilə bütövləşməsi, Cavid fəlsəfəsinin "anadan olması" 1993-cü ildə – Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra baş vermişdir. Çünki milli poeziyamızda fəlsəfi lirikanın təkrarsız nümunələrini yaratmış şair-dramaturq ideya raporunu "Hübuti-Adəm", "Şeyx Sənan", "Topal Teymur", "Peyğəmbər", "İblis", "İblisin intiqamı", "Azər" və s. kimi əsərləri ilə oxuculara təqdim edirdi. Turançılığın, türkçülüyün qəbul edilmədiyi Sovet dövründə yazıb-yaradan şair-dramaturq 1937-ci ildə "millətçi", "əksinqilabçı", "antisovet təbliğatında iştirakı"na görə repressiyanın qurbanı olmuş və uzaq Sibirə sürgün edilmişdir. Cavidin əsərləri tənqid və qadağan edilmiş, ailəsi daim təqiblərə məruz qalmışdır. Hüseyn Cavid ölümündən sonra 1956-cı ildə bəraət almasına baxmayaraq nə şairin nəşi vətənə gətirilmiş, nə də Cavid yaradıcılığına layiq olduğu qiymət verilmişdir. Yalnız 1981-ci il iyulun 21-də–Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə (1969-1982-ci illər) ulu öndərin səyi və rəhbərliyi ilə Azərbaycan KPMK, Azərbaycan Nazirlər Soveti Hüseyn Cavidin 100 illiyi haqqında qərar qəbul etdi [1]. Qərarda Cavidin nəşinin vətənə qaytarılması, məqbərəsinin və ev-muzeyinin yaradılması, Naxçıvanda və Bakıda heykəllərinin qoyulması, əsərlərinin dərc olunması nəzərdə tutulurdu.

1982-ci il oktyabrın 26-da Hüseyn Cavidin nəşi Moskvadan Bakıya, sonra isə Naxçıvana gətirildi və nəşi Naxçıvanda– evinin qarşısında dəfn edildi. Ancaq qərarda nəzərdə tutulan digər müddəalar 1982-ci ildə həyata keçirilmədi. Cavidin məqbərəsi bu əmr imzalanandan yalnız 15 il sonra –29 oktyabr 1996-cı ildə cavidsevərlərin ixtiyarına verildi. Cavid məqbərəsinin açılışında Yaşar Qarayev demişdir: "Şərqdə türbələri iki cür tikmişlər. Şairlər sözdən məqbərə tikmişlər. Dövlət rəhbərləri, siyasət ərləri həmin məqbərələri sonralar qranitdən, qaya parçasından tikmişlər... Mən bu gün bu məbədə baxıram. Bir məbəd yox iki məbəd görürəm, bir memar yox iki memar – böyük mənəvi bir mənada"[7, s.3]. Bu məbədin əsas memarı ulu öndər Heydər Əliyev idi. Həmin tarixi günü xatırlayan xalq şairi Mirvarid Dilbazi Heydər Əliyevə ithaf etdiyi "Oğul qeyrəti" şeirində yazırdı:

Cavidi vətənə gətirən oğul,
Onu öz xalqına yetirən oğul,

Xalqının misilsiz qayğılarını
Öz çiyni üstünə götürən oğul,
Varolsun bu oğul qeyrətin sənin! [4, s.56]

Azərbaycan xalqının ümummilli lideri siyasi hakimiyyətinin bünövrəsini milli ideologiya konsepsiyasına söykənən azərbaycançılıq, turançılıq idealları üzərində qurmuşdur. Ulu öndər demişdir: "...Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi" [8, s.102].

Heydər Əliyevin Cəlil Məmmədquluzadə haqqında dediyi fikirləri Hüseyn Cavid yaradıcılığına da aid etmək mümkündür. Çünki oxucu C.Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq ideologiyası ilə, H.Cavid əsərlərində turançılığın, türkçülüyün milli ideoloji konsepsiya kimi təbliği ilə rastlaşır. Milli özünüdərk məsələsini siyasi ideologiya səviyyəsinə qaldırmağı bacaran Heydər Əliyev qeyd edirdi ki, milli özünüdərk, milli oyanış, dirçəliş prossesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. Milli "mən" yaddaşına və şüuruna biganə qalmamaq cəmiyyətdə əbədi, sabit müstəqilliyin, suverenliyin taleyinə və gələcəyinə də biganə qalmamağın şərti və zəmini olub [6, s.125]. Buna görə də əsərlərinin mövzu və ideyasını bu zəmin üzərində quran Cavid əsərləri hər bir azərbaycanlı üçün dəyərlidir.

Fəlsəfədə idealist filosoflar vurğulayırlar ki, dünyanı idealar idarə edir. Böyük ideallar şairi olan Hüseyn Cavid XX əsrin əvvəllərində yaşadığı dövrün stereotiplərindən kənara çıxaraq əsərlərində demokratizmi, azadlığı, hürriyyəti, turançılığı, tolerantlığı, milli əqidəyə söykənən müasirliyi təbliğ edirdi. Şair-dramaturq Şərqin milli mənəvi dəyərlərini, keçmişini, fəlsəfəsini, türklərin cəsurluğunu, anlı-şanlı tarixini, Şərq ənənənələrini-zərdüştlik, islami dəyərləri "Hübuti Adəm", "Azər", "Şeyx Sənan", "Siyavüş", "İştə bir divanədən bir xatirə", "Dəniz tamaşası", "Türk əsirləri", "Topal Teymur", "Peyğəmbər" və s. əsərlərində baş qəhrəman kimi təqdim edirdi desək, yanılmarıq. Ancaq ictimai düşüncəyə, maarifçi mühitə təsir göstərən bu əsərləri Sovet hakimiyyəti dövründə bir çox ədəbiyyatşünaslar təhrif edilmiş şəkildə araşdırırdı. Çünki Sovetlər dövründə ədəbiyyatşünaslar hökümətdən qorxduqları üçün bu əsərlərə layiq olduğu dəyəri verə bilmirdilər, şairin şeir, poema və dramlarında ya Şərq izlərini gizlətməyə çalışırdılar, ya da bu izləri tənqid edirdilər.

Ümummmilli Lider Azərbaycan Respublikasında hakimiyyətə gələndən sonra Cavid əsərləri alimlər tərəfindən qorxmadan, düzgun formada təhlil edildi və əsərlərindəki Şərq izləri açıqca nümayiş etdirildi. Turan Cavid qeyd edirdi ki, "Heydər Əliyevin atama münasibəti elə bil insanlara cəsarət verdi. Onun haqqında məqalələr, namizədlik dissertasiyaları yazıldı" [5. s,50].

Şərq izlərini, islami dəyərləri özündə birləşdirən "Şeyx Sənan" əsəri bu cəhətdən Cavidin dəyərli dram əsəridir. Qeyd etmək lazımdır ki, Cavid yaradıcılığına heyran olan dövlət xadimi məktəbdə "Şeyx Sənan" tamaşasında Sənan rolunun ifaçısı da olmuşdur. 1914-cü ildə – birinci dünya müharibəsinin başladığı dövrdə yazılan "Şeyx Sənan" əsəri multikulturalizmin təbliği cəhətdən dəyərli əsərlərdəndir. Bu fəlsəfi əsərdə müsəlman Sənanın xristian qızı Xumara olan sevgisi fonunda vahid din ideyasının tərənnümü ilə qarşılaşırıq. Ancaq əsər bir çox ədəbiyyatşünaslar tərəfindən tənqid edilmişdir. Hənəfi Zeynallı "Şeyx Sənan haqqında mülahizələrim" məqaləsində yazırdı: "Sənan ruhu ilə Cavid ruhunda araşdırmaqda olduğumuz müddətdə bir eyniyyət vardı. Daha doğrusu, bir mahiyyətdə idi. Hər ikisində əvvəlcə dindarlıq, sonra şübhələr fırtınası və nəhayət, məhəbbət və eşq yolunda "dini-imanı satmaq" kimi bir fədakarlığa cəsarət etməkdi" [3, s.138] fikirləri ilə əsəri tənqid edərək Cavidi ateist, milli dəyərləri əxz etdirməyən, "dini-imanı satan" sənətkar kimi dəyərləndirmişdir. Filosof şair faciədə dini-imanı satmırdı. Əksinə, beynəlmiləlçilik ideyasının daşıyıcısı olan Cavid Sənanın dili ilə "Birsə həqq cümlə din də bir" [9, s.165] söyləyərək, dini və milli ayrıseçkiliyə qarşı çıxırdı. İnsani dəyərləri məhəbbətdə görən Hüseyn Cavid "Məhəbbətdir ən böyük din" fikirləri ilə tolerantlığı, multikultural ənənələrin

təbliğinə çalışırdı. Ümumbəşəri ideyalara – tolerantlığa önəm verən Heydər Əliyevin siyasi idealogiyasından sonra bu əsər də öz layiqli qiymətini almağı bacardı.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda tarixən polietnik və müxtəlif dinli xalqlar yaşamışdır. Ulu Öndər də siyasi fəaliyyətində tolerantlığa yüksək qiymət vermişdir. Heydər Əliyev hər zaman islam dininə və bu dinin etik-estetik dəyərlərini yüksək qiymətləndirmişdir. Dövlət xadimi hakimiyyəti dövründə Azərbaycanda çoxlu məsçidlər tikdirmiş, Məkkə və Mədinə şəhərlərinə ziyarətə getmiş və vətənində islam dini ənənələrini yaşatmağa çalışmışdır. Elə bu baxımdan da Heydər Əliyev "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumundakı nitqində deyirdi: "Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç vaxt başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir"[5, s.352].

Ulu Öndərin din mövzusunda göstərdiyi tolerant mövqe Ali qanunumuzda da əks olunmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının 3-cü fəslinin Milli mənsubiyyət hüququndan bəhs edən 44-cü maddəsində yazılır: "Hər kəsin milli mənsubiyyətini saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz" [10]. Heydər Əliyev siyasətini davam etdirən İlham Əliyev də multikultural ənənələrə önəm vermiş və 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi buna bariz nümunədir.

Yuxarıda qeyd etdiyimiz fikirlər sübut edir ki, Heydər Əliyev xalqını işıqlı gələcəyə çıxartmaq üçün elmə, ədəbiyyatda sənət və sənətkara qiymət verirdi. "Heydər Əliyevin ifasında və icrasında həmişə siyasət də sənət, siyasətçidə sənətkar səviyyəsinə qalxa bilir. Məhz siyasət əməldə, hərəkətdə fəlsəfəyə çevriləndə siyasətçidə sənətkara çevrilir" [6, s.129].

Nəticə olaraq deyə bilərik ki, milliliyə, türkçülüyə və tolerantlığa bağlı olan Hüseyn Cavid sənətkarlığı, bu dəyərləri öz mənliyində yaşadan və dövlətçilik təlimində xalqına təlqin edən ulu öndərimiz Heydər Əliyev siyasəti həm də sənətkar və rəhbər bağlılığının göstəricisinə çevrilmişdir. Ulu Öndərimizin Hüseyn Cavid ailəsinə, həmçinin mütəfəkkir şairin birbaşa özünə və yaradıcılığına olan sevgisi onun bu sahədəki qərarlarında da öz əksini tapmış, Cavidlə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlərdə bu özünü bir daha nümayiş etdirmişdir. Hətta Ulu Öndərimizin layiqli davamçısı, ölkə başçısı, cənab İlham Əliyevin də rəhbərliyi dövründə Cavid irsinə və Cavid yaradıcılığına hörmət və ehtiram davam etdirilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamı ilə 2007-ci ildə Hüseyn Cavidin 125 illik yubileyi, 16 fevral 2012-ci il tarixli sərancamı ilə 130 illiyi yüksək səviyyədə keçirilmişdir. Keçən il isə Hüseyn Cavidin 140 illik yubileyi ölkə Prezidentinin 24 sentyabr 2022-ci il tarixli sərancamı ilə dövlət səviyyəsində, geniş miqyasda qeyd edilmişdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan KP Mərkəzi komitəsində// "Ədəbiyyat və İncəsənət" qəz., 1981, 24 iyul, №30[1957]
2. Babaxanlı G. Hüseyn Cavid və Heydər Əliyev. Bakı:Proqres, 2013, 144s.
3. Cavidi xatırlarkən (Hüseyn Cavid haqqında məqalə və xatirələr toplusu). (Tərtib edəni İsgəndər Orucəliyev). Bakı: Zərdabi, 2012, 592s.
4. Dilbazi M. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 280s.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. 28 cilddə, III c., Bakı: Azərnəşr, 2006, 379 s.
6. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı: Elm,1998, 177s.
7. Heydər Əliyev və repressiya ədəbiyyatı // "Mədəni maarif" jur., 2009, №12, s. 15-18.
8. Heydər Əliyev. Müstəqillik yolu(Seçilmiş fikirlər). (Tərtib edənlər: Şahlar Əsgərov və Səlahəddin Xəlilov). Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997, 136 s.
9. Hüseyn Cavid. Əsərləri (Tərtib edəni Turan Cavid).5 cilddə, II c., Bakı:Lider, 2005 , 353s.
10. https://www.e-qanun.az/framework/897

AN ATTEMPT TO PEACEFULLY RESOLVE THE TERRITORIAL ISSUES OF THE KARABAKH REGION OF AZERBAIJAN IN 1918 AND 2020

Sugra Orujova
National Museum of History of Azerbaijan
doctoral student at Baku State University
sugrau@mail.ru

After the February Revolution in Russia, the national liberation movement began in Azerbaijan in February 1917, and the Azerbaijan Democratic Republic was established in May 1918. On May 28, 1918, after almost 100 years of Russian rule, the Azerbaijani people founded a new independent state in the North of Azerbaijan, which was of great importance for today's Azerbaijan [6, p.88].

The establishment of the Republic of Azerbaijan corresponded to the desire of the people, who lived under the national colonial enslavement of tsarism, to create their own national state. The Azerbaijan Democratic Republic, which occupies a unique place in the history of our people and national statehood, emerged during a difficult period and functioned in very difficult conditions. This newly created young state existed for only 23 months and, as in other areas, has done significant work to preserve the territorial integrity of the country. Since the first days of its existence, the Republic of Azerbaijan has actively and seriously fought for the preservation of its territorial integrity and the inviolability of its borders.

The discrepancy between the administrative-territorial division and the national composition of the population inherited from tsarism led to acute contradictions in defining the borders between the newly formed republics of Azerbaijan, Georgia and Armenia. In the early days of its activity, the Government of Azerbaijan approached its neighbors with a proposal to discuss this issue and reach an agreement in trilateral negotiations before declaring the territory of each republic separate, in order to prevent a conflict situation in the border issue and establish good neighborly relations.

The Armenian nationalist separatist forces followed this path in their claims to Nagorno-Karabakh and launched a war against both Azerbaijan and Georgia in order to create a "Greater Armenia" at the expense of Azerbaijani and Georgian lands. (On November 10, 2020, President of the Republic of Azerbaijan Ilham Aliyev, in an address to the people, announced the abolition of the status of Nagorno-Karabakh. And thus, at present, the term "Nagorno-Karabakh" It is not used as a political and geographical term.)

In 1918-1920, the Dashnak government advocated waging unfair wars against Turkey, Azerbaijan, and Georgia. This struggle unfolded primarily in Armenia against the Azerbaijanis living on their ancestral lands. They were massively evicted from their homes. As a result of the use of weapons against the civilian population, Azerbaijanis fled to the mountains and other places.

In a note sent by the Government of Armenia, the Prime Minister of the Azerbaijan Democratic Republic, F.H. Khoysky, stated that the policy of aggression against Azerbaijanis must be finally stopped. However, it was not possible to restore relations [4, 136-137].

The Azerbaijani Parliament has proposed to the Government of the republic to make extensive use of all means to prevent atrocities. In a note to the Armenian government, Fatali Khan Khoysky expressed his strong protest over the armed raid on the civilian population and insisted on the immediate cessation of aggression against the Azerbaijani population. Despite the measures taken, it was not possible to restore normal good-neighborly relations between the republics of the South Caucasus.

Azerbaijan's attempt to peacefully resolve the disputed territorial issues with Armenia has not brought positive results.

This situation has put the Azerbaijani government in front of the need to take more serious measures. Among the measures taken in this area, the creation of a separate Karabakh governorate-General should be particularly noted, covering the Javanshir, Shusha, Jabrayil and Zangezur counties in order to ensure the preservation of the territorial integrity of Azerbaijan.

At a meeting of the Government of Azerbaijan held on January 15, 1919, the Minister of Internal Affairs reported on the situation in Karabakh Hasmamedov.

A report from the journal of decisions of the Azerbaijani government was heard. It is clear that the following decision was made at this meeting (extract No. 359 dated January 15, 1919, sent to the Ministry of Internal Affairs): "*Within the boundaries of Zangezur, Shusha, Javanshir and Jabrayil counties -to establish the post of interim Governor-General with the rights and duties specified in the report; Instruct the Ministry of Internal Affairs to nominate a candidate for the post of Governor-General before the next government meeting and submit to it its views on how much funds should be left."*

After some consultations, at a meeting of the Government of Azerbaijan on January 29, 1919, a "Report on the appointment of the governor-General of Javanshir, Shusha, Jabrayil and Zangezur counties" was heard and the following decision was made.

- Sultanov was appointed Governor-General;
- allocation of 5 million manats for the needs of the General Government from the Ministry's fund in the amount of 20 million manats;
- 728 thousand 300 manats for the maintenance of the governor's staff, the organization and provision of a cavalry detachment of 600 people during the month and 271 thousand 700 manats for unforeseen, urgent events;
- recognizing the possibility of increasing the number of the above-mentioned detachment to 3,000 people, doing so on special instructions from the government [2, 113-114].

After being appointed to a new position, Khosrov bey Sultanov, while still in Baku, did some work related to the organization of the general government, and on February 12, 1919, he arrived in Shusha and assumed his duties.

This step of the government was met with great approval by the Azerbaijani population. Archival documents show that the organization of this general government had an important impact on solving a number of problems in the respective regions. As a result of the research, it is concluded that the creation of the governorate was one of the main factors in the recognition of the ADR government by the Karabakh Armenians.

X. Sultanov's elimination of the Armenian separatist insurgency in Nagorno-Karabakh as a result of decisive measures was welcomed by the peaceful Armenian population. They came to Sultanov and expressed their gratitude. As a result of the decisive measures taken by Sultanov, he was completely eliminated. Due to recent events, the suspended movement of nomads has been resumed. Guard posts have been set up on all roads from Askeran to Shusha. The delegation that arrived to the Governor-General from the Armenian village of Dashalti expressed its gratitude to Khosrov bey Sultanov for his assistance during the tragic events" [3, 95]. Obviously, it was thanks to the Government's efforts that the massacres were stopped.

In July 2020, Armenia committed another military provocation in the Tovuz direction of the state border with Azerbaijan. The purpose of the provocation was to create a new source of tension in the region, sideline the issue of the occupation of Azerbaijani territories by Armenia, involve third countries in the conflict and damage Azerbaijan's strategic infrastructure. The Azerbaijani army dealt a crushing blow to the enemy and gave him a worthy response [5]. The negotiations did not bring results, on the contrary, it was clear that the Armenian side simply wants to gain time, seeks to strengthen the status quo, make it eternal. Azerbaijan could not and did not accept the occupation.

The Republic of Azerbaijan, as an independent, democratic, legal, secular, unitary state capable of ensuring the national interests of the people and the country, defines and implements a national security policy for the sake of its development [1].

On September 24, 2020, Azerbaijani President Ilham Aliyev, speaking at the general debate of the 75th session of the UN General Assembly, once again warned the world community about Armenia's preparations for a new war against Azerbaijan.

On September 27, 2020, in response to the start of another large-scale military operation by Armenia, launching fire attacks on positions and civilian settlements of the Azerbaijani Army, a

counteroffensive operation began, later called the "Iron Fist", which escalated into the Patriotic War.

November 8, 2020, is inscribed in golden letters in the history of Azerbaijan as Victory Day. The Patriotic War put an end to the longing of the Azerbaijani people for Karabakh, reconstruction work began on the territories liberated from occupation according to the most modern standards, and life returned to Karabakh. President of the Republic of Azerbaijan Ilham Aliyev, who successfully continued this path, first of all stated the importance of economic strength for restoring the territorial integrity of the country.

On November 10, 2020, the Act of Surrender of Armenia was signed - the "Statement of the President of the Republic of Azerbaijan, the Prime Minister of the Republic of Armenia and the President of the Russian Federation." On the same day, in his eighth address to the people, Ilham Aliyev stated that the phrase "Karabakh is Azerbaijan and the exclamation mark", which has become a national motto, has already covered the whole of Karabakh and put an end to the Armenian-Azerbaijani conflict.

The Karabakh region of Azerbaijan has historically been of great strategic importance in the South Caucasus region. The struggle of the ADR government against Armenian separatism and the generalization of successful experience are important today. In general, the course of events confirms that the study of the historical stages of Armenian separatism is always relevant for our present and future history. Recent events have proved once again that the Azerbaijani side has always chosen a peaceful path.

Nevertheless, today we clearly see that as a result of a successful policy, Azerbaijan won both in 1918 and in 2020. Finally, our people and the state have achieved a brilliant victory and restored historical justice.

Our state, which is fighting against the violation of the territorial integrity of Azerbaijan and the occupation policy and provocations of Armenia, has achieved a historic achievement by defeating the enemy in the war that began on September 27 and lasted 44 days. Finally, the occupation of Armenia was ended.

By successfully continuing the policy of Heydar Aliyev, President Ilham Aliyev, having solved such a complex problem as Karabakh, brought Armenia, the worldwide Armenian Diaspora and their patrons to their knees and forced them to accept reality. Our people and the State have finally achieved a brilliant victory and restored historical justice.

References

1. 44 gün sürən Vətən Müharibəsi (II Qarabağ müharibəsi): https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi (05.04.2025).
2. Məmmədova H. Azərbaycan xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920).-Bakı: "Nağıl Evi" nəşriyyatı,-2006.-150 s.
3. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921).- Bakı: Universitetin nəşriyyatı,-1998.- 328 s.
4. Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг.-Баку: Элм,-1998.- 616 с.
5. Минуло два года с Товузских боев: https://report.az/ru/armiya/minulo-dva-goda-s-tovuzskih-boev/ (02.04.2025).
6. Abdullayev M. History of Azerbaijan.-Bakı: Bakı Universiteti,- 2017.- 398 p.

HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU KURSUNDA RƏQƏMSAL TEXNOLOGİYALARIN STRATEJİ PERSPEKTİVİ

Minayə İntiqam qızı Sadıxova
Bakı Slavyan Universiteti
Azərbaycan Respublikası Təhsil İnstitutunun doktorantı
sadixova.minaya@mail.ru

Azərbaycan Respublikasının müasir dövlətçilik tarixində müstəsna rol oynamış Ulu Öndər Heydər Əliyev, yalnız güclü siyasi iradə və liderlik keyfiyyətləri ilə deyil, eyni zamanda gələcəyə yönəlmiş strateji baxışı, uzaqgörənliyi və innovasiyaya açıq düşüncə tərzi ilə də fərqlənirdi. Onun rəhbərliyi ilə formalaşan dövlət quruculuğu kursu Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edən əsas sütunlardan birinə çevrildi. Bu kursun təməlində isə yalnız siyasi və iqtisadi sabitlik deyil, həm də müasir texnologiyaların dövlət idarəçiliyində tətbiqi ilə əlaqədar innovativ yanaşmalar dayanırdı.

Heydər Əliyev informasiya-kommunikasiya texnologiyalarının (İKT) cəmiyyətin inkişafında oynadığı rolu dərindən dərk edərək, bu sahəni milli təhlükəsizlik, iqtisadi inkişaf və sosial rifah məsələləri ilə birbaşa əlaqələndirirdi. O, texnoloji tərəqqinin yalnız texniki proses deyil, eyni zamanda dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnuniyyətinin artırılması və bürokratik əngəllərin aradan qaldırılması üçün əsas vasitə olduğunu bəyan edirdi. Bu baxımdan, onun dövründə başlanan islahatlar Azərbaycanın gələcəkdə rəqəmsal cəmiyyətə keçidini təmin edəcək bünövrəni qoydu.

Heydər Əliyev tərəfindən dövlət idarəçiliyinin çevik, şəffaf və səmərəli şəkildə təşkili məqsədilə informasiya texnologiyalarının tətbiqi üzrə mühüm addımlar atıldı. O, Azərbaycanın gələcəyini intellektual potensialın inkişafı və texnologiyaların effektiv istifadəsi ilə görürdü. Bu məqsədlə dövlət idarəetmə orqanlarında elektron məlumat sistemlərinin tətbiqi, rəqəmsal kadr potensialının formalaşdırılması, İKT üzrə mütəxəssislərin hazırlanması və beynəlxalq təcrübənin öyrənilməsi kimi istiqamətlərə xüsusi diqqət yetirildi.

Heydər Əliyev texnologiyanın inkişafının yalnız texniki tərəqqi olmadığını, eyni zamanda cəmiyyətin intellektual səviyyəsinin yüksəlməsi və dövlətin idarəetmə imkanlarının genişlənməsi üçün bir vasitə olduğunu vurğulayırdı. O, dəfələrlə qeyd edirdi ki, informasiya texnologiyalarının inkişafı müasir dövlətin dayanıqlığının və müstəqilliyinin təmin olunmasında mühüm faktordur. Onun siyasi iradəsi nəticəsində:

- *Kompüter texnologiyalarının təhsildə və idarəetmədə tətbiqi təşviq edildi;*
- *İnformasiya təhlükəsizliyi məsələlərinə ciddi önəm verildi;*
- *Beynəlxalq əməkdaşlıq çərçivəsində rəqəmsal texnologiyaların Azərbaycana inteqrasiyası istiqamətində proqramlar hazırlandı;*
- *İKT sahəsinin milli iqtisadiyyatın mühüm sektorlarından biri kimi inkişaf etdirilməsi məqsədilə dövlət dəstəyi formalaşdı* [1].

1990-cı illərin sonunda və 2000-ci illərin əvvəlində Heydər Əliyev dövlət orqanlarının fəaliyyətində müasir texnologiyaların tətbiqinin vacibliyini bir neçə dəfə vurğulamış və bu istiqamətdə strateji sənədlərin hazırlanmasına göstəriş vermişdi. Bu çağırışlar daha sonra "Elektron hökumət" və "Rəqəmsal Azərbaycan" kimi genişmiqyaslı dövlət proqramlarının hazırlanmasına zəmin yaratdı [2].

Ulu Öndərin təşəbbüsü ilə:

- Dövlət idarəetmə orqanlarında elektron informasiya sistemlərinin qurulmasına başlanıldı;
- Müvafiq kadr potensialının yetişdirilməsi üçün İKT üzrə ixtisaslaşmış təhsil müəssisələri gücləndirildi;
- Rəqəmsal savadlılığın artırılması istiqamətində geniş maarifləndirmə tədbirləri həyata keçirildi [3].

Heydər Əliyevin islahatlar kursu iqtisadiyyatın modernləşdirilməsini və idarəetmədə operativliyin artırılmasını nəzərdə tuturdu. Bu baxımdan, İKT-nin inkişafı və rəqəmsallaşma, dövlət

və vətəndaş münasibətlərində yeni bir mərhələnin əsasını qoydu. Elektron xidmətlərin tətbiqi nəticəsində:

- Vətəndaş münasibətlərində şəffaflıq təmin edildi;
- Əngəllər azaldıldı, xidmətlərə çıxış asanlaşdı;
- Rəqəmsal iqtisadiyyatın əsasları formalaşdı və innovasiya yönümlü biznes mühiti yaradıldı [4].

Bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət siyasəti Heydər Əliyev ideyalarının müasir dövrün tələbləri ilə sintezindən qaynaqlanır. "Elektron hökumət" portalı, ASAN xidmət modeli, "Rəqəmsal Azərbaycan" strategiyası - bunlar hamısı Ulu Öndərin qoyduğu təməl üzərində qurulmuşdur. 2021-ci ildə yaradılmış Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi də bu istiqamətdə islahatların daha sistemli və koordinasiyalı həyata keçirilməsini təmin edir. Artıq süni intellekt, bulud texnologiyaları və böyük verilənlərin idarə olunması sahəsində də mühüm addımlar atılır ki, bu da Heydər Əliyevin müasir idarəetmə modelinin davamı kimi qiymətləndirilə bilər [5].

Heydər Əliyevin dövlətçilik fəlsəfəsində rəqəmsal texnologiyaların tətbiqi sadəcə texniki bir yenilik və ya idarəetməni asanlaşdıran vasitə kimi deyil, həm də dərin strateji, siyasi və ideoloji əhəmiyyət daşıyan bir məfhum kimi nəzərdən keçirilirdi. O, texnologiyanın dövlət və cəmiyyət həyatına inteqrasiyasını milli təhlükəsizliyin təmin olunmasının, iqtisadi sabitliyin qorunmasının, vətəndaş məmnuniyyətinin artırılmasının və sosial ədalətin bərqərar olmasının ayrılmaz komponenti kimi dəyərləndirirdi. Bu baxış Heydər Əliyevin uzaqgörən liderlik keyfiyyətlərinin və modern düşüncə tərzinin bariz nümunəsi kimi qiymətləndirilə bilər.

Ulu Öndər başa düşürdü ki, sürətlə dəyişən qlobal dünyada rəqəmsal texnologiyaların inkişafı təkcə iqtisadiyyatın texniki tərəqqisini deyil, həm də dövlətin dayanıqlı və şəffaf idarə olunmasını şərtləndirir. Bu səbəbdən o, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin yalnız iqtisadi islahatlar çərçivəsində deyil, bütövlükdə milli inkişaf konsepsiyasının əsas istiqaməti kimi qəbul edilməsinin vacibliyini vurğulayırdı. Heydər Əliyev üçün rəqəmsal modernizasiya - insan hüquqlarının daha effektiv müdafiəsi, ictimai xidmətlərin əlçatan və şəffaf təşkili, vətəndaş cəmiyyətinin gücləndirilməsi kimi strateji məqsədlərə çatmaq üçün əsas vasitə idi. Bu yanaşma nəticəsində Azərbaycanda rəqəmsal transformasiyanın həyata keçirilməsi üçün kompleks hüquqi-normativ baza yaradıldı, dövlət idarəçiliyində texnoloji yeniliklərin tətbiqinə əlverişli mühit formalaşdırıldı. Onun təşəbbüsü ilə dövlət orqanlarında informasiyalaşma prosesləri sürətləndirildi, kadr hazırlığına və texniki infrastrukturun inkişafına xüsusi diqqət ayrıldı. Heydər Əliyevin müəyyən etdiyi bu strateji istiqamət təkcə onun dövründə deyil, bu gün də Azərbaycanın sosial-iqtisadi siyasətində öz aktuallığını qoruyur.

Nəticə etibarilə, Heydər Əliyevin dövlətçilik fəlsəfəsində rəqəmsal texnologiyaların yeri və rolu yalnız keçmişin ideyası deyil, bu günümüzün reallığı və gələcəyin istiqamətverici strategiyası kimi çıxış edir. Ulu Öndərin bu sahədə qoyduğu ideoloji və institusional irs bu gün də yaşayır, inkişaf edir və Azərbaycanın gələcək yoluna işıq salır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hüseynov, R. "Heydər Əliyevin strateji idarəetmə fəlsəfəsində rəqəmsallaşma vektoru". İdarəetmə və İqtisadiyyat Problemləri, №4, 2019, s. 45-54.
2. Əliyeva, T. "ASAN xidmət modelinin formalaşmasında Heydər Əliyev ideyalarının rolu". Dövlət və cəmiyyət jurnalı, №2, 2022, s. 31-39.
3. United Nations E-Government Survey (2022). E-Government Development Index Country Data – Azerbaijan. New York: United Nations Publications.
4. World Bank Group (2020). Digital Azerbaijan: Towards a Smart Nation. Washington, D.C.: World Bank Report Series.
5. https://ereforms.gov.az/files/publications/pdf/az/9d03c762a9342224168be0a2ffc4e26a.pdf
6. https://www.researchgate.net/publication/369764836_Dovlt_idarciliyind_islahatlar_v_dovlt_qullugu_sisteminin_formalasdirilmasinin_muasir_innovativ_metodlar

HEYDƏR ƏLİYEV VƏ XXI ƏSR: MÜASİR NƏQLİYYAT SAHƏSİNİN TƏMƏLİ

[1,3]Əli Xanlar oğlu Qurbanov, [2,3]Rövşən Paşa oğlu Mustafayev
[1]ali.qurbanov@mdu.edu.az
[2]rovshan.mustafayev@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

Nəqliyyat sistemi hər bir dövlətin iqtisadi və strateji inkişafının ayrılmaz hissəsidir. Müasir dövrdə bu sahə yalnız yüklərin və sərnişinlərin daşınmasını deyil, həm də dövlətin beynəlxalq arenadakı mövqeyini, iqtisadi təhlükəsizliyini və geosiyasi çəkisini müəyyən edir. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev nəqliyyat sektorunu gələcəyə hesablanmış bir strateji sahə kimi qiymətləndirmiş və bu istiqamətdə möhkəm təməl qoymuşdur. Onun rəhbərliyi ilə atılan addımlar və həyata keçirilən islahatlar XXI əsrin müasir tələblərinə cavab verən bir nəqliyyat sisteminin əsasını təşkil etmişdir.

Heydər Əliyevin siyasi fəaliyyəti Azərbaycanın gələcəyini düşünən strateji planlara əsaslanırdı. Onun rəhbərliyi ilə nəqliyyat sahəsində atılan addımlar ölkəni regional və beynəlxalq nəqliyyat dəhlizlərinin əsas iştirakçısına çevirdi [1]. Xüsusilə 1993-cü ildən sonra müstəqilliyini yenicə qazanan Azərbaycan üçün nəqliyyat təhlükəsizliyi və iqtisadi inteqrasiya həyati əhəmiyyət daşıyırdı.

"Azərbaycanın yerləşdiyi coğrafi mövqe ona tarixi imkan verir ki, Şərqlə Qərb arasında körpü rolunu oynasın."– Heydər Əliyev [3].

Bu dövrdə başlanmış irimiqyaslı layihələr-magistral yolların yenilənməsi, dəniz nəqliyyatının canlandırılması və hava nəqliyyatının beynəlxalq standartlara uyğunlaşdırılması [2] — Azərbaycanın XXI əsrə rəqabətqabiliyyətli nəqliyyat infrastrukturu ilə daxil olmasına səbəb oldu.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan "Böyük İpək Yolu"nun bərpası üzrə beynəlxalq təşəbbüslərə aktiv qoşuldu. Bu yol təkcə iqtisadi məna daşımırdı, həm də Azərbaycanın regionda mühüm tranzit ölkəyə çevrilməsinə imkan yaradırdı.

1998-ci ildə Bakıda keçirilmiş Beynəlxalq Nəqliyyat Konfransı Heydər Əliyevin nəqliyyat siyasətinin beynəlxalq miqyasda tanınmasına səbəb oldu. Konfransda bir çox ölkələr və beynəlxalq təşkilatlar Azərbaycanın nəqliyyat potensialına yüksək qiymət verdilər.

Bu dövrdə əsas diqqət Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin Azərbaycandan keçməsinə yönəldildi. Heydər Əliyevin uzaqgörənliyi nəticəsində bu gün Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsində mühüm tranzit ölkə kimi tanınır.

Azərbaycanın yerləşdiyi strateji nəqliyyat dəhlizləri

Şimal-Cənub Nəqliyyat Dəhlizi:

ŞİMAL
↑
Rusiya – Azərbaycan – İran
↓
CƏNUB

Şərq-Qərb Nəqliyyat Dəhlizi:

Çin – Qazaxıstan – Xəzər dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə – Avropa
←———————— ŞƏRQ ————————→———————— QƏRB →

Sovet dövründə nəqliyyat sisteminin inkişafi (1969–1982). Heydər Əliyevin 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə nəqliyyat sektorunda yeni dövr başlandı. Bu dövrdə:

- Bakı Metropoliteninin inşası sürətləndirildi və 1976-cı ildə yeni stansiyalar istifadəyə verildi.
- Dəmir yolu infrastrukturuna ciddi sərmayələr qoyuldu.
- Regionlararası avtomobil yolları genişləndirildi.

- Bakı dəniz limanı modernləşdirilməyə başlandı.

Layihə	İli	Təsiri
Bakı Metropoliteni	1976	Şəhərdaxili nəqliyyat rahatladı
Bakı–Tbilisi dəmir yolu	1980	Ticarət daşımalarına təkan verdi
Hava limanlarının yenilənməsi	1970	Beynəlxalq əlaqələr gücləndi

Bu tədbirlər Azərbaycanın o dövrdə ittifaq respublikaları arasında iqtisadi və texnoloji inkişaf baxımından önə çıxmasına səbəb oldu.

1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev, nəqliyyat sahəsini prioritet istiqamət kimi müəyyən etmiş və 1998-ci ildə "Azərbaycan Respublikasının nəqliyyat strategiyası"nın qəbulunu təmin etmişdir [4]. Bu sənəd ölkənin geostrateji mövqeyini nəzərə alaraq, beynəlxalq dəhlizlərə inteqrasiyanı və tranzit imkanlarının genişləndirilməsini hədəf alırdı.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan 1998-ci ildə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizini nəzərdə tutan TRACECA proqramına qoşulmuşdur. Bu təşəbbüs sayəsində ölkə Şərq ilə Qərb arasında strateji körpüyə çevrilmişdir [7]. Eyni zamanda, sonrakı illərdə Şimal–Cənub dəhlizi üzrə danışıqlarda Azərbaycanın fəal iştirakı, nəqliyyat siyasətinin davamlılığını göstərir.

Müasir dövrdə Azərbaycanın Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu kimi iri layihələri məhz Heydər Əliyevin əsası qoyulmuş siyasi xəttin uğurla davam etdiyini sübut edir [6].

Nəticə etibarilə, Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji yol xəritəsi sayəsində nəqliyyat sektoru müasir Azərbaycanın qlobal iqtisadi sistemə inteqrasiyasının aparıcı sütunlarından birinə çevrilmişdir.

Heydər Əliyevin əsasını qoyduğu nəqliyyat strategiyası XXI əsrdə daha da genişləndi. Prezident İlham Əliyev tərəfindən bu sahədə atılan addımlar məhz Ulu Öndərin müəyyən etdiyi xətt üzrə davam etdirildi. Hazırda ölkədə həyata keçirilmiş və edilən bir çox layihənin başlanğıcı məhz 1990-cı illərin sonlarına dayanır.

Bunlara aşağıdakılar aiddir:

- Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin ideyası və ilkin danışıqları
- Ələt Beynəlxalq Dəniz Ticarət Limanının əsasının qoyulması
- Hava limanlarının regionlar üzrə inkişafı üçün proqramların hazırlanması

"Nəqliyyat infrastrukturunun gücləndirilməsi Azərbaycanın müstəqil və suveren dövlət kimi inkişafının əsas sütunlarından biridir." – İlham Əliyev [5].

Heydər Əliyevin əsasını qoyduğu nəqliyyat strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun dövründə planlaşdırılmış bir çox layihə artıq reallaşdırılmışdır:

- Bakı-Tbilisi-Qars dəmir yolu (2017)
- Yeni Bakı Beynəlxalq Dəniz Limanı (Ələt qəsəbəsində)
- Zəngəzur dəhlizi ideyası

Bu siyasətin nəticəsində XXI əsrdə Azərbaycan artıq beynəlxalq logistika layihələrinin ayrılmaz tərəfdaşına çevrilmişdir.

Heydər Əliyevin nəqliyyat sahəsinə verdiyi əhəmiyyətli töhfələr nəticəsində Azərbaycan bu gün güclü nəqliyyat infrastrukturuna və beynəlxalq tranzit imkanlarına malik bir ölkəyə çevrilmişdir. Onun strateji baxışları sayəsində əsası qoyulan layihələr və təşəbbüslər XXI əsrdə daha da inkişaf etdirilərək, ölkəmizi Avrasiyanın mühüm nəqliyyat mərkəzlərindən birinə çevirmişdir. Ulu Öndərin bu sahəyə dair uzaqgörən siyasəti Azərbaycan dövlətinin dayanıqlı inkişafı və beynəlxalq inteqrasiyası baxımından böyük əhəmiyyət daşıyır və bu siyasət bu gün də uğurla davam etdirilir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Nəqliyyat Strategiyası. Bakı, 2002.
2. Azərbaycan Respublikasının Rəsmi Qəzetləri və Dövlət Arxivi
3. Heydər Əliyev. "Nitqlər və çıxışlar". Bakı, 1999.

4. Nəqliyyat Nazirliyi. (2002). Azərbaycan Respublikasının nəqliyyat strategiyası. Bakı.
5. Prezident İlham Əliyevin çıxışları – www.president.az
6. Prezident.az. (2020). Prezident İlham Əliyevin Ələt Limanı ilə bağlı çıxışı, https://president.az
7. TRACECA Katibliyi. (1999). TRACECA: The Transport Corridor Europe-Caucasus-Asia. Bakı

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MİLLİ DÖVLƏTÇİLİK TƏFƏKKÜRÜNÜN FORMALAŞMASI

Nigar Mustafa qızı Məhərrəmova
Mingəçevir Dövlət Universiteti
nigar.maharramova@mdu.edu.az

Ümummilli liderimiz Heydər Əliyev dünya tarixinin dahi şəxsiyyətlərindən biri, Azərbaycanın böyük siyasi və dövlət xadimidir. Heydər Əliyev dövlət təhlükəsizliyi komitəsində fəaliyyəti dövründə bu mühüm strukturun azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmət göstərmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən mükəmməl iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin şöhrət və səmərəliliyi bərpa edilmiş, yeni-yeni istehsal sahələrinin, iqtisadiyyatın əsası qoyulmuş, sənaye bazası genişləndirilmiş və müasirləşdirilmişdir. Nəticədə Azərbaycanın iqtisadi potensialı güclənmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə (1969-1982-ci illər) idarəetmə mexanizmi və metodlarının təkmilləşdirilməsi, qanuna ciddi əməl edilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafı sahəsində yüksək göstəricilər əldə etməklə yanaşı, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, tarixi yaddaşının özünə qaytarılması, soykök əsasında millətdə müstəqil dövlətçilik ideyalarının güclənməsi və realaşması üçün də çox mühüm işlər görmüşdür. Bütün bununla yanaşı insan amilinə böyük əhəmiyyət vermişdir [1, s. 342, 343].

Azərbaycanda yaşayan bütün insanların əməyinə dəyər verən, zəhməti qiymətləndirən insan hər cür xaruqələr yaratmaga qadirdir. Bu sadə həqiqəti özünün rəhbərlik fəaliyyətində daimi nəzərə alan, quruculuğu, əməksevərliyi, fədakarlığı hər zaman layiqincə qiymətləndirərək, zəhmətkeş, təşəbbüskar insanları qarşıya qoyulmuş ən çətin və mürəkkəb vəzifələri uğurla yerinəyetirməyə səfərbər edən Ulu Öndər Heydər Əliyev haqq-ədalət mücəddiməsi idi. Həyatı boyu güclünü-gücsüzdən, haqqı-nahaqdan qoruyan, hər yerdə həmişə öz aqilliyini və aliliyini sübuta yetirən bu dahi şəxsiyyət totalitar sovet rejimində belə nüfuz dairəsindəki bütün məkanlarda haqq ədalətin zəfər çalmasına nail olmuş, ölkəmizdə müstəqil dövlət quruculuğu dövründə isə insan və vətəndaş, hüquq və azadlığın tam təmin edilməsi naminə müstəsna xidmətlər göstərmişdir. Əməyə və əməkçiyə həssas səmimi münasibət, sadə adamları qəlbən duyması, onların ülvi, misilsiz arzularının, diləklərinə çatması, Ulu Öndərimizə tükənməz ümumxalq məhəbbəti qazandıran amillər sırasında xüsusi yer tutur. Sərt rejimli dövlət təhlükəsizlik orqanlarında öz fitri istedadı, tükənməz təşkilatçılıq qabiliyyəti ilə yüksək rütbəyə və vəzifəyə çatmış Heydər Əliyev sərkərdə qüdrəti ilə Respublikamızın idarəçilik sistemində dəmir nizam-intizam yaratmaqla yanaşı cəmiyyətin və vətəndaşların yaradıcılıq, quruculuq potensialının açılmasına, onlardan məqsədyönlü səmərəli şəkildə istifadə edilməsinə nail oldu.

Vüsətli iqtisadi inkişaf nəticəsində əhalinin sosial problemlərinin həlli üçün geniş imkanlar, maliyyə resursları əldə edildi. Bu imkanlar yaşayış səviyyəsinin yüksəldilməsinə, mədəni tərəqqiyə, təhsilə, səhiyəyə, bədən tərbiyyəsi və idmana, istirahətə və asudə vaxtın səmərəli təşkilinə yönəldildi. Ulu Öndərimiz vətəndaşların qanuni mənafelərinin, əmək hüquqlarının qorunmasında, sosial problemlərinin həllində mühüm rol oynayan, zəngin tarixi keçmişə malik həmkarlar ittifaqı təşkilatının fəaliyyətinə daimi diqqət və qaygı göstərmişdir [2, s. 24]. Ümummilli liderimiz Heydər Əliyev hələ sağlığında ikən, canlı əfsanəyə çevrilmişdi. Dünyanın tanınmış siyasətçiləri də, onunla

görüşəndən sonra Heydər Əliyev haqqında yüksək fikirlər söyləyirdilər. Heydər Əliyevin dərin zəkası, qətiyyəti məntiqi, hadisələri düzgün təhlil edib qiymətləndirmək bacarığı, gələcəyi görmək istedadı imkan verirdi ki, tarixin gedişini qabaqcadan bilsin, hadisələri nəzərdə tutdugu planlara uyğun istiqamətləndirsin. Azərbaycan xalqı özünü xoşbəxt saymaqda haqlıdır.

Dünya siyasətçiləri də bu qənaətdədir. E.Şevardnadze belə deyib: "20-ci əsr liderlər əsridir, əsrin lideri Heydər Əliyevdir". Ümummilli Liderimiz liderlərin fövqünə yüksəldi, Azərbaycan dövlətini qurdu, inkişaf etdirdi, qabaqcıl ölkələr sırasına çıxartdı. Heydər Əliyev Dövlət təhlükəsizlik komitəsində çalışdığı illərdə Azərbaycanda represiyanı aparmış adamlardan hələ də orada işləyənlər var idi. Azərbaycanlılar burada çox az idi. Ümummilli Liderimiz bu komitəni xalqımızın düşmənlərindən təmizlədi. 1969-cı ildən sonra isə, bu siyasət bütövlükdə Azərbaycanda aparılmağa başladı. Bu məqsədlə bağlı çıxışlarının birində Ümummilli liderimiz Heydər Əliyev belə demişdir: "Dövlət təhlükəsizlik komitəsində işləyərkən çox şey görmüşdüm. Moskvanın birtərəfli türk millətini əsarətdə saxlamaq siyasəti olduğunu ilk gündən şahidi oldum. Daxilən buna qarşı üsyan etsəm də, həyatda buna qarşı imkanım yox idi. Azərbaycan KPMKnın birinci katibi işləyərkən, Moskvaya qarşı çıxmağım, toqquşmağım mümkün deyildi. Əgər onların əleyhinə çıxsa idim, bunun bir əhəmiyyəti olmayacaqdı, həm də, Əliyev ölkənin digər katibləri kimi məhv ediləcəkdi.

Yavaş-yavaş mən də, doğma millətimin milli hisslərini oyatmağa başladım, xalqın milli hisslərini, Azərbaycan türkçülüyünün milli oyanışını reallaşdırmaq arzusunda idim. Bu işləri Moskvaya hiss etdirmədən, onu narahat etdirmədən görmək istəyirdim. Moskvada sovet ideologiyasına daha yaxından bələd oldum, fikirlərim get-gedə daha da duruldu, aydınlaşdı. Moskvada xarici dünyanı həm daha açıq, həm də yaxından öyrənmək imkanı əldə etmişəm". Heydər Əliyev rəhbərliyə təyin olunandan az sonra məlum oldu ki, yeni rəhbər bütün işlərdə, xalqına, onun ziyalılarına arxalanır, məsləhətləşirdi. Ümummilli Liderimiz daim insanların arasında olur, həyata keçirəcək proqramların icra olunduğu yerlərə gedir, problemləri öyrənir, konkret tapşırıqlar verirdi. Xalq tərəfində böyük razılıq hissi ilə qarşılanan əsas məsələ yeni rəhbərin təmiz Azərbaycan dilində danışmasıydı. Üstəlik, Ümummilli Liderimiz elə bir mühit yaratmışdı ki, daha dövlət idarəçiliyində Azərbaycan dilində danışanlara xor baxmırdılar və yaxud "ərizəni rus dilində gətir" demirdilər. Digər tərəfdən, Respublika rəhbərliyinin öz xalqının dilinə, tarixinə, mədəniyyətinə belə qayğı göstərməsi çoxları tərəfindən qısqanclıqla qarşılanırdı. Moskvaya gedən donoslarda Heydər Əliyevi millətçi adlandırırdılar, amma bu güclü şəxsiyyətin məntiqi qarşısında Moskva susmalı, geri çəkilməli olurdu. Nəhayət, 1978-ci ildə qəbul edilən "Azərbaycan SSR-nin kostitusiyası"nda belə bir müddəa əksini tapdı: Azərbaycan SSR-nin dövlət dili Azəbaycan dilidir". Bu çox böyük bir qələbə idi. Heydər Əliyevin ağlının, zəkasının, güclü iradəsinin, milli xalq sevgisinin, uzaqgörənliyinin qələbəsi idi [3, s. 12].

Azərbaycan Respublikası SSRİ-nin süqutundan sonra milli müstəqilliyini bərpa etmiş, demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti yaradılması istiqamətində də, qısa müddət ərzində böyük naliyyətlər əldə etmişdir. Müstəqil Azərbaycan dövləti sovet sistemindən miras qalmış, totalitarizm buxovlarından qurtulub sivil cəmiyyət, liberal iqtisadi sistem və dünya ölkələrinə mövcud hüquq normalarına uyğun beynəlxalq münasibətlər yaratmaq yolunda addımladı. Sovet ittifaqı dağılandan sonra Azərbaycan xalqının imdadına Ulu Öndər çatmışdır. Həmin dövrdə ölkədə vəziyyət çox ağır idi. İnsanların bu gündən sabaha ümidləri yox idi, lakin Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan bu ağır vəziyyətdən çıxmağa başladı. Ölkədə vəziyyət stabilləşdi, iqtisadiyyat dirçəlməyə başladı. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsasları sarsıdan bir çox sosial-mənəvi problemlər də, məhz milli strategiyanın olmaması üzündən meydana çıxmışdı. 1991-1995-ci illərin iyun ayınadək respublikamızın üzləşdiyi böyük problemlər, ilk növbədə, xalqın dəstəklədiyi legitim hakimiyyətin, eyni zamanda yeni ictimai–iqtisadi formasiyada dövlətin gələcək inkişafı yolunu düzgün müəyyənləşdirə biləcək qətiyyətli və müdrik siyasi rəhbərin olması ilə bağlı idi.

1993-cü ilin iyununda kifayət qədər mürəkkəb siyasi şəraitdə xalqın təgidli çağırışına biganə qalmayaraq Naxçıvandan Bakıya dönən, vəziyyəti stabilləşdirərək ölkəyə rəhbərlik missiyasını inamla həyata keçirməyə başlayan Ulu öndər Heydər Əliyev qısa müddətdə ictimai-siyasi sabitliyin,

qanunculuğun, hüquq qaydasının mökəmləndirilməsinə nail olmuş, sistemli şəkildə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti istiqamətində mühüm addımlar atmışdır [4, s. 8].

Tarixi təcrübə sübut edir ki, dövlət idarəetmə sistemində davamlı uğurlara yol açan vacib amillərdən biri də, məhz siyasi varislik ənənələrinin təmin olunmasıdır. Müstəqil Azərbaycanın son 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ciddi uğurlara imza atması, sürətli iqtisadi inkişaf tempi ilə dünyada siyasi mövqeyini də qoruyub saxlaması da, məhz dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış təcrübədən uğurla çıxmış, mükəmməl mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində gercəkləşmişdir. Ümummilli Lider ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən surətli inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq olmuşdur. Ölkənin dinamik sosial-iqtisadi inkişafı ölkə başçısına son illərdə insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına xidmət edən islahatları keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirmək imkanı yaratmışdır. Prezident İlham Əliyevin ictimai həyatın bütün sahələrində, o cümlədən hüquqi dövlət quruculuğu yönümündə həyata keçirdiyi islahatların başlıca qayəsində məhz insan və şəxsiyyət amili dayanır. Dövlət başçısı haqlı olaraq vurğulayır ki, iqtisadi sahədə keçid dövrünü başa vuran Azərbaycan üçün vacib məsələlərdən biri demokratikləşmə prosesini, siyasi və hüquqi islahatları cəmiyyətin inkişaf ahənginə uyğun daha da dərinləşdirmək, son nəticədə qanunun aliliyini, insan hüquqlarının preoritetliyini bütün səviyyədə təmin etməkdir. Son 17 ildə Azərbaycanda həyata keçirilən milli demokratik keçidin mahiyyətini də, məhz iqtisadi firavanlıq müəyyənləşdirir.

Azərbaycan xalqının Ümummilli Lideri böyük türk oğlu Heydər Əliyevin apardığı uzaqgörən daxili və xarici siyasəti nəticəsində çoxəsrlik dövlətçilik ənənələrinə malik Azərbaycan daha da inkişaf etdirildi. Heydər Əliyevin yaratdığı dövlətimizin atributu sayılan Azərbaycanın silahlı qüvvələri, Azərbaycanın nizami ordusu başda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı İlham Əliyevin rəhbərliyi ilə erməni faşistlərinə qarşı ordumuzun qələbəsi 44 günlük Vətən Müharibəsində doğma Qarabağımız düşməndən azad olmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir.

Hazırda erməni vandallarının dağıtdığı şəhər, qəsəbə və kəndlərimizin bərpasına start verilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin nəzəri ideyaları, onun layiqli davamçısı İlham Heydər oğlu Əliyev tərəfindən həyata keçirməklə demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycan Respublikasında uğurlu islahatlar aparılır, Azərbaycan çiçəklənən dövlətə çevrilməkdədir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. 2 cilddə. c.1. Bakı: Lider, 2004, 440 s.
2. Mehbalıyev S. Əməyə və Əməkçiyə yüksək dəyər verən dahi rəhbər // Respublika qəz., 2008, 10 may, № 100(3235).
3. Əsgərov M. Ümummilli Liderimiz humanizmi dövlət siyasətinin mühüm tərkib hissəsinə çevirdi // Xalq qəzeti, 2008, 7 may, № 97(25862).
4. Cəfərov Z. Hüquqi dövlət ideyasını gerçəyə çevirən lider // "Azərbaycan" qəz., 2013, 20 aprel, № 83(6358).

GƏNCLİK SİYASƏTİNİN MEMARI: HEYDƏR ƏLİYEV İRSİNDƏ GƏNCLƏRƏ BAXIŞ

[1,3]Zülfiyyə Vaqif qızı Tanrıverdiyeva, [2,3]İlahə Yasin qızı Əmrahzadə
[1]zulfiyye.tanriverdi@gmail.com
[2]emrahzadeilahe@gmail.com
[3]Mingəçevir Dövlət Universiteti

Əsl vətəndaşlıq nümunəsi, tarixi şəxsiyyət və Ümummilli Lider kimi qiymətləndirilən Heydər Əliyev, Azərbaycan xalqının taleyində dərin iz buraxmış nadir şəxsiyyətlərdəndir. Onun milli

dövlət quruculuğundakı xidmətləri və xalqına olan sonsuz sevgisi onu həm Azərbaycanın, həm də bütün Türk dünyasının qürur mənbəyinə çevrildi. XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi ən böyük liderlərdən biri kimi, Heydər Əliyev daim hörmət və inkişaf ilə yad edilir [2]. Azərbaycan dövlətçiliyinin qurucusu və müdrik rəhbəri Heydər Əliyevin ictimai-siyasi fəaliyyətində gənclər siyasəti xüsusi yer tutmuşdur. Onun rəhbərliyi ilə formalaşan bu siyasət, gənclərin cəmiyyətin bütün sahələrində fəal iştirakını təmin etmək, onların potensialını inkişaf etdirmək və milli dövlətçiliyin möhkəmlənməsində rolunu artırmaq məqsədi daşıyırdı. Ulu Öndərin gənclərə dair bu cür yanaşması həm strateji, həm də mənəvi dəyərlər sistemi üzərində qurulmuşdu.

Heydər Əliyevin "Gənclər bizim gələcəyimizdir" fikri, onun gənclərə olan inamının və qayğısının açıq ifadəsidir. O, 1969-cu ildən etibarən Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim gənc nəslin təhsili, mədəni inkişafı, hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi və peşəkar hazırlığı məsələlərinə xüsusi diqqət yetirmişdir. SSRİ dövründə minlərlə gəncin keçmiş İttifaqın nüfuzlu ali məktəblərində təhsil almasına şərait yaradılmışdı ki, bu da sonradan ölkənin kadr potensialının formalaşmasına xidmət etmişdir. Heydər Əliyev Azərbaycanın müstəqil dövlət quruculuğunun əsas memarlarından biri olduğu kimi, eyni zamanda ölkənin gənclərinə yönəlmiş siyasətin inkişafında böyük rol oynadı. Onun işində gənclərin inkişaf etdirilməsi, dövlətin gələcəyinə olan etimadın təcəssümüdür. Gənclərin qayğısı, Azərbaycan cəmiyyətinin güclü bir gələcəyinə doğru irəliləməsi üçün mühüm bir strategiya prioritet olaraq formalaşdı. Heydər Əliyev eyni zamanda gənclərin həm şəxsi inkişafını, həm də dövlət işində fəal iştirakını təmin etmək üçün bir çox tədbirlər və proqramları həyata keçirdi. Bu siyasətin qarşısında iki əsas prinsip dayanır:

1. Gənclərin təhsili və inkişafı - Heydər Əliyev təhsilin yalnız akademik biliklərlə məhdudlaşmadığını, eyni zamanda gənclərin şəxsiyyəti və dünyagörüşü baxımından da formalaşdırıldığını vurğulayıb. Bu məqsədlə təhsil sistemində islahatlar aparmış və onun tərəfindən təsis edilmiş "Azərbaycan Gənclər Fondu" və digər gənclər təşkilatları onlara beynəlxalq təhsil imkanlarını təqdim edilmişdir.

2. Gənclərin sosial müdafiəsi - Heydər Əliyev siyasətində mühüm yer tuturdu. O, gənclərin cəmiyyətə inteqrasiyası və sosial dayanıqlı olmaları üçün bir sıra layihələr, məşğulluq problemlərinin həllinə nail olmaq üçün tədbirlər və eləcə də gənclərin sosial problemləri ilə bağlı bir sıra proqramlar həyata keçirib.

Heydər Əliyev, Azərbaycan Respublikasının müstəqilliyinin qorunmasında və inkişafında əvəzsiz rol oynamışdır. 1993-cü ildə hakimiyyətə gələndən sonra o, Azərbaycanın parçalanmış iqtisadi və siyasi sistemini birləşdirmək üçün geniş miqyaslı islahatlar həyata keçirmişdir. Bu islahatlar yalnız dövlətin iqtisadi müstəqilliyinə deyil, həm də gənclərin siyasi və sosial həyatdakı fəal rolunu artırmağa yönəlmişdi. Müstəqil Azərbaycanın gələcəyinin təminatçısı kimi Heydər Əliyev, gəncləri cəmiyyətin mühüm hissəsi kimi qəbul etmiş və onların dövlətin inkişafında aktiv iştirakını dəstəkləmişdir. Onun rəhbərliyi altında, Azərbaycan gəncləri üçün dövlətçilik dəyərləri və milli kimlik düşüncəsinin artırılması məqsədilə geniş maarifləndirmə və təhsil proqramları hazırlanmışdır. Müstəqillik dövründə Azərbaycan gəncləri üçün həyata keçirilən siyasət, yalnız ölkənin müstəqilliyinin qorunması və inkişafı baxımından deyil, həm də gənclərin cəmiyyətdəki rolu və gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Heydər Əliyev daim gənclərə böyük ümidlə baxır, onların Azərbaycanın gələcəyində əsas rol oynayacaqlarına inanırdı. O, qəbul etdiyi fərmanlarla gəncləri təhsildə irəliləməyə, sağlam həyat tərzi sürməyə və dövlətin müəyyən etdiyi hüquqi çərçivəyə riayət etməyə təşviq edirdi. Ulu Öndər çıxışlarında tez-tez bu fikri vurğulayırdı: "Mən gəncləri gördükcə gələcəyə olan ümidim daha da artır və əminəm ki, siz gələcəkdə də Azərbaycanın ləyaqətli vətəndaşları olacaqsınız" [1]. Heydər Əliyevin rəhbərliyi altında formalaşdırılan bu siyasət, gənclərin potensialını reallaşdırmaq, onların sosial-iqtisadi inkişafını təmin etmək və ölkənin gələcəyinə təsir edən faktorlar arasında mühüm bir yer tutmuşdur. Bu istiqamətdə atılan addımlar aşağıda qeyd olunmuşdur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra gənclər və idman sahəsində aparılacaq siyasətin təşkil edilməsi vacib məsələlərdən idi. 1994-cü ildə Heydər Əliyev tərəfindən Gənclər və İdman Nazirliyinin yaradılması, bu sahəyə dövlət səviyyəsində ciddi diqqət ayrıldığının göstəricisi oldu. Nazirlik, gənclərin sosial müdafiəsi, təhsili, mədəniyyətləri, məşğulluqları və asudə vaxtla-

rının səmərəli keçməsi üçün müxtəlif proqramların həyata keçirilməsinə rəhbərlik etməyə başladı. Bu, həmçinin gənclərin cəmiyyətdəki fəal iştirakını artırmaq məqsədini güdürdü.

1996-cı il 2 fevral tarixində keçirilən ilk Gənclər Forumu, Heydər Əliyevin gənclərlə bağlı siyasətinin təzahürlərindən biri oldu. Bu forumda gənclərin cəmiyyətdəki mövqeyi, qarşılaşdıqları problemlər və onların həlli yolları müzakirə olundu. Eyni zamanda, bu forum gənclərə öz problemlərini dövlət rəhbərliyi qarşısında açıq şəkildə ifadə etmək imkanı yaratdı. Nəticədə, Prezidentin fərmanı ilə 2 fevral tarixi "Azərbaycan Gəncləri Günü" olaraq təsis edildi və bu, gənclərin əhəmiyyətinə olan diqqətin bir göstəricisi oldu.

"Azərbaycan Respublikasının Gənclər Siyasəti Konsepsiyası"nın Qəbul Edilməsi (1997). Azərbaycan gəncləri üçün nəzərdə tutulan uzunmüddətli siyasət çərçivəsi, 1997-ci ildə qəbul edilən "Azərbaycan Respublikasının Gənclər Siyasəti Konsepsiyası" ilə rəsmiləşdi. Bu sənəd, gənclərin hüquqlarını qorumağa və onların inkişafını təmin etməyə yönəlmiş ən mühüm addımlardan biri oldu. Gənclər siyasətinin əsas məqsədi, gənclərin təhsil alması, sağlam və təhlükəsiz mühitdə böyüməsi, məşğulluq imkanlarının yaradılması, sosial müdafiənin gücləndirilməsi və asudə vaxtlarının səmərəli keçməsi kimi mühüm sahələri əhatə edirdi. Bu kontekstə əsaslanan sənədin qəbul edilməsi, həmçinin gənclərə olan dövlətin sosial və iqtisadi dəstəyini gücləndirdi. Gənclərin sosial müdafiəsi, təhsili və məşğulluğu məsələləri dövlətin diqqətində saxlanıldı. Bununla yanaşı, gənclərin asudə vaxtlarının təşkilinə, idmanla məşğul olmalarına və mədəni fəaliyyətlərdə iştirak etmələrinə şərait yaradıldı.

Azərbaycanın müstəqilliyinin bərpası ilə yanaşı, ölkənin beynəlxalq aləmdə tanınması və gənclərin beynəlxalq münasibətlərdə iştirak etməsi də vacib məsələlərdən biri oldu. Heydər Əliyev dövründə Azərbaycan, gənclər üçün müxtəlif beynəlxalq proqramlara qoşulmuş və gənclərə qlobal platformalarda təmsil olunmaq imkanı yaratmışdır. Bu, həm də gənclərə dünya görüşlərini genişləndirmək, beynəlxalq təcrübə əldə etmək və ölkənin adını dünyada tanıtmaq imkanı vermişdir.

Heydər Əliyev tərəfindən həyata keçirilən gənclər siyasətinin əsas aspektlərindən biri də gənclərin iqtisadi və sosial inkişafı üçün şərait yaratmaq idi. Gənclərin məşğulluğu və iş tapma imkanlarının artırılması məqsədilə bir sıra proqramlar həyata keçirilmişdir. O cümlədən, gənclərin kiçik və orta sahibkarlıq fəaliyyətlərində iştirak etməsi, öz bizneslərini qurması təşviq olunmuşdur. Dövlət, gənclərə məsləhət xidmətləri təqdim edərək onların iş bazarına inteqrasiyasını asanlaşdırmışdır.

Azərbaycanın müstəqillik əldə etməsindən sonra gənclərin qarşılaşdığı sosial və psixoloji çətinliklər də diqqət mərkəzində olmuşdur. Bu dövrdə gənclərə hüquqi və psixoloji dəstək verən müxtəlif mərkəzlərin yaradılması təşviq edilmişdir. Beləliklə, gənclərin hüquqlarının qorunması, onların psixoloji vəziyyətlərinin yaxşılaşdırılması və cəmiyyətdə sağlam sosial münasibətlərin formalaşması istiqamətində fəaliyyətlər genişlənmişdir.

Azərbaycanın müstəqillik dövründə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasəti, ölkənin inkişafında və gənclərin gələcəyində mühüm bir yer tutmuşdur. Bu siyasət, gənclərin yalnız dövlətin gələcəyi deyil, həm də iqtisadi, sosial və mədəni inkişafda əhəmiyyətli rol oynadıqlarını nəzərə alaraq hazırlanmış və həyata keçirilmişdir. Gənclərin hüquqları, təhsili, məşğulluğu və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, Azərbaycanın gənclərinə gələcək nəsillər üçün daha güclü və dayanıqlı bir dövlət və cəmiyyətin qurulmasında kömək etmişdir.

Möhtərəm lider həmçinin vətən sevgisini və vətəndaş mövqeyini belə ifadə etmişdir: «Mənim millətimə olan sevgim heç vaxt azalmayıb, onu hər zaman sevmişəm və bu gün də eyni dərəcədə sevirəm. Mən əminəm ki, mənim millətim çox böyük istedada malikdir. Onlar üçün yalnız uyğun şəraitin yaradılması vacibdir. Mən bu şəraiti təmin etdim və bu şəraiti düzgün istifadə edərək, həmvətənlərimə uğurlar və xoşbəxt həyat arzulayıram" [3].

Heydər Əliyevin gənclər siyasəti milli inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu siyasət sayəsində Azərbaycan gəncliyi bu gün ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, beynəlxalq arenada ölkəmizi layiqincə təmsil edir və milli maraqların qorunmasına töhfə verir. Heydər Əliyev irsinin davamlılığı, yalnız onun zamanında deyil, müstəqil Azərbaycanın gələcəyində də gənclərin dövlətçiliyə dəstəyinin davamlı olacağını təmin edir. Bu irs, Azərbaycan gəncləri

üçün bir yol xəritəsi olmuş və onların cəmiyyətdə daha fəal iştirak etmələrini, milli dəyərləri qoruyaraq, dövlətin gələcəyini inşa etmələrini təmin etmişdir. Onun siyasi kursunun layiqli davamçısı İlham Əliyev də bu strategiyanı uğurla davam etdirərək, "Azərbaycan Gəncliyi 2011–2015", "2017–2021" və digər dövlət proqramları vasitəsilə gənclərə daha geniş imkanlar yaratmışdır. Azərbaycan Respublikasının prezidenti yanında Gənclər Fondu, ASAN könüllüləri hərəkatı, "Gənc Liderlər" proqramı və digər təşəbbüslər də bu siyasətin inkişafına dəlalət edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev H.Ə Müstəqillik yollarında. Bakı, "Azərbaycan", 1997, 538 s.
2. F. Köçərli adına Respublika Uşaq Kitabxanası, Metodik vəsait, Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev Bakı, 2018, 68 s.
3. Mustafayeva R.Ş. Heydər Əliyev cənabları və gənc nəslin tərbiyə məsələləri / Azərbaycan məktəbi, 1999, №4, s. 34-42

HEYDƏR ƏLİYEVİN TƏHSİLDƏ İRSİ: MÜASİR AZƏRBAYCANIN İNTELLEKTUAL ƏSASLARININ QURULMASI

Gülşən Bayram qızı Nəsirova
Mingəçevir Dövlət Universiteti
AMEA Nəsimi adına Dilçilik İnstitutunun doktorantı
gulshan.nasirova@mdu.edu.az

Azərbaycanın Ümummilli lideri Heydər Əliyev ölkədə təhsilin müasirləşdirilməsində və institusionallaşdırılmasında dəyişdirici rol oynamışdır. İstər sovet dövründə, istərsə də Azərbaycan müstəqillik əldə etdikdən sonra Əliyev milli tərəqqinin strateji aləti kimi elmin, təhsilin və mədəniyyətin inkişafına üstünlük verirdi. Onun təhsil dünyagörüşü güclü, müstəqil və gələcəyə baxan xalqın əsasını yaxşı təhsilli əhalinin təşkil etdiyi inamında dərin kök salmışdı.

Heydər Əliyev təhsili strateji milli prioritet kimi qiymətləndirərək onun dövlətin inkişafında həlledici rola malik olduğunu dəfələrlə vurğulamışdır. 1970-ci illərdən Heydər Əliyev Azərbaycan SSR-də təhsilin statusunun yüksəldilməsinə yönəlmiş əsas siyasi tədbirlərin təşəbbüskarı oldu. Elm, tibb və dövlət idarəçiliyində yeni, savadlı və milli düşüncəli mütəxəssislər korpusunun formalaşdırılması məqsədilə həyata keçirilən genişmiqyaslı kadr hazırlığı siyasəti çərçivəsində, minlərlə azərbaycanlı gənc diqqətlə seçilərək Sovet İttifaqının Moskva, Leninqrad və digər elmi mərkəzlərində yerləşən qabaqcıl ali məktəblərinə göndərilmişdir. Bu insanlar sonralar müstəqil Azərbaycanın dövlət aparatında və iqtisadiyyatında xüsusi rol oynamışlar.

Əliyev dövlət quruculuğunda təhsilin əhəmiyyətini tez-tez vurğulayırdı. Onun 2000-ci ildəki çıxışında qeyd etdiyi kimi, "Biliksiz, təhsilsiz cəmiyyət gələcəyi qura bilməz". Onun rəhbərliyi ilə texniki və peşə məktəbləri genişləndi, dövlət təhsil infrastrukturunun qurulmasına və müasirləşdirilməsinə böyük sərmayələr yatırdı.

Müstəqillik əldə edildikdən sonra Heydər Əliyev Azərbaycan təhsil sistemində dərin və məqsədyönlü islahatların həyata keçirilməsinə başlayaraq, onu müasir və milli dəyərlərə əsaslanan bir sistemə çevirmək üçün ardıcıl addımlar atmışdır. 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Heydər Əliyev müharibədən dağılmış və iqtisadi cəhətdən sıxıntılı bir ölkəni bərpa etmək problemi ilə üzləşdi. Bu çətinliklərə baxmayaraq, təhsil əsas prioritet olaraq qalır. Onun administrasiyası milli kurrikulumda islahatların aparılması, müəllim hazırlığının təkmilləşdirilməsi və postsovetin ilk illərində baxımsızlıqdan əziyyət çəkən təhsil müəssisələrinin yenidən qurulması üçün uzunmüddətli strategiyalar qəbul etdi [6].

Əliyev YUNESKO, Dünya Bankı və Avropa Təlim Fondu kimi beynəlxalq qurumlarla əməkdaşlığın artmasına səbəb olan Azərbaycan təhsilinin qlobal çərçivələrə inteqrasiyasını dəstəkləyib. Bu tərəfdaşlıqlar Azərbaycanın postsovet təhsili islahatlarının formalaşmasında əsas rol oynayıb. Bu əməkdaşlığın ən mühüm nəticələrindən biri Azərbaycan tarixinə, mədəniyyətinə və dilinə daha

çox önəm verən yeni milli kurikulumların və dərsliklərin işlənib hazırlanması, bununla da tələbələrdə milli kimlik və mədəni davamlılıq hissini aşılamaq olmuşdur [5,6].

Bundan əlavə, əcnəbi təhsil məsləhətçilərinin dəstəyi ilə müəllimlərin yenidənhazırlanması proqramlarına başlanılıb, bu proqramlar sistemi sovet tipli əzbər təlimdən tələbə mərkəzli və tənqidi təfəkkürə əsaslanan təhsilə keçirmək məqsədi daşıyır. Əliyev müasir pedaqoji metodların uyğunlaşdırılmasını şəxsən bəyənmiş və daha geniş istifadə üçün beynəlxalq təhsil resurslarının Azərbaycan dilinə tərcüməsini təşviq etmişdir [3].

Bundan başqa, dövlət 1990-cı illərin əvvəllərində maliyyə tənəzzülündən əziyyət çəkən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) kimi elmi müəssisələrin sağlamlaşdırılmasına üstünlük verib. Əliyevin təşəbbüsü və nəzarəti ilə neft kimyası, informasiya texnologiyaları və ekologiya elmləri kimi sahələrdə elmi tədqiqatların dəstəklənməsi üçün yeni maliyyələşdirmə mexanizmləri tətbiq edilib. AMEA-nın tərkibindəki tədqiqat mərkəzləri beynəlxalq elmi qurumlarla əməkdaşlığa başlayıb, Azərbaycanın qlobal akademik şəbəkələrdə iştirakını artırıb.

Əliyev beynəlxalq akademik mobilliyin zəruriliyini də etiraf edib. Onun rəhbərliyi xarici universitetlərlə ikitərəfli müqavilələrin imzalanmasına şərait yaratdı və azərbaycanlı tələbələrin xaricdə, xüsusən də Türkiyə, Rusiya və Qərbi Avropada magistratura təhsili alması üçün yollar açdı. Bu addımlar Azərbaycan alimlərinin yeni nəslinin qlobal standartlarla tanış olmasını və yerli akademik ictimaiyyətə töhfə vermək üçün geri dönməsini təmin etdi.

Heydər Əliyev başa düşürdü ki, təhsil təkcə akademik biliklərə yiyələnmək deyil, həm də güclü mədəni kimlik və vətənpərvərlik şüuru tərbiyə etməkdir. O, milli dəyərlərin, ədəbiyyatın, folklorun, əxlaqi tərbiyənin məktəb proqramlarına inteqrasiyasının tərəfdarı olub. Bu yanaşma gənc nəsli mədəni assimilyasiyadan qorumaq və onları öz vətənlərinin mənəvi irsində lövbər etmək üçün nəzərdə tutulmuşdu.

2001-ci ildə Əliyev Azərbaycan dilinin rəsmi statusunu yenidən təsdiqləyən və onu bütün dövlət təhsil müəssisələrində əsas tədris vasitəsinə çevirən mühüm fərman imzaladı [4]. Bu addım onilliklər boyu davamlı şəkildə aparılan ruslaşdırmadan sonra milli dilin ləyaqətini və mərkəzliyini bərpa etməkdə mühüm dönüş nöqtəsi oldu.

Əliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Milli Konservatoriya, Rəssamlıq Akademiyası kimi institutları da gücləndirdi, mədəni təhsilin elmi-texniki fənlər kimi dövlət dəstəyini almasını təmin etdi. O, gənclərin incəsənət, musiqi və ədəbiyyatda iştirakını təşviq etmək məqsədi ilə dövlət tərəfindən maliyyələşdirilən təqaüdlərə və incəsənət festivallarına başlamışdır.

Üstəlik, hökumət tarix və mədəniyyət abidələrinin bərpasına təşəbbüs göstərdi, onların bir çoxu sonralar milli tarix və kimliyin öyrədilməsi üçün alətlər kimi təhsil proqramlarına daxil edildi. Tələbələr muzeylərə baş çəkməyə, milli irs günlərində iştirak etməyə və mədəni layihələrdə iştirak etməyə təşviq edildi; Beləliklə, təhsil keçmişlə gələcək arasında körpü oldu.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan təhsilinin inkişafında Ulu öndər Heydər Əliyevin tarixi xidmətləri. www/azertag/ az|xeber| 2341676. Bakı, 20.10. 2022

2. E.Sadıqov. Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü. Bakı, ADİU, 20 aprel 2023

3. İbrahimov, R. (2012). *Heydər Əliyev və Azərbaycanın təhsil siyasəti*. Baku: Elm və Təhsil.

4. Mammadova, A. (2013). *Language Policy in Post-Soviet Azerbaijan*. Baku: Nurlar Nəşriyyatı.

5. UNESCO. (2003). *UNESCO–Azerbaijan Cooperation in Education*. [https://en.unesco.org]

6. World Bank. (2000). *Education Sector Review: Azerbaijan*. Washington, DC: The World Bank Group. [Available online: https://documents.worldbank.org]

7. https://ikisahil.az/post/431543-azerbaycanda-elm-tehsil-medeniyyetin-inkishafi-ulu-onderheyder-eliyevin-adi-ile-baglidir

HEYDƏR ƏLİYEV İRSİNDƏN GÜC ALAN TARİXİ ZƏFƏRİMİZ

Xədicə Elxan qızı Abdullayeva
Mingəçevir Dövlət Universiteti
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı
xadica.abdullayeva.e@mdu.edu.az

Azərbaycan xalqının tarixində dönüş yaratmış, milli istiqlaliyyət tarixində xilaskar rolunu oynamış, ən taleyüklü və həlledici məqamlarda mənsub olduğu xalqı arxasınca apara bilmiş və müstəsna xidmətləri ilə əbədilik zirvəsi qazanmış Ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Belə ki, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, milli ideologiyasının formalaşmasında və strateji inkişaf kursunun müəyyən edilməsində Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Ötən illərə nəzər salarkən, Azərbaycan Respublikasının müasir dövlətçilik tarixində Heydər Əliyev irsinin mühüm strateji və ideoloji baza kimi çıxış etdiyinin bir daha şahidi oluruq. Milli şüurun oyanışı məhz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, məhz onun sayəsində dövlət müstəqilliyimiz əbədi və dönməz xarakter almışdır. Ulu Öndərin dəmir iradəsi və qərarlılığı, uzaqgörənliyi və strateji düşüncə tərzi, intizamlılığı və peşəkarlığı, cəsarəti və liderlik bacarığı sayəsində Azərbaycan dünya nizamında layiq olduğu mərtəbəyə çox sürətlə yüksələ bilmişdir. Şərəfli həyat yolu zaman və məkan anlayışına sığmayan Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində xalqına bağlılıq və təəssübkeşlik hələ gənclik dövrlərindən özünü biruzə vermişdir. Naxçıvanda sadə, olduqca zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük şəxsiyyət hələ gəncliyindən yüksək dövlət orqanlarında ali vəzifələr tutmuş, böyük bir ölkənin yükünü çiyinlərində daşıya bilmişdir. O, müstəqil Azərbaycanın davamlı inkişafını təmin etmək üçün uzunmüddətli və düşünülmüş strategiya müəyyən etmiş, dövlətin ideoloji dayaqlarını gücləndirmişdir.

1990-cı illərin əvvələrində öz müstəqilliyini yeni əldə edən Azərbaycan Respublikasında dərin siyasi, iqtisadi və o cümlədən, hərbi böhran mövcud idi. Ermənistanın işğalçılıq siyasəti nəticəsində ərazimizin bir hissəsi zəbt edilmiş, ölkə daxilində isə hakimiyyət böhranı, vətəndaş etimadsızlığı, idarəetmədə isə xaos hökm sürməkdə idi. Belə bir gərgin və taleyüklü şəraitdə Azərbaycan xalqı sabitliyə və güclü liderə ehtiyac duyurdu. 1993-cü ilin 15 iyununda Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi, sonradan prezident səlahiyyətlərini icra etməyə başlaması milli xilaskarlıq missiyasının başlanğıcı oldu [4, s.126]. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi böhranlı illərini yaşayan Azərbaycanda həyat ritmini tamamilə dəyişdi, ölkə tarixində yeni bir mərhələ başlandı. Heydər Əliyev real məhvolmadan xilas edilən müstəqil Azərbaycanı dağılmaq, parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etməyi bacardı. Onun müdrikliyi, siyasi iradəsi və idarəetmə təcrübəsi nəticəsində yalnız ictimai-siyasi sahədə deyil, həm iqtisadi, hərbi, diplomatik və elm-təhsil sahələrində canlanma müşahidə olundu. Respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərlərə yaraşıq verən neçə-neçə binalar inşa edildi, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə müxtəlif ərazilərdə əzəmətli heykəllər ucaldıldı. Xalqın kamal dünyasının formalaşdırılması, mənəviyyat sahələrinin inkişaf etdirilməsi üçün Heydər Əliyevin fəaliyyəti milli özünüdərkimizin təkamülündə üfüqlər açdı. Kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən, xüsusilə hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi [3, s.12].

O, dövlət idarəçiliyində peşəkarlıq prinsiplərini əsas götürərək, idarə sistemini təkmilləşdirdi, azərbaycanlılar mühüm dövlət vəzifələrində irəli çəkildi. Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" - deyərək, dövlət idarəçiliyində qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi. İctimai təhlükəsizliyin təmin edilməsi prioritet istiqamətlərdən birinə çevrildi. İdarəetmə institutlarında ciddi zəifliklər, hüquq-mühafizə orqanlarında peşəkar kadr çatışmazlığı və korrupsiya hallarının geniş yayılmasına baxmayaraq, Ulu Öndər rüşvətxorluğa, qanunsuz silahlı dəstələrə və cinayətkar qruplara qarşı sistemli mübarizə başlatdı. Bu sahədə aparılan siyasət nəticəsində qanunçuluq və ədalət prinsipləri cəmiyyətdə əsas norma kimi qəbul olundu. Ölkədə

ictimai-siyasi sabitlik bərpa olundu, dövlət çevrilişi təhlükəsi aradan qaldırıldı. Heydər Əliyevin təəssübkeşliyi yalnız daxili siyasətdə deyil, beynəlxalq müstəvidə də özünü göstərdi. O, xarici tribunlarda Azərbaycan xalqının haqlı mövqeyini cəsarətlə müdafiə edir, ölkənin maraqlarını ən yüksək səviyyədə qoruyurdu. Nəticədə, Ulu Öndərin adı vətənpərvərlik rəmzinə, davranışları müdriklik etalonuna, əməlləri isə hünər rəmzinə çevrildi, onun həyat və fəaliyyəti isə xalqa, vətənə məhəbbət və sədaqət meyarı oldu.

Ulu Öndər 2003-cü ildə tarixi müraciətində xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" [1]. Tarixi zaman Heydər Əliyevin bu inamını təsdiq etdi. Ümummilli lider Heydər Əliyev irsini və onun müdrik, zamanı önləyən siyasətini dövrün tələblərinə uyğun dövlət başçısı cənab İlham Əliyev uğurla davam etdirir. İlham Əliyevin mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti sayəsində respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir. Daim cənab Prezidentin özəl diqqəti və qayğısı altında olan gənclər siyasəti həyatın mənasına, dünyaya və gələcəyə yeni prizmadan baxan, xüsusi rəşadəti, igidliyi, ardıcıl və məntiqi düşüncəsi ilə seçilən, tarixi düşmənlərinə dərin nifrət etməyi, dostlarını və qardaşlarını isə qiymətləndirməyi bacaran yeni bir nəsil ərsəyə gətirdi. Bu nəsil şanlı tarixi olan, lakin məlum səbəblərdən 30 il başı aşağı gəzən xalqın iztirablarına dözə bilməyərək erməni təcavüzünün timsalında yağı düşmənin həyasızlığına son qoymaq üçün Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin bir əmri ilə 44 gün ərzində üzdəniraq erməni mifini sındıraraq dünya hərb tarixinə adını qızıl hərflərlə yazdırdı. Bu zəfər təkcə hərbi uğur deyil, eyni zamanda milli ruhun, birlik və bərabərliyin, ədalətin zəfəri oldu. Bu gün isə həmin torpaqlara həyatın, insanın, mədəniyyətin və inkişafın qayıdışı – "Böyük Qayıdış" baş verir. Bütün bunlar göstərir ki, Heydər Əliyev dühasının məhsulu olan və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət bütün kurallara uyğun və qüsursuz şəkildə icra olunmuşdur.

Tarixi Zəfər və Böyük Qayıdış – Azərbaycan xalqının əzmkar iradəsinin, milli həmrəyliyinin və ədalətə olan sarsılmaz inamının təntənəsidir. 30 ilə yaxın müddətdə işğalda olan torpaqlar azad edilməklə təkcə ərazi bütövlüyümüz bərpa edilmədi –həm də xalqın ruhu, milli ləyaqəti, tarixinin davamlılığı bərpa edildi. Bu zəfər əsrlər boyu torpaqlar uğrunda can verən şəhidlərimizin, övladlarına azad və güclü vətən miras qoymaq istəyən atalarımızın arzusunun gerçəkləşməsi oldu. İndi isə yeni bir mərhələ – Böyük Qayıdış prosesi davam edir. Qarabağ torpaqlarında yenidən ucalan məktəblər, mədəniyyət evləri, məscidlər və evlər – xalqımızın yaşamaq, yaratmaq və inkişaf etmək əzminin göstəricisidir. Bu, həm də gələcək nəsillərə ötürəcəyimiz müqəddəs bir mirasdır.

Tarixi Zəfər və Böyük Qayıdış – bu iki anlayış artıq Azərbycan xalqının milli kimliyinin ayrılmaz hissəsidir. Azərbaycan xalqının yenilməz mücadilə gücünün heç vaxt silinməyəcək izləri milli tarixin hər guşəsində və hər zərrəsində həkk olunub. Bu xalqın izimizi qoyacağı yollar, cığırlar, qayalar və möhür vuracağı sənədlər hələ qabaqdadır. "Qarabağ Azərbaycandır!" – deyə həmişə qürurla səsləndirdiyi bu ifadə indi reallığa çevrilib [2, s.406]. Bu reallığı yaşatmaq, qorumaq və gələcəyə daşımaq isə hər bir azərbaycanlının borcudur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. "Azərbaycan" qəzeti, 2 oktyabr 2003, Azərbaycan xalqına müraciət
2. Əliyev, İ. İnkişaf - məqsədimizdir: Zəfər: xüsusi buraxılış: 27 sentyabr-10 noyabr / İ.Əliyev. - Bakı:Azərnəşr,- 2024.- 432 s.
3. Qurbanov, H. Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır / H.Qurbanov.- Bakı: Bakı, - 2023.- 151 s.
4. Qurbanov, S. Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu / S.Qurbanov. - Bakı: İZƏ nəşriyyatı, - 2024.- 400 s.

ПРОДОЛЖЕНИЕ ДИПЛОМАТИИ ГЕЙДАРА АЛИЕВА ИЛЬХАМОМ АЛИЕВЫМ: СТРАТЕГИЯ И РЕЗУЛЬТАТЫ

Тюркан Ильгар кызы Гасымова
диссертант
Бакинскшй государственный университет
turkan.qasimova.90tn@list.ru

Введение

Гейдар Алиев, ставший президентом Азербайджана в 1993 году, заложил основы внешней политики страны, которая продолжалась и после его смерти в 2003 году. Его преемник, Ильхам Алиев, унаследовал не только сложные внутренние и внешние вызовы, но и стратегию, направленную на укрепление независимости и территориальной целостности Азербайджана. В данной статье будет рассмотрено, как Ильхам Алиев продолжил дипломатические усилия своего отца, адаптируя их к новым условиям и вызовам.

Укрепление международных связей

d) alınmalar qrafik olaraq qismən mənimsənilə bilər, məs., yunan alınmalarında y sözün ortasında yazıla bilər (symbol, synonym), ph səsi [f] (phoneme, morpheme), ch səsi [k] (chemistry, chaos), ps [s] səsi bildirir (psychology).

İlkin mövqedəki j, x, z hərfləri sözün xarici mənşəyini göstərir, məs. jewel, zest, xylophone. Latın alınmaları çoxhecalı quruluşunu saxlayır, qoşa samitlərə malikdir, bir qayda olaraq, prefiksin son samiti kökün ilkin samiti ilə assimilyasiya olunur (accompany, affirmative).

1650-ci ildən sonra ingilis dilinə daxil olan fransız alınmaları öz yazılışlarını saxlayır, məsələn. p, t, s samitləri sözün sonunda tələffüz edilmir (buffet, coup, debris). Xüsusilə fransızca eau hərflərinin birləşməsinə alınmalarda rast gəlmək olar: beau, chateau, trousseau. Bəzi diqraflar fransızca tələffüzünü saxlayır: ch kimi tələffüz olunur, məs. chic, parachute, qu [k] kimi tələffüz olunur, məs. bouquet, ou [u:] kimi tələffüz olunur, məs. rouge. Bəzi hərflər fransızca tələffüzünü saxlayır, məs. I [i:] kimi tələffüz olunur, məs. chic, machine; g kimi tələffüz olunur, məs. rouge. Bəzi fransız alınma sözləri diaktrit işarəsini saxlaya bilər: café, cliché.

Müasir alman dilindən alınmaların da orfoqrafiyasında bəzi özəllikləri var: ümumi isimlər böyük hərflə yazılır, məs. Autobahn, Lebensraum, bəzi saitlər və diqraflar almanca tələffüzünü saxlayır: a [a:] kimi tələffüz edilir, məs. Dictat, u [u:] kimi tələffüz olunur, məs. Kuchen, au [au] kimi tələffüz olunur, məs. Hausfrau, ei [ai] kimi tələffüz olunur, məs. Reich. Bəzi samitlər də alman dilində tələffüz olunur: s saitdən əvvəl [z] kimi tələffüz edilir, məs. Sitskrieg, v [f] kimi tələffüz olunur, məs. Volkswagen, w [v] kimi oxunur, ch [h] kimi oxunur, məs. Kuchen.

Assimilyasiya olunmayan alınmalar (barbarisms) ingilislər tərəfindən çox nadir hallarda istifadə edilən və mənimsənilməmiş alınmalardır, məs. addio (İtalyan), tete-a-tete (Fransızca) dolce vita (İtalyan), duende, (İspan), ad libitum (latın), ciao (İtalyan), coup d`etat (Fransız) və bir çox başqaları.

Fransız alınmalarının aşağıdakı semantik qrupları var:

a) Hökumətə aid sözlər: administer, empire, state, government;

b) Hərbi işlərə aid sözlər: army, war, banner, soldier, battle;

c) Hüquq elminə aid sözlər: advocate, petition, inquest, sentence, barrister;

d) Dəbə aid sözlər: luxury, coat, collar, lace, pleat, embroidery; uxury, coat, collar, lace, pleat, embroidery;

e) zinət əşyalarına aid sözlər: topaz, emerald, pearl;

f) Yemək və yeməklə bağlı sözlər: lunch, dinner, appetite, to roast, to stew.

Sözlər 1650-ci ildən sonra, əsasən fransız ədəbiyyatı vasitəsilə fransızcadan ingilis dilinə alındı, lakin onların sayı o qədər də çox deyildi və onların bir çoxu tam mənimsənilməmişdir. Bu alınmaların aşağıdakı semantik qrupları var:

a) Ədəbiyyat və musiqiyə aid sözlər: belle-lettres, conservatoire, brochure, nuance, pirouette, vaudeville;

b) Hərbi işlərə aid sözlər: corps, echelon, fuselage, manoeuvre;

c) Bina və mebelə aid sözlər: entresol, chateau, bureau;

d) Yemək və yeməklə bağlı sözlər: ragout, cuisine.

Hazırda ingilis dili bir çox ölkələrdə geniş yayılıb. İngilis dili Birləşmiş Millətlər Təşkilatının işçi dillərindən biridir. Orada xeyli miqdarda bədii və elmi-texniki ədəbiyyat nəşr olunur. Müstəmləkə zəbtlərinin başlanğıcında, ingilis dili yeni torpaqlara çətinliklə daxil olanda, İngiltərə dil normasının mərkəzi idi və kifayət qədər bir müddət belə bir mərkəz olaraq qaldı (Rozen, 2000).

19-cu əsrin sonunda Şimali Amerika İngilis dili getdikcə daha böyük rol oynamağa başladı. İngilis dilinin xüsusi norması təkcə Şimali Amerikada deyil, Avstraliyada da formalaşmışdır. ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiya ilə yanaşı, ingilis dili Asiya, Afrika və Amerikanın 50-dən çox inkişaf etməkdə olan ölkəsində istifadə olunur (Durkin, 2014). Belə ki, elmi işin bu hissəsində biz xarici alınmaların ingilis dilinə nüfuz etməsinin əsas səbəblərini öyrəndik, "alınma" terminini müxtəlif nöqteyi-nəzərdən araşdırdıq, həmçinin alınmaların təsnifatını və onların əsas elementlərini təhlil etdik.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Arbekova T.İ. İngilis dilinin leksikologiyası. M. 2010.
2. Ayto, J. (2007). Yeni sözlər əsri. Oxford: Oxford University Press.
3. Brunner K. İngilis dilinin tarixi. - M., 1956.
4. Borodina, M.A. Müasir dünyada latın dili / M.A.Borodin, V.S.Qorbunova // Gənc alim. - Buraxılış No 12. - M., 2015.
5. Cəfərov M.Z. Dilimiz və terminologiyamız. // Terminologiya məsələləri, Bakı : Elm, 1984
6. Quseva G.V. İngilis dilinin leksikologiyası üzrə mühazirələr. M. 1998.Xarici söz və ifadələr lüğəti, M.; AST nəşriyyatı, 1998
7. Rivlin. A.A. İngilis dilinin nəzəri qrammatikası: tədris vəsaiti
8. Şevyakova, V.E. Müasir İngilis dili (Söz sırası, aktual artikulyasiya, intonasiya)

METAFORALARIN TƏRCÜMƏSİ ZAMANI İSTİFADƏ EDİLƏN ÜSULLAR VƏ ORTAYA ÇIXAN PROBLEMLƏR

Ləman Vahid qızı Zeynalova-Məmmədzadə
Mingəçevir Dövlət Universiteti
leman.zeynalova-mammadzada@mdu.edu.az

Bədii ifadə və bədii təsvir vasitələri klassik ingilis poeziyasında çox mühüm rol oynayır. Çünki dildə obraz yaradan, dilə bədiilik, emosionallıq verən, bədii dilin təsir gücünü artıran əsas üslubi vasitələr dilin məcazlar sistemi, bədii təsvir və bədii ifadə vasitələridir. Bəs tərcümə prosesində bu üslubi vasitələr məxəz dilin oxucusuna hansı səviyyədə çatdırılır? Tərcümə olunmuş əsər məxəz dilin oxucusunda mənbə dilin oxucusunda yaratdığı hissləri oyada bilirmi? Klassik ingilis poeziyasının Azərbaycan dilinə tərcüməsində hansı problemlər özünü biruzə verir? Bu suallara aydınlıq gətirmək üçün klassik ingilis poeziyasında nəzərdən keçirdiyimiz bədii ifadə və bədii təsvir vasitələrinin Azərbaycan dilinə tərcümələrinə müraciət edək və ilk olaraq ən qüvvətli obraz yaradan leksik vasitə kimi metaforanın ingilis dilindən Azərbaycan dilinə tərcümə yollarına nəzər salaq:

He cannot curb his haughty mood,
Nor I forgive a father's blood.

Şair hər iki misrada metafora işlətmişdir. Birinci misradakı "cannot curb his haugty mood" (öz lovğalığını, qəzəbini cilovlaya bilməmək) metaforik ifadəsi, şöhrətpərəstliyi, şöhrətə aparan yolda heç kimə, heç nəyə güzəştə getməməyi, məhəl qoymamağı göstərir. Digər misradakı "not to forgive

blood" (qanı bağışlamamaq) metaforsı isə həm ingilis, həm Azərbaycan xalqının dilində "qisas almaq" (qanını yerdə qoymamaq) anlamını verir.

B.Vahabzadə bu misraları belə tərcümə etmişdir:

O, sındıra bilməyir qürurunu bircə an,
Mən də keçə bilimirəm öz atramın qanından.

Həmin poyemada digər bir metaforanın tərcümə yollarında diqqət yetirək:

The light of love, the purity of grace,
The mind, the Music breathing from her face,
The heart whose softness harmonized the whole,
And oh! That eyes was in itself a Soul.

Bu bəndin bütün misraları bir-biri ilə əlaqəli olan zəncirvari metaforadan ibarətdir. Bayron bu nümunədə öz qəhrəmanının incə, saf, məhəbbət dolu qəlbini, həzin ruhunu çox zərif bir şəkildə təsvir etmiş, maraqlı paralellər aparmışdır. Birinci misradakı "the light of love" (= the light of the Sun), "the purity of grace" (= the purity of water) metaforaları bu təsviri obrazlı şəkildə başlamış, sonuncu misradakı "that eye was in itself a Soul" metaforası ilə başa çatmışdır. Bu metforada "eye" (göz) sözü "glass", "mirror" (ayna, güzgü) sözü ilə paralelləşdirilir (göz qəlbi, ruhu, ayna, güzgü isə cismi əks etdirir). "The mind, the Music breathing from her face" metaforik obrazı həmin dövrdə etiraza səbəb olmuşdur. Bayron bu barədə öz qeydlərində yazırdı: "Mən ruhunda musiqi olmayanlara müraciət etmirəm, ancaq sadəcə olaraq oxucudan xahiş edirəm ki, gözəllik nümunəsi saydığı bir qadını onca dəqiqə gözünün qarşısına gətirsin. Əgər onda o, bu misrada nəyin zəif ifadə olunduğunu dərk etməzsə, mən ikimizin də halında acıyıram".

Bu bəndin Azərbaycan dilinə tərcüməsinə nəzər salaq:

Musiqi səslənirdi onun xoş nəfəsində,
Çaylar nəğmə deyirdi onun titrək səsində
Elə bil ki, təbiət özü yaratmışdı onu.
Gözləri ayna kimi əks etdirirdi ruhunu.

Orijinalda ifadə olunan fikir ümumiyyətlə tərcümədə öz əksini tapmış, tərcümə zamanı edilən artırma və əksiltəmələr mənaya çox da xələl gətirməmişdir. Orjinaldakı ikinci misra tərcümədə yerini dəyişərək birinci olmuş və şair onu obrazlı tərcümə etmişdir. Orjinaldakı birinci misradakı "the light of love", "the purity of grace" metaforalarını B. Vahabzadə birləşdirərək ikinci misrada daha sətir altı mənada vermişdir. Çayın axmasında doğurdan da bir gözəllik, məhəbbət, saflıq, məlahət var və bütün bunlar hamısı "onun titrək səsində" əks olunur. Qeyd etdiyimiz kimi bu bəndin bütün misralarında zəncirvari metafora öz əksini tapmışdır. Üçüncü misranı isə mütərcim "elə bil ki, təbiət özü yaratmış onu" kimi vermişdir ki, bu da öz həllini elə də yüksək səviyyədə tapmamışdır. Burada tərcüməçi "elə bil ki" sözünü ayrı bir söz və ya söz birləşməsi ilə əvəz etsə idi daha yaxşı olardı, çünki zahiri gözəllik, incə qəlb, zərif hisslər doğurdan da "təbiətin" insana hədiyyəsidir. Dördüncü misradakı metafora isə düzgün tərcümə olunmuşdur. Azərbaycan ədəbiyyatında "göz qəlbin aynasıdır" ifadəsinə tez-tez rast gəlinir. Həm ingilis, həm də Azərbaycan dilində bu metaforik ifadə oxucuda eyni hissləri oyadır.

Bayronun "Korifin mühasirəsi" poemasından götürülmüş bu parçanın da tərcüməsini izləmək maraqlı olardı:

He turned but she is gone!
Nothing is there but the column stone
Hath she sunk in the earth, Or melted in air?
He saw not – he knew not-but nothing is there [5, 315].

Üçüncü misrada "Hath she sunk in the earth, Or melted in the air?" metaforik ifadədir. Bu metafora təsvirə poetik əhval-ruhiyyə gətirməklə onu daha da obrazlı etmişdir.

Ingilis dilinin izahlı lüğətində " to sink" felinin 1) to go down below the surface or towards the bottom of a liquid or soft substance, 2) to damage a boat or ship so that it goes below the surface of the sea etc, 3) (of a person) to move downwards, specially by falling or sitting down, 4) to decrease in amount, volume, strength, etc, 5) (of an object) to move slowly downwards [4, 1406] və s mənalarında rast gəlinir ki, bu da "batmaq", "çökmək" deməkdir. " to sink in the earth" ifadəsi hərfi

olaraq "yerə batmaq" kimi tərcümə olunur. "Hath she sunk in the earth?" ifadəso isə artıq məcazlaşaraq metaforik ifadəyə çevrilir. "Hath she sunk in the earth?" – " yerəmi batdı o?" deyərkən şair "onun" çıxıb getdiyini, yox olduğunu, gözə görünmədiyini göstərir. Burada "bir cismin, əşyanın bataraq gözdən itməsi, görünməz olması" insanın çıxıb getməsi, uzun müddət onun haqda məlumatın olmaması ilə paralelləşdirilir. Azərbaycan dilində də bu ifadə metafora funksiyasında çıxış edir. danışıq dilində tez-tez işlədilən "kimsə batıb" ifadəsi həmin şəxs haqqında uzun zamandan bəri məlumatın olmamasına, həmin şəxsin görünməməsinə ifadədir " hath she ...(or) melted in air?" ifadəsi də eyni kontruksiyalı obrazdır. İngilis dilinin izahlı lüğətində "to melt" feli 1) to become or take something become liquid as a result of heating, 2) to become or to make a feeling, or emotion, etc. become gentler and less strong, 3) to disappear or make something disappear gradually, 4) to gradually become part of something and therefore become diffucult to see [4, 940] və s. kimi izah olunur. İzahatdan göründüyü kimi, məna etibari ilə hər iki ifadə eyni anlamı verir. Yəni, "to melt" feli Azərbaycan dilində ərimək, qarışmaq, yox olmaq kimi tərcümə olunur və "Hath she ... melted in air?" ifadəsində metaforikləşərək obraz əmələ gətirir. Azərbaycan dili üçün "Göymi çıxdı o? Qeybəmi çəkildi o?" ifadələri daha xarakterikdir. Bir fikirin iki formada, müxtəlif iki metafora ilə ifadə oluduğu bu parçanın Azərbaycan dilinə tərcüməsinə nəzər salaq:

Köhnə sütünlardı yenə bərqərar,
O qız havadamı ərədi birdən
Aman, bu nə işdi, nə əhvalatdı
Bir su içimində nə oldu, görən
Göyəmi qeyb oldu, yerəmi batdı? [3, 141]

Mütərcim burada "to melt in air" ifadəsini həm "havada ərimək", həm də "göyə qeyb olmaq" kimi vermişdir. "To sink in the earth" ifadəsi də məcaz olaraq sətiraltı mənada verilmişdir. Eyni fikiri ifadə edən bu iki antonimik ifadə Azərbaycan dilində işlək ifadələr olduğu üçün oxucu orijinaldakı fikri tuta bilir və orijinaldakı metaforalar tərcümədə metafora olaraq verilmişdir.

Həmin əsərdən digər bir hissəni nəzərdən keçeirək:

They did not know how pride can stoop,
When baffled feelings withering droop.
They did not know how hate can burn
In hearts once changed from soft to stern [5, 312].

Bu nümunədəki metaforalar vasitəsi ilə şair maraqlı paralellər aparmışdır: pride can stoop (= body can stoop), baffled feeling withering droop (= something droops because of being weak of tired), hate can burn (= fire can burn).

A.Aslanov bu parçanı belə tərcümə etmişdir:

Onlar nə bilsinlər, söyləyin bunu,
Bir eşqin axırı çıxınca boşa.
İnsan itirərmiş öz qürurunu,
Qəzəb döndərərmiş ət qəlbi daşa [3, 126].

Tərcüməçi "pride can stoop" metaforasını "insan itirərmiş öz qürurunu" kimi vermişdir. Ingilis dilinin izahlı lüğətində "to stoop" feli 1) to bend your body forwards and downwards,2) to stand or walk with your head and shoulders bent forwards (əyilmək), 3) to lower your moral standards to do something bad or unpleasant (alçalmaq) [4, 1490] kimi izah olunur. A. Aslanov bu sözü "itirmək" kimi tərcümə etmişdir. Mütərcim "to stoop" sözünü "ayaqlar altına atılmaq", "tapdalamaq" kimi versə daha yaxşı olardı. "When baffled feeling withering droop" metaforik obrazı "bir eşqin axrı çıxınca boşa" kimi tərcümə olunmuşdur. Digər metaforik ifadə "hate can burn... in hearts once changed from soft to stern" isə "qəzəb döndərərmiş ət qəlbi daşa" kimi verilmişdir. "Qəlb" sözü adətən poeziyada nəzm dilində işlədilir və bu sözü maddiləşdirərək "ət qəlb" kimi vermək düzgün deyil. Azərbaycan dilində əsasən incə qəlb, zərif qəlb, həssas qəlb, daş qəlb və s. kimi ifadələr işlədilir. Elə orijinaldakı "soft" sözü də Azərbaycan dilində "incə, zərif, həssas"kimi tərcümə olunur. Çox güman ki, tərcümə zamanı edilən dəyişikliklər artırma və əksiltmələr şeirin qafiyə quruluşuna əsasən meydana çıxır. Tədqiqat nəticəsində belə qənayətə gəlmək olar ki, dilin obrazlı ifadə vasitələrindən olan metaforanı bir dildən digər dilə tərcüməsi zamanı linqvistik faktorlarla yanaşı,

ekstralinqvistik faktorlar da mühüm rol oynayır. Bayronun təqdiqata cəlb etdiyimiz "Abidos gəlini", "Korinfin mühasirəsi" və "Gavur" poemaları şairin Şərqə səyahəti zamanı yazılmış əsərləri olduğundan bu əsərlərdə Şərq poeziyasının güclü təsiri özünü göstərir, bu da həmin poemalarda söz və ifadələrin məcazlaşaraq yaratdıqları metaforik mənaların Azərbaycan dilində həmin sözlərin yaratdığı metaforik mənlarla çox zaman üst-üstə düşməsinə gətirib çıxardır. Elə bu səbəbdən də tərcüməçilərin hərfi tərcümədən daha çox istifadə etmələrinin şahidi oluruq. Bəzən isə metafora tərcümədə metafora olaraq verilmir. Müəyyən əlavələr, artırmalar və əksiltmələr özünü göstərir. Bütün bunlar isə əvvəlcə qeyd etdiyimiz kimi, Azərbaycan şeir dilinin özünəməxsus qayda-qanunlarına – qafiyə quruluşuna, vəzn sisteminə əsasən edilir və bu da bəzən mənanın itməsinə səbəb olur. Tərcümə zamanı metaforalar həm sətiraltı, həm də sətriüstü mənada verilir.

"So that was the story of Dorian Gray's parentage. Crudely as it had been told to him, it had yet stirred him by its suggestion of a strange, almost modern romance. A beautiful woman risking everything for a mad passion. A few wild weeks of happiness cut short by a hideous, treacherous crime. Months of voiceless agony, and then a child born in pain. The mother snatched away by death, the boy left to solitude and the tyranny of an old and loveless man. Yes, it was an interesting background. It posed the lad, made him more perfect as it were. Behind every exquisite thing that existed, there was something tragic. Worlds had to be in travail, that the meanest flower might blow...". Bu mətndə "Wild weeks" ifadəsi metaforadır. Həftənin necə vəhşi olması O. Wildın böyük sözlərlə oynamaq qabiliyyəti haqqında danışır və oxucuya marağın saxlanamsına kömək edir. "Dimlylit streets... gaunt black-shadowed archways and evil-looking houses", "monstrous apes" və "grotesque children" metoforik söz kombinasiyası oxuyucuların üzərində böyük estetik təsir göstərir.

Tərcüməçilər əksər vaxtlarda orijinalda olan müəyyən bir bədii ifadə vasitəsini tərcümədə digər üslubi vasitə ilə verirlir. Bəzi leksik ifadə vasitələri hərfi tərcümə olunduğu halda orijinalda nəzərdə tutulan obrazlılığı mənbə dilin oxucusuna çatdırsa da, bəzən leksik bədii ifadə vasitələrinin tərcüməsində hərfi tərcümə özünü doğrultmur.

İngilis və Azərbaycan dilində şeirə olan texniki tələblər müxtəlif olduğundan tərcüməçilər müəyyən hallarda tərcüməsi mümkün olan bədii ifadə və bədii təsvir vasitələrinin transformasiyasında çətinlik çəkirlər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abdullayeva E.M., Bədii tərcümənin linqvistik problemləri, Bakı, "Ozan", 1997.
2. Ağayev Ə., Bədii tərcümələrin yüksək keyfiyyəti uğrunda / Tərcümə sənəti, Bakı, "Elm", 1990 .
3. Bayron C.Q., Şərq pomaları, Bakı, "Uşaqgəncnəşr", 1959, 196 s.
4. Hornby A.S., Oxford Advanced Learners Dictionary, Ninth edition, Oxford University Press, 2015, 1895 p.
5. Byron G.G., The poetical works of Lord Byron, London, Oxford University Press, 1912, 924 p.
6. Galperin L.R., Stylistic, Moscow, "Higher School", 1977, 332 p.
7. Leech N.G., A linguistic guide to English poetry, Longmans, 1968, 237 p.
8. Shakespeare W., The works of Shakespeare, Moscow, 1937, V, III, 842 p.

DÖVLƏT SİYASƏTİNDƏN TURİZMƏ: HEYDƏR ƏLİYEV İRSİNİN UĞURLU İZLƏRİ

Nərmin Arif qızı Əliyeva
Mingəçevir Dövlət Universiteti
narmin.aliyeva@mdu.edu.az

Giriş

Müasir dövrdə turizm sənayesi dünya iqtisadiyyatında mühüm yer tutur və dövlətlərin sosial-iqtisadi inkişafında aparıcı sahələrdən birinə çevrilmişdir. Azərbaycanda turizmin inkişafı isə əsasən

1993-cü ildən sonra - Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından etibarən strateji xətt kimi formalaşmağa başlamışdır [5].

Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti nəticəsində turizmin hüquqi-normativ bazası yaradılmış, infrastruktur layihələrə start verilmiş, milli-mədəni irsin qorunması və tanıdılması istiqamətində mühüm addımlar atılmışdır. Bu məqalənin məqsədi Heydər Əliyevin dövlətçilik strategiyasında turizmin yeri və bu strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini elmi əsaslarla təhlil etməkdir.

Tədqiqatın obyekti Azərbaycan Respublikasında dövlət siyasətinin turizm sahəsinə təsiri, predmeti isə Heydər Əliyev irsinin müasir turizm strategiyasındakı izləridir. Metodologiya kimi isə analitik, tarixi və müqayisəli təhlil yanaşmaları seçilmişdir.

1. Heydər Əliyevin dövlət siyasətində turizmə baxışı

Heydər Əliyev üçün turizm sadəcə iqtisadiyyatın bir sahəsi deyil, həm də milli dəyərlərin dünyaya tanıdılması, mədəni irsin qorunması və Azərbaycanın beynəlxalq imicinin formalaşdırılması vasitəsi idi. Onun baxışına görə, turizm strategiyası təkcə turist axınının təşkili ilə deyil, həm də xalqın tarixinin, adət-ənənələrinin və mədəniyyətinin gələcək nəsillərə ötürülməsi ilə sıx bağlı olmalı idi.

Ulu Öndərin idarəçiliyi dövründə Azərbaycanın suverenliyini möhkəmləndirmək məqsədilə mədəni-mənəvi irsin qorunmasına xüsusi diqqət yetirilmişdir. Bu isə turizm üçün strateji baza rolunu oynamışdır. Məhz bu dövrdə müxtəlif sahələri əhatə edən normativ hüquqi aktlar qəbul edilmiş, o cümlədən "Turizm haqqında" ilk dövlət proqramlarının hazırlanmasına zəmin yaradılmışdır.

Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, "Azərbaycan dünyaya tanıdılmalıdır. Bizim mədəniyyətimiz, tariximiz, təbiətimiz, xalqımızın qonaqpərvərliyi turizmin inkişafı üçün zəngin potensial yaradır." Bu yanaşma Azərbaycan dövlət siyasətində turizmin çoxşaxəli və strateji sahə kimi qəbul olunmasına səbəb olmuşdur [7].

Həmçinin, ölkədə sabitliyin təmin edilməsi, beynəlxalq əlaqələrin qurulması və iqtisadi islahatların həyata keçirilməsi turizm sektorunun inkişafı üçün əlverişli mühit formalaşdırmışdır. Beləliklə, Heydər Əliyev turizmi milli maraqlara xidmət edən, ölkənin sosial-iqtisadi və mədəni inkişafını dəstəkləyən kompleks bir sahə kimi görürdü.

2. Heydər Əliyev dövründə turizmin inkişafı üçün atılmış əsas addımlar

Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildən etibarən Azərbaycanda turizm sahəsinin inkişaf etdirilməsi məqsədilə bir sıra kompleks tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər, əsasən, üç istiqaməti əhatə edirdi:

- normativ-hüquqi bazanın yaradılması;
- infrastrukturun qurulması;
- beynəlxalq əlaqələrin möhkəmləndirilməsi [1].

2.1. Normativ-hüquqi bazanın formalaşdırılması

Ulu Öndərin təşəbbüsü ilə 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanun ölkədə turizmin hüquqi əsaslarını müəyyənləşdirməklə, turizm fəaliyyətinin təşkili, təşviqi və tənzimlənməsi baxımından mühüm bir addım oldu. Bundan əlavə, turizmlə bağlı vergi güzəştləri, investisiya təşviqi və sahibkarlığın inkişafı sahəsində də müvafiq normativ aktlar hazırlanaraq qəbul edildi. Bu qanunvericilik bazası turizm sənayesinə olan etimadı artırdı və özəl sektorun bu sahəyə marağını gücləndirdi.

2.2. İnfrastruktur layihələrinin icrası

Turizmin inkişafı üçün əsas şərtlərdən biri də müasir infrastrukturun qurulmasıdır.

Ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə 1990-cı illərin sonlarında ölkənin müxtəlif bölgələrində, xüsusilə də tarixi və turizm baxımından potensialı yüksək olan ərazilərdə- nəqliyyat, rabitə və mehmanxana infrastruk-turu yenilənməyə başladı. Bakı şəhərində və regionlarda yeni mehmanxanaların, istirahət mərkəzlə-rinin, turizm obyektlərinin açılması bu siyasətin praktiki nəticəsi idi.

Bundan əlavə, yolların təmiri, hava nəqliyyatı şəbəkəsinin genişləndirilməsi və sərnişindaşımaların rahatlaşdırılması kimi tədbirlər də turizmin inkişafına xidmət edirdi.

2.3. Beynəlxalq əlaqələrin qurulması

1990-cı illərin sonunda Azərbaycan artıq beynəlxalq turizm təşkilatları ilə əməkdaşlığa başlamışdı. Azərbaycan Respublikası 1993-cü ildə Dünya Turizm Təşkilatına (UNWTO) üzv oldu və bu təşkilat çərçivəsində turizm imkanlarının dünyaya tanıdılması istiqamətində fəal iştirak etməyə başladı. Bu əlaqələr nəticəsində ölkəmiz beynəlxalq sərgilərdə, konfrans və forumlarda təmsil olunmağa başladı ki, bu da Azərbaycanın turizm potensialının tanıdılmasında mühüm rol oynadı [9].

Bütün bu addımlar Ulu Öndərin turizmi yalnız gəlir mənbəyi kimi deyil, eyni zamanda mədəni diplomatiyanın və milli özünüdərkin təbliğ vasitəsi kimi qiymətləndirməsinin bariz nümunəsidir.

3. Turizm siyasətinin İlham Əliyev tərəfindən davam etdirilməsi

Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursunun Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilməsi nəticəsində Azərbaycan turizm sahəsində keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələ ölkədə sabitliyin daha da möhkəmlənməsi, beynəlxalq mövqelərin gücləndirilməsi və müasir infrastrukturun qurulması ilə müşayiət olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistemli siyasət nəticəsində turizm sahəsi milli iqtisadiyyatın aparıcı istiqamətlərindən birinə çevrilmişdir.

3.1. Regional inkişaf proqramları və turizmin coğrafi genişlənməsi

İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən **"Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları** [4] (2004–2023-cü illər) çərçivəsində bölgələrdə turizm üçün zəruri olan infrastruktur – ollar, su və elektrik xətləri, mehmanxanalar və istirahət mərkəzləri- yaradılmış və yenilənmişdir. Qəbələ, Şəki, Lənkəran, Naftalan və digər regionlar bu baxımdan strateji mərkəzlərə çevrilmişdir[3].

Eyni zamanda, ölkənin nadir təbiətə və mədəni irsə malik bölgələrində, məsələn, Lahıc, Basqal, Ordubad, Şuşa və s. turizm klasterlərinin formalaşdırılması üçün şərait yaradılmışdır.

3.2. Azad edilmiş ərazilərdə turizm potensialının inkişafı

44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm baxımından yenidən qurulması xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev azad edilmiş torpaqlarda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarını tətbiq etməklə, bu əraziləri ekoturizm və mədəni turizm üçün açıq məkana çevirməyi qarşıya məqsəd qoymuşdur[6].

Xüsusilə Şuşa şəhərinin **"Azərbaycanın mədəniyyət paytaxtı"**, 2023-cü ildə isə **"Türk dünyasının mədəniyyət paytaxtı"** elan olunması bu siyasətin bariz nümunəsidir. Bu istiqamətdə aparılan abadlıq-bərpa işləri və beynəlxalq tədbirlərin təşkili bölgənin turizm cəlbediciliyini artırır.

3.3. Mədəni irsin bərpası və beynəlxalq tanıtım

Milli-mədəni irsin beynəlxalq səviyyədə təbliğ olunması istiqamətində UNESCO ilə əməkdaşlıq genişlənmiş, Azərbaycanın mədəni abidələrinin dünya irs siyahısına daxil edilməsi prosesinə ciddi diqqət yetirilmişdir. Şəki Xan Sarayı, İçərişəhər, Qobustan Qaya Rəsmləri, Xınalıq və Köç yolları bu siyahıya daxil edilən nümunələrdir[8].

Bununla yanaşı, **"Azərbaycan Turizmin İnkişafına Dəstək Agentliyi"** və **"Azərbaycan Turizm Bürosu"** kimi strukturlar yaradılmış, ölkə brendi olan **"Experience Azerbaijan"** və **"Take Another Look"** kampaniyaları çərçivəsində xarici auditoriyalara sistemli şəkildə tanıtım işləri aparılmışdır[2].

Azərbaycan Respublikasında turizmin dövlət siyasətinin prioritet sahələrindən birinə çevrilməsi, Ulu öndər Heydər Əliyevin uzaqgörən və sistemli idarəçilik yanaşmasının nəticəsidir. Onun rəhbərliyi ilə əsası qoyulan strateji kurs həm hüquqi-normativ çərçivələrin yaradılması, həm də mədəni irsin qorunması və tanıdılması baxımından dayanıqlı inkişafın əsasını təşkil etmişdir. Heydər Əliyevin turizm sahəsinə münasibəti yalnız iqtisadi fayda əldə etmək məqsədi daşımamış, eyni zamanda bu sahəyə milli kimliyin təbliğat vasitəsi kimi yanaşılmışdır.

Prezident İlham Əliyev tərəfindən bu siyasət daha da inkişaf etdirilərək keyfiyyətcə yeni mərhələyə keçid etmişdir. Son iki onillikdə ölkədə həyata keçirilən regional inkişaf proqramları, beynəlxalq turizm brendlərinin təşviqi, turizm sahəsində institusional islahatlar və azad olunmuş ərazilərin turizm dövriyyəsinə daxil edilməsi bu siyasətin davamlı olduğunu göstərir.

Xüsusilə Şuşa, Qubadlı, Zəngilan və digər azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri Azərbaycan turizminin gələcək inkişafına böyük töhfələr verəcək. Həmçinin, turizmin ekoloji, etnoqrafik, sağlamlıq və mədəni istiqamətlər üzrə inkişaf etdirilməsi onu təkcə iqtisadi sahə deyil, həm də sosial və mədəni inteqrasiyanın bir vasitəsinə çevirir.

Nəticə

Bütün bu faktlar bir daha sübut edir ki, Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət siyasəti bu gün uğurla davam etdirilir və Azərbaycanın beynəlxalq turizm məkanında layiqli yer tutmasına zəmin yaradır. Bu siyasətin əsas məzmununu isə dövlətçilik, milli dəyərlər və uzunmüddətli inkişaf prinsipləri təşkil edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu. (1999). Bakı: rəsmi nəşr.
2. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. (2023). *Azərbaycanın Turizm Strategiyası*. Bakı: Rəsmi sənəd.
3. Azərbaycan Respublikasının Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramları (2004–2023). Bakı: Nazirlər Kabineti.
4. Əliyev, İ. (2005–2023). *Rəsmi çıxışlar və nitqlər*. Prezidentin rəsmi internet səhifəsi: www.president.az
5. Əliyev, H. (1997). *Müstəqilliyimiz əbədidir*. Bakı: Azərbaycan nəşriyyatı.
6. Quliyev, R. (2019). "Heydər Əliyev və turizmin strateji inkişafı". *Azərbaycan İqtisadi Araşdırmalar Jurnalı*, №4, s.
7. Mammadov, A. (2020). *Azərbaycan Respublikasında turizm siyasətinin formalaşması və inkişafı*. Bakı: Elm və Təhsil.
8. 8.UNESCO World Heritage Centre. (2023). *World Heritage List: Azerbaijan*. whc.unesco.org
9. UNWTO (World Tourism Organization). (2022). *Tourism and Sustainable Development: Case of Azerbaijan*. Madrid: UNWTO Publications.

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNƏ İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ÖYRƏDİLMƏSİNİN AKTUALLIĞI

Ülviyyə Murad qızı Məmmədova
Mingəçevir Dövlət Universiteti
ulviyya.mehdiyeva@mdu.edu.az

Qloballaşan dünyada effektiv ünsiyyət bacarığı hər bir fərdin uğurlu gələcəyi üçün əsas amillərdən biridir. Bu baxımdan ingilis dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi əhəmiyyəti danılmazdır. Xüsusilə erkən yaşlardan başlayan dil təhsili şagirdlərin dildə daha sərbəst və inamlı olmalarına imkan yaradır. İngilis dilindəki frazeoloji birləşmələr (idioms) isə dilin obrazlı, mədəni və gündəlik istifadəsini əks etdirən vacib ünsürlərdən biridir. Lakin frazeoloji birləşmələrin özünəməxsus mənaları və struktur xüsusiyyətləri onları öyrənmə baxımından həm maraqlı, həm də çətin edən amillərdəndir. Müasir dövrdə qloballaşma prosesi və beynəlxalq əlaqələrin genişlənməsi nəticəsində ingilis dili dünya miqyasında ən önəmli ünsiyyət vasitələrindən birinə çevrilmişdir. Bu səbəbdən ingilis dilinin erkən yaşlardan öyrədilməsi təhsil sisteminin əsas prioritetlərindən biri hesab olunur. Bu baxımdan, ibtidai sinif şagirdlərinə yalnız qrammatik biliklərin deyil, həm də ünsiyyətdə geniş istifadə olunan frazeoloji birləşmələrin (idioms) öyrədilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məqalədə ibtidai sinif şagirdlərinə ingilis dilində frazeoloji birləşmələrin öyrədilməsinin əhəmiyyəti, məqsədləri, metodları və qarşıya çıxa biləcək çətinliklər müzakirə olunur. [6]

Frazeoloji birləşmələr leksik-sintaktik sabit ifadələrdir və onların mənası komponentlərinin ümumi məna cəminə bərabər olmur. Frazeoloji birləşmələr dilin ifadə zənginliyini və emosionallığını artıran sabit ifadələrdir. Onlar birbaşa tərcümə olunduqda mənasını itirə bilər və kontekstdə

xüsusi məna daşıyırlar. Məsələn, "spill the beans" ifadəsi "lobyanı tökmək" mənasında deyil, "sirr açmaq" mənasında işlədilir. Bu tip ifadələr həm danışıq dilinin təbii hissəsidir, həm də dili öyrənənlər üçün dilin mədəni qatını mənimsəməyə kömək edir. Frazeoloji birləşmələrin öyrənilməsi şagirdlərin dilin kontekstual və metaforik tərəflərini qavramasını asanlaşdırır. Məsələn, "it's raining cats and dogs" ifadəsi leksik mənasına görə uşaqlar üçün çaşdırıcı ola bilər, lakin kontekstdə bunun "çox güclü yağış yağır" mənasına gəldiyi izah edildikdə yadda qalması asanlaşır. [1]

İbtidai yaş dövrü insan həyatında öyrənmənin ən aktiv və həssas mərhələsidir. Bu dövrdə uşaqların yaddaşı güclü olur, yeni informasiyalara qarşı maraqları yüksək olur və təbii şəkildə dil mənimsəmə bacarıqları inkişaf edir. İbtidai sinif şagirdləri öyrənməyə qarşı daha açıq, maraqlı və çevik düşüncəyə malikdirlər. Bu yaşda dil bacarıqlarının formalaşması sürətli şəkildə baş verdiyi üçün frazeoloji birləşmələrin öyrədilməsi həm onların lüğət ehtiyatını artırır, həm də danışıq bacarıqlarını inkişaf etdirir. Həmçinin, bu ifadələr vasitəsilə uşaqlar dili yalnız qrammatik qaydalara əsaslanaraq deyil, təbii şəkildə öyrənirlər. [4]

Frazeoloji birləşmələrin ibtidai sinif səviyyəsində öyrədilməsi aşağıdakı üstünlükləri verir:

1. Lüğət ehtiyatının zənginləşməsi: Şagirdlər gündəlik danışıqda istifadə olunan ifadələri mənimsəməklə daha təbii və ifadəli danışmağa başlayırlar.
2. Kulturoloji biliklərin artırılması: Frazeoloji birləşmələr dilin daşıdığı mədəni dəyərləri, deyimləri və məişət xüsusiyyətlərini ehtiva etdiyi üçün şagirdlər həm də başqa mədəniyyətləri öyrənmiş olurlar.
3. Danışıq və dinləmə bacarıqlarının inkişafı: Şagirdlər müxtəlif mətnlər və situasiyalar vasitəsilə ifadələrin mənasını daha rahat anlayır və öz nitqlərində istifadə etməyə başlayırlar.
4. Yadda qalma bacarığının artırılması: Frazeoloji birləşmələrin obrazlı və bəzən yumoristik xüsusiyyətləri onların daha uzunmüddətli yadda qalmasını təmin edir. [2]

Frazeoloji birləşmələrin ibtidai siniflərdə öyrədilməsi üçün aşağıdakı metod və yanaşmalar səmərəli sayılır:

- Vizual materiallardan istifadə: Şəkilli kartlar, animasiyalar, komikslər frazeoloji ifadələrin yadda saxlanmasına və mənalandırılmasına kömək edir.
- Kontextual yanaşma: İfadənin cümlə və ya situasiya daxilində istifadəsi onun mənasının daha yaxşı mənimsənməsinə səbəb olur.
- Oyun texnologiyaları: Uşaqlar oyunlar vasitəsilə ifadələri təkrar edir, qruplarda işləyir və interaktiv şəkildə öyrənirlər.
- Musiqi və ritm: Mahnılar, ritmik ifadələr və lətifələrlə ifadələrin tədrisi daha maraqlı və əyləncəli olur.
- Rollu oyunlar və dramatizasiya: Real həyat situasiyalarında frazeoloji ifadələrin işlədilməsi uşaqların həm praktiki nitq bacarıqlarını, həm də əyləncəli şəkildə öyrənməsini təmin edir. [5]

Frazeoloji birləşmələrin tədrisində müəyyən çətinliklərlə də qarşılaşmaq mümkündür. Bunlara mənanın mürəkkəbliyi, ifadələrin bəzən məntiqə uyğun olmaması və mədəni kontekstin çatışmazlığı daxildir. Bu hallarda müəllimlərin vəsaitlərdən düzgün istifadə etməsi, ifadələri gündəlik həyatla əlaqələndirməsi və təkrara əsaslanan yanaşmalarla işləməsi məqsədəuyğundur. Frazeoloji birləşmələrin öyrədilməsi oyunlar, şəkilli kartlar, mahnılar, animasiyalar və real situasiyalara əsaslanan məşğələlər vasitəsilə daha effektiv həyata keçirilə bilər. Uşaqlar bu ifadələri əyləncəli və yadda qalan şəkildə mənimsəyirlər. Məsələn, "break the ice" ifadəsini əyani situasiyada təqdim etməklə uşaqlar onun istifadəsini daha yaxşı anlayırlar. [3]

İngilis dilinin ibtidai siniflərdə frazeoloji birləşmələrlə tədrisi şagirdlərin dilə marağını artırır, onların söz ehtiyatını genişləndirir, danışıq və qavrama bacarıqlarını gücləndirir. Həmçinin bu yanaşma şagirdlərə yalnız texniki dil biliklərini deyil, həm də mədəni anlamda zəngin bir ünsiyyət bacarığı qazandırır. Buna görə frazeoloji birləşmələrin ibtidai siniflərdə tədrisi aktual və zəruri bir istiqamət hesab olunmalıdır.

İbtidai sinif şagirdlərinə ingilis dilində frazeoloji birləşmələrin öyrədilməsi onların dilə marağını artırmaqla yanaşı, ünsiyyət bacarıqlarını da gücləndirir. Bu proses onların dil öyrənməyə motivasiyasını artırır və daha təbii danışıq vərdişlərinin formalaşmasına əlverişli şərait yaradır. Buna görə də frazeoloji birləşmələrin tədrisi ibtidai ingilis dili proqramlarının ayrılmaz hissəsi olmalıdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Cowie, A.P., Mackin, R., & McCaig, I.R. (1993). Oxford Dictionary of English Idioms. Oxford University Press.
2. Moon, R. (1998). Fixed Expressions and Idioms in English: A Corpus-Based Approach. Oxford University Press.
3. Cambridge University Press. (2020). English Idioms in Use (Elementary to Advanced Levels). Cambridge University Press.
4. Baker, L. (2002). Using Idioms in the Classroom: Creative Methods for Young Learners. TESOL Journal, 11(4), 22–27.
5. Məmmədova, S. (2018). "İngilis dili dərslərində frazeoloji birləşmələrin tədris metodikası." Bakı: ADPU Nəşriyyatı.
6. Əliyeva, G. (2021). "Erkən yaşda xarici dil öyrənmənin psixopedoqoji əsasları." Azərbaycan Müəllim Jurnalı, 4(12), 45–49

HEYDƏR ƏLİYEVİN ELMİ ƏSASLARA SÖYKƏNƏN DÖVLƏTÇİLİK KONSEPSİYASI

[1,3]**Arifə Carı qızı Nəsibova,** [2,3]**Nuranə Nazim qızı Abbasova-Zeynalova**
[1]ulviyya.mehdiyeva@mdu.edu.az
[2]ulviyya.mehdiyeva@mdu.edu.az
[3]Mingəçevir Dövlət Universiteti

Bütün mənalı həyatını xalqına həsr etmiş Heydər Əliyevin dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycanın tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir.

Ümummilli lider Heydər Əlyev bizim ücün elmi prinsiplərə və zəngin intellektual potensiala əsaslanan mükəmməl bir dövlətçilik konsepsiyası yaratmış, dövlət idarəçiliyi sahəsində dərin elmi-nəzəri və praktiki irs qoymuşdur. Bu konsepsiya mükəmməl elmi nəzəriyyəyə, sınaqdan çıxmış təcrübəyə, reallığa və məsuliyyətə əsaslanır və iki tarixi dövrü əhatə edir:

- SSRİ tərkibində Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər;
- müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illər.

Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının yaradılmasındakı xidmətləri onun sovet dönəmindəki seçdiyi xətlə çox əlaqəlidir. 1969- cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan partiya təşkilatına rəhbər seçilməsi onun liderlik keyfiyyətlərinin, təşkilatçılıq istedadının və intellektual qabiliyyətinin qiymətləndirilməsi idi. Azərbaycanın siyasi tarixində yeni bir mərhələ açmış bu hadisə ilə xalqımızın həyati problemlərinə, prinsipial məsələlərinə yeni ideoloji, konseptual və fəlsəfi yanaşmaların əsası qoyuldu. Bu, eyni zamanda gələcəyə istiqamətlənmiş strateji məqsədlər güdən özünəməxsus rəhbərlik və idarəetmə fəlsəfəsinin başlanğıcı idi.

Heydər Əliyevin gərgin əməyi, qətiyyəti, fitri idarəçilik qabiliyyəti və yüksək vətənpərvərliyi sayəsində Azərbaycan keçmiş ittifaqın geridə qalmış əyalətindən bütün sahələrdə sürətlə inkişaf edən, yüksələn respublikaya çevrildi.

Heydər Əliyevin hakimiyyətə gəlişi ilə respublikada ənənəvi təsərrüfat sahələrinin səmərəliliyinin artırılması ilə yanaşı, yeni-yeni istehsal istiqamətlərinin yaradılması yolunda çoxşaxəli fəaliyyətin əsası qoyulmuş, iqtisadiyyatın sənaye bazasının genişləndirilməsi və müasirləşdirilməsi xətti yeridilməyə başlanmışdır ki, bunun da nəticəsində bir tərəfdən Azərbaycanın iqtisadi potensialı qat-qat güclənmiş, digər tərəfdən isə respublikanın əvvəlcədən formalaşmış xammal bazası yönümü dəyişdirilmişdi [1].

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə milli gəlir 2,5 dəfə artmış, eyni zamanda sənaye istehsalı 2,7 dəfə artaraq əvvəlki 30 ildə istehsal olunan məhsulun həcmindən 2 dəfə çox olmuşdur. Həmin dövrdə Azərbaycanda böyük quruculuq, yaradıcılıq və inkişaf mərhələsi, cəmiyyətin bütün sahələrində yüksəliş və tərəqqi dövrü hökm sürürdü. Bütün bunların nəticəsi idi ki, Azərbaycan İttifaq büdcəsindən dotasiya almadan fəaliyyət göstərən iki respublikadan biri idi.

XX əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərlik məharəti nəticəsində Azərbaycan cəmiyyət həyatının bütün sahələrində nəinki sürətli yüksəliş mərhələsinə qədəm qoymuş, həm də Azərbaycanda milli özünüdərk prosesi xüsusilə qüvvətlənmişdir. Həmin proses çətin illərdə Heydər Əliyev tərəfindən çox böyük həssaslıq və uzaqgörənliklə idarə olunur və tənzimlənirdi. Sovet sisteminin ağır təzyiqlərinə baxmayaraq Heydər Əliyev son dərəcə yüksək məharəti, böyük bacarığı, nadir rəhbərlik istedadı ilə Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atırdı.

1982-ci ilin axırlarında Heydər Əliyev Siyasi Büroya üzv seçildi və SSRİ Nazirlər Sovetinin birinci müavini təyin edildi.Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə gələndə bitkin dövlətçilik konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmışdır. Heydər Əliyev Milli Məclisə sədr seçiləndən sonrakı ilk çıxışında deyirdi ki, Ali Sovetin sədri kimi xalqımın tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Heydər Əliyevin Azərbaycana rəhbərlik dövrünün ikinci mərhələsi nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən illərə təsadüf etsə də, ona xas olan siyasi müdriklik, illərlə toplanmiş böyük dövlət-çilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası doğma vətəninin düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amil kimi özünü təsdiqlədi. Bu illərin ən mühüm nəticəsi, hər şeydən əvvəl müstəqilliyimizin dönməz, əbədi xarakter alması, erməni təcavüzünün qarşısının alınması və ölkəmizin ərazi bütövlüyünü təmin etmək uğrunda apardığımız mübarizənin real bəhrələr astanasına gəlib çatmasına nail olması idi.

Heydər Əliyevin bu dövrdəki fəaliyyətinin mühüm bir hissəsini onun dövlətçilik fəlsəfəsi, milli-mənəvi və ideya-sivasi dünyagörüşü təşkil edir. Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət Azərbaycan şəraitində inzibati-amirlik sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri əsaslarını yaratmışdır. İmpetiva və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqlan ilə üz-üzə qalmış, qloballaşan dün- yada öz yerini axtaran, maraqlanm qorumağa çalışan gənc Azərbaycan Respublikası üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası oldu. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqlan tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlannın çox böyük rolu oldu. [2]

Heydər Əliyevin müstəqil dövlətçilik konsepsiyasının əsasını ölkə daxilində, regionda və beynəlxalq aləmdə cərəyan edən proseslərin mahiyyətinin, məqsədlərinin və arxasında dayanan qüvvələrin öyrənilməsi, qiymətləndirilməsi və vəziyyətə uyğun fəaliyyət proqramının hazırlanması təşkil edirdi. O öyrədirdi ki, fəaliyyətə başlamazdan əvvəl dövlət və dövlətçiliklə bağlı hər şey dərindən təhlil edilməli, proqnozlaşdırılmalı və çevik fəaliyyət proqramı hazırlanmalıdır.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı az bir müddət içində Azərbaycanda dövlət quruculuğu istiqamətində düşünülmüş, məqsədyönlü, ardıcıl, çevik siyasət həyata keçirilməyə başlandı.

Heydər Əliyevin dövlət quruculuğu proqramında güclü dövlət anlayışı xüsusi yer tuturdu. Onun düşündüyü güclü dövlət mükəmməl mərkəzi və yerli idarəetmə mexanizmi, sabit ictimai-siyasi həyatı, işlək qanunları, ədalətli cəmiyyəti olan, insanları dəyərləndirilən və qabiliyyətinə görə proseslərə cəlb edilən, milli birliyə malik bir sistem tələb edirdi. Cəmiyyətin və dövlətin bütün sferalarını bürümüş dərin böhran şəraitindən çıxış yolu yalnız dövlət hakimiyyətinin radikal şəkildə gücləndirilməsindən, sosial, iqtisadi və siyasi proseslərin dövlət tənzimlənməsinin genişləndirilməsindən ibarət idi. Bunun üçün hakimiyyətin bütün qollarının, xüsusilə də icra hakimiyyətinin qanun çərçivəsində gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edirdi ki, bu da hər şeydən əvvəl, dövlət idarəçiliyi məqsədlərinin müəyyənləşdirilməsi, ümumi təşkili, tənzimləmə və əlaqələndirmə mexanizmlərinin, vahid nəzarət sisteminin hərtərəfli və tədricən yaxşılaşdırılması yolu ilə ölkədə idarə olunanlığın bərpasını və dövlət idarəetməsinin səmərəliliyinin yüksəldilməsini nəzərdə tuturdu. Beləliklə, Heydər Əliyevin müstəqillik dövründəki hakimiyyətinin ilk illəri yeni dövlət idarəçiliyi

sisteminin yaradılması və dövlət nizam-intizamının möhkəmləndirilməsinə, ölkədə baş alıb gedən qanunsuzluğun qarşısının alınmasına, ictimai-siyasi sabitliyin yaradılmasına, milli birliyə və vətəndaş həmrəyliyinə nail olunmasına sərf edildi.

Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını, milli ideologiyanın əsasını məhz Heydər Əliyev yaratmışdır. [3]

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyev nəinki müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını işləyib hazırladı və həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim - azərbaycançılıq ideologiyasını da yaratdı. Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni bir məzmun verərək onu bütöv bir xalqın - bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin milli birlik platformasına və milli ideologiyasına çevirdi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı-2001
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 22-ci cild, Bakı, 2007
3. Qəndilov S.və b. Dövlət idarəetmə nəzəriyyəsi. B, 2010

AZƏRBAYCAN DÖVLƏTİNİN XİLASKARI VƏ QURUCUSU: HEYDƏR ƏLİYEV

Şəhanə Şahin qızı Heydərova
Mingəçevir Dövlət Universiteti
shahan.ebabayevaa@mdu.edu.az

Azərbaycanın zəngin dövlətçilik ənənəsi var və biz bu ənənə ilə əsrlərdir öyünürük. Dövlət və xalq olaraq qarşıda duran əsas vəzifələrdən biri Azərbaycanın dövlətçilik tarixini və milli adət-ənənələrini, elm və mədəniyyətini təbliğ etməkdən ibarətdir. Ümummilli lider Heydər Əliyev bu haqda çox qiymətli və müdrik fikirlər bildirmişdir.Qədim tarixi köklərə söykənən Azərbaycanın dövlətçilik tarixi yalnız qorunub saxlanılmır,eyni zamanda yaxşı mənada inkişaf edir. Bu gün Azərbaycan dövləti istər siyasi, istər fiziki cəhətdən öz sözünü layiqincə deyir və deməkdədir.

Beş minillik tarixi olan Azərbaycanın dövlətçilik ənənələri lap qədimlərə dayanır.Tariximizin inkişafı zaman-zaman mədəniyyətimizin, adət-ənənələrimizin, ədəbiyyatımızın tərəqqisinə səbəb olub. Azərbaycan xalqı dövlətçilik ənənələrinə bağlı bir xalq olaraq,bu təməllər üzərində öz milli-mənəvi dəyərlərini formalaşdırıb. Lakin uzun illər boyu Çar Rusiyası və SSRİ dövründə regiona maraq göstərən bəzi üzdəniraq alimlərin müəyyən siyasətə xidmət etməsi nəticəsində Azərbaycan xalqının dövlətçilik tarixinin təhrif olunmuş şəkildə öyrənilməsinə və təqdim olunmasına gətirib çıxarmışdı.

Dünyaca tanınmış filosoflardan birinin belə bir kəlamı vardır. "Tarix şəxsiyyəti deyil, şəxsiyyət tarixi yaradır".

Ümummilli liderimiz Heydər Əliyev bütün həyatı boyu Azərbaycanın hərtərəfli inkişafı, tərəqqisi üçün çalışan dahi kimi çağdaş tariximizə qızıl hərflərlə yazıldı.1993-cü ildə zərurətdən hakimiyyətə gələn Heydər Əliyev bütün sahələrdə hərtərəfli inkişafını təmin edərək, Qərb aristokratiyasını Şərq müdrükliyi ilə birləşdirərək, ölkəmizi beynəlxalq arenada tanıtdı, varlığımızı sübuta yetirdi.

Zaman bizdən israrla tələb edir ki, müsttəqil Azərbaycanın müasir vətandaşları Heydər Əliyevi Azərbaycan dövlətçiliyinin banisi kimi dərk edək və qiymətləndirək. O, Azərbaycanın modernləşməyə əsəslanan milli inkişaf strategiyasının - azərbaycançılıq, milli birlik, sosial ədalət, əhalinin sosial firavanlığı, ölkəmizin ərazi bütövlüyü ideyalarına əsaslanan müstəqil, firavan və siyasi baxımdan sabit dövlət qurulması strategiyasının təməlini qoymuşdur.

Hər bir dövlətin tarixi unikaldır. Azərbaycan dövlətinin unikallığı bilvasitə Heydər Əliyevin adı ilə bağlıdır.

Bu gün artıq Azərbaycan Avropa və Asiyanın qovşağında mühüm beynəlxalq tranzit mərkəzinə çevrilib.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan dövlətçilik tarixinin banisi Heydər Əliyev idi. Bu şərəfli, əzəmətli tarixin ardını isə Ulu Öndərin ləyaqətli varisi İlham Əliyev daha qətiyyətli və əfsanəvi şəkildə yazmaqda davam edir. Dahi şəxsiyyətin vəsiyyət və missiyasını qüdrətli şəkildə yerinə yetirən İlham Əliyev Azərbaycan dövlətçilik tarixini daha əzəmətli səhifələrini yazmağa və yaratmağa müvəffəq oldu.

Bu gün Azərbaycanın dövlətçilik tarixi, elm-mədəniyyəti uğurla təbliğ edilir, milli-mənəvi dəyərlərimizə dövlət səviyyəsində yüksək qiymət verilir. Müstəqillik dövründə milli-mənəvi dəyərlərin qorunmasına söykənən təbliğat işi 44 günlük Vətən müharibəsində öz bəhrəsini verdi. Bir dəfə də olsa, Qarabağda olmayan,o yerləri görməyən,dərsliklərdən və informasiya mənbələrindən qiyabi tanıyan gənc nəsil Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qələbə qazandı.

Ulu Öndərin dövlətçilik siyasətini əzmlə davam etdirən İlham Əliyev müzəffər ordu yaratdı. Bu ordu isə bizə Qarabağı qaytararaq bizi bütöv, azad azərbaycanlı etdi. Tarixdə yeni bir səhifə yaradan Prezidentimiz İlham Əliyevin başçılığı altında 30 illik həsrətə 44 gündə son qoydu.

Bu gün bir tərəfdə azad olunmuş torpaqlarımızda quruculuq və abadlıq işləri görülür, digər tərəfdən isə dünyaya neft və qaz verən güclü Azərbaycan var. Güclü ordu, güclü iqtisadiyyat və vətəni sonsuz məhəbbətlə sevən sərkərdə və onun rəhbərliyi altında əzmlə irəliləyən xalq. Budur dövlətçilik tarixi. Bizim İlham Əliyev kimi sərkərdəmiz var. Nə qədər ki, belə qüdrətli sərkərdəmiz var biz bütöv Azərbaycan yaradacağımıza inanırıq. Məhz onun uzaqgörən və ağıllı siyasəti və özünündə dediyi kimi "dəmir yumruğu" var biz Göyçə, Zəngəzur və digər yurd yerlərimiz qayıdacaq və güclü, bütöv Azərbaycan qurmaqda davam edəcəyik.

Azərbaycan dövləti ulu öndərimizin ən layiqli, siyasi varisi prezident İlham Əliyevin rəhbərliyi altında daha yüksək zirvələrə-inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlib.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Orucov H.X. Haydar Aliyev ve Azerbaycanda Milli siyaset. İstanbul, 2010
2. Quluzadə M.N. Azərbaycanın Dövlətçilik Tarixi. Bakı, 2016

YAŞIL DÜNYA VƏ DAVAMLI ÖYRƏNMƏ

Fatma Mürşüd qızı Əliyeva
Mingəçevir Dövlər Universiteti
fatma.aliyeva@mdu.edu.az

Qloballaşmanın, urbanizasiyanın və sənayeləşmənin sürətl artması nəticəsində, planetimizdə ekoloji problemlər də dərinləşməkdədir. İqlim dəyişikliyi, resursların tükənməsi, tullantıların artması və təbiətin pozulması bugünkü dünyanın ən böyük çağırışlarından hesab edilir. Bu kontekstdə "yaşıl dünya" konsepti ekoloji tarazlığın bərpası və davamlı inkişaf üçün böyük əhəmiyyət daşıyır. Digər tərəfdən, isə "davamlı öyrənmə" isə insanların bu problemlərin həllinə yönəlmiş bilik və bacarıqlarını artırmaq üçün əsas vasitələrdən biri hesab edilir. Bu məsələləri nəzərə alaraq, Yaşıl dünya və davamlı öyrənmənin əhəmiyyətini, onların bir-birini necə tamamladığını və gələcək perspektivləri araşdırmaq lazim gəlir.

"Yaşıl dünya" nədir?

"Yaşıl dünya" ifadəsi ətraf mühitin qorunmasını və ekoloji tarazlığın təmin edilməsi ücün nəzərdə tutulan yanaşmadır. Yaşıl dünyanın məqsədi, planetimizin resurslarını səmərəli istifadə edərək, təbiətə zərər vermədən gələcək nəsillərə təmiz və sağlam bir dünya buraxmaqdır.

"Yaşıl dünya" anlayışı iqtisadi, sosial və ətraf mühit sahələrində davamlılığa təşviq edərək insanların daha təmiz, sağlam və harmonik bir həyat tərzi yaşamasını təmin etməkdən ibarətdir.

Davamlı öyrənmə, həyat boyu davam edən bir öyrənmə prosesidir və bu prosesin məqsədi insanların yeni biliklər qazanaraq daha yaxşı qərarlar qəbul etməsini təmin etməkdir. Davamlı öyrənmə müasir cəmiyyətdə əhəmiyyətli bir rol oynamaqla yanaşi ekoloji məsələlər, texnoloji yeniliklər və sosial dəyişikliklər kimi dinamik sahələrdə də bilikləri davamlı olaraq yenilənməlidir. Bu prosesin əsas komponentlərinddən olan ətraf mühit təhsili yəni ekoloji problemlərin qavranılması və ekoloji məsuliyyət hissinin inkişaf etdirilməsi üçün əhəmiyyətli bir vasitədir. Texnoloji yeniliklərin izlənməsi vasitəsilə fərdlərin yeni texnologiyaları mənimsəyərək ekoloji təsirləri azaldacaq üsulları tətbiq etmək əsas vasitə hesab olunur.Ekoloji dəyərlərin gücləndirilməsi davamlı öyrənmə vasitəsilə cəmiyyətdə yaşıl dəyərlərin təşviq edilməsi və bu sahədə bilik və bacarıqların artırılmasına təsviq edir. Şəxsi İnkişaf yonundə fərdi səviyyədə yeni bacarıqların qazanılması və məsuliyyətli davranışların təşviq edir.

Yaşıl dünyanın inkişaf etdirilməsi üçün davamlı öyrənmə əsas şərtdir. Bu iki konsept arasında mövcud olan əlaqələri arasdirsaq məlumatlandırma və maarifləndirmə yonundə insanlar davamlı öyrənmə vasitəsilə ekoloji məsələlər barədə məlumatlanır və yaşıl dünya üçün zəruri davranış dəyişikliklərini öyrənirlər. Texnoloji Adaptasiya baximindan yeni texnologiyalar yaşıl dünya üçün böyük imkanlar yaradır və davamlı öyrənmə fərdlərə bu yeniliklərdən necə istifadə edəcəyini öyrədir. Ekoloji Qanunvericilik və Təşəbbüsləri nəzərə alsaq davamlı öyrənmə, ictimaiyyətin ekoloji siyasətləri anlamasına və onların dəstəyinə imkan yaradır.

Davamlı öyrənmə vasitəsilə fərdlər, ekoloji problemləri anlamaq və onların həlli yollarını axtarmaq üçün daha məsuliyyətli və məlumatlı bir cəmiyyətin yaranmasına dəstək verirlər. Dünya ətraf mühit problemlərinin hər keçən gün daha da artdığı bir dövrdə yaşıl dünya və davamlı öyrənmə anlayışları getdikcə daha böyük əhəmiyyət kəsb edir. Yaşıl dünya, ekoloji dəyərlərə əsaslanan bir həyat tərzini və təbiətin qorunmasını hədəfləyir. Bu anlayış, gələcək nəsillərə daha sağlam, təmiz və yaşanabilir bir dünya miras qoymaq istəyini özündə cəmləyir. Bu məqsədi reallaşdırmaq üçün isə insanların davamlı öyrənməyə yönəlməsi vacib amillərdən biri hesab edilir. Çünki davamlı öyrənmə, ekoloji problemləri və onların həll yollarını dərindən anlamaq, bilinənləri tətbiq etmək və dəyişən dünyaya uyğun yeni biliklər qazanmaq üçün zəruri bir prosesdir.

Ekoloji təhsilin genişləndirilməsini qeyd edə bilərik ki, məktəblərdə və universitetlərdə ekoloji təhsil proqramlarının genişləndirilməsini, texnologiyanın yaşıl məqsədlərə yönləndirilməsini yəni rəqəmsal texnologiyaların yaşıl məqsədlər üçün istifadə olunur.

Davamlı inkişaf məqsədlərinin tətbiqi Yaşıl dünya və davamlı öyrənmə sahəsində davamlı inkişaf məqsədlərinə uyğun siyasətlərin həyata keçirilməsi və onların davamlı öyrənmə ilə birləşdirilməsini əhatə edir. Gənc nəsillərin Yaşıl dəyərlərlə böyüdülməsi, gənclərin ekoloji məsuliyyətə sahib olaraq yetişdirilməsi və yaşıl dəyərlərin həyat tərzi kimi mənimsənməsi Yaşıl dünya və davamlı öyrənmə sahəsində həyata kecirilən tədbirlər siyahisindadir. Yaşıl Dünyanın Əsasları və Əhəmiyyəti ondan ibarətdir ki, Yaşıl dünya dedikdə təbiəti qorumağa, ətraf mühitə zərər verməyən həyat tərzini sürməyə yönələn bir konsepsiya nəzərdə tutulur. Bu konsepsiya – karbon izinin azalması,enerji səmərəliliyi,təkrar emal və tullantıların minimuma endirilməsi, təbiəti qoruma layihələri kimi mövzuları əhatə edir.

Dünya əhalisinin sürətlə artması, təbii sərvətlərin qeyri-səmərəli istifadəsi və urbanizasiyanın genişlənməsi ətraf mühitə böyük ziyan vurur. Bunun nəticəsində iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması və çirklənmə kimi problemlər daha da qabarır. Yaşıl dünya anlayışı isə bu problemlərin həlli üçün təkcə dövlət və şirkətlərin deyil, hər bir fərdin öz öhdəliklərini anlaması və ona uyğun hərəkət etməsini təşviq edir.

Yaşıl dünyanı gerçəkləşdirmək üçün cəmiyyətin hər bir üzvünün ekoloji şüurlu olması və davamlı olaraq təhsil alması lazımdır. Davamlı öyrənmə, həyat boyu öyrənmə yanaşmasının bir hissəsi kimi hər bir şəxsin ətraf mühitlə bağlı bilik və bacarıqlarını daim inkişaf etdirməsini təmin edir.Yaşıl dünya və davamlı öyrənmə, bir-birini tamamlayan və dəstəkləyən iki vacib anlayışdır. İqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi və resursların azalması kimi qlobal problemlərin həlli üçün insanlar ekoloji dəyərləri mənimsəməli və davamlı olaraq öyrənməlidirlər. Davamlı öyrənmə, yaşıl dünyaya doğru aparan yolda fərdlərin və cəmiyyətlərin davranışlarını dəyişdirməsinə, biliklərini artırmasına və ekoloji problemlərə daha həssas yanaşmasına şərait yaradır. Bu istiqa-

mətdə atılacaq hər bir addım gələcək nəsillərə daha təmiz və yaşanılacaq bir dünya buraxmaq üçün vacibdir.Yaşıl dünya və davamlı öyrənmə gələcəkdə təbiətin və insanlığın harmonik şəkildə bir arada yaşaması üçün əsas şərtlərdən biridir.

Əgər hər bir fərd öz məsuliyyətini dərk edərək, davamlı olaraq ekoloji məlumatlarını artırarsa, yaşıl dünya məqsədinə daha sürətlə çatmaq mümkündür. Gələcək nəsillərə təmiz və sağlam bir dünya miras qoymaq üçün davamlı öyrənmə yanaşmasını mənimsəmək hər birimizin öhdəsindədir. Bu yolda kiçik addımlar belə böyük təsirlərə səbəb ola bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Brown, L. R. Plan B 4.0: Mobilizing to Save Civilization. W.W. Norton & Company, 2009.
2. Aslanov, İ. Ekologiya və həyat. Bakı, 2010.
3. UNESCO. Education for Sustainable Development Goals: Learning Objectives. UNESCO Publishing, 2017.
4. Əhmədov, Q. M. Azərbaycanın ekoloji siyasəti və dayanıqlı inkişaf. Bakı, 2015.
5. Luxton, David D. (2013). Artifical intelligence in psiychological practice: Current and future applications and implications) // Professional Psychology: Research and Practice.
6. Hacırəhimova Məkrufə, İsmayılova Mərziyə İnformasiya texnologiyaları İnstitutu, Bakı, Azərbaycan. Proqram Təminatının Versiyalarının Vizuallaşdırılması Problemləri Haqqında. Proqram mühəndisliyinin aktual elmi-praktiki problemləri‖ I respublika konfransı, Bakı, 17 may 2017-ci il

MÜASİR DÜNYA UZUNMÜDDƏTLİ SİYASİ LİDERLİK NÜMUNƏSİ OLAN ÇOX AZ ADAM YETİŞDİRİR

Xədicə Möhsüm qızı Əliyeva
Mingəçevir Dövlət Universiteti
xadija.aliyeva@mdu.edu.az

Filosoflar hesab edirlər ki, Heydər Əliyevin çoxşaxəli fəaliyyəti cəmiyyətdə dövlətçilik ənənələrinin, konstitusionalizmin, keçmişlə gələcəyin əlaqəsinin, xüsusən onun ilk sovet dönəminin, postsovet dönəminin, nəhayət, ölkənin və dünyanın bu günü və gələcəyinin ölkənin və dövlətin inkişafında oynadığı rolun dərk edilməsini yaradıb. Çoxları hesab edir ki, dövlət quruculuğunda strategiya və dəyərlərin əhəmiyyətini dərk etməsi sayəsində ölkədə sabitlik və dirçəliş əsasən uğurlu olub, sonra isə qalib gəlib. Onlar həmçinin etiraf edirlər ki, ölkənin bir çox problemlərinin həllində qanunun aliliyi, hakimiyyət bölgüsü, vətəndaş cəmiyyəti, gender amilinin müasir dünyada oynadığı rolu və müasir dövlət quruculuğu prosesinin onlara nə qədər ehtiyacı olduğunu ilk anlayan Heydər Əliyev olub.

Axı o, ötən əsrin ən çətin 90-cı illərində də həmişə siyasi qüvvələr arasında, cəmiyyətlə, ziyalılarla dialoqa can atıb. Xalq onun üçün müqəddəs bir məfhum idi. Və bu gün İlham Əliyevin siyasətində dialoqa, konsensusa önəm verəndə biz başa düşürük ki, dövlətimizin başçısı hansı ənənəyə, strategiyaya sadiqdir, hansı vəzifələri həll edir. Təbii ki, alimlər etiraf etməyə bilməzdilər ki, Ümummilli lider Heydər Əliyevin islahatlarının əsasını iqtisadi dəyişikliklər, o zaman dövlət və cəmiyyət həyatının bütün sahələrində islahatların aparılmasına imkan verən "Əsrin müqaviləsi"nin imzalanması, müstəqil Azərbaycanın Konstitusiyasının qəbulu, Ordunun yaradılması və möhkəmləndirilməsi təşkil edib [4].

Xarici tədqiqatçıların əsərlərində Heydər Əliyevin hələ sovet dövründə də müstəqillik və Ordu haqqında düşündüyü, onun uzaqgörənliyindən, gələcəyi görmək və görmək bacarığından xəbər verdiyi, bu, onun gördüyü bir çox əməllərdə, o cümlədən İlham Əliyevin gələcək zəfərli prezidentliyinin uzaqgörənliyində özünü büruzə vermişdir.

İstər bizim, istərsə də xarici alimlərin fikirlərində Heydər Əliyevin xarici siyasəti, diplomatik uğurları, dünya liderlərinin ona münasibəti, xarizmasının nəinki o dövrdə, həm də bu gün də öz təsirini göstərməsi ilə bağlı fikirlər mühüm yer tuturdu - bu, yeni uğurların və qələbələrin əsasında dayanan bir növ sütundur. Müəlliflər onun Azərbaycanın xarici siyasətinin parlaq həlli, kimlik, vətəndaşlıq və millət adlanan problemlərin həllinin açarı kimi gördükləri "Bir millət - iki dövlət" düsturuna da heyran olurlar.

Heydər Əliyev ictimai inkişaf proseslərinə strateji baxışa malik böyük idarəçi olmaqla xalqın mədəniyyətində elmin, dilin, tarixin əhəmiyyətini heç kim kimi dərk etmirdi. Bu sahələrin hər birinin xalqın inkişafında, vətənpərvərliyində, əxlaqi davranış nümunələrində özünəməxsus rolu vardır.

Bu sahələrdə qərarlar qəbul edərkən o, adi bir insanın beynində birləşdirməsi çətin olanı məharətlə birləşdirməsi ilə seçilirdi, lakin lider onları birləşdirəndə nəticə cəmiyyətin mənəvi inkişafını şərtləndirən düzgün qərar olur. Məsələn, həm ictimai, həm də humanitar elmləri inkişaf etdirmək lazımdır, hər biri öz rolunu oynayır. Yaxud doğma, dövlət dilinin qorunub saxlanmasına müstəsna diqqət yetirin. Azərbaycanlıların, ilk növbədə ziyalıların, alimlərin xarici dilləri bilməsi və öyrənməsi də zəruridir. Biz öz xalqımızın mədəniyyətinə, tarixinə, adət-ənənələrinə hörmətlə yanaşmalıyıq, eyni zamanda başqa xalqların mədəniyyətini, tarixini də bilməliyik.

Bu, təkcə rəhbərin yüksək siyasi mədəniyyətinin deyil, həm də bütün cəmiyyətin mədəniyyətinin inkişafına qayğısının, idarəetmə formullarının və qərarlarının sadəliyi və dahiliyinin təzahürüdür.

Prezident İlham Əliyev bu cür formulların mənasını bilir və öz siyasətində tətbiq edir. Aydındır ki, yeni zamana uyğun olaraq. Burada söhbət Dördüncü və hətta Beşinci texnoloji inqilablardan, "yaşıl" enerjidən, "ağıllı şəhərlər və kəndlər"dən və s. gedir.

Hər bir azərbaycanlı Ümummilli Lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edir. Azərbaycan xalqı çox fəxr edir ki, Azərbaycan tarixində Heydər Əliyev kimi görkəmli şəxsiyyət olub. Xalqına, ölkəsinə hədsiz məhəbbət bəsləyən o, öz istedadını, parlaq dühasını doğma xalqının, vətəninin tərəqqisinə, inkişafına, dünya miqyasında tanınmasına həsr etmişdir [4].

Hər bir xalqın tarixi arenadakı yerini və rolunu onun mütərəqqi ideyalı, görkəmli idarəçilik keyfiyyətlərinə malik istedadlı övladlarının çətin siyasi şəraitdə məsuliyyət daşıyan, onun taleyində misilsiz rol oynayan, sabit dövlətçilik ənənələrini formalaşdıran fövqəladə missiyası müəyyən edir. Azərbaycan xalqının tarixində çoxlu tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət xadimləri olub. Böyük əməlləri və şücaətləri ilə məşhurlaşdılar, xalqın yaddaşında qaldılar. Belə tarixi şəxsiyyətlər sırasında dünya şöhrətli görkəmli dövlət və siyasət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış Heydər Əliyevin xüsusi rolu vardır.

Müasir Azərbaycanın çətin və taleyüklü dövründə dövlətə rəhbərlik missiyasını üzərinə götürən Heydər Əliyev təkcə xalqımızın parlaq nümayəndəsi kimi deyil, həm də dünya siyasi elitasının görkəmli şəxsiyyəti kimi tarixdə silinməz iz qoyub. Milli və siyasi lider keyfiyyətlərinin bir dövlət xadimində cəmləşməsi bəşər tarixində nadir və nadir haldır. Belə seçilmiş, Tanrının bəxş etdiyi şəxsiyyətlər əsrlər boyu formalaşmış mentalitetə, siyasi dünyagörüşünə, milli dəyərlərə və siyasi varislik ənənələrinə əsaslanan optimal dövlət modeli yaradırlar.

Zamanın ən ağır sınaqlarından fədakarlıqla çıxmış belə şəxsiyyətlər xalqının dövlətçilik, müstəqillik, azadlıq ideyalarını əsrlər boyu yaşada biliblər. Hər bir xalqın formalaşması, öz dövlətinin yaradılması, özünü tarixdə təsdiqləməsi və inkişaf yolunu müəyyən etməsi müəyyən irsin mövcudluğu kontekstində baş verir. Bəşəriyyət tarixi göstərir ki, bu siyasi irs əsasən xalqların rəhbərlərinin, sərkərdələrinin, görkəmli şəxsiyyətlərinin fəaliyyəti ilə formalaşır.

Əgər ruslar üçün müasir Rusiyanın dövlətçilik ənənələrinin əsasını qoyan I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçill, fransızlar üçün Şarl de Qoll, türklər üçün Mustafa Kamal Atatürkdürsə, biz azərbaycanlılar üçün bu, şübhəsiz ki, Heydər Əliyevdir!

Heydər Əliyev nadir siyasətçi idi. O, dünya siyasətinə təsir etməyi bacaran lider idi. Elə liderlər var ki, uzun illər dövlət idarəçiliyində işlədikdən sonra siyasi yetkinliyə, tanınmağa nail olurlar, elə adamlar da var ki, onların genlərində liderlik kodlaşdırılıb. Heydər Əliyev də belə lider-

lərdəndir. Beynəlxalq səviyyədə düşünməyi və təhlil etməyi bilirdi. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən peşəkar xüsusiyyətlər sırasındadır.

Ümummilli Liderə xarizmatik lider, fenomen şəxsiyyət deyirlər. Müasir siyasi texnologiyalarda xarizmaya malik olmaq məsələsi lider üçün çox vacib şərt hesab olunur. Heydər Əliyev güclü xarizmatik şəxsiyyət, fenomenal siyasət və dövlət xadimi idi. Onun müdrikliyi dərin və universal bilik, qətiyyət, işgüzarlıq, tədbirlilik və qeyri-adi yaddaşdan ibarət idi. O, mahir diplomat kimi qarşıya qoyulan vəzifəni məharətlə həll edir, həmsöhbətinə təsir göstərməyi bacarırdı. Xeyirxahlıq və alicənablıq, inam və inam, təmkin və səmimiyyət, ziyalılıq, diqqət və digər keyfiyyətlər Heydər Əliyevin fərdi təbiətinin xüsusiyyətləri idi. Təsadüfi deyil ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar və söylədiyi fikirlər hər cəhətdən öz aktuallığına, düzgünlüyünə, obyektivliyinə uyğun olub, ətrafdakıları təəccübləndirib. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri də Heydər Əliyevlə məsləhətləşdiklərini dəfələrlə etiraf ediblər. Onun siyasətinin gücü siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, balanslaşdırılmış qərarlarında, qətiyyətində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyində, geniş dünyagörüşündə, milli dəyərlərə hörmətində, tarixi hadisələrə düzgün qiymət verməsində, dözümlülüyündə və səbrindədir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə özünün uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafa nail olmuş, müstəqilliyini möhkəmləndirmişdir. Heydər Əliyevin apardığı uğurlu siyasət sayəsində kiçik ölkə bütün dünyada tanınan dövlətə çevrildi.

1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev öz xarici siyasəti sayəsində çox güclü, bacarıqlı və təcrübəli müdrik dövlət xadimi kimi qısa müddətdə siyasət aləmində böyük inqilab etdi. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələr, beynəlxalq təşkilatlar Azərbaycana diqqət yetirməyə başladılar. O, Qərblə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə sarsılmaz siyasi iradə nümayiş etdirdi. O, milli maraqların sözçüsü kimi anti-azərbaycan, anti-millətçi qüvvələrə qarşı sipər oldu. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi bu böyük insanın qətiyyətli siyasəti və uzaqgörənliyi nəticəsində reallığa çevrildi.

Ümummilli Liderin məntiqlə qurulmuş nitqi, natiqlik bacarığı, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq bacarığı onu dinləyənləri valeh edib. Onun dərin və konkret nitqi son dərəcə cilalanmışdı və heç bir qeyri-dəqiq fakt və ya rəqəm yox idi. O, məsələnin mahiyyətini ustalıqla açıb, milli maraq və dövlətçilik mövqeyindən təhlil etməyi bacarıb. Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, qeyri-adi zəkası, böyük enerjisi, yüksək analitik təfəkkürü və sarsılmaz iradəsi ilə seçilən siyasətçi idi. "Siyasət üçün doğulanlar siyasəti tərk edəndə, siyasət də onları tərk etməz" ifadəsini tam olaraq Heydər Əliyevə aid etmək olar. Ona görə də bir sıra hallarda Heydər Əliyev "siyasi nəhəng", "siyasi qrossmeyster", "siyasi patriarx" və fenomen kimi səciyyələndirilir. Bir çox dövlət xadimləri onun irsindən bəhrələniblər [2].

Adətən insanlar zamanla ayaqlaşırlar. Yalnız dahilər öz dövrünü qabaqlayır. O, dövrünü qabaqlayan bir insan idi. Qısa müddətdə dünyanın böyük dövlətlərinin maraqlarını Azərbaycanda cəmləşdirməyi bacardı. O, dövləti yaratdı, dövlətçiliyi möhkəmləndirdi, vətəndaş cəmiyyəti formalaşdırdı. O, bütün dünya azərbaycanlılarını vahid ittifaqda birləşdirdi.

Ümummilli Liderin siyasi kursu bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndər estafeti Azərbaycanın yeni lideri, onun davamçısı Prezident İlham Əliyevə çatdıraraq demişdir: "Mən özümə inandığım qədər ona da inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" [1].

Heydər Əliyev ideyaları bu gün də həyata keçirilir. Bu gün Azərbaycan dünyada rəyi nəzərə alınan nüfuzlu dövlətdir. Ümummilli Liderin layiqli davamçısı, Heydər Əliyevin düzgün kadr siyasətinin parlaq nümunəsinə çevrilmiş Prezident İlham Əliyev tərəfindən davam etdirilən bu uğurlu siyasətin nəticələrini bu gün ölkəmizdə görürük. Heydər Əliyevin Azərbaycanın uğurlarının əsasını təşkil edən gələcəyə hesablanmış bütün təşəbbüsləri onun rəhbərliyi altında uğurla davam etdirilir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması, sosial-iqtisadi tərəqqinin əldə edilməsi kimi mürəkkəb və taleyüklü məsələlərdə sınaqdan keçirilib.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev 2 cilddə, 1-ci cild. Bakı: Turxan, NPB, Bakı, 2013. – 500 səhifə.
2. Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev: R.Məmmədli, Ş.Qəmbərova; - Bakı: F.Köçərli Respublika Uşaq Kitabxanası, 2018. – 63 s.
3. Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1-ci kitab. Bakı: Çaşoğlu, 2005, 544 s.
4. Heydər Əliyev və Şərq. 6 cilddə. İran İslam Respublikası. 4-cü kitab. Bakı: Çaşoğlu, 2005, 479 s.

İNFORMASİYA VƏ TELE-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLƏ TƏSİRİ VƏ XARICI DILIN MÜASIR DÖVRDƏ ÖYRƏNİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Fidan Yunis qızı İsayeva
Mingəçevir Dövlət Universiteti
fidan.isayevaa@mdu.edu.az

İnformasiya insanlar arasında dil vasitəsilə ötürülən əsas ünsiyyət vasitəsidir və informasiya cəmiyyətinin yaranması uzun inkişaf dövrü keçmişdir. Bəşər tarixinin yarandığı dövrdən etibarən insanlar ilk əvvəl müxtəlif vasitələrlə, dilə yiyələndikdən sonra dil vasitə və funksiyalarının köməyi sayəsində bir biriləri ilə ünsiyyət qurmağa çalışmışlar. Zaman keçdikcə insanlar uzaq məsafədən məlumatları ötürmənin çətin və o dövr üçün imkansız olduğunun fərqinə vardılar. Beləliklə, informasiyanın uzaq məsafələrə ötürülməsi sahəsində çap üsülu ixtira olundu və qəzetlərin çap olunması ilə "kütlə ünsiyyəti" yaranmağa başladı. Lakin buna baxmayaraq, dəmiryolu nəqliyyatı şəbəkələrində yaranan nasazlıqlar informasiyanın bir yerdən başqa yerə ötürülməsində bəzi çətinliklər yaratdı və şifahi ünsiyyət əsas ünsiyyət vasitəsi olaraq qaldı.

XIX əsrin sonlarında telefonun ixtirası qısa zaman ərzində məlumatların ötürülməsini asanlaşdırmasına baxmayaraq, telefon naqillərində yaranan çətinliklər bu işə mane olurdu. Digər tərəfdən qəzet və jurnalların kütləvi istifadəsi məlumatların geniş kütləyə çatdırılmasını təmin edirdi. Nəhayət, XX əsrdə radionun daha sonra televizorun insanlar tərəfindən yaradılması informasiyanın yalnız sözlərlə deyil, eyni zamanda şəkil və digər visual effektlərlə yayılmasına şərait yaratdı. Bu yenilik informasiyanın zənginləşməsinə və ötürülmə keyfiyyətinin artırılmasına imkan versə də, yenə də bəzi problemlər ortaya çıxdı.

XX əsrin sonlarına doğru kompüterin yaranması və XXI əsrin əvvəllərindən etibarən dünyada eləcə də, ölkəmizdə istifadəsinin geniş yayılması ilə informasiya mühitində yeni era yarandı. İri kompüter şəbəkələri vasitəsilə geniş məlumatların qısa zaman kəsiyində sürətlə ötürülməsi həyata keçirildi.

Kompüter şəbəkələrinin və internetin yaranması informasiya mübadiləsini hər kəs üçün əlçatan etdi. İnformasiya və texnologiyanın bu inkişafı həyatın özəl və ictimai bir çox sahələrində: təhsil, biznes, səhiyyə, əyləncə və istirahətin müxtəlif növlərində çoxlu sayda yeni imkanlar açmış, peşəkar və məişət aspektlərində önəmli yer tutmuşdur. Informasiya texnologiyaların inkişafı dedikdə, bu texnologiyalardan istifadə qaydaları, müxtəlif təşkilati sahələrdə meydana çıxan bir sıra müxtəlif aspektlər nəzərdə tutulur. İnformasiya və kommunikasiya texnologiyaların bu cür inkişafı həyatın müxtəlif sahələrində dövrün yeniliklərindən daha rahat istifadəni asanlaşdırır.

Təhsildə innovativ yanaşma dedikdə texnoloji yeniliklərin tədbiqi nəzərdə tutulur. Müasir dövrdə interaktiv təlim metodlarının tədbiqi zamanı texnologiya və müasir kommunikasiya vasitələrindən istifadə bu prosesin daha səmərəli keçirilməsinə və təhsilalanların xarici dil öyrənmək məqsədlərinə daha qısa müddətdə uğurla çatdırılmasına şərait yaradır. Kommunikasiya və texnologiya vasitələri dedikdə, kompüter əsaslı dil öyrənmə (CALL), İnternet vasitəli dil öyrənmə, elektron kitablar (e-books), Audio- video əsaslı vəsaitlər, proyektorlar və slaydlar, mobil telefonlar və s. kimi texnoloji yeniliklər nəzərdə tutulur.

Dünya təcrübəsində xarici dilin tədrisi zamanı texnoloji vasitələrədən istifadə yeni deyil. Dilöyrənmə prosesini səmərəli təşkil etmək məqsədilə radio, dil labaratoriyaları və video materiallardan hələ 1960 və 1970-ci illərədə istifadə edilməyə başlanmış və bu günlərdə də dünyanın bir çox ölkələrində bu kimi texnoloji vasitələr tədris və təlim prosesində tədbiq edilir. Belə ki, 1980-ci ilin əvvəllərindən istifadə edilməyə başlanmış Kompüter əsaslı dil təlimi materiallarının əsas məqsədi dilöyrənənləri ekranda görünən tapşırıqları yerinə yetirməyə sövq etmək idi. Tapşırıqlar, adətən, mətn tamamlama və variant seçmə formalarına əsaslanaraq sonra doğru cavabların yenidən monitorda görünməsindən ibarət idi. Bu proses yalnız cavabların verilməsi ilə kifayətlənməyib, şagirdin harda və hansi səhvi etdiyini göstərərək yenidən alternativ nümunə təqdim edilirdi. Halhazirda bəzi dərslik kitablarında məhz bu tip kompüter əsaslı təlim materialları yer almaqdadır. [4, s.7]

1. Kompüter əsaslı dil öyrənilməsi (CALL). Dil tədrisi və öyrənmə prosesi zamanı kompüter əsaslı texnologiyalarından istifadə əhəmiyyətli rola malikdir. Bu texnologiyadan istifadə haqqında bir çox araşdırmalar aparılmış, istifadəsi ilə bağlı bir sıra nəticələrə gəlinmişdir. Belə ki, kompüter texnologiyasının istifadəsi və inkişafı təhsil sahəsi ilə yanaşı psixologiya, pedaqogika kimi digər elm sahələrinə də təsirsiz ötüşməmiş və istifadəsi bu kimi sahələrə səmərə vermişdir.

Tədris prosesi zamanı kompüterdən istifadə şagirdlərin öyrənmə prosesini sürətləndirmiş və müəllimlərin bu prosesi haha effektiv təşkil etmələrinə şərait yaratmışdır. [2, s.10]

Kompüter texnologiyalarından səmərəli istifadə dedikdə, tədris və təlim zamanı onlardan istifadə vasitəsilə şagirdlərdə dərs materiallarına, ingilis dilinin mənimsənilməsinə həvəs oyatmaqla yanaşı, onların bu prosesdə daha məsuliyyətli və yaxından iştirakına şərait yaratmaq nəzərdə tutulur. [1].

Şagirdlərin dərs prosesində yaxından iştirakı dedikdə, onların yalnız təlim materiallarını öyrənməsi və tapşırıqları yerinə yetirməsi deyil, eyni zamanda texnologiyadan istifadə edərək, tədris olunan dildən, yəni ingilis dilində həm sinif daxilində, həm də sinifdən kənar ünsiyyət prosesində istifadə etmələri nəzərdə tutulur. Şagirdlərə təlim materiallarını müxtəlif kompüter və İKT resurslarından istifadə edərək, onların yaş və maraqlarına uyğun təqdim edilməsi zamanı onlarda ingilis dilinin öyrənilməsinə qarşı motivasiyanın yaranmasına şərait yaranır.

Bax S. "CALL- past, present, future" adlı öz əsərində kompüter texnologiyasından istifadənin psixoloji və idraki cəhətdən dilin mənimsənilməsi prosesinə təsirini qeyd etmişdir. Kompüter vasitəsilə dilin məsimsənilməsi yalnız bir bacarıq üzərində fokuslanaraq deyil, eyni zamanda yazma, oxuma, dinləmə və ünsiyyət kimi dörd əsas bacarıqların inteqrasiyası fonunda inkişaf edir. Hər hansı mətni dinləyərkən onlarda dinləmə ilə birlikdə danışıq bacarığı, original materialları oxuyarkən isə həm oxuma, həm də yazı zamanı düzgün qrammatik qaydalardan, cümlə strukturundan istifadə bacarığı formalaşmış olur. [3, s.12]

2. Poverpoint təqdimatlar (Powerpoint presentations). Xarici dilin tədrisində xüsusilə ingilis dilinin öyrədilməsində poverpoint təqdimatlarından istifadə mühüm əhəmiyyət kəsb edir. Ənənəvi təlim metodlarından fərqli olaraq məzmuna deyil, daha çox təcrübəyə və tədbiqə yönəlmiş müasir təlim metodlarının istifadəsi zamanı müxtəlif slayd təqdimatların nümayişi ilə şagirdlərə izah olunan qayda və tapşırıqlar onlarda cari mövzuya, eləcə də, ingilis dilinin istifadəsinə dair maraq və həvəs oyadır, mövzunun onlar tərəfindən daha asan başa düşülməsinə şərait yaradır. [42, s.100] Bu kimi təqdimatlar həm kompüter ekranlarında həm də daha geniş kütləyə nümayiş etdirilməsi üçün proyektorlardan (overhead projector (OHP) istifadə edilərək şagirdlərə göstərilir. Proyektor vasitəsilə hazırlanmış təqdimatlar, video dərslər, multimedia faylları, yazılı mətnlər divara və ya düz səthə əks olunmaqla nümayis etdirilir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Alan R. W., Reflections on the Use of Webinar Technology for Teaching. 2019 Hal open science. 16 p.
2. A.Gupta Principles and Practices of English language learners. Canadian Center of Science and Education . 2019. 56 p.
3. Bax S. CALL- past, present and future. System 2003. 28 p.

4. Beard C. Pros and Cons of Webinars. 2016, Emedia , 61 p.
5. Boers F. and Linstromberg S. Optimizing a Lexical Approach to Instructed Second Language Acquisition. Basingstoke UK: Palgrave Macmillan 2009,

ƏSRİN LİDERİ VƏ ƏSRİN KONSTİTUSİYASI: HEYDƏR ƏLİYEV VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞU

[1,4]Səyyarə İlham qızı Yusifova, [2,4]Rima Zəhməd qızı Məmmədova,
[3,4]Gülnigar Saleh qızı Osmanova
[1]sayyara.yusifova@mdu.edu.az
[2]rima.mammadova@mdu.edu.az
[3]gulnigar.osmanova@mdu.edu.az
[4]Mingəçevir Dövlət Universiteti

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra ölkədə baş verən mürəkkəb ictimai-siyasi proseslər xalqın qarşısında güclü lider ehtiyacını gündəmə gətirdi. Bu lider Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev oldu. Onun siyasi iradəsi və strateji baxışı Azərbaycanın taleyində mühüm dönüş nöqtəsi oldu. [2]

Heydər Əliyev yalnız Azərbaycanın deyil, ümumilikdə regionun ən nüfuzlu siyasi simalarından biri olmuşdur. O, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə sabitliyin bərqərar olunması, iqtisadi islahatların həyata keçirilməsi və beynəlxalq münasibətlərin qurulması sahəsində mühüm addımlar atdı. Bu səbəbdən də onu haqlı olaraq, "Əsrin Lideri" adlandırırlar.

Azərbaycanın müasir dövlətçiliyinin əsaslarını təşkil edən hüquqi islahatlar sistemində Ümummilli lider Heydər Əliyevin rolu əvəzsizdir. Onun rəhbərliyi ilə ölkədə hüquqi dövlət quruculuğu prosesi yeni bir mərhələyə keçmiş, 1995-ci ildə qəbul edilən ilk müstəqil Konstitusiya bu islahatların hüquqi bazasını formalaşdırmışdır. Heydər Əliyevin siyasi uzaqgörənliyi və dövlətçilik fəlsəfəsi nəticəsində qəbul edilən bu Konstitusiya, Azərbaycan Respublikasının suverenliyi, demokratik və hüquqi dövlət prinsipləri üzərində qurulmasının əsasını qoymuşdur.

Heydər Əliyev həm tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyət! Bu fikri qüvvətləndirən, arqumentlərimizi genişləndirən faktlar isə yetərincədir. Ulu öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, O, özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Bu gün isə Onun fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə xalqımız yox, bütün region xalqları, böyük İslam dünyası və türk xalqları faydalanır. Elə buna görə də, Ulu Öndərimizin adı dünyanın hər yerində Uca tutulur, xatirəsi ehtiramla anılır. Ulu öndər Heydər Əliyev Azərbaycanın və azərbaycanlıların Ümummilli lideridir. Bu dahi şəxsiyyət haqqında danışarkən öncə qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip və norma kimi qəbul edən Ümummilli liderimiz bugünkü müstəqil Azərbaycanın memarıdır. Ulu öndər Heydər Əliyevin ölkəsinə və xalqına bəxş etdiyi misilsiz, əvəzedilməz dəyərlərin və sərvətlərin mahiyyətini daha dərindən anlamaq üçün isə, sadəcə, bir neçə fundamental önəm kəsb edən fakta toxunmaq kifayət edir [7].

Ümummilli lider Heydər Əliyev hüquqi dövlət anlayışını sadəcə qanunvericiliklə məhdudlaşdırmamış, bu konsepsiyanı siyasi, ictimai və mədəni sahələrlə birgə inkişaf etdirəcək bir strateji xətt kimi müəyyən etmişdir. Onun rəhbərliyi ilə Azərbaycan hüquqi dövlətin əsas sütunları olan qanunun aliliyi, insan hüquq və azadlıqlarının təminatı və məhkəmə hakimiyyətinin müstəqilliyi istiqamətində mühüm addımlar atmışdır. 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ölkədə sa-

bitlik təmin edilmiş, hüquq sisteminin təkmilləşdirilməsi üçün genişmiqyaslı islahatlara başlanılmışdır.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkənin tarixində ilk müstəqil və demokratik əsaslı əsas qanun kimi qiymətləndirilir. Bu Konstitusiya Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. Konstitusiya Azərbaycan dövlətçiliyinin hüquqi bazasını müəyyən etmiş, insan hüquqlarının qorunması və dövlət hakimiyyətinin bölgüsü prinsiplərini təsbit etmişdir. Həmçinin, bu sənəd demokratik cəmiyyətin inkişafı və siyasi sabitliyin qorunması üçün zəruri olan normativ çərçivəni formalaşdırmışdır. [1]

Heydər Əliyevin dövlətçilik fəlsəfəsi Konstitusiyanın əsas prinsiplərində öz əksini tapmışdır. Bunlara hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, insan hüquqlarına hörmət, müstəqil məhkəmə sistemi, vətəndaş bərabərliyi kimi fundamental prinsiplər daxildir. Onun rəhbərliyi ilə hazırlanan Konstitusiya Azərbaycan xalqının milli iradəsini və gələcək inkişaf modelini əks etdirən strateji sənəd olmuşdur. [5]

2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunması təsadüfi deyildir. Bu qərar həm Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulunun 30 illik yubileyi ilə, həm də hüquqi dövlət quruculuğunun daha da möhkəmləndirilməsi istiqamətində aparılan islahatlarla bağlıdır. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən bu təşəbbüs, Heydər Əliyevin dövlətçilik irsinin bu gün də aktuallığını qoruduğunu bir daha göstərir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlər, hüquqi maarifləndirmə, insan hüquqlarının müdafiəsi və konstitusiya dəyərlərinin təbliği kimi istiqamətləri əhatə etməklə, Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik fəlsəfəsinə uyğun şəkildə həyata keçirilir.

Əminliklə deyə bilərik ki, Ulu öndər Heydər Əliyevin ideyaları, zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan dövləti tarixin qüdrətli dövrünü yaşayır. Müstəqil dövlətçilik tariximizin ən mühüm hadisəsi isə 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının qürur mənbəyinə çevrildi. Azərbaycan dövləti 44 gün ərzində bütün dünyaya səs salaraq öz gücünü nümayiş etdirdi. 44 günlük Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin qətiyyətli hərbi, siyasi və diplomatik fəaliyyəti, rəşadətli Azərbaycan Ordusunun şücaəti və xalqımızın birliyi sayəsində mümkün oldu. Dövlət başçısı İlham Əliyev bununla bağlı qeyd edib: "Biz öz haqqımızı, öz hüquqlarımızı döyüş meydanında bərpa etdik. 44 gün ərzində mənfur düşməni torpaqlarımızdan qovduq və Qarabağda Azərbaycan Bayrağını ucaltdıq. Bu, çoxəsrlik Azərbaycan tarixinin ən parlaq səhifəsidir!" [8].

Azərbaycan dövlətinin şanlı Qələbəsi sayəsində Konstitusiyanın hüquqi qüvvəsi işğaldan azad edilmiş torpaqlarımızda bərpa olunub, vətəndaşlarımızın Əsas Qanunda təsbit edilmiş bir sıra hüquqlarının bərpası üçün zəmin yaranıb. 44 günlük Vətən müharibəsində qazanılan hərbi-siyasi Zəfərdən sonra qarşıda duran ən mühüm vəzifə işğaldan azad olunan ərazilərin ən qısa zamanda bərpası və yenidən qurulması, 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış insanların öz doğma yurdlarına qayıdışının təmin edilməsidir. 2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev tərəfindən imzalanan Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilib. Sərəncamda qeyd olunub: "Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır!" [8].

Konstitusiyamız dünyanın qabaqcıl ölkələrinin konstitusion təcrübəsinə əsaslanmaqla bərabər, həm də milli mentalitetimizə xas olan əvəzolunmaz xüsusiyyətlərini də özündə ifadə edirdi. Tarixi ənənələrimiz, milli-mənəvi dəyərlərimiz konstitusiyamızda rəsmi ifadəsini tapmışdı. Geniş icti-

maiyyətin müzakirəsinə verilən və daha ciddi diskussiyaya səbəb olan məsələlərdən biri də layihəyə dövlət dili kimi hansı dilin daxil edilməsi idi. Uzun müzakirələrdən və elmi cəhətdən əsaslandırılmalardan sonra Ulu Öndərin təklifi ilə konstitusiyamıza Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olmasını təsbitləyən maddə daxil edildi. Dünya ölkələrinin konstitusion təcrübəsində ən ciddi məsələlərdən biri kimi hakimiyyətin dövlət orqanları arasında bölüşdürülməsi prinsipi yeni konstirusiyamızda daha müfəssəl şəkildə təsbit olunmuşdu. Hələ lap qədimlərdən – antik dövrlərdən başlayaraq, filosoflar dövlətin fəaliyyətində qanunvericilik fuksiyasını, qəbul olunmuş qərarların icrasını, ədalət mühakiməsinin əhəmiyyətini yüksək dəyərləndirmişlər. Hətta XVII əsrdə yaşamış məşhur fransız filosofu Ş.Monteskye də hakimiyyətin bölüşdürülməsi nəzəriyyəsini yaradarkən dönə-dönə göstərirdi ki, fəaliyyətini düzgün qurmuş istənilən dövlətdə vahid hakimiyyət ola bilməz. Əks halda burada demokratiyadan və onun prinsiplərinin qorunmasından danışmaq sadəlövhlük olardı. Ulu öndər Heydər Əliyev də Əsas Qanunumuzda hakimiyyət bölgüsünün əsasını təşkil edən hakimiyyətin qolları arasında qarşılıqlı nəzarətin həyata keçirilməsindən danışarkən qeyd edirdi ki, konstitusiya hər şeydən əvvəl hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü ali icra, qanunvericilik və məhkəmə hakimiyyəti arasında bölüşdürülməklə hər biri xalqın iradəsinə söykənməlidir... [6]

Heydər Əliyevin hüquqi dövlət quruculuğundakı rolu və onun təşəbbüsü ilə qəbul edilən Azərbaycan Konstitusiyası, ölkənin gələcək inkişafının hüquqi təməlini təşkil edir. Bu sənədin qəbul edilməsi ilə Azərbaycan müstəqil, demokratik və hüquqi dövlət kimi formalaşmağa başlamış və bu istiqamətdə uğurlu nəticələr əldə etmişdir.

Heydər Əliyevin dövlətçilik irsi bu gün də hüquqi islahatlarda və dövlət idarəetməsində yaşamaqdadır. Onun miras qoyduğu siyasi kurs Azərbaycanın dövlət müstəqilliyini mühkəmlən-dirir, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna dəstək verir.

Beləliklə, Heydər Əliyevin irsi və onun təşəbbüsü ilə qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsində həlledici rol oynadı. Bu səbəbdən də hər iki fenomen – Əsrin Lideri və Əsrin Konstitusiyası – Azərbaycanın dövlətçilik tarixində əbədi yaşayacaqdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995
2. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra baş verən proseslər". Bakı, 2005.
3. Əliyev, H. Müstəqilliyimiz əbədidir. Azərbaycan Nəşriyyatı, Bakı-2000
4. Quliyev, Z. Heydər Əliyev və hüquqi dövlət. Hüquq və Dövlət, 1(2), 12-18, Bakı-2013
5. Əliyeva, L. Hüquqi dövlət və konstitusionalizm: Heydər Əliyev irsi kontekstində. Bakı Dövlət Universiteti Hüquq jurnalı, 4(56), 45-52, Bakı-2021
6. Kamalov. S.K.,"Azərbaycan Respublikasının Konstitusiyası-Demokratik və Hüquqi dövlətin təminatçısı" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda Respublika Elmi konfransının materialları (3-4may 2024 – ci il).Mingəçevir, 2024, səh.683-685
7. Qurbanov S.Ş., Fərəməzov A.S., Muxtarlı E.A.," Ulu öndər Heydər Əliyev və Azərbaycanda Dövlət Quruculuğu" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda Respublika Elmi konfransının materialları (3-4may 2024 – ci il).Mingəçevir, 2024, səh.158-160
8. Süleymanova T.Ə.,"Heydər Əliyev müstəqil Azərbaycan Respublikası Konstitusiyasının müəllifidir" Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci

ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" mövzusunda Respublika Elmi konfransının materialları (3-4may 2024 – ci il).Mingəçevir, 2024, səh.597-599

HEYDƏR ƏİİYEVİN NEFT STRATEGİYASI VƏ MÜSTƏQİL AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA ROLU

Elçin Məhəmmədiyə oğlu Əliyev
Mingəçevir Dövlət Universiteti
elchin.aliyev@mdu.edu.az

Giriş

XX əsrin sonlarında Azərbaycan Respublikasının əldə etdiyi dövlət müstəqilliyi ölkənin siyasi, sosial və iqtisadi həyatında dönüş nöqtəsi olmuşdur. Sovet İttifaqının dağılması ilə Azərbaycanın qarşısında müstəqil bir dövlət kimi möhkəmlənmək və öz iqtisadi sistemini formalaşdırmaq kimi strateji məqsədlər dayanırdı. Lakin müstəqilliyin ilk illəri dərin siyasi qeyri-sabitlik, iqtisadi böhran və silahlı münaqişələrlə müşayiət olunmuşdur.

1991–1993-cü illərdə ölkədə ciddi sosial-iqtisadi tənəzzül, investisiya axınının dayanması və milli valyutanın devalvasiyası müşahidə olunmuşdur ki, bu da ölkənin iqtisadi təhlükəsizliyinə ciddi təhdid yaratmışdır. Məhz belə mürəkkəb bir geosiyasi və iqtisadi mühitdə xalqın tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev qısa zamanda dövlət idarəçiliyində sabitliyi təmin etmiş, iqtisadi inkişafın əsasını təşkil edəcək strateji islahatlara start vermişdir.

Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın enerji resurslarının dünya bazarına çıxarılması məqsədilə həyata keçirilən neft strategiyası, ölkənin iqtisadi suverenliyinin təmin olunmasında və beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsində həlledici rol oynamışdır. 1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" kimi tarixə düşmüş beynəlxalq neft sazişi Azərbaycanın enerji sektorunda transmilli əməkdaşlığa əsaslanan yeni dövrün başlanğıcını qoymuşdur. Bu saziş nəticəsində xarici investisiyalar cəlb edilmiş, neft-qaz layihələri beynəlxalq konsorsiumlar vasitəsilə icra olunmağa başlamış və yeni nəqliyyat dəhlizlərinin qurulması reallaşdırılmışdır. Bu strategiyanın davamlı nəticəsi olaraq, XXI əsrin əvvəllərindən etibarən Azərbaycan regional enerji siyasətinin mühüm aktoruna çevrilmiş, Cənubi Qafqaz Boru Kəməri, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi layihələr həyata keçirilmişdir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin neft strategiyası yeni çağırışlara uyğun təkmilləşdirilməkdədir. Qeyri-neft sektorunun inkişafı, "yaşıl enerji" keçidi və dayanıqlı iqtisadi artım kimi prioritetlər bu strategiyanın davamlılıq xəttini təşkil edir. Beləliklə, Heydər Əliyevin müəyyən etdiyi neft strategiyası təkcə keçid dövrünün deyil, müasir Azərbaycanın da sosial-iqtisadi inkişafının əsas dayağı olmuşdur [1-5].

Neft strategiyasının əsas mərhələləri

Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə qarşılaşdığı sosial-iqtisadi və siyasi çətinliklər ölkənin təbii sərvətlərindən səmərəli istifadə etməsini əngəlləyirdi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı bu çətinliklərin aradan qaldırılması istiqamətində dönüş nöqtəsi oldu. O, ilk növbədə, ölkədə siyasi sabitliyi təmin etdi və neft sənayesində islahatlara zəmin yaradacaq hüquqi bazanın formalaşdırılmasına başladı. Bu proses Azərbaycanın enerji ehtiyatlarının dünya bazarına çıxarılması ideyasını reallaşdırmaq üçün mühüm başlanğıc idi.

1994-cü il sentyabrın 20-də imzalanan və "Əsrin müqaviləsi" kimi tarixə düşən neft sazişi məhz bu sabitliyin və strateji baxışın nəticəsi olaraq həyata keçirildi. Bu müqavilə ilə Azərbaycan Xəzər dənizinin zəngin neft yataqlarının işlənməsi üçün dünyanın aparıcı enerji şirkətləri ilə tərəfdaşlıq quraraq özünü beynəlxalq enerji məkanında etibarlı ölkə kimi təqdim etdi. "Əsrin müqa-

viləsi" Azərbaycanın iqtisadi gələcəyi üçün yol xəritəsi rolunu oynadı və ölkəyə ilk genişmiqyaslı xarici sərmayələrin axınını təmin etdi.

Bu strategiyanın davamı olaraq, neft hasilatının artması ilə yanaşı, onun ixrac imkanlarının genişləndirilməsi zərurəti də yarandı. 1997-ci ildən başlayaraq Azərbaycanın neftinin xarici bazarlara çıxarılması üçün müxtəlif nəqliyyat marşrutlarının qurulması istiqamətində mühüm layihələr həyata keçirildi. Bakı–Novorossiysk və Bakı–Supsa kəmərləri bu dövrdə istifadəyə verildi. Lakin Azərbaycanın enerji təhlükəsizliyi baxımından daha müstəqil marşruta ehtiyacı var idi və bu məqsədlə 2006-cı ildə istismara verilən Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ölkənin neft strategiyasının ən mühüm nailiyyətlərindən biri kimi tarixə düşdü. Bu layihə Azərbaycanın dünya enerji bazarına birbaşa çıxışını təmin etməklə yanaşı, regionun geosiyasi xəritəsini də dəyişdi.

Heydər Əliyevin neft strategiyası yalnız neftlə məhdudlaşmadı. 2000-ci illərin əvvəllərində ölkənin təbii qaz ehtiyatlarının səmərəli istifadəsi məsələsi də gündəmə gətirildi və "Şahdəniz" qaz yatağının işlənilməsi istiqamətində genişmiqyaslı işlərə başlanıldı. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan ilk dəfə qaz ixrac edən ölkəyə çevrildi.

Beləliklə, ölkənin enerji strategiyası təkcə neft deyil, həm də qaz sahəsində uğurla həyata keçirilməyə başlandı.

Neftdən əldə olunan gəlirlərin şəffaf və məqsədyönlü idarə olunması üçün 2000-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradıldı. Bu fond gəlirlərin yalnız bugünkü ehtiyacların deyil, gələcək nəsillərin rifahının təmin olunmasına yönəldilməsini hədəflədi və iqtisadi sabitliyin qorunmasında mühüm rol oynadı.

Strategiyanın növbəti mərhələsində artıq neft kapitalının insan kapitalına çevrilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi kimi məsələlər ön plana keçdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu strategiya daha da dərinləşdirildi, enerji resurslarından gələn vəsaitlər infrastruktur layihələrinə, sosial proqramlara və sənayenin inkişafına yönəldildi. Eyni zamanda, Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu daha da artdı, Cənub Qaz Dəhlizi və Trans-Adriatik Boru Kəməri kimi layihələr reallaşdı [2-3].

Beləliklə, Heydər Əliyevin müəllifi olduğu və mərhələli şəkildə həyata keçirilən neft strategiyası Azərbaycanın iqtisadi inkişafını, siyasi müstəqilliyini və beynəlxalq nüfuzunu təmin edən əsas konsepsiyalardan birinə çevrildi. Bu strategiya təkcə ötən əsrin sonlarında deyil, XXI əsrin ilk onilliklərində də ölkənin iqtisadi transformasiyasının əsas dayağı kimi çıxış etdi və bu gün də davamlı inkişaf modelinin əsasında dayanır.

Azərbaycanın neft strategiyası XX əsrin sonlarında Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə formalaşdırılmış və XXI əsrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da təkmilləşdirilmişdir. Bu strategiyanın mərhələləri, onların tarixi kontekstdə əhəmiyyəti və müasir dövrdəki təsirləri cədvəl 1-də təhlil olundmuşur.

Azərbaycanın neft strategiyası tarixi inkişaf mərhələləri baxımından ölkənin siyasi sabitliyi, iqtisadi müstəqilliyi və beynəlxalq nüfuzunun formalaşmasında mühüm rol oynamışdır. Bu strategiya ardıcıl olaraq həyata keçirilmiş və hər mərhələdə ölkənin ümumi inkişafına öz töhfəsini vermişdir. İlk mərhələ 1993–1994-cü illəri əhatə edir və ölkədə hüquqi və siyasi sabitliyin bərpası ilə xarakterizə olunur. Bu dövrdə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra iqtisadi islahatlar üçün zəruri hüquqi baza formalaşdırıldı və enerji sahəsində xarici sərmayələrin cəlb edilməsi üçün əlverişli mühit yaradıldı. Siyasi sabitlik olmadan nə iqtisadi inkişafdan, nə də beynəlxalq tərəfdaşlıqdan danışmaq mümkün idi. Məhz bu sabitlik Azərbaycanın neft siyasətində ilk strateji dönüş nöqtəsini yaratdı.

Növbəti mərhələ 1994-cü ildə baş tutmuş və "Əsrin müqaviləsi"nin imzalanması ilə yadda qalmışdır. Bu müqavilə Azərbaycanın Xəzər dənizində yerləşən zəngin neft yataqlarının beynəlxalq konsorsium tərəfindən işlənməsini nəzərdə tuturdu.

"Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq enerji məkanında müstəqil və etibarlı tərəfdaş kimi tanınmasına səbəb oldu. Bu hadisə təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan əhəmiyyət daşıyaraq, ölkənin xarici siyasət kursunu gücləndirdi.

Cədvəl 1

Mərhələ	Tarixi dövr	Əsas hadisə və fəaliyyətlər	Keçmiş dövrdəki əhəmiyyəti	Müasir dövrdəki təsiri
Hüquqi və siyasi sabitliyin bərpası	1993–1994	Siyasi böhranın aradan qaldırılması, qanunvericiliyin hazırlanması	Xarici sərmayələrin cəlbi üçün əsas şərt yaradıldı	Dövlətin enerji sahəsində suveren qərarvermə mexanizmi gücləndi
"Əsrin müqaviləsi"nin imzalanması	1994	Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi üçün 13 xarici şirkətlə saziş	Neft hasilatının artırılması və beynəlxalq əməkdaşlığın əsası qoyuldu	Azərbaycanın enerji diplomatiyasının formalaşması və beynəlxalq nüfuzunun artması
Neftin ixracı üçün infrastrukturun yaradılması	1997–2006	Bakı–Novorossiysk, Bakı–Supsa, BTC kəmərlərinin tikintisi	Azərbaycanın dünya bazarına çıxışı təmin edildi	Qlobal enerji bazarında etibarlı tərəfdaş statusu möhkəmləndi
Qaz strategiyasına keçid	2000–2010	"Şahdəniz" yatağının işlənməsi, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istifadəyə verilməsi	Neftdən əlavə qaz potensialı iqtisadi dəyərə çevrildi	Avropa üçün alternativ qaz mənbəyinə çevrilməklə geosiyasi əhəmiyyət artdı
Neft gəlirlərinin idarə olunması	2000	Dövlət Neft Fondunun yaradılması	Şəffaflıq və iqtisadi sabitlik üçün institusional əsaslar formalaşdı	Büdcənin diversifikasiyası və gələcək nəsillər üçün ehtiyat mexanizmi yaradıldı
Qeyri-neft sektorunun stimullaşdırılması	2010–2020	Neft gəlirləri hesabına infrastruktur, kənd təsərrüfatı və sənaye sahələrinə investisiya	İqtisadi asılılığın azaldılması istiqamətində ilk addımlar atıldı	Post-neft dövrünə keçid siyasəti çərçivəsində əsas prioritetlərdən birinə çevrildi
Yaşıl enerji və enerji keçidi dövrü	2020–indiki dövr	Bərpa olunan enerji sahəsində beynəlxalq əməkdaşlıqlar, Xəzər dənizində günəş və külək enerjisi layihələri	Ətraf mühitin qorunması və COP29 kimi tədbirlərdə aktiv iştirak başlanıldı	Azərbaycanın enerji strategiyası yaşıl transformasiya mərhələsinə daxil oldu

1997-ci ildən başlayaraq, neft hasilatının artması ilə onun beynəlxalq bazarlara çıxarılması üçün nəqliyyat infrastrukturu yaradıldı. Bakı–Novorossiysk, Bakı–Supsa və nəhayət, 2006-cı ildə istismara verilən Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri Azərbaycanın enerji strategiyasında həlledici rol oynadı. Bu boru kəmərləri Azərbaycanın enerji resurslarını dünya bazarlarına çatdırmaqla yanaşı, regionda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm elementə çevrildi. Əgər əvvəlki mərhələdə hasilat və tərəfdaşlıq əsas rol oynayırdısa, bu mərhələdə ölkənin logistika və tranzit potensialı üzə çıxarıldı.

2000-ci illərin əvvəllərində neftlə yanaşı, təbii qaz resurslarının da istismarı prioritet istiqamətə çevrildi. "Şahdəniz" yatağının işlənməsi və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istifadəyə verilməsi Azərbaycanın qaz ixracatçısı kimi də beynəlxalq arenaya çıxmasına şərait yaratdı. Bu mərhələ, Azərbaycanın enerji strategiyasının çoxşaxəli hala gəlməsini təmin etdi. Təbii qaz layihələri ilə Azərbaycan yalnız iqtisadi gəlirlər əldə etmədi, eyni zamanda Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaş statusunu qazandı.

Eyni dövrdə, 2000-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradıldı. Bu fondun əsas məqsədi neft və qaz satışından əldə olunan gəlirlərin şəffaf, səmərəli və uzunmüddətli inkişaf məqsədləri ilə idarə olunmasını təmin etmək idi. Bu addım ölkənin maliyyə sabitliyinin qorunması, büdcə siyasətinin dəstəklənməsi və gələcək nəsillərin sosial-iqtisadi rifahının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı. Bu institusional yanaşma Azərbaycanı neft gəlirlərinin rasional idarə olunmasında nümunəvi ölkəyə çevirdi [4].

2010-cu ildən başlayaraq, neft strategiyasının yeni mərhələsi kimi qeyri-neft sektorunun inkişafı ön plana çəkildi. Neft gəlirlərinin infrastruktur layihələrinə, sosial sahələrə və sənayenin şaxələndirilməsinə yönəldilməsi nəticəsində iqtisadiyyatın dayanıqlılığı artırıldı. Bu mərhələ Azərbaycanın post-neft dövrünə keçidini hazırlamaq və iqtisadi asılılığı azaltmaq baxımından strateji əhəmiyyət daşıyırdı. Enerji sektorunda əldə olunan nailiyyətlərin digər sahələrə transferi iqtisadiyyatın diversifikasiyası ilə nəticələndi.

2020-ci ildən etibarən Azərbaycan neft və qaz strategiyasını bərpa olunan enerji mənbələri ilə zənginləşdirməyə başlamışdır. Bu mərhələ xüsusilə yaşıl enerji keçidi və ekoloji sabitlik məqsədlərinə xidmət edir. Xəzər dənizində külək və günəş enerjisi layihələri, xarici ölkələrlə yaşıl enerji əməkdaşlıqları və 11-22 noyabr 2024-cü ildə baş tutmuş COP29 kimi beynəlxalq tədbirlərdə fəal iştirak Azərbaycanın enerji siyasətinin müasir çağırışlara cavab verdiyini göstərir. Beləliklə, Heydər Əliyevin əsası qoyduğu neft strategiyası yalnız bir iqtisadi siyasət deyil, həm də ölkənin qlobal enerji sistemində strateji oyunçuya çevrilməsi prosesinin əsas istiqamətinə çevrilmişdir [6].

Nəticə

Azərbaycanın neft strategiyası, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə formalaşaraq, ölkənin iqtisadi inkişafının və beynəlxalq mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynamışdır. Bu strategiya təkcə təbii resursların istismarı ilə məhdudlaşmamış, həm də mükəmməl geosiyasi yanaşma, davamlı institusional islahatlar və sosial rifahın təmin olunmasına yönəlmiş kompleks tədbirlər sistemi kimi həyata keçirilmişdir. "Əsrin müqaviləsi" ilə başlanan proses, beynəlxalq tərəfdaşlığın genişlənməsi, müasir nəqliyyat infrastrukturunun qurulması, qaz sektorunun inkişafı və qeyri-neft iqtisadiyyatının stimullaşdırılması ilə davam etmişdir.

Bu gün Azərbaycan post-neft dövrünün reallıqları fonunda yeni enerji paradiqmasına keçid edir. Bərpa olunan enerji resurslarından istifadə, "yaşıl enerji" zonalarının yaradılması və COP29 kimi beynəlxalq tədbirlərə ev sahibliyi edilməsi ölkənin enerji siyasətinin ekoloji, iqtisadi və texnoloji çağırışlara uyğunlaşdırıldığını nümayiş etdirir. Dövlət Neft Fondunun effektiv fəaliyyəti və gəlirlərin səmərəli yönləndirilməsi ölkənin gələcək nəsilləri üçün iqtisadi təminat formalaşdırır. Gələcək dövrdə Azərbaycanın enerji strategiyasının əsas istiqaməti məhz dayanıqlı inkişaf, enerji təhlükəsizliyi və rəqəmsal texnologiyalarla inteqrasiya olunmuş idarəetmə modellərinin tətbiqi olacaqdır. Neft və qaz sektorunda qazandığı təcrübəni və nüfuzu qoruyaraq, Azərbaycan regionda enerji qovşağı statusunu daha da möhkəmləndirəcək və qlobal enerji keçidinə fəal töhfə verəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi. [elektron resurs] URL: https://president.az/

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. https://president.az/az/articles/view/50474

3. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağının kəşfiyyatı və işlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 4 oktyabr 1995-ci il, № 222

4. Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Sazişin və həmin Sazişə əlavə edilmiş sənədlərin, İstanbul Bəyannaməsinin və Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan arasında Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası, Gürcüstan

və Türkiyə Cümhuriyyəti arasında Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 26 may 2000-ci il, № 885-IQ. [elektron resurs] URL: https://e-qanun.az/framework/22

5. "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 25 fevral 2014-cü il, № 287

6. https://unfccc.int/ru/cop29

HEYDAR ALIYEV AS THE PATRON OF SCIENCE AND EDUCATION IN AZERBAIJAN

Nurana Alakbarova
Mingachevir State University
nurane.elekberova.2574@gmail.com

After the great leader Heydar Aliyev returned to power, Azerbaijan entered a new stage of development. Attention and care were further increased in all areas, including science and education. This was not accidental. Because this brilliant personality knew well that the only way for Azerbaijan's progress was in the higher education and enlightenment of the people, and in giving great importance to fundamental and humanitarian sciences.

That is why, under the leadership of our national leader, the strengthening of the economic potential of our republic was carried out in parallel with the development of science and education. The years under Heydar Aliyev's leadership entered the history of Azerbaijan as a period of progress in science and education. Hundreds of schools, cultural centers, libraries, kindergartens were built not only in our capital, but also in the remote areas of our republic. Unprecedented successes were achieved in all areas.

The return of Heydar Aliyev to power in June 1993, at the request of the people, brought a new atmosphere to Azerbaijani culture. Educators and intellectuals were surrounded by the state's high level of care. [1]

As we mentioned above, the national leader attached great importance to the development of education during his first leadership of Azerbaijan. In the 70s-80s of the last century, under the leadership of Heydar Aliyev, the creation of a wide network of educational institutions and the formation of a rich material and technical base of that network, the sending of young people to higher education institutions outside the republic, the training of military personnel, and the development of fundamental science in the scientific research institutes of the republican academy of sciences created the necessary intellectual basis for national independence in the future. The great leader knew well that the training of highly qualified specialists is one of the most important factors forming the basis of state independence in any country. Therefore, the great leader correctly saw the basis for the development of society in education and enlightenment, and did not spare his attention and care for the development of this area. During the former Soviet era, the great leader eliminated a number of factors that hindered the progress of Azerbaijani education, mobilized the existing potential for building the country's future development on scientific foundations, strengthening the cultural and intellectual resources of the republic, and training worthy citizens for Azerbaijan. It was in those years that the construction of new buildings for schools, higher and secondary specialized institutions was widespread in the republic, the educational infrastructure was completely renovated, higher and secondary specialized schools that train qualified personnel were opened. About 800 schools were built and put into operation in various regions of the republic, the total number of higher educational institutions operating in our country increased from 12 to 17, and the number of students from 70 thousand to 100 thousand. [3]

One of the important historical achievements of Azerbaijan in those years was the creation of a national human resource potential, including a contingent of specialists in rare specialties, which

provided for the distant future of the people. To successfully implement this goal, Heydar Aliyev laid the foundation for the tradition of sending Azerbaijani youth in large groups to prestigious higher education institutions of the former USSR every year. At that time, about 15 thousand Azerbaijanis were sent to 170 leading higher education institutions of the USSR, and 800 students were sent abroad every year. [1]

Since the national leader Heydar Aliyev carried out all the tasks assigned to him at a high level, he was entrusted with school reform in the USSR in 1983 as the First Deputy Chairman of the Council of Ministers. We remember well that the great leader coped with this task with dignity.

Returning to Baku in June 1993, one of the issues that the national leader paid special attention to was the improvement of the education system. Therefore, the great leader set the task of preparing and implementing a broad reform program to turn education into a real factor of national progress. The signing of the decree "On the establishment of the State Commission for Reforms in the Field of Education in the Republic of Azerbaijan" in March 1998 was aimed at forming an improved legislative base in this field and creating the legal foundations of the education concept. The "Reform Program in the Field of Education of the Republic of Azerbaijan" prepared by the commission in a very short time was signed and entered into force in June 1999 after extensive discussions. That program not only brought the education system in our country into line with international standards, but also ensured its adherence to national educational traditions.

Based on Heydar Aliyev's conceptual instruction "A person receives the basis of education in secondary school. Therefore, secondary school should occupy a special place in the entire education system", serious progress has been achieved in the general secondary education system during this period. The great leader said about education: "Education is the future of the nation; I do not know a name higher than my nation; The profession of a teacher is an honorable profession". [2]

One of the most serious innovations in general education was the transition to a new alphabet - the transformation of the Latin script into a reality. Heydar Aliyev's historical appeal "Our present and future are connected precisely with the Latin alphabet" has found its full solution in the education system. In order to further increase and support the interest of talented young people in education, President Heydar Aliyev's decision to personally meet with the applicants who scored the highest points in the entrance exams to higher education institutions and award them the "Presidential Scholarship" is another example of the great personality's attention to education.

Great leader Heydar Aliyev also carried out important measures in the field of developing the mother tongue, which is the most important component of Azerbaijaniness. According to our national leader, the mother tongue was the fundamental principle of Azerbaijaniness. Therefore, in order to instill national and spiritual values in the people, he knew well the importance of protecting and developing their own language first of all. At the same time, it is worth remembering that the great leader made all his official speeches in Azerbaijani at that time, and recommended this to all senior officials. Another fact. When the draft Constitution of the Azerbaijan SSR was adopted in 1978, the establishment of the Azerbaijani language as the mother tongue was also a clear manifestation of Heydar Aliyev's courage, heartfelt devotion and love for the Azerbaijani language... In addition, the fact that our great leader awarded the state prize to the 3-volume textbook "Modern Azerbaijani Language" published in the 70s of the last century is a clear example of what we are saying. "The language that preserves the nationality of a nation is its language. Undoubtedly, music, literature, and individual historical monuments confirm the nationality of a nation. But the first thing that confirms the nationality of a nation is its language. If there is no Azerbaijani language, there will be no songs, no music in Azerbaijani. All of these are interconnected. The survival, strengthening, and development of the Azerbaijani language as the state language is one of our greatest achievements. This is not only a matter of language, but also a matter of Azerbaijaniness," said Heydar Aliyev. His love for Azerbaijaniness and the Azerbaijani language was inexhaustible and came from the roots. That is why he constantly fought for the purity and cleanliness of the language. [3]

After Heydar Aliyev returned to power, the activities of the Academy of Sciences also saw a revival and new directions were determined. It was no coincidence that one of its first meetings was

held at the Academy of Sciences of the Republic of Azerbaijan on September 21, 1993. In our opinion, what Heydar Aliyev said at that meeting does not need any explanation. "I hear that they want to dismantle the Academy of Sciences and institutes, there is an indifferent attitude towards scientific institutions. We will put an end to all of this. Science must develop at any cost." These words spoken at that time outlined the prospects of science and education, and Heydar Aliyev truly fulfilled his promises and laid the foundation for educational reforms in a state living in the most difficult conditions. Those who implemented those reforms were highly qualified representatives of science and education who had grown up as a result of the measures taken by Heydar Aliyev in 1969-1982 to ensure the improvement of science and personnel potential.

The most important of the steps taken by Heydar Aliyev, who returned to power for the second time, in the field of science and education is his decree dated May 15, 2001. With that decree, the Academy of Sciences was given the name of the National Academy of Sciences, thus officially confirming the role and achievements of the academy in the development of our science. [1]

In accordance with the new directions, many educational institutions were renamed during the reign of Heydar Aliyev. The Institute of National Relations was renamed the Institute of International Relations, and the Bahmanyar Institute of Philosophy and Law was renamed the Institute of Philosophy, Sociology and Law. Conducting scientific research on the problems of human rights and freedoms was one of the important issues for the independent Azerbaijani state, which had embarked on the path of building a democratic, legal state. For this purpose, by the order of Heydar Aliyev, the Scientific Research Institute for Human Rights was established under the Department of Social Sciences of ANAS in September 1999.

Today, we can proudly note that the policy of Heydar Aliyev, the strategy of national statehood, of which he was the founder, is being successfully continued by his worthy successor, President Ilham Aliyev. The continuation of this policy in the future is the greatest guarantee for the progress of the Azerbaijani state.

Wisdom and determination in political struggle, pragmatism in life, mastery in state administration - these factors that form the basis of Heydar Aliyev's political school are a historical example for everyone engaged in real politics for the sake of serving the Motherland and the people. Because the personality of Heydar Aliyev was a historical event in itself. The ideas of this great man will always live on and will remain an example for future generations.

References

1. "Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əlirza Oğlu Əliyevin Həyat və Fəaliyyətinin Xronologiyası 1993–2003" (PDF).
2. *Məmməd ƏLİYEV.* "Heydər Əliyev elm, təhsil və mədəniyyətin himayədarı idi" (az.). Xalq qəzeti. 16 may 2010.
3. Naxçıvan ensiklopediyası. Bakı, Elm, 2002.

HEYDAR ALIYEV AND MUSTAFA KEMAL ATATÜRK: A COMPARATIVE ANALYSIS OF POLITICAL FORESIGHT

Sadaf Ajdarli
Mingachevir State University
sadaf.ajdarli@mdu.edu.az

Introduction

In the political history of the 20th century, leaders who considered the future of their countries and made significant choices during difficult and complicated periods have a unique position. Their foresight had an impact on not only their own time but also the lives of future generations. Heydar Aliyev, the national leader of the Azerbaijani people, and Mustafa Kemal Atatürk, the founder of

the Republic of Turkey are among those exceptional political figures. Despite the fact that they were functioning in distinct historical and geographical periods, both presidents made forward-thinking decisions to establish an independent system of governance, develop an autonomous administrative system, and foster a strong sense of national consciousness. This study will conduct a comparative analysis of the political foresights of Heydar Aliyev and Mustafa Kemal Atatürk, examining the similarities and differences regarding their leadership frameworks and long-term strategies.

Main part

Heydar Aliyev's political foresight was apparent at every stage of his leadership, including his tenure as the head of the Azerbaijan SSR during the Soviet era and his position as the president of the Republic of Azerbaijan during the independence period. He was able to make stable and consistent decisions that were aimed at long-term outcomes by deeply analyzing the complex internal and external challenges that the country was facing, which was a key feature of his visionary policy.

Azerbaijan was in the midst of a severe political crisis in 1993, which was marked by civil unrest, separatist tendencies, and the imminent threat of economic catastrophe, when Heydar Aliyev reassumed the leadership. His initial objective was to guarantee stability within the framework of state governance. In order to achieve this goal, he implemented measures to fortify state institutions, prioritized the development of the national armed forces, and implemented comprehensive reforms that were designed to reorganize the legal system. The legal foundation for these reforms was the Constitution that was adopted in 1995, which was an essential turning point in the consolidation of Azerbaijani statehood [1].

One of the most remarkable examples of farsighted leadership was the signing of the "Contract of the Century" in 1994. This oil agreement not only guaranteed the export of Azerbaijan's valuable energy resources to international markets but also attracted multibillion-dollar foreign investments and substantially enhanced the country's geopolitical significance. Heydar Aliyev, a visionary leader, comprehended that political sovereignty could not be maintained in the absence of economic independence. In addition to the energy strategy, he endeavored to establish a legal and institutional framework for the development of the non-oil sector.

Youth policy was also one of the main areas reflecting Heydar Aliyev's farsighted approach. He considered young people to be the future of Azerbaijan and emphasized the significance of fostering in them a sense of patriotism while providing them with contemporary technological and knowledge. State programs on youth policy were developed at his initiative, and opportunities were established for young professionals to pursue education abroad [3]. As a continuation of his policy, significant initiatives were implemented in subsequent years, including the "State Program on Education of Azerbaijani Youth Abroad for 2007-2015."

In the realm of foreign policy, Heydar Aliyev was recognized for his balanced and multifaceted approach. He successfully established pragmatic and mutually advantageous connections between Azerbaijan as a solid and reliable partner within a context of geopolitical rivalry.

These elements illustrate the political perception of Heydar. Aliyev was distinguished by his capacity to maneuver through crises and his dedication to establishing a long-term strategic growth framework.

In the early 20th century, after the breakdown of the Ottoman Empire during a period of profound decline, Mustafa Kemal Atatürk ascended to the political arena and established the principles of a modern state grounded in popular sovereignty and national desire. His political foresight went beyond the founding of the Republic of Turkey; he guaranteed that the new state was constructed on the principles of secularism, modernization, and national identity. Atatürk's exemplary leadership was characterized not only by his military competence but also by his political and ideological flexibility, strategic thinking, and ability to engage with the people of the Republic of Turkey [2].

The core principle underpinning Atatürk's political foresight was the establishment of a completely independent state. Under the guiding motto of "Peace at home, peace in the world," he endeavored to establish internal stability while also positioning Turkey as a respected figure in international relations. The Treaty of Lausanne, which was signed in 1923, secured the newly founded republic internationally recognized borders and sovereignty. This achievement stands as a clear testament to his diplomatic foresight.

Mustafa Kemal Atatürk also demonstrated his political foresight through the profound metamorphosis of the country's societal structure. His comprehensive and far-reaching reforms, which included the separation of religious institutions from state governance, the granting of voting rights to women, the modernization of the legal system, the secularization of education, and reform of the alphabet, were considered highly radical for their time. However, they were clearly oriented toward the future. As a consequence of these reforms, the traces of a feudal, theocratic empire were replaced by a modern republic that was integrated with Western values within a few decades.

Atatürk was also a leader who prioritized the development of youth. His renowned declaration, "All my hope lies in the youth," emphasized his belief that the future of the state was in the hands of the younger generation. For this reason, the expansion and modernization of education became one of his foremost priorities. He established an educational system that was designed to foster national consciousness, scientific knowledge, and civic responsibility [4].

All of these factors serve as evidence that Mustafa Kemal Atatürk was not merely the founder of the state but also a brilliant strategist who, with a forward-thinking perspective, influenced the fundamental principles of modern statehood while envisioning the future of Turkey. His political foresight not only addressed the challenges of his era but also established a model that future generations could reference and build upon.

Conclusion

The principal distinction in political foresight between Heydar Aliyev and Mustafa Kemal Atatürk stems from the historical contexts in which they functioned and the strategies they utilized. Atatürk strategy emerged in the aftermath of the collapse of the Ottoman Empire, with the objective of founding an entirely new republic and implementing highly radical reforms. His insight was primarily aimed at fundamentally transforming traditional structures and shaping a society aligned with Western paradigms. Consequently, he facilitated the separation of religion from state governance, eliminated feudal and religious influences, and established new legal, educational, and administrative systems. In implementing his reforms, Atatürk's strategy prioritized speed and decisiveness, carrying out transformative changes in a rapid and comprehensive manner.

In contrast, Heydar Aliyev's political foresight was molded by the administrative mechanisms inherited from the Soviet system and the challenges of leading a newly independent state with fragile institutions. He prioritized gradual and phased reforms that were designed to establish stability and, along with laying the groundwork for sustainable development. For instance, he endeavored to achieve a balance between national-spiritual values and statehood, rather than utterly marginalizing religious values. In the realm of foreign policy, unlike Atatürk's more inward-looking approach, Heydar Aliyev pursued broad regional and international cooperation, establishing balanced diplomatic relations that strengthened Azerbaijan's strategic position. These differing approaches show the distinct forms of foresight each leader used in reaction to the demands and reality of their particular eras and societies.

Although Heydar Aliyev and Mustafa Kemal Atatürk operated in different historical periods and under distinct circumstances, both illustrated profound political vision that fundamentally changed the destinies of their nations. Their leadership models share numerous commonalities in terms of developing independent statehood, reinforcing the national identity, and formulating forward-thinking strategies. Nevertheless, the methodologies they implemented, their approaches to the pace of reform, and their different conceptions of modernization are significant points of distinction. Today, the political legacies of both leaders are still considered foundational elements in the understanding of true leadership, both on a global scale and within their respective regions.

References

1. İsmayilov, E. (2021). Heydar Aliyev's political leadership in the formation of modern Azerbaijan. *Journal of Central Asian & Caucasian Studies*, 26(1), 45–60.
2. Mango, A. (2000). *Atatürk: The biography of the founder of modern Turkey*. Overlook Press.
3. Məmmədov, Ə. (2013). *Heydər Əliyev və Azərbaycançılıq ideologiyası*. Elm və Təhsil.
4. Zürcher, E. J. (2004). *Turkey: A modern history* (3rd ed.). I.B. Tauris.

MULTİKULTURAL DƏYƏRLƏR VƏ ONLARIN FORMALAŞMASINDA TƏHSİLİN ROLU

Arzu Kərimova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
arzukarimova15@gmail.com

Multikultural dəyərlərin cəmiyyətlərdə möhkəmləndirilməsi və inkişaf etdirilməsi müasir dövrün əsas sosial çağırışlarından biridir. Bu dəyərlər insan hüquqlarının qorunması, sosial inteqrasiya və mədəni müxtəlifliyin zənginləşməsi baxımından əhəmiyyət kəsb edir.

Multikulturalizm fərqli mədəniyyətlər arasında qarşılıqlı anlaşmanı və əməkdaşlığı təşviq edərək, cəmiyyətin daha stabil və tolerant bir mühitdə yaşamasına töhfə verir. Təhsil isə multikulturalizmin formalaşması və yayılması üçün mühüm alətlərdən biridir. O, insanlara müxtəlif mədəniyyətlərə hörmət etməyi, fərqlilikləri anlamağı və onlara qarşı dözümlü yanaşmağı öyrədir.

Məqalədə multikulturalizmin mahiyyəti, onun cəmiyyət üçün əhəmiyyəti, təhsilin bu sahədəki rolu və tətbiq yolları geniş şəkildə araşdırılmışdır. Məqalə çərçivəsində məktəblər, universitetlər, təhsil siyasəti və müəllimlərin multikultural dəyərlərin formalaşmasına təsiri detallı şəkildə təhlil olunmuşdur.

Təhsilin müxtəlif pillələrində multikultural dəyərlərin aşılanması, pedaqoji yanaşmalar və kurikulumun formalaşdırılmasında bu məsələnin nəzərə alınmasının əhəmiyyəti vurğulanmışdır. Multikultural təhsilin tətbiq olunması üçün inteqrativ tədris metodları, mədəniyyətlərarası tədbirlər və dövlət siyasətinin əhəmiyyəti geniş şəkildə araşdırılmışdır. [2, 36]

Məqalədə, həmçinin müxtəlif ölkələrdə multikultural təhsil modellərinə nəzər salınmış, onların uğurlu təcrübələri analiz edilərək, Azərbaycan təhsil sistemi üçün tövsiyələr verilmişdir. Ümumiyyətlə, bu məqalə təhsilin multikultural dəyərlərin inkişafındakı mühüm rolunu dəyərləndirərək, gələcəkdə bu sahədə aparıla biləcək islahatlar və yanaşmalar barədə fikir yürütməyə imkan yaradır. Təhsil müəssisələrinin, müəllimlərin və təhsil siyasətçilərinin multikultu-ralizm prinsiplərinə uyğun fəaliyyət göstərməsi, gələcək nəsillərin daha açıq fikirli və tolerant yetişməsinə müsbət təsir göstərəcəkdir.

Müasir dünyada multikulturalizm cəmiyyətlərin inkişafı və harmoniyasının təmin olunmasında əsas amillərdən biri kimi çıxış edir. Multikultural dəyərlərin formalaşması və cəmiyyətə inteqrasiyası üçün təhsilin rolu danılmazdır. Təhsil sistemi vasitəsilə müxtəlif mədəniyyətlərə hörmət, tolerantlıq və əməkdaşlıq kimi dəyərlər aşılanır. Məqalədə multikultural dəyərlərin təşəkkül tapmasında təhsilin rolu və əhəmiyyəti araşdırılacaqdır. [1, 93]

Multikultural dəyərlər və onların cəmiyyət üçün əhəmiyyətindən danışarkən qeyd etmək istərdim ki, multikultural dəyərlər müxtəlif etnik qrupların, dinlərin və mədəniyyətlərin qarşılıqlı hörmət və anlaşma əsasında birgə yaşayışını təmin edən norma və prinsiplər sistemidir. Bu dəyərlər insan hüquqlarının qorunmasını, sosial inteqrasiyanı və demokratik prinsiplərin inkişafını təşviq edir. Multikulturalizmin inkişaf etdiyi cəmiyyətlərdə daha çox sabitlik və harmoniya müşahidə olunur.

Təhsilin multikultural dəyərlərin formalaşmasında rolu Təhsil müxtəlif mədəniyyətlərin tanıdılması və onların qəbulu prosesində mühüm vasitə rolunu oynayır. Bu istiqamətdə əsas məqamlar aşağıdakılardır:

– Məktəb və universitetlərin rolu: Təhsil ocaqları mədəniyyətlərarası dialoqun əsas məkanı kimi çıxış edərək tələbə və şagirdlər arasında tolerantlıq və əməkdaşlıq münasibətlərini inkişaf etdirir.

– Dərslik və tədris proqramlarının əhəmiyyəti: Multikultural dəyərləri təşviq edən dərsliklər və proqramlar gənclərin dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir. [3, 21]

– Müəllimlərin rolu**:** Müəllimlər multikultural dəyərlərin ötürülməsində əsas vasitəçidirlər. Onlar müxtəlif etnik və mədəni qrupların dəyərlərini şagirdlərə aşılamaq üçün xüsusi pedaqoji yanaşmalar tətbiq etməlidirlər. Multikultural təhsilin tətbiqi yollarından bəhs edərkən onu demək istərdim ki, multikultural təhsilin uğurla həyata keçirilməsi üçün aşağıdakı metodlardan istifadə oluna bilər:

– İnteqrativ tədris metodları: Müxtəlif fənlərdə multikulturalizm elementlərinin tətbiq olunması.

– Mədəniyyətlərarası tədbirlər və layihələr: Şagirdlərin və tələbələrin müxtəlif mədəniyyətlərə məxsus festivallarda, seminar və konfranslarda iştirakı.

– Təhsil siyasətində multikultural dəyərlərin təşviqi: Dövlət təhsil siyasətində multikulturalizm prinsipinin əsas istiqamətlərdən biri kimi müəyyən edilməsi.

Nəticə

Yekun olaraq, qeyd etmək istərdim ki, multikultural dəyərlərin cəmiyyətdə formalaşması və inkişafı üçün təhsil mühüm amillərdən biridir. Təhsil vasitəsilə müxtəlif mədəniyyətlərə qarşı tolerant münasibət, birgə yaşayış prinsipləri və sosial harmoniya formalaşdırılır. Bu səbəbdən, təhsil siyasətində multikulturalizmə xüsusi diqqət ayrılmalı, məktəblər və ali təhsil müəssisələri bu istiqamətdə fəaliyyətlərini gücləndirməlidirlər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1 .UNESCO: "Multicultural Education: Principles and Practices" 2020.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi, "Multikultural dəyərlər və təhsil," Bakı, 2019.

3. Smit J. "Multikultural dəyərlərin təşviqində təhsilin rolu", Cambridge University Press, 2018.

4. Azərbaycan Respublikası Konstitusiyası, İnsan hüquqları və multikulturalizm bölməsi, 2016.

HEYDƏR ƏLİYEV – TƏHSİLDƏ AZƏRBAYCANÇILIĞIN TƏDRİSİ

Aysel İbrahimova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aysel-ibrahimova2015@mail.ru

Müasir dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi həm də onun malik olduğu elmi-mədəni potensialla ölçülür. İndiyə qədər bəşər tarixində əbədilik qazanmış dahi şəxsiyyətlərin elmə, elm xadimlərinə münasibəti, bu fəaliyyət sahəsinin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən birinə çevrilmişdir. Bu baxımdan müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri də misilsizdir. Heydər Əliyev təhsildə azərbaycançılıq və dövlətçilik ideologiyasının tədrisini ən vacib amillərdən hesab etmişdir. Təhsildə azərbaycançılıq və dövlətçilik ideologiyası geniş profilli təhsil sahəsini əhatə edən bir konsepsiyadır

Müasir təhsil sistemində bu konsepsiyanın gələcək nəsillərə çatdırılması təhsilin inkişaf strategiyasında ən vacib şərtlərdən biridir. İdeologiya dedikdə insanların bütövlükdə gerçəkliyə olan münasibətlərinin ümumiləşdirilmiş və həm sadə, anlaşıqlı şəkildə ifadə olunmuş əqli və mənəvi-ruhi dəyərlər sistemi nəzərdə tutulur. İdeologiya ideyaların toplusundan təşəkkül tapır. İdeologiya insanların düşüncə fəaliyyətini və həyat tərzini istiqamətləndirən mənəvi enerji və qüvvədir və

ideologiya hazırda yaşanan bu günü nəzərə almaqla həm də sabahkı günə, gələcəyə perspektiv imkanlara əsaslanmalıdır. Vahid milli ideologiya vahid milli siyasi lidersiz həyata keçirilə bilməz.

Qeyd etmək lazımdır ki, Azərbaycanın dövlətçilik və azərbaycançılıq prinsiplərinin müəyyən olunması ölkəmiz 1991-ci ildə II dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra meydana çıxmışdır. Həmin dövrdə müstəqilliyə yenicə qovuşmuş dövlətimizin gələcək inkişafı ilə əlaqədar müxtəlif ideoloji təkliflər səsləndirilirdi. Heydər Əliyev 1993-cü ildə xalqın təkidi və tələbi ilə hakimiyyətə gəlişi Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda millətimizin və dövlətimizin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini - azərbaycançılığı və dövlətçiliyi irs, konsepsiya kimi müəyyənləşdirdi. Heydər Əliyev məhz bu mərhələdən etibarən Azərbaycanı yenidən qurmağa, onun milli azərbaycançılıq və dövlətçilik ideyalarının konsepsiyasını, dövlətçilik atributlarını formalaşdırmağa başladı. Azərbaycanın dövlət müstəqilliyini şərti müstəqillik aktı və bəyanat səviyyəsindən çıxardı. Hakimiyyətə 2-ci qayıdışından sonra Heydər Əliyev təhsillə bağlı nəzəri fikirləri və tələbləri içərisində təhsilin məzmunun azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vacib bir istiqamət kimi qarşıya qoymuşdur. Ulu Öndər milli ideologiyanın vacib komponentlərindən olan azərbaycançılığın və dövlətçiliyin məzmununu və mahiyyətini təlim tərbiyə müəssisələrində uşağlara, gənclərə və tələbələrə öyrədilməsini vacib hesab edirdi. O, öz çıxışlarında deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyətinə görə qürur hissi keçirməlidir." (3) O, qeyd edirdi ki, yaşadığı ölkədən, vətəndaşı olduğu dövlətdən asılı olmayaraq dünyanın harasında azərbaycanlı varsa orada azərbaycançılıq hissi özünü göstərməlidir. Bu hiss Azərbaycan sevgisində, ana vətən məhəbbətində təzahür edir. Bu haqqda Heydər Əliyevin sözlərinə diqqət yetirsək məsələnin mahiyyəti hamı üçün aydın olar: " Azərbaycanı sevmək – azərbaycançılıq hissiyatını özündə cəm etmək lazımdır."

Heydər Əliyev təhsildə milli dövlətçilik prinsiplərinin dövlətçilik atributlarının tədrisinin də müstəsna əhəmiyyətə malik olduğunu çox vacib hesab edirdi. Bu məsələlərin Azərbaycanın təhsil sahəsində qəbul olunmuş Dövlət Proqramında, bütövlükdə müasir təhsilin əsaslarını formalaşdırılmasında əsas amil hesab edirdi. Həmin nəzəri müddəalar aşağıdakılardır:

- Azərbaycan təhsilinin məzmunu müstəqil Azərbaycan dövlətinin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında qurulmalıdır.
- Təhsil sistemi xalqımızın tarixinə, mənəviyyatına və ənənələrinə uyğun qurulmalıdır.
- Azərbaycançılıq, vətənpərvərlik ideologiyasının tədrisdə, təhsil ocaqlarında tətbiqi və öyrədilməsi daimi olmalıdır. Müstəqil Azərbaycanıntəhsil sistemində dövlətçilik, azərbaycançılıq hisslərinin öyrədilməsi Heydər Əliyevin təbirincə desək, "Dövlətçilik, milli-mənəvi dəyərlər ümumbəşəri dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir." Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir Azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini yaşatmalıyıq." Göründüyü kimi, ən böyük Azərbaycanlı və təhsil qurucusu olan Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təhsildə bu gün və bundan sonrakı dövrlər üçün daim diqqət mərkəzində olmalıdır. Çünki azərbaycançılıq və dövlətçilik ideologiyası xalqımızın gələcək varlığını, əsaslarını və istiqamətlərini müəyyənləşdirir. Onun başlıca müddəası isə dövlət siyasətinin konkret fəaliyyət proqramıdır.

Heydər Əliyevin təhsildə azərbaycançılıq və dövlətçilik ideologiyasının həlledici əhəmiyyətə malik olan ideyaları aşağıdakılardan ibarətdir:

- Təhsildə torpaq və vətən məhəbbətini tam və dolğun şəkildə büruzə verən azərbaycançılığın tədrisi və təbliği;
- Təhsildə torpaqlarımızın bütövlüyünü və sərhədlərimizin toxunulmazlığını əhatə edən suverenliyimizin tədrisi və təbliği;
- Dünyanın qabaqcıl milli-mənəvi dəyərlərinin, mütərəqqi nailiyyətlərinin öyrənilməsi, ancaq öz xalqımızın milli-mənəvi dəyərlərindən gənclərin faydalanması və bu dəyərlərin inkişaf etdirilməsi təhsildə tədris və təbliq olunmalıdır.
- Təhsildə dövlət siyasətinə uyğun idarəçilik sisteminin yenidən qurulması vacibdir.

- Təhsildə cəmiyyətin sosial ahəngdarlığını, dövlətçiliyinin humanizmin və insan ləyaqətinin qorunmasını təmin edə biləcək kadrların hazırlanması təmin olunmalıdır (4)

- Təhsildə hər bir gəncin qəlbində dövlətçilik, azərbaycançılıq vətənpərvərlik məhəbbətinin daimi olmasını aşılamaq Bütün bu qeyd olunanlar hər bir gəncə, hər bir tələbəyə öyrədilməli, onların qəlbində dövlətçilik məhəbbəti əbədi yaşamalıdır. Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik ideologiyası ümummilli tədrisdə inkişafının təmin olunmasına, ölkənin ərazi bütövlüyünün qorunub saxlanmasına, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarda, gənclərdə və gələcək nəsillərdə bu ideyaların təbliğ olunmasına xidmət olunmalıdır.

Bu gün yeni dövrün əsas xüsusiyyətlərindən biri də azərbaycançılıq və dövlətçilik ideologiyasını elmləşdirmək, tədrisləş-dirmək və həyata keçirmək hər bir təhsil işçisinin əsas vəzifələrindən biri olmalıdır.

1993-cü ildə Azərbaycan xalqının xilaskarı kimi ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyevi Azərbaycan dövlətini parçalanmaq, məhv olmaq təhlükəsindən xilas etdi. Bu, eyni zamanda, Azərbaycan elminin xilası demək idi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. M.Məmmədov. N.Nərimanov və ana dili, Bakı, 1971.
2. N.Xudiyev. Heydər Əliyev və Azərbaycan dili, Bakı, 1997.
3. Ə.N.Cəfərov. Cənubi Azərbaycanda ədəbi dil: normalar, üslublar, Bakı, 1990.
4. N.Cəfərov. Azərbaycan dövlətçiliyinin dili, yaxud Azərbaycan Prezidentinin dil siyasəti. "Azərbaycan" qəzeti, 18 avqust 2001.
5. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin nitqi, "Azərbaycan" qəzeti, 10 noyabr 2001.
6. V.Əliyev. Heydər Əliyev və Dil siyasəti. Bakı, Nurlan, 2003.
5. Heydər Əliyev və milli mənəvi dəyərlərimiz (məqalə) - filol.e.d. Qəzənfər Paşayev 6. Mənim prezidentim. Ulu Öndər Heydər Əliyevin 100 Yaşına - AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu

HEYDƏR ƏLİYEV VƏ ANA DİLİMİZ

Nüşabə İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nusaba-331@mail.ru

Hər bir dilin praktik işlənməsi üçün münbit şəraitlə yanaşı, onun yad təsirlərə qarşı müqavimətli olması da böyük rol oynayır. Belə olmadıqda dil assimilyasiya olunar, gələcək nəsillərə gəlib çatmaz, bu əvəzsiz xəzinədən ulularımızdan bizə miras qalan qiymətli sərvətdən hamı məhrum olardı.

Dilimiz ərəb və fars dillərinin təsirinə və təqibinə məruz qalsa da, məğlub olmamış, xalqa məxsusluğunu qoruyub saxlamışdır. Sadəcə şairlərimiz öz dilində deyil, ərəb və fars dillərində yazıb-yaratmağa məcbur olsalar da yazdıqları ilə də ümumtürk mədəniyyətinə, bəşər sivilizasiyasına xidmət etmişlər. Dilimizin daxili potensial imkanları, gücü, enerjisi və müqaviməti yad dillərin mövqeyini üstələyə bilmiş, bununla da dilimiz elm, sənət və ədəbiyyat dili kimi daim hücumçu mövqedə olmuş, qalib gəlmək və yaşamaq haqqına sahib çıxmışdır.

Dilimizə yaşam hüququ verən amillərdən biri də bu dilin olduqca həyati olmasıdır. Dünyada yaşayan 50 milyon azərbaycanlı harada olmasından asılı olmayaraq bu dili unutmurlar. Hazırda Cənubi Azərbaycanda yaşayan 30 milyon azərbaycanlı doğma dilində məktəblərin yoxluğuna baxmayaraq, Azərbaycan dilini yaşadırlar, bu dil ilə fəxr edir, bu dil ilə sevinclərini, kədərlərini bölüşürlər.

Vaxtilə Azərbaycanın ilk Konstitusiyası qəbul olunanda, orada dövlət dili haqqında maddə təsbit edilməmişdi. 1937-ci ilin aprel ayında qəbul olunmuş Konstitusiyada da dövlət dili barəsində maddə olmayıbdır.

1956-cı il Konstitusiyasında isə "Azərbaycanın dövlət dili Azərbaycan dilidir", maddəsi yazılmışdı. 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edilmişdir. Azərbaycan dilinin inkişafı dövlət dili kimi onun inkişafına qayğı Ümummilli liderimiz Heydər Əliyevin adıyla bağlıdır. Heydər Əliyevin bu istiqamətdəki rolu, nüfuzu, cəsarəti və apardığı siyasət müstəqil Azərbaycan dövlətinə və onun dövlət dili olan Azərbaycan dilinin adının rəsmiləşməsinə gedən yolun parlaq qığılcımı, bünövrə sütunudur. Əslində müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsbiti istər-istəməz 50 milyona yaxın azərbaycanlının haqqını özünə qaytarmaq, ədaləti bərpa etmək, milli təəssübkeşliyi üstün olan ziyalılarımızın ruhuna hsrmət, əməllərinə sədaqət əlamətidir.

Filologiya elmləri doktoru, professor Buludxan Xəlilov yazır ki: "Azərbaycan tarixinin yaxın keşmişində Azərbaycan dili təqib və təzyiqlərə məruz qalmış, əslində nüfuzunu, rəsmi dövlət dili kimi statusunu itirmişdi. (8) Azərbaycan dilinə qarşı qısqanc, qərəzli və ədalətsiz münasibət 1956-cı ildə Azərbaycan Konstitusiyasında "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" maddəsi olanda da davam etmişdir. O vaxtın özündə də iclasların, qəzetlərin, rəsmi dövlət adamlarının dili Azərbaycan dili olmayıb və kargüzarlıq işləri doğma ana dilimizdə aparılmayıbdır. 1950-ci illərdəki siyasi rejim "sovet ailəsi", "sosialist milləti", "məzmunca sosialist, formaca milli" mahiyyət kəsb etmiş, milli təmayüllərə millətçilik damğası vurmuşdur. Bu mənada "Azərbaycan dili dövlət idarələrində", "Yüksək dil mədəniyyəti uğrunda", "Azərbaycan ədəbi dilinin bəzi məsələləri haqqında" və s. məqalələr 1950-ci illərdə Azərbaycan ədəbi dili və onun işləkliyi barəsində geniş təsəvvür yaradır.

Ümummilli liderimiz Heydər Əliyev uzaqgörənliklə qeyd edirdi ki*: "İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri ifadə etməyə qadirik. Bu, böyük nailiyyətdir. Bu, iqtisadi və başqa nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məxsus dilimiz var və o da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizdə ifadə edə bilirik".*

Dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına böyük qayğı göstərən Böyük öndər Heydər Əliyevin 1960-cı illərin sonundan başlayaraq, sistemli, ardıcıl milli dil siyasəti aparmışdır. **"***Böyük öndər* Heydər Əliyevin *ideyaları fundamental əsaslarda, konseptual genişlikdə azərbaycançılıq məfkurəsinin bel sütunudur, hərəkətverici beyin mərkəzidir."*

Ötən onilliklər sübut etdi ki, Ulu öndər Heydər Əliyev o mübarizə meydanında cəsarətlə döyüşdü və mənən qalib gəldi.

Böyük öndər Heydər Əliyev ümumrespublika tədbirlərində Azərbaycanca danışmaqdan çəkinmirdi, neçə illər ərzində küncə sıxışdırılan dilimizin sabahına işıq salır, cəsarəti, şəxsi nümunəsi ilə milyonlarla insanın ürəyindən keçənlərin ifadəçisinə çevrilir, haqq sözü deyir, dilimizin ən ali mərtəbəyə layiq olduğunu bəyan edirdi.

Məhz aparılan gərgin, sistemli mübarizənin nəticəsi olaraq ötən əsrin 70-ci illəri Azərbaycan dili və milli dilçilik elmimizlə bağlı itirilənlərin bərpası, səhvlərin, saxtakarlıqların düzəlişi dövrü oldu. 70-ci illərdə Bakı yenidən dünya türkologiya elminin mərkəzinə çevrildi. Böyük öndər Heydər Əliyev bunu yüksək qiymətləndirərək deyirdi: "Azərbaycanda türkologiya da şox inkişaf edibdir… Təsadüfi deyil ki, Sovet İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı Azərbaycanda nəşr edilirdi" (1)

Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət mükafatı verilməsi Azərbaycan dilinə böyük qayğının parlaq təzahürü idi.

Məlumdur ki, XXI əsr Azərbaycan dilinin inkişafında əlamətdar hadisələrlə zəngindir. Xüsusilə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, ana dilimizin inkişafı, tətbiqi və təsir dairələrinin genişlənməsi ilə bağlı ümummilli liderimiz Heydər Əliyevin fərmanları, sərəncamları, habelə digər hüquqi-normativ aktlar, qanunlar, dilimizin daha da inkişafı üşün əlverişli şərait yaradır. Bu şərait Azərbaycan dilinin tədrisi işinin yüksək səviyyədə qurulmasına da geniş imkan və perspektivlər açır.

1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında (21-ci maddə) Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Bütün bunların həyata keçirilməsində Böyük öndərimiz Heydər Əliyevin apardığı dil siyasətinin çox mühüm önəmi, əhəmiyyəti vardır. Mədəniyyətimizə, incəsənətimizə, dilimizə qayğı hər bir vətəndaşdan milli təəssübkeşlik mövqeyini nümayiş etdirməyi tələb edir.

Dil məsələlərinə gəldikdə isə onu demək lazımdır ki, dilçiliyimizin Azərbaycan dilinin dəyərini, rolunu, zənginliklərini, incəliklərini və s. məsələləri üzə çıxarması üşün olduqca əlverişli şərait yaranmışdır.

Heydər Əliyevin böyüklüyü ondadır ki, o, dediyi sözü axıra çatdırır, verdiyi qərarların reallaşmasına həm şərait yaradır, həm də ciddi nəzarət edir. Ulu Öndər Azərbaycan dilinə qayğını və onun qorunmasını Azərbaycan dövlətinin aparıcı siyasiideoloji vəzifəsi, milli-tarixi marağı kimi qiymətləndirir. Müstəqil Azərbaycanda dövlətçiliyin qorunmasında Azərbaycan dilinin hakim dil kimi qorunub möhkəmlənməsində, daha da inkişaf etdirilməsində, əcnəbi dillərin, xüsusilə ingilis və rus dillərinin ünsiyyətdə rəqabət apardığı bir zamanda dilimizə qayğını onun qədər düzgün qiymətləndirib qoruyan və lazımi tədbirlər görən ikinci bir şəxs yoxdur.

Heydər Əliyev özünün məlum tarixi fərmanını verərkən əsas məqsədi iki istiqamətə yönəltmişdir: Azərbaycan dilinin dövlət dili kimi qorunub möhkəmlənməsi və inkişaf etdirilməsi. Fərmandan keçən dövr ərzində elə bir tədbir olmayıb ki, o, Azərbaycan dilinin problemləri ilə maraqlanmasın, özünün yeni-yeni tövsiyələrini söyləməsin.

Dünya Azərbaycanlılarının I qurultayı zamanı onun söylədiyi ən dəyərli tövsiyə soydaşlarımızın harada yaşamasından asılı olmayaraq, milli dəyərlərimizi və dilimizi qorumaq oldu. O, çox böyük həyəcanla həmvətənlərimizə görün necə də mənalı müraciət edir: "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli, mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır

Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dilimiz həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hərbir azərbaycanlı dilin qorunub saxlanmasında az da olsa, çox da olsa öz xidmətini göstərmişdir. Xüsusən bizim yazıcılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngin, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz eht-yatına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsni təmin edəcəyik. Ancaq eyni zamanda arzu edirik ki, hansı qitə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin. Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən, başqa ölkələrdə yaşayan azərbaycanlılar. Ona görə də mən arzu edirəm ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, birbirinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adətənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramları qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar. Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar".

Müstəqillik illərində Ümummilli liderimiz Heydər Əliyevin qayğısı sayəsində ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi.

Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda ölkəmizdə cəmiyyətimizin elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.

Ulu öndər Heydər Əliyev demişdir: *"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir, şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm."*

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı, B., «Ozan», 1999..
2. A.Axundov. Dil mədəniyyəti, B., 1992.
3. A.Axundov. Dilimizə dövlət qayğısı. "Dirçəliş" jurnalı, №41, B.,2001.
4. N.Xudiyev. Heydər Əliyev və Azərbaycan dili, B., 1997.
5. Ə.N.Cəfərov. Cənubi Azərbaycanda ədəbi dil: normalar, üslublar, B., 1990.
6. N.Cəfərov. Azərbaycan dövlətçiliyinin dili, yaxud Azərbaycan Prezidentinin dil siyasəti. "Azərbaycan" qəzeti, 18 avqust 2001.
7. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının prezidenti H.Əliyevin nitqi, "Azərbaycan" qəzeti, 10 noyabr 2001.
8. B.Xəlilov. Azərbaycan dili milli varlığımızdır. "Dirçəliş" jurnalı, №243, 44, 45, 46, B., 2001

THE ROLE OF THE BODY'S DEFENSE COUNTER-DEFENSE SYSTEM IN THE PATHOGENESIS OF DIABETES MELLITUS

Gunel Sultanova
Azerbaijan Medical University
gunelsultanova1202@gmail.com

Relevance

Diabetes mellitus is one of the major medical and social problems of our modern world. The key step in the pathogenesis of the disease is intravascular damage, which leads to cellular damage. One of the main mechanisms of cell damage is the intensification of free radical reactions, which occurs as a result of an imbalance between prooxidants and antioxidants. Ultraviolet radiation as a prooxidant factor can be cited as an example of vitamin D depletion. An example of a non-enzymatic antioxidant is ECA, while an example of an enzymatic antioxidant is glutathione and catalase.

Aim to study

Obtaining a diabetes model using alloxan and determining MDA and catalase in blood and lymph.

Materials and methods

First, the relevant indicators in blood and lymph were studied in rabbits included in the I control group. In the next stage, these examinations were performed on rabbits in which the DM (diabetes mellitus) model was created (II control group). Then, the effect of the application of antidiabetic properties on the studied indicators in blood and lymph was studied in the SD modeled rabbits included in the experimental groups (experimental groups 3, 4, 5). During the studies, 5% alloxan monohydrate solution was injected into the peritoneal cavity of experimental rabbits at a dose of 100 mg/kg to create a diabetes model.

Results

During the study, after the complex administration of the drugs used in the treatment of animals with DM (diabetes mellitus), changes in the level of oxidative stress indicators were determined in both fluid environments of the animals. As a result of the complex treatment, a continuous decrease in the level of MDA and an increase in the level of catalase were observed in both the blood and lymph of rabbits with DM. In the experiment, an increase in velocity of lymph

was also observed in the thoracic lymph flow after the complex administration of the drugs used in the treatment of animals modeled with DM.

Conclusion

Oxidative stress indicators increase in diabetes mellitus, and treatments aimed at the pathogenesis result in weakening the process. As a result, the concentration of catalase increased but MDA decreased.

References

1. Aliyev M.Kh., Sultanova G.M., Aliyev O.S., Aliyev E.M., Hajiyeva S.I., Aliyeva C.T., Safaraliyeva L.Kh. Diabetic osteopenia as a manifestation of delayed complications of diabetes // Azerbaijan Medical Journal, Baku: 2021, No. 4, p. 190-196, ISSN 0005-2523, www.azmedjournal.com tibbjurnali@gmail.com

2. Mammadzade A.Y., Aghamaliyeva U.C., Panahi M. A., Sultanova G. M., Ahmadzade U.I. The role of endothelial dysfunction in intravascular coagulation of blood and lymph and disruption of tissue lymphatic drainage during diabetes // Honored Scientist Professor T.A. Based on the Materials of the International Scientific-Practical Congress dedicated to the 100th anniversary of Aliyev's birth, "Actual Problems of Medicine 2021", October 6-8, Azerbaijan, Baku, 2021, p. 322-323.

3. Sultanova G.M., Gasimova A.S., Ahmadzadeh U. I. , Gasimova N.N. Bone Metabolism Disorders During Diabetes Mellitus // Nature and Science international scientific journal, Baku, 2022, volume 4, issue 10, volume 4, Issue 10, pages 55-56, ISSN 2707- 1146 e-ISSN 2709-4189 impact factor 1.642 DOI: 10.36719/2707-1146/25/12-16.

4. Sultanova G. Şəkərli diabet zamanı sümük metabolizm pozulmaları // VII İnternational Scientific and Practical Conference, Questions hypotheses answers science XXI century, Toronto Canada, March 26-27 2024 , UDC 001.1, BBC 1, pages 54-57, ISBN 978-91-5423-61-9, https//doi.org/10.5281/zenodo.10899717 https://sconferences.com, info@conferences.com.

5. Wang L, Li T, Liu J, Wu X, Wang H, Li X, et al. Association between glycosylated hemoglobin Alc and bone biochemical markers in type 2 diabetic postmenopausal women: a cross-sectional study. BMC Endocr Disord 2019, 19(1), 31.

HEYDƏR ƏLİYEV SİYASƏTİNİN AZƏRBAYCAN ORDUSUNDA İKT-NİN DAVAMLI İNKİŞAFINA TƏSİRİ

Elşən Elyar oğlu Tanrıverdiyev
Hərbi Elmi Tədqiqat İnstitutu
elshantanriverdiyev@gmail.com

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə müdafiə qabiliyyətinin gücləndirilməsi və milli ordunun yaradılması qarşıda duran əsas məsələlərdən biri olmuşdur. Müstəqilliyin ilk illərində ölkə siyasi qeyri-sabitlik, regional münaqişələr və xarici təhlükələrlə üz-üzə qalmışdır ki, bu da peşəkar və güclü orduya olan ehtiyacı daha da artırmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərbi potensialının inkişafı üçün əsaslı islahatlar həyata keçirilmiş, ordunun beynəlxalq standartlara uyğun şəkildə qurulması və texnoloji baxımdan modernləşdirilməsi istiqamətində ciddi addımlar atılmışdır. Hərbi akademiyaların yaradılması, strukturlaşdırılmış təlim sistemlərinin tətbiqi və peşəkar kadrların hazırlanması bu prosesin əsasını təşkil etmişdir. Eyni zamanda, beynəlxalq hərbi təşkilatlarla əməkdaşlıq genişləndirilmiş, beynəlxalq prinsiplərə uyğun islahatlar aparılmışdır.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli ordu formalaşdırılması istiqamətində mühüm addımlar atıldı. 22 may 1998-ci il tarixli Fərmanı ilə 26 iyun tarixinin Silahlı Qüvvələr Günü elan edilməsi ilə ölkədə ordu quruculuğuna diqqət daha da artdı. Həmin dövrdən başlayaraq hərbi təhsil sisteminin gücləndirilməsi məqsədilə Azərbaycan Ali Hərbi Məktəbi və Cəmşid

Naxçıvanski adına Hərbi Liseylər yenidən strukturlaşdırıldı. Hərbi təhsil sistemi tamamilə yenidən quruldu və beynəlxalq standartlara uyğun peşəkar hərbi kadrların hazırlanması üçün baza formalaşdırıldı.

Heydər Əliyevin uzaqgörən və müdrik siyasi kursunun layiqli davamçısı kimi möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cənablarının məqsədyönlü fəaliyyəti nəticəsində bu gün qlobal dünyada sosial-iqtisadi inkişafın aparıcı istiqaməti olan İKT-nin Azərbaycanda tətbiqi prioritet sahəyə çevrilmişdir. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, ölkədə sosial-iqtisadi inkişafı təmin etmək, xalqın rifahını yüksəltmək cənab Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrindəndir. Təsadüfi deyil ki, bu gün dünyada sosial-iqtisadi inkişafın aparıcı istiqaməti olan İKT-nin Azərbaycanda tətbiqi Heydər Əliyev kursunda prioritet məsələ hesab edilib [1]. Azərbaycanın regionda aparıcı ölkəyə çevrilməsi üçün İKT sahəsində daim məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə hərbi texnologiyalar sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. 2013-cü ildə təsdiqlənmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında İKT sahəsində prioritetlərin müəyyənləşdirilməsi ordunun texniki və texnoloji inkişafında dönüş nöqtəsi oldu. Bununla yanaşı, "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" sənədi və "Elektron Azərbaycan Dövlət Proqramı" (2005-2008; 2010-2012) kimi hüquqi sənədlər, İKT-nin dövlət və hərbi idarəetmə strukturlarında tətbiqini stimullaşdırdı [2].

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiqi bir daha sübut edir ki, bu sahənin diqqətdə saxlanılması ən mühüm məsələlərdən biridir.

Son zamanlar Azərbaycanın hava yolları, kosmos və texnologiya sahəsində əldə etdiyi uğurlar qardaş Türkiyədə keçirilən "TEKNOFEST" festivalında da özünü göstərdi. 2021-ci ildə Azərbaycan ilk dəfə "TEKNOFEST" Aviasiya, Kosmos və Texnologiya festivalında iştirak edib. Türkiyədə keçirilən bu tədbir çərçivəsində, professionallıq göstərən Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları,"MiQ-29" qırıcı təyyarələri ilə solo pilotaj uçuşları həyata keçiriblər. Tədbirdə Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən iki "MiQ-29" təyyarəsi, eləcə də Müdafiə Sənayesi Nazirliyi tərəfindən "İti qovan", "Orbiter 2", "Orbiter 3", "Orbiter 4" kimi pilotsuz hava vasitələri də sərgilənib.

Bunun davamı olaraq, ilk dəfə Azərbaycanda, 26-29 may 2022 tarixlərində "TEKNOFEST Azərbaycan" keçirildi. Bu festival çərçivəsində, "Smart Qarabağ" Hakatonu, "Take Off Baku" Startap Sammiti, "Rocket League" Avropa çempionatı, "Robotexnika", "Model Peyk Cansat", "Planer", "PUA", "Sosial yönümlü texnologiyalar", "Yaşıl texnologiyalar", "Aqrar texnologiyalar" və "Baku Skills" müsabiqələri təşkil olunub [3].

Bu gün Ulu Öndərin qoyduğu siyasi kurs Azərbaycanda Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev irsinin davamçısı cənab Prezident İlham Əliyev həmin siyasəti davam etdirməklə respublikada İKT sahəsinə xüsusi diqqət və qayğı göstərir. Bu sahənin inkişafında öz siyasi enerjisini və köməkliyini əsirgəmir. Məhz uğurlu siyasətin nəticəsində Azərbaycanın dünya arenasında mövqeləri gündən-günə möhkəmlənir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müdafiə sənayesinin və ordunun texnoloji potensialının gücləndirilməsi istiqamətində ciddi nailiyyətlər əldə edildi. Ölkədə hərbi təyinatlı məhsulların istehsalı üçün müasir texnologiyaların tətbiqi genişləndirildi, ən müasir silah və texnika ilə təchizat təmin edildi. Nəticədə, Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ildə Günnüt əməliyyatında və xüsusilə 2020-ci ilin 44 günlük Vətən müharibəsində yüksək peşəkarlıq və texnoloji üstünlük nümayiş etdirərək, qələbə qazandı.

İKT-nin ordu strukturunda tətbiqi Prezident İlham Əliyevin rəhbərliyi ilə xüsusi əhəmiyyət qazandı. Hərbi hissələrdə informasiya texnologiyaları üzrə müasir kommunikasiya vasitələri, elektron idarəetmə və avtomatlaşdırılmış idarəetmə sistemləri tətbiq edildi. Bu tədbirlər ordunun

operativ idarəetmə imkanlarını gücləndirdi, qərar qəbul etmə proseslərini sürətləndirdi və müasir döyüş şəraitində üstünlük yaratdı [4].

Müasir texnologiyalara əsaslanan pilotsuz uçuş aparatları (PUA), radar sistemləri, şifrələnmiş rabitə vasitələri və elektron xəritələmə sistemlərinin tətbiqi Azərbaycan Ordusunun idarəetmə imkanlarını əhəmiyyətli dərəcədə gücləndirmişdir. Real döyüş nümunəsi kimi, 2020-ci il Vətən müharibəsində tətbiq edilən PUA-lar, geolokasiya sistemləri və məlumat mübadilə platformaları düşmənin hərbi mövqelərinə dəqiq zərbələr endirilməsinə imkan yaratdı.

İnformasiya texnologiyalarının sürətli inkişafı hərbi strukturların qarşısında yeni kibertəhlükəsizlik çağırışları yaratdı. Azərbaycan Ordusunda kibertəhlükəsizliyin təmin olunması üçün strateji tədbirlər həyata keçirildi. Kiber təhdidlərin aşkarlanması və qarşısının alınması üçün süni intellekt əsaslı təhlükəsizlik sistemləri tətbiq olundu. Azərbaycan Ordusunun kibertəhlükəsizlik siyasəti beynəlxalq standartlara uyğun olaraq həyata keçirilir və beynəlxalq əməkdaşlıq çərçivəsində kiber təlimlər təşkil olunur. Mütəmadi olaraq, keçirilən təlimlər və beynəlxalq təcrübə mübadilələri nəticəsində hərbi qulluqçuların kibertəhlükəsizlik sahəsində bilik və bacarıqları artırılır. Bu tədbirlər nəticəsində Azərbaycan Ordusu kibertəhlükələrə qarşı yüksək müdafiə qabiliyyətinə malik orduya çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu və İKT siyasəti, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, Azərbaycan Ordusunun regionda ən müasir və texnologiyaya əsaslanan güclü hərbi struktura çevrilməsinə səbəb olmuşdur. Gələcəkdə aşağıdakı istiqamətlərdə fəaliyyətin davam etdirilməsi tövsiyə olunur:

- Hərbi İKT sahəsində elmi tədqiqatların dəstəklənməsi;
- Süni intellekt və böyük məlumat analizinin orduda geniş tətbiqi;
- Tərəfdaş ölkələrlə kiber əməkdaşlıq formatlarının genişləndirilməsi;
- Hərbi təhsil müəssisələrində İKT ixtisaslarının inkişaf etdirilməsi;
- Hüquqi bazanın, xüsusilə kibertəhlükəsizliklə bağlı qanunvericiliyin təkmilləşdirilməsi.

Bu tədbirlər Azərbaycanın milli təhlükəsizliyinin və ordunun rəqəmsal mühitdə döyüş qabiliyyətinin daha da artırılmasına imkan verəcəkdir.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycan Ordusunun regionda ən qüdrətli ordu kimi formalaşmasına şərait yaratmışdır. Ordunun texnoloji inkişafı və kibertəhlükəsizliyinin təmin olunması sahəsində əldə edilən nailiyyətlər ölkənin müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə artırıb.

Gələcəkdə İKT-nin hərbi sahədə tətbiqinin daha da genişləndirilməsi, kibertəhlükəsizlik tədbirlərinin davamlı yeni-lənməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və bu sahədə mütəxəssis hazırlığının daha yüksək səviyyəyə qaldırılması zəruridir. Bu tədbirlər Azərbaycanın milli təhlükəsizliyinin və ordunun rəqəmsal təhlükəsizliyinin daha da gücləndirilməsinə imkan yaradacaq.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abbasov Ə. Heydər Əliyev və müasir Azərbaycanın İKT siyasəti. // "Azərbaycan" qəz., 2013, 3 may, № 94. s.4

2. Azərbaycan Respublikasında informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər). http://www.e-gov.az.

3. Əliyeva A., Abdurrahmanova A. Heydər Əliyev siyasətinin Azərbaycanda IKT-nin davamlı inkişafına təsiri. // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur" Respublika Elmi Konfransının materialları, Mingəçevir Dövlət Universiteti, 2024, 3-4 may, № 94. s.69-74.

4. "İlham Əliyev və İKT", 2008, 27 sentyabr, http://www.ict.az/az/index

ELM VƏ MƏDƏNİYYƏTİN ƏVƏZOLUNMAZ HİMAYƏDARI – HEYDƏR ƏLİYEV

Türkan Qurban qızı Qurbanova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
turkan.qurbanova@adpu.edu.az

Ümummilli lider Heydər Əliyev bütün dünyada tanınan və qəbul edilən görkəmli siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də böyük bir elm adamı idi. Onun müdrik siyasətinin uzaqgörənliyi və dərinliyi məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala arxalanmasında idi. Azərbaycan elminə və elm adamlarına göstərdiyi qayğı və dəstək elə bundan qaynaqlanırdı. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, cəmiyyətin, xalqın inkişafını elmdə və təhsildə görürdü.

Heydər Əliyev respublikamıza rəhbərliyə gəldiyi ilk günlərdən elmin inkişaf etdirilməsi ilə bağlı bir sıra məsələlərə xüsusi diqqət yetirmiş, ona daim qayğı göstərmiş, elmin sürətli inkişafı üçün vacib qərarlar vermişdir. Təsadüfi deyil ki, bu gün təhsilimizin yüksək səviyyədə inkişafı Azərbaycan elminin, mədəniyyətinin və təhsilinin intibah dövrü kimi xarakterizə olunur və qiymətləndirilir. 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişi ilə bütün sahələrdə sürətli inkişaf dövrü başlayıb. O, Azərbaycanda təhsilin bütün pillələrinin inkişafına davamlı olaraq diqqət göstərirdi. Ulu Öndərin xüsusi diqqəti nəticəsində istər məktəbəqədər, istər ümumi təhsil, istər peşə və istərsə də ali təhsil müəssisələrinin infrastrukturunun yenilənməsi, yeni məktəb binalarının tikintisi, peşə təhsilinin genişləndirilməsi, həmçinin ali təhsil ocaqlarının yaradılması və yeni profilli ixtisasların açılmasının mümkünlüyünü təmin etmək məqsədilə kafedraların, laboratoriyaların yaradılması, güclü elmi-pedaqoji kadr potensialının formalaşdırılması istiqamətində ciddi işlərə imza atılmışdı. Ümummilli lider Heydər Əliyevin gərgin səyi və yorulmaz zəhməti qarşılığında ötən əsrin 70-80-ci illərində məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatdırıldı, həmin müəssisələrdə təlim-tərbiyə alanların sayı 110 mindən 147 min nəfərə yüksəldi. Heydər Əliyev ümumi təhsilin inkişafı istiqamətində də ardıcıl qərarların qəbul edilərək icra edilməsinə nail ola bilmiş, həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin yüksəlişi ciddi şəkildə təmin edilmişdi.

Ulu öndər Heydər Əliyev öz çıxışlarında deyirdi ki, təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" mühüm əhəmiyyətə malik qərarların icrasından sonra Azərbaycanda orta ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-yə çatdırılmışdı. Bu, məktəblərin əhatə dairəsinin 3 dəfə genişlənməsi deməkdir. Həmçinin təhsilin keyfiyyətini təmin edən vacib elementlərdən olan dərslik təminatına toxunmaq yerinə düşər. Belə ki, təhsil alanlar üçün 1978-ci ildən başlayaraq, pulsuz dərslik təminatına start verilmişdi. Məktəb tikintisinin geniş vüsət aldığı həmin dövrün yeni məktəb quruculuğu sahəsində göstəriciləri də ciddi rəqəmlərlə özünü göstərir. Belə ki, onun rəhbərliyi dövründə şagird tutumu 683 mindən artıq olan 1191 yeni ümumtəhsil məktəb binası tikilərək istifadəyə verilmişdi.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonrakı illərdə, bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində də bir sıra uğurlar əldə edilib. Bu uğurların ilhamverici qüvvəsi məhz Heydər Əliyev idi. Onun müdrik daxili və xarici siyasəti, yaratdığı sabitlik təhsilin inkişafına əlverişli zəmin yaradıb. Heydər Əliyev müstəqil Azərbaycanda milli təhsil quruculuğu sahəsində də islahatın memarı və qurucusu idi. Onun hakimiyyətə xilaskar missiyalı qayıdışı Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində tənəzzülün qarşısını almağa imkan verdi, təlim-tərbiyə müəssisələrinin ahəngdar işi bərpa olundu, təhsil sisteminin müstəqil dövlətçilik prinsipləri əsasında qurulmasına tarixi şərait yaranıb.

Bu gün iftixarla demək olar ki, xalqımızı müstəqil inkişaf yoluna hazırlayan bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində qazanılan böyük nailiyyətlərdə də ümummilli lider missiyasını, öz qüdrətli çiyinlərində uğurla daşımış böyük şəxsiyyət Heydər Əliyevin müstəsna xidmətləri

var. Müstəqillik illərində təhsil sahəsində beynəlxalq əlaqələr genişlənib və hazırda dünya təcrübəsi də öyrənilməklə Azərbaycanda təhsil sisteminin inkişafı üçün məqsədyönlü işlər görülür.

Ulu öndər Heydər Əliyev hər zaman müəllim peşəsinə böyük dəyər vermişdir. O, deyirdi: "Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram". Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".

Əminik ki, müasir Azərbaycan təhsili özünün zəngin tərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq milli təhsil quruculuğu sahəsində başladığı lazımi islahatları başa çatdıraraq, təhsil islahatlarının memarı və qurucusu Heydər Əliyevin müdrik tövsiyələrini əzmlə həyata keçirəcək.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Vəliyev İ. Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı, 2003, 87 s.
2. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı, Avropa, 2019, 594 s.
3. Əliyev H.Ə. Gənclərin birlik, dostluq və əməkdaşlığının möhkəmləndirilməsi, sülh və sosial tərəqqi uğrunda. Bakı, 1981, 35 s.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN HİMAYƏDARI

Ceyran Rəhim qızı Salahova
Bakı Slavyan Universiteti
nizamisalahov77@gmail.com

Azərbaycan öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə dünyada tanınmışdır. Mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biridir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də böyük işlər görülmüşdür.

Xalqımızın milli-mənəvi dəyərlərinin kökləri çox-çox qədim zamanlara gedib çıxır. XX əsrdə isə xalqımızın mədəni həyatında yeni bir dövr başlanmışdır. Bu, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan bir dövrdür. Ulu Öndər deyirdi ki, "xalq bir çox xüsusiyyətləri ilə tanınır,sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Məhz buna görə də Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafını həmişə diqqət mərkəzində saxlamışdır.

Ulu Öndər yaxşı bilirdi ki, milli dövlətçilik ənənələrinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sabahkı uğurlara yeganə təminat isə sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır.

Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev qayğısından bəhrələnməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltəraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bugünkü inkişafında Ulu Öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoydu. Mədəniyyətimiz, milli-mənəvi dəyərləmiz bütün dünyada tanındı. Azərbaycan mədəniyyətinin təbliğini həmişə diqqət mərkəzində saxlayan Ulu Öndərin hakimiyyəti illərində çox səmərəli tədbirlər reallaşdırılıb. Ümummilli Lider Azərbaycanın sivil dünya ilə inteqrasiyasına, xalqların iqtisadi-siyasi, humanitar yaxınlaşmasına dövlətçiliyi möhkəmləndirən, xalqı inkişaf etdirən ən vacib vasitə-

lərdən biri kimi baxırdı. Və bu zaman dünya ilə dil tapmağın ən sınanmış və optimal yollarından biri olaraq, mədəni qarşılıqlı dərkini və təbliğini əsas götürürdü. Bu mənada xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyət və incəsənət günləri, eyni zamanda Azərbaycanda keçirilən belə tədbirlər mədəniyyətlərarası dialoqun inkişafına çox gözəl yol açırdı. Buna misal olaraq "Kitabi Dədə Qorqud" dastanının 1300 illik yubileyinin, eləcə də Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsini misal göstərmək mümkündür.

Açığı deyək ki, Azərbaycan mədəniyyətinin görkəmli xadimləri Heydər Əliyev dövründə olduğu qədər heç zaman tanınmamışdır. Heydər Əliyev mədəniyyətimizi inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirirdi. Onların daim qayğısını çəkirdi. Ulu Öndərin özü də incəsəsnət meyilli şəxsiyyət idi. Elə gəncliyində də incəsənətə gəlmək, memar olmaq istəyirdi. Amma zaman Ulu Öndəri siyasət memarına çevirdi. Çünki xalqın belə bir siyasət xadiminə çox böyük ehtiyacı var idi.

80-ci illərin sonu-90-cı illərin əvvəllərində ölkənin müstəqillik qazandığı ilk vaxtlarda Azərbaycan incəsənəti və mədəniyyəti ən çətin dövrünü yaşayırdı. Ermənistan tərəfindən başlanan istilaçı müharibə, daxili siyasi çaxnaşma, daha mürəkkəb vəziyyətə düşən mədəniyyət və incəsənət xadimlərinə də öz təsirini göstərmişdir. Lakin Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra müharibə şəraitində olan bir ölkədə mövcud olan mürəkkəb siyasi və iqtisadi duruma baxmayaraq, Azərbaycan xalqının mədəni və mənəvi dəyərlərinin inkişafı və təbliği naminə bütün qüvvələrini səfərbər etməyə müəssər olmuşdur. Heydər Əliyevin mədəniyyətin inkişfına yönəlmiş səyləri gözəl nəticələr vermişdir. Bugünkü gün Heydər Əliyev fondu onun yolunu davam etdirir. Azərbaycan bəstəkarlarının əsərlərini yer kürəsinin istənilən nöqtəsində praktik olaraq eşitmək mümkündür. Rəssamlarımız və heykəltəraşlarımız Amerikanın, Avropanın və Asiyanın ən nüfuzlu salonlarında rəsm əsərlərini nümayiş etdirirlər. Yazıçılar və şairlərin əsərləri dünya xalqlarının dillərinə tərcümə olunur və nəşr edilirlər. Teatrlarda insan fantaziyasının hüdudlarını açıqlayan həm klassik, həm də avanqard quruluşlar verilir. Heydər Əliyevin vəsiyyət etdiyi kimi xüsusi diqqət Azərbaycan dilinin qorunmasına və inkişafına verilir, onun təmizlənməsi üçün dayanmadan iş aparılır. Biz də fəxrlə deyə bilərik ki, bir xalq kimi zamanın müxtəlif sınaqlarından ləyaqətlə keçərək, dilimizi, mənəvi dəyərlərimizi qoruyub bu günümüzə qədər gətirib çıxara bilmişik.

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ulu Öndərimizin 30 illik hakimiyyəti dövründə onun bütün məruzə və çıxışlarında başqa sahələrdə olduğu kimi ana dilinə, mədəni irsə münasibət önəmli yer tumuşdur. Görkəmli dövlət xadimi rəhbərliyi dövründə müxtəlif maneələr və çətinliklərlə qarşılaşsa da, həmin manea və çətinlikləri dəf edərək ana dilimizin qorunub saxlanılmasına, dövlət dili kimi Azərbaycan SSR Konstitusiyasına (1978) daxil edilməsinə nail olmuşdur.

1978-ci il Konstitusiyası həqiqətən Heydər Əliyevin öz xalqı, öz vətəni qarşısında göstərdiyi böyük xidmət idi. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri idi. Azərbaycan dilinin həm ümumxalq dili, həm də dövlət dili kimi inkişafında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Ana dilinə böyük məhəbbət, onun incəliklərini dərindən bilmək, sadə, səmimi cümlələrlə insanlarda möhkəm nikbin əhval-ruhiyyə yaratmaq Heydər Əliyevin nitq və çıxışlarının əsas xüsusiyyətlərindən idi. Bir çox dil bilikləri olsa da, önəmli çıxışlarında, xadimlərlə görüşlərində də, xalq içində olanda da ana dilində danışmağa üstünlük verən Ulu Öndər çıxışlarında qeyd edirdi ki, xalqın ədəbiyyatı, tarixi onun milli mənsubiyyətini göstərir, lakin bunların ən başlıcası dildir. Azərbaycan dili olmasa, Azərbaycan dilində şeir, mahnı da olmaz. Onun ənənələrini davam etdirərək və inkişaf etdirməklə çoxlu sayda Azərbaycan gəncləri təhsil almaq məqsədi ilə dünyanın ən yaxşı təhsil müəssələrinə göndərilir.Onlar təhsilini başa vurduqdan sonra vətənə qayıdaraq və ən mütərəqqi ideyaları mənimsəyərək, Azərbaycan elminin və mədəniyyətinin inkişafına öz töhfələrini vetrməklə dövlətimizin həyat səviyyəsinin artırılmasına yardım göstərirlər. Bütün bu sadaladıqlarımız onun yorulmaz fəaliyyətin bəhrəsi olub.

Bu gün Azərbaycanda onlarla sənət adamının- yazıçıların, şairlərin, musiqiçilərin ev muzeyləri fəaliyyət göstərir. Azərbaycanda ev muzeylərinin yaradılmasının təşəbbüskarı da məhz Heydər

Əliyev olmuşdur. Ümummilli Liderin söylədiyi "yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək!" fikri hamının dilinin əzbəri və əməli fəaliyyətinin əsas xətti olmuşdur.

Unudulmaz Heydər Əliyevin Azərbaycan mədəniyyətinə göstərdiyi qayğı və diqqət heç vaxt yaddan çıxan deyil. Belə bir fikir var ki, millət şəxsiyyətini yetişdirir, şəxsiyyət də öz millətini dünyaya tanıdır. Ulu Öndərin milli mədəniyyətə, mənəviyyata göstərdiyi münasibət və mövqe hər birimiz üçün böyük məktəb olaraq tarixin şərəfli taxtına ucalıb.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ələkbərova N. Mədəniyyət və siyasət.Bakı, Azərbaycan, 2000
2. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı, Təhsil, 2002.
3. Əliyev H. Müstəqillik yolu(seçilmiş fikirlər).Bakı, 1997
4. Heydər Əliyev və mədəniyyət. III cilddə, 3-cü cild, Bakı,2008

HEYDƏR ƏLİYEVİN ENERJİ SİYASƏTİNDƏ "ƏSRİN MÜQAVİLƏSİ"NİN ROLU

Qalib Qəhrəman oğlu Yusifli
Bakı Slavyan Universiteti
q.yusifli@gmail.com

"Əsrin müqaviləsi" sayəsində ölkənin neft sənayesinin inkişafında yeni mərhələ başlanmışdır. O, bütün iqtisadiyyatın modernləşdirilməsinə mühüm təkan verən beynəlxalq investisiya, texnologiya və təcrübəyə qapılar açmışdır. Bundan əlavə, enerji infrastrukturunun əsasları qoyuldu, yeni kəmərlər çəkildi ki, bu da Azərbaycan neftinin geosiyasi asılılıqlardan yan keçərək, dünya bazarlarına çıxışını təmin etmişdir [1].

Lakin daha da önəmlisi odur ki, müqavilənin imzalanması ilə Azərbaycan müstəqil şəkildə mühüm qərarlar qəbul etməyə və milli enerji siyasətini həyata keçirməyə qadir olan müstəqil dövlət kimi özünü təsdiq etmişdir. Bu, ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyini gücləndirdi və milli maraqlara əsaslanan çoxvektorlu xarici siyasətin formalaşmasında əsas rol oynamışdır.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra, ilk növbədə, ölkənin təhlükəsizliyinin təmin edilməsini diqqət mərkəzində saxlamışdır. Daxili sabitliyi möhkəmləndirən Heydər Əliyev özünün düşünülmüş neft strategiyasını həyata keçirməyə başladı, məqsədi Azərbaycan iqtisadiyyatını dirçəltmək, əhalinin həyat şəraitini yaxşılaşdırmaq idi. O, başa düşürdü ki, iri Qərb neft şirkətlərinin iştirakı və sərmayəsi olmadan Azərbaycan öz zəngin enerji resurslarından səmərəli istifadə edə, nefti beynəlxalq bazara çıxara bilməz. Məhz buna görə də dünyanın aparıcı enerji şirkətləri ilə sıx əməkdaşlıq qurulmuş və bu, sonradan ölkəyə böyük faydalar gətirmişdir.

Neft strategiyasının həyata keçirilməsinin ilk günlərindən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Birinci vitse-prezidenti İlham Əliyev danışıqlara fəal qoşulmuşdur. O, ölkənin yeni neft siyasətinin hazırlanması və uğurla həyata keçirilməsi prosesinin əsas iştirakçılarından birinə çevrilmişdir. Onun bütün fəaliyyətinin mərkəzində sadə, lakin çox dərin mənalı bir məqsəd dayanmışdır: "Bizim məqsədimiz təkcə nefti çıxarmaq, nəql etmək və gəlir əldə etmək deyil, biz neftdən, siyasi, iqtisadi və digər gəlirlərdən Azərbaycan xalqının mənafeyini və rifahını təmin etmək üçün istifadə etməliyik". Məhz bu prinsip İlham Əliyevi çoxsaylı görüşlərdə və danışıqlarda rəhbər tutaraq ölkənin strateji maraqlarını müdafiə edirdi. Onun fəal iştirakı danışıqlara lazımi təkan vermiş və beynəlxalq tərəfdaşlar tərəfindən etimadın möhkəmləndirilməsində mühüm rol oynamışdır [3].

1994-cü ilin yazında İstanbulda və həmin ilin yayında Hyustonda keçirilən "Əsrin müqaviləsi" üzrə danışıqların yekun mərhələləri ən çətin idi. Məhz o zaman tərəflər ən kəskin fikir ayrılıqları ilə qarşılaşdılar. Lakin bütün çətinliklərə və xarici maraqların təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan tərəfi qətiyyət, diplomatik çeviklik və dürüstlük nümayiş

etdirmişdir. Nəticədə müqavilə Azərbaycanın milli maraqları nəzərə alınmaqla tərtib edilmiş və imzalanmışdır. Bu, ölkə rəhbərliyinin onun suverenliyini zəiflədəcək və ya uzunmüddətli faydalarını məhdudlaşdıracaq kompromislərə getmək istəmədiyinin mühüm əlaməti idi.

Müqavilənin şərtlərinə əsasən, tərəflər iri neft yataqlarının - "Azəri", "Çıraq"ın və "Günəşli" yatağının birgə işlənməsi barədə razılığa gəliblər. Neft hasilatı həcmlərinin SOCAR və beynəlxalq investorlar arasında bölüşdürülməsi mexanizmi də yaradılmışdır. Konsorsium iştirakçıları arasında Amoco (ABŞ), BP (Böyük Britaniya), McDermott (ABŞ), UNOCAL (ABŞ), Lukoil (Rusiya), Statoil (Norveç), Exxon (ABŞ), Turkish Petroleum (Türkiyə), Pennzoil (ABŞ), ITOCHU (Yaponiya), Ramco (Böyük Britaniya), Delta (Saudi) kimi iri şirkətlər var idi. Bu şirkətlər Azərbaycanın neft sənayesinin inkişafına xeyli vəsait yatırmağa hazır olduqlarını bildiriblər. Beləliklə, "Əsrin müqaviləsi" postsovet məkanında o dövrün ən böyük investisiya layihəsi olmuşdur. Gözlənilən investisiyaların ümumi həcmi təxminən 13 milyard ABŞ dolları təşkil etmişdir.

Təxminən 400 səhifədən ibarət olan və dörd dildə yazılmış müqavilə sadəcə iş müqaviləsi deyil, tarixi ölçüdə bir sənəd olmuşdur. Məhz bu səbəbdən o, "Əsrin müqaviləsi" simvolik adını almışdır. Onun əhəmiyyəti iqtisadi tərəfdaşlıqdan çox-çox kənara çıxmışdır. Müqavilə siyasi müstəqilliyin, beynəlxalq səviyyədə tanınmanın və Azərbaycanın inkişafında yeni mərhələnin simvoluna çevrilmişdir.

Bu sənədin imzalanması ilə Prezident Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış yeni neft strategiyasının uğurla həyata keçirilməsinə başlanıldı. Bu strategiya təkcə təbii sərvətlərin səmərəli işlənməsinə deyil, həm də neft gəlirlərindən güclü, sabit və müstəqil dövlət qurmaq üçün istifadə etməyə yönəlmişdi. Müqavilənin imzalanması mərasimində Heydər Əliyev "Biz belə bir addım atmaqla Azərbaycanın dünyaya və qlobal iqtisadiyyata açıq ölkə olduğunu dünyaya nümayiş etdiririk, bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinin sahibi olduğunu bir daha dünyaya nümayiş etdiririk" sözlərini qeyd etmişdir. Bu sözlər yeni dövrün təzahürü oldu: Azərbaycan inamla özünü müstəqil, suveren, öz resurslarını müstəqil idarə etməyə, dünyanın ən böyük dövlətləri və korporasiyaları ilə strateji tərəfdaşlıq əlaqələri qurmağa qadir olan dövlət kimi elan etdi.

"Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmiş və 1994-cü il dekabrın 12-də qüvvəyə minmişdir. Həmin dövrdə bu müqavilə müstəqil Azərbaycanın tarixində ən böyük investisiya layihəsinə çevrilmişdir. İlkin hesablamalara görə, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda neft ehtiyatları təxminən 511 milyon ton təşkil edib. Lakin sonradan əlavə geoloji-kəşfiyyat işlərindən və qiymətləndirmə quyularının qazılmasından sonra bu rəqəm yuxarıya doğru yenidən işlənib və 730 milyon tona çatdırılmışdır. Bu, bloku regionun ən perspektivli neft layihələrindən birinə çevirmişdir. Bu yataqların işlənməsi böyük investisiyalar tələb edirdi. Ümumi sərmayə 11,5 milyard ABŞ dolları təşkil edib. Müqavilənin şərtlərinə görə, neft hasilatından əldə edilən xalis mənfəətin 80 %-i Azərbaycana, 20 %-i isə xarici investorların payına düşəcəkdi ki, bu da ev sahibi ölkə üçün əlverişli və ədalətli nisbət idi.

Müqavilə qüvvəyə mindikdən dərhal sonra Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılmış və o, layihənin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə birgə fəaliyyətə başlamışdır. Bu beynəlxalq tərəfdaşlıq təcrübəsi ölkənin neft-qaz sənayesinin inkişafında mühüm addım olmuşdur [4].

"Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi Azərbaycan iqtisadiyyatına yeni xarici investisiyaların cəlb edilməsi üçün güclü stimul olmuşdur. Bu saziş sonradan 19 ölkədən 41 neft şirkəti ilə 30-dan çox yeni müqavilənin bağlanmasına zəmin yaratmışdır ki, bu da beynəlxalq ictimaiyyətin Azərbaycanın enerji potensialına və onun sabit siyasətinə inamını təsdiq etmişdir.

Bu müqavilənin imzalanması tarixi 150 ildən çox keçmişə gedən Azərbaycanın neft sənayesinin inkişafında dönüş nöqtəsi oldu. "Əsrin müqaviləsi" təkcə iqtisadi yüksəliş üçün deyil, həm də ölkənin müstəqilliyinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edirdi. Dünyanın aparıcı neft şirkətlərinin karbohidrogen yataqlarının işlənməsinə cəlb edilməsinin vacibliyini anlayan Prezident Heydər Əliyev bu sazişin bağlanması üçün böyük səylər göstərdi. Onun məqsədi

ölkənin davamlı iqtisadi inkişafını təmin etmək, o cümlədən Azərbaycanın müstəqillik əldə etdikdən sonra ilk illərdə üzləşdiyi çoxsaylı problemləri həll etmək idi.

Neft hasilatının artımı ölkə qarşısında yeni vəzifə qoymuşdur: enerji resurslarının dünya bazarlarına səmərəli və təhlükəsiz ixracı. Bu, sabit təchizatı təmin edə bilən yeni neft kəmərlərinin tikintisini tələb edirdi. Heydər Əliyev neft marşrutlarının geosiyasi əhəmiyyətini dərk edərək, Rusiya və İran ərazilərindən yan keçməklə, Azərbaycan neftinin dünya bazarlarına müstəqil çıxışını təmin edəcək yeni neft kəmərinin tikintisi ilə bağlı strateji qərar qəbul etmişdir. Nəticədə Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilib istifadəyə verilmiş və bu, Xəzər regionunu beynəlxalq bazarlarla birləşdirən strateji əhəmiyyətli magistral yola çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri Azərbaycanın və bütün Cənubi Qafqaz regionunun tarixində ən böyük və ən mühüm enerji layihələrindən biridir. BTC sadəcə neft kəməri deyil, regionun enerji xəritəsini dəyişdirən strateji layihəyə çevrildi:

- Azərbaycanın Rusiya tranzit marşrutlarından asılılığını azaltdı, enerji müstəqilliyini təmin etdi.
- Neftin Aralıq dənizinə çıxışı açaraq, Türkiyənin Ceyhan limanı vasitəsilə birbaşa beynəlxalq bazarlara çıxarılmasına icazə verildi.
- Azərbaycanın Gürcüstan və Türkiyə ilə iqtisadi əlaqələrini gücləndirərək, bu ölkələri mühüm tranzit qovşaqlarına çevirdi.
- Xarici sərmayələri cəlb etdi və üç ölkədə minlərlə iş yeri yaratdı.

Bunun ardınca Cənubi Qafqaz Boru Kəməri kimi tanınan Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri Azərbaycan təbii qazının Türkiyə və Avropaya ixracını təmin edən strateji layihə həyata keçirilmişdir. O, Azərbaycanın qaz sənayesinin inkişafında və qlobal enerji bazarında mövqeyinin möhkəmləndirilməsində əsas rol oynayır. Tikintinin tarixi və zərurəti Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin uğurla həyata keçirilməsindən sonra təbii qazın nəqli üçün analoji infrastrukturun yaradılmasına ehtiyac yaranmışdır. Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanın qaz strategiyasının mühüm hissəsinə çevrilib və aşağıdakı əsas nəticələrə gətirib çıxarıb:

- Azərbaycan özünü qaz idxalçısından əsas ixracatçıya çevirərək iqtisadiyyatını gücləndirib.
- BTE Azərbaycan qazının Türkiyə və Avropaya tədarükünə imkan yaradıb, regionun Rusiya tədarükündən asılılığını azaldıb.
- Qaz kəməri daha böyük layihənin - Azərbaycan qazının Avropaya nəql olunduğu Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) üçün əsas oldu.

TANAP (Trans Anadolu Təbii Qaz Boru Kəməri) və TAP (Trans Adriatik Təbii Qaz Boru Kəməri) Azərbaycanın enerji strategiyasının əsas elementləri və Azərbaycan təbii qazının Avropa bazarına nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizinin mühüm komponentləridir.

TANAP Cənubi Qafqaz Qaz Kəməri ilə birləşən Türkiyənin şərq sərhədindən başlayır və bütün Türkiyə ərazisindən keçərək Yunanıstanla sərhədə qədər uzanır. Qaz kəmərinin uzunluğu təqribən 1850 kilometrdir. Onun əsas vəzifəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz 2" yatağından hasil edilən təbii qazın nəqlidir. TANAP Azərbaycan və Avropa ölkələri arasında enerji sahəsində əməkdaşlığı gücləndirmək, eləcə də digər mənbələrdən qaz nəqlinə etibarlı alternativ yaratmaq məqsədilə tikilmişdir [5].

Türkiyə və Yunanıstan sərhədində TANAP Trans-Adriatik Boru Kəmərinə (TAP) birləşir. Bu qaz kəməri tədarük marşrutunu davam etdirir və Yunanıstandan, Albaniyadan, sonra isə Adriatik dənizinin dibi ilə İtaliyaya keçir. TAP-ın ümumi uzunluğu təxminən 878 kilometrdir. Bu, Azərbaycan qazının birbaşa Avropa İttifaqı ölkələrinə, ilk növbədə İtaliyaya çatdırılmasına, oradan qazın daha sonra digər Avropa ölkələrinə paylanmasına imkan verir. TAP-ın ilkin gücü ildə 10 milyard kubmetr qaz təşkil edir, lakin bazarın tələblərindən və texniki təkmilləşdirmələrdən asılı olaraq, gələcəkdə 20 milyarda qədər artırıla bilər.

Bu iki qaz kəməri təkcə infrastruktur layihələri deyil, həm də irimiqyaslı geosiyasi təşəbbüsün bir hissəsidir. TANAP və TAP Azərbaycanın Şərqlə Qərb arasında mühüm enerji körpüsü rolunu gücləndirir. Bu layihələr sayəsində ölkə enerji resurslarının etibarlı təchizatçısı kimi mövqeyini möhkəmləndirmiş, qeyri-sabit regionlar vasitəsilə tranzitlə bağlı riskləri azaltmış, yeni iqtisadi və siyasi üstünlüklər əldə etmişdir. Bundan əlavə, Avropa üçün bu, təbii qaz mənbələrinin şaxələndiril-

məsi istiqamətində atılmış addım idi ki, bu da enerji təhlükəsizliyinin təmin edilməsi və məhdud sayda ölkələrdən tədarükdən asılılığın azaldılması kontekstində xüsusilə vacibdir.

Beləliklə, TANAP və TAP "Əsrin müqaviləsi"nin imzalanması ilə başlayan neft strategiyasının məntiqi davamına çevrilərək, yeni mərhələdə Azərbaycanın təbii qaz sektorunda davamlı inkişafı təmin etməklə yanaşı, onun beynəlxalq nüfuzunu daha da gücləndirir.

Bu infrastruktur layihələri regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsində həlledici rol oynamış və Azərbaycanın qlobal bazarda ən mühüm neft və qaz təchizatçılarından biri statusunu təmin etmişdir [5].

Azərbaycanın neft strategiyasının özəyinə çevrilən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından bu günə kimi 593 milyon ton və ya təxminən 4,4 milyard barel neft hasil edilib. Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə 4,3 milyard bareldən çox neft dünya bazarlarına çıxarılıb. Bu məlumatlar "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən layihələrin miqyasından və strateji əhəmiyyətindən xəbər verir.

İnfrastrukturun inkişafı, o cümlədən BTC və AÇG-nin inkişafı Azərbaycanın enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırmış, ölkəni sabit gəlir və qlobal enerji sektorunda güclü mövqe ilə təmin etmişdir. Bu addımlar həm də regionun resurslarının səmərəli idarə olunmasına və beynəlxalq əməkdaşlıq platformasının yaradılmasına kömək etdi.

Qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi" təkcə iqtisadi saziş deyil, həm də Azərbaycanın müstəqilliyini beynəlxalq aləmdə möhkəmləndirən mühüm siyasi nailiyyət idi. Ulu öndər Heydər Əliyev aydın başa düşürdü: iqtisadi sabitlik olmadan siyasi müstəqillik mümkün deyil. Onun strateji məqsədi ölkənin güclü və uzunmüddətli suverenliyini təmin etmək idi ki, bu məqsədə güclü, müstəqil dövlətin əsaslarını qoymaqla nail olub.

Ulu öndər Heydər Əliyev Azərbaycanın inkişafı ilə bağlı özünün strateji proqramı çərçivəsində daha bir tarixi qərar qəbul etmişdir: 1999-cu il dekabrın 29-da Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında sərəncam vermişdir. Fondun məqsədi neft-qaz sektorundan daxilolmaların səmərəli və şəffaf idarə olunmasını təmin etmək olmuşdur. Bacarıqlı yanaşma və uzunmüddətli planlaşdırma sayəsində bu fond, strateji layihələrə dəstək verən, infrastrukturun, təhsilin, sosial sahənin və insan kapitalının inkişafına investisiyaları təmin edən etibarlı maliyyə sabitliyi alətinə çevrilmişdir.

Neft sənayesinin inkişafı sonrakı illərdə də davam etmişdir. 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi üzrə müqavilənin müddətinin 2049-cu ilə qədər uzadılmasına dair yeni saziş imzalanmışdır.Bu hadisə beynəlxalq şirkətlərin Azərbaycanı etibarlı tərəfdaş kimi görməkdə davam etdiyini, Xəzər şelfinin ehtiyatlarının isə strateji əhəmiyyət daşıdığını təsdiqləmişdir [2].

Azərbaycanın "Əsrin Müqaviləsi" ilə əldə etdiyi təcrübə, eləcə də beynəlxalq aləmdə əldə etdiyi nüfuz bu gün yaşıl enerji sektoruna xarici investisiyaların cəlb edilməsində mühüm rol oynayır. Neft ixracından əldə edilən vəsaitlər davamlı gələcəyə doğru mühüm addım olan alternativ enerji mənbələrinin inkişafına fəal şəkildə yönəldilir.

"Əsrin müqaviləsi" ölkənin iqtisadi tarixində dönüş nöqtəsi olmaqla yanaşı, həm də əhalinin sosial vəziyyətini xeyli yaxşılaşdırdırmışdır. 2030-cu ilədək Azərbaycan öz enerji balansında bərpa olunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı planlaşdırır ki, bu da həm enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, həm də davamlı iqtisadi artımın təmin edilməsi və ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması baxımından son dərəcə vacibdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. "Əsrin müqaviləsi": davamlı iqtisadi inkişafın qarantı https://respublika-news.az/az/news/esrin-muqavilesi-davamli-iqtisadi-inkisafin-qaranti

2. «Контракт века» – гарант независимости Азербайджана https://azertag.az/ru/xeber/kontrakt_veka_garant_nezavisimosti_azerbaidzhana-3188650

3. Андрианов В.И., Мираламов Г.Ф. Ильхам Алиев: портрет Президента Азербайджана. – М.: Молодая гвардия, 2007. 444 s.

4. Шабан И. История «Контракта века» // Consulting & Business. - 2009. - № 08. - с. 20-25.

5. Какую выгоду сулят проекты TANAP и TAP странам-участницам https://dushanbe.mfa.gov.az/ru/news/3070/kakuyu-vygodu-sulyat-proekty-tanap-i-tap-stranam-uchastnitsam

THE ROLE OF THE GREAT LEADER HEYDAR ALIYEV IN DETERMINING THE DEVELOPMENT DIRECTIONS OF HIGHER PEDAGOGICAL EDUCATION

Aynur Gasimova
Baku Slavic University
aynurmehdiyeva84@gmail.com

Increasing the share of the international component in the internationalization of higher education, in the preparation of highly flexible, competitive in the global labor market, highly professional specialists who know foreign languages, and are able to apply new information technologies is one of the most important directions of the development of higher education. At the modern stage, for the Republic of Azerbaijan, which meets the vital interests of many advanced countries of the world, the country's human resources potential, the preparation of specialists capable of creating advanced ideas and concepts and applying them in public life, is of great importance.

The changes created by the new socio-economic system that began to take shape in Azerbaijani society after gaining independence, primarily the renewal of the political system in the republic, the transition of the economy to market relations, joining the ranks of developed countries, and the strengthening of integration tendencies into the world community, required radical reforms in the field of education, as well as in other areas. Despite attempts to make changes in the form and content of the education system in the first years of independence, the establishment of Azerbaijani education on the basis of international standards required the fulfillment of a number of tasks for secondary and higher education institutions. All this brought to the fore the problem of the quality of education, including higher education. That is why today it is necessary to carry out large-scale reforms in Azerbaijani education as a whole, to determine a new direction of quality education that ensures the preparation of personnel who meet the requirements of the modern era for the development of the country's economy. For this reason, adapting the content of higher education to these requirements is of particular importance.

The normative and legal documents adopted in Azerbaijan in the late 1990s and early 2000s regarding the development of education led to the diversification of the content of education. In 1993, after Heydar Aliyev returned to power at the insistent demand of the people, Azerbaijani education, which had been experiencing a period of decline, chose the path of reform, improvement and modernization. The reasons that made this necessary were characterized by the great leader Heydar Aliyev as follows: "The level of knowledge of students in the Azerbaijani education system should be brought into line with the principles of the developed countries of the world so that a person who has studied in Azerbaijan and received an engineering diploma can be accepted and work in other countries with the same diploma" [1, p. 101]. H. Aliyev, as in other areas, prevented dangerous trends and decline in education, especially in the field of higher education. In accordance with the requirements of the time, the development directions of the national education system, including higher pedagogical education, were determined. A favorable economic-political, moral-spiritual and legal environment was formed for the "free, open, democratic and multifaceted" [1, p. 121] development of higher pedagogical education.

In the early 1990s, fundamental changes in the state structure, socio-economic and socio-political spheres in Azerbaijan necessitated the implementation of radical content reforms in the education system, including higher pedagogical education. Higher pedagogical education has

become a multifaceted and multifaceted area of cooperation. At first, reforms in the field of higher pedagogical education were accompanied by difficulties. This was due to various reasons. These reasons can be summarized as follows:

1) instability in the life of society;
2) the decline of the economic system;
3) the decline of national income;
4) the failure to create a new economic mechanism for education;
5) the turning to foreign universities for the purpose of meeting the social needs of qualified scientific and pedagogical personnel;
6) Azerbaijan occupation of 20% of the territory by Armenian armed forces, displacement of more than 1 million people;
7) expulsion of Azerbaijani students of the Khankendi Pedagogical Institute from the city;
8) lack of a regulatory and legal framework ensuring the development of higher pedagogical education, etc.

In the first years of independence, the first Law of the Republic of Azerbaijan "On Education" (1992) was adopted in the republic. Although it had a certain positive impact on the development of higher pedagogical education, that Law had many shortcomings. When the Law was being prepared, the current realities and the socio-political situation in Azerbaijan were not taken into account. The introduction of a multi-level system in higher pedagogical education, granting permission to establish non-state (private) higher pedagogical schools, accreditation of higher pedagogical educational institutions, etc. issues were first established in that Law. In the first years, the reform carried out in the field of higher pedagogical education did not have a clear and precise program, implementation technology, and the work carried out in this field was episodic. For this reason, the innovations applied were not very effective. Heydar Aliyev's return to political power in a short time led to the development of positive trends in all areas. The abolition of military formations in the country, the establishment of financial stability, the emergence of opportunities to attract additional extra-budgetary funds for the development of higher education allowed for fundamental changes in higher pedagogical education. A fundamental renewal took place in the activities, structure, management, content and economy of higher pedagogical schools, it was envisaged to "optimize the network of existing educational institutions in order to ensure the flexibility and dynamism of personnel training in the field of higher and secondary vocational education" [2, p.136]. In addition, "the establishment of the Academy of Education in order to create and apply the scientific foundations of teaching, scientific-methodological and information provision in the education system" [2, p.137] and the priority directions of higher pedagogical education were determined:

1) implementation of training and retraining of management personnel for educational institutions;
2) creation of a new mechanism for providing pedagogical personnel;
3) development of new Educational Programs;
4) training of teaching staff with pedagogical skills, scientific-methodological training, and professionalism;
4) training of teaching staff on a contract basis for the regions;
5) re-establishing the additional pedagogical education system, etc. All these were the main elements of the pedagogical education policy implemented in the country.

This provision, which was included in the "Reform Program in the Field of Education of the Republic of Azerbaijan" at the initiative of the great leader, was unfortunately not implemented in subsequent periods.

Kənddə inqilabi dəyişikliklərin başlanmasına start verən bu qərarlardan birinciləri 1995–ci il fevralın 18–də qəbul edilmiş "Sovxoz və kolxozların islahatı haqqında" və "Aqrar islahatının əsasları haqqında" qanunlardır. Bir il sonra "Torpaq islahatı haqqında" Qanun da qəbul olundu. Bu, postsovet məkanında ilk qətiyyətli aksiya idi və bu aksiyanın fəlsəfəsini Heydər Əliyev özü hamıdan yaxşı ifadə etmişdi: "Kənddə aqrar islahatlar aparmaq xətti götürmək, torpağı və mülkiyyəti əzəl sahiblərinə, torpaqda yaşayanlara və işləyənlərə qaytarmaq" [2].

"Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999–cu il tarixli fərmanı aqrar sahədə sahibkarlığın inkişafına böyük təkan vermişdir. Kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergillərdən beş il müddətinə azad edildi və onlara neft məhsullarının pərakəndə satışında güzəştlər verildi. Sonradan Azərbaycan Respublikasının 28 noyabr 2003–cü il tarixli qanunu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi güzəştlərinin müddəti 2009–cu ilədək, Azərbaycan Respublikasının 25 noyabr 2008–ci il tarixli qanunu ilə isə 1 yanvar 2014–cü ilədək uzadılmışdır.

Ümumiyyətlə, indiyədək aqrar sahədə islahatların aparılmasına və onun daha da dərinləşdirilməsinə, mülkiyyət münasibətlərinin və sahibkarlığın formalaşdırılmasına dair Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin 100–dən çox fərman və sərəncamı, Milli Məclisin qanunları və digər normativ–hüquqi sənədlər qəbul olunmuşdur. Əgər 1992–1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi orta hesabla aşağı düşürdüsə, artıq 1996-ci ildən başlayaraq (1997-ci il istisna olmaqla) bu göstərici ilbəil artmağa başlamış, 1999-2001-ci illərdə uyğun olaraq, 7,0; 12,1; 11,1 faiz artmışdır.

Aqrar islahatların 1995–2003-cü illəri əhatə edən birinci mərhələsində kənd əhalisində torpaq və əmlaka sabitlik hissi artmış, əhalidə mülkiyyətçilik psixologiyası, insanların sərbəst fəaliyyətə, yaradıcılığa meyli güclənmişdir. Aqrar sektorda yeni istehsal münasibətləri formalaşdırılmış, bazar iqtisadiyyatı prinsiplərinə uyğun bazar iqtisadiyyatı elementləri gücləndirilmiş, müasir texnika və texnologiyalar şəbəkəsi genişləndirilmişdir. Məhsul vahidinə çəkilən xərclərin azaldılmasına, qənaətə meyl artmış, israfçılığa qarşı şəxsi nəzarət gücləndirilmişdir. Kənd təsərrüfatında torpaq və əmlakdan səmərəli istifadəyə imkanlar artmış, iqtisadi tənəzzülün qarşısı alınmış, istehsalın dinamik inkişafına zəmin yaradılmışdır. Dünya standartlarının tələblərinə uyğun məhsul istehsalı və daxili bazarın qorunması üçün meyillər artmış, respublikanın təbii iqlim şəraitinə, kənd təsərrüfatının spesifik xüsusiyyətlərinə, adət-ənənə və vərdişlərinə uyğun ixtisaslaşmağa meyillər formalaşmağa başlamışdır. Fərdi marağın ölkənin ümumi marağı ilə əlaqələndirilməsinin təmin edilməsinə şərait formalaşmış, idarəetmə funksiyaları təkmilləşdirilmişdir.

Heydər Əliyevin hakimiyyətdə olduğu 1993–2003-cü illərdə aqrar sahə ilə bağlı 50-dən artıq normativ-hüquqi sənəd qəbul edilmiş, çoxsaylı fərman və sərəncamlar imzalanmışdır. Bu sənədlər aqrar islahatların gedişini sürətləndirmiş, kənd təsərrüfatı məhsullarının artırılmasını təmin etmiş, kənddə sahibkarlığın inkişafına təkan verilmişdir, nəticədə ölkədə xüsusilə çörək problemi həll edilmişdir. Taxıl istehsalı ilbəil artmış, Azərbaycan aqrar sahədə, buğda və heyvandarlıq məhsulları istisna olmaqla, idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir.Bu tədbirlərin nəticəsində ölkənin aqrar-sənaye kompleksinin inkişafında keyfiyyətcə və məzmunca yeni bir mərhələnin təməli qoyuldu. 1995-ci ildən etibarən respublikada 1970 ictimai təsərrüfatda, həmçinin emal və aqroservis müəssisələrində islahat aparıldı, 3,4 milyon nəfərə və ya 872,0 min ailənin xüsusi mülkiyyətinə 1,4

milyon hektar torpaq, 830,0 min nəfərə isə əmlak payı verildi. Ölkədə genişmiqyaslı tədbirlərin həyata keçirilməsində əsas məqsədlərdən, təxirəsalınmaz tədbirlərdən biri ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi olmuşdur. [1] Azərbaycan Respublikasının Prezidenti, Ulu öndər Heydər Əliyevin 2 mart 2001-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" qəbul olundu.

Proqramda əsas məqsəd ölkədə aparılan iqtisadi islahatların daha da dərinləşməsini, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını və əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılmasını həyata keçirmək olmuşdur. Bu proqram Azərbaycan Respublikasının ilk ərzaq təhlükəsizliyi proqramı olmaqla hökumətin ərzaq təhlükəsizliyi sahəsində öhdəlik və məqsədlərini əhatə etmiş və dövlətin maliyyə öhdəlikləri, habelə büdcə imkanları çərçivəsində həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ərzaq təhlükəsizliyi proqramı, ilk növbədə, yoxsulluğun azaldılmasını, insanların ərzaqla təminatını və ərzaq məhsullarından səmərəli istifadə edilməsini nəzərdə tutmuşdur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycanın kənd təsərrüfatı". Statistik məcmuə, 1997. Səh. 10. 81
2. "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Azər baycan Respublikasının Konstitusiya Qanunu.
3. "1994-cü ildə Azərbaycan rəqəmlərdə" adlı qısa statistik məcmuənin (Bakı 1995) məlumatları əsasında hesablanmışdır (səh. 37, 39, 178).
4. Heydər Əliyev. Elektron sənədlər toplusu. Çıxışlar. Səh. 341-35
5. Heydər Əliyev. Elektron sənədlər toplusu. Çıxışlar. Səh. 563, 569-570.
6. "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana. Əsərləri/İqtisadiyyat/Sosial İqtisadi İnkişaf

HEYDƏR ƏLİYEVİN NİTQİNDƏ NİTQ ETİKETLƏRİ

Elnarə Hüseynağa qızı Əhmədova
Sumqayıt Dövlət Universiteti
elnara.ahmadova@sdu.edu.az

Məlumdur ki, ünsiyyət prosesində tərəflər arasında nəzakətli davranış qaydaları və normalarına əməl etmək vacib məsələdir. Bu qaydalara əməl edilməsi etik ünsiyyətin yaranmasında başlıca vasitə hesab edilir. Etik normalar hər bir xalqın düşüncə tərzi, adət-ənənəsi, eyni zamanda davranış qaydalarını özündə əks etdirir. Xalq dilinin bütün mərhələlərində nəzakətli nitqə xidmət edən dil vahidləri seçilərək bu və ya digər şəkildə istifadə edilmiş, onlardan bəziləri yüzilliklər, hətta minilliklər boyu dilin daşıyıcıları tərəfindən mühafizə edilərək gələcək nəsillərə ötürülmüşdür. Belə dil vahidlərinin seçilməsi və məqsədyönlü istifadəsində şifahi xalq yaradıcılığı və yazılı ədəbiyyat nümunələri, el sənətkarları, şairlər, yazıçılar, elm və dövlət xadimlərinin nitqləri mühüm rol oynayır.

Müəyyən bir xalqın və ya ölkənin digər xalqlar arasında, yaxud bütün dünyada tanınmasında bir çox amillərlə yanaşı, onu təmsil edənlərin dili, kamil və nəzakətli nitqi də eyni dərəcədə əhəmiyyətlidir. Bunun üçün natiq öz dilini mükəmməl bilməli, ədəbi dilin fonetik, leksik, qrammatik və üslubi normalarına riayət etməlidir. Bu baxımdan dahi şəxsiyyət, fenomenal düşüncə sahibi, əvəzsiz natiq Ulu öndər Heydər Əliyevin çıxışları, nitqləri hamı üçün nümunəvi nitq forması hesab edilə bilər. Onun nitqlərinin ən təqdirəlayiq özəlliyi Azərbaycan dilini dərindən bilməsi, bununla yanaşı, mövcud mühit və şəraiti nəzərə alaraq, müvafiq dil vahidlərindən və üslublardan məharətlə istifadə etməklə auditoriyanın diqqətini cəlb etməsi idi. Hakimiyyətdə olduğu illərin hər iki mərhələsində müxtəlif dövlət yığıncaqları və ictimai tədbirlərdəki çıxışlarına nəzər saldıqda bunun bir daha şahidi olursan.

Ulu Öndər çıxışlarında nitq etiketlərinin bütün növlərinə: müraciət, təşəkkür, razılaşma, etiraz, təbrik, fikri sual və əmr cümlələri ilə aydınlaşdırma, nəsihət, arzu, alqış, tərif və s. müraciət etmişdir. Bir neçə nümunə əsasında deyilənlərə aydınlıq gətirək.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il 26 noyabrda Respublika sarayında Bakı Dövlət Universitetinin 75 illiyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışında təşəkkür etiketlərindən istifadə edilmişdir: *"Təsadüfi deyildir ki, bir də deyirəm, Azərbaycanın müstəqilliyi, milli azadlığı uğrunda mübarizə aparan insanların da çoxu burada təhsil almış, universitet divarları arasında işləmiş, fəaliyyət göstərmişlər və bu gün də göstərirlər. Ona görə də Bakı Dövlət Universitetinin Azərbaycan dilinin inkişafında, milli ruhun, milli şüurun inkişafında, vətənpərvərlik ruhunun inkişafında olan xidmətlərini bir daha xüsusi qeyd edirəm və bu gün müstəqil Azərbaycan dövlətində belə insanlara, belə axtarışlara öz hörmət və ehtiramımı bildirirəm!"* [2, s.21].

Ulu Öndərin 1994-cü ilin avqustunda Bakı şəhərinin təhsil işçiləri ilə görüşündəki nitqində razılaşma, məmnunluq etiketləri ifadə edilib: *"Azərbaycanın latın əlifbasına, latın qrafikasına keçməsi haqqında fərman vermişəm. Bu, artıq avqust ayının 1-dən tətbiq olunubdur. Çox məmnunam ki, mən buna nail oldum. Çünki bəziləri etiraz edirdilər ki, qısa müddətdə buna nail olmaq olmaz. Amma oldu"* [2, s.20].

1997-ci il 30 dekabrda Prezident sarayında keçirilən Azərbaycan Yazıçılarının X Qurultayında çıxış edərkən fikri dəqiqləşdirmə, məmnunluq, arzu və tərif etiketlərindən istifadə edilib: "*Bir neçə kəlmə də dil haqqında danışmaq istəyirəm. Çünki burada dil haqqında söhbət getdi. Görürsünüzmü, bu gün mən sizə nə qədər tərifl ər deyirəm. Heç bir tənqid yoxdur. Həmişə də tərifləyirəm. Siz buna layiqsiniz! Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Elədir, yoxsa yox? Bəli, əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat mükəmməl dildir. Bu, bizim ən böyük sərvətimizdir. Beləliklə, görürsünüz, dil məsələsi ilə əlaqədar nə qədər məsələlər meydana çıxır. Ancaq yenə də ən əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün də Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun!"* [2, s.23]

2001-ci il 10 noyabrda Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində arzu, müraciət, qürur, iftixar hissi ifadə edən etiketlər daha qabarıq şəkildə özünü göstərir: *"... mən arzu edərdim ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər. Milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonar gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar. Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar"... "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"* [2, s.32]

1997-ci ildə Azərbaycan Respublikasının mədəniyyət işçilərinin mükafatlandırılması mərasimində sənətkarlarla olan söhbətləri səmimiliyi, sadəliyi və xalq dilinə yaxınlığı ilə diqqəti cəlb edir. Burada söylədiyi nitqlərində müraciət, görüş (salamlama), iftixar, arzu, təbrik, alqış, etiketləri üstünlük təşkil edir:

"**Əlibaba Məmmədova: "***Sənə cansağlığı arzu edirəm!... Bundan sonra da yaxşı oxuyasan!"*

Sara Qədimovaya: *"Salam əleyküm. Xoş gördük! Təbrik edirəm sizi! Nə deyə bilərik? Azərbaycan incəsənətinin tarixi sizdə əks olunub. Çox məmnunam ki, siz varsınız, varsınız, varsınız! Və məmnuniyyətlə ordeni Siz təqdim edirəm".*

Sara xanımın çıxışından sonra cavab olaraq: *"Sağ olun, sağ olun! İnşallah, Gülablı kəndini də azad edəcəyik, Qarabağ da azad olacaq, orda birlikdə bu günü qeyd edəcəyik!"*

Habil Əliyevə: "*Hər kəs alim, müəllim, mühəndis ola bilər, amma hər kəs tar çala, kamança çala bilməz. Bilər, amma sənin kimi çala bilməz. Ona görə də sən bu sənətə gəlməyinlə fəxr edə bilərsən, biz də Habil kimi ifaçıyla fəxr edirik".* [3]

Ulu Öndərin bəzi hallarda müəyyən bir hadisəyə etirazını bildirərkən loru leksikaya, varvarizmlərə, evfemizmlərə, tabulara, vokativ sözlərə də müraciət edir, xalq dilində işlənən loru sözləri elə məharətlə istifadə edir ki, nitqi daha sadə, anlaşıqlı, xoşagələn və səmimi təsir bağışlayır. Məsələn: nazir vəzifəsinə təyin olunan bir akademikin davranışlarına etiraz edərkən nitqini məhz həmin dil vahidləri əsasında qurur: *"Bir nəfər alim idi, elmlər doktoru idi. Heç vaxt vəzifədə olmamışdı. Sonra gətirib bunu vəzifəyə qoydular. Bu elə rejim yaratdı ki, səhər işə gələndə bunun, ayıb olmasın, iki quyruqbulayanı gərək dursun qapıda. Bu avtomobili ilə gələndə biri qapısını açır, o biri portfelini götürürdü. Ay balam, sənin Elmi tədqiqat institutunda heç kabinetin də yox idi, çox olsa, bircə ümumi otaqda, bir də masan vardı. İndi böyük kabinet, qarşısında katibə otağı, bu da bir az gülməlidir, elədimi? Zvanoku basır ki, çay gətir mənə. Heç evdə arvadı buna çay gətirmir. Məəttəl qalırsan, insan bir ayın içində belə dəyişərmi?"* [4]

Yaxud keçmiş ANS telekanalında yayımlanan" Günəbaxan" verilişində Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş rubrikada təqdim edilən kadrlarda kəklikotulu çay haqqında dediyi fikirlərə diqqət etsək, etirazını və tövsiyəsini tənbeh kimi yox, necə yumşaq formada, ehtiyatla çatdırmasının şahidi olacağıq*: "Naxçıvanda buna dişdəmə çay deyərlər. Dişdəmə çay bilirsiniz nədir? Bir parça ağzına qənd qoyub bir stəkan isti çay içirsən. Amma indi çay içənlər çaydan çox qənd yeyirlər. Vaxtilə ruslar buna kəkotu adı qoyublar, amma bu otun adı kəklikotudur. İndi buna kəkotu deyirlər. Niyə kəkotu? Bunun adı kəklikotudur. Kəklik yeyən otdur. Bundan sonra belə siyasi səhv buraxmayın".* [5]

Beləliklə, deyinlərə yekun olaraq qeyd edək ki, Ümummilli lider Heydər Əliyev hər zaman Azərbaycan dilinə böyük sevgi və qayğı ilə yanaşmış, onun yüksək səviyyədə inkişafı və təqdim edilməsi uğrunda səylərini əsirgəməmiş, bayağılaşdırılmasına qarşı daima barışmaz mübarizə aparmış, öz düzgün və səlis nitqi ilə bütövlükdə xalqımıza örnək olmağa çalışmış və buna müvəffəq ola bilmişdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003, 100 s.
2. Sadıqlı A. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim, 2011, 180 s.
3. https://www.youtube.com/watch?v=CgV49TUZRT8
4. https://www.youtube.com/watch?v=JCBvjdYiNsw
5. .youtube.com/results?search_query=heyd%C9%99r+%C9%99liyev+k%C9%99klikotu

HEYDƏR ƏLİYEV– AZƏRBAYCAN TƏHSİLİNİN BÖYÜK HİMAYƏDARI

Nuridə Rafiq qızı Quliyeva
Bakı Dövlət Universitetinin Qazax filialı
nuridenuride019@gmail.com

Azərbaycanın, dünya azərbaycanlılarının milli iftixarı, beynəlxalq aləmdə görkəmli dövlət xadimi, mütəfəkkir və dahi siyasətçi kimi şöhrət qazanmış Ulu öndərimiz Heydər Əliyevin nəsillərə nümunə olan şərəfli həyat və fəaliyyətini, zəngin irsini zaman-zaman öyrəndikcə bu böyük insanın tanrı sevgisi ilə bəxş edilmiş qüdrətli zəkasına, misilsiz idarəetmə istedadına, malik olduğu geniş və çoxşaxəli biliklər dünyasına heyran qalmaya bilmirsən.

Heç şübhəsiz, çox az sayda dövlət rəhbəri ola bilər ki, sosial-iqtisadi, ictimai-siyasi, inzibati-hüquqi, humanitar sahələr üzrə bu dərinlikdə zəngin, hərtərəfli elmi-nəzəri və təcrübi məlumatlılıq səviyyəsinə yiyələnmiş olsun.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq, onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

"Təhsil millətin gələcəyidir", - deyən Heydər Əliyev Azərbaycanda təhsil sahəsinə həmişə diqqət yetirmiş və ona qayğı göstərmişdir. Ulu Öndər: "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir", - deməklə, bu sahənin nə qədər önəmli, eyni zamanda nə qədər mürəkkəb olduunu vurğulamışdır.

Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə yüksək qiymət verən dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də mədəniyyətə böyük tövhə vermiş olurlar. Bu mənada Ulu öndər Heydər Əliyevin milli təhsilin inkişafına göstərtdiyi qayğı və diqqət özünəməxsusluqu ilə seçilir. Belə ki, möhtərəm Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ bugünkü Azərbaycan elminin inkişaf dövrü kimi qavranılır.

Azərbaycan təhsilinin inkişafı sahəsində Heydər Əliyevin tarixi xidmətləri iki istiqamətdə getmişdir:

- Heydər Əliyevin milli tərbiyə və təhsilə dair nəzəri göstərişləri.
- Heydər Əliyev milli təhsil quruculuğunda, təhsilin müxtəlif sahələrinin ahəngdar inkişaf yolunda gördüyü işlər.

Ümummilli liderimiz Heydər Əliyev təhsilin cəmiyyətin inkişafındakı rolundan danışarkən demişdir: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu onda görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır".

Milli tərəqqidə, müstəqil dövlət quruculuğunda təhsilin, tərbiyyənin əvəzsiz rolu olduğunu Ulu öndər Heydər Əliyev həmişə vurğulamışdır. Ölkəmizdə hələ də milli tərbiyə konsepsiyası işlənməmişdir. Lakin cənab Heydər Əliyevin çıxış, nitq və məruzələrində irəli sürülən təklif və fikirlər tərbiyyə işinin həm məzmununu,həm də həyata keçirilmə yollarını müəyyənləşdirir.

Ulu Öndər təhsilin hər bir dövlətin, ölkənin, cəmiyyətin mühüm sahəsi olduğunu həmişə ön plana çəkmişdir.

Azərbaycan təhsilinin son 30 illik tarixi inkişafının təhlili göstərir ki, milli təhsilimiz aşaıdakı 4 əsas mərhələdən keçmişdir:

- Azərbaycan təhsilinin inkişafının yüksəlişləri (1970-1982);
- Azərbaycan təhsili 1982-1987-ci illər;
- Azərbaycan təhsili depressiya illərində (1988-1993);
- Müstəqil Azərbaycanda yeni təhsil quruculuğu dövrü.

Azərbaycan təhsilinin milli tariximizdə coşğun yüksəlişi, əsl intibah illəri kimi daxil olan ilk mərhələsi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir. Möhtərəm Heydər Əliyevin Azərbaycan təhsilin inkişaf yolundakı böyük xidmətlərindən biri 1970-1980-ci illərdə təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin ən məhşur ali təhsili müəssisələrində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmasıdır. Heydər Əliyev 70-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir.

İkinci mərhələ cənab Heydər Əliyevin keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987-ci illəri əhatə edir. Bu o illər idi ki, digər sahələrlə yanaşı, Heydər Əliyev dövlətin bütünlükdə təhsil sisteminə rəhbərlik edirdi. Hətta o illərdə Azərbaycan gənclərinin nəinki Azərbaycanda, həmçinin Azərbaycan hüdudlarından kənarda da təhsil almalarına şərait yaradərdı. Hətta tez-tez Azərbaycanlı tələbələrlə də görüşür, onların qayğı və problemləri ilə şəxsən maraqlanır, onların həlli üçün bütün imkanlardan istifadə edirdi.

Üçüncü mərhələ çağdaş təhsil tariximizin ən mürəkkəb, böhranlı illərini (1988-1993) tənəzzül və depressiya illərini əhatə edir. Təssüf ki, bu mərhələdə Azərbaycan təhsilinə rəhbərlik edənlər onun cəmiyyətdəki rolunu düzgün qiymətləndirə bilmədilər.

Dördüncü mərhələ Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın dünya standartlarına uyğun təhsil islahatları əsasında yeni milli təhsil quruculuğuna rəhbərliyi ilə başlanan indiki dövrü əhatə edir.

Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətimizin hər bir sahəsində olduğu kimi, təhsil sahəsində də bir canlanma, yeniləşmə nəzərə çarpmağa başladı. Ümummilli liderimiz Heydər Əliyev siyasətin büyük təsiri nəticəsində irəliləyişlər olmuş, orta, orta-ixtisas və ali məktəblərdəə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemin həlli üçün effektiv üsul və metoların tətbiqi önə çəkilmişdir. Heydər Əliyev həmişə öz nitqində demişdir: "İndi Azərbaycan müstəqil dövlətdir. Respublikamızın müstəq dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasının yaradaraq, inkişaf etdirərək, şübhəsiz ki, təhsil sahəsinin də milli məqsədlər, mənafelər əsasında qurulmalıdır... Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimiz istədiyimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkminləşdirəcək".

Müstəqil Azərbaycanda dünya təhsil sisteminə inteqrasiya istiqamətində atılan ilk addımlar bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzkar siyasəti nəticəsində soydaşlarımızın deportasiyası və Qarabağın dağlıq hissəsinin işğal edilməsi ilə bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi Azərbaycan təhsili üçün əlavə çətinliklər yaratmışdı.

Respublikanın çox ağır vəziyyətində rəhbərliyə qayıdan Heydər Əliyev bir çox prob-lemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun köklü islahatlar həyata keçirməyə başladı. 1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, planlı islahatların əsası qoyuldu. Ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artdı.

O dövrdə baş verən hadisələrə münasibət bildirərək Heydər Əliyev 1999-cu ildə deyirdi: "Doğrudur, müstəqillik əldə olunan zaman və onun ilk illərində Azərbaycanın təhsilində çox bərbad vəziyyət var idi. Bu bərbad vəziyyət də 1988-1989-cu illərdən Azərbaycanda yaranmış çox mənfi ictimai-siyasi, gərgin daxili siyasətin nəticəsində idi. Bütün bunlar hamısı Azərbaycanın məktəblərinə, təhsil sisteminə çox mənfi təsirini göstərmişdi". [1]

Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı,

"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu.

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, [2] "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, [3] "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb. Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının tədrisinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı.

Əlbəttə ki, Heydər Əliyevin Azərbaycan dili ilə bağlı gördüyü işlər ayrıca bir məruzənin mövzusudur. Təkcə onu xatırladaq ki, 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyanda Azərbaycan dilinin ana dili kimi təsbit edilməsi, o illərdə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət

Mükafatının verilməsi Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının, sevgisinin əyani təzahürü idi.

"Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" 2002-ci il 4 oktyabr tarixli, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" 2003-cü il 17 fevral tarixli sərəncamlar ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaradıb, mövcud problemlərin aradan qaldırılması yönümündə mühüm addımlar oldu.

İslahatlar təkcə təhsil müəssisələrini əhatə etmirdi, gənclərin təhsilə həvəsləndirilməsi üçün də əsaslı işlər görülürdü. Ali məktəblərin yüksək akademik nailiyyətlər əldə edən tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında 2001-ci il 3 sentyabr tarixli Fərman bunun bariz nümunəsidir.

Eyni zamanda Ümummilli lider Heydər Əliyev təhsil işçilərinə, müəllimə və müəllim əməyinə də ən yüksək qiymət verərək, demişdir; "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər birimiz də müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram".

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini daim yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalırdı.

Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".

Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların fəxri adlarla və digər dövlət mükafatları ilə təltif edilməsinə dair bir çox sərəncamlar imzalayıb. Bütün bunlar Ulu Öndərin müəllim əməyinə verdiyi qiymətin əyani təzahürüdür.

Yüksək mənəviyyatı, vətənpərvərliyi, saf təbiəti, insanlara sonsuz məhəbbəti ilə xalqın, millətin Müəllimi olmaq şərəfinə ucalmış Ulu Öndərin fəaliyyətində təhsil siyasəti, təhsil quruculuğu daim önəmli mövqe tutmuşdur.

Cəsarətlə demək lazımdır ki, müstəqil Azərbaycan dövlətinin təhsil qanunvericiliyinin əsasında, bugünədək qazanılmış uğurların təməlində məhz Ulu Öndərin proqram ruhlu, inkişafyönlü ideya və göstərişləri dayanır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı, 2007, 21-ci cild, səh.247.

2. Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanı // https://e-qanun.az/framework/767

3. Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında // https://e-qanun.az/framework/2811

4. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu // https://e-qanun.az/framework/1865

HEYDƏR ƏLİYEV – MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN HİMAYƏDARI

Gülnar Vahid qızı Abdullayeva
Bakı Dövlət Universitetinin Qazax filialı
abdullayevagulnar03@gmail.com

Giriş

Milli mənəvi dəyərlər bir xalqın kimliyini, tarixi yaddaşını və mədəni irsini formalaşdıran ən əsas sütunlardandır. Bu dəyərləri qorumaq, gələcək nəsillərə ötürmək hər bir millətin varlığını davam etdirməsi üçün vacib şərtdir. Azərbaycan xalqı bu baxımdan öz dəyərlərinə həmişə bağlı olmuş, onları yaşatmağa çalışmışdır. Bu müqəddəs missiyanın ən böyük himayədarlarından biri isə Ümummilli lider Heydər Əliyev olmuşdur. Onun siyasi fəaliyyəti təkcə dövlət quruculuğu ilə deyil, həm də milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi ilə səciyyələnir.

Azərbaycan tarixində silinməz iz qoymuş dahi şəxsiyyətlərdən biri – Ümummilli lider Heydər Əliyev təkcə siyasi lider deyil, həm də xalqımızın milli mənəvi dəyərlərinin qoruyucusu və inkişaf etdiricisi olmuşdur. Onun rəhbərliyi dövründə Azərbaycanın milli-mədəni irsi, adət-ənənələri, dini və əxlaqi dəyərləri diqqət mərkəzində saxlanılmış, bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir.

Milli kimliyin təməl dayaqları

Milli kimlik bir xalqın tarixi yaddaşı, dili, dini, mədəniyyəti, adət-ənənələri və mənəvi dəyərləri ilə formalaşır. Bu dəyərlər cəmiyyətin bütövlüyünü təmin edən və xalqın özünü tanımasına, başqalarından fərqlənməsinə imkan verən mənəvi əsaslardır. Heydər Əliyev xalqın milli özünüdərkini möhkəmləndirən əsas sütunlardan biri kimi mənəvi dəyərlərə xüsusi önəm verirdi. O, dəfələrlə qeyd edirdi ki, "xalqını sevən, onun mədəniyyətini, tarixini, dilini qoruyan hər bir şəxs əsl vətəndaşdır." Bu yanaşma onun bütün fəaliyyəti boyunca istiqamətləndirici prinsip olmuşdur. Heydər Əliyev milli kimliyi təkcə keçmişə bağlılıq kimi deyil, həm də müasir dövlət quruculuğunda əhəmiyyətli strateji resurs kimi qiymətləndirmişdir. Onun fikrincə, xalqın milli kimliyi qorunmadan, dövlətin inkişafı davamlı ola bilməz. Ümummilli Lider daim vurğulayırdı ki, Azərbaycan xalqı zəngin tarixə və qədim sivilizasiyaya malikdir. Bu irsi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək hər bir vətəndaşın borcudur. O, milli kimliyimizi müəyyən edən başlıca elementlər kimi ana dilini, milli-mənəvi dəyərləri, mədəni irsi və tarixi şüuru ön plana çəkirdi. Onun təşəbbüsü ilə Azərbaycan dili dövlət dili kimi konstitusiyada təsbit olundu, dilimizin inkişafı üçün dövlət proqramları həyata keçirildi.

Heydər Əliyev milli kimliyi qorumaq üçün yalnız ideoloji deyil, həm də praktiki addımlar atmışdır. Azərbaycan tarixinin saxtalaşdırılmasına qarşı mübarizə aparılmış, milli qəhrəmanlarımızın, görkəmli şəxsiyyətlərimizin xatirəsi ucaldılmış, onların irsi tədqiq olunmuş və təbliğ edilmişdir. Xüsusilə gənc nəslin milli ruhda yetişdirilməsi üçün təhsil və mədəniyyət sahəsində genişmiqyaslı islahatlar həyata keçirilmişdir. Onun rəhbərliyi ilə hazırlanmış dərsliklərdə milli tarixin, ədəbiyyatın və mədəniyyətin düzgün və obyektiv tədrisi təmin olunmuşdur.

Bundan əlavə, Heydər Əliyev hesab edirdi ki, milli kimlik yalnız keçmişlə bağlı deyil, bu kimlik gələcəyə istiqamətlənməli, inkişaf etməli və dövrün tələblərinə uyğun şəkildə yenilənməlidir. Bu məqsədlə həm mədəniyyət, həm də elmi sahələrdə Azərbaycanı beynəlxalq aləmdə tanıdan təşəbbüslərə dəstək verilmişdir. Mədəniyyətin təbliği, beynəlxalq festivallarda iştirak, milli incəsənətin dünyaya təqdim olunması bu siyasətin mühüm tərkib hissəsi idi.

Beləliklə, Heydər Əliyevin fəaliyyətində milli kimliyin təməl dayaqları – dil, tarix, mədəniyyət, dini və mənəvi dəyərlər – yalnız qorunmamış, eyni zamanda dövlətin inkişafında aparıcı faktor kimi sistemli şəkildə inkişaf etdirilmişdir. Bu yanaşma Azərbaycanın müstəqilliyinin ideoloji bazasını gücləndirmiş və xalqın özünə inamını artırmışdır

Dövlət siyasətində milli-mənəvi dəyərlər

Heydər Əliyev Azərbaycan xalqının tarixi köklərinə əsaslanan dövlətçilik modelini formalaşdırarkən milli-mənəvi dəyərləri mərkəzə qoymuşdur. 1990-cı illərin çətin və ziddiyyətli dövründə ölkənin həm fiziki, həm də mənəvi bütövlüyünü qorumaq üçün bu dəyərlərə istinad etmişdir. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev ölkədəki xaos

və böhran şəraitində ictimai birliyi bərpa etmək üçün mənəvi dəyərlərə, milli ruhun gücünə istinad etdi. O, dəfələrlə vurğulayırdı ki, xalqın əsrlərlə formalaşdırdığı dəyərlər onun güc mənbəyidir və bu dəyərlər müstəqil dövlətin ideoloji əsasını təşkil etməlidir. Bu səbəbdən milli-mənəvi dəyərlərin qorunması dövlət siyasətinin strateji prioritetinə çevrildi.

Heydər Əliyevin təşəbbüsü ilə milli bayramların, o cümlədən **Novruz**, **Qurban** və **Ramazan bayramlarının** dövlət səviyyəsində qeyd olunması bərpa edildi. Bunlar xalqın mənəvi ruhunu yüksəldən, birliyi və həmrəyliyi gücləndirən tədbirlər kimi dövlət tərəfindən dəstəklənməyə başladı. Həmçinin dini tolerantlıq və konfessiyalararası harmoniya siyasəti formalaşdırıldı. Azərbaycanda yaşayan bütün etnik və dini qrupları üçün öz dəyərlərini sərbəst şəkildə yaşatmalarına şərait yaradıldı. Məscidlər, kilsələr, sinaqoqlar bərpa və yenidən tikildi, dini maarifləndirməyə şərait yaradıldı.

Ulu Öndər milli mədəniyyətin inkişafına da xüsusi diqqət yetirirdi. Azərbaycan teatrı, musiqisi, ədəbiyyatı və digər sahələr dövlət dəstəyi ilə inkişaf etdirildi. Xalq sənətkarları, elm və mədəniyyət xadimləri fəxri adlarla, dövlət mükafatları ilə təltif edildi. Bu, cəmiyyətə verilən bir mesaj idi: milli-mənəvi dəyərlərə sahib çıxmaq və onları yaşatmaq təkcə mədəniyyət xadimlərinin deyil, bütün xalqın və xüsusilə də dövlətin borcudur.

Heydər Əliyev milli təhsilin və mənəvi tərbiyənin gücləndirilməsinə xüsusi önəm verirdi. Məktəblərdə və ali təhsil müəssisələrində gənclərin milli ruhda yetişməsi, onların tarixə, ana dilinə, Vətənə və mənəvi dəyərlərə bağlılığı dövlətin təhsil siyasətində əsas vəzifələrdən biri kimi müəyyən edilmişdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kimi tarixi fikirlər yalnız emosional çağırış deyil, eyni zamanda milli mənlik şüurunun gücləndirilməsinə yönəlmiş bir ideoloji xətt idi.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsində milli-mənəvi dəyərlər sadəcə keçmişin mirası deyil, gələcəyin təminatıdır. Bu dəyərlərin qorunması və təbliği cəmiyyətin inkişafında, milli həmrəyliyin möhkəmləndirilməsində və dövlətçiliyin ideoloji əsaslarının gücləndirilməsində mühüm rol oynamışdır. Bu gün də həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və milli-mənəvi dəyərlərimiz dövlət siyasətinin ayrılmaz hissəsi olaraq yaşadılır. (2)

Dini və əxlaqi dəyərlərə münasibə

Ulu Öndər dinin cəmiyyətin əxlaqi təməllərinin formalaşmasında oynadığı rolu yüksək qiymətləndirirdi. O, İslam dininə və onun humanist prinsiplərinə dərin hörmətlə yanaşır, eyni zamanda dinin siyasətdən ayrılmasını və onun mənəviyyat sahəsində təbliğat vasitəsi kimi fəaliyyət göstərməsini önəmli sayırdı. Azərbaycanda dini konfessiyaların azad fəaliyyətinə şərait yaradılması, məscidlərin, kilsələrin və sinaqoqların bərpası Heydər Əliyevin tolerantlıq siyasətinin bariz nümunəsidir.

Dini və əxlaqi dəyərlər hər bir xalqın mənəvi kimliyinin, ictimai münasibətlər sisteminin və mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Azərbaycan xalqı əsrlər boyu İslam dinindən qaynaqlanan və eyni zamanda yerli adət-ənənələrlə zənginləşən yüksək mənəvi və əxlaqi dəyərlərlə yaşamış, bu dəyərlər onun milli kimliyinin əsas sütunlarından birinə çevrilmişdir. Ulu Öndər bu mənəvi mirasa həmişə dərin hörmətlə yanaşmış, dini və əxlaqi dəyərlərin qorunmasını və inkişafını dövlət siyasətinin mühüm istiqaməti kimi dəyərləndirmişdir.

Heydər Əliyevin dini dəyərlərə münasibəti balanslı, müdrik və çoxşaxəli idi. O, dini radikalizmdən uzaq, humanist və maarifçi İslam anlayışını dəstəkləyir, dinin insanları əxlaqa, mərhəmətə və həmrəyliyə çağıran tərəflərini ön plana çəkirdi. Onun fikrincə, dinin əsas mahiyyəti insanlara mənəvi dayaq olmaq, cəmiyyətin içində qarşılıqlı hörmət, sülh və anlayış yaratmaqdır. O deyirdi: **"İslam dini hər bir müsəlmanı saf olmağa, təmiz olmağa, xeyirxah olmağa, insanlara yardım göstərməyə çağırır."**

Ulu Öndər dinə sadəcə bir inanc sistemi kimi deyil, həm də milli-mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynayan mədəni və tarixi fenomen kimi yanaşırdı. Onun dövründə uzun illər təqib və laqeydliklə üzləşən dini dəyərlər yenidən dirçəlməyə başladı. Məscidlərin təmiri və yenidən qurulması, dini bayramların – Ramazan və Qurban bayramlarının dövlət səviyyəsində qeyd olunması bu siyasətin bariz nümunələri idi.

Eyni zamanda Heydər Əliyev Azərbaycanda dini dözümlülük və multikultural dəyərlərin qorunmasına xüsusi diqqət yetirirdi. O, Azərbaycanın tarixən müxtəlif dinlərin və mədəniyyətlərin

harmonik şəkildə yaşadığı bir məkan olduğunu vurğulayaraq, bu tolerant ənənəni müstəqil dövlətin ideoloji xəttinə çevirdi. Onun rəhbərliyi ilə pravoslav kilsələri, sinaqoqlar bərpa olundu, müxtəlif dini icmalara dəstək göstərildi. Bu siyasət ölkədə dini zəmində qarşıdurmaların qarşısını aldı və cəmiyyətin mənəvi birliyini möhkəmləndirdi.

Əxlaqi dəyərlərə münasibətdə isə Heydər Əliyevin mövqeyi çox aydın və prinsipial idi. O, insan tərbiyəsinin əsasını milli-mənəvi köklərə bağlılıqda və yüksək əxlaqi keyfiyyətlərdə görürdü. Xüsusilə gənclərin Vətənə, ailəyə, böyüklərə hörmət, zəhmətsevərlik, dürüstlük və ədalət kimi keyfiyyətlərə yiyələnməsi onun təbliğ etdiyi əsas prinsiplərdən idi. Bu məqsədlə təhsil sistemində tərbiyə məsələlərinə xüsusi önəm verilirdi. Məktəb və ali təhsil müəssisələrində vətənpərvərlik və mənəvi dəyərlərə əsaslanan tədbirlər təşkil olunurdu. Heydər Əliyev həmçinin ailə institutunu da əxlaqi dəyərlərin daşıyıcısı kimi görürdü. O, ailənin cəmiyyətin əsasını təşkil etdiyini və milli-mənəvi dəyərlərin ilk növbədə ailədə formalaşdığını bildirirdi. Ailə dəyərlərinin qorunması, ailədaxili münasibətlərdə əxlaqi məsuliyyətin təşviqi onun rəhbərliyi dövründə ictimai diskursun mühüm mövzusuna çevrildi.

Heydər Əliyevin dini və əxlaqi dəyərlərə münasibəti dərin zəkaya, xalqın tarixi-mənəvi ehtiyaclarını anlama qabiliyyətinə və uzaqgörənliyə əsaslanırdı. O, dini siyasətə alət etmədən, onu mənəvi və mədəni həyatın əsas dayaqlarından biri kimi qorudu və inkişaf etdirdi. Bu gün Azərbaycan cəmiyyətində hökm sürən dini tolerantlıq, əxlaqi dəyərlərə bağlılıq və ictimai harmoniya məhz bu sağlam təməlin üzərində qurulmuşdur. (3)

Milli-mədəni irsin qorunması və inkişafı

Azərbaycanın zəngin musiqi və incəsənət irsi də Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, muğam sənətini, xalq rəqslərini, klassik poeziyanı və teatr ənənələrini təşviq etmiş, bu sahələrdə fəaliyyət göstərən sənətkarları dövlət mükafatları ilə təltif etmişdir. Heydər Əliyevin təşəbbüsü ilə bir çox mədəniyyət ocaqları, muzeylər və kitabxanalar yenidən qurulmuş və ya əsaslı şəkildə bərpa olunmuşdur.

Heydər Əliyev xalqın mədəniyyətini yaşatmaq və gələcək nəsillərə ötürmək üçün geniş-miqyaslı və ardıcıl bir siyasət həyata keçirmişdir. Onun rəhbərliyi ilə Azərbaycanın müxtəlif bölgələrində tarixi abidələrin bərpası, muzeylərin fəaliyyətinin gücləndirilməsi, mədəniyyət evlərinin, teatrların, kitabxanaların və yaradıcılıq mərkəzlərinin fəaliyyətinə dövlət dəstəyi təmin olundu. Bu istiqamətdə görülən işlər xalqın öz keçmişinə olan bağlılığını möhkəmləndirdi və milli şüurun güclənməsinə zəmin yaratdı.

Ümummilli Liderin təşəbbüsü ilə qədim tarixə malik maddi-mədəni abidələr – Atəşgah, Qız qalası, Şirvanşahlar sarayı kompleksi və digər mühüm memarlıq nümunələri dövlət səviyyəsində qoruma altına alındı. Bu irsin UNESCO kimi nüfuzlu beynəlxalq təşkilatlarda tanıdılması istiqamətində işlər aparıldı. Məhz Heydər Əliyevin təşəbbüsü və siyasi dəstəyi ilə Azərbaycanın mədəni irsi beynəlxalq səviyyədə tanınmağa başladı və bu günə qədər də bu istiqamətdə fəaliyyət uğurla davam etdirilir. (11)

Milli musiqimiz – muğam, aşıq sənəti, xalq rəqsləri və digər janrlar Heydər Əliyev üçün xüsusi əhəmiyyət daşıyırdı. O, musiqinin xalqın ruhunu yaşadan ən mühüm vasitələrdən biri olduğunu vurğulayaraq, bu sahənin inkişafına böyük qayğı göstərirdi. Musiqi məktəblərinin, konsert salonlarının fəaliyyəti gücləndirildi, tanınmış sənətkarlar dövlət tərəfindən təltif olundu və yeni nəslin bu sənətə marağını artırmaq üçün addımlar atıldı.

Eyni zamanda Heydər Əliyev milli ədəbiyyatımızın və Azərbaycan dilinin inkişafını da milli-mədəni irsin mühüm tərkib hissəsi kimi önə çəkirdi. Xalq yazıçıları və şairlərinə yüksək qiymət verən Ulu Öndər onların yaradıcılığını cəmiyyətə nümunə kimi təqdim edir, dövlətin mədəniyyət siyasətində söz sənətinə xüsusi yer ayırırdı. Onun təşəbbüsü ilə ədəbiyyat günləri, yubileylər, xatirə tədbirləri keçirildi və klassik irsə dövlət səviyyəsində diqqət yetirildi.

Ulu Öndərin milli-mədəni irsə verdiyi önəm onun sadəcə keçmişə hörmətindən irəli gəlmirdi. O, bu irsi həm də gələcəyə hesablanmış strateji resurs kimi qiymətləndirirdi. Heydər Əliyevin rəhbərliyi ilə formalaşan mədəniyyət siyasəti göstərdi ki, mədəni irsin qorunması yalnız nostalji deyil, eyni zamanda xalqın birliyini, özünüdərkin gücləndirilməsini və dövlət müstəqilliyinin ideoloji möhkəmlənməsini təmin edən vacib amildir.

Milli-mədəni irsin qorunması və inkişafı sahəsində Heydər Əliyevin həyata keçirdiyi siyasət bu gün də uğurla davam etdirilir. Onun qoyduğu möhkəm təməl üzərində formalaşan müasir mədəniyyət strategiyası Azərbaycanın mədəni dəyərlərini həm daxildə yaşadır, həm də beynəlxalq aləmdə tanıdır. Bu, ulu öndərin milli varlığımıza, xalqın mədəni ruhuna verdiyi qiymətin və uzaqgörən dövlətçilik siyasətinin nəticəsidir.

Gənc nəsildə mənəvi dəyərlərin aşılanması

Gənclik hər bir xalqın gələcəyidir. Gənc nəslin vətənpərvər, əxlaqlı, milli kimliyinə bağlı və mənəvi cəhətdən kamil şəkildə formalaşması dövlətin davamlı inkişafı və sabitliyinin başlıca təminatıdır. Bu baxımdan, gənclərin mənəvi tərbiyəsi və onlara milli-mənəvi dəyərlərin aşılanması Ümummilli liderin dövlət siyasətində mühüm yer tutmuşdur.

Heydər Əliyev gənclərə həmişə böyük etimad və ümidlə yanaşırdı. Onun sözləri ilə desək: **"Gənclər bizim gələcəyimizdir. Biz elə bir gənclik yetişdirməliyik ki, o, xalqımızın milli sərvətlərinə sahib çıxsın, onu qorusun və inkişaf etdirsin."** Bu fikirdə Ulu Öndərin mənəvi dəyərləri sadəcə keçmişin yadigarı kimi deyil, eyni zamanda gələcəyin dayağı kimi dəyərləndirdiyi aydın görünür. (7)

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində gənc nəslin tərbiyəsi kompleks şəkildə aparılırdı. Təhsil sistemi mənəvi və vətənpərvər ruhda qurulmuş, məktəblərdə və ali təhsil müəssisələrində milli dəyərləri öyrədən dərslər, vətənpərvərlik tədbirləri, ictimai fəaliyyətlər təşviq olunurdu. Gənclərə tariximizi, mədəniyyətimizi, ədəbiyyatımızı, milli qəhrəmanlarımızı tanıdacaq maarifləndirici layihələr reallaşdırılır, bu yolla onların milli ruhda formalaşması təmin edilirdi. (4)

Gənclər arasında milli qürurun və vətən sevgisinin gücləndirilməsi məqsədilə Novruz, Qurtuluş günü, Müstəqillik günü kimi bayramların mənəvi məzmunu təbliğ edilir, Aprel döyüşləri və 44 günlük Vətən müharibəsi kimi şanlı zəfərlərin gənclərə aşılanması xüsusi diqqət mərkəzində saxlanılır. Bu tədbirlər sayəsində gənclərdə vətən uğrunda mübarizə ruhu, milli həmrəylik və şəhidlik anlayışı daha dərindən formalaşır.

Eyni zamanda, Heydər Əliyev gənclərin mənəviyyatını yalnız vətənpərvərlik ruhunda deyil, yüksək əxlaqi keyfiyyətlər əsasında da formalaşdırmağı vacib hesab edirdi. Səmimiyyət, doğruluq, böyüklərə hörmət, əməksevərlik, ailəyə və cəmiyyətə məsuliyyətlə yanaşma kimi keyfiyyətlər gənclərin şəxsiyyət kimi yetişməsində əsas dəyərlər olaraq önə çəkilirdi.

Ümummilli Lider hesab edirdi ki, gənclərin xarici təsirlərdən qorunması üçün onları zəngin daxili dünyaya, mənəvi möhkəmliyə sahib etmək lazımdır. Qloballaşma dövründə müxtəlif mənəviyyatsız təsirlərin, yad ideologiyaların yayılmasına qarşı ən effektiv yol gənclərdə milli-mənəvi immunitet formalaşdırmaqdır. Bu səbəbdən Heydər Əliyev gənclər təşkilatlarının, tələbə birliyinin, könüllülərin fəaliyyətini dəstəkləyir, onları milli-mənəvi platformalarda birləşməyə təşviq edirdi. (6)

Bugünkü gənclər siyasəti də məhz Ulu Öndərin müəyyən etdiyi xətt üzrə davam edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün gənclər üçün yaradılan şərait, onların inkişafına və mənəvi tərbiyəsinə yönəlmiş proqramlar göstərir ki, milli-mənəvi dəyərlərin aşılanması strategiyası ardıcıl və sistemli şəkildə həyata keçirilir. Gənclərin mənəvi dəyərlərlə tərbiyə olunması yalnız bir tərbiyə prosesi deyil, həm də milli təhlükəsizliyin, mədəni davamlılığın və dövlət müstəqilliyinin əsas təminatıdır. Ulu öndər Heydər Əliyevin bu sahəyə verdiyi dəyər və həyata keçirdiyi siyasət nəticəsində bu gün Azərbaycan gəncliyi milli ruhla, mənəvi bütövlüklə formalaşan, tarixini və dəyərlərini qoruyan bir nəsil kimi yetişir. Bu, böyük dövlətçilik irsinin və sağlam ideoloji təməlin bəhrəsidir. (5)

Nəticə

Heydər Əliyevin siyasi irsi təkcə müstəqil və güclü Azərbaycan dövlətinin qurulması ilə deyil, eyni zamanda milli mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi ilə də səciyyələnir. O, göstərdi ki, bir xalqın gücü təkcə iqtisadi və siyasi potensialda deyil, həm də onun mənəviyyatında, milli ruhunda və mədəni yaddaşındadır.

Ulu Öndərin bu dəyərlərə verdiyi yüksək qiymət vu gün sə Azərbaycan cəmiyyətində öz əksini tapmaqdadır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, H. (1997). *Müstəqilliyimiz əbədidir*. Bakı: Azərbaycan nəşriyyatı.
2. Əliyev, H. (2001). *Tariximizin, mədəniyyətimizin, mənəviyyatımızın təntənəsi*. Bakı: Azərnəşr.
3. Əliyev, H. (2003). *İslam sülh, əmin-amanlıq dinidir*. Bakı: Qafqaz Müsəlmanları İdarəsi.
4. Əliyeva, Z. (2005). *Heydər Əliyev və mənəvi dəyərlər sistemi*. Bakı: Elm və Təhsil.
5. Əliyeva, A. (2022). Heydər Əliyev və gənclərin mənəvi inkişafında dövlət siyasətinin rolu. *Azərbaycan Müasir Araşdırmalar Jurnalı*, *(2)*, 45–52.
6. Əliyeva, G. (2021). *Azərbaycan gəncliyində mənəvi dəyərlərin formalaşması yolları*. Bakı: Elm və təhsil.
7. Əhmədov, İ. (2013). *Milli-mənəvi dəyərlər və gənclik*. Bakı: Təhsil.
8. Quliyev, M. (2010). *Azərbaycanın milli-mənəvi dəyərləri və Heydər Əliyev ideologiyası*. Bakı: Azərnəşr.
9. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. (2013). *Heydər Əliyev və dövlətçilik ideologiyası*. Bakı: DİA nəşriyyatı.
10. Heydər Əliyev Fondu. (n.d.). *Rəsmi internet saytı*. https://www.heydar-aliyev-foundation.org
11. UNESCO. (n.d.). *Azərbaycanın qeyri-maddi mədəni irsi*. https://www.unesco.org

HEYDƏR ƏLİYEVİN TƏHSİL SAHƏSİNƏ VERDİYİ MÜHÜM TÖHFƏLƏR

Səbinə Vəkil qızı Mahmudova
Naxçıvan Dövlət Universiteti
sebinemahmudova73@gmail.com

Azərbaycanın uzun illərdə sürətlə inkişaf etməsində əsas amil müdrik siyasi xadim Heydər Əliyevin sosial-iqtisadi və mədəni inkişaf yolundakı tarixi xidmətləridir. Təhsil elm və mədəniyyətin inkişafında əvəzedilməz vasitədir. Tarixi təcrübələr göstərirki, elmə, təhsilə dəyər verən dövlət başçıları bununla həm iqtisadi yüksəlişi, həm də mədəniyyətin səviyyəsinin artmasını təmin edirlər. Ulu Öndərin təhsilə verdiyi töhfələr, təhsil sisteminin irəliləməsi yolundakı xidmətləri saya-hesaba gəlməzdir.

Bugünkü Azərbaycan təhsilinin inkişafında əsas rol kimi 1969-cu il - Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrü qeyd etsək, yanılmarıq. Onun bu sahədə xidmətləri iki istiqamətdə aparılırdı:

- Heydər Əliyev milli tərbiyə və təhsilə dair nəzəri göstərişləri.
- Heydər Əliyev milli təhsil quruculuğunda,təhsilin müxtəlif sahələrinin ahəngdar inkişaf yolunda gördüyü işlər.

"Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycan da yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır", - deyən Heydər Əliyev elm və təhsilin cəmiyyətin mühüm sahəsi olduğunu hər zaman ön plana çəkmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü Azərbaycan təhsilinin ilk mərhələsi hesab olunur. Heydər Əliyev 1970-1980-ci illərdə fərdi təhsil planının həyata keçirilməsi və ölkədən kənarda təhsil alan tələbələrə qayğı göstərməklə Azərbaycanın tərəqqisinə mühüm töhfələr vermişdir. Bu təşəbbüs respublika daxilində milli iqtisadiyyat, elm, təhsil və təhsil elmləri daxil olmaqla, müxtəlif sahələri əhatə edən 50-dən çox böyük şəhərdə 170-dən çox ali təhsil müəssisəsini əhatə etdi. O, on beş mindən çox azərbaycanlı gəncin iki yüz əllidən çox ixtisas sahəsində təhsil alması üçün imkanların və əlverişli şəraitin yaradılmasına xüsusi diqqət yetirdi. Heydər Əliyev 70-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri "Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir.

İkinci mərhələ isə cənab Heydər Əliyevin keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987-ci illərə təsadüf edir. Heydər Əliyev digər məsələlərlə yanaşı, bu dövrdə dövlətin bütün təhsil sisteminə nəzarət edirdi. Hətta həmin illərdə Azərbaycan gənclərinin həm ölkə daxilində, həm də xaricdə təhsil almasına şərait yaradırdı. O, həmçinin azərbaycanlı tələbələrlə tez-tez görüşür, onların problemləri ilə şəxsi maraqlanır, həll yollarını tapmaq üçün hər fürsətdən istifadə edirdi. 1982-1987-ci illər arasında Heydər Əliyev keçmiş Sovet İttifaqının təhsil siyasətinə və islahatlarına nəzarətdə mühüm rol oynamış, nəticədə bütün İttifaqda, o cümlədən Azərbaycanda təhsil sektorunda nəzərəçarpacaq irəliləyiş və keyfiyyətin əhəmiyyətli yüksəlişi olmuşdur. 1984-cü il keçmiş SSRİ-nin təhsil islahatlarında mühüm dönüş nöqtəsi oldu. Konkret olaraq, istər ümumi, istərsə də peşə təhsili islahatlarının ilkin istiqamətlərinin müəyyən edilməsi və həyata keçirilməsinə, habelə internat tipli müəssisələrin fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlmiş mexanizmin işlənib hazırlanması Heydər Əliyevin görkəmli rəhbərliyi ilə bağlıdır. Həmin dövrdə Heydər Əliyev ümumi təhsilin 6 yaşından, 11 il müddətində başlanmasını öz təklifləri ilə irəli sürdü.

Təhsil tariximizin ən mürəkkəb, böhranlı illərini (1988-1993) üçüncü mərhələ əhatə edir. Ermənistanın göstərdiyi fəal mövqe və sonradan həmvətənlərimizin işğalı, bir milyondan artıq azərbaycanlının öz yurd-yuvasından didərgin düşməsi ilə nəticələndi ki, bu da Azərbaycan təhsilində daha da irəliləyiş üçün çətinlik yaratdı. Heydər Əliyev çoxsaylı problemlərin həlli və müasir tələblərə, standartlara uyğun olaraq təhsil sahəsində islahatlara başlamaq üçün bir sıra səylər göstərdi. Müstəqil Azərbaycanın beynəlxalq standartlara uyğun təhsil islahatlarına hazırlıqla bağlı yeni milli təhsil bazasının yaradılması ilə əlaqədar başlanmış dördüncü mərhələ də Heydər Əliyevin rəhbərliyi altında idi.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra cəmiyyətimizin hər bir sahəsi kimi Azərbaycanda təhsil sahəsində də dirçəliş, canlanma baş verdi. Heydər Əliyev Azərbaycan qurultayında dövlətin təhsil sahəsinə münasibətini belə ifadə etmişdir: "Biz müstəqil dövlət olaraq özümümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. Bütün dünya ölkələrinin mütərəqqi təcrübələrindən istifadə edirik. Hesab edirəm ki, indiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkminləşdirəcək".

Müstəqillik illərindən sonra Türkiyə xalqımızın muxtariyyət statusunu tanıyan ilk ölkə kimi çıxış etdi. Qurumun diqqətəlayiq xidmətləri Azərbaycan və Türkiyə arasında tarixi qardaşlığı nümayiş etdirən müasir modellərin işlənib hazırlanması, eləcə də xalqımız daxilində yeni təhsil sisteminin qurulmasına yönəlib. Azərbaycan müstəqillik əldə etdikdən sonra, müasir təhsil normalarına sadiqliyi ilə tanınan "Çağ Öyrətim Şirkəti" institutunun yaradılması üçün Türkiyədən on beş yüksək səviyyəli mütəxəssis göndərildi. Yuxarıda qeyd olunan komponent Azərbaycanda təhsilin inkişafına kömək edən səylərin tərkib elementidir.

Ulu Öndər təhsilin müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyatda həlledici rolunu, onun möhkəm əsaslarını vurğulayaraq qeyd edirdi ki, "Əgər bizim yüksək təhsil potensialımız, güclü kadr potensialımız olmasa, nə iqtisadi, nə elmi, nə də sosial potensiala malik ola bilmərik. Yaxşı təhsil ölkənin gələcək inkişafı üçün yaxşı əsas yaradılması deməkdir... Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Yüksək bilik səviyyəsinə nail olmaq üçün isə təhsil ardıcıl surətdə inkişaf etdirilməlidir". Ümummilli lider Heydər Əliyev qlobal dövlətlərlə rəqabət aparan təhsil meyarlarının yaradılmasına sarsılmaz meyl nümayiş etdirdi və bununla da Azərbaycanda təhsilin inkişafına təkan verdi və bu meyarlara uyğun gələn yerli təhsil çərçivəsinin yaradılması ilə yekunlaşdı. 1993-1994-cü tədris ilində bakalavriat və magistratura pillələrini əhatə edən ikipilləli ali təhsilin bərpası Azərbaycan ali təhsilinin salnaməsində mühüm mərhələdir.

Heydər Əliyevin rəhbərliyi ilə müstəqil yüksəlişlə səciyyələnən dövrə nəzər saldıqda görmək olar ki, elm və təhsil sahələrinin tərəqqisinə mühüm töhfələr verilmişdir. Şübhəsiz ki, bu iki ayrı enerji güclü olmuşdur və indi də davam edir. Elm və təhsilin birgə mövcudluğu zəruridir, çünki hər iki elementin olmaması qeyri-mümkün bir təklifdir. Fundamental tədqiqatların aparıldığı regionda ali təhsilin müzakirəsi zəruridir. Əsası ölkənin iqtisadi qüdrətində, elm tutumlu və sənaye məhsulu istehsalı ilə məşğul olmaq bacarığında, elmi araşdırma səviyyəsi, fundamental araşdırma və yüksək hazırlıqlı yerli kadrların mövcudluğundadır.

Ümummilli Liderimiz tərəfindən əsası qoyulan və həyata keçirilən təhsil siyasəti hazırda güclü irəliləyiş və möhkəmlənmə mərhələsindədir. Heydər Əliyevin həyata keçirdiyi siyasi fəlsəfənin möhtərəm davamçısı kimi qiymətləndirilən Prezident İlham Əliyevin göstərdiyi səylər nəticəsində Azərbaycanın davamlı inkişaf strategiyası çərçivəsində elm və təhsil sahələri mühüm yer tutmuşdur. "Təhsil haqqında" Qanunun icrası və ona müvafiq təşəbbüslər, o cümlədən qabaqcıl maddi-texniki baza ilə təchiz olunmuş məktəblərin tikintisi və təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş tədbirlər Azərbaycan təhsilinin qlobal miqyasda tərəqqisinə doğru atılan mühüm addımdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. (https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heydər-əliyev-və-azərbaycan-təhsili/)
2. H.Həmidov, Azərbaycan.-2008.-5 dekabr.-S.2
3. https://ikisahil.az/post/milli-elm-ve-tehsilin-inkishafi-heyder-eliyev-siyasi-kursunun-ugurudur
4. https://science.gov.az/az/news/open/24308
5. https://www.adalet.az/az/posts/detail/heyder-eliyev-ve-onun-azerbaycan-tehsilinde-rolu-1674896426
6. https://www.muallim.edu.az/news.php
7. https://www.yeniazerbaycan.com/Sosial_e17660_az.html

HEYDƏR ƏLİYEV YOLUNUN UĞURLU DAVAMI

Nəsibə Məhəmməd qızı Murtuzayeva
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
murtuzayevanesibe@gmail.com

Heydər Əliyev yolunun uğurlu davamı müstəqil Azərbaycanın prezidenti və dünya azərbaycanlılarının lideri olan İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda xalqımızın Ümummilli lideri, Ulu öndər Heydər Əliyev yolunun və siyasi irsinin layiqli davamçıları çoxdur. Bu uğurlu siyasətin ən öndə nümayəndəsi isə İlham Əliyevdir. Heydər Əliyev yolunun uğurlu davamı müstəqil Azərbaycan xalqının iradəsinin ifadəsidir.

Ümummilli lider, Ulu öndər Heydər Əliyevin uğurlu siyasətinin əksi Azərbaycan xalqının böyük etimad və dəstək göstərərək, Azərbaycan Respublikasına Prezident seçdiyi İlham Əliyevin fəaliyyətindədir. İlham Əliyevin milli maraqlara söykənən daxili və xarici siyasəti birbaşa olaraq, Heydər Əliyev yolunun davamıdır.

Heydər Əliyev kimi İlham Əliyev də mühüm hədəflərə çatmaq üçün ilk növbədə xalqın iradəsini əsas meyar kimi qəbul edirdi. Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsi, ölkəmizə dost olan dövlətlərin sayının artması, ölkənin xarici siyasətində dostluq və qarşılıqlı etimad prinsiplərinə söykənən əlaqələrin qurulması, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanıtdırılması, ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm faktora çevrilməsi, Cənub Qaz Dəhlizi və TANAP layihəsində aparıcı ölkə olması, Azəri, Çıraq və Günəşli yataqlarının birgə işlənməsi sayəsində Azəbaycanın dünya enerji sənayesində həlledici faktora çevrilməsi, iqtisadiyyatımızın şaxələndirilməsi, qeyri neft sektorunun və bölgələrin davamlı yüksəlişinin təmin olunması, iqtisadiyyatın ümumi artım tempini qeyri neft sektorunun, sənaye istehsalının və qeyri-neft ixracının sayəsində dəfələrlə artmasına nail olunması, ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi yolunda geniş miqyaslı layihələrin icra olunması, işsizliyin və yoxsulluğun səviyyəsinin kəskin şəkildə aşağı salınması, ölkəmizin elektrik enerjisi potensialının xeyli artmasının təmin olunması, ölkə üzrə təbii qaz təchizatının yüksədilməsi, beynəlxalq standartlara uyğun avtomobil yollarının salınması, beynəlxalq Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin reallaşdırılması, paytaxtın Xəzər hövzəsində müasir logistika və nəqliyyat mərkəzinə çevrilməsi, Beynəlxalq Dəniz Ticarət Limanı

kompleksinin tikilməsi, Bakı gəmiqayırma zavodunun işə başlaması nəticəsində inkişafın artması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin uğurla istifadəyə verilməsi, ölkə ərazisində hər sahəyə böyük diqqət və qayğının göstərilməsi, müxtəlif beynəlxalq tədbirlərin həyata keçirilməsi, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin və texnki təchizatının yüksək səviyyədə saxlanılması, güclü hərbi sənaye kompleksinin yaradılması, neft strategiyasının inkişaf etdirilib dünya meydanında uğur qazanmasının gerçəkləşdirilməsi, Azərbaycana investisiya axınının çoxaldılması, müxtəlif iqtisadi islahatların həyata keçirilməsi, xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsi, neft-qaz yataqlarının birgə işlənməsi, dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin bağlanması İlham Əliyev tərəfindən Heydər Əliyev yolunun uğurlu davamının göstəriciləridir. Uzaqgörən dövlət xadimi və siyasətçi olan Heydər Əliyevin siyasətinin əsas istiqamətini sağlam gəncliyin yetişdirilməsi və bunun hesabınada Azərbaycan xalqının sağlam gələcəyinin təmin edilməsi təşkil edir. Heydər Əliyev yolunun uğurlu davamçısı İlham Əliyevin təşəbbüsü ilə ölkədə olimpiya idman-sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi və idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması sayəsində xalqın sağlam gələcəyi təmin olunmuşdur.

Azərbaycanın Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq yarışlarda iştirak etməsinə, idmançılarımızın idmanın müxtəlif sahələrində ön mövqelərə çıxmasına, paytaxtın dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsinə, Azərbaycanın idman sektorunda şöhrətinin daha da artmasına çox böyük dövlət qayğısı ilə yanaşır. Bu kimi amillərin inkişafının Azərbaycanın beynəlxalq nüfuzuna müsbət təsir göstərəcəyini əsas gördüyü üçün qətiyyətli və məqsədyönlü fəaliyyətində bu məsələlərə xüsusi diqqət ayırmışdır. Azərbaycan xalqının müzəffər Ali Baş Komandanı İlham Əliyevin 2020-ci ilin 27 sentyabr tarixində başlayan 44 günlük Vətən Müharibəsinin gedişatını və yekununu təyin etməsi məhz onun ulu öndər Heydər Əliyev yolunun və siyasi irsinin layiqli davamçısı olmasının göstəricisi idi. Belə ki, cənab Prezident onun ətrafında sıx birləşən Azərbaycan xalqından güc alaraq böyük bir zəfər tarixi yazmağa nail oldu və onun başçılığı altında Azərbaycan Ordusu 30 illik işğala son qoymağı bacardı.

Rafael Cəbrayılov ""Əsrin müqaviləsi"- yüksəliş yolunun uğurlu təməli" məqaləsində İlham Əliyevin neft strategiyasında ulu öndər Heydər Əliyev yolunun davamçısı kimi olan fəaliyyətinin geniş şəkildə şərhini vermişdir. "2003-cü ilin 15 oktyabrında ulu öndərin layiqli siyasi varisi – cənab İlham Əliyevin xalqın istəyi ilə Azərbaycan Prezidenti seçilməsi Heydər Əliyevin yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin etmişdir. Cənab İlham Əliyev neft strategiyasında varisliyi inamla təmin edərək, BTC-nin praktik şəkildə gerçəkləşməsinə nail oldu. 2005-ci il mayın 25-də kəmərin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan mühüm hadisəyə çevrildi. Nəhayət, 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan terminalında hər üç dövlətin prezidentlərinin iştirakıyla BTC-nin tam istismara verilməsi ilə bağlı təntənəli tədbir təşkil olundu. Beləliklə, kimlərinsə bir vaxtlar əfsanə hesab etdiyi bu strateji layihə "Əsrin müqaviləsi"nin imzalanmasının 12-ci ildönümü ərəfəsində gerçəkliyə çevrildi" [6, s.6].

Heydər Əliyev yolunun uğurla davam etdirilməsi nəticəsində işğaldan azad edilmiş Qarabağ torpaqlarında misilsiz yenidənqurma işləri aparılmış, abadlıq, quruculuq işləri görülmüşdür. Azərbaycanın hal-hazırki iqtisadiyyatı və güclü ordusu gücünü Azərbaycan xalqından və təməli Ulu Öndər tərəfindən qoyulmuş siyasəti davam etdirən müzəffər Ali Baş Komandandan alır.

Heydər Əliyev yolunun layiqli davamçısı müstəqil Azərbaycanın Prezidenti İlham Əliyev bütün dünya ölkələri tərəfindən qəbul olunan görkəmli dövlət xadimidir. O, zamanında iqtisadiyyatı yüksəldilən Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olduğu üçün ondan sonra da neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, neft sektorunda müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində çətinlik çəkməmişdir. İlham Əliyevin uğurlu siyasəti Azərbaycana investisiya axınının artmasında, ölkədə iqtisadi islahatların həyata keçirilməsində, xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, neft-qaz yataqlarının birgə işlənməsində mühüm rol oynamışdır.

Azərbaycanda neft sektorunun səmərəli fəaliyyəti nəticəsində ölkəmizdə işsizlik kəskin şəkildə aşağı düşmüşdür. Ümummilli lider Heydər Əliyev İlham Əliyevə daim xalqın içərisində olmağı, problemlərini öyrənməyi, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərməyi, əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinin, qaçqınların, məcburi köçkünlərin və Qarabağ müharibəsinin əlillərinin problemlərini həll etməyi ən öndə vəzifə kimi tapşırmışdır.

İlham Əliyev məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları ilə dünyada Azərbaycan haqqında obyektiv fikir formalaşdıraraq, Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında və erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində əvəzsiz xidmətlər göstərmişdir. İlham Əliyev Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurların əldə olunması siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmiş və ölkəmizdə idmanı ayağa qaldırmış, dünya şöhrəti qazandırmış, idmançılarımızın beynəlxalq yarışlarda qazandığı parlaq uğurları dəstəkləyərək, uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək misyasını siyasətində həmişə ön planda saxlamışdır.

Azərbaycanda idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqımızın sağlam gələcəyinin təmin edilməsinə xidmət edir. Azərbaycanın beynəlxalq yarışlarda, idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması sayəsində Azərbaycanın beynəlxalq nüfuzu artmış və xalqın sağlam gələcəyinə yönəlmiş müdrik siyasət uğurla davam etdirilmişdir. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və inkişaf etdirilməsi yolunda İlham Əliyevin qəbul etdiyi bütün qərarlar milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürü kimi Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqətin göstəricisidir. Heydər Əliyev yolunun uğurlu davamçısı kimi İlham Əliyevin diqqət mərkəzində olan məsələlərdən ən önəmlisi Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarını və ölkəmizə ixtisaslaşmış mütəxəssis kimi qayıtmaqlarını təmin etmək idi. Çünki bu məsələ ölkənin gələcək inkşafını təmin edəcək əsas strateji təşəbbüslərdən biri idi. Bu kimi məsələlərin həlli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafını və ictimai rifahın artırılmasını təmin edirdi.

İlham Əliyevin uğurla yürütdüyü siyasət nəticəsində çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində Azərbaycanın mənafeləri bütün sahələrdə uğurla müdafiə edilir və beynəlxalq və regional problemlərin həllində qətiyyətli və məqsədyönlü fəaliyyət tədbirləri həyata keçirilir. Müasir Azərbaycan dövlətinin banisi və qurucusu ulu öndər Heydər Əliyev Azərbaycanın iqtisadi qüdrətinin artmasına və Azərbaycan xalqının mili-mənəvi və sosial dirçəlişinə yönəlik siyasəti nəticəsində onun hakimiyyət illəri Azərbaycan tarixinə ən parlaq, ən xoşbəxt və ən şərəfli səhifələr kimi yazılmışdır. Heydər Əliyev müasir milli elitanın yaranması və formalaşmasına böyük qayğı göstərərək, Azərbaycan mədəniyyətini, incəsənətini, təhsilini, elmini inkişaf etdirmişdir.

Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti onun oğlu İlham Əliyev tərəfindən tam, bütöv şəkildə davam etdirilmişdir. Onun fəaliyyətinin tarixi missiyası Ümummilli Liderin yorulmaz və çoxşaxəli fəaliyyətinin uğurla davam edilməsinə hesablanmışdır. Dahi şəxsiyyət Azərbaycanı inkişaf və tərəqqi etdirməklə, müasir müstəqil dövlətimizi qurub, qoruyub möhkəmləndirməyə nail oldu.

Ümummilli Liderin diqqət mərkəzində olan məsələlərin ən əsasını ziyalılarımızın, şairlərimizin, yazıçılarımızın, bəstəkarlarımızın, alimlərimizin milli ideya ətrafında birləşə bilməklərini təmin etmək və azərbaycançılıq məfkurəsini əsərlərində təbliğ etməklərinə nail olmaq idi. Onun ədəbiyyata və mədəniyyətə xüsusi diqqət və qayğısı sayəsində azərbaycançılıq ideyası qısa zamanda formalaşdı, yayıldı, həyatda özünə yer tutaraq dünya azərbaycanlılarını bir amal, bir Vətən, bir dövlət, bir bayraq ətrafında birləşdirməyə nail olundu. Azərbaycanın inkişaf və tərəqqisini torpaqların işğaldan azad edilməsində, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunmasında görən Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti məhz bu məqsədlərə xidmət etmişdir. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətini davam etdirməyi özü kimi inandığı varisinə – cənab İlham Əliyevə həvalə etmişdi.

Hacıyev Qasım "Cənubi Qafqazda davamlı sülhün bərpası məsələsində Heydər Əliyev irsi və İlham Əliyevin uğurlu fəaliyyəti" məqaləsində İlham Əliyevi Ümummilli liderin yolunun davamçısı kimi analiz etmişdir. "Xalqımızın Ümummilli lideri Heydər Əliyevin vətənimiz, xalqımız, dövləti-

miz üçün gördüyü nəhəng işlər hamını əmin etdi ki, Azərbaycanda onun yürütdüyü siyasətin alternativi yoxdur, ölkəmizin davamlı inkişafı, vətəndaşlarımızın firəvan həyatı, xoşbəxt gələcəyi məhz həmin siyasətin varisliyindən, dövlət hakimiyyətinin bu siyasətin həyata keçirilməsini təmin edəcək etibarlı davamçısından asılıdır. Bunu dərindən dərk edən xalqımız yeni minilliyin ilk prezident seçkilərində çox müdrik seçim etdi: Heydər Əliyev siyasi kürsünün ən layiqli davamçısı olan Baş nazir İlham Əliyevə səs verərək onu prezident seçdi" [3, s.127].

Heydər Əliyevin başlatdığı qüdrətli dövlət, güclü iqtisadiyyat, qalibiyyətli ordu yaratmaq, beynəlxalq ictimaiyyətin nüfuzunu və dəstəyini qazanmaq kimi məsələlər onun davamçısı Ali Baş Komandan İlham Əliyevin şərəfli missiyasına çevrilmişdi. Azərbaycanın hərbi, siyasi, diplomatik, informasiya sahəsindəki dövlətin və xalqın maraqlarını ləyaqətlə qoruyan və təmin edən siyasətinin təməli Heydər Əliyevin zamanında qoyulmuşdu. Ali Baş Komandan İlham Əliyev ulu öndərin bütün vəsiyyətlərini və arzularını Azərbaycan xalqının dəstəyi ilə yerinə yetirməyə nail olmuşdur. Qüdrətli Azərbaycanın milli ideologiyasında və baxışlarında Heydər Əliyev mərhələsi daim seçilməkdədir. Çünki bu mərhələdə Azərbaycan xalqının keçdiyi tarixi yol və milli-mənəvi dəyərlər həmişə nəzərə alınmışdır.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu uğurla davam etdirən İlham Əliyev Azərbaycanı dünya birliyinin layiqli dövlətləri sırasında öndə olmasına nail ola bilmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin əsas amalı insanların vahid azərbaycançılıq ideologiyası ətrafında birləşməklərini təmin edərək, respublikamızın əldə etdiyi uğurların sayını artırmaq olmuşdur. Heydər Əliyev yolunun və siyasi irsinin layiqli davamçısı İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanda dövlət quruculuğu işində və milli maraqlara söykənən daxili və xarici siyasətdə çox böyük addımlar atılmışdır.

Prezident İlham Əliyevin siyasəti dostluq və qarşılıqlı etimad prinsiplərinə əsaslandığı üçün dövlətimizin dünyada olan nüfuzu ildən ilə artmaqdadır. Azərbaycanda neft strategiyasının hazırlanması, bu siyasətin dünya meydanında uğur qazanması və gerçəkləşdirilməsi, xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsi İlham Əliyevin siyasətinin ən böyük uğurlarındandır. Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan beynəlxalq aləmdə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin edən müstəqil bir dövlət kimi tanınır. Azərbaycan dövlətinin qısa bir zamanda hüquqi, dünyəvi, demokratik dövlət kimi tanıdılması Heydər Əliyev kimi böyük bir şəxsiyyətin adı ilə bağlı olmuşdur. Çünki o, hər bir zaman Azərbaycan xalqını, onun maraq və mənafeyini bütün maraqlardan üstün tutmuşdur və ölkəmizin beynəlxalq arenada nüfuzunun artırılmasına, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın ölkəmizin milli maraqları ətrafında sıx birləşməsinə, həmvətənlərimizin bir ideya ətrafında cəm olmasına çalışmışdır və buna nail olmuşdur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Cəfərli, Rəşad. Heydər Əliyevin vəsiyyəti yerinə yetirildi / R.Cəfərli // Azərbaycan.- 2020.- 12 dekabr.- № 261.- S. 1,7.

2. Əliyeva, Jalə. Ata və oğul - hər ikisi qurucu, hər ikisi xilaskar! / J.Əliyeva // Xalq qəzeti.- 2020.- 11 dekabr.- № 260.- S. 9.

3. Hacıyev, Qasım Əhəd oğlu. Cənubi Qafqazda davamlı sülhün bərpası məsələsində Heydər Əliyev irsi və İlham Əliyevin uğurlu fəaliyyəti / Q.Ə.Hacıyev // Elmi iş.- 2020.- № 6.- S. 126-132.

4. Həbibbəyli, İsa. Vətən savaşında tarixi Zəfər: Heydər Əliyevdən İlham Əliyevə / İ. Həbibbəyli // 525-ci qəzet.- 2020.- 12 dekabr.- № 173.- S. 5-6.

5. Məhəməliyev, Nəsib. Dünya şöhrətli siyasətçi / N.Məhəməliyev // Respublika.- 2020.- 12 dekabr.- № 261.- S. 1,6.

6. Rafael Cəbrayılov. "Əsrin müqaviləsi"- yüksəliş yolunun uğurlu təməli "Azərbaycan".- 2009.-24 sentyabr.- № 211.-S. 6

HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN ELMİNİN, ƏDƏBİYYATININ VƏ MƏDƏNİYYƏTİNİN BÖYÜK HİMAYƏDARI

Həcər Aslan qızı Atakişiyeva
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
heceratakisiyeva1@gmail.com

Heydər Əliyevin Azərbaycan söz sənətinin hərtərəfli yüksəlişinə böyük diqqət və qayğısı onun nəzəri irsində mühüm dəyərə malik olan məsələlərdəndir. Onun ədəbiyyatşünaslığa gətirdiyi yeni tipli siyasi təfəkkür sayəsində ədəbi prosesin perspektivlərində müsbətə doğru kəskin şəkildə irəliləmə baş vermişdir. Milli və ictimai maraqları formalaşdıran fikirlərə, mülahizələrə, hökmlərə fərqli prizmadan yanaşaraq, ədəbiyyatın ideya-estetik dəyərini, təsir qüvvəsini düzgün qiymətləndirmişdir.

Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələləri milli istiqlalın azərbaycançılıq ideologiyası prizmasından tədqiq olunmuşdur. O, azərbaycançılıq fəlsəfəsinin yaranmasını və ədəbi əsərlərdən qaynaqlanmasını ən mühüm və vacib amil kimi dəyərləndirmişdir. Onun fikrincə, ədəbiyyat azərbaycançılıq fəlsəfəsinin və ideologiyasının əsasıdır. Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələlərinə dair ən önəmli saydığı Azərbaycan ədəbiyyatını inkişaf etdirmək və tanıtdırmaq idi. Onun ədəbiyyat sahəsindəki fəaliyyəti azərbaycançılıq ideologiyasına dayanır.

Heydər Əliyev milli ədəbiyyat, mədəniyyət, bədii fikir, ictimai dünyagörüş istiqamətində formalaşma prosesində azərbaycançılıq bədii düşüncəsini konseptual fikirlərlə əsaslandırırdı. Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələləri Şərqin, türk-islam dünyasının, xüsusən də Azərbaycanın bədii düşüncəsinin konseptual ümumiləşdirməsidir. Ulu Öndər Azərbaycan folkloruna və klassik ədəbiyyatına çox böyük önəm verərək, onları əsas istiqamətlərindən biri kimi görürdü. Folklora, milli-mənəvi sərvətlərə qayğıkeş münasibəti ilə mədəni irsimizin qorunmasına nail ola bilmişdir.

Azərbaycan folklor nümunələrinin qorunması Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin əsas amallarından olmuşdur. Folklor milli ruhun güclənməsi, vətərpərvərlik, azərbaycançılıq ideyalarının qüvvətlənməsi, xalqın mənəvi həyatını işıqlandırması, milli-mənəvi dəyərlərinin toplanılması, qorunması və təbliğində mühüm rol oynamışdır.

Ümummilli Lider folklor nümunələrinin hərtərəfli öyrənilməsi, onların bədii irsinin toplanıb nəşr edilməsi, ustad sənətkarlardan Aşıq Alının 180 (1981), Aşıq Ələsgərin 150 (1972) illik yubileylərinin keçirilməsi kimi göstərişləri ilə ədəbiyyat məsələlərinə necə böyük dəyər verdiyini göstərmişdir. Heydər Əliyev Azərbaycanda Aşıq Hü-seyn Cavan, Aşıq Şəmşir Qocayev, Aşıq Şakir Hacıyev, Aşıq Ələkbər Cəfərov, Aşıq Ədalət Nəsibov, Aşıq Pənah Pənahov, Aşıq İmran Həsənov, İzzətalı Zülfüqarov, Ələsgər Şəkili, Əli Kərimov, Aşıq Əhliman, Aşıq Ədalət Dəlidağlı kimi folklor nümayəndələrinə fəxri adlar verərək onların Azərbaycan folklorunu daha da dərindən araşdırmasını, aşıq sənətini inkişaf etdirməsini, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər görülməsini tapşırmışdır.

Heydər Əliyevin göstərişi ilə "Kitabi-Dədə Qorquq"un, Aşıq Şəmkirin, Dədə Ələsgərin yubileylərinin dövlət səviyyəsində birbaşa prezidentin nəzarəti altında həyata keçirilməsi onun folklora qayğısının və sevgisinin təzahürü idi.

Ümummilli Liderin folkora göstərdiyi qayğı elmi araşdırma mövzusu kimi müxtəlif sənət nümayəndələri tərəfindən araşdırılmışdır. Heydər Əliyev irsində Azərbaycan xalqının dünyanın qədim və oturaq xalqlarından olmasının milli mahiyyət daşıması və Azərbaycan mədəniyyəti nümunəsi kimi dünya ictimaiyyətinə qəbul etdirilməsinin yekunu nəticəsidir. Klassik Azərbaycan ədəbiyyatı nümayəndələrinə qarşı olan münasibət onun siyasi müdrikliyinin və uzaqgörənliyinin qabarıq göstəricisidir.

Klassik ədəbiyyat onun üçün hər şeydən əvvəl, müasirliyi, konkret tarixi situasiyada xalqa mənəvi-mədəni xidmət göstərmək potensialını özündə ehtiva edirdi.

Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələləri milli-mənəvi və ədəbi potensialın yaradılması ilə şərtləndirilməsi nəticəsində klassiklərin əsərlərinə diqqət daha da çox artmışdır.

Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələləri Ümummilli Liderin ədəbiyyatşünaslıq elminin yeni inkişaf mərhələsini başlanması ilə birbaşa bağlıdır. O, ədəbi görüşlərində ədəbiyyat məsələlərini ümumxalq mövqeyindən təhlil edib, ona elmi-fəlsəfi münasibət formalaşdırıb, yeni araşdırma metodlarını, sahələrini və yollarını müəyyən etmişdir.

Heydər Əliyevin klassik ədəbiyyatımızın müxtəlif problemlərinin açılmasına və təhlilinə dair yüksək elmi tədqiqat işləri vardır. Onun ədəbiyyatın müxtəlif problemlərinin həlli istiqamətinə aid fikirlərinin özünəməxsusluğu nəticəsində ədəbiyyat tariximiz yeni yöndən işıqlanmağa başlamışdır. Heydər Əliyev klassik irsimizə yeni münasibəti formalaşdıraraq, klassik irsin tədqiqatçılarının qarşısında klassik ədəbi nümunələri yeni baxış prizmasından araşdırmaq, milli-əxlaqi dəyərlərin üzə çıxarılmasında və ona fəlsəfi münasibətin formalaşmasında klassik irsin əhəmiyyətini müəyyənləşdirmək, klassiklərimizin yaşadığı dövrü tədqiq etmək kimi şərtlər qoymuşdur. Onun Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi klassiklərin əsərlərinin ətraflı araşdırılması, onların yubileylərinin keçirilməsi, əsərlərinin tədqiqi və təbliği ilə bağlı verdiyi göstərişlər nəticəsində klassik ədəbi irs daha da inkişaf edə bilmişdir. Şuşada Molla Pənah Vaqifin məqbərəsinin tikilməsi və abidəsinin qoyulması Heydər Əliyevin adı ilə bağlı olub, onun klassik ədəbi irsə diqqət və qayğısı nəticəsində baş vermişdir. Heydər Əliyevin irsində Azərbaycan ədəbiyyatına yanaşmasını araşdıran zaman onun Füzulinin və Nəsiminin məzarlarının qorunması ilə bağlı fəaliyyətinin tarixi əhəmiyyəti olduqca böyükdür.

Klassiklərə münasibət onun dövlətçilik və milli siyasət konsepsiyasının əsasını təşkil edir. Dahi şəxsiyyət Azərbaycan ədəbiyyatı nümayəndələrinə həmişə diqqətli olmuş və Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi sənətkarların irsinin qorunması məsələsini diqqət mərkəzində tutmuşdur. Görkəmli dövlət xadiminin nəzəri irsində ədəbiyyat məsələləri sənətkarların yubileylərinin keçirilməsi, irslərinin tədqiqi ilə bağlı fərman və sərəncamların verilməsi ilə kifayətlənilməmişdir. Onun nəzəri irsində eyni zamanda ədəbiyyatşünaslıq sahəsində fundamental əsərlərin meydana çıxması, yeni bədii əsərlərin, teatr tamaşaları və kinofilmlərin yaranması və tarixdə analoqu olmayan hadisə - Hüseyn Cavidin nəşinin uzaq Sibirdən gətirilərək, doğulub-böyüyüb, yaşadığı Naxçıvanda dəfn edilməsi və qəbirüstü məqbərənin tikilməsi kimi məsələlər öz həllini tapmışdır. Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələlərində ədəbi-mədəni hadisələr vasitəsilə xalqı oyatmaq, mili istiqlal və azadlıq mübarizəsinə hazırlamaq mühüm yer tutmuşdur.

Tehran Əlişanoğlu "Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat" məqaləsində Heydər Əliyevin Azərbaycan ədəbiyyatındakı mövqeyini belə şərh etmişdir. "Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi təbii bir heyrət və heyranlıq hissi doğurmuş və heç təsadüfi deyil ki, ən çox və ilk olaraq poeziyada əks olunmuşdur. Heydər Əliyev fəaliyyətinin çoxçeşidliyi, suqqestivliyi, mürəkkəbliyi ən çox ədəbi publisistika və esseistikanın predmeti olmuş, ən müxtəlif aspektlərdən təcəssümünü tapmışdır. Heydər Əliyevin həyat və bioqrafiyasının müxtəlif dövrlərindən süjet və epizodlara üz tutan bədii proza tarixiliyə diqqət yetirməyə, Ulu Öndərin obrazını daha çox dolayısı, hadisələrdən, xalqın, cəmiyyətin, bu və ya digər qəhrəmanların nəzərindən canlandırmağa üstünlük vermişdir" [3, s.9].

Heydər Əliyevin ədəbi-mədəni abidələrimizə və folklor nümunələrinə verdiyi qiymət misilsiz əhəmiyyət daşıyır. Onun nəzəri irsində ədəbiyyat məsələlərinə dair nümunələr ümumtürk və ümumşərq, bəzən də ümumdünya mədəniyyətinin çərçivəsində təhlil olunmuşdur. Dahi şəxsiyyətin Azərbaycan ədəbi fikrinin istiqamətləndirilməsindəki fəaliyyəti tarixilik və müasirliyin vəhdəti şəklindədir. Onun Azərbaycan yazıçılarının əsərlərinə olan diqqəti nəticəsində türk dünyası yazarlarının mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə bəxş etdiyi əsərlərin keyfiyyəti artmışdır. Görkəmli xadimin ədəbi-tarixi prosesdəki mövqeyi və xidmətləri sayəsində Azərbaycan elmi, mədəniyyəti, incəsənəti, maarifi və digər sahələri əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Ədəbiyyatın inkişafında maraqlı olan Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnıy Azerbaydjan" kimi jurnallar və "Ədəbiyyat" adlı qəzet dövlət hesabına nəşr olunmuşdur. Heydər Əliyev Azərbaycan ədəbiyyatının nümayəndələri olan: Əliağa Kürçaylının, Nəbi Xəzrinin, Mirvarid Dilbazinin, Aşıq Əhmədin, Aşıq Şəmkirin, Qabilin, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun, Vadif Məmmədovun, Xanəli Kərimlinin, Ələddin Eyvazın, Elman Həbibin, Mətanət Hüseyn-

xanqızının, Həmid Arzulunun, Elçinin xalqın təfəkküründə əsaslanaraq, yaratdığı bədii-fəlsəfi əsərləri xalqımızın tarixindəki roluna yüksək qiymət vermişdir.

Ədəbiyyatın yaradıcı gücünü, təsir qüvvəsini, ziyalılarda milli oyanış hissini gücləndirməsini, xalqın milli-mənəvi dəyərlərinin üzə çıxarılmasını və qorunmasını, milli mənlik şüurunun formalaşmasını və təkmilləşdirilməsini çox yüksək dəyərləndirən Heydər Əliyev bu sahənin digər sahələrdən mənəvi cəhətdən daha çox əhəmiyyət daşıdığını vurğulamışdır. Ədəbi-mədəni irsimizi araşdırmaq və inkişaf etdirməyi, xalqın milli tarixinin və ədəbiyyatının öyrənilməsini, tədqiqini və təbliğini Azərbaycan ziyalılarının qarşısında şərt kimi qoymuşdur.

Azərbaycan mədəniyyətinin və ədəbiyyatının dünyaya tanıtdırılmasında yüksək xidmətləri olan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələləri mövzularına elm və mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi, Hüseyn Cavidin məzarının Naxçıvana gətirilməsi, məqbərəsinin ucaldılması, Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, "Kitabi-Dədə Qorqud"un yubileylərinin keçirilməsi, vaxtaşırı yazıçılarla və şairlərlə görüşlərin keçirilməsi, "Azərbaycan", "Qobustan" və "Ulduz" kimi ədəbi toplulların sərbəst və azadfikirli ədəbi nümunələrin nəşr etdirilməsi, milli zəminə söykənən, milli yaddaşı özündə əks etdirən ədəbi əsərlərin yaranmasına böyük önəm verilməsi, azərbaycançılıq ideologiyasını özündə ehtiva edən əsərlərin yaranmasını önə çəkməsi misal ola bilər.

Ədəbiyyat faktorunun görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətində rolu çox genişdir. O, ədəbiyyatın imkanlarının ölkənin və xalqın tanıdılmasındakı və milli ideologiyanın formalaşdırılmasındakı əvəzedilməz rolunu çox yaxşı bilirdi. Onun geniş və sistemli ədəbiyyat biliyinə malik olması sayəsində ədəbiyyatın təhsildəki, əxlaqdakı, mənəviyyatdakı çox böyük roluna üstünlük verilmişdir.

Heydər Əliyevin bədii ədəbiyyata münasibəti ədəbiyyatın xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi görülməsində müstəsna rol oynamışdır. O, dövlətçilik fəaliyyəti prosesində millilik amilini, tarixilik anlayışını və müasirlik prinsipini həyata keçirməkdə ədəbiyyat faktorundan davamlı istifadə etmişdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev və Azərbaycan ədəbiyyatında dissidentlik // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2014, №1, s. 10-13
2. Heydər Əliyev və Azərbaycan Yazıçılar Birliyi // Heydər Əliyev və dövlətçilk təliminin işıqları. Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. (Xüsusi buraxılış). Naxçıvan: Qeyrət, 2013, №1, s. 129-131
3. Tehran Əlişanoğlu // Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat // 525-ci qəzet.- 2019.- 17 iyul.- s. 8-9
4. Ümummilli lider Heydər Əliyevin nəzəri irsində ədəbiyyat məsələləri / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV beynəlxalq elmi konfransın materialları. Bakı: Mürtəcim, 2013, s. 400-402
5. Ümummilli lider Heydər Əliyev Məhəmməd Füzuli haqqında // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri. 2013, № 2, s. 256-260

QURTULUŞ MÜBARİZƏSİNİN QALİBİ

Xoşbəxt Təyyan qızı Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
eliyeva.xoşbext@mail.ru

Giriş

Dahi siyasətçi xalqının ağır günündə Kremlin təqiblərindən yaxa qurtarıb, 1990-cı il iyulun 20-də Vətənə döndü. Lakin Vətəndə - onun paytaxtı Bakıda tariximizin ən rüsvayçı faktlarından biri baş verdi: xalqın xilaskar oğluna vaxtilə onun qurub-yaratdığı paytaxtda qalmaq, ağır fəlakət anında

doğma xalqı ilə birlikdə olmaq, ona yol göstərmək imkanı verilmədi. Böyük dövlət xadimi Bakıya gəlişindən iki gün sonra — 1990-cı il iyulun 22-də doğma Naxçıvana pənah aparmalı oldu. Heydər Əliyev Naxçıvanda bütün Azərbaycanın qurtuluş mübarizəsinə başladı. Bu dövrdə ermənilər və onların havadarları olan Rusiya hərbçiləri tərəfindən hərbi-siyasi və iqtisadi blokadaya salınmış Naxçıvan çıxılmaz vəziyyətə düşmüşdü. Ana Vətəndən - Böyük Azərbaycandan da Naxçıvanın harayına cavab verən yox idi. Səriştəsiz rəhbərlər, oyuncaq kürsü düşkünləri Vətən torpaqlarını hərraca qoymuşdular. Təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın halı ağır idi. Yağıların torpaqlarımızı bölüşdürmək planları reallaşmaqda, Yurdumuz, o cümlədən də Naxçıvanımız bir siyasi varlıq kimi Cənubi Qafqazın siyasi xəritəsindən yox edilmək ərəfəsində idi. Məhz belə bir ağır şəraitdə Heydər Əliyev "olum ya ölüm" savaşımızın ən ağır cəbhəsindən — Naxçıvandan bütün Azərbaycanın qurtuluş mücadiləsinə qalxdı. Müasir daşnakların sovet sərhəd qoşunları ilə birləşərək, üzük qaşı kimi mühasirəyə aldığı Naxçıvanda təkcə həmin bölgəmizin deyil, bütün Azərbaycanın müqəddəratı həll olunurdu. Ağlasığmaz dərəcədə ağır olan bu mürəkkəb tarixi şəraitdə Heydər Əliyev şəxsiyyəti özünün yeganə silahı ilə — misilsiz siyasi dühası və dövlət müdrikliyi sayəsində, vətənpərvər Naxçıvan camaatının mübarizliyinə, əzmkarlığına arxalanaraq, qəhrəman Kəngərli yurdunu tarixin ən ağır sınağından çıxara bildi! Ermənilərin Naxçıvanı işğal etmək planı boşa çıxdı.

Əsas hissə

Uğursuz I Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsə-bəhs, vaxtı ilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət adamımız Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, ən bağışlanmaz səhvləridir. Əgər o zaman bu müdrik siyasətçi hakimiyyət sükanının arxasında əyləşsəydi, bunca müsibətlərə düçar olardıqmı?!

Bu suala Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın cavab verir: milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması, nəhayət, böyük Vətəndən — Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də amansız hərbi-iqtisadi blokada şəraitində vətən torpağının düşməndən qorunub saxlanması — bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda mühasirə şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu! [2, s. 73]

Bəs Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmadığı həmin dövrdə böyük Vətəndə — Azərbaycanda nələr baş verdi?

Sərt tarixi həqiqət belədir: 1993-cü ilin iyununda — Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına sırışt olmuşdu. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq, dövlət yox idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyən və xaricdəki ağalarının göstərişi ilə hərəkət edən məhdud bir qrup məmləkəti milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Ulularımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca

qoyulmuşdu. Azərbaycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların "Böyük Ermənistan" yaratmaq niyyətləri, tarixi düşmənlərimizin qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında — Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı. [1, s. 45]

Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı — dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Məhz o zaman — 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. [3, s. 45] Müdrik dövlət xadimi bir neçə siyasi gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətən üçün nələr etdi? Və ya 1993-cü ilin 15 İyun gününü nə üçün Qurtuluş günü adlandırmaq olar?! Görülən işlərin hamısını sadalamaq mümkün olmasa da, gəlin, heç olmasa, onların ən mühümlərini, ən böyüklərini sıraya düzək.

Ən başlıcası: azadlıq, müstəqillik həm hər bir ayrıca vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, minlərlə şəhid vermişik bu yolda. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmayan yerdə azadlıq və müstəqillik də yoxdur. Dövləti olmayan xalq ölümə məhkumdur. Azərbaycan dövləti bizim "olum ya ölüm" məsələmizdir.

Prezident Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Qurtuluş deməkdir! [5, s. 52]

Azərbaycan dövlətçiliyi və Prezident Heydər Əliyevin qətiyyəti 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qəsdləri zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə şəhid olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi. Dar ayaqda xalqını, Vətənini qoyub qaçmadı. Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. Sabitlik və əmin-amanlıq yarandı.

Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz budur — sabitlikdir. Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır. [3, s. 41]

Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs reciminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırılmasının qarşısını aldı – genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi deməkdir. [4, s. 83]

Ulu Öndər Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki "rəhbərlər"in tarixi keçmişin ibrət dərslərinə, dəyişən dünyanın real həqi-

qətlərinə, daxili həyatın və beynəlxalq vəziyyətin gerçəkliklərinə deyil, emosiyalara əsaslanaraq qəbul etdikləri yanlış qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi "Azərbaycan" möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu, reallaşmaqda olan ölkədaxili etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Düşmənlərimizin oxu bu məsələdə də daşa dəydi.

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır. Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrilmişdir. [2, s. 73]

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində ən mühüm uğurlarından biri də budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu. Hazırda Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvüdür, Heydər Əliyev isə bütün türk dünyasının müdrik yolgöstərəni, zəmanəmizin Atatürkü adını qazanmışdır!

Bu gün müstəqil Azərbaycan Respublikasının islam dünyasındakı nüfuzu da getdikcə artmaqdadır.

Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatların üzvüdür. Azərbaycanın Avropa Şurasındakı uğurları göz qabağındadır. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğurur.

Bununla yanaşı, Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının büro üzvü seçilməsi və vitse-prezidenti kimi yüksək vəzifəyə layiq görülməsi Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artdığını sübut edən daha bir parlaq faktdır.

Nəticə

Prezident Heydər Əliyev bütün tarixi dövrlərdə, ənənəvi düşmənlərimizin həmişə Azərbaycanı diz çökdürmək üçün istifadə etdikləri "erməni kartı"na qarşı neft siyasəti strategiyasını işləyib hazırladı. Və sübut etdi ki, Qafqaz problemlərinin həllində "erməni kartı"ndan daha güclü vasitələr vardır.

Uzaqgörən siyasətçilər indi yaxşı başa düşürlər ki, neft strategiyasının "erməni kartı"na və xarici ölkələrdəki erməni lobbisinə qalib gələcəyi gün uzaqda deyil. Yaxın gələcəkdə müəllifi Heydər Əliyev olan bu siyasətin nə qədər dərindən düşünülmüş və uzaqgörən bir siyasət olduğunu zaman özü göstərəcəkdir!

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Yusifov M. Milli Lider və müstəqil dövlətçilik. Bakı – 2005, 210 s.
2. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 2cild. Bakı – 2013, 752 s.
3. Haydar Əliyev: Devlet kuruculuğu ve dil politikası. Bakı – 2005, 320 s.
4. Əliyev E. Qoşa zirvə. Bakı – 2001, 224 s.
5. Əkbərov B. Heydər Əliyev mili konstitusiyamızın yaradıcısı və banisidir. Bakı, 1998, 96 s.
6. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı – 2002, 232 s.

TABESİZ MÜRƏKKƏB CÜMLƏNİN KOMPONENTLƏRİ BARƏDƏ İLKİN ANLAYIŞLARIN FORMALAŞDIRILMASI

Rəvanə Hacıağa qızı Quliyeva
Bakı Slavyan Universiteti
reyhan.quliyevaa@gmail.com

Azərbaycan dili öz şirinliyi, zənginliyi, ahəngdarlığı və gözəlliyi ilə dünya dilləri içərisində xüsusi yer tutur. İltisaqi dillər qrupuna daxil olan Azərbaycan dilinin bir fənn olaraq, qarşısında əbədi dilimizin səs sistemini, lüğət tərkibini, qrammatik quruluşunu öyrənmək kimi vəzifələr durur.

Məlum olduğu kimi, qrammatika morfologiya və sintaksisi əhatə edir. Mənşə etibarilə yunan sözü olub "sintaksis" birləşmə anlamını verir, söz birləşmələri və cümlələri öyrənir.

İnsanlar öz fikir və düşüncələrini məhz dildə böyük əhəmiyyətə malik olan cümlələr vasitəsilə ifadə edirlər.

Nəzərdə tutulan eyni bir fikir quruluş cəhətdən həm sadə, həm də mürəkkəb cümlə şəklində çatdırıla bilər. Qeyd edək ki, bir-birilə əlaqəsi olmayan sadə cümlələrin ardıcıl şəkildə işlədilməsi heç də mürəkkəb cümlə demək deyildir. Mürəkkəb cümlənin komponentlərinin bir-birilə qarşılıqlı şəkildə bağlılığı, əsasən də mürəkkəb cümlələr tabesiz və tabeli olaraq iki yerə bölünür.

Tabesiz mürəkkəb cümləni təşkil edən sadə cümlələr bərabərhüquqlu olaraq bir-birindən asılı olmadıqları halda tabeli mürəkkəb cümlələrin tərəflərindən biri əsas, tabe edən, digəri isə tabe olandır.

Tabe edən tərəf baş, tabe olan, asılı tərəf isə budaq cümlə adlanır.

Ümumiyyətlə, tabeli mürəkkəb cümlə problemi hər zaman dilçi alimlərin diqqət mərkəzində olmuşdur.

Tabeli mürəkkəb cümlənin tərəfləri arasında tabelilik bağlayıcıları (ki, çünki, ondan ötrü, ona görə ki, ona görə də, o zaman ki, o vaxt ki və s.), bağlayıcı sözlər (hər kəs, hər kim, hər nə, haçan və s.) əvəzliklər (o, bu, o cür, bu cür, elə, belə və s.), modal sözlər (deyəsən, guya, sanki, elə bil və s.), ədatlar (-mı/-mi, -mu/-mü), isə (-sa, -sə), belə və s. və nəhayət intonasiya iştirak edir.

Tabeli mürəkkəb cümlələrin növlərinə gəlincə, qeyd etməliyik ki, bu cümlələrin növləri cümlə üzvlərinə uyğun olaraq müəyyənləşdirilir. Başqa sözlə, cümlənin üzvləri ilə budaq cümlələrin növləri bir-birilə sıx əlaqədədir və onların arasında möhkəm bağlılıq mövcuddur.

Dilin ünsiyyət vasitəsi olduğu hamıya məlumdur. İnsanlar gördükləri əşyaları, müşahidə etdikləri hadisələri, rastlaşdıqları insanları, yedikləri təamları bir-birindən fərqləndirmək üçün onlara ad vermişlər. Lakin zaman keçdikcə bu sözlər lazım olan fikri başqalarına çatdırmağa imkan vermirdi. İnsanlar sözləri bir-biri ilə əlaqələndirmiş bitmiş bir fikri ifadə etmişlər. Söz yox ki, bu, bir neçə gün ərzində baş verməmiş, xeyli zaman ərzində həyata keçmişdir.

Xeyli sonra insanlar gördüklərini, eşitdiklərini başqalarına çatdırmaq istədikdə sadə cümlələrin ifadə imkanlarının kafi olmadığını duymuşlar. Nəticədə iki və daha artıq sadə cümlənin məna və qrammatik quruluşa görə birləşərək bitkin bir cümlə yaranmışdır. Bu iki və daha artıq cümlədən yarandığı üçün ona mürəkkəb cümlə adı vermişlər.

Ünsiyyət vasitəsi olmaq baxımından sözlərin birləşərək, bitmiş bir fikir ifadə etməsi və müəyyən bitmə intonasiyasına malik olmasıdır.

Mürəkkəb cümlələr bir sıra özünə məxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərdən ən əsas hesab ediləni mürəkkəb cümlənin bir yox, bir neçə predikativ mərkəzə, özünəməxsus qrammatik quruluşa, məna və intonasiya bitkinliyinə malik olmasıdır.

Müasir dilçilik ədəbiyyatlarında mürəkkəb cümləyə müxtəlif təriflər verilir. Təbii ki, onların hamısı haqqında məlumat vermək qeyri-mümkündür. Lakin biz onları oxşarlığına görə 2 qrupa bölən dilçilərin fikirləri ilə tanış olmaq istəyirik:

1. Mürəkkəb cümlə vahid intonasiya ilə deyilən, bitmiş bir fikri ifadə edən, ancaq xarici görünüşünə, formal əlamətlərinə görə sadə cümlələrlə eyni tipli olan komponentlərdən düzəlir.

2. Mürəkkəb cümlə bitmiş bir məlumatı verən, qrammatik cəhətdən bu və ya digər quruluşa malik predikativ vahidlərin birləşməsinə deyilir (2, 67).

Göründüyü kimi, birinci tərifdə mürəkkəb cümlələrin məna və intonasiya cəhətdən bitkinliyi əsas edilir, ikinci tərifdə isə mürəkkəb cümlənin struktur və kommunikativ xüsusiyyətləri ön plana çəkilir.

Bu tərif bir-birini inkar etmir, biri digərini müəyyən bir cəhətdən tamamlayır.

Beləliklə, mürəkkəb cümlələr komponentləri arasındakı məna və qrammatik münasibətlərə görə tabeli və tabesiz mürəkkəb cümlələrə bölünürlər.

Tabesiz mürəkkəb cümlələrin tərkibindəki cümlələr bərabərhüquqlu, tabeli mürəkkəb cümlələrin tərəflərindən biri sərbəst, digəri asılı olur. Mürəkkəb cümlələrin komponentləri arasında bağlayıcıların işlənməsinə görə bağlayıcılı və bağlayıcısız da ola bilir. Həm tabesiz, həm də tabeli cümlələr bağlayıcı ilə işlənirlər. Fərq yalnız ondadır ki, tabesiz budaq cümlələrdə tabesizlik, tabeli mürəkkəb cümlələrdə isə tabelilik bağlayıcıları işlənir. Məsələn:

1. Qar yağdı, hər tərəf ağ örpəyə büründü.
2. Yağış yağdı, hava təmizləndi.
3. Qar yağdı və hər tərəf ağ örpəyə büründü.
4. Yağış yağdı və hava təmizləndi.
5. Qar yağdı, ona görə də hər tərəf ağ örpəyə büründü.
6. Yağış yağdı, ona görə də hava təmizləndi (6, 15).

Beləliklə, tabesiz mürəkkəb cümlənin tərkib hissələri bağlayıcısız və bağlayıcılı olur.

Tabesiz mürəkkəb cümlə iki və ya daha artıq sadə cümlənin ya intonasiya, ya da intonasiya və tabesizlik bağlayıcısı ilə əlaqələnməsi nəticəsində yaranır. Lakin bu o demək deyil ki, məzmunca yaxın olmayan müxtəlif cümlələr tabesizlik bağlayıcıları vasitəsi ilə birləşə bilər. Təbii ki, bu, mümkün deyil.

Tabesiz mürəkkəb cümlənin komponentləri məzmunca qarşılıqlı əlaqədə olmalı, yaxud bu cümlələrdə verilən məlumat hər iki cümlədə öz əksini tapmalıdır. Məhz bu cümlələr arasındakı qarşılıqlı məzmun əlaqəsi tabesiz mürəkkəb cümlələrin komponentlərini müstəqil cümlə hesab edirlər. Lakin bu oxşarlıq sadə cümlələrlə tabesiz mürəkkəb cümlənin komponentləri arasında bərabərlik işarəsi qoymağa əsas vermir. Məzmun eyni olsa da, onlar arasında fərqlər var. Bu fərqlər özünü 3 halda göstərir:

1. Tabesiz mürəkkəb cümlələrin tərkibindəki cümlələr eyni, yaxud yaxın olan, əlaqəli olan məzmunun ifadəsinə xidmət edir. Ancaq onlar müstəqil sadə cümlə kimi işləndikdə aralarındakı məna əlaqəsi itir, qrammatik əlaqə pozulur. Onların hər biri müstəqil cümlə olur. Belə olarkən bu cümlələr arasındakı əlaqə tabesiz mürəkkəb cümlənin tərəfləri arasındakı əlaqədən fərqlənir.

2. Mürəkkəb cümlə daxilindəki cümlələr arasında müəyyən bir məna əlaqəsinin olması və sintaktik bütöv əmələ gətirməsi üçün həmin cümlələr ümumi bir intonasiya ilə tələffüz olunmalıdır. Müstəqil cümlə kimi işləndikdə isə onların arasındakı ümumi intonasiya yox olur. Beləliklə, müstəqil cümlələrin hər birinin özünəməxsus intonasiyası olur.

3. Tabesiz mürəkkəb cümlələrin komponentləri məzmun və intonasiya baxımından qarşılıqlı əlaqədə olsalar da, şifahi nitqdə bu komponentlər arasında fasilə (pauza) qısa olur. Dilçilikdə bu pauzaya "birləşdirici pauza" deyilir. Lakin tabesiz mürəkkəb cümlənin tərkibindəki cümlələr müstəqil cümlə olarkən onlar arasındakı fasilə (pauza) nisbətən uzun olur və "ayırıcı pauza" adlanır. Bu pauza daha "birləşdirici" yox, "ayırıcı" hesab olunur. Çünki "ayırıcı pauza" sadə müstəqil cümlələrin sərhədini dəqiq göstərir.

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələrinin aşağıdakı xüsusiyyətləri xüsusilə qeyd olunmalıdır:

1. Tabesiz mürəkkəb cümlələrin komponentlərinin hər birinin ayrıca mübtədası və xəbəri olur. Məsələn:

1) Xəzərdə tufan başlanır, dənizin dalğaları şahə qalxır.
2) Gah o mənə qulaq asdı, gah mən onu dinlədim.
3) Biz axtardığımız adamı evdə tapa bilmədik, o heç işdə də yox idi.
4) Mehriban pianino çalır, oğlu oynayır, qızı isə əl çalırdı. (3, 23).

2. Ayrıca işlənən sadə cümlələr mürəkkəb cümlənin tərkibindəki sadə cümlələrdən fərqlənir. Mürəkkəb cümlənin tərkibində işlənən sadə cümlələrin özünəməxsus bir ümumi bitmə intonasiyası var.

Müstəqil sadə cümlələrin də özünəməxsus intonasiyası olmaqla bitmiş bir fikir ifadə edir. Buradan belə bir nəticə çıxır ki, müstəqil sadə cümlə mürəkkəb cümlənin komponenti olarkən özünün bitmə intonasiyasını itirir. Məsələn:

1. Azərbaycanın silahlı qüvvələri döyüşə-döyüşə irəliləyir, ermənilər isə silahlarını atıb qaçırdılar.
2. Onlar öz bildiklərini edirlər, mən isə onlara fikir vermirəm.
3. Mən də teatra getmək istəyirdim, amma atam icazə vermirdi.
4. Gah gün çıxır, gah da səmanı qara buludlar alırdı.
5. Onlar gəlirlər və bu sirləri də özləri ilə gətirirlər.

Bu tabesiz mürəkkəb cümlələrin tərkibində sadə cümlələr müstəqil işlənən sadə cümlələrlə eyni olsalar da, tam fərqli intonasiya ilə ifadə olunurlar. Birinci cümlənin sonundakı feilin hekayə şəklinə məxsus -di şəkilçisi (idinin qısaldılmış forması) ixtisar olunmuşdur, lakin o ikinci cümlənin xəbərində mühafizə olunmuşdur.

İkinci nümunədə hər iki xəbər indiki zamanda işlənmiş, amma feillərdən biri təsdiqdə, biri isə inkardadır.

Üçüncü cümlədə də xəbərlərdən biri təsdiqdə, digəri isə inkardadır.

Dördüncü cümlə isə gah bağlayıcısı cümlənin bitmədiyinə işarə verir.

Beşinci cümlədə də xəbər eyni zamanda işlənir.

Amma bu fərqlərin olması heç də sadə cümlə ilə mürəkkəb cümlələr arasında oxşar cəhətlərin olmamasına dəlalət etmir. Nümunələrdən göründüyü kimi, hər bir komponentdə cümlə üzvləri də, onlar arasındakı sintaktik əlaqələr də, məna əlaqələri də qorunur.

Müstəqil sadə cümlələr də mürəkkəb cümlələr də sintaktik konstruksiyalardır, onları fərqləndirən yalnız quruluşlarıdır. Eyni mənanı həm sadə, həm sadə geniş, həm də tabesiz mürəkkəb cümlə ilə də ifadə etmək olar. Məsələn:

1. Qar yağırdı, amma hava şaxtalı deyildi.

Qar yağmasına baxmayaraq, hava şaxta deyildi.

Qar yağsa da, hava şaxtalı deyildi.

2. Qadınlar zərif və gözəldirlər, kişilər isə güclü yaranıblar.

Qadınlar zərif və gözəl olsalar da, kişilər güclüdürlər.

Qadınlar zərif və gözəldirlər, amma kişilər güclüdürlər.

Müqayisə nəticəsində məlum olur ki, tərkibində feili birləşmələr olan sadə cümlələrlə tabeli mürəkkəb cümlələr mənaca bir-birinə yaxın olurlar. Deməli, sadə cümlənin feili tərkiblər vasitəsilə genişlənməsi onu tabeli mürəkkəb cümləyə yaxınlaşdırır. Məsələn:

Quşcuğaz çalağanın caynağından qurtuldu, çünki yaşamaq eşqi güclü idi.

Quşcuğazın yaşamaq eşqi güclü olduğundan çalağanın caynağından qurtuldu.

Maşın sürətlə getdiyi üçün lazımi anda dayana bilmədi.

Maşın lazımi anda dayanmadı, çünki sürətlə gedirdi.

Bu gedişatı aşağıdakı sxemdə belə göstərmək olar:

Sadə cümlə - tərkibində feili birləşmə olan

Sadə cümlə - tabeli mürəkkəb cümlə

Belə mürəkkəbləşmə prosesini sadə cümlə ilə tabesiz mürəkkəb cümlə arasında görmək olar:

Sadə cümlə - həmcins üzvlü sadə cümlə - tabeli mürəkkəb cümlə.

Söz yox ki, mürəkkəb cümləni təşkil edən komponentlər bir-biri ilə qarşılıqlı əlaqədə olurlar. Onların bir-birinə bağlılığının xarakteri isə müxtəlifdir. Mürəkkəb cümlənin komponentləri ya bərabərhüquqlu olur, ya da biri digərinə tabe olur. Bu fakta əsaslanaraq bir qrup mürəkkəb cümlə tabesiz, digəri isə tabeli mürəkkəb cümlə hesab edilir.

Fikrin formalaşmasında bu cümlələr bilavasitə (birbaşa), yaxud dolayısı yol ilə iştirak etdiklərindən tabesiz və tabeli cümlələrin arasında fərq var. Tabesiz mürəkkəb cümlənin komponentləri fikrin formalaşmasında və ifadə edilməsində birbaşa iştirak edir. Məsələn:

1. Küləklər taladı bağçanı, bağı
Söndü al güllərin yanar çırağı (Nizami).
2. O gecə mən çox narahat idim, anam da yata bilmirdi.

Ancaq tabeli mürəkkəb cümlənin baş cümləsi fikrin ifadəsində birbaşa, budaq cümləsi isə dolayısı yolla iştirak edir; yəni baş cümlənin hansısa üzvünü izah etmək, aydınlaşdırmaq yolu ilə fikrin ifadəsində iştirak edir. Məsələn:

Mən sizin nəzərinizə çatdırıram ki, Azərbaycan qədim mədəniyyət ölkəsidir.

Müəllim dedi ki, Azərbaycanın 44 günlük müharibədə qələbə çalması dünyada maraqla qarşılandı.

Elə buna görə də tabesiz mürəkkəb cümlənin xəbərlərindəki zaman eynidir, iş eyni zamanda baş verir. Tabeli mürəkkəb cümlədə baş cümlənin zamanı "mütləq zamandır", lakin budaq cümlənin zamanı nisbi zaman hesab edilir, çünki onun zamanı baş cümləyə münasibətdə müəyyənləşir (2, 71).

Dilçilər belə hesab edirlər ki, tabesiz və tabeli mürəkkəb cümlələr arasında sərhəd çəkmək mümkün deyil. Çünki bəzən tabesiz mürəkkəb cümlələrin əlamətini daşıyır. Bu da təəccüblü deyil. Tabeli mürəkkəb cümlələr tabesiz mürəkkəb cümlələrdən əmələ gəlmişdir. Bu inkişaf prosesi indi də davam edir.

Tabesiz mürəkkəb cümlələr yalnız sadə cümlələrdən ibarət olmur. Bəzən bir sadə bir tabeli mürəkkəb cümlədən, hətta iki tabeli mürəkkəb cümlədən əmələ gələ bilir. Məsələn:

1. Günəş çıxdı, hava işıqlandı.
2. Sağım qurtardı, malları tövləyə saldılar.

Tabesiz mürəkkəb cümlələr bəzən həmcins üzvlü cümlələrlə qarışıq salınır. Məsələn, bir mübtədası, iki və daha çox xəbəri olan cümlələr həmcins üzvlü cümlələr hesab edilir. Məsələn:

1. Kimsəyə nə yalvar, nə də əl aç, bala.
2. O yorğun halda kəlin belində oturmuşdu, hərədən əlindəki çubuğu tərpədirdi.

Bəzən ikinci hissədəki xəbər başqa bir mübtəda ilə əlaqələnir və beləliklə iki predikativ mərkəz meydana çıxır. Məsələn:

1. Ana ev işləri ilə məşğul olurdu, amma elə hey əsgər oğlunu düşünürdü.

Ana ev işləri ilə məşğul olurdu, amma fikri əsgər oğlunun yanında idi.

Bu cümlələrin məzmunu eyni olsa da, lakin I cümlədə bir ortaq mübtəda, iki xəbər olduğu üçün o, həmcins xəbərli cümlə sayılır.

İkinci cümlədə isə iki mübtəda və iki xəbər olduğu üçün o, tabesiz mürəkkəb cümlə hesab edilə bilər.

Mürəkkəb cümlənin tədrisi zamanı şagirdləri daha çox çətinliyə salan məsələlərdən biri mübtədası müştərək olan tabesiz mürəkkəb cümlələrdir. Tədris zamanı belə cümlələr düzgün izah edilmir, həmcins üzvlü cümlə hesab edilir.

Ancaq belə cümlələri həmcins üzvlü cümlələrdən ayıran fərqlər də mövcuddur. Belə ki, zahirən həmcins üzvlü cümləyə oxşayan cümlənin xəbərləri müxtəlif formada olur. Şəxsə görə mübtəda ilə uzlaşmır, müxtəlif zamanlarda baş verən hərəkəti bildirir və eyni suala cavab vermir. Məsələn:

1. Olimpiada yarışlarında qələbə çalan idmançıların məşqçiləri sevindiklərindən özlərini itirmişdilər, qarşılarına çıxanları qucaqlayıb öpürdülər.
2. Mən Təbrizdən çıxanda dostuma baş çəkdim, bu mənim borcum idi.

Tabesiz mürəkkəb cümlələrin tərkibində elliptik (cümlədə asanlıqla anlaşılan, bərpa edilə bilən sözün buraxılması) cümlələr də iştirak edə bilər. Elliptik cümlə ya bir tərəfdə, ya ikinci tərəfdə, gah da hər iki tərəfdə ola bilər. Məsələn:

1. Ana haqqı, tanrı haqqı.
2. Zər hara, zor hara.
3. Ac hara, sac hara.
4. Üzük ismət, nişan qismət.
5. Yazan da Mirzə, yaman da Mirzə.
6. Ustad səbri, şagird abrı.

Ola bilər ki, tabesiz mürəkkəb cümlənin bir ümumi mübtədası olsun, lakin xəbərlər feilin müxtəlif şəkilləri ilə ifadə olunsun. Belə cümlələr həmcins üzvlü yox, tabesiz mürəkkəb cümlələrdir. Məsələn:

Təyyarə səhər saat 6-da uçmalı idi, indilərdə uçar.

Sintaksis dilçiliyin ən mürəkkəb və çətin bir bölməsidir. Məhz buna görə də sintaksis şagirdlər tərəfindən çətinliklə mənimsənilir. Çox zaman şagirdlər hər hansı bir cümlə üzvünü izah edə bilmişlər, çünki həmin sözün hansı sözlərlə əlaqələndiyini bilmir. Məhz buna görə də cümləni sintaksis təhlil etməzdən əvvəl cümlədə sözlərin əlaqəsi müəyyən olunmalıdır. "Şagird bu və ya digər mürəkkəb cümlə üzvünü səhvən ayrı-ayrı sözlərə ayırıb izah etdikcə cümlədə sözlər arasında əlaqəyə görə təhlilə hökmən əl atmaq zəruridir. əks təqdirdə şagirdin həmin səhvini aradan qaldırmaq mümkün deyildir. Sintaktik təhlil, adətən, cümlənin xarakteristikasını verməklə başlanır" (6, 145-146).

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abbasov Ə. Yeni fənn kurikulumlarının səciyyəvi cəhətləri. Bakı, ARTPS-nin Elmi əsərləri, 2007, №1.
2. Abdullayev Ə. Müasir Azərbaycan dili. Bakı, 2007, 271 s.
3. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.
4. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə, Bakı, 2016.
5. Həsənov M. Mürəkkəb cümlənin sadə cümlə ilə müqayisəli tədrisi haqqında // Seçilmiş əsərləri. I cild. Bakı, 2010, 140 s.
6. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2010.
7. Kərimov Y. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı, 2013

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN DİLİ SİYASƏTİ VƏ MİLLİ KİMLİYİN GÜCLƏNDİRİLMƏSİ

Günel Əflatun qızı Məmmədova
Gəncə Dövlət Universiteti, müəllim
gunel.mova946@gmail.com

"Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər söz ehtiyatlarına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik."
(Heydər Əliyev)

Dil mədəniyyətin bünövrəsidir, çünki dilin köməyi ilə ünsiyyət qurulur, mədəni normalar müəyyən edilir, bir sözlə, onsuz insanın cəmiyyətdə həyatı mümkün deyil. Məhz dilin sayəsində mədəniyyətlər nəsildən-nəslə ötürülür və uşaqlar öz ana dillərini mənimsəyərək əvvəlki nəsillərin ümumiləşdirilmiş təcrübəsini də mənimsəyirlər.

Dil obyektləri, hadisələri və onların əlaqəsini düzgün qiymətləndirməyə kömək edir, insan fəaliyyətinin təşkili və əlaqələndirilməsini şərtləndirir.

Eyni zamanda dil təfəkkürə və mədəniyyətə münasibətdə müəyyənedici vasitə olaraq, dünyanın spesifik mədəni simasını dərk edən insanın şəxsiyyətini formalaşdıran amildir. Hər bir xalqın, hər bir millətin var olmasının ən başlıca səbəbi özünəməxsus dilinin olmasıdır. Biz də fəxrlə deyə bilərik ki, bir xalq, bir toplum kimi zamanın bütün sınaqlarından ləyaqətlə keçərək dilimizi, mənəvi dəyərlərimizi qoruyub bu günümüzə qədər gətirib çıxara bilmişik. Şükürlər olsun ki, dərin tarixi kökləri olan dilimiz, mədəniyyətimiz və öz tariximiz var. Qürurluyuq ki, bu dildə danışan 50 milyondan çox həmvətənimiz dünya mədəniyyətinə böyük şairlər, yazıçılar, alimlər, siyasətçilər və dahilər bəxş etmişdir.

Məşhur etnoqraf Lev Qumilyov etnosun qorunmasında dil ünsürünün ən vacib amil olduğunu qeyd edirdi. Bu konteksdə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin yaşadılması və inkişafı uğrunda apardığı mübarizənin mahiyyətini dərk etmək o qədər də çətin deyil. Dil mədəniyyətinə münasibət barədə Ulu Öndər deyir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".

Heydər Əliyev bu dahiyanə fikri ilə dili əyilməzliyin, ölməzliyin simvolu sayır, onu milli sərvət adlandırır, bu müqəddəs mirasın babalarımızın əmanəti olduğunu, qorunmasını isə vətəndaşlıq borcu hesab edir.

Heydər Əliyev öz ana dilini bilməyənləri şikəst adam adlandırmaqla millətin bütövlüyünün milli dildən keçdiyini çatdırır. Bütün bu göstərilənlər uzun illər Azərbaycana rəhbərlik etmiş böyük dövlət adamının mübarizələrlə dolu həyatının əsas leytmotivini təşkil edir.

Azərbaycan dili zaman-zaman tənə və təhqirlərlə, planlı assimilyasiya hücumları ilə, qəsd və repressiyalarla da üzləşdi. Ədəbiyyatımız, mədəniyyətimiz bu bədnam basqılara, mənəvi repressiyalara, assimilyasiya hücumlarına qarşı həmişə etiraz səsini qaldırdı. Tarix boyu Azərbaycanın dahi oğulları Azərbaycan dilinin keşiyində, müdafiəsində mətanətlə dayandı, onun təəssübünü çəkdi, şərəfini, şöhrətini, halal haqqını, hüquqlarını hünərlə qorudu. Bu baxımdan, Azərbaycan dilinə Heydər Əliyev sevgisi bütün dövrlərə, bütün zamanlara örnək ola bilər. Azərbaycan dilinə yüz illərin, min illərin Qorqud və Füzulilər sevgisini, qayğısını Heydər Əliyev şərəflə, müdrik uzaqgörənliklə davam və inkişaf etdirdi. Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib, bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun sürə bilməmişdir. Yalnız xalqımızın Ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu.

Tam qətiyyətlə demək olar ki, Ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu yüksəltdi.

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub. Tarix üçün o qədər də böyük olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi həqiqətən böyük tarixi olan aşağıdakı işləri həyata keçirib.

Birincisi, Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə, Konstitusiyada) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib.

İkincisi, Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsil almasına üstünlük verilib.

Üçüncüsü, Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni edib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib.

Dördüncüsü, Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb, həmin çoxcildliklərdən biri - ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülüb, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilib.

Beşincisi, həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq, ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərib, başqalarına nümunə olub və s.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına

layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançı lıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmişin buxovlarından azad ol unması, xalqın qan yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlət çilik arzularının və hisslərinin güclənməsinə,real siyasi amilə çevrilməsinə nail olunmasıdır.

Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Ulu Öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri - ingilis, alman, fransız, çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi.

XX əsrin ikinci yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dilinin keşiyində durmaq Heydər Əliyevin həyat fəaliyyətinə çevrilmişdi.

Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahələrinin genişləndirilməsi və yabançı təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində Heydər Əliyevin yeritdiyi siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyevin dil siyasəti, onun dilimizin inkişafı yönündə göstərdiyi tarixi xidmətl ər əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır.

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının inkişafındakı rolu çoxşaxəli olub. O, yalnız siyasi və iqtisadi islahatlar aparmaqla kifayətlənməyib, eyni zamanda Azərbaycanın milli kimliyini qorumaq və gücləndirmək üçün bir çox mühüm addımlar atmışdır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkə ağır iqtisadi və siyasi böhranla üzləşmişdi. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə bu böhranın aradan qaldırılmasına başlanmışdır. O, Azərbaycanın ərazi bütövlüyünü qorumağa, dövlətçiliyi möhkəmləndirməyə və regionda sabitliyi bərpa etməyə yönəlmiş bir çox tədbirlər həyata keçirmişdir. Bu, Azərbaycançılıq ideologiyasının əsas prinsiplərindən biri olan milli birlik və dövlətin ərazi bütövlüyü ideyasını real həyatda həyata keçirmək məqsədini güdürdü.

Heydər Əliyev Azərbaycanın mədəni irsini qorumağa və təbliğ etməyə böyük önəm vermişdir. Onun təşəbbüsü ilə Azərbaycan tarixinin, mədəniyyətinin və ədəbiyyatının qorunması məqsədilə bir çox layihələr həyata keçirilmişdir. Məsələn, Azərbaycanın qədim incəsənətini və muğam sənətini UNESCO-nun dünyəvi mədəni irs siyahısına daxil etməyi bacarmışdır. Eyni zamanda, Heydər Əliyev milli bayramların, xüsusilə Novruz bayramının dövlət səviyyəsində geniş şəkildə qeyd edilməsini təşviq etmişdir.

Heydər Əliyev Azərbaycan dilinin inkişafını və qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq müəyyənləşdirmişdir. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit edilmiş və onun inkişafına xüsusi diqqət göstərilmişdir. Bu addım, Azərbaycançılıq ideologiyasının mərkəzi elementlərindən biri olan ana dilinin qorunması və təbliğinə yönəlmiş mühüm bir qərar idi.

Heydər Əliyev dünya azərbaycanlılarını birləşdirmək məqsədilə çoxsaylı təşəbbüslər irəli sürmüş və nəticədə ilk dəfə 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Bu qurultay, xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin möhkəmləndirilməsi və onların Azərbaycana dəstəyi məsələlərində mühüm bir addım olmuşdur. Dünya Azərbaycanlılarının birliyi Heydər Əliyevin Azərbaycançılıq ideologiyasını beynəlxalq miqyasda tanıtdı və ölkənin beynəlxalq nüfuzunun artmasına səbəb oldu.

Bu gün siyasi baxışlarından asılı olmayaraq, hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın nəzərində bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü

və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır.

Ulu Öndər özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti son 10 ildə dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir.

Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Heydər Əliyev tərəfindən inkişaf etdirilən Azərbaycançılıq ideologiyası, yalnız onun dövrü ilə məhdudlaşmır. Bu ideologiya, müstəqil Azərbaycan Respublikasının milli kimliyinin və dövlətçiliyinin təməlini təşkil edir və gələcək nəsillərə ötürüləcək mühüm bir mirasdır. O, Azərbaycan xalqını bir araya gətirən, milli məqsədlərə xidmət edən və dövlətin inkişafını təmin edən bir ideologiya formalaşdırmışdır. Bu, həmçinin Azərbaycanın müxtəlif etnik və dini qruplarının birgə yaşadığı, tolerantlığın və əmin-amanlığın təmin edildiyi bir cəmiyyətin qurulmasında böyük rol oynamışdır.

Heydər Əliyevin Azərbaycançılıq ideologiyasına verdiyi töhfələr Azərbaycan dövlətçiliyinin və milli kimliyinin möhkəmlənməsində əvəzsizdir. O, yalnız Azərbaycanın müstəqil dövlət olaraq, beynəlxalq aləmdə tanınmasını deyil, eyni zamanda milli birlik, dil və mədəniyyətin qorunmasını və təbliğini təmin etmişdir. Azərbaycançılıq ideologiyası, Heydər Əliyevin irsinin bir hissəsi olaraq, bu gün də Azərbaycanın siyasi və mədəni həyatında əhəmiyyətli rol oynamaqda davam edir. Onun rəhbərliyi altında formalaşan bu ideologiya, Azərbaycan xalqının gələcək nəsilləri üçün əvəzolunmaz bir dəyər olaraq qalacaqdır.

Sonda isə fikrimi Ümummilli lider Heydər Əliyevin sözləri ilə tamamlamaq istəyirəm: *"Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Şəxsən mən bu dili sevirəm".*

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ahmedova S. Haydar Aliyevin dil siyasəti. Türkiyə - 2010, 83 s.
2. Heydər Əliyev "Müstəqilliyimiz əbədidir". 1-ci cild. Bakı – 2013, 632 s.
3. Heydər Əliyevin dil siyasəti. (rəsmi sənədlər) Bakı – 2009, 136 s.
4. Zamanov N. Heydər Əliyev və Azərbaycanda nitq mədəniyyəti (I vkitab). Bakı – 2013, 480 s.

HEYDƏR ƏLİYEVİN GƏNCLƏR VƏ İDMAN SİYASƏTİ: SAĞLAM GƏLƏCƏYİN QURULMASI

Aqil Salman oğlu Soltanov
Azərbaycan İdman Akademiyası
aqil.soltanov@sport.edu.az

Giriş

Müasir dünyada milli dövlətlərin uğurlu gələcəyini təmin edən əsas amillərdən biri gənc nəslin sağlam, vətənpərvər, savadlı və yaradıcı ruhda formalaşdırılmasıdır. Gənclər cəmiyyətin sosial dinamizmini təmin edən strateji resurs, xalqın intellektual və fiziki potensialının təzahürü, həmçinin ölkənin sabahına yön verən əsas qüvvədir. Bu baxımdan, gənclərə və idmana yönəlmiş hərtərəfli dövlət siyasəti həm sosial rifahın təminatı, həm də milli təhlükəsizlik baxımından əvəzolunmaz əhəmiyyət kəsb edir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev dövlətçilik fəlsəfəsində gənclərin və idmanın inkişafını strateji prioritet kimi müəyyənləşdirmişdir. Onun siyasi iradəsi və uzaqgörənliyi nəticəsində müstəqilliyimizin ilk illərindən etibarən ölkədə sistemli və məqsədyönlü gənclər və idman siyasəti formalaşdırılmışdır. Heydər Əliyev gənclərə yalnız gələcəyin daşıyıcısı kimi deyil, həm də bu günün ictimai-siyasi, elmi və mədəni həyatında fəal iştirakçılar kimi yanaşırdı. O, hesab edirdi ki, sağlam, savadlı, milli dəyərlərə bağlı və müasir çağırışlara cavab verən gənclərsiz güclü dövlətin qurulması mümkün deyil.

Ulu Öndər gənclərin fiziki və mənəvi inkişafını bir-birindən ayrı sahələr kimi deyil, qarşılıqlı tamamlayan və gücləndirən proseslər kimi dəyərləndirirdi. Buna görə də, idman siyasətinin gənclər siyasəti ilə inteqrasiyası məhz onun dövründə dövlət səviyyəsində sistemləşdirildi. Yeni hüquqi bazalar, institusional strukturlar yaradıldı, gənclərlə işin regional və milli mexanizmləri formalaşdı, idman infrastrukturu yeniləndi və beynəlxalq əməkdaşlıq istiqamətində böyük nailiyyətlər əldə olundu.

Bu məqalədə Heydər Əliyevin gənclər və idman siyasətinin formalaşma mərhələləri, əsas prinsipləri, tətbiq olunan proqramlar və bu siyasətin nəticələri ətraflı şəkildə təhlil olunacaqdır. Məqsəd, Ulu Öndərin bu sahədə qoyduğu zəngin irsi dərindən anlamaq və onun gələcək nəsillər üçün necə bünövrə yaratdığını elmi və analitik prizmadan ortaya qoymaqdır.

Heydər Əliyevin gənclər siyasətinin ideoloji bazasının formalaşması

Ümummilli lider Heydər Əliyev gəncləri dövlətin və cəmiyyətin gələcəyini müəyyən edən əsas strateji qüvvə kimi dəyərləndirirdi. Onun siyasi iradəsi və uzaqgörən baxışları nəticəsində Azərbaycanda gənclərlə iş sahəsində konseptual və praktik əsaslar üzərində qurulan, dərin məzmunlu dövlət siyasəti formalaşdı. Bu siyasətin əsasında gənclərin təkcə yaş kateqoriyası baxımından deyil, onların ictimai, siyasi, intellektual və mənəvi potensialları baxımından cəmiyyətin avanqard qüvvəsi olması ideyası dayanırdı.

Hələ Sovet dövründə — 1969-1982-ci illərdə Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə Heydər Əliyev gənclərin təhsil, mədəniyyət, sənaye və elmdə iştirakına xüsusi önəm vermiş, gənc kadrların SSRİ miqyasında tanınan mütəxəssislər kimi yetişməsinə şərait yaratmışdı. Onun təşəbbüsü ilə Azərbaycan gəncləri ali məktəblərə qəbul üçün xüsusi kvotalarla SSRİ-nin qabaqcıl universitetlərinə göndərilir, müxtəlif sahələr üzrə mütəxəssislər kimi yetişdirilirdi. Bu yanaşma, həmçinin milli kadr potensialının formalaşmasında dönüş nöqtəsi olmuşdu.

Müstəqillik dövründə isə Heydər Əliyevin bu istiqamətdə fəaliyyəti daha da geniş vüsət aldı. Azərbaycan gənclərinin dövlətin bütün sahələrində fəal iştirakını təmin etmək məqsədilə yeni hüquqi bazalar formalaşdırıldı, idarəetmə sistemində gənclərlə iş üzrə vahid və sistemli koordinasiya mexanizmləri yaradıldı. Gənclərin milli şüur, vətənpərvərlik və vətəndaş məsuliyyəti ruhunda tərbiyəsi dövlətin ideoloji əsaslarından birinə çevrildi.

Heydər Əliyevin bu sahədə əsas fərqləndirici yanaşması ondan ibarət idi ki, o, gənclərlə işi sadəcə tədbirçilik səviyyəsində deyil, strateji dövlət quruculuğunun ayrılmaz hissəsi kimi qəbul

edirdi. O, daim vurğulayırdı ki, "Gənclər elə yetişməlidirlər ki, Azərbaycanı daha da inkişaf etdirsinlər, onu qoruyub saxlasınlar və dünya miqyasında tanıtsınlar."

Gənclər siyasətinin hüquqi asasları və dövlət proqramları

Heydər Əliyev dövründə gənclərlə iş sahəsində kompleks və hüquqi cəhətdən əsaslandırılmış dövlət siyasətinin yaradılması məqsədilə ardıcıl və sistemli islahatlar həyata keçirildi. Bu sahədə ilk mühüm addımlardan biri 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması oldu. Bu qurum dövlətin gənclər siyasətinin icraedici strukturu olaraq fəaliyyətə başladı və qısa zamanda gənclərlə bağlı genişmiqyaslı layihələrin reallaşdırılmasına start verdi.

1996-cı ildə keçirilən I Azərbaycan Gənclərinin Forumu ölkə tarixində ilk dəfə olaraq gəncləri bir araya gətirən ümummilli platforma kimi tarixə düşdü. Bu forumda Heydər Əliyev şəxsən iştirak etdi və orada etdiyi çıxışında gənclərin gələcək inkişafı üçün dövlət tərəfindən sistemli dəstəyin göstəriləcəyini bildirdi. Ulu Öndər forumdakı çıxışında qeyd edirdi: "Gənclər hər bir millətin sabahıdır. Əgər gəncləri düzgün tərbiyə etsək, onların təhsilinə, inkişafına, həyat tərzinə düzgün yanaşsaq, biz sağlam gələcək qurarıq."

1999-cu ildə qəbul edilən "Azərbaycan Gəncliyi Dövlət Proqramı (1999–2003)" gənclər siyasətində sistemli yanaşmanın rəsmi sənədinə çevrildi. Proqram aşağıdakı istiqamətləri əhatə edirdi:

- Gənclərin peşə və ali təhsilə çıxış imkanlarının artırılması;
- Gənclər təşkilatlarının və təşəbbüslərinin dəstəklənməsi;
- Gənclərin sosial problemlərinin həlli, işsizliyin azaldılması;
- Sağlam həyat tərzinin və idmanın təbliği;
- Vətənpərvərlik tərbiyəsi və milli-mənəvi dəyərlərə sadiqliyin gücləndirilməsi.

Proqramın icrası nəticəsində ölkə üzrə çoxsaylı regionlarda Gənclər Evi və Mərkəzləri fəaliyyətə başladı, yerli gənclər təşkilatlarına hüquqi və maliyyə dəstəyi göstərildi, müxtəlif sahələr üzrə təlim və layihələr həyata keçirildi. Bu proqram gənclərlə işin vahid dövlət strategiyasına çevrilməsi baxımından dönüş nöqtəsi oldu.

İdman siyasəti: fiziki inkişaf və milli birlik

Heydər Əliyevin dövlətçilik ideologiyasında idman yalnız fiziki sağlamlıq vasitəsi deyil, həm də milli birlik, vətənpərvərlik və beynəlxalq arenada dövlətin tanıdılması üçün mühüm alət idi. Onun rəhbərliyi ilə ölkədə idmanın maddi-texniki bazasının yenilənməsi, idmançılar üçün yeni imkanların yaradılması və beynəlxalq yarışlarda iştirakın genişləndirilməsi istiqamətində mühüm işlər görüldü.

1990-cı illərin çətin sosial-iqtisadi şəraitinə baxmayaraq, idmanın inkişafı dövlətin əsas prioritetlərindən biri olaraq saxlanıldı. 1995-ci ildə Milli Olimpiya Komitəsinin fəaliyyətinin yenidən qurulması və Azərbaycan Respublikasının Beynəlxalq Olimpiya Hərəkatına qoşulması ölkənin idman sahəsində beynəlxalq əlaqələrinin genişlənməsinə zəmin yaratdı. Həmin dövrdən başlayaraq, Azərbaycan idmançıları beynəlxalq səviyyəli yarışlarda fəal iştirak etməyə və uğurlar qazanmağa başladılar.

Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, idman cəmiyyətin sağlam həyat tərzinə keçidində mühüm rol oynayır, gəncləri pis vərdişlərdən uzaqlaşdırır və onları cəmiyyətə faydalı vətəndaş kimi yetişdirir. Bu baxımdan, idmanın yalnız bir sektor deyil, sosial-ideoloji layihə kimi dəyərləndirilməsi onun irsində mühüm yer tutur.

Ulu Öndər həmçinin regionlarda idmanın inkişafına da böyük önəm verirdi. Müxtəlif bölgələrdə Olimpiya İdman Komplekslərinin tikintisinə başlanılması, yerli idman məktəblərinin yenidən qurulması və yeni idman növlərinin təşviqi bu siyasətin tərkib hissəsi idi.

İdman və gənclərin inteqrasiyası: Vətənpərvərlik və sağlamlıq

Heydər Əliyevin gənclər və idman siyasətinin əsas xüsusiyyətlərindən biri onların qarşılıqlı inteqrasiyası idi. O, idmanı sadəcə fiziki fəaliyyət kimi deyil, həm də gənclərin vətənpərvərlik, milli qürur və birgə fəaliyyət ruhunda tərbiyə olunması üçün güclü vasitə hesab edirdi. Bu səbəbdən, idman vasitəsilə gənclərin sağlamlıqla yanaşı milli şüur səviyyələrinin yüksəldilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi.

Heydər Əliyev vurğulayırdı ki, "Vətənini sevən hər bir gənc sağlam olmalı, cəmiyyətin inkişafı üçün fiziki və mənəvi cəhətdən güclü yetişməlidir." Bu fikir onun idman siyasətinin ideoloji əsasını təşkil edirdi. Gənclərin idman vasitəsilə həm fiziki baxımdan, həm də milli-mənəvi dəyərlərə uyğun şəkildə formalaşdırılması üçün təhsil müəssisələrində idmanın rolu artırıldı, məktəbdənkənar idman dərnəkləri, yay idman düşərgələri və turnirlər təşkil olundu.

Əlavə olaraq, güləş, cüdo, karate, taekvondo kimi döyüş növlərinin geniş yayılması həm gənclərin fiziki hazırlığının yüksəldilməsi, həm də onların nizam-intizamlılıq və məsuliyyətlilik kimi keyfiyyətlərlə yetişməsi baxımından önəmli addım idi. Bu idman növləri vasitəsilə gənclər həm öz güclərinə inam qazanır, həm də vətənin müdafiəsinə hər an hazır olma düşüncəsini mənimsəyirdilər.

Beynəlxalq əməkdaşlıq və Azərbaycan modelinin formalaşması

Heydər Əliyevin uzaqgörən siyasətinin mühüm istiqamətlərindən biri də gənclər və idman sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi olmuşdur. O, Azərbaycanın bu sahədə təkcə region daxilində deyil, beynəlxalq müstəvidə də fəal iştirak etməsinin vacibliyini önə çəkirdi. Beləliklə, ölkəmiz qlobal idman və gənclər siyasətinin fəal iştirakçısına çevrildi.

1990-cı illərin sonlarından başlayaraq, Azərbaycan Avropa Şurasının Gənclər Departamenti, UNESCO, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər nüfuzlu qurumlarla sıx əməkdaşlıq qurdu. Bu təşkilatlarla birgə həyata keçirilən layihələr, forumlar və təlimlər Azərbaycanın gənclər siyasətinə beynəlxalq təcrübənin gətirilməsinə, eləcə də Azərbaycanın bu təcrübəni regional dövlətlərə ötürən modellərdən birinə çevrilməsinə əlverişli şərait yaratdı.

Heydər Əliyevin təşəbbüsü ilə gənclər və idman sahəsində formalaşan "Azərbaycan modeli" bir neçə mühüm komponentə əsaslanırdı:

- Milli-mənəvi dəyərlərə əsaslanan tərbiyə sistemi;
- Sağlam həyat tərzinin ictimai norma kimi təşviqi;
- Dövlətin idarəetmə sisteminə gənclərin inteqrasiyası;
- Beynəlxalq standartlara cavab verən idman infrastrukturu;
- Gənclərin qərarverici proseslərdə iştirakı üçün hüquqi və institusional təminat.

Bu modelin əsas fərqli xüsusiyyətəi ondan ibarət idi ki, Azərbaycan ənənəvi dəyərləri qorumaqla yanaşı, müasir dünyaya açıq bir siyasət yürüdürdü. Bu isə həm milli identikliyin saxlanılması, həm də beynəlxalq inteqrasiya proseslərinin balanslaşdırılması baxımından uğurlu yanaşma idi.

Tələbə-gənclər hərəkatının dəstəklənməsi və inkişafı

Heydər Əliyevin gənclər siyasətində ali təhsil müəssisələrində tələbələrin sosial-siyasi fəallığının artırılması xüsusi yer tuturdu. Ulu Öndər hesab edirdi ki, universitet gəncliyi cəmiyyətin intellektual avanqardını təşkil edir və bu təbəqənin təşəbbüskarlığı, liderlik bacarığı və yaradıcılığı ümumi ictimai dinamikanın güclənməsində həlledici rol oynayır.

1990-cı illərin sonlarından başlayaraq respublikanın ali təhsil müəssisələrində tələbə-gənclər təşkilatları yaradıldı və onların fəaliyyətinə dövlət səviyyəsində dəstək verildi. Bu təşkilatlar tələbələrin hüquqlarının qorunması, onların sosial məsələlərinin həlli, könüllülük fəaliyyətinin təşviqi, təhsil mühitində intellektual inkişaf imkanlarının artırılması kimi müxtəlif istiqamətlərdə fəaliyyət göstərirdilər.

Heydər Əliyev gənclərin yalnız passiv auditoriya deyil, aktiv vətəndaş, təşəbbüskar və lider kimi yetişməsinə böyük önəm verirdi. O, universitetlərdə keçirilən tədbirlərdə iştirak edərkən tələbələrlə birbaşa dialoqa girir, onların fikirlərini dinləyir və bu proseslərə xüsusi həssaslıqla yanaşırdı. Ulu Öndər belə hesab edirdi ki, tələbələrə güvənmək, onların ideyalarına dəyər vermək dövlətin gələcəyinə sərmayə qoymaq deməkdir.

Bundan əlavə, tələbə gənclərin idarəetmə orqanlarında təmsilçiliyinin artırılması üçün sistemli tədbirlər həyata keçirildi. Gənclər siyasəti üzrə ictimai şuraların, forumların və təlim platformalarının yaradılması tələbələrin dövlət siyasətinə cəlb olunmasına şərait yaratdı. Bu yanaşma gənclərdə vətəndaş məsuliyyəti, milli dəyərlərə bağlılıq və sosial məsuliyyət hissinin güclənməsinə xidmət edirdi.

Regionlarda gənclərlə iş və inklüziv siyasət

Heydər Əliyev gənclər siyasətinin yalnız paytaxt mərkəzli olmasının qarşısını almaq üçün regionlarda gənclərlə işin təşkili və sosial bərabərliyin təmin olunması istiqamətində mühüm addımlar atdı. Onun təşəbbüsü ilə Azərbaycanın bütün bölgələrində gənclər mərkəzlərinin yaradılması, regional təlim proqramlarının təşkili və idman infrastrukturlarının inkişafı gənclərin bərabər imkanlarla təmin olunmasına xidmət edirdi.

Regional gənclərlə iş siyasəti aşağıdakı prinsiplərə əsaslanırdı:

- Regionda yaşayan gənclərin sosial və iqtisadi ehtiyaclarının öyrənilməsi və həlli;
- Gənclərin yerli idarəetmə və icma fəaliyyətlərinə cəlb olunması;
- Kənd və şəhər gəncləri arasında imkan bərabərliyinin təmin edilməsi;
- Mədəni və idman tədbirlərinin regionlar üzrə balanslı şəkildə təşkili;
- Gənclərin intellektual və liderlik bacarıqlarının aşkarlanması və dəstəklənməsi.

Bütün bu tədbirlər nəticəsində region gəncləri üçün də müxtəlif müsabiqələr, yay düşərgələri, intellektual turnirlər və sosial layihələr vasitəsilə təcrübə imkanları yaradıldı. Bundan əlavə, əlilliyi olan gənclər, aztəminatlı ailələrdən olanlar, şəhid və qazilərin övladları üçün xüsusi sosial proqramlar tətbiq olunmağa başlandı.

Heydər Əliyevin inklüziv yanaşması gənclər siyasətində humanist və sosial ədalət prinsipini ön plana çəkirdi. Onun fikrincə, cəmiyyətin bütün gəncləri – istər Bakıda, istərsə də ən ucqar kənddə yaşayanlar — bərabər dövlət qayğısı ilə əhatə olunmalı və özlərini bu cəmiyyətin tamhüquqlu üzvü kimi hiss etməlidirlər.

Heydər Əliyev siyasətinin davamlılığı: İlham Əliyev dövrü

Heydər Əliyevin gənclər və idman sahəsində qoyduğu güclü təməllər Prezident İlham Əliyev tərəfindən ardıcıl və sistemli şəkildə davam etdirilmişdir. İlham Əliyev Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasını yeni çağırışlara uyğun şəkildə yeniləmiş, bu sahəni həm daxili siyasətin, həm də beynəlxalq imicin formalaşmasının ayrılmaz hissəsinə çevirmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən "Azərbaycan Gəncliyi 2011–2015", "Azərbaycan Gəncliyi 2017–2021" və "Gənclər Strategiyası 2015–2025" kimi mühüm sənədlər Heydər Əliyevin irsinin davamlı inkişafını təmin etmişdir. Bu sənədlərdə gənclərin təhsil imkanlarının genişləndirilməsi, startap təşəbbüslərinin dəstəklənməsi, innovasiya mərkəzlərinin yaradılması, beynəlxalq təqaüd proqramlarında iştirakı və onların siyasi proseslərdə təmsilçiliyi geniş şəkildə əhatə olunmuşdur.

İdman sahəsində isə İlham Əliyev dövründə Azərbaycan mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən idman ölkəsinə çevrilmişdir. 2015-ci ildə keçirilmiş Birinci Avropa Oyunları, 2017-ci il İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları və digər beynəlxalq turnirlər ölkənin idman sahəsində əldə etdiyi uğurların nəticəsidir.

Eyni zamanda, regionlarda onlarla Olimpiya İdman Komplekslərinin istifadəyə verilməsi, idmançılara göstərilən maddi və mənəvi dəstək, idman təhsili və elmi üzrə akademik potensialın artırılması bu siyasətin strateji davamlılığını göstərir.

Beləliklə, Heydər Əliyevin əsasını qoyduğu gənclər və idman siyasəti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilərək, yeni dövrün çağırışlarına uyğunlaşdırılmış, bu sahədə Azərbaycanın müasir dünyada tanınan model ölkə kimi formalaşmasına səbəb olmuşdur.

Nəticə

Ümummilli lider Heydər Əliyevin dövlətçilik irsində gənclər və idman siyasəti təkcə sosial layihələr toplusu deyil, həm də strateji idarəçilik konsepsiyası kimi çıxış edir. Onun bu sahəyə yanaşması sadəcə gənclərin fiziki və intellektual inkişafını təmin etmək məqsədi daşımırdı – o, gəncləri milli ruhun daşıyıcısı, dövlətin davamlılığının təminatçısı və cəmiyyətin yeniləşmə qüvvəsi kimi formalaşdırmağa çalışırdı. Gənclər üçün yaradılan imkanlar, idmanın inkişafı üçün qoyulan təməl, bu gün Azərbaycanın dünyada tanınan, idman ölkəsi kimi təqdim olunmasında əsas rol oynamışdır.

Ulu Öndərin "Gənclər bizim gələcəyimizdir" fikri sadə bir ifadə olmaqla kifayətlənməyib, illərlə tətbiq edilən dövlət siyasətinin ideoloji əsasını təşkil etmişdir. Onun təşəbbüsü ilə həyata keçirilən dövlət proqramları, gənclərin təşəbbüslərinin dəstəklənməsi, tələbə-gənclər hərəkatının

gücləndirilməsi və regionlarda gənclərlə işin institusionallaşdırılması, bu siyasətin sistemli və məqsədyönlü aparıldığını sübut edir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev siyasətinin davam etdirilməsi nəticəsində Azərbaycan gəncləri beynəlxalq yarışlarda, elmi layihələrdə, texnologiya və mədəniyyət sahələrində öz sözünü deyir, ölkəni dünyada uğurla təmsil edirlər. İdman infrastrukturu inkişaf etdirilmiş, beynəlxalq səviyyəli tədbirlər ölkəmizdə keçirilmiş, gənclər üçün sosial lift funksiyasını yerinə yetirən mexanizmlər daha da təkmilləşdirilmişdir.

Nəticə etibarilə, Heydər Əliyevin gənclər və idman siyasəti Azərbaycanın sabahkı inkişafı üçün sağlam bünövrə yaratmış, gələcək nəsillər üçün yol xəritəsi olmuşdur. Bu siyasət bir millətin öz gənclərinə inamının, onların potensialına verilən dəyərin və ümummilli inkişaf strategiyasına töhfə verməsinin bariz nümunəsidir. Sağlam gələcək – yalnız sağlam gənclər vasitəsilə mümkündür və bu ideya Ulu Öndərin siyasi irsinin başlıca istiqamətlərindən biri kimi bu gün də aktuallığını qoruyur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, Tural. *Heydər Əliyev və Gənclər Siyasəti: Tarixi Yanaşma və Müasir Konsepsiya*. Bakı: Elm və Təhsil, 2018, 248 s.
2. Ələkbərov, Vüqar. *Müstəqil Azərbaycanda Gənclər və İdman Siyasəti (1993–2023)*. Bakı: Qanun Nəşriyyatı, 2023, 312 s.
3. Rzayev, Səbuhi. *Heydər Əliyev İrsində İdmanın Strateji Rolu*. Gəncə: Təfəkkür Nəşriyyatı, 2020, 198 s.
4. Məmmədli, Sevinc. *Regionlarda Gənclərlə İşin İnkişaf Perspektivləri: Heydər Əliyev İdeyalarının İşığında*. Bakı: Təhsil, 2021, 180 s.
5. Əliyeva, Rəna. *Gənclərin Dövlət İdarəçiliyində Rolu və Heydər Əliyev İdeologiyası*. Sumqayıt: İdrak Nəşriyyatı, 2019, 205 s.
6. Cəfərov, Elçin. *Azərbaycan İdman Modeli və Heydər Əliyevin Siyasi İrsi*. Bakı: Şərq-Qərb, 2022, 237 s.
7. Qurbanov, Elvin. *Heydər Əliyev və Gənclərin Sosial İnkişafı: Analitik Tədqiqat*. Naxçıvan: Akademiya Nəşriyyatı, 2020, 190 s.
8. Kazımova, Aygün. *Tələbə-Gənclər Təşkilatları və Dövlət Siyasətinin İnkişaf Dinamikası*. Bakı: Aspoliqraf, 2017, 172 s.
9. İsmayılov, Hikmət. *İdman və Gənclik: Müasir Azərbaycan Perspektivində*. Şəki: Uğur Nəşriyyatı, 2016, 210 s.
10. Süleymanov, Nurlan. *Heydər Əliyev və Beynəlxalq Gənclər Əməkdaşlığı: Təhlil və Tətbiq*. Bakı: Tələbə Nəşriyyatı, 2024, 224 s.

HEYDƏR ƏLİYEV MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN HAMİSİ KİMİ

Ülviyyə Tahir qızı Aslanova
Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi
aslanowaulya@gmail.com

Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi bu günümüz üçün də əhəmiyyətli və vacibdir. Milli-mənəvi dəyərlər dedikdə ağlımıza dilimiz, dinimiz, adət-ənənələrimiz, yaşayış tərzimiz, ədəbiyyatımız və s. məqamlar gəlir. Dəyərlərimizin tarixi əhəmiyyəti də vardır. Azərbaycan xalqı milli-mənəvi dəyərlərin yaşadılmasında hamılıqla mühüm rol oynayır. Çağdaş və müstəqil Azərbaycanı Ulu öndər Heydər Əliyev bütün beynəlxalq platformalarda tanıtdı. Bu mənada milli dəyərlərimizin qorunması, inkişafı elə məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev Azərbaycan xalqının taleyinə Allah tərəfindən bəxş edilmiş nadir şəxsiyyətlərdən biridir. Ulu Öndər dünya siyasətinin nəhənglərindən sayılır. Xalqımızın taleyində, mənəvi və

psixoloji həyatında, dövlət quruculuğunda onun qədər çalışan ikinci dövlət adamına rast gəlmək mümkün deyildir. Onun siyasi fəaliyyətini araşdırdıqca, oxuduqca görürük ki, Ulu Öndər dilimizə, mentalitetimizə, dinimizə, mədəniyyətimizə, tariximizə, ədəbiyyatımıza dövlətçiliyimizin inkişafı kontekstində yanaşmışdır.

Dahi şəxsiyyət milli-mənəvi dəyərlərimizi həm də siyasi varlığımızın, birliyimizin mühüm xüsusiyyətlərindən biri kimi dəyərləndirirdi. Ölkəmizdə yaşayan, yaradan, buranın vətəndaşı olan hər bir şəxs üçün bu dəyərlər əziz və müqəddəsdir. Hər kəs öz vətəndaşlıq borcu kimi dəyərlərimizin qorunub saxlanılmasında səy göstərməlidir. Böyük rəhbər dəyərlərimizi inkişaf etdirmək mövzusunu həmişə diqqət mərkəzində saxlamışdır. Azərbaycanın müstəqil olmadığı dövrlərdə adət-ənənələrimizə, milli və dini bayramlarımıza qadağalar qoyulmuşdu. Heydər Əliyev hakimiyyətə gələn kimi bu qadağalar aradan qaldırıldı.

Ulu Öndərimiz hər il milli və dini bayramlarımız olan Novruz, Ramazan və Qurban bayramlarında xalq ilə bayramlaşırdı. O həm də İslam dini ilə bağlı tədbirlərin, mərasimlərin, adətlərin keçirilməsi üçün kifayət qədər şərait yaratmışdı. 1994-cü ildə Səudiyyə Ərəbistana rəsmi səfəri zamanı Kəbəni ziyarət etməsi, bir sıra ziyarətgahlara gedib din xadimləri ilə görüşməsi Heydər Əliyevin dini dəyərlərə sadiqliyinin əyani göstəricisidir. 70 il Sovet rejiminin sərt qadağası tərkibində yaşayan xalqımız milli ideologiyamızı, milli-mənəvi dəyərlərimizi unutmamış, yaşatmağa çalışmışdır. Sovet rejiminin əmri ilə dağıdılan Bibiheybət məscidi Heydər Əliyevin göstərişi ilə yenidən ən mükəmməl formada bərpa edilmişdir. Dahi rəhbərin təşəbbüsü ilə dini ibadət azadlığı da təmin edildi. Qurani-Kərim kitabı Azərbaycan dilinə tərcümə olundu və geniş şəkildə yayılmağa başlandı. Qafqaz müsəlmanları ilə dövlət arasında sıx əməkdaşlıq quruldu. Din xadimlərinə və dini icmalara hörmət və dəstək siyasəti həyata keçirildi. Heydər Əliyev dindən istifadə edib cəmiyyətdə radikal düşüncə yaymaq istəyənlərə qarşı da sərt mövqe sərgiləyərək İslamın sülh, mərhəmət və ədalət dini olduğunu önə çəkirdi. Onun siyasətində İslam ibadət vasitəsi kimi deyil, birlik və bərabərliyimizi qoruyan, mühafizə edən mənəvi sütun kimi dəyərləndirilirdi. Ulu Öndər 8 aprel 1998-ci ildə Qurban bayramı münasibətilə Mir Möhsün ağanın ziyarətgahında keçirilən bir görüşdə qeyd etmişdir ki, İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim sərvətimizdir... Bizim ənənələrimiz, mənəvi-milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır [4]. Dahi şəxsiyyət hər zaman İslam dinini bizim milli kimliyimizin ayrılmaz hissəsi kimi qəbul etmişdir.

Görkəmli siyasi xadimi Heydər Əliyev hakimiyyətə gəldiyi ilk illərdən apardığı siyasi fəaliyyət ilə atdığı strateji addımlar paralel irəliləyirdi. Siyasi xadim çıxışlarında hər zaman ədəbiyyatın onun həyatında danılmaz rola malik olduğunu söyləyirdi. Bu kimi fikirlərini Azərbaycan yazıçılarının X qurultayındakı çıxışı zamanı da görə bilərik: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam" [2]. Buradan anlayırıq ki, ədəbiyyat bizim həyatımız üçün çox dəyərlidir. Bizim böyüməyimizdə, inkişafımızda və mənəviyyatımızın formalaşmasında böyük rol oynayır. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdən hər bir şair və yazıçının yubileyinə xüsusi diqqət yetirmiş, təntənəli şəkildə qeyd etdirmişdir. Nizami Gəncəvinin 840 illik və Məhəmməd Füzulinin 500 illik yubileylərinin qeyd edilməsi bu sahədəki əhəmiyyətli tədbirlərdəndir. Özü də təşkil edilən hər yubileydə, qurultayda şəxsən iştirak etmişdir. Lakin bəzi məmurlar var idi ki, belə yubileylərin qeyd edilməsinə qarşı çıxırdılar. Ancaq Heydər Əliyev özünəməxsus soyuqanlılıqla onlara deyir: "Nizami elə böyük dahidir ki, biz onu hər il keçirməliyik" [1]. Azərbaycan şairlərinə, yazıçılarına, onların yaradıcılığına verdiyi dəyər bu baxımdan açıqca görünür. Heydər Əliyev Azərbaycan ədəbiyyatının dünyaya tanıdılmasında böyük rol oynamışdır. Ulu Öndər klassik ədəbiyyata xüsusi önəm verirdi. Məhəmməd Füzuli, Nizami Gəncəvi, Xurşidbanu Natəvan və bir çox klassik ədiblərin əsərlərinin təbliğini genişləndirilməsi üçün bir sıra fərmanlar imzalamışdır. Böyük

iftixar hissi ilə deyə bilərik ki, Nizami Gəncəvi Azərbaycan xalqını dünyada tanıdan nadir dahi şəxsiyyətlərdəndir. Ulu Öndərin Nizami Gəncəviyə bəslədiyi xüsusi rəğbət açıq-aydın görünür. Heydər Əliyevin bacarıqlı siyasəti nəticəsində Azərbaycan ədəbiyyatı yeni mərhələyə keçid etdi. Ulu Öndər elm, mədəniyyət, ədəbiyyat və incəsənətin tanınmış sənətkarlarına dövlət səviyyəsində qayğı göstərmişdir. Onların müxtəlif orden və mükafatlarla təltif edilməsində, tarixi şəxsiyyətlərlə bağlı filmlər çəkilməsində Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Bizim yazıçılarımız, şairlərimiz Azərbaycanın hər bir vətəndaşında daim milli hissləri oyatmağa çalışmışlar. Dövlətçilik, vətənpərvərlik, özünüdərk, milli oyanış, milli-mənəvi dəyərlər ilk növbədə ədəbiyyat vasitəsilə təbliğ olunur. Ölkə başçısı hər dəfə ədəbiyyatın adil cəmiyyət üçün nə qədər gərəkli bir amil olduğunu vurğulayırdı [7].

Bu gün də Heydər Əliyevin qoyduğu əsaslar nəticəsində Azərbaycan ədəbiyyatı inkişaf etməkdədir. Milli-mənəvi irsimiz, dəyərlərimiz gələcək nəsillərə ötürülür. Heydər Əliyevin ədəbiyyata verdiyi dəyər onun millilik, tarixilik, müasirlik prinsiplərinə əsaslandığını göstərirdi. Onun ədəbiyyatın inkişafına verdiyi töhfələr daim xatırlanır və xatırlanacaqdır.

"Kitabi-Dədə Qorqud" dastanı hər kəs kimi Heydər Əliyevin də diqqətini cəlb etmişdir. "Kitabi-Dədə Qorqud" eposu Azərbaycan xalqı üçün ən böyük millli-mənəvi dəyərlərdən hesab edilir. Bu möhtəşəm epos xalqımızın qəhrəmanlıq ənənələrini, əxlaqi dəyərlərini özündə əks etdirir. Dahi rəhbər bu dastanın məktəblərdə, universitetlərdə geniş şəkildə öyrnilməsi, gənc nəslin milli dəyərlərimiz haqqında məlumatlı olması üçün dastanın mənimsənilməsinə xüsusi önəm verirdi. Onun dövründə bu epos müxtəlif dillərə tərcümə olundu və geniş araşdırılmağa başlandı. Xüsusilə 1969-1982-ci illərdə "Kitabi-Dədə Qorqud" eposunun tədqiqi, nəşri və təbliği üçün geniş addımlar atılmışdır. Heydər Əliyev 1999-cu ilin fevral ayında imzaladığı Sərəncama əsasən "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin beynəlxalq səviyyədə keçirilməsi də məqsədyönlü addım idi. Onun verdiyi qərarlar, gördüyü işlər nəticəsində milli irsimiz, milli ədəbiyyatımız qorundu, təbliğ olundu və dünya səviyyəsində tanındı. Gənc nəsil üçün orta və ali məktəblərdə də ədəbiyyatın tədrisinə xüsusi diqqət yetirirdi. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə bağlı tədbirin açılış nitqində Ulu Öndər demişdir: "Kitabi-Dədə Qorqud"u dünyaya tanıtdıq. YUNESKO çərçivəsində "Kitabi-Dədə Qorqud"un yubiley mərasimlərinin keçirilməsi, Drezdendə, Moskvada, Türkiyənin bir çox şəhərlərində, başqa yerlərdə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi və bununla bərabər yaranmış əsərlər, üç il müddətində "Kitabi-Dədə Qorqud"un təbliğ olunması "Kitabi-Dədə Qorqud" dastanını bütün dünyaya tanıtdı. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Fəxr edirəm ki, "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələr verəcəyik" [2]. Siyasi xadim bu tarixi çıxışıyla dastanın dəqiq ünvanını bütün dünyaya bəyan etmiş oldu. Heydər Əliyevin bu dastana göstərdiyi qayğı milli-mədəni irsə, milli-mənəvi və tarixi dəyərlərə verdiyi önəmlə bağlıdır. Dastan bir neçə dəfə çap edilərək təqdim olunmuş, orta və ali məktəblərdə də özünə xüsusi yer tutmuşdur. Ölkə rəhbəri bu əsərin Azərbaycan xalqının, milllətinin milli kimliyi üçün vacibliyini vurğulayırdı və onu milli kimliyin simvollarından biri kimi qəbul edirdi. Bu epos yalnız ədəbiyyat nümunəsi deyil, həm də türk dünyasının ortaq mədəni sərvəti kimi xüsusi əhəmiyyət daşıyırdı. "Ümumiyyətlə, Ulu öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un yenidən xalqa tanıdılmasında, sevdirilməsində, onun dünya xalqlarına təqdim olunmasında, türk xalqlarının ortaq dəyəri kimi təbliğində müstəsna xidmətlər göstərmişdir ki, bu onun türkologiyanın inkişafına verdiyi ən böyük töhfələrdən hesab oluna bilər" [3].

Milli dəyərlərimizin qorunmasında dahi siyasətçinin misilsiz xidmətləri olmuşdur ki, bunlardan biri də Azərbaycan dilinin dövlət dili olaraq təsbit olunmasıdır. Dilimizin dövlət dili statusu qazanmasında Heydər Əliyevin mühüm rolu olmuşdur. Dil həm də bizim mədəniyyətimizin göstəricisidir. Dilsiz bir cəmiyyəti təsəvvür etmək mümkün deyil. Ana dili insanlarla ünsiyyət qurmaqda, daxili aləmin zənginləşməsində, dünyagörüşün formalaşmasında mühüm rol oynayır. Heydər Əliyev Azərbaycan dilinə xüsusi qayğı və diqqət göstərmiş, Azərbaycan dili hərtərəfli beynəlxalq münasibətlərdə də inkişaf edib təkmilləşmişdir. Dil xalqın, millətin varlığının milli göstəricisidir. Bu zaman Heydər Əliyevin söylədiyi: "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir" fikirləri ötəri söylənən gəlişigözəl ifadə deyildi.

Zaman-zaman Azərbaycanın müstəqilliyi əlindən alınsa da Azərbaycan dili öz varlığını qoruyub saxlaya bilmişdir. Ölkəmizdə rus dilinin hakim olduğu dövrlərdə belə Heydər Əliyev Azərbaycan dilində danışmaqdan çəkinmirdi. Ulu Öndərin yüksək intellekti, sanballı və bacarıqlı siyasəti nəticəsində ana dilimiz öz layiq olduğu yeri tutmuşdur. Məktəblərdə, universitetlərdə Azərbaycan dili dərslərinin saatları artırılmışdır. Azərbaycan dili çox geniş və zəngin lüğət ehtiyatına malik olan bir dildir. Gün keçdikcə ana dilimiz daha da inkişaf edir. Dahi rəhbər Azərbaycan dilinin öyrənilməsi ilə yanaşı gəncləri başqa xarici dil də öyrənməyə səsləyirdi. Ümummilli Lider öz çıxışlarında ana dilinə olan münasibətini bildirirdi. Azərbaycan yazıçılarının VII qurultayındakı nitqində Heydər Əliyev uca səslə, çəkinmədən deyirdi: "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır" [5].

Görkəmli xadim Azərbaycan dili haqqında bir çox fərmanlar imzalamış, mühüm addımlar atmışdır. Dilimizin öyrənilməsi və təbliği üçün elmi-tədqiqat institutlarına, digər təhsil müəssisələrinə dəstək verildi. Dahi şəxsiyyətin bu istiqamətdə yaratdığı irs bizə göstərir ki, xalq yalnız dilini sevərək və qoruyaraq var ola bilər. Buradan anlayırıq ki, ana dilinə bağlılıq milli şüurun təməlidir. Heydər Əliyev rəhbər olduğu ilk ildən başlayaraq, Azərbaycan dilinin bütün problemləri ilə maraqlanmışdır. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən orada Azərbaycan dilinə də xüsusi diqqət və həssaslıqla yanaşılmışdır. Heydər Əliyevin dil siyasətini onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. İlham Əliyev də dilimiz və mədəniyyətimizin birgə öyrənilməsi tərəfdarıdır.

Ulu Öndər milli ideologiyanın da yaranıb formalaşması üçün mühüm addımlar atmışdır. Milli ideologiyanın əsas prinsipi və istiqaməti azərbaycançılıq idi. Onun əsas dayağı isə Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi idi. Görkəmli şəxsiyyət həmişə Azərbaycanın suverenliyi üçün mühüm və əhəmiyyətli addımlar atırdı. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası da bunun sübutudur. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycanın dövlət müstəqilliyini hüquqi cəhətdən daha da möhkəmləndirdi. Heydər Əliyev milli ideologiya ilə maraqlansa da, multikulturalizm onun diqqətindən kənarda qalmamışdır. Milli-mənəvi dəyərlər, milli ideologiya və multikulturalizm siyasəti Heydər Əliyev üçün dövlətin prioritet istiqamətlərindən biri olmuşdur. Bu siyasi fəaliyyət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilir. Onun multikulturalizm münasibətlərində verdiyi qərarlar davamlı xarakter daşıyır. Heç təsadüfi deyil ki, 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunmuşdur. Ölkəmizdə multikulturalizm artıq həyat tərzinə çevrilib. Ümummilli Lider multikulturalizmlə bərabər tolerantlıq ənənələrinin də möhkəmləndirilməsində mühüm rol oynamışdır. O, müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində birgə yaşayışını təmin etmək üçün ardıcıl siyasət həyata keçirmişdir. Heydər Əliyev çıxışlarında qeyd edirdi ki, respublikamızın bütün vətəndaşları dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqlara malikdirlər. Azərbaycan Konstitusiyası da ölkədə yaşayan bütün azsaylı xalqların və dinlərin nümayəndələrinin hüquqlarını və vicdan azadlığını təsbit etmişdir. Ulu Öndər bu prinsipləri dəstəkləyərək, milli azlıqların mədəniyyətlərinin və dillərinin qorunması üçün tədbirlər görmüşdür. Heydər Əliyevin tolerantlıq siyasəti nəticəsində Azərbaycan dünya miqyasında multikulturalizm və tolerantlıq nümunəsi kimi tanınmışdır. Onun rəhbərliyi altında formalaşan bu siyasət bu gün də uğurla davam etdirilir.

Ulu Öndərin ölkəmiz üçün misilsiz xidmətlərindən danışarkən onun Azərbaycan gəncliyinə göstərdiyi xüsusi qayğı və diqqət barədə danışmamaq olmaz. Heydər Əliyev gənclərimizin hamisi idi. Hazırda ölkəmizdə həyatın bütün sahələrində gənclər fəallıqları ilə seçilirlər. Azərbaycanın inkişafını gənclərsiz təsəvvür etmək olmaz. Bu zaman Ulu Öndərin sözünü xatırlamaq yerinə düşər: "Biz dövlətin və cəmiyyətin idarə edilməsiində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik" [9]. Milli dəyərlərin yaşadılması siyasəti müstəqil Azərbay-

can üçün ən ümdə vəzifələrdən biridir. Tarixi şəxsiyyətin bu istiqamətdəki fəaliyyəti həmişə aktual olmuşdur. Gənclərimiz də bu ruhda tərbiyə edilməli, milli dövlətçiliklə sıx bağlı olmalıdırlar. Ulu Öndərimiz bu məsələdən bəhs edərkən belə deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [6]. Gənclərin vətənpərvər ruhda böyüdülməsi ilk olaraq orta məktəbdən başlayır. Milli-mənəvi dəyərlər bizim mədəni irsimizi formalaşdırır. Gənclər isə bizim gələcəyimizi müəyyən edən əsas qüvvədir. Onların bu dəyərlərə bağlılığı, uğurlu olmaları bu dəyərlərin qorunub saxlanılmasında və inkişaf etdirilməsində çox böyük əhəmiyyət kəsb edir. Milli-mənəvi dəyərlərlə böyüdükcə öz kimliklərini daha yaxşı dərk edirlər. Xalqın, millətin mədəniyyətini mənimsəyərək olduqca güclü şəxsiyyətə çevrilirlər. Teatr, musiqi, kino, incəsənət və ədəbiyyat vasitəsilə gənclərdə milli dəyərlərə maraq oyadıla bilər. Müasir texnologiyalar və sosial şəbəkələr vasitəsilə milli dəyərləri onlara çatdıra bilərik. Beləliklə, milli kimliyi qorumağın əhəmiyyətini daha asan izah etmək mümkündür. Müasir dövrdə qloballaşmanın təsiri altında bəzi milli dəyərlər itirilmək təhlükəsi ilə üzləşir. Ancaq gənclər bu dəyərləri qorumaq, gələcək nəsillərə ötürmək məsuliyyətini dərk etməlidirlər. Bir sözlə, gənclər milli dəyərlərimizə sahib çıxmalıdırlar. Milli-mənəvi dəyərlərə sahib çıxdıqda cəmiyyət daha sağlam, mədəni və vətənpərvər şəxslər yetişdirə bilər. Dəyərlərimizə sahib çıxmaq gələcəyimizin də daha parlaq olması deməkdir. Ulu Öndərimizin fikrinə görə bu ölkənin mili-mənəvi sərvəti onun gəncləri, insanlarıdır. Heydər Əliyev yalnız respublikamızda yaşayan azərbaycanlıların qayğısına qalmırdı, həm də xaricdə yaşayan dünya azərbaycanlılarının problemləri ilə də maraqlanırdı. Hətta hər tövsiyəsində onlara doğma Vətənə xidmət etməyi, dilini, dinini xaricdə yaşatmağı, övladlarını azərbaycanlı kimi böyütməyi söyləyirdi.

Ümummilli Lider Dünya Azərbaycanlılarının I Qurultayında "Azərbaycançılığ"ın əsasını qoydu, soydaşlarımıza əbədi-tarixi nəsihətini, tövsiyə və vəsiyyətini çatdırdı: "Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan üzüağ çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi məhrumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir..." [6]. Heydər Əliyev müxtəlif ölkələrdə yaşayan azərbaycanlılara, həmin ölkələrdə istədikləri kimi yaşamalarını, ancaq öz milli mənsubiyyətlərini, milli köklərini itirməmələrini söyləyirdi. Bütün azərbaycanlıları birləşdirən də milli mədəniyyət, tarixi köklər, milli-mənəvi dəyərlər, xalqımıza məxsus adət-ənənələr və milli mənsubiyyətdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın.

Dünyada eyni zamanda assimilyasiya prosesi də var. Ancaq insanlar gərək daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyası və azərbaycançılıqdır. "Təsadüfi deyilmir ki, Heydər Əliyev ən ideal vətəndaş, bütün zamanların ən böyük azərbaycanlısı və Azərbaycançısıdır. Dahi rəhbər həm də uzaqgörənliyi və müdrikliyi ilə dünya azərbaycanlılarının həmrəylik ideyasının müəllifi, onun əbədi lideri, bütün azərbaycanlıların fəxri və ən mükəmməl şəxsiyyətidir" [8].

Azərbaycan gündən-günə inkişaf edən, müasirləşən və dünya birliyinə inteqrasiya edən bir ölkədir. Biz də öz növbəmizdə milli-mənəvi dəyərlərimizi unutmamalı, adət-ənənələrimizə, milli mentalitetimizə sadiq qalmalı, gənc nəsillərimizə bu dəyərləri aşılayıb onları milli dövlətçilik və vətənpərvərlik ruhunda yetişdirməliyik. Azərbaycan beynəlxalq konfranslara, mədəni tədbirlərə, idman yarışlarına və s. ev sahibliyi edərək, çox böyük ilklərə və uğurlara öz adını yazdırır. Beləliklə, beynəlxalq regional layihələrin iştirakçısı olan Azərbaycan hər bir vətəndaşının fəxrinə çevrilib.

Biz də böyük rəhbərdən bizə miras qalan milli ideologiyamıza, Azərbaycançılıq ideologiyasına sahib çıxmalı, üstün tutmalı və müdafiə etməliyik. Bu istiqamətdə bizim yol göstəricimiz isə Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərin təbliği, qorunması, yaşadılması istiqamətində söylədiyi sözlər, həmçinin ümummilli liderin özünün həyat tərzi olmalıdır. Heydər Əliyev öz həyatı, şəxsiyyəti ilə hamıya ən yaxşı nümunə, ən yaxşı örnəkdir. Onun yolunun layiqli davamçısı

olan möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız iqtisadi və siyasi baxımdan deyil, həm də mədəni, mənəvi sahədə mühüm nailiyyətlər əldə etmişdir.

Cənab Prezident təkcə Heydər Əliyevin yolunu davam etdirməklə kifayətlənmir, bu yolu zənginləşdirərək yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirir. İlham Əliyev ardıcıl və güclü siyasət yürüdərək bu yolun müasir şəraitə uyğun inkişaf etdiricisidir. Bu yol isə Ulu öndər Heydər Əliyevin yoludur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Cavadova Z. H Ə Əliyevin Nizami Gəncəvi irsinin öyrənilməsi və beynəlxalq aləmdə təbliğinin tarixi xidmətləri / Ulu Öndər Heydər Əliyev və liderlik fenomeni. Bakı: "ADPU-nun nəşriyyatı", 2023, 247 s.
2. Dadaşova S. Heydər Əliyev və ədəbi irsimiz. Bakı: "Zərdabi Nəşr MMC", 2023, 552 s.
3. Əliyeva N. Heydər Əliyev və Azərbaycanda Türkologiyanın inkişafı / Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2023, 176 s.
4. Əliyev R. Dini mənəvi dəyərlərə Heydər Əliyev münasibəti. "525-ci qəzet", 2013,-8 mart,-s.22.
5. Əlişanoğlu T. Heydər Əliyev və ədəbi mühit...Ümummilli lider. "Ədəbiyyat qəzeti", 2019,-13 iyul,-s.16-19.
6. Hacıyev İ. Heydər Əliyev siyasəti: tarix və müasirlik. Təkmilləşmiş, əlavələr edilmiş ikinci nəşr. Bakı: "Elm", 2023, 336 s.
7. Hüseynov S. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. "Xalq qəzeti", 2009,-9 dekabr,-s.4.
8. Qasımov R. Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsi: milli ideologiya, ana dili və ədəbiyyat siyasəti / Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2023, 176 s.
9. Məmmədova N. Ümummilli Lider Heydər Əliyevin fenomen şəxsiyyəti və fəaliyyəti / Ulu Öndər Heydər Əliyev və liderlik fenomeni. Bakı: "ADPU-nun nəşriyyatı", 2023, 247 s.

MİLLİ VƏ MƏNƏVİ KİMLİYİN FORMALAŞAMASINDA HEYDƏR ƏLİYEV FİKİRLƏRİNİN ROLU

Aygün Namiq qızı Xudiyeva
Naxçıvan Dövlət Universiteti
kurdovaaygun@gmail.com

Giriş

Hər bir xalqın həyatında milli və mənəvi dəyərlər böyük əhəmiyyət kəsb edir. Çünki bu dəyərlər əsrlər boyu insanların fəaliyyəti nəticəsində formalaşmış və bu günə qədər gəlib çatmışdır. Onlar insanların həyat tərzini, dünyagörüşünü, düşüncələrini, gündəlik həyatını, xarakterik xüsusiyyətlərini və s. əks etdirir. Bu xüsusiyyətlər aid olduqları xalqın mədəniyyətinin inkişafında və milli şüurun formalaşmasında da mühüm rol oynayır. Bir sıra tanınmış şəxsiyyətlərimiz, filosof və yazarlarımız da xalqımızın milli və mənəvi dəyərlərinə dərin hörmət və ehtiramla yanaşmış, öz fikir və fəaliyyətləri ilə birbaşa xalqın milli sərvətinə çevrilmişlər. Bu deyilənlərin aydın nümunəsi kimi, Ulu öndər Heydər Əliyevin milli və mənəvi dəyərlərimizi qoruma, inkişaf etdirmə və daha da zənginləşdirmə istiqamətindəki fəaliyyətlərinə diqqət yetirmək önəmlidir.

Əsas hissə

Heydər Əliyev rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın milli və mənəvi dəyərlərinə həmişə böyük əhəmiyyət vermiş, onlara sonsuz bir sevgi bəsləmiş və bu dəyərləri hər zaman başının üstündə dalğalandırmışdır. Onun fəaliyyəti boyunca bu dəyərlərin qorunması, milli mədəniyyətin inkişafı və ənənələrimizin zənginləşdirilməsi istiqamətində böyük səylər göstərilmişdir. "Hər millətin özünəməxsus ənənələri, milli, mənəvi və dini dəyərləri vardır. Biz milli-mənəvi dəyərlərimizlə,

dini dəyərlərimizlə, ənənələrimizlə fəxr edirik" [3] – fikrini Heydər Əliyev öz mənəvi və fiziki dünyasının əsas prinsipi olaraq qəbul etmişdir.

Bu dahi şəxsiyyət daim çıxış və hesabatlarında gənclərin milli və mənəvi dəyərlərə aşiq bir ruhda yetişməsinin əhəmiyyətini vurğulayır, tarixini, dilini, milli-mənəvi dəyərlərini tanımayan gənclərin əsl vətənpərvər ola bilməyəcəyini tez-tez qeyd edirdi. "...Milli və mənəvi dəyərlərimizi, adət və ənənələrimizi hərtərəfli qorumalı və yaşatmalı, əsrlər boyunca böyük sınaqlardan keçmiş gənc nəsli bu mənəvi dəyərlər ruhunda yetişdirməliyik" [1]. Milli liderimiz Heydər Əliyev xalqa tarixini, ana dilini, ədəbiyyatını, mədəniyyət və incəsənətini, ənənələrini sevdirməyi, bu dəyərləri qorumağı və daha da zənginləşdirməyi tövsiyə edirdi. Bu istiqamətdə daim fəal olmuş və atdığı mühüm addımlarla bu müqəddəs işə töhfə vermişdir.

"Milli və mənəvi dəyərləri olmayan bir millət, həqiqi millət, həqiqi xalq ola bilməz" [5] – fikrini xüsusilə vurğulayan ulu öndərimiz, ucadan bəyan etdiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" ifadəsi ilə böyük bir həqiqəti ortaya qoymuş və bu fikir vasitəsilə milli və mənəvi dəyərləri zəngin bir millət olduğumuzu fəxrlə nümayiş etdirmişdir.

Heydər Əliyevin baxış bucağına görə, sanki biz Allahdan cənnət-məkan istədik və bu istəyimizin qarşılığında, yeri və göyü yaradan bizə – bu böyük millətə "Azərbaycan" adlı bir torpaq, belə gözəl bir coğrafiya bəxş etdi.

Dilin əhəmiyyətinə böyük önəm verən Heydər Əliyev, 1969-cu ildə hakimiyyətə gəlməsindən qısa müddət sonra Bakı Dövlət Universitetinin 50 illik yubileyində SSRİ rəhbərliyinin iradəsinə qarşı çıxaraq öz ana dili – Azərbaycan dilində çıxış etmişdi. Bu mühüm tədbirdə etdiyi çıxışla həm SSRİ rəhbərliyinə, həm də xalqa vacib mesajlar çatdırmışdı. Dil bir millətin mövcudluğunun, azadlıq və müstəqillik yolundakı əsas dayağıdır. Ulu Öndər bu həqiqətləri dərindən anlayaraq, ana dilimizin inkişafı və tətbiq imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımlar atmışdır. 1978-ci ildə qəbul edilən yeni Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. İkinci dəfə hakimiyyətə qayıtdıqda da bu istiqamətdə sadiqliyini göstərmiş, Azərbaycan dili ilə bağlı çoxsaylı mühüm fərmanlara imza atmışdır.

Böyük Liderin yüksək natiqlik qabiliyyəti və gözəl nitqi, Azərbaycan dilinə olan sonsuz sevgi-sinin bariz ifadəsi idi. Ona görə, dil bir millətin milli sərvəti və varlığını müəyyən edən ən önəmli amillərdən biridir.

Böyük öndərin xalq ədəbiyyatına və klassik irsə münasibəti onun mənəvi bağlılığının və milli-mənəvi dəyərlərə olan dərin sevgisinin bariz nümunəsidir. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi, Məhəmməd Füzulinin 500 illiyi və Səməd Vurğunun 90 illiyi münasibətilə keçirilən tədbirlər xalqın milli-mənəvi dəyərlərə olan yüksək ehtiramının ifadəsidir.

Milli birlik və dövlət quruculuğunun əsasını təşkil edən milli-mənəvi dəyərlər, ədəbiyyat da daxil olmaqla, müasir və güclü Azərbaycanın inkişaf prinsiplərinin formalaşmasına zəmin yaratmışdır. Eyni zamanda bu prinsiplər milli lider Heydər Əliyevin idarəçilik fəlsəfəsinin öncül istiqamətlərindən biri olmuşdur. Çünki bu müdrik insan bilirdi ki, ölkənin inkişafında mənəviyyatın rolu əvəzsizdir. Təbii ki, mənəviyyatın formalaşmasında bədii nümunələrin rolu danılmazdır.

Milli və mənəvi dəyərlərə böyük sevgi ilə yanaşan, onları qoruyan və uca tutan xalqın dili də yüksək dəyərlərlə zəngin olur. Bu isə xalqın mənəvi qürurunu artırırdı.

Tariximizin hər dönəmində xalqımız milli və mənəvi dəyərlərə bağlılığını nümayiş etdirmiş, bu dəyərlər uğrunda canını belə verməyə hazır olduğunu sübut etmişdir. Heydər Əliyev 14 iyul 1969-cu ildən etibarən siyasi hakimiyyətə gəldiyi gündən bütün ideoloji yasaqlara qarşı çıxaraq, xalqımızın milli oyanışı və milli şüurunun formalaşması uğrunda mübarizə aparmışdır. O, xalqın mənəvi dirçəlişinə və hərtərəfli inkişafına təkan verən addımlar atmışdır.

Bu mənada Heydər Əliyev fəlsəfi anlamda fenomenal bir şəxsiyyət kimi xalqın qəlbində taxt qurmuşdur. Onun fəaliyyəti boyunca göstərdiyi sadiqlik, xalqımızın milli qürur hissini gücləndirən, zəngin tarixi və qəhrəmanlıq dolu keçmişini araşdıran, köklərimizə qayıdışı təşviq edən ədəbi və mədəni təşəbbüsləri ilə yadda qalmışdır.

Milli Liderimiz milli və mənəvi dəyərləri gələcək nəsillərə ötürmək üçün onların yaşadılmasının zəruriliyini daim önə çəkmişdir. Bu dəyərlərin qorunmasını "millət olmaq üçün əsas şərt" kimi qiymətləndirirdi.

Sovet dönəmində qadağan olunmuş bayramlar və dini mərasimlərin xalqımıza qaytarılması, o cümlədən Novruz bayramının dövlət səviyyəsində bərpa olunması, bu istiqamətdə Heydər Əliyevin fəaliyyətinin əlamətdar nəticələrindəndir. Xalqla birgə bu bayramlarda iştirak etməsi, onun mədəniyyət və mənəviyyata necə böyük önəm verdiyini sübut edirdi.

Nəticə

Ulu öndərimiz Heydər Əliyev "Milli və mənəvi dəyərlərimizlə, ənənələrimizlə fəxr edirik" [2] deyərək bu dəyərlərə daim önəm vermiş və onların qorunmasının vacibliyini dəfələrlə vurğulamışdır. Bu baxımdan onun parlaq ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Qloballaşan dünyada – milli və mənəvi dəyərlərin təhlükə altında olduğu bir dövrdə, Heydər Əliyevin fikirlərindən daha geniş və əhatəli şəkildə bəhrələnməyə ehtiyac var. Onun 13 avqust 2001-ci il tarixli bəyanatı – "Milli və mənəvi dəyərlərin pozulması xalqımıza bağışlanmaz xəyanətdir" [4] – bu məsələyə onun prinsipial və qətiyyətli münasibətini açıq şəkildə ortaya qoyur. Bu fikir həm də onun müdrik və uzaqgörən yanaşmasının təzahürüdür.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ələkbərov, A. (2017, 12 dekabr). Heydər Əliyev: Milli-mənəvi dəyərlərimiz və iqtisadiyyatımız. Xalq qəzeti.
2. Hudiyev, N. (2016, 23 aprel). Heydər Əliyev və Azərbaycanın multikulturalizm modeli. Yeni Azərbaycan qəzeti
3. Hüseynov, S. (2009, 9 dekabr). Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Xalq qəzeti
4. Mustafa Kamal. (2021, 13 avqust). Milli və mənəvi dəyərlərimizə, ənənələrimizə sahib çıxmalıyıq. Respublika qəzeti.
5. Səfərli, A. (2019, 9 oktyabr). Müasir qloballaşma şəraitində milli və mənəvi dəyərlərimiz. 525-ci qəzet.

HEYDƏR ƏLİYEV YOLU

Kəmalə Samir qızı Kərimova
Mingəçevir Dövlət Universiteti
kamala.karimova@mdu.edu.az

Biz insanlar nə doğulduğumuz, nə də öldüyümüz günləri özümüz müəyyən edə bilmirik. Lakin doğum və ölüm tariximiz arasındaki ömür yolunu necə keçəcəyimizi özümüz müəyyənləşdiririk. Bu yolda hər şey özümüzdən asılıdır. Yəni bizim ağlımızdan, biliyimizdən, istedadımızdan, zəhmətimizdən, xarakterimizdən asılıdır. Hər bir insanın özünəməxsus taleyi var. Taleyimiz qarşımıza nələr çıxaracaq bilmirik. Bu həyatı necə yaşamalı? Bədbinlik və uğursuzluq içində bomboz, miyanə ömür sürməkmi yoxsa mübarizə dolu, şərəfli qalib bir ömür yaşamaqmı? Hər bir halda həyat bir mübarizədir. Bu mübarizədə udmaq da var, uduzmaq da. Bir də Ulu Tanrının yer üzünə xüsusi missiya üçün seçib göndərdiyi insanlar var. Hansı ki, bu insanlar bəşəriyyətin, xalqların həyatında xüsusi rol oynayır. Onlar əməlləri ilə milyonları xilas edir, cəmiyyətə xoşbəxtlik və rifah bəxş edirlər.

XX əsrdə Tanrı Azərbaycan xalqı üçün xüsusi missiya ilə bir dahi seçib yer üzünə göndərmişdi. Bu dahi şəxs müasir Azərbaycan dövlətinin banisi və qurucusu ulu öndər Heydər Əliyevdir. Dahi şəxsiyyət Heydər Əliyev bəşər övladının min ildə bir yaratdığı qüdrətli bir öndərdir.

Heydər Əliyev regionda tarixin gedişini dəyişə bilmiş böyük dövlət adamıdır. Ulu Öndərin bütün həyatı xalqı, vətəni uğunda mübarizələrlə keçmişdir. Və hər zaman qalib gəlmişdir. Çünki onun mübarizəsi haqq işi uğrunda, ədalət uğrunda, canından əziz sevdiyi Vətəninin işıqlı sabahı və xalqının xoşbəxtliyi yolunda olmuşdur. [1]

Heydər Əliyev 1969-cu ilin 14 iyul tarixində Sovet Azərbaycanına rəhbərlik üçün irəli çəkilmişdir. O zamanlar Azərbaycan sosial-iqtisadi göstəricilərinə görə SSRİ-nin 15 respublikası arasında axırdan ikinci yerdə idi. Ölkədə vəziyyət çox gərgin idi. Rüşvət, ədalətsizlik, korrupsiya, inti-

zamsızlıq baş alıb gedirdi. Əhali, xüsusi ilə kənd adamları yoxsulluq daşının altında əzilirdi. Elm və mədəniyyət sahəsində tənəzzül dövrü başlamışdı. Ulu Öndər o dövrün tələblərinə baxmayaraq, böyük inamla cəsarət nümayiş etdirmiş, "bu cür yaşamaq və işləmək olmaz!" sözlərini nəinki rəhbərlik etdiyi respublikaya , bütün Sovetlərə bəyan etmişdi. Bu dahi şəxsiyyət ölkə həyatına yeni ideyalar və çağrışlarla dinamizm gətirdi. Ulu Öndər Azərbaycan xalqının mili-mənəvi və sosial dirçəlişi, Azərbaycanın iqtisadi qüdrətinin artması naminə qısa müddət ərzində respublikadakı bütün sağlam qüvvələri səfərbər etdi. "Qoy ədalət zəfər çalsın!" şüarı Heydər Əliyevin dünyaya baxışının və mübarizəsinin kredosu idi!

1969–1982-ci illər Sovet Azərbaycanının tarixinin ən parlaq, ən xoşbəxt və ən şərəfli səhifələrindəndir. Çünki Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər idi. Bu dahi şəxsiyyətdən öncə Azərbaycan İttifaq dövlətinin ən geridə qalmış xammal bazası olan respublikası idi. Lakin Heydər Əliyevin öz xalqı qarşısında saysız xidmətləri sayəsində yüz minlərlə insanın çalışdığı, yüksək əməkhaqqı aldığı zavod və fabriklərə malik olan ölkəyə çevrildi. Həmçinin, ölkədə heyvandarlıq inkişaf etmiş, məhsuldar pambıq, üzüm və taxıl tarlaları salınmış, zəngin qüdrətli və emal sənayesi kompleksləri tikilmişdir. Heydər Əliyevin həmin dönəmdə əvəzsiz xidmətlərini saymaqla bitməz. Onlardan biri də müasir milli elitanın yaranması və formalaşmasına böyük qayğı göstərməsi idi. [3]

O illər elə illər idi ki, Azərbaycan təhsili, mədəniyyəti və incəsənəti yenidən dirçəlməyə başlamış, Müslüm Maqomayev, Rəşid Behbudov, Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov, Polad Bülbüloğlu, Zeynəb Xanlarova, Fərhad Bədəlbəyli, Vaqif Mustafazadə, Niyazi və s. incəsənət xadimlərinin musiqisi və bəstələri bütün dünyaya səs salmışdı. Həmçinin Heydər Əliyevin böyük köməyi sayəsində onlarca ədəbiyyat və mədəniyyət xadimlərimiz məhz SSRİ-nin ən ali mükafatına – Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldü. Ulu Öndərin bütün bunları etməkdə məqsədi doğma Azərbaycanı bütün dünyaya tanıtmaq, sevdirmək idi. O əmin idi ki, bütün bunlar Azərbaycana hörmət və şöhrət gətirəcək.

Əslən Bakıdan olan, uzun illər SSRİ Dövlət Plan Komitəsinin sədri vəzifəsində işləmiş Nikolay Baybakov deyirdi: "Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci bir adam tanımıram". Ulu Öndər çox zəngin mənəviyyata sahib bir insan idi. Onun Vətəninə və xalqına hədsiz sevgisi və bağlılığı bunu sübut edirdi. Heydər Əliyev yolu hər kəsin keçməli, öyrənməli olduğu böyük bir məktəbdir. Bu məktəb onun həyat və mübarizə yolunun təcəssümüdür. Onun həyatının, fəaliyyətinin hər günü bir dərslikdir. Belə bir söz var ki, "siyasətdə səmimiyyət olmur". Amma bu dahi şəxsiyyət etdikləri ilə bunun yanlış bir fikir olduğunu sübut etdi. Belə ki, bir müsahibədə jurnalistin siyasətdə ən çox önəm verdiyiniz şey nədir? – sualına "səmimiyyət" cavabını vermişdi. [2]

Ulu Öndər hər şeyi ilə səmimi insan idi. O nəinki təbəssümündə, sevgisində, qayğısında, tərifində hətta qəzəbində də, tənqidində də səmimi idi. Ümummilli Lider hər zaman birinci növbədə dürüstlüyə, daha sonra intizama, çalışqanlığa böyük önəm verərdi. Heydər Əliyev böyük məqsədlərin, böyük amalların, böyük düşüncələrin adamı idi. O həsədin, qısqanclığın, qisasçılığın nə olduğunu bilməzdi. "Mən mənə qarşı olan heç bir yaxşılığı, diqqəti, hörməti heç zaman unutmadım! Unutmaram!. Əksinə mənə qarşı olan dönüklüyü, xüsusilə, qayğı göstərdiyim, irəli çəkdiyim adamların namərdliyini bağışladım! Heç kimə qarşı nə kinim, nə nifrətim yoxdur! zaman onların qiymətini vermişdir!" bu sözləri Heydər Əliyev çıxışlarından birində söyləmişdi. Bu yanaşma Ulu Öndərin alicənablığını, yüksək mənəvi keyfiyyətlərini bir daha göz önünə qoyur, onun birləşdiricilik missiyasını və mərhəmətinin gücünü hiss etdirirdi.

Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətini araşdırarkən bir sıra politoloqların, araşdırmaçıların onun fəaliyyət dövrünü müxtəlif mərhələlərə böldüklərinin şahidi oluruq. Təbii ki,. bu bölgülərin hamısı şərtidir. Ulu Öndərin həyatı və mübarizəsi tək bir parçadır, bütövdür və tamdır. Bu şərəfli yolun hər addımı Azərbaycana həsr edilmiş, Azərbaycan xalqının rifahı üçün əzimlə çalışılmışdır. [3]

1993-cü il 15 iyun. Bu tarix Azərbaycan üçün müstəqilliyi əbədiləşdirən uğurlu yolun başlanğıcı oldu. Azərbaycan xalqı müstəqiliyinin bərpasının ilk illərində çox ağır faciələrlə üzləşmişdi. Bu çıxılmaz vəziyyətdən xilas olmağın yeganə yolu Ümummilli liderin hakimiyyətə qayıdışı ola

bilərdi ancaq. Çünki o illərdə Azərbaycana rəhbərlik edənlərin şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları, idarəçilik qabiliyyətlərinin olmaması, hərtərəfli savadsızlıqları ucbatından müstəqilliyimizi itirmək, bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsi yaşanırdı. Azərbaycanın keçmişdən bugünə bütün tarixini gözdən keçirəndə Ümummilli lider Heydər Əliyevin xidmətlərinin üstünlüyünü, Azərbaycan üçün hazırlanmış inkişaf strategiyasının əsl mahiyyəti və məqsədini açıq aydın görmək mümkündür. Dahi siyasətçi güclü idarəçilik təcrübəsinə inanaraq Azərbaycanı yenidən qurdu. Çox zaman keçmədən Azərbaycan qısa müddətdə sabitlik və böyük investisiyalar məkanına çevrildi. "Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir" Heydər Əliyev bu fikirləri əbəs yerə dilə gətirməmişdi. O Azərbaycanın sabahına hər kəsdən çox inanırdı. Ulu Öndər düşünürdü ki, Azərbaycanın müstəqillik tarixinin tarixi paralellər fonunda bugünkü və gələcək nəslə çatdırılması qarşıya qoyulmuş mühüm vəzifələrdən biridir. [4]

Ümummilli Liderin 2003-cü ildə xalqa tarixi müraciəti onun xidmətlərinin ən mühüm tərkib hissəsi idi. 2003-cü ildən artıq yeni bir yol, yeni hədəflər vardı qarşıda. Məhz Ulu öndər Heydər Əliyev bunu nəzərə alaraq, 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına böyük qürur hissi ilə müraciət etmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

2003-cü ildən yeni bir dövr, yeni bir yol başladı. Bu yol Heydər Əliyev yolunun davamı, Azərbaycanın bugünkü həqiqətləridir.

Həqiqət odur ki, Azərbaycan 30 il işğal altında qalan torpaqlarını azad edərək, bu gün tarixi Zəfərə imza atıb. Ərazi bütövlüyünü bərpa edib tarixi ədaləti öz sahibinə qaytardı. 15 oktyabr 2023-cü il tarixdə Cənab İlham Əliyev ilk dəfə Prezident seçilməsinin 20-ci ildönümündə Xocalıda, Xankəndidə, Xocavənddə, Ağdərədə Azərbaycan Bayrağını yenidən ucaltdı. Cənab Prezident bundan tam beş il öncə 44 gün sürən zəfər savaşının qalibi kimi tarix yazdı, son 20 ildə verdiyi vədlərin, qarşıya qoyduğu vəzifələrin hamısının uğurla icra etdi. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz dünya hərb tarixinə yeni səhifə yazdı. Bununla da beynəlxalq hüquq və ədalət deyilən məfhumların varlığını sübut etmiş olduq. Təbii ki, bu heç də asan olmadı. Bunun üçün səylər, böyük qətiyyət, prinsipiallıq göstərmək gərək idi. 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini bildirdi. Eyni xoşbəxtlik hissini Azərbaycan Bayrağını Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə ucaldanda, Xankəndi şəhərində keçirilən hərbi paradda iştirak edəndə yaşadı. [2]

Bugün qazanılan hər bir uğur, zəfər Heydər Əliyev siyasətinin bəhrəsidir. Dövlət başçısı İlham Əliyev 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçildikdən sonra andiçmə mərasimində Ümummilli lider Heydər Əliyevə müraciətində söylədiyi "Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik" vədini reallıqda təsdiqlədi və bu gün tarixi Zəfərimizin yaratdığı gerçəkliklər əsasında daha möhtəşəm uğurlara doğru inamla addımlayır. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə əbədi yaşayacaqdır! [4]

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. https://www.yeniazerbaycan.az/xeberlenti_e93968_az.html
2. https://www.xalqqazeti.az/az/siyaset/178142-heyder-eliyev-yolu-tarixi-missiyanin

3. https://sesqazeti.az/news/politics/1010785.html
4. https://ikisahil.az/post/482961-ulu-onder-heyder-eliyev-siyasetinin-ugurlu-davami

MÜASİR YADDAŞ QURĞULARININ İNKİŞAF TENDENSİYASI

[1,4]**Nazim Nəsrullah oğlu Camalov,** [2,4]**Əfladin Sərdar oğlu Sadıxov,**
[3,4]**Elman İsrafil oğlu İmanov**
[1]JNN-56@mail.ru
[2]efladin.sadixov@gmail.com
[3]elmanimanov350 @gmail.com
[4]Heydər Əliyev adına Hərbi İnstitut

Giriş

İnsan informasiya dünyasında yaşayır. O, ətraf aləmi öz hiss üzvləri vasitəsilə informasiya alaraq dərk edir. Hiss üzvləri ilə aldığı informasiyanı insan yaddaşında saxlayır. İnsan təfəkkürü beyində gedən informasiya emalı prosesi kimi təsəvvür edilir. Bütün informasiyaları insan uzun müddəd yadda saxlamaq imkanına malik deyil. Bu məqsəd ilə müasir informasiya kommunikasiya texnologiyalarından (İKT) geniş istifadə olunur.

Müasir elektronikada tutumu (həcmi), güc tələbatı, gərginlik səviyyəsi, daxili strukturu, interfeysin növü, sürəti, ölçüləri və digər xüsusiyyətləri ilə fərqlənən bir neçə növ yaddaş qurğuları istifadə olunur. Bu qurğuların minlərlə çeşidi müxtəlif parametrlərlə istehsal olunur, lakin bəlkə də ən vacib fərqlərdən biri yaddaşın enerji təminatı ilə əlaqəli olamasıdır. Bəzi növlər yazılmış məlumatları enerji kəsildikdə belə saxlayır, digərləri isə bunu etmir. Həmçinin başqa bir vacib fərq də var: bəzi növlər hər hansı bir ünvana, yəni istənilən ünvana müraciət etməyə imkan verir, digər növlər isə texnoloji və ya digər xüsusiyyətlərə görə məlumat ünvanlamasında məhdudiyyətlərə malikdir. Bir çap lövhəsinə iki, üç və ya daha çox müxtəlif yaddaş növü yerləşdirilir və hər biri özünəməxsus yazma və oxuma diaqramlarını tələb edir. Əgər bu diaqramlar aparat üsulları ilə yaradılırsa, lövhənin ölçüsü və inteqral mikrosxemlərin (İMS) sayı artır, cihazın etibarlılığı azalır. Əgər ünvanlar və idarəetmə siqnalları proqramla qurulursa, proqram hissəsi ifrat dərəcədə böyüyür.

Bütün növ yaddaşların üstünlüklərinə malik olan universal yaddaş yaratmaq cəhdləri – enerji müstəqilliyi, sürətli müraciət və istənilən ünvana müraciət etmə – davamlı olaraq aparılıb[1].

Bu baxımdan kompüterin əsas vacib hissələrindən olan yaddaş qurğuların müasirləşdirməsi son dərəcə aktuallaşmışdır.

Əsas hissə

Böyük həcmli məlumatları uzunmüddət ərzində yadda saxlamaq üçün xüsusi inteqral mikrosxemlərdə yaradılan yaddaş qurğularından (YQ) istifadə edilir.

YQ yaddaşın həcmi, dinamiki xarakteristikası, müraciət müddəti, ünvanlanma dövrünün müddəti, etibarlılığı və s. kimi parametrlərlə xarakterizə olunur. YQ-nin əsas parametri onun böyük həcmdə məlumatın yadda saxlama qabiliyyətidir. Lakin yaddaşın həcminin artırılması ilə yaddaş qurğusunun ölçüləri də artır. Bu isə müasir rəqəmsal qurğularda, xüsusən pilotsuz uçuş aparatlarında məqsədəuyğun deyil.

Fiziki olaraq, iki tip yaddaş movcuddur: statik və dinamik yaddaş (SRAM, DRAM).

Statik yaddaş tranzistorlardan istifadə olunmaqla hazırlanır və nə qədər ki, elektrik enerjisi kəsilməyib, o, öz vəziyyətini saxlayır. Buna misal olaraq, triggerlər üzərində qurulmuş yaddaşı göstərmək olar. Bu tip yaddaşın səciyyəvi xüsusiyyəti onun yüksək oxunma-yazılma sürətinə malik olmasıdır.

Dinamik yaddaşın isə iş prinsipi kondensatorun dolması və müəyyən zaman müddətində elektrik yükünü özündə saxlamasına əsaslanır. Ardıcıl düzülmüş kiçik tutumlu kondensatorlar dinamik yaddaşın prototipini təşkil edir. Təbii ki, kondensatorların tutumu çox kiçik olduğundan elektrik yükünün saxlanması müddəti də çox kiçik olacaq.

Yaddaşın fiziki strukturu müəyyən sayda sətir və sütunlardan ibarətdir. Hər belə "massiv" Səhifə, səhifələr toplusu isə Bank adlanır. Yaddaşa müraciət zamanı kontroller bankın, həmin bankda səhifənin, sətir və sütunun nömrəsini göstərməlidir. Bütün bu sorğulara və xüsusilə oxuma/yazmadan sonra bankın açılıb bağlanmasına müəyyən zaman sərf olunur.

Yaddaşın həcmi YQ tərəfindən yadda saxlanıla bilən məlumatın maksimum həcmi ilə müəyyən olunur. İnformasiya miqdarının ölçü vahidi bir bit hesab olunur. Bir bit informasiya ikilik kodlanmış sözün bir mərtəbəsinə və ya bir məntiq sabitinə (ikilik kodun bir simvoluna) uyğun gəlir. Adətən, bir bitə bərabər olan informasiya bir elementar yaddaş elementində - triggerdə yadda saxlanılır. Triggerlər tranzistorlardan təşkil olunmuşdur.

Müasir yaddaş qurğularında enerjidən asılı olmayan sahə tranzistorlarından geniş istifadə olunur. Bu növ tranzistorlar mənbədən (İ - istok), rəzədən (Z - zatvor) və mənsəbdən (S - stok) ibarətdir.

"Üzən" rəzənin yükünün dəyişməsi dielektrikdə yüksək elektrik sahəsinin gücünə görə ən nazik (bir neçə nm qaydasında) dielektrik təbəqələrin elektron tunellənməsi və geri dönən selvarı deşilməsi nəticəsində baş verir [2].

Bütün elektrik dövrələrindən təcrid olunmuş üzən rəzənin yükü saxlanıldığından (dielektrik təbəqələrdə çox güclü olmayan elektrik sahələrində), bu cür strukturlar üzərində qurulmuş mikrosxemlər qida gərginliyi söndürüldükdə məlumatları on illərlə saxlayır.

İkiqatlı dielektrikə malik tranzistorda (metal-oksid-nitrid - MON) dielektrik ikiqatlıdır. Əgər rəzəyə (+28-30)V verilərsə, onda elektronlar yarımkeçirici əsasdan qalın qata $S_{i3}Ni_4$ keçirlər (tunellənirlər), orada tərpənməz mənfi ion oblastı yaradırlar və gərginlik kəsildikdə belə uzun müddət, hətta bir neçə il qala bilirlər (şək. 1). Əgər girişə mənfi gərginlik versək, yük udulur, hüdud gərginliyi azalır, yük yazılır.



Şək. 1. İkiqat dielektriklə izolə olunmuş "üzən" rəzəli sahə tranzistorun struktur sxemi

Fleş kartlar və kompüter yaddaş kartları müxtəlif elektron cihazlarda, o cümlədən rəqəmsal kameralar, smartfonlar, planşetlər, oyun konsolları və USB disklər, eləcə də qabaqcıl SSD-lərdə istifadə olunur.

Perspektivli yaddaş qurğuları

Son illərdə tədqiqatlar müxtəlif istiqamət üzrə aparılsa da, ən azı iki istiqamətdə real nəticələr görünüb. Silisium yarımkeçirici texnologiyaları demək olar ki, öz resurslarını tükətmişdir və buna görə də yeni texniki həllərin dövrü qaçılmaz şəkildə yaxınlaşır. 2005-ci ilin dekabr ayında Beynəlxalq Yarımkeçiricilər Texnologiyası Yolu Xəritəsi (International Technology Roadmap for Semiconductors) adlı rəsmi bəyanat dərc edilmişdir. Bəyanatda yarımkeçiricilikdə post-silisium dövrünə keçidin başlandığı qeyd edilir.

Yaponiyadan, Avropadan, Koreyadan, ABŞ-dan və Tayvandan olan istehsalçılar yaxın zamanda yeni texnologiyaya keçid üçün birgə plan təqdim etməyi planlaşdırırlar. Yəqin ki, unikal yaddaş, elektron cihazların ən vacib komponenti olaraq, əgər bir gün yaranarsa, bu, məhz yeni, silisium texnologiyalarından deyil, yeni texnologiyalardan olacaq.

1.1. Faza vəziyyətinin dəyişməsi ilə işləyən perspektivli yaddaşı qurğuları. Faza vəziyyətini dəyişə bilən maddələr üzərində yaddaş texnologiyasının kütləvi istehsalını inkişaf etdirmək üçün selen, kükürd və ya tellur əsaslı halkogenidlər üzərində cəhdlər edilirdi. Bu maddələr (halko-

genidlər) istiliklə strukturlarını dəyişərək kristallik fazadan amorf vəziyyətə keçir və soyuduqdan sonra da vəziyyətini dəyişmir. Lakin onu yenidən qızdırdıqda və qısa müddət ərzində (təxminən 50 ns) ərimə vəziyyətində saxlamadıqda, yenidən ilkin, kristal vəziyyətinə qayıdır. Optik yaddaş qurğuları (CD-ROM) məhz belə materiallar üzərində yaradılır[3].

Halkogenik maddələrin faza vəziyyətinin dəyişməsi yalnız optik deyil, eyni zamanda elektrik xüsusiyyətlərini də dəyişdirir. Kristal keçidinin keçiriciliyi amorf vəziyyətlə müqayisədə onlarla, hətta yüzlərlə dəfə fərqlidir. Bu xüsusiyyətdən yeni yaddaş qurğularında istifadə olunur. İlk olaraq, Ovonyx şirkətinin mütəxəssisləri bu texnologiyanı inkişaf etdirməyə başladılar. Şübhəsiz, belə bir nəhəng olan Intel də bütün perspektivli texnologiyaların inkişafına qatılır, lakin o, yalnız ümumiyyətlə, yeni texnologiyaların inkişafında iştirak edir. Lakin uğur hamıya qismət olmamışdır. İllər keçdi, amma yalnız BAE Systems (ABŞ Silahlı Qüvvələri və NASA üçün böyük elektron sistem tədarükçüsü olan şirkət) C-RAM (Chalcogenide Random Access Memory) texnologiyasının kütləvi istehsalına başladığını bildirdi. Digər şirkətlər isə bu yaddaşları PCM (Phase Change Memory) və ya OUM (Ovonyx Unified Memory) adlandırırlar.

Karbon nanoborucuqlarda perspektivli yaddaş qurğuları

Ən son nailiyyətlərdən istifadə edən, nanoçevirici yaddaşıdır və bu, karbon nanoborucuq üzərində reallaşdırılır. (Nanomaddə prefiksi, əsas struktur elementlərinin ölçüləri 100 nm-dən (<0,1 mikron) kiçik olan və iş prinsiplərində kvant fizikasının qanunlarının təzahür etdiyi texnologiyaların tətbiqini nəzərdə tutur.) Burada yeni, əvvəllər məlum olmayan materiallar və əlçatan olmayan həllərdən istifadə olunmuşdur [4].

Karbonun qrafit və almaz kimi struktur formaları bizə məlumdur. Karbon nanoborucuq, karbon atomlarından ibarət olan və nanometrlərlə ölçülən diametrə, mikronlarla ölçülən uzunluğa malik bir boru formasını təşkil edən yeni bir karbon formasını təmsil edir. Bu şəbəkələr, qrafitin təbəqəli molekullarını xatırladan strukturlar ilə formalaşır. İlk dəfə NEC Yapon şirkəti tərəfindən fulleren (fulleren-60 karbon atomu ilə meydana gəlmiş bir molekuldur) istehsalı zamanı kəşf olunmuşdur. Bu strukturlar, qara toz kimi görünsə də, ölçüləri və qeyri-adi formaları ilə deyil, əsasən özlərinə məxsus keyfiyyətləri ilə maraqlıdır. Nanoborucuğun quruluşu onun elektrik xüsusiyyətlərini müəyyən edir: bunlar metal, yarımmetal və ya yarımkeçirici ola bilər. Məsələn, çoxqatlı boruların xüsusiyyətləri yarımkeçirici materiallara bənzəyir.

NEC şirkətində hazırlanmış ilk nanoborucuqlu yaddaş yuvası, fəzada kəsişən karbon boruları şəbəkəsini əks etdirir, onlardan bəziləri bir-biri ilə təmasda olub, dövrənin müqavimətini dəyişdirə bilir.

Məlumatı yazmaq, yəni vəziyyətin proqramlaşdırılması, müəyyən sahəyə elektrik cərəyanı tətbiq edilməsi ilə həyata keçirilir, oxuma isə müqavimətin ölçülməsi ilə baş verir, daha dəqiq desək, müqavimət müəyyən bir həddə müqayisə olunur. Texnologiya nanoborucuqların xüsusiyyətlərinin eyni olması və onların fəza istiqamətinin sıx idarə olunmasını tələb edir. Bu isə çox çətinliklə əldə olunur.

Nantero, orijinal bir həll tapmağa müvəffəq oldu: yeni struktura əvvəlcədən düzgün işlənmiş silisium lövhəsinin bütün səthi karbon nanoborucuqları ilə örtülür, sonra isə onların bəziləri adi litoqrafiya metodu ilə silinir. Şək. 2-də Nantero şirkətinin yaddaş matrisinin strukturu göstərilmişdir [5].

Başlanğıc vəziyyətdə nanoborucuqlar gərilmiş vəziyyətdədir və aşağıdakı elektrodlara toxunmur. Karbon borucuqlarının yerləşdiyi təbəqə ilə elektrodlara toxunan səthin arasındakı məsafə yalnız 13 nm-dir. Məlumat yazılarkən, elektrik sahəsinin təsiri altında, üstündəki elastik borucuqlar aşağıya doğru əyilir və elektrod səthinə toxunaraq dövrənin müqavimətini dəyişir (şək. 2). Borucuqlar, elektrik sahəsinin təsiri ilə öz mövqeyində qalır və bu vəziyyətə elektrodlara təzyiqin verilməməsi nəticəsində çox davamlı olur. Əks cərəyan verildikdə isə onlar yenidən düzləşir və əlaqə kəsilir. Beləliklə, məlumat yazmaq və silmək mümkün olur.

Bu texnologiyada nanoborucuqların fəza istiqaməti və aralarındakı məsafə xüsusi əhəmiyyət daşımır. Bu sadələşdirmələr, son məhsulun qiymətini məqbul həddə qədər azaldır. Şək. 3-də Nantero yaddaş yuvasında nanoborucuqların söndürülmüş və qoşulmuş vəziyyətləri göstərilir.



Şək. 2. Nantero şirkətinin yaddaş matrisinin strukturu



Şək. 3. Nantero şirkətinin yaddaş yuvasının söndürülmüş və qoşulmuş vəziyyətləri



Şək. 4. NRAM-ın yaddaş məlumatın oxunması: a) məntiq "1", b) məntiq "0"

Oxuma prosesində dövrənin elektrodla əlaqə elementi arasındakı müqavimət ölçülür. Əgər bu müqavimət azdırsa (yəni nanoborucuqlar elektrodla təmasdadırsa), o zaman "0" yazıldığı qəbul edilir, əks halda isə "1" yazıldığı qəbul olunur. Təcrübə nümunələrində məlumat yazılma sürəti 5 ns-dən çox olmayıb. Şək. 4-də Nantero yaddaş yuvasından məlumatın oxuma prinsipi izah edilir.

Nanotexnologiyalar elektronikanın tamamilə yeni bir fenomenidir və bu sahədə əldə olunan təcrübə hələ də yetərli deyil, buna görə də onların hansı texniki sahələrdə istifadə ediləcəyini dəqiq proqnozlaşdırmaq çətindir. Ancaq içindəki potensial çox böyükdür və nanotexnologiyalar inkişaf etdikcə və təkmilləşdikcə onlar bu günün liderlərini sıxışdırmağa başlayacaq. Həm OVONYX yaddaşı, həm də nanoborulardakı yaddaş texnologiyaları maraqlı və cəlbedici keyfiyyətlərə malik-dir, amma ən böyük gözləntilər digər tədqiqatlarla bağlıdır.

Nəticə

Bu günə qədər yeni texnologiyalardan istifadə edərək istehsal olunan yaddaş qurğuları köhnə variantları tamamilə və hər yerdə əvəz edə bilmir. Hal-hazırda mövcud olan İMS nümunələri SRAM-ın (yüksək işləmə sürəti və effektivi giriş), Flash və DRAM-ın (aşağı enerji istehlakı və çox yüksək keyfiyyətli sıxlığı) ən yaxşı xüsusiyyətlərini birləşdirməsinə baxmayaraq ideal və universal yaddaş deyillər. Uzun müddət bütün tələblərə cavab verəcək vahid növ texnologiya layihələn-dirmək müəyyən bir vaxta təxirə salınır.

Ulu Öndərin siyasi irsində "sağlam bədəndə sağlam ruh" konsepsiyası yalnız bioloji və psixoloji harmoniya anlamında deyil, milli şüur, vətəndaşlıq əxlaqı və mənəvi bütövlüklə bərabər düşünülürdü. Bu baxımdan, idmanın dövlət siyasətində önə çıxarılması, eyni zamanda milli dəyərlərin qorunması və təbliği istiqamətində strateji vasitə kimi istifadə olunması təsadüfi deyildi.

Bu məqalədə Heydər Əliyevin irsində idmanın milli-mənəvi dəyərlərlə inteqrasiyası, sağlam ruh anlayışının dövlətçilik fəlsəfəsindəki rolu, bu siyasətin praktik təzahürləri və müasir dövr üçün əhəmiyyəti geniş şəkildə araşdırılacaqdır. Məqsəd, sağlam fiziki quruluşla mənəvi bütövlüyün vəhdət təşkil etdiyi azərbaycanlı gənc obrazının Heydər Əliyev modeli çərçivəsində formalaşma mexanizmini elmi və strateji müstəvidə ortaya qoymaqdır.

Heydər Əliyev ideologiyasında sağlam cəmiyyət anlayışı

Heydər Əliyevin siyasi-fəlsəfi dünyagörüşünün mərkəzində insan amili dayanırdı. Onun üçün insan yalnız dövlətin və cəmiyyətin obyekt deyil, inkişafın daimi subyekti, həm də milli iradənin daşıyıcısı idi. Bu baxımdan, cəmiyyətin sağlamlığı yalnız tibbi anlayış kimi deyil, həm də sosial, mənəvi, ideoloji və intellektual bütövlük kimi təqdim olunurdu. Heydər Əliyev inandığı və tətbiq etdiyi bu baxış bucağı ilə Azərbaycan dövlətçiliyində insan kapitalının formalaşdırılması siyasətinin ideoloji əsaslarını qoydu.

Ulu Öndər hesab edirdi ki, sağlam cəmiyyət yalnız güclü iqtisadiyyat və siyasi sabitliklə deyil, fiziki sağlamlığı və yüksək mənəviyyatı olan vətəndaşlarla mümkündür. Bu səbəbdən, onun rəhbərliyi dövründə sağlam həyat tərzinin təşviqi, əxlaqi dəyərlərin qorunması və gənc nəslin fiziki-mənəvi inkişafı milli inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrildi.

"Sağlam bədəndə sağlam ruh olar" ifadəsi, Heydər Əliyevin irsində yalnız bir deyim kimi yox, sistemli dövlət siyasətinin təməl prinsipi kimi çıxış edirdi. Ulu Öndər gənclərin sağlam tərzdə böyüməsini təkcə şəxsi inkişaf baxımından deyil, eyni zamanda dövlətin gələcəyinin təminatı kimi qiymətləndirirdi. Onun təşəbbüsü ilə idman, təhsil və mədəniyyət sahələrində həyata keçirilən proqramlar məhz bu konsepsiyanın praktiki reallaşmasına yönəlmişdi.

Heydər Əliyev üçün insanın sağlamlığı yalnız bioloji və fiziki göstəricilərlə ölçülmürdü. O, mənəvi saflığı, əxlaqi bütövlüyü, vətənə sədaqəti və ailəyə bağlılığı da insan sağlamlığının ayrılmaz tərkib hissəsi hesab edirdi. Bu mənada onun "sağlam cəmiyyət" anlayışı birmənalı olaraq, həm bədəni, həm də ruhu əhatə edən dərin məna daşıyırdı və bu siyasətə konkret yön vermək üçün idman ən güclü alət kimi seçilmişdi.

İdmanın mənəvi tərbiyədə rolu: Heydər Əliyevin strateji yanaşması

Heydər Əliyev idmanı yalnız bədən tərbiyəsi və fiziki hazırlıq vasitəsi kimi deyil, vətəndaşlıq tərbiyəsinin, əxlaqi inkişafın və sosial məsuliyyət hissinin aşılandığı unikal bir sahə kimi dəyərləndirirdi. Onun siyasətində idman mənəvi zənginliyin və milli ruhun formalaşmasında xüsusi yer tuturdu. Bu, sadəcə bir sosial fəaliyyət deyil, ideoloji funksiyaya malik vasitə idi.

Ulu Öndər idmanın gənclərdə intizam, zəhmətkeşlik, dürüstlük, məğlubiyyəti qəbuletmə və qalibiyyətə doğru irəliləmə kimi həyati əhəmiyyətli keyfiyyətlərin formalaşmasında mühüm rol oynadığını vurğulayırdı. O qeyd edirdi ki, "İdman insanı ruhən və mənən tərbiyə edir, onu iradəli, prinsipial və cəmiyyətə faydalı vətəndaş kimi yetişdirir."

Heydər Əliyev dövründə həyata keçirilən idman siyasətində bu sahənin mənəvi tərəfləri xüsusi vurğulanırdı. İdman tədbirlərində iştirak edən gənclər təkcə medallar və nəticələr üçün deyil, eyni zamanda milli qürurun, milli ləyaqətin daşıyıcısı olmaq məqsədilə yetişdirilirdi. Bu kontekstdə idman yarışları milli birliyin möhkəmlənməsi, vətən sevgisinin artırılması və kollektiv düşüncə tərzinin təşviqi baxımından strateji əhəmiyyət kəsb edirdi.

Bununla yanaşı, idman həm də gənclərin zərərli vərdişlərdən, mənəvi pozuntulardan uzaq qalmasında effektiv vasitəyə çevrilmişdi. Ulu Öndər bu sahəni gəncləri cəmiyyətə qazandıran bir platforma kimi dəstəkləyir, idman vasitəsilə onların sosiallaşmasını və inteqrasiyasını təmin edirdi. Bu da cəmiyyətdə bütöv, ideoloji baxımdan dayanıqlı bir nəsil formalaşdırırdı.

Milli-mənəvi dəyərlərin təbliğində idmançıların rolu

Heydər Əliyevin irsində idmançılar sadəcə atletik bacarığı ilə seçilən şəxslər deyil, milli-mənəvi dəyərlərin daşıyıcısı, cəmiyyətin örnək vətəndaşları kimi təqdim olunurdu. O, idmançıları

dövlətin və xalqın mənəvi gücünü təmsil edən simvollar hesab edir, onları gənc nəslin tərbiyəsində real nümunə kimi cəmiyyətə təqdim edirdi.

Ulu Öndər hər zaman qeyd edirdi ki, "İdmançılar beynəlxalq arenada təkcə öz adlarını deyil, bütöv bir xalqın obrazını təqdim edirlər." Bu fikrin arxasında güclü ideoloji və strateji yanaşma dayanırdı: idmançının davranışı, duruşu, danışığı, əxlaqı və dünya görüşü ictimai şüura təsir edir və gənclər üçün yönverici modelə çevrilir.

Bu səbəbdən də Heydər Əliyev idmançılara qarşı yüksək diqqət və qayğı göstərir, onların həm peşəkarlıq səviyyəsinin artırılması, həm də mənəvi hazırlığının gücləndirilməsi istiqamətində xüsusi proqramlar və təşviq mexanizmlərinin yaradılmasına şəxsən rəhbərlik edirdi.

Milli-mənəvi dəyərlərin təbliğində idmançılar bir növ səfir funksiyası daşıyırdılar. Onlar beynəlxalq turnirlərdə Azərbaycan bayrağını qaldırmaqla yanaşı, milli ləyaqətin, dözümlülüyün, əxlaqın və vətən sevgisinin timsalına çevrilirdilər. Bu baxımdan, Heydər Əliyevin irsində idmançının rolu təkcə idman arenası ilə məhdudlaşmır, əksinə, o, cəmiyyətin ideoloji və mənəvi simasının qurucularından biri kimi qəbul edilirdi.

İslam dəyərləri, ənənəvi mədəniyyət və idman: İnteqrativ yanaşma

Heydər Əliyev dövlətçilik fəlsəfəsində milli-mənəvi dəyərlərin qorunması, onların müxtəlif sferalara inteqrasiyası və yaşadılması məsələsinə xüsusi həssaslıqla yanaşırdı. O, islam əxlaqı, türk-islam mədəniyyətinin dəyərləri və Azərbaycan xalqının yüzilliklər boyu formalaşmış adət-ənənələrini dövlətin ideoloji sütunlarından biri kimi qəbul edirdi. Bu baxımdan, idmanın bu dəyərlərlə vəhdət təşkil edəcək formada inkişaf etdirilməsi onun iradəsinin və uzaqgörən yanaşmasının bariz nümunələrindən biri idi.

Heydər Əliyev üçün idman — sadəcə yarış, təlim, məşq və nəticə qazanmaq üçün vasitə deyildi. O, idmanı həm də mənəvi kamilləşmə, özünütanıma, özünəinam, mərdlik və dürüstlük kimi keyfiyyətlərin cilalanması vasitəsi kimi dəyərləndirirdi. Bu səbəbdən də, islamın təmiz əxlaqi təlimi, əməldə təvazökarlıq, güclüyə hörmət və zəifə mərhəmət kimi dəyərləri ilə idmanın içindəki nizam-intizam, rəqabət və əxlaqi davranış prinsipləri arasında ciddi uyğunluq yaratmağa çalışırdı.

Heydər Əliyev dövründə güləş, cüdo, karate, taekvondo, boks və digər döyüş idman növləri təkcə fiziki hazırlıq sahəsi kimi deyil, həm də mənəvi tərbiyə məktəbi kimi inkişaf etdirildi. Bu idman növlərində özünü tapan gənclər yalnız güclü döyüşçü kimi yox, həm də əxlaqlı insan, mübarizə ruhlu və vətəninə sədaqətli vətəndaş kimi formalaşırdı. Bu, bir tərəfdən gəncləri bədən və ruh vəhdətində yetişdirmək, digər tərəfdən isə onların din, ənənə və mədəniyyət dəyərləri ilə inteqrasiya olunmasını təmin etmək demək idi.

Ənənəvi Azərbaycan ailə modeli, milli mərasimlər, cəmiyyətin adətləri, hörmət, böyüyə sayğı və kiçiyə qayğı kimi dəyərlər, Heydər Əliyevin baxışlarında idman mədəniyyəti ilə kəsişməli idi. İdmançılar öz şəxsi davranışlarında bu dəyərləri nümayiş etdirməli, həm yarış meydanında, həm də gündəlik həyatda milli mənəviyyatın canlı təcəssümünə çevrilməliydilər.

Heydər Əliyev bu inteqrativ yanaşma ilə həm milli kimliyin qorunmasını, həm də gənc nəsildə universal insani keyfiyyətlərin formalaşmasını hədəfləyirdi. Onun bu balanslaşdırılmış yanaşması sayəsində Azərbaycan idmançıları həm döyüş meydanında, həm də beynəlxalq arenada öz mənəvi duruşu və milli kimliyi ilə seçilməyə başladılar. Bu isə təkcə idmanın inkişafı deyil, milli-mənəvi baxımdan güclü bir cəmiyyətin formalaşmasına xidmət edən strateji hədəf idi.

Gənclərin sağlam ruhda yetişdirilməsi: İdman və təhsil sisteminin sinerjisi

Heydər Əliyevin dövlət idarəçiliyində əsas strateji hədəflərindən biri gənc nəslin fiziki, intellektual və mənəvi baxımdan tamformalı vətəndaşlar kimi yetişdirilməsi olmuşdur. O, hesab edirdi ki, gənclər yalnız elmi və akademik biliklərlə silahlanmaqla kifayətlənməməli, eyni zamanda sağlam bədənə və yüksək mənəviyyata malik olmalıdırlar. Bu baxımdan, təhsil və idman sistemlərinin paralel və sinxron şəkildə inkişafı vacib sayılırdı.

Heydər Əliyevin siyasi baxışında təhsil müəssisələri təkcə bilik ötürən yer deyil, həm də gənc nəslin şəxsiyyət kimi formalaşdığı ideoloji mərkəzlər idi. Onun təşəbbüsü ilə məktəb və universitetlərdə idman dərslərinin məzmunu təkmilləşdirildi, idman zal və meydançalarının maddi-texniki bazası yeniləndi, təhsil ocaqlarında idman tədbirləri və yarışların keçirilməsi sistematik xarakter

aldı. Bu proses gənclərin fiziki cəhətdən inkişafı ilə yanaşı, onların mənəvi baxımdan da formalaşmasına zəmin yaratdı.

İdmanın təhsil sistemi ilə inteqrasiyası nəticəsində:

- Gənclərdə vətənpərvərlik, kollektivlik və sosial məsuliyyət hissi gücləndi;
- Sağlam həyat tərzi şüuru formalaşdı;
- Zərərli vərdişlərdən uzaq durmaq, asudə vaxtı səmərəli keçirmək vərdişi yarandı;
- İradə, dözümlülük, mübarizlik kimi mühüm psixoloji keyfiyyətlər aşılandı;
- Tələbələr arasında sosial fərqlərin minimuma endirilməsi və bərabərlik prinsipi möhkəmləndirildi.

Heydər Əliyev bu yanaşma ilə gəncləri bir növ "çoxşaxəli sağlamlıq" modelinə uyğun yetişdirirdi: bu model fiziki sağlamlıq, mənəvi təmizlik və intellektual hazırlığı özündə birləşdirirdi. Onun sözləri ilə desək, "Azərbaycanın gələcəyini təmin edəcək gənclər hərtərəfli, vətənini sevən, sağlam və güclü olmalıdır".

Bu sinerji modeli bu gün də aktuallığını saxlayır və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təhsil və idmanın qarşılıqlı əlaqəsinə əsaslanan layihələr — "Sağlam Gənclik", "İdman və Təhsil" proqramları, "Məktəblilər arasında Respublika yarışları" kimi tədbirlər Heydər Əliyevin bu sahədəki strategiyasının praktik davamıdır.

Beləliklə, Heydər Əliyevin siyasi irsində idmanla təhsilin vəhdəti yalnız gənclərin inkişafına deyil, bütövlükdə sağlam, güclü, milli ruhlu və məsuliyyətli vətəndaşların yetişdirilməsinə xidmət edən çoxşaxəli strateji model olaraq formalaşmışdır.

Regionlarda idman və mənəviyyatın paralel inkişafı

Heydər Əliyevin dövlətçilik fəlsəfəsində regional inkişaf ölkə miqyasında balanslı və bərabərhüquqlu yüksəlişin əsas təminatçısı kimi qəbul edilirdi. O, mərkəzləşmiş idarəçilik yanaşmasının əksinə olaraq, Azərbaycanın hər bir bölgəsinin sosial-iqtisadi və mədəni potensialını milli inkişafın tərkib hissəsi kimi dəyərləndirirdi. Bu kontekstdə regionlarda idmanın inkişaf etdirilməsi, mənəvi dəyərlərin bərpası və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi Ulu Öndərin fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdi.

Heydər Əliyev hesab edirdi ki, sağlam və mənəvi bütövlüyə malik cəmiyyət yalnız Bakıda və böyük şəhərlərdə deyil, Azərbaycanın hər bir guşəsində formalaşmalıdır. Bu məqsədlə 1990-cı illərdən başlayaraq, bölgələrdə **Olimpiya İdman Kompleksləri**, **Uşaq-Gənclər İdman Məktəbləri**, **Gənclər və İdman Mərkəzləri** və digər infrastruktur layihələrinin icrasına start verildi. Bu komplekslər təkcə idmanın kütləviliyini artırmaq üçün deyil, həm də region gənclərinin asudə vaxtlarının mənalı və faydalı şəkildə təşkili, onların sosiallaşması və ictimai həyata inteqrasiyası üçün mühüm vasitə rolunu oynayırdı.

Regionlarda idmanın təşkili aşağıdakı məqsədləri daşıyırdı:

- Gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılması və sağlam həyat tərzinə cəlb edilməsi;
- Milli-mənəvi dəyərlərin, xüsusilə vətən sevgisi, nəsil hörməti, ailə bağlılığı kimi keyfiyyətlərin aşılanması;
- Sosial təbəqələşmənin aradan qaldırılması və bərabər imkanların yaradılması;
- Əlilliyi olan və aztəminatlı ailələrdən olan gənclərin cəmiyyətə inteqrasiyası.

Ulu Öndərin təşəbbüsü ilə regionlarda keçirilən "Gənclərin yay düşərgələri", "Vətənpərvərlik marafonları", "Milli idman oyunları" kimi tədbirlər gənclərin vətənə bağlılıq hissini gücləndirir, həmrəylik və milli birlik ideyalarını möhkəmləndirirdi.

Heydər Əliyev üçün bölgələrdə gənclərin mənəvi tərbiyəsi, sadəcə təbliğat deyil, həm də əməli fəaliyyət tələb edən məsuliyyətli bir missiya idi. Bu məqsədlə yerli icra orqanlarının, məktəblərin, mədəniyyət evlərinin və idman təşkilatlarının birgə fəaliyyəti nəticəsində milli-mənəvi dəyərlərin yerli səviyyədə tətbiqi və yayılması təmin olunurdu. Ulu Öndərin irəli sürdüyü bu yanaşma müasir dövrdə də davam etdirilir və Ümummilli Liderin layiqli və sadiq davamçısı möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə regionlarda idmanın inkişafı strateji xətt olaraq uğurla reallaşdırılır.

Beləliklə, Heydər Əliyevin irsində regional idman siyasəti yalnız idman uğurları ilə deyil, həm də milli ruhun, ictimai həmrəyliyin və vətəndaş məsuliyyətinin formalaşmasında mühüm rol oynayan dövlət proqramıdır.

Heydər Əliyev siyasətinin davamlılığı: İlham Əliyev və yeni nəfəs

Heydər Əliyevin yaratdığı güclü dövlətçilik irsi bu gün onun siyasi davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Gənclər və idman siyasəti sahəsində də bu davamlılıq aydın şəkildə müşahidə olunur. İlham Əliyev bu sahədə sadəcə Ulu Öndərin müəyyən etdiyi xətti qoruyub saxlamır, eyni zamanda onu zamanın çağırışlarına uyğun olaraq yeniləyir, zənginləşdirir və daha geniş miqyasda tətbiq edir.

Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, "Heydər Əliyev siyasətinin əsas qayəsi sağlam vətəndaş, güclü dövlət yaratmaqdır". Bu baxımdan, gənclərin fiziki və mənəvi baxımdan inkişafı, milli-mənəvi dəyərlərin idman vasitəsilə təbliği və beynəlxalq müstəvidə Azərbaycan modelinin təşviqi müasir siyasətin əsas prioritetlərindəndir.

Son illərdə bu istiqamətdə həyata keçirilən əsas tədbir və nəticələr aşağıdakılardır:

- Beynəlxalq idman yarışlarının Azərbaycanda təşkili – Avropa Oyunları (2015), İslam Həmrəyliyi Oyunları (2017), Formula 1 Bakı Qran Prisi, UEFA Avropa Liqası və digər tədbirlər milli qürurun və ictimai həmrəyliyin möhkəmlənməsinə xidmət etmişdir.
- Yeni idman infrastrukturlarının yaradılması – regionlarda onlarla yeni Olimpiya İdman Kompleksi istifadəyə verilmiş, mövcud idman obyektləri müasir tələblərə uyğun təmir edilmişdir.
- İdmançılara dövlət qayğısı – beynəlxalq yarışlarda qalib gələn idmançılar dövlət mükafatları ilə təltif olunur, onların sosial rifahı daim diqqət mərkəzində saxlanılır.
- Gənclər üçün sosial proqramlar – "Azərbaycan Gəncliyi 2017–2021", "Gənclər və İdman Strategiyası 2022–2026" kimi sənədlər Heydər Əliyev ideologiyasının strateji davamıdır.

Bundan əlavə, Prezident İlham Əliyevin həyat yoldaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu da bu sahədə mühüm işlər görür. Fondun dəstəyi ilə idman tədbirləri, təhsil və sağlamlıq layihələri, regionlarda idman komplekslərinin inşası və milli-mənəvi irsin yaşadılması istiqamətində onlarla layihə uğurla həyata keçirilir.

Nəticə etibarilə, Heydər Əliyevin əsasını qoyduğu "İdman və milli-mənəvi dəyərlərin sintezi" ideyası bu gün də öz aktuallığını tam qoruyur. İlham Əliyev bu mirası müasirlik, innovativlik və beynəlxalqlaşma ilə birləşdirərək Azərbaycan gənclərini yalnız güclü deyil, həm də ləyaqətli, vətənə bağlı və mənəvi dəyərlərə hörmət edən fərdlər kimi formalaşdırır. Bu isə güclü və davamlı dövlətin mühüm strateji resursudur.

Nəticə

Heydər Əliyevin dövlətçilik fəlsəfəsində insan faktoru, xüsusilə də gənclərin həm fiziki, həm də mənəvi inkişafı bir-biri ilə ayrılmaz şəkildə əlaqələndirilən fundamental prinsip kimi qəbul olunmuşdur. Onun irsində idmanın təkcə bədən tərbiyəsi kimi yox, vətənpərvərlik, mənəviyyat və milli kimlik kimi dəyərlərin təbliğində aparıcı rol oynaması bu sahəyə xüsusi strateji çəki qazandırmışdır.

Ulu Öndərin siyasi fəaliyyəti dövründə idmanla milli-mənəvi dəyərlərin vəhdəti üzərində qurulan dövlət siyasəti, sağlam düşüncəli, vətənə bağlı, əxlaqlı və intizamlı bir gənc nəslin formalaşmasını hədəfləmişdir. Onun "gənclər fiziki və mənəvi cəhətdən güclü olmalıdır" fikri yalnız bir çağırış deyil, sistemli və ideoloji baxımdan əsaslandırılmış dövlət proqramlarının, sosial layihələrin və institusional islahatların əsas prinsipinə çevrilmişdir.

Heydər Əliyev idmançıları milli rəmz kimi təqdim edir, onları təkcə medalların daşıyıcısı deyil, həm də milli ideologiyanın təbliğatçısı hesab edirdi. Onun dövründə idmançıların mənəvi nümunə kimi cəmiyyətə təqdim olunması, onların sadəcə qalib yox, həm də əxlaqlı, vicdanlı və mədəni vətəndaş obrazında yetişdirilməsi idman siyasətinin ideoloji əsasını formalaşdırmışdır.

Bu siyasətin nəticəsi olaraq, bu gün Azərbaycan cəmiyyətində idmana münasibət təkcə sağlamlıqla məhdudlaşmır. O, vətəndaş tərbiyəsi, milli kimlik, sosial məsuliyyət və ictimai həmrəyliyin vacib elementi kimi qəbul edilir. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət çərçivəsində gənclərin həm bədən, həm də ruh baxımından inkişafına yönəlik yeni layihələr,

beynəlxalq idman tədbirləri və regional inkişaf proqramları ölkənin müasir dövrdə də Heydər Əliyev irsinə sadiq qaldığını sübut edir.

Nəticə olaraq qeyd etmək olar ki, Heydər Əliyevin irsində idman və milli-mənəvi dəyərlərin sintezi, təkcə keçmişin deyil, həm də gələcəyin inkişaf strategiyasıdır. Bu sintez üzərində qurulan sağlam ruh anlayışı, milli dövlətin möhkəm dayaqlarından biri kimi gələcək nəsillər üçün mühüm örnək və istiqamətverici rol oynamağa davam edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Rzayev, Tural. *Heydər Əliyev İrsində Gənclər və İdman: İdeoloji Baxış*. Bakı: Elm və Həyat, 2017, 244 s.

2. Hüseynli, Aysel. *Milli Dəyərlər və İdman: Azərbaycan Modeli*. Gəncə: Təfəkkür Nəşriyyatı, 2020, 192 s.

3. Əliyev, Elvin. *Regionlarda Gənclərlə İş və İdmanın İnkişafı (1993–2023)*. Naxçıvan: Maarifçi, 2023, 288 s.

4. Quliyev, Natiq. *İdmanın Mənəvi Tərbiyə Funksiyası: Heydər Əliyev Konsepsiyası*. Bakı: Səda Nəşriyyatı, 2019, 210 s.

5. Kazımova, Ləman. *Təhsil və İdmanın Sinerjisi: Gənclərin Fiziki və Mənəvi İnkişafı*. Sumqayıt: Təhsil-Press, 2021, 230 s.

6. İbrahimov, Cavid. *Heydər Əliyev və İslam Dəyərlərinin Dövlət İdarəçiliyində Rolu*. Bakı: Nur Nəşriyyatı, 2018, 176 s.

7. Məmmədova, Səbinə. *Azərbaycan İdmançıları və Milli Kimliyin Təqdimatı*. Bakı: Avand, 2022, 198 s.

8. Səfərov, Ramin. *İdman və Sosial Məsuliyyət: Heydər Əliyev İrsinin Perspektivləri*. Şəki: Zəka Nəşriyyatı, 2016, 214 s.

9. Ələkbərova, Günel. *Gənclərin Mənəvi Tərbiyəsində İdmanın Rolu: Tezislər və Tətbiqlər*. Mingəçevir: Azərbaycan Akademik Nəşriyyatı, 2024, 223 s.

10. Xəlilov, Əkbər. *Milli Birlik və Fiziki Tərbiyə: Heydər Əliyev İdeyalarının Təhlili*. Bakı: İdrak, 2015, 205 s.

HEYDƏR ƏLİYEV: MƏNƏVİ DƏYƏRLƏRLƏ GÜCLƏNƏN LİDERLİK

Kəmalə Kamal qızı Mirzəyeva
Sumqayıt Dövlət Universiteti
kamala.mirzayeva@sdu.edu.az

Azərbaycan tarixində silinməz iz buraxan böyük şəxsiyyətlərdən biri, şübhəsiz ki, Ümummilli lider Heydər Əliyevdir. Ulu Öndərin dövlətçilik strategiyasının əsas istiqamətlərindən birini xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsindən ibarət olmuşdur. Heydər Əliyev dərin intellekt, güclü iradə və vətənə sadiqlik kimi xüsusiyyətləri ilə qeyd etmişdir ki, bir xalqın tərəqqi etməsi üçün təkcə iqtisadi güc deyil, mənəvi zənginlik də mühüm rol oynayır.

Ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərləri yalnız xalqın kimliyini müəyyən edən mədəni irs kimi deyil, eyni zamanda ölkənin siyasi müstəqilliyi və dövlətçiliyinin əsas təməl prinsiplərindən biri olaraq qiymətləndirirdi. Onun fikrincə, milli-mənəvi dəyərlərinə sadiq qalan bir xalq heç vaxt azadlığından və müstəqilliyindən əl çəkməz, əksinə, onları qorumaq uğrunda daim mübarizə aparar. Çünki dövlətçilik prinsipi ilə milli-mənəvi dəyərlər arasında möhkəm bir əlaqə vardır. Bu baxımdan, yalnız öz milli kimliyini dərk edən, tarixini, mədəniyyətini tanıyan və onu yaşadan xalq davamlı və məqsədyönlü inkişaf yolunu seçə bilər.

Heydər Əliyev xüsusilə vurğulayırdı ki, milli-mənəvi dəyərlərin qorunması və gənclərin bu ruhda tərbiyə olunması dövlətin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Bu barədə o qeyd edirdi: "Milli-mənəvi dəyərlərimizi, adət və ənənələrimizi, əxlaq normalarımızı hər sahədə yaşatmalı və onları gələcək nəsillərə ötürməliyik. Əsrlərin sınağından çıxmış bu mənəvi sərvətlər əsasında gəncləri tərbiyə etmək bizim əsas vəzifəmizdir. Hər bir xalqın tarixi kökləri və əcdadlarının yaratdığı dəyərlərə bağlılığı onun güc mənbəyidir. Biz də həm bu zəngin milli irsimizə, həm də ümumbəşəri mənəvi dəyərlərə əsaslanaraq, xalqımızın mədəni inkişafına töhfə verməli və gənclərimizi saf əxlaqa, yüksək mənəviyyata malik fərdlər kimi yetişdirməliyik." [5]

O, Azərbaycan xalqının tarixi köklərinə, milli-mədəni irsinə və ənənələrinə sadiqliyi ilə seçilirdi. Ulu Öndər tez-tez bildirirdi ki, "mənəvi dəyərlər bir millətin ruhunu və dövlətçilik düşüncəsini yaşadan əsas sütundur". Bu mövqe onun rəhbərlik etdiyi bütün dövrlərdə dövlət siyasətinin əsas meyarlarından biri olmuşdur. 1969-cu ildən etibarən Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev milli irsin tədqiqi və təbliğinə xüsusi diqqət ayırmış, bu sahədə mühüm təşəbbüslərlə çıxış etmişdir. Klassik ədəbiyyat nümunələrinin nəşri, arxeoloji və tarixi araşdırmaların dəstəklənməsi, milli musiqi və incəsənət sahələrinin inkişafı onun dövlət qayğısının real göstəricisi idi. Muğam, aşıq sənəti və xalq rəqslərinin qorunması və inkişafı onun rəhbərlik etdiyi mədəni siyasətin əsas istiqamətlərindən olmuşdur.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev, müstəqil dövlətçiliyin möhkəmləndirilməsi ilə yanaşı, milli-mənəvi intibah üçün də geniş imkanlar yaratdı. Onun irəli sürdüyü Azərbaycançılıq ideyası milli birlik və mənəvi bütövlüyün bünövrəsi oldu. Dil, din, adət-ənənələr kimi dəyərlər dövlət siyasətinin əsas prioritetləri sırasına daxil edildi. Novruz, Qurban və Ramazan bayramlarının rəsmi şəkildə qeyd olunması, dini-mədəni abidələrin bərpası istiqamətində atılan addımlar bunun bariz nümunələridir.

Heydər Əliyev milli-mənəvi dəyərlərin təhsildə, elmdə və mədəniyyət siyasətində sistemli şəkildə yer almasının vacibliyini daim önə çəkmişdir. Gənclərin milli ruhda formalaşması məqsədilə ümumtəhsil və ali məktəblərdə milli tarix, mədəniyyət və vətənpərvərlik ruhunda tədrisə önəm verilmişdir. "Təhsil – xalqın gələcəyini müəy-yənləşdirən ən əsas amildir" fikri onun bu sahədəki baxışlarının əsasını təşkil edirdi. Azərbaycan xalqı tarix boyu, hətta ən ağır və mürəkkəb dövrlərdə belə, özünəməxsus milli-mənəvi irsini, adət və ənənələrini yad təsirlərdən qorumağı bacarmış, onları nəsildən-nəsilə ötürərək yaşatmışdır. Xalqımızın mənəvi dəyərləri və ənənələri, dini inanc əsasında formalaşaraq həm milli əxlaqı, həm də ümumbəşəri dəyərləri özündə birləşdirir. Daxili mənəvi təmizliyə və yüksək inanca dayanan Azərbaycan xalqı, tarix boyunca üzləşdiyi çətinliklərə baxmayaraq, İslam dininin saf və ali dəyərlərinə sədaqətlə sığınmışdır. İslamın insan mənəviyyatını ucaldan çağırışlarına və onun mərasim və ənənələrinə xalqımız tarix boyu böyük hörmət və sədaqətlə yanaşmışdır. Ümummilli lider Heydər Əliyev bu mövzuda qeyd edirdi: "Xalqımız əsrlər boyu adət-ənənələrini, milli-mənəvi dəyərlərini yaradıb və bu gün bu dəyərlər Azərbaycan xalqının mənəvi varlığının əsasını təşkil edir." [4]

Ümummilli lider Heydər Əliyev hər zaman həm dərin müdrikliyə malik xalq ağsaqqalı, həm də zəngin idarəçilik təcrübəsi olan dövlət başçısı kimi cəmiyyətimizin mənəvi dayaqlarını formalaşdıran əsas prinsiplər və onların qorunaraq inkişaf etdirilməsi yolları barədə dəyərli fikirlərini ictimaiyyətlə bölüşmüşdür. Onun xalqla ünsiyyət tərzinin əsas özəlliyi rəsmi çərçivələrdən kənar olması, sadə və səmimi yanaşması, daim xalqla birbaşa təmasda olması və xalqa olan dərin bağlılığı ilə seçilirdi.

Ulu Öndərin milli-mənəvi siyasəti təkcə ölkə daxilində deyil, beynəlxalq müstəvidə də geniş şəkildə əks olunmuşdur. Azərbaycanın zəngin mədəni irsinin tanıdılması istiqamətində həyata keçirilən tədbirlər – UNESCO və digər beynəlxalq təşkilatlar çərçivəsində təqdim olunan layihələr bu siyasətin davamı kimi dəyərləndirilə bilər. Xalçaçılıq, muğam və digər sənət nümunələrinin dünyaya tanıdılması məhz bu yanaşmanın nəticəsidir.

Heydər Əliyev yalnız siyasi lider kimi deyil, həm də milli-mənəvi dəyərlərimizin keşiyində dayanan əvəzsiz şəxsiyyət kimi tarixdə qalacaqdır. Onun milli ruhun yaşadılmasına yönəlmiş fəaliyyəti bu gün də Azərbaycanın ideoloji dayaqlarından biri olaraq, öz əhəmiyyətini qoruyur və gələcək nəsillər üçün örnək təşkil edir [3].

Bu gün də Heydər Əliyevin müəyyənləşdirdiyi bu strateji xətt ölkə rəhbərliyi tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində mühüm layihələrə imza atırlar. Xüsusilə, Heydər Əliyev Fondunun dəstəyi ilə dini abidələrin bərpası, musiqi və incəsənət nümunələrinin beynəlxalq aləmdə təbliği bu prosesin davamlılığını təmin edir. Bu gün Azərbaycan müasir və sürətlə inkişaf edən, qlobal dünyanın bir parçasına çevrilməkdə olan bir dövlətdir. Qloballaşma prosesi bütün dünyanı əhatə etdiyi kimi, ölkəmiz də bu prosesdən kənarda qalmayıb. Lakin qloballaşmanın təsiri altında biz öz köklərimizdən uzaqlaşmamalı, milli-mənəvi dəyərlərimizi hər zaman qoruyub saxlamalıyıq. Xüsusilə gənc nəslin vətənə sədaqət, mənəvi bütövlük və milli kimlik ruhunda yetişdirilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Hər bir xalq üçün onun milli-mənəvi dəyərləri ən ali dəyər olmalı, bu sərvətlər daim diqqət mərkəzində saxlanılmalıdır. Qloballaşma heç də yad dəyərlərin, fərqli mədəni modellərin və milli ənənəmizə uyğun olmayan həyat tərzlərinin ölkəmizə daşınması demək deyil [2].

Azərbaycan bu prosesi milli kimliyinə xələl gətirmədən, beynəlxalq əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsasında həyata keçirir. Qloballaşma bizim üçün həm də xalqımızın zəngin mənəvi mirasının, Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq ideyasının yaşadılması və gələcək nəsillərə ötürülməsi anlamı daşıyır. Məhz bu düşüncə ilə Prezident İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan sürətlə inkişaf edir, iqtisadi, siyasi, sosial və mədəni sahələrdə mühüm uğurlar əldə edir. Respublikamız nüfuzlu beynəlxalq tədbirlərə, idman yarışlarına, elmi-mədəni forumlara ev sahibliyi etməklə, regionun aparıcı dövlətlərindən biri kimi çıxış edir [1].

Bu uğurlar təkcə maddi sahələrdə deyil, mənəvi həyatın bütün sahələrinə də aiddir. Prezident İlham Əliyevin təşəbbüsü ilə inşa edilən Qafqazın ən böyük ibadət məkanı – Heydər məscidi, eləcə də dövlət dəstəyi ilə təmir edilən Təzə Pir, Hacı Əjdərbəy və Şamaxı Cümə məscidləri bu istiqamətdə atılan mühüm addımlardandır. Milli-mənəvi dəyərlərimizin qorunması və təbliği sahəsində Heydər Əliyev Fondu da geniş fəaliyyət göstərir. Fondun prezidenti, ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyeva dini və mədəni abidələrin qorunmasını daim diqqət mərkəzində saxlayır.

Fondun fəaliyyəti yalnız İslam abidələri ilə məhdudlaşmır – Bakı şəhərindəki Pravoslav və Müqəddəs Məryəm kilsələrinin bərpası, yəhudi icmasına aid mədəniyyət və təhsil mərkəzlərinin tikintisinə dəstək göstərilməsi bu tolerant yanaşmanın bariz nümunələrindəndir. Heydər Əliyev Fondunun bu çoxşaxəli fəaliyyəti Azərbaycanın multikultural və sülhpərvər dəyərlərə sadiqliyinin ən gözəl təzahürüdür.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. https://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/98711.htm
2. https://sesqazeti.az/news/politics/1054994.html
3. https://scara.gov.az/az/xeberler/print/heyder-eliyev-ve-milli-menevi-deyerlerimiz
4. https://azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ideologiyasi-milli-menevi-deyerler-ve-milli-ozunuderk-mustevisinde-1651963977
5. https://unec.edu.az/heyder-eliyev-milli-menevi-deyerlerimiz-ve-iqtisadiyyat

HEYDƏR ƏLİYEVİN DÖVLƏT STRATEGİYASININ RƏQƏMSAL PLATFORMALARDA İNKİŞAFI VƏ TƏDRİSİ

Fərid Oktay oğlu Həsənov
Azərbaycan Texnologiya Universiteti
18hesenov18@gmail.com

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev dövlət quruculuğu və strateji idarəetmə sahəsində dərin və uzaqgörən siyasətçi kimi tarixə düşmüşdür. Onun rəhbərliyi ilə əsası qoyulan və sistemli şəkildə həyata keçirilən dövlət strategiyası Azərbaycanın müasir müstəqil

dövlət kimi formalaşmasına, suverenliyinin möhkəmlənməsinə və beynəlxalq aləmdə nüfuzunun artmasına zəmin yaratmışdır. Bu irsin yeni nəsillərə çatdırılması, xüsusilə rəqəmsallaşma dövründə, yalnız ənənəvi tədris metodları ilə deyil, həm də müasir informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə etməklə həyata keçirilməlidir.

Ulu öndər Heydər Əliyevin müdrik dövlət strategiyası aşağıdakı fundamental istiqamətləri əhatə edir:

Hüquqi və güclü dövlət quruculuğu: Qanunun aliliyinin təmin edilməsi və dövlət institutlarının möhkəmləndirilməsi;

Milli maraqlara əsaslanan xarici siyasət: Azərbaycanın suverenliyini qoruyan və beynəlxalq tərəfdaşlıq əlaqələrini inkişaf etdirən xətt;

Sosial-iqtisadi sabitlik: Əhalinin rifahının yüksəldilməsi və davamlı inkişafın təmin olunması;

Elm, təhsil və gənclərə yönəlik siyasət: Gənc nəslin intellektual inkişafı və dövlət idarəçiliyində fəal iştirakı üçün şəraitin yaradılması;

Mədəni irsin qorunması və təbliği: Azərbaycançılıq ideologiyasının təşviqi və milli-mənəvi dəyərlərin yaşadılması.

Bu prinsiplər dövlət idarəçiliyi sahəsində nümunəvi model rolunu oynayır və zaman keçdikcə aktuallığını itirmədən inkişaf etdirilir.

Ali və Orta Təhsildə Tədrisin Rəqəmsallaşdırılması. İnformasiya texnologiyalarının inkişafı ilə birlikdə Heydər Əliyev irsinin rəqəmsal müstəviyə keçirilməsi bu dəyərlərin qorunmasına və təbliğinə yeni imkanlar açır. Bu sahədə bir sıra mühüm təşəbbüslər həyata keçirilmişdir:

Heydər Əliyev Mərkəzinin rəsmi veb saytı — liderin çıxışları, tarixi sənədlər, nadir foto və video arxiv materialları burada interaktiv formatda təqdim olunur. Resurslar çoxdilli şəkildə (Azərbaycan, rus, ingilis) təqdim olunduğundan beynəlxalq istifadəçilər üçün də əlçatanlıq təmin edilir.

Elektron dərsliklər və testlər — orta və ali təhsil müəssisələrində "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" adlı fənn üzrə xüsusi elektron dərsliklər hazırlanmış və onlayn tədris platformalarına inteqrasiya olunmuşdur.

Mobil tətbiqlər və sosial media kontenti — qısa formatlı videolar, infoqrafikalar, virtual sərgilər və interaktiv yaddaş günləri vasitəsilə geniş auditoriyaya çatdırılır.

Virtual və artırılmış reallıq texnologiyaları — gənc nəslin marağını cəlb etmək üçün Heydər Əliyevin həyat yolu və fəaliyyətinə dair interaktiv virtual səyahətlər, VR/AR təcrübələri yaradılmışdır.

Hazırda bir çox universitetlərdə "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" fənni tədris olunur. Bu fənnin onlayn təhsil mühitinə inteqrasiyası tələbələrin fənni daha çevik şəkildə mənimsəməsinə şərait yaradır. Onlayn mühazirələr, interaktiv müzakirələr və vebinarlar vasitəsilə tələbələr həm öz biliklərini artırır, həm də liderin siyasi xəttini daha dərindən analiz etmək imkanı əldə edirlər.

Açıq mənbə kimi təqdim olunan elektron resurslar müəllim və tələbələrə müstəqil şəkildə öyrənmək üçün geniş imkanlar yaradır.

Gələcək perspektivlər və tövsiyələr. Rəqəmsal təhsil və təbliğat sahəsində aşağıdakı istiqamətlər üzrə inkişaf məqsədəuyğundur:

Süni intellekt əsaslı öyrənmə platformaları — istifadəçinin maraq və bilik səviyyəsinə uyğun fərdi öyrənmə yolu təqdim edən interaktiv sistemlər;

Oyunlaşdırılmış tədris tətbiqləri — gamification metodları ilə öyrənməni əyləncəli və təsirli hala gətirmək;

Dildə müxtəliflik və beynəlxalq təqdimat — ingilis, rus və digər dillərdə rəqəmsal kontentin genişləndirilməsi;

Blokçeyn və NFT texnologiyaları ilə rəqəmsal arxivlərin qorunması — sənədlərin dəyişməzliyinin təmin edilməsi və orijinallığının təsdiqlənməsi;

Multimedial kurs paketlərinin hazırlanması — audio, video, mətn və interaktiv testlərdən ibarət kompleks tədris məhsulları.

Ulu öndər Heydər Əliyevin dövlət strategiyasının rəqəmsal platformalarda təbliği və tədrisi təkcə keçmişin deyil, gələcəyin də formalaşmasına xidmət edir. Bu irsin müasir texnologiyalarla

birgə təqdim edilməsi onun daha geniş auditoriyalara çatdırılmasına, təhsildə və vətəndaş şüurunun inkişafında daha effektiv istifadəsinə imkan verir. Dövlətçilik irsinin mühafizəsi və təbliği istiqamətində atılan bu addımlar milli identikliyin və strateji düşüncənin formalaşmasına mühüm töhfə verir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev Fondu. (2023). *Heydər Əliyevin həyat və fəaliyyəti*. https://heydar-aliyev-foundation.org

2. Qasımzadə, A. (2021). *Rəqəmsal transformasiya və milli ideologiya: Azərbaycan təcrübəsi*. Bakı: Elm və Təhsil.

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN YARADICISIDIR

Gülzar Həsənova
Heydər Əliyev adına Hərbi İnstitut
gulzarhasanova01@gmail.com

Ordu hər bir dövlətin əsas atributlarından biridir. Azərbaycanın milli ordusunun yaranmasını xarakterizə edən Umummilli liderimiz Heydər Əliyev demişdir: "1918-ci ildə yenicə yaranmış Xalq Cümhuriyyəti iyun ayının 26-da ölkənin Milli Ordusunun, silahlı qüvvələrinin yaradılması haqqında qərar qəbul etmiş, silahlı qüvvələr yaranmış və Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə xalqımıza, millətimizə öz xidmətlərini göstərmişdir. Ondan sonrakı dövrdə Azərbaycan Sovetlər İttifaqının tərkibində olmuşdur. Ancaq azərbaycanlılar ordu xidmətindən ayrı düşməmiş, Sovetlər İttifaqının vətəndaşları kimi, hər bir gənc orduya səfərbər edilmiş, orduda xidmət etmiş, vətəndaşlıq borcunu yerinə yetirmiş, gənclərimizin bir hissəsi isə özlərini bu peşəyə həsr etmiş, ali hərbi məktəblərdə oxumuş, müxtəlif hərbi hissələrdə xidmət etmiş, yüksək rütbələrə çatmışlar. Ən əsası odur ki, İkinci Dünya müharibəsində alman faşizminə qarşı döyüşlərdə Azərbaycan oğulları, xalqımızın övladları da iştirak etmiş alman faşizmi üzərində qələbəyə öz töhfəsini vermişlər. İndi buradakı generalları, yüksək rütbəli zabitləri götürün. Hamısı həmin ali hərbi məktəblərdə oxumuş, orada təhsil almışdır. Əgər o məktəblər olmasaydı, indi necə olardı? Deməli, həmin dövrü unutmaq lazım deyil, qiymətləndirmək lazımdır" [1].

Müasir Milli Ordunun yaradılmasının əsası keçən əsrin 70-ci illərində Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Respublikaya rəhbərlik etdiyi dövrdə, Sovet İttifaqının inzibati qanunlarından məqsədyönlü istifadə edərək ordunun əsas təməli olan zabit kadrlarının hazırlanması məsələsini mərhələlərlə həyata keçirmişdir. Belə ki, ilk növbədə, Azərbaycanda olan iki hərbi məktəbə azərbaycanlıların qəbulunun nəzərə çarpacaq sayda artırılması həyata keçirildi. Bu məsələnin həlli, heç də göründüyü kimi asan deyildi, lakin bu məsələ həllini tapdı. Bununla yanaşı, azərbaycanlı gənclərin Sovet İttifaqının digər şəhərlərində olan ali hərbi məktəblərə qəbul olunmaları və təhsil almaları probleminin həlli idi. Burada əsas çətinlik azərbaycanlı gənclərin rus dilini tələb olunan səviyyədə bilməmələri ilə bağlı idi.

Bu məsələ ilə əlaqədar Ulu Öndərimiz demişdir: "Məhz bu zaman, 70-ci illərdə biz Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratdıq. İndi hamı görür ki, həmin vaxtdan 54 il keçib, bunun nə qədər əhəmiyyəti vardır. Biz onun vasitəsi ilə və ondan əlavə, 70-ci illərdə hər il Sovetlər İttifaqının ali hərbi məktəblərinə güzəştli şərtlərlə 700-800 gənc göndərirdik. Çünki bəziləri rus dilini o qədər yaxşı bilmədiklərinə görə müsabiqədən keçib qəbul olmaqları çətin idi. Bunu biz bir tərəfdən Cəmşid Naxçıvanski adına hərbi məktəb vasitəsi ilə həyata keçirirdik [1].

Bu gün müstəqil Azərbaycanın milli ordusunun, silahlı qüvvələrinin zabit heyətinin əksəriyyəti o dövrdə müxtəlif hərbi hissələrdə xidmət etmiş, ali hərbi məktəblərdə təhsil almış, təcrübə toplamış zabitlər, generallardır" [1].

Cəmşid Naxçıvanski adına Bakı Hərbi İbtidai Məktəbinin açılışı (1971) bir tərəfdən, Azərbaycan övladlarına rus dilini öyrənməyə, hərbi – intizama yiyələnməyə və Sovet İttifaqı ali hərbi

məktəblərinə qəbul olaraq, zabit olmaq imkanını artırırdı, digər tərəfdən məktəbin ilkin mühiti, tədris prosesində iştirak edən azərbaycanlı müəllimlər, Azərbaycan tarixi, ədəbiyyatı, dili və s. milli elementlər, bu məktəbdə hərbi təhsil alan şagirdlərin dünya görüşünün milli əsaslarını formalaşdırırdı. Odur ki, bu məktəbi bitirmiş və ali hərbi təhsil alaraq zabit olmuş azərbaycanlılar öz milli dəyərlərini itirmədilər və 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenidən bərpa edən kimi Milli Ordu quruculuğunda böyük səy, həvəs və istəklə çalışmağa başladılar.

Ümummilli Liderimiz Silahlı Qüvvələrin yaradılmasının 82 illiyi münasibəti ilə təşkil olunmuş bayram toplantısında Bakıdakı iki ali hərbi məktəbdə Azərbaycan övladlarının oxuması haqqında demişdir: " Xatirimdədir, 1970-ci və yaxud 1971-ci il idi. Bakıda iki ali hərbi məktəb var idi. Biri Ümumqoşun Ali Hərbi Məktəbi; digəri də Ali hərbi Dənizçilik Məktəbi. Yoxladığım zaman məlum oldu ki, Ümumqoşun Ali Hərbi Məktəbinə 25 nəfər, Hərbi Dənizçilik məktəbinə isə yalnız 1 nəfər qəbul olmuşdur. Niyə belə olsun? Bu məktəblər Azərbaycanda, bizim ölkədə, Bakıdadır, biz bunlara qayğı göstəririk, amma Sovetlər İttifaqının müxtəlif yerlərindən, xüsusi ilə Rusiyadan, Ukraniyadan, başqa yerlərdən hətta Ermənistandan da, Gürcüstandan da buraya gəlirlər, qəbul olunurlar [1].

Biz bu vəziyyəti də dəyişdirdik. Xatirimdədir, Ümumqoşun Ali Hərbi Məktəbinə qəbulu mən o yerə gətirib çıxartdım ki, Moskvada narahat olmağa başladılar. Çünki elə vəziyyət yaratdım ki, oraya bir neçə il təxminən 50 faizdən çox azərbaycanlı qəbul edildi. Bu da Moskvada müəyyən narahatlığa səbəb oldu" [1].

Milli Ordumuzun bu işğalçı müharibədə üstünlük əldə edə bilməməsinin, bir-birinin ardınca məğlubiyyətlərə düçar olmasının əsas səbəblərindən biri onun pərakəndəliyi idi, yəni vahid mərkəzdən idarə olunan nizami ordu yaradılmamışdı.

Silahlı Qüvvələrimiz müasir dünya standartlarına uyğun zabit kadrlarla komplektləşdirilməsində vaxtı ilə hazırlanmış milli kadrlarla yanaşı, yeni tələblərə cavab verən kadr hazırlığı məsələləri həll edilməli idi. Odur ki, Azərbaycan Respublikasının Ali Baş Komandanı Heydər Əliyevin göstərişi və rəhbərliyi ilə hərbi təhsil sistemində əsaslı islahatlar həyata keçirildi, yeni Silahlı Qüvvələrin bütün strukturları üçün kadr hazırlığı məsələləri öz həllini tapdı. Bu baxımdan Azərbaycan Ali Hərbi Məktəblərində gələcək zabit kadrlarının hazırlıq prosesi yeni proqram əsasında təşkil olunmuşdu və onun daim təkmilləşdirilməsi həyata keçirildi.

Müstəqil Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin müasir standartlar səviyyəsində olması üçün onun kadr təminatı ilə yanaşı, maddi-texniki məsələlərin həllində Ulu Öndərimizin yaratdığı daxili və xarici siyasət strategiyası əsasında aparılır, yəni bütün bu proseslər ümumilikdə dövlətin əsasən iqtisadi durumu ilə bağlı idi[1].

Ulu öndərimiz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişaf xəttini uzaq görənliklə elə istiqamətləndirmişdir ki, hal-hazırda onun nəticələri Azərbaycanın inkişafında iqtisadi problemin həll olunduğunu gündəmə gətirmişdir. Ulu Öndər Heydər Əliyevin varisi Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən həmin siyasət indi Azərbaycan Ordusunun yalnız bölgədə deyil, bütünlükdə dünyanın ən müasir orduları arasında yer tutmasına imkan vermişdir.

Eyni zamanda Ümummilli Liderimiz müstəqil Azərbaycan Respublikasının qurulması və inkişaf etdirilməsinin siyasi kursunu ardıcıl surətdə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarının son illərdə dünya dövlətlərinin başçıları ilə yüksək səviyyədə keçirdiyi görüşlər, imzaladığı beynəlxalq normativ hüquqi sənədlər ölkəmizin iqtisadi, siyasi və hərbi gücünün yüksəldilməsində özünün səmərəsini verməkdədir [1].

Nəticə

Azərbaycan Respublikasının öz müstəqilliyini yenidən bərpa etdikdə (XX əsrin 90-cı illəri), onun düşdüyü çətin vəziyyətdən ulu öndərimiz daxili və xarici siyasətinə əsasən çıxarmaq mümkün oldu.

Azərbaycanın vahid mərkəzdən idarə olunan Silahlı Qüvvələrinin (Milli Ordu) yaradılmasının bütün mərhələləri Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü, qayğısı, təklifləri və rəhbərliyi nəticəsində həyata keçirilmişdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. H.Əliyev, Vətəni, torpağı, dövləti qorumaq ordumuzun şərəfli vəzifəsidir və borcudur (Ordumuzun 82 illiyinə həsr olunmuş çıxışı). Bakı? Hərbi nəşriyyat, 2000. S.16.
2. "Xalq" qəzeti, 2000-2024

TURKISH LANGUAGES IN THE MIDDLE AGES

Lala Abdullazade
Azerbaijan State Agrarian University
laleabdullazada@gmail.com

The level of development of each language is determined by its stable grammar, rich lexicon, and comprehensive stylistic differentiation. The primary factor of a literary language is its stable phonetic, lexical, and grammatical norms. This normalization, unification, and standardization, in addition to ensuring the systematicity of all layers of the language, also plays the role of a self-defense mechanism for the language. Normalization, as a process, is a phenomenon that provides stability in the language, but tends to change over a wide time frame. "The historical category that is important for the preservation and development of the national nature of each language, namely, the strong grammatical structure that has kept languages alive and brought them to this day, their tolerance, uniqueness, and resistance to foreign influences, is the norm category that encompasses the entire language system" (Mammadov I.).

The norm, which manifests itself in all spheres of language activity, attracts attention as the main criterion that guides historical development in the language system. Various laws and rules arising from the very essence of the language system are united under the name of norm. The norm is a collection of models and templates that have been historically formed and contribute to the realization of the language system. We can see that these models and templates belong to all layers of the language. "This system has both historicity and modernity. The norm is present in both written and oral language. The norm is also present in separate speech areas of the national language, which has stable rules. The norm has both a general sound and a social character, serving specific language collectives" (Huseynzade Ch., Baku 2004). Maintaining the balance between the written and oral branches of the language, the creation of a stable form of communication are closely related to the norm system. E.Koseriu's "system-norm-speech" model actually reflects this process in its entirety (Koseriu E., M. 1963). Based on this model, the scientist proves that functional language is a system of functional conflicts and normal realizations, or more precisely, a system and a norm. A system is a "system of coordinate possibilities indicating the beginning and end of the path" in speech understandable to a certain collective, while a norm, on the contrary, is a system of essential realizations accepted by a certain community and culture. A norm is not "what you can say", but "what can be said" or "already said" according to the tradition in the community (Koseriu E., M. 1963). From this point of view, the norm and the system are interconnected by an external and internal synchronized balance.

Language is a system with its history and present, and the norm is a "model of manifestation" formed on the basis of the "experience" it has accumulated in the process of its historical development. While the system reflects the dynamics of the language, the norm ensures the fixation of the language on the basis of traditional forms. Explaining the historical development of language on the basis of the principle of genetic objectivity, B.de. Kurtene writes about this: "The mechanism of language and in general, its structure and system are the results of all its previous historical development at the present time, and vice versa, the further development of language is conditioned by this mechanism at a certain time" (B.de Kurtene., Baku 2014). The system is a functional language, and the norm is a "trace of historical language" in the composition of the functional language, a historically stabilized part, a system of rules that frames the functional language and does not allow it to move away from the "root". However, the norm does not slow down the

development of the functional language, on the contrary, the norm, as a regulating party, adapts to dynamics, mobility and causes gradual change. "Normative changes in language manifest themselves in various ways. However, all of these are manifested in the form of a decrease in existing variants, an increase in their number, a shift beyond the boundaries of the literary language, etc. The existence of changes in literary norms does not mean that the literary norm does not tend to stabilize and strengthen. In fact, two tendencies are always manifested in the development of the norm: change and preservation." (Akhundov A., Baku 1988). The norm and the functional language constitute an "archisystem". Because in the process of historical evolution of the language, the functional languages and the system of norms acquire a different essence in terms of periods and they have an internal balance as a whole. This internal balance and connection ensure the stability of the language. The norm and normalization are processes that are formed on the basis of the internal essence of the language and require the speaker to comply with the "nature" of the language. The norm is not determined by the speaker, on the contrary, the "norm" determines the linguistic framework of the speaker's speech or writing. The individual does not create his own "norm", but conveys his thoughts orally or in writing on the basis of the existing norm.

The norm also creates conditions for the internal division of the language into layers. The formation of internal functional differences such as literary language-dialect, spoken style and written style, scientific language-publicistic language, etc. is closely related to the norm. "Perfect, stable norms of the literary language can be created when this language reaches the highest level of development. The stage of the national literary language is completed. In general, at the stage of the national literary language, languages both branch out in function, and the main qualities important for them increase, mature and form, and normalization is completed in a relative sense" (Mammadov I., p. 10) . Normativity in language and the resulting divisions are also closely related to the functionality of the language in that direction. Although the 16th century Safavid court language led to the emergence of the official style of the Azerbaijani language, the restoration of the dominance of the Persian language in this area in subsequent periods, and its later replacement by the Russian language, led to the lack of development of official style normativity in the "archisystem" of the Azerbaijani language. However, if we look at Turkish Turkish, the use of Turkish as an official language from the time of the Ottoman Empire to the present day has led to the continued use of some words that have become archaic in colloquial speech as norms in the official language. For example, the demonstrative pronoun "this" retains its functionality in the language of official documents, but is rarely used in everyday speech. In Azerbaijani, this pronoun has become completely archaic. However, when we look at the archival documents of the Parliament of the People's Republic of Azerbaijan in 1918, we can see that this pronoun was used: "This law shall be implemented from the day it is adopted (Azerbaijan People's Republic of Azerbaijan. Parliament (Stenographic reports). II volume. Baku 1998). Many of the speakers gave reasons for the solution to this issue that... (Ibid. p. 219) Reads these articles of the decree (Ibid. p. 288) The speaker agrees to the issuance of this money on the condition that the refugees are sent to their homeland with this money (Ibid. p. 292). As time passes, for one reason or another, the norm may lose its normality and change its functionality.

Of course, this is most true for lexical norms. Thus, the cohesion of Turkic languages ensures the stability of grammatical norms. In general, the change of grammatical norms occurs over a long period of evolution. As a result, it rarely happens. For example, in Turkish Turkic, the suffix -yor, which was almost undetected until the 16th century, has become the norm as a present tense suffix in 21st century Turkic. It is true that Sh. Shukurov, writing that the suffix -yur/-yur was used in the ancient Orkhon-Yenisei monuments in the 11th- 12th centuries, shows examples of the word yur, yur (Шыкыров Ш., Ташкент 1966). However, in the examples given, it is not the composition of the suffix "y", but the connection between the word stem and the suffix that is consonant. Touching on the fact that the suffix r and yur/yur were used in words ending in a vowel in parallel in the 13th-15th centuries, Sh. Shukurov completes his idea with the examples Ne tileyürsen?- Ne tilärsen? taken from Rabguzi (Шыкыров Ш.:1966). The suffixes - r, -ır4, which were used as present tense suffixes in the 14th-16th centuries, are widely used as tense suffixes in modern

Turkish Turkic. It is true that although the extensive temporal characteristics of the suffix -ir4 are evident in 16th-century examples, this is not the norm. Or the replacement of the non-lipated vowel variant of the suffixes written in four letters with lipated vowels is the norm for medieval Ottomans. For example: "It is written in the kapu of each one.... The first kapu is for the lovers of love. The second kapu is for those who pray" (14th century) (Cemiloğlu I., Ankara 2000). "...the medicine is to make love ill, and the heat is to make the blood flow, which is produced by the bile in the face" (Celalüddin Hızır., Ankara 1990). "It was ordered that the soldiers of Islam should go to Polova and some soldiers would come and see who would be on the side of the infidels (15th century) (Paşazade A. Tevarihi- Ali- Osman. Gökkubbe publications, 2007). In modern Turkish, however, there is no violation of the law of harmony at the end of the word regarding this suffix. In general, during this period, the shift in suffixes became almost traditional, and a suffix with a non-liptic vowel was added to words ending with a lipped vowel, and a lipped vowel was added to words ending with a lipped vowel. "Sultan used to take Muhammed. What is the advice in the evening?" they saw it, they coded it. He was sent to his grandfather in Bursa (Pashazade A. 2007) "He came to the bank of the Danube and stood up in his village... My cousin! Kasim, he is a good helper from his province. I am a genius" (Paşazade A. Tevarihi- Ali- Osman. Gökkubbe publications, 2007). "The medicine of this disease is very similar to the symptoms of the patient's body, it does not come out according to what he eats" (Celalüddin Hızır. Muntahab-ı Shifa. Ankara 1990,). This process is also evident in the examples of the period. Examples such as "tüzdi, körgüzdi, rast kiltürdi, meded yitkürdi" (Nevai A., Ankara, TDK publications, 2015), mezkur boldı (Yen odarad, p.61), dipdürler (Yen odarad, p.23) used in Alisher Navai's work "Mizanül-evzan" show that this process was the norm for all Turkic languages in the 15th century. N. Safarov, who studies the historical violation of synharmonism in the 18th century, writes: "In the process of the formation of the national norm, there are conditions for the Western and Eastern pronunciation cultures to enter into opposition from such a principled position: the East refers to stable written traditions, the West to oral language, as a result, the diachronic opposition regarding the preservation of lip harmony actually becomes synchronized" (Safarov N., Baku 1995). The auxiliary verb "Irmish" is often used in the works of A. Navoi: "çunarab irmish ve anın yakında bir vādī irmish, ve anı Aruz dirler irmish. Ol vadide Arab ölyrin tikip şilve birip bahaga kivürurler irmish" (Nevai A. Ankara 2015).

In the 16th century work "Muyassiratul-ulum", the variant imish is used instead of irmish: "It is well known that the letter itself has no meaning, and if you do not add it to a word, it will not be able to produce meaning" (Bergamalı K. Ankara, p. 7). B. Qadri calls such compounds formed with the auxiliary verb "imish" "Hikayeti-haliyye-i teşkikiyye". "The word imish gives a doubtful meaning, or by hearing from someone or before he was not a scholar and later he could not become a scholar" (Ibid., p.14). "The participle ermish, irmish is an ancient form of "-imish", which is also used in our modern language. H.Mirzazadeh considers the auxiliary verbs erdi /irdi, ermiş/irmiş to have the same root. "However, as time passed, the sound -r from the word composition weakened and disappeared, and in the modern language the form idi, -di (-dü,-dı,-du) became stable. It is known from the Azerbaijani language materials that the first element of this word, -er, -ir, remained in the independent verb irishmak" (Mirzazadeh H., Baku 1962). In the work of M. Kashgari, it is revealed that the root of the word is "er". Where was erdi? - Where were you?" (Kashgarli M., Ankara), "He was like that - He was like that (Yena ibadat, I cild, p.164) . "Ol meniñ birle erdi.- He was with me" (Ibid., Vol. I, p. 430). S. Clauson considers the root of this word to be the verb "er" meaning to be, to exist. Historically, as a result of the dropping of r, the verb "er", which existed as a monosyllabic verb only within certain verb forms, was gradually replaced by the auxiliary verbs ol/bol and dur/tur at certain points. It is clear from the examples given that the normalization of the scientific style at this stage is followed in two directions: 1. Based on the general normalization of Turkic languages by stage; 2. Based on the normalization of the internal scientific style in each language. General normalization is the main feature that distinguishes languages from each other. "The norm is a category that expresses the nationality and uniqueness of the language. Thus, no matter how close any language family is to each other in historical, genetic and typological terms, the norm makes them special and reveals the individual characteristics of each in the information

function" (Hüseynzadeh Ch., Baku 2004). Intra-linguistic normalization occurs in phonetic, morphological, lexical aspects and takes on specific stages. In general, the norm of the literary language and the functional style landscape (especially the socio-ideological semantics of functional styles) are determined in the context of the current cultural-historical process (and its fundamental influence) (Safarov N., Baku 1995).

Thus, the specific norm of each period is formed and after a certain time, that norm becomes the language landscape of the period itself. For example, in the monuments of the XIV-XVI centuries, the replacement of g in the word degil/degül with y in the modern Azerbaijani literary language and ğ in Turkish Turkish is a phonetic norm variation. "The emergence of such manifestations, which were not in the language thinking of the ancestors, in the language thinking of the next generation corresponds to the concept of historical changes, historical succession and transitions in the history of language" (B. de Courtene., Baku 2014). The substitution of i → e in examples such as irmek→ermek, gice→gece, yir→yer, the dropping of i in the word fayide →fayda, the substitution of e → a, the substitution of u and ü in the last syllable in the words altun, azuk, berü, dil kü, kaygu with ı and i are among the changes that occurred in the phonetic norm historically. The fact that the suffix -egü, - ağı in the words biregü, buzağı, bileği takes the form birey in modern Turkish, and buzov, bülov in modern Azerbaijani shows that there is a change in the norm in the suffix. The fact that the pronoun ol becomes o in Turkish and the personal pronoun olar becomes onur in Turkish and Azerbaijani languages, the demonstrative pronoun şol takes the form şu in Turkish Turkish and Uzbek, and its archaicization in Azerbaijani are among the historical changes in the language. These changes are related to factors such as social influences, mutual relations, and linguistic savings. B. de Courteney writes about this that "in the field of related, that is, languages that have developed from the same great language, of course, the classification of the same initial material that has changed its form under the influence of the different conditions in which the peoples speaking these languages live is only a modification of the history of the language" (B. de Courteney., Baku 2014).

However, such modification, norm variability does not cause confusion in the language. Simplification, the weakening of one linguistic phenomenon and its replacement by another usually occurs based on the requirements of speech and is regulated by the internal laws of this language. The most important sign of the normalization of the intra-linguistic scientific style is the high influence of colloquial language in secular sciences, especially in the field of medicine. In religious scientific works, the heaviness of the classical style is observed. For example, let's take a look at a part of the work "Adviyei-mufrada": "And if you eat the hard water of toxmekan water and the tongue of a cow, the blood will not come from the throat, and the weak intestines will harden, but it will go away (14th century) "It is because the eyelids are stiff that a man who runs away cannot open his eyes when he wakes up from sleep, and the corners of his eyes become blue from bile" (14th century) (Bereket H. Summary. Ankara 2016). Even Aktemür bought them and took them to Sultan Aladdin. The Sultan's happiness increased (Paşazade A. Tevarihi-Ali-Osman. Gökkubbe publications, 2007). "It is well established that who is a scholar is a scholar. And why did this person seek this knowledge, there are various akvals" (Nevai A. Mizanül-evzan. Ankara 2015). The linguistic and stylistic features of the examples given are reminiscent of the style of conversation. The subordinate complex sentences formed with and, the expository sentences formed with kim, and the frequent use of the past tense of the witness in short simple sentences make the speech laconic and memorable. The provision of explanations in this way is actually related to the use of such works as textbooks in madrasas. Normalization covers all spheres of the language and there is a dialectical relationship between them. General language norms are also specialized within the functional styles of the language. This functional style provides specificity and expresses the internal norm of the language. For example, the terminology inherent in the scientific style, the lack of emotionality, the scholastic structure of sentences are the main indicators of the norm. The norm is the norm of changes that are subject to the rule based on the historical realities of the language and the conditions of human thinking. Language transforms the concepts in thinking into reality based on the norm and transfers them to the language. The norm thus both maintains stability in the

language structure and creates quantification. Quantification manifests itself as historical changes in the language. This process, which is not noticeable in the synchronous aspect, attracts attention in diachrony.

References

1. Akhundov A. General Linguistics. Baku, Maarif, 1988, p.115
2. Azerbaijan People's Republic. Parliament (Stenographic Reports). Volume II. Baku, Azerbaijan Publishing House. 1998, p.176
3. Bergamali K. Müesseretul- ulum. Prepared by: E. Karabaçak. Ankara, p.7
4. Bereket H. Hulasa. Prepared by Binnur Erdağı Doğuer. Ankara 2016, p.65
5. B.de Kurtene. Works on General Linguistics. Baku, 2014, p.59
6. Cemiloğlu I. XIV century. Syntax analysis on a copy of a Short Story-Enbiya. Ankara 2000, p.125
7. Celaluddin Hızır. Muntahab-ı Shifa. Ankara, 1990, p.5
8. . Safarov N. History of the nationalization of the Azerbaijani Turkic language. Baku, 1995, p.56
9. Huseynzadeh Ch. Morphological norms in the Azerbaijani language. Baku, 2004, 280 p.7
10. Koseriu E. Synchrony, diachrony and history// New in linguistics. M. 1963, issue III, p.174- 175
11. Mammadov I. Lexical norms of the Azerbaijani language// Norms and problems of normalization in the Azerbaijani literary language. p.10
12. Nevai A. Mizanül-evzan. Ankara, TDK publications, 2015, p.11
13. Paşazade A. Tevarihi- Ali- Osman. Gökkubbe publications, 2007, p. 424
14. Shykyrov Sh. The history of the verbal forms of the Yzbek language. Tashkent: Fan, 1966, p. 177

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN HİMAYƏDARI

Ülviyyə Rəcəb qızı Rəcəbli
Bakı Slavyan Universiteti
ulviyyerecebli9@gmail.com

Hər bir xalqın mənəvi gücü, tarixi irsi və kimliyi onun milli-mənəvi dəyərlərində cəmlənir. Bu dəyərlər bir xalqın ruhunun, tarixinin, dilinin, mədəniyyətinin və inanc sisteminin ayrılmaz tərkib hissəsidir. Tarix boyu hər bir millət məhz bu dəyərlər sahəsində ayaqda qalır, inkişaf edir və gələcək nəsillərə mənəviyyat mirası ötürür. Xalqımızın da varlığı, özünəməxsusluğu və tarixi dərinliyi onun zəngin milli-mənəvi dəyərlərində öz əksini tapır.

Azərbaycan xalqı üçün milli-mənəvi dəyərlər dedikdə, təkcə maddi-mənəvi irs nəzərdə tutulmur. Burada dini, əxlaqi, ictimai, ədəbi və estetik prinsiplər də mühüm yer tutur. Xalqımızın minilliklər boyu formalaşmış həyat tərzi, adət-ənənələri, mərasim və ayinləri, folkloru, klassik ədəbiyyatı və musiqisi bu dəyərlərin ifadəsidir. Bu dəyərlər millətimizi millət edən ruhun, kimliyin daşıyıcılarıdır.

Ancaq bu dəyərlərin qorunması və inkişaf etdirilməsi hər zaman asan olmamışdır. Tarix boyunca Azərbaycanda baş verən siyasi dəyişikliklər, müstəmləkəçilik dövrləri dini və mədəni təzyiqlər bu dəyərlərin yaşamasına ciddi təhlükələr yaratmışdır. Elə bu səbəbdəndir ki, milli-mənəvi dəyərlərin qorunması və təbliğinə yönəlmiş siyasət aparmaq, xüsusilə müstəqillik dövründə ölkə rəhbərləri üçün başlıca vəzifəyə çevrilmişdir. Məhz bu nöqtədə tarix səhnəsinə çıxan görkəmli şəxsiyyət – Heydər Əliyev, Azərbaycan xalqının milli və mənəvi dəyərlərinin qoruyucusu və himayədarı kimi çıxış etdi. O, təkcə siyasi lider deyil, həm də xalqın ruhunu, kimliyini, tarixi və mədəniyyətini yaşadan böyük dövlət xadimi idi. Onun fəaliyyəti sübut etdi ki, ölkənin iqtisadı və siyasi inkişafı ilə yanaşı, mənəvi zənginlikdə strateji prioritetlərdən biri olmalıdır.

Heydər Əliyevin "Milli-mənəvi dəyərlər bizim keçmişimizin mirası, bu günümüzün sərvəti, sabahımızın zəmanətidir" (1) fikri bu sahəyə verdiyi önəmi, bəslədiyi hörməti açıq şəkildə əks etdirir. Onun hakimiyyəti dövründə bu dəyərlərin dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməsi, həm daxildə milli birliyin möhkəmlənməsinə, həm də beynəlxalq aləmdə Azərbaycan mədəniyyətinin tanıdılmasına səbəb olmuşdur.

Milli-mənəvi dəyərlər dedikdə, bir xalqın tarixən formalaşmış, onun milli kimliyini, ruhunu, adət-ənənələrini, mədəniyyətini və dini baxışlarını əks etdirən mənəvi sərvətlər nəzərdə tutulur. Bu dəyərlər əcdadlarımızdan miras qalan xalqın düşüncə tərzini və dünya görüşünü formalaşdıran əsaslardır.

Azərbaycançılıq ideyasının əsas sütunlarından biri məhz milli-mənəvi dəyərlər sistemidir. Fəlsəfi nöqteyi-nəzərdən, milli-mənəvi dəyərlər insanın mənəvi aləminin toplum halında bərqərar olan modelidir. Onlar həm fərdin iç dünyasını, həm də cəmiyyətin ümumi davranış və dəyərlər sistemini müəyyənləşdirir. Məsələn: ailə bağlarının möhkəmliyi, qonaqpərvərlik, böyüyə hörmət, vətən sevgisi, dini tolerantlıq, mərhəmət – bunlar Azərbaycan xalqının əsas mənəvi dəyərlərindəndir. Xalqın yaddaşında bu dəyərlər nəsildən-nəslə keçəcək, həm folklor nümunələrində, həm ədəbiyyatda, həm də musiqi və incəsənətdə yaşayır. Dahi şairimiz Məhəmmədhüseyn Şəhriyar "Türkün dili diridir, ürəyi saf, əxlaqı uca" deyərkən xalqımızın mənəvi simasını poetik şəkildə ifadə etmişdir.

XX əsrin II yarısı və XXI əsrin başlanğıcı Azərbaycan tarixində ən mürəkkəb və eyni zamanda taleyüklü dövrlərdən biri olmuşdur. Sovet imperiyasının tərkibində milli dəyərlərin sıxışdırıldığı bir zamanda, Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının Birinci Katibi kimi hakimiyyətə gəldikdə, milli özünüdərkin gücləndirilməsi, mədəniyyətin və dilin qorunması istiqamətində mühüm addımlar atdı. Sovet ideologiyasının sərt çərçivələri daxilində o, incə və strateji yolla Azərbaycanın milli kimliyini qorumağa çalışırdı. O dövrdə bir çox Azərbaycan yazıçısı, şairi və sənət adamı təqib olunmaqdan xilas edildi, əsərləri nəşr olundu, milli musiqimizə, xüsusilə muğam sənətinə dövlət səviyyəsində diqqət artırıldı.

Heydər Əliyev deyirdi: "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" bu məşhur ifadə təkcə bir liderin deyil, bütöv bir xalqın öz milli kimliyinə qayıdışının təməlini qoydu.

1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dili dövlət strukturlarında və təhsil sistemində daha geniş tətbiq olunmağa başladı. Həmin dövrdə Azərbaycan dilində dərsliklərin, elmi və bədii ədəbiyyatın nəşr edilməsi genişləndi. Ali məktəblərə qəbul imtahanlarının bir hissəsi Azərbaycan dilində keçirildi. Bu millətin öz kimliyinə olan bağlılığını artıran strateji addım idi.

Dövlətimizin rəhbərliyini öz üzərinə götürdüyü dövrdə o, Azərbaycanın sosial-iqtisadi inkişafına böyük töhfələr vermiş, təhsil, mədəniyyət sahələrində mühüm irəliləyişlərə nail olmuşdur. Heydər Əliyev həm də ordu quruculuğuna xüsusi diqqət yetirmiş, hüquqi dövlətin əsasını qoymuş, Azərbaycançılıq ideologiyasını yüksək səviyyədə bərqərar etmişdir.

Ölkəmizdə elə bir sahə yoxdur ki, orada Ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı, tarixi rolu hiss olunmasın. Unudulmaz dahi şəxsiyyət hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunması üçün yorulmadan çalışıb. Mədəni irsimizin, milli incəsənətimizin inkişafında Ümummilli Liderin verdiyi töhfələr danılmazdır.

Ulu Öndər hər zaman mədəniyyəti ölkənin ümumi inkişafının vacib cəbhəsi hesab edirdi. Heydər Əliyev Azərbaycançılıq ideologiyasını milli birlik və həmrəyliyin əsas təməli kimi irəli sürmüşdür. O, dəfələrlə qeyd edirdi ki, xalqını sevən, dövlətini sevən hər bir vətəndaş milli-mənəvi dəyərlərimizi də sevməli, onları qorumalı və inkişaf etdirməlidir. Ümummilli Liderin ölkəyə rəhbərliyi dövründə Azərbaycan dilinin dövlət dili kimi qorunması, mədəniyyətin və təhsilin inkişafı, tarixi abidələrimizin bərpası və xalq sənətkarlığının təşviqi milli dəyərlərə verdiyi əhəmiyyətin bariz sübutudur.

Müstəqillik dövründə isə Heydər Əliyevin imzaladığı "Dövlət dili haqqında Qanun" Azərbaycan dilinin Dövlət dili statusunu hüquqi baxımdan təsbit etdi. Bundan başqa, latın qrafikalı əlifbaya keçid, həm milli kimliyin möhkəmlənməsi, həm də dünya ilə inteqrasiyanın gücləndirilməsi baxımından mühüm addım idi.

Ümummilli Liderin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən mədəni tədbirlər, yubileylər, xalq sənət-karlığına göstərilən diqqət və qayğı, milli bayramlarımızın dövlət səviyyəsində qeyd olunması milli şüurumuzun formalaşmasına və dəyərlərimizin möhkəmlənməsinə mühüm töhfə vermişdir. O, keşmişimizi unutmağa deyil, ondan öyrənməyə və onu gələcək nəsillərə çatdırmağa çağırırdı.

Heydər Əliyevin hakimiyyəti dövründə zəngin milli-mədəni irsimizin qorunması və inkişafı istiqamətində çoxsaylı tədbirlər həyata keçirildi. Azərbaycan Dövlət Musiqili Komediya teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet teatrı, M.F.Axundzadə adına Milli kitabxana, Milli İncəsənət Muzeyi kimi müəssisələlərin fəaliyyəti daha da genişləndirildi, onlar dövlət qayğısı ilə əhatə olundu.

Bundan əlavə, UNESCO ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın maddi və qeyri-maddi irs nümunələrinin beynəlxalq səviyyədə tanıdılması üçün əsaslı işlər görüldü. 1998-ci ildə Mədəniyyət Nazirliyi yeni strukturla fəaliyyətə başladı, bu da mədəniyyət siyasətinə sistemli yanaşmanın formalaşmasına şərait yaratdı.

Ümummilli Lider Muğam sənətinə xüsusi əhəmiyyət verir, bu qədim sənətin təkcə musiqi deyil, həm də milli ruhumuzun daşıyıcısı olduğunu bildirirdi. Onun təşəbbüsü ilə böyük muğam müsabiqələri, folklor festivalları, xalq sənətkarlığı sərgiləri təşkil olunurdu. Heydər Əliyevin mədəniyyət ilə bağlı çox gözəl bir sitatı vardır: "Mədəniyyət hər bir xalqın varlığını sübut edən mənəvi qüvvədir" (1, 3).

Nəticə olaraq deyə bilərik ki, milli və mənəvi dəyərlərin qorunması bir xalqın varlığının və gələcəyinin təminatıdır. Bu dəyərlərin himayədarları isə onları sadəcə yaşatmır, eyni zamanda yeni nəsillərə ötürməklə xalqının gələcəyini də qururlar. Heydər Əliyev kimi şəxsiyyətin irsi və əməlləri bu sahədə yol göstəricisi kimi əhəmiyyət kəsb edir.

Heydər Əliyev yalnız siyasətçi deyil, həm də mədəniyyətin, ədəbiyyatın, incəsənətin böyük himayədarı kimi yadda qalıb. Onun təşəbbüsü ilə milli musiqimizin inciləri, özəlliklə muğam sənəti dünya meydanında tanıdılmağa başladı. O, muğamı Azərbaycan xalqının ruhunu əks etdirən bir dəyər kimi qiymətləndirirdi. Ulu Öndər Azərbaycanın milli musiqi beşiyi olan Şuşanın mədəniyyət mərkəzi kimi tanınmasında da mühüm rol oynamışdır.

Heydər Əliyev həmçinin gənc nəslin milli ruhda tərbiyə olunmasını vacib sayırdı. Təhsil sistemində milli kimlik, vətənpərvərlik və tarix dərslərinə xüsusi önəm verilməsi məhz onun əziyyətinin bəhrəsidir.

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra ölkədə yaranmış çətinliklərə baxmayaraq, Heydər Əliyev milli birlik ideyasını ön plana çəkərək xalqın bir yumruq kimi birləşməsinə nail oldu. Onun uzaqgörən siyasəti sayəsində Azərbaycanın dövlətçilik ənənələri yenidən dirçəldi və müasir dövlət quruculuğunun əsası atıldı. Milli və mənəvi dəyərlərin qorunmasına təkcə keçmişə hörmət deyil, həm də gələcəyə olan məsuliyyətdir. Bu dəyərləri yaşatmaq, onları gənc nəsillərə aşılayaraq gələcəyin sağlam təməllər üzərində qurulmasını təmin etmək hər bir vətəndaşın borcudur. Heydər Əliyev bu anlayışı təkcə sözdə deyil, əməldə də göstərən nadir şəxsiyyətlərdən biri olub (5, 12).

Heydər Əliyev bu dünyadan köçsə də, onun səsi küləklərdə, izləri yollarımızda, nəfəsi qədirbilən xalqımızın ürəyində yaşayır. O, tariximizin yaddaşında bir ulu müdrik, bir dahi olaraq daim qalacaq.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev H. Mədəniyyət işçiləri ilə görüşdən çıxış. Bakı, 1997.
2. Əliyeva S. Azərbaycanın milli və mənəvi dəyərləri, onların qorunması. Bakı, 2014.
3. İsmayılov H. Azərbaycan mədəniyyətinin inkişaf mərhələləri. Bakı, 2012.
4. Quliyev A. Milli kimlik və mədəni yaddaş. Bakı, 2010.
5. Məmmədov E. Heydər Əliyev və mədəniyyət strategiyası. Bakı, 2000

GƏNCLƏR SİYASƏTİ DÖVLƏT SİYASƏTİNİN MÜHÜM VƏ APARICI İSTİQAMƏTİ KİMİ

Nailə Nazim qızı Əlicanova
Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu
alicanovanaila@gmail.com

Azərbaycanın ictimai-siyasi həyatında dərin iz qoymuş, xalqımızın milli yaddaşında müdrik lider və böyük dövlət xadimi kimi əbədi yer alan Heydər Əliyevin fəaliyyəti çoxşaxəli və əhatəlidir. Onun rəhbərliyi ilə həyata keçirilən strateji xətt müstəqil Azərbaycanın siyasi sabitliyinin, iqtisadi dirçəlişinin və sosial inkişafının təməlini təşkil etmişdir. Ulu Öndərin dövlət siyasətində xüsusi yer tutan istiqamətlərdən biri də gənclər siyasəti olmuşdur. Heydər Əliyev gəncləri dövlətin və cəmiyyətin ən mühüm sosial dayağı hesab etmiş, onların intellektual və mənəvi inkişafına, milli ruhda yetişməsinə, vətənpərvər, savadlı və bacarıqlı bir nəslin formalaşmasına xüsusi diqqət göstərmişdir [2].

Gənclər siyasətinin məqsədi təkcə gənclərə sosial dəstək verməklə məhdudlaşmırdı. Bu siyasət, ilk növbədə, Azərbaycanın gələcəyini formalaşdıracaq sağlam düşüncəli, milli dəyərlərə sadiq, dünya ilə ayaqlaşan bir gənc nəslin yetişdirilməsinə yönəlmiş kompleks tədbirləri əhatə edirdi. Əbəs yerə deyil ki, Heydər Əliyevin "Mən hər zaman fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam" kəlamı gənclər arasında milli qürur hissinin güclənməsində bir vətənpərvərlik çağırışı kimi qəbul edilmiş və gənc nəslin ideoloji tərbiyəsində mühüm yer tutmuşdur.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Heydər Əliyev hələ Azərbaycan Respublikası Ali Sovetinin Sədri olarkən 1993-cü ilin 22 sentyabrında ilk olaraq, gənclərin nümayəndələri ilə görüşərək, onlara müraciətində bildirmişdi: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda, müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin gələcəyinin, xalqımızın daha firavan yaşamasının təməlini qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik."

Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra təhsilimizin ötən əsrin 70-80-ci illərində mövcud olmuş bir çox ənənələri kimi, xarici ölkələrə tələbələrin göndərilməsi ənənəsi də davam və inkişaf etdirilməyə başlandı. Artıq 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alırdı. Dövlət hesabına xaricdə təhsil alan gənclərin sosial durumu daim Ulu Öndərin diqqət mərkəzində idi. Təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2,4 milyard manat vəsait ayrılmışdı [5]. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir nümunəsidir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı [1]. Bütün bunları bilən Ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq, 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.

1997-ci il fevralın 1-də Forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Fərman imzaladı. Onu da qeyd edək ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edildi. 2 mart 1999-cu il tarixdə Azərbaycan Gənclərinin İkinci Forumundakı çıxışında Ulu Öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi. Heydər Əliyev forumda "XXI əsr gənclərin əsridir" deyərək gənclərə verilən dəyəri və onların ölkənin inkişafı üçün üzərlərinə götürdüyü məsuliyyəti göstərmiş oldu

Ulu öndər Heydər Əliyev 1999-cu il iyulun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" Fərmanla gənclərin inkişafı üçün daha əlverişli şərait yaradılmışdır. Fərmanla Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmiş, Gənclər və İdman Nazirliyinin nəzdində gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzi yaradılmışdır

2002-ci il 9 aprel tarixində "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [3]. Bu Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir

Azərbaycan gənclərinin vətənə sədaqət ruhunda tərbiyə edilməsi məsələsi Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının hər zaman mühüm istiqamətlərindən biri olmuşdur. Heydər Əliyev deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir." [4]. Bu siyasətin davamı olaraq, Prezident İlham Əliyev mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb

Sonda əminliklə deyə bilərik ki, Heydər Əliyevin həyata keçirdiyi gənclər siyasəti Azərbaycanın gələcəyinin etibarlı əllərdə olması üçün düşünülmüş və strateji əsaslara söykənən bir dövlət siyasəti olmuşdur. Ulu Öndərin uzaqgörənliyi nəticəsində bu gün ölkəmizdə vətəninə bağlı, yüksək intellektual potensiala malik, milli-mənəvi dəyərlərə sadiq bir gənclik formalaşmışdır. O, gəncləri cəmiyyətin avanqard qüvvəsi hesab etmiş və onların hərtərəfli inkişafını daim dəstəkləmişdir. Bu siyasət nəticəsində gənclər təkcə dövlətin iqtisadi-siyasi həyatında deyil, həm də beynəlxalq platformalarda Azərbaycanın layiqli təmsilçilərinə çevrilmişlər.

Hazırda Ulu Öndərin müəyyənləşdirdiyi bu xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclərin innovativ ideyalarının reallaşdırılması, startapların dəstəklənməsi, xaricdə təhsil imkanlarının genişləndirilməsi, gənclər təşkilatlarının fəaliyyətinin stimullaşdırılması kimi çoxsaylı tədbirlər bu siyasətin davamlılığının bariz nümunəsidir. Eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən humanitar və sosial layihələr də gənclərin inkişafına mühüm töhfə verir.

Beləliklə, Heydər Əliyevin gənclərə göstərdiyi yüksək etimad və diqqət bu gün də öz bəhrəsini verməkdədir. Bu siyasət həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə Azərbaycan gənclərinin söz sahibi olmasına, milli maraqlarımızın qorunmasına və gələcək nəsillərin sağlam təməl üzərində formalaşmasına mühüm töhfə vermişdir.

Ulu Öndərin qoyduğu bu möhkəm təməl gələcək nəsillər üçün həm örnək, həm də inkişaf yolu kimi əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", 1-2-3-4 kitablar, Bakı 1997

2. Əliyev H.Ə. Gənclərin birlik, dostluq və əməkdaşlığının möhkəmləndirilməsi, sülh və sosial tərəqqi uğrunda. Bakı – 1981

3. Heydər Əliyev və Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin formalaşması // ADPU-nun Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2011, s. 135-143

4. Heydər Əliyev və Azərbaycan gənclərinin mənəvi tərbiyəsi (1993-2003- cü illər). Akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş konfransın materialları / Tarix və onun problemləri. Nəzəri, elmi-metodiki jurnal. № 2, Bakı, 2012, s. 212-215.

5. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı- Avropa, 2019, 594 s.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İKT-NİN İNKİŞAFI

Həsən Tağı oğlu Nəcəfov
Naxçıvan Dövlət Universiteti
hasan.nacafov@ndu.edu.az

Müasir dünyada informasiya-kommunikasiya texnologiyaları (İKT) cəmiyyətin bütün sahələrinə nüfuz edərək, qlobal iqtisadiyyatın və sosial münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycanın İKT sektorunda əldə etdiyi uğurlar, əsasən, bu sahədə düşünülmüş dövlət siyasətinin və strateji yanaşmaların nəticəsidir. Bunun təməlini Ümummilli lider Heydər Əliyev qoymuşdur [1]. Onun rəhbərliyi dövründə informasiya cəmiyyətinin qurulması istiqamətində ciddi addımlar atılmış, İKT sahəsinin inkişafı dövlət prioritetləri sırasına daxil edilmişdir [5]. Bu məqalədə Heydər Əliyevin İKT sahəsindəki vizyonu, strateji sənədləri və Azərbaycanda İKT-nin inkişafına verdiyi töhfələr geniş şəkildə təhlil olunur.

Heydər Əliyev informasiya cəmiyyətinin formalaşdırılmasını ölkənin gələcək inkişafı üçün əsas şərt kimi qiymətləndirirdi. O, dəfələrlə qeyd etmişdi ki, müasir dünyada inkişaf etmiş ölkələrin əsas göstəricilərindən biri informasiya texnologiyalarının səviyyəsidir [1]. Ulu Öndər ölkənin rəqəmsallaşması, əhalinin İKT savadlılığının artırılması və texnologiyaların dövlət idarəçiliyində tətbiqinə xüsusi önəm vermişdir [6].

1990-cı illərin sonlarından etibarən Heydər Əliyevin təşəbbüsü ilə ölkədə İKT-nin inkişafına yönəlmiş mühüm tədbirlər həyata keçirilmişdir. Ulu Öndərin çıxışlarında informasiya texnologiyalarının iqtisadiyyat, təhsil və mədəniyyət sahələrində tətbiqinin vacibliyi daim vurğulanırdı [6]. Bu yanaşma Azərbaycanı regionda İKT sahəsində lider ölkəyə çevirmək istiqamətində mühüm zəmin yaratdı.

Heydər Əliyev dövründə İKT-nin inkişafı ilə bağlı bir sıra qanunvericilik aktları, fərman və sərəncamlar verilmiş, qərarlar qəbul olunmuşdur. Onlardan ən əhəmiyyətlisi 2000-ci ildə imzalanmış "Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının inkişafına dair Milli Strategiya" idi [2]. Bu sənəd ölkədə İKT sektorunun inkişafı üçün hüquqi və institusional əsaslar yaratmışdır [3].

Milli Strategiya çərçivəsində aşağıdakı istiqamətlər üzrə tədbirlər həyata keçirilmişdir:

- Telekommunikasiya infrastrukturunun yenidən qurulması və modernləşdirilməsi;
- Elektron hökumət (e-hökumət) konsepsiyasının hazırlanması;
- İnformasiya texnologiyalarının dövlət idarəçiliyində tətbiqi;
- Təhsil və tədqiqat müəssisələrində İKT-nin inkişafı;
- İKT üzrə milli kadr potensialının formalaşdırılması [4].

Heydər Əliyev dövründə həyata keçirilən mühüm layihələr sırasında beynəlxalq telekommunikasiya şəbəkələrinə qoşulma, milli domen (.az) sisteminin yaradılması və internet xidmətlərinin genişləndirilməsi xüsusi yer tutur [4]. Eyni zamanda, Azərbaycan ilk dəfə olaraq, beynəlxalq İKT sərgilərində təmsil olunmağa başlamışdır [3].

1999-cu ildə "Aztelekom" İstehsalat Birliyi və digər rabitə qurumlarının modernləşdirilməsi prosesi başlamış, ölkə üzrə rəqəmsal telefon şəbəkəsinin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bu dövrdə ilk dəfə olaraq regionlarda genişzolaqlı internetin tətbiqi məsələləri gündəmə gəlmiş və texniki baza formalaşdırılmışdır [3].

Heydər Əliyevin təşəbbüsü ilə İKT-nin təhsil sistemində tətbiqi də geniş vüsət almışdır. Orta və ali məktəblərdə kompüterləşdirilmə prosesi başlanmış, informatika fənninin tədrisi genişləndirilmişdir [5]. Ulu Öndər qeyd edirdi: "Texnologiyaları bilməyən xalq gələcəkdə inkişaf edə bilməz" [1]. Bu prinsip əsasında məktəblərin maddi-texniki bazası gücləndirilmiş və müasir təhsil texnologiyaları tətbiq olunmağa başlamışdır.

Bundan əlavə, bank sektoru, nəqliyyat, səhiyyə və digər sahələrdə də İKT-nin tətbiqi üçün ilkin hüquqi və texniki baza yaradılmışdır [4].

Heydər Əliyevin rəhbərliyi dövründə atılan addımlar, sonrakı illərdə İKT sahəsində davamlı inkişafın əsasını qoydu [3]. Onun strateji baxışı və uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün regionun ən qabaqcıl İKT mərkəzlərindən birinə çevrilmişdir [5]. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən islahatlar Ulu Öndərin müəyyən etdiyi inkişaf xəttinin uğurla davam etdirildiyini sübut edir.

Müasir dövrdə "rəqəmsal Azərbaycan" konsepsiyası və elektron hökumət xidmətləri məhz Heydər Əliyev tərəfindən əsası qoyulmuş inkişaf strategiyasının davamıdır [6]. Bu baxımdan, onun İKT sahəsindəki xidmətləri Azərbaycan tarixində əvəzolunmaz yer tutur [1].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abbasov, R. (2012). *İnformasiya cəmiyyəti və Azərbaycanda İKT siyasəti*. Bakı: Təhsil.
2. Azərbaycan Respublikası Prezidenti. (2000). *İKT-nin inkişafına dair Milli Strategiya haqqında Fərman*. www.president.az
3. Əliyev, H. (2001). *Müstəqilliyimiz əbədidir*. Bakı: Azərnəşr.
4. Əliyeva, S. (2018). "Heydər Əliyevin İKT siyasəti və müasir çağırışlar", *Elm və İnnovasiya*, № 3, s. 45–50.
5. Quliyev, F. (2010). *Azərbaycan Respublikasında informasiya texnologiyalarının inkişafı*. Bakı: Elm.
6. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi. (2015). *Azərbaycanın İKT sahəsində inkişafı*. Bakı.

MİLLİ SUVERENLİK VƏ KONSTİTUSİYA: HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK KONSEPSİYASI

Zümrüd Rahim qızı Osmanlı
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu
zumrud_osmanli@mail.ru

Giriş

Milli suverenlik hər bir dövlətin siyasi və hüquqi varlığının təməlini təşkil edir. Müstəqil dövlətin hüquqi əsaslarının formalaşdırılması isə suverenliyin təminatçısı olan konstitusiyanın qəbul və tətbiqi ilə birbaşa bağlıdır. Azərbaycan Respublikasının dövlət quruculuğunda Ümummilli lider Heydər Əliyevin rolu bu baxımdan müstəsna əhəmiyyət daşıyır. Onun rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ölkənin hüquqi dövlət kimi inkişafına təkan vermiş, dövlətçilik ideologiyasının möhkəmləndirilməsi istiqamətində əsaslı islahatlar həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin dövlətçilik konsepsiyası və hüquqi dövlət modeli

Ümummilli lider Heydər Əliyev müasir dövlətçilik ideyasını hüquqi dövlət modelinə əsaslandıraraq, demokratik institutların, vətəndaş cəmiyyətinin və hüquqi sistemin inkişafını strateji prioritet kimi müəyyən etmişdir. Onun fikrincə, hüquqi dövlətin bünövrəsini güclü konstitusiya təşkil etməlidir. O qeyd edirdi: *"Hər bir dövlətin siyasi, iqtisadi, sosial və mənəvi həyatının əsaslarını müəyyən edən sənəd onun Konstitusiyasıdır"* [5]. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası məhz bu strateji baxışın məhsulu kimi

meydana çıxmışdır. Bu sənəd insan hüquq və azadlıqlarının təminatına, hakimiyyətin bölünməsi prinsipinə, demokratik seçki sisteminə və hüquqi pluralizmə əsaslanır [3].

Ümummilli lider Heydər Əliyevin dövlətçilik konsepsiyası Azərbaycanın müstəqilliyinin qorunması və inkişaf etdirilməsi üçün mühüm strateji yanaşmalar təqdim edir. Konsepsiya eyni zamanda suverenlik, hüquqi dövlət, güclü dövlətçilik institutları və beynəlxalq hüquqla harmoniyanı özündə birləşdirir. Bu konsepsiya əsasında Azərbaycan Respublikasının Konstitusiyası həm daxili, həm də beynəlxalq hüquq normalarına uyğun şəkildə tərtib olunmuşdur. O, dövlətin güclü və sabit olması üçün hüquqi və iqtisadi islahatların həyata keçirilməsini vacib hesab edirdi. Bu baxımdan Ümummilli lider Heydər Əliyev Azərbaycanda demokratik və hüquqi dövlət qurulması məqsədilə bir sıra əsaslı islahatlar həyata keçirmişdir [8]. Belə ki, onun dövlətçilik konsepsiyasının əsasını hüquqi dövlət prinsipi təşkil edir. O, dövlət suverenliyinin əsas şərti kimi güclü hüquqi sistemin mövcudluğunu qeyd etmiş [4] və Azərbaycan Konstitusiyasının qəbuluna xüsusi önəm vermişdir. Bu Konstitusiyanın milli suverenliyi qorumaq, vətəndaşların hüquqlarını təmin etmək və dövlətin gücünü hüquqi əsaslarla tənzimləmək məqsədinə xidmət etməli olduğunu vurğulamışdır. Bu yanaşmalar Azərbaycanın gələcək inkişafının əsasını təşkil edən dəyərləri formalaşdırmışdır [8]. Bütün bunlar onu göstərir ki, 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarını əks etdirən mühüm hüquqi sənəd olmuşdur [3].

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın hüquqi əsaslarının möhkəmləndirilməsi üçün konstitusiyanı aşağıdakı prinsiplər əsasında qurulmasını təmin etmişdir:

- **Suverenliyin təmin edilməsi:** Dövlətin daxili və xarici siyasətini müstəqil həyata keçirməsi,
- **Hüquqi dövlət prinsipləri:** Konstitusiyanın ali hüquqi qüvvəyə malik olması və bütün dövlət institutlarının bu sənədə əsaslanması,
- **Demokratik idarəçilik modeli:** Hakimiyyətin bölgüsü və hüquq sisteminin şəffaf fəaliyyət göstərməsi,
- **İnsan hüquqlarının qorunması:** Konstitusiyanın vətəndaşların fundamental hüquqlarının və azadlıqlarının qorunması üçün əsas norma olması.

Belə ki, Ümummilli lider Heydər Əliyev konstitusiya haqqında vurğulamışdır: "*Konstitusiya müstəqil dövlətin hüquqi pasportudur və onun möhkəm təməllər üzərində qurulması dövlətin gələcəyinin təminatçısıdır*"[4, s. 45].

Qanunvericilik və idarəetmədə Konstitusiyanın rolunun gücləndirilməsi

Ümummilli lider Heydər Əliyev Azərbaycanın Konstitusiyasının tətbiqini və bununla bağlı qanunvericilik islahatlarının həyata keçirilməsini prioritet hesab etmişdir. O, dövlətin əsasını təşkil edən hüquqi və sosial-iqtisadi quruluşun düzgün formalaşdırılması üçün qanunların tətbiqini sürətləndirmiş və ölkə daxilində hüquqi mədəniyyəti inkişaf etdirmək məqsədini güdmüşdür [9]. Belə ki, konstitusiyanın qəbulundan sonra Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə geniş miqyaslı hüquqi islahatlar proqramı həyata keçirilmişdir.

1998-ci ildə "Hüquqi İslahat Konsepsiyası"nın təsdiqlənməsi ilə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, insan hüquqlarının qorunması və yeni normativ-hüquqi bazanın yaradılması prosesləri sürətlənmişdir [2]. Bu konsepsiya konstitusion prinsiplərə söykənən hüquqi sistemin inkişafını təmin etmiş, ölkədə hüquqi dövlət quruculuğunu praktik mərhələyə keçirmişdir. Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmuş [1] və bu sənəd Konstitusiyanın 148-ci maddəsinə əsasən daxili hüquq sisteminin tərkib hissəsinə çevrilmişdir. Belə ki, ümummilli lider Heydər Əliyev 2002-ci ildə Konstitusiyaya edilən əlavə və dəyişikliklərin də təşəbbüskarı olaraq, aparılan hüquqi islahatlar nəticəsində beynəlxalq hüquq normaları milli qanunvericiliyə inteqrasiya olunmuşdur. Bu dəyişikliklər Konstitusiyanın daha da liberallaşdırılması, demokratikləşdirilməsi və beynəlxalq hüquqi normalara uyğunluq olaraq hüquq sisteminin qlobal standartlara uyğunlaşdırılması məqsədi daşıyırdı. Burada insan hüquq və azadlıqlarının məzmununun genişləndirilməsi, vətəndaşların seçki hüquqlarının daha effektiv təminatı xüsusi yer tutur [1].

Belə ki, beynəlxalq hüquq normalarının milli hüquq sisteminə inteqrasiyası aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir:

- İnsan hüquqlarının qorunması – Azərbaycan Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiya edərək insan hüquq və azadlıqlarının təminatını konstitusion səviyyədə təsbit etmişdir.

- Demokratik institutların inkişafı – Beynəlxalq öhdəliklər çərçivəsində hüquq sistemində islahatlar aparılmışdır.

- İqtisadi qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması – Azərbaycanda iqtisadi hüquq çərçivəsi Dünya Ticarət Təşkilatının standartlarına uyğunlaşdırılmışdır.

Milli Suverenlik və Geosiyasi Reallıqlar: Ümummilli lider Heydər Əliyevin dövlətçilik konsepsiyası milli suverenliyin yalnız siyasi yox, eyni zamanda hüquqi və iqtisadi mexanizmlərlə möhkəmləndirilməsini tələb edirdi. Onun fikrincə, "*Suverenlik yalnız bayraq və himnlə deyil, eyni zamanda qanunla, Konstitusiya ilə xalqın iradəsini əks etdirən sistemlə qorunur*" [6]. O, xüsusilə Xəzər regionunda Azərbaycanın strateji mövqeyinin gücləndirilməsi üçün geniş beynəlxalq əlaqələr qurmuş, həmçinin iqtisadi və hərbi sahələrdə əməkdaşlıq əlaqələrini inkişaf etdirmişdir. Azərbaycanın enerji resurslarının dünya bazarına çıxarılması və digər ölkələrlə iqtisadi əməkdaşlıq qurulması bu sahədə əsas addımlar olmuşdur. Azərbaycanın müstəqilliyi və suverenliyini təmin etmək üçün o, həmçinin ölkənin daxili təhlükəsizliyini də gücləndirmişdir. Bu, xüsusilə Qarabağ münaqişəsinin həlli və ölkə daxilindəki siyasi sabitliyin təmin olunması üçün önəmli bir addım olmuşdur. Ümummilli lider Heydər Əliyev münaqişənin diplomatik yolla həllinə yönəlmiş siyasi iradəsini ortaya qoymuş, Azərbaycanın milli suverenliyini qorumaya və ərazi bütövlüyünü təmin etməyə çalışmışdır [7].

Xüsusi qeyd etmək lazımdır ki, post-sovet məkanında müstəqilliklərini bərpa edən dövlətlərin bir çoxunda qeyri-stabil siyasi proseslər fonunda konstitusional boşluqlar müşahidə edildiyi halda Azərbaycanda bu boşluq Ümummilli lider Heydər Əliyevin hüquqi dövlət konsepsiyası ilə doldurulmuşdur. Bu eyni zamanda ölkənin beynəlxalq münasibətlər sistemində müstəqil və balanslı mövqe tutmasını təmin etmişdir. Bu məqsədin reallaşdırılması üçün Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusilə BMT, ATƏT və digər beynəlxalq strukturlarla əlaqələri inkişaf etdirilmişdir [7].

Nəticə

Ümummilli lider Heydər Əliyevin dövlətçilik konsepsiyası Azərbaycanın müstəqil dövlət olaraq möhkəmlənməsi, hüquqi islahatların həyata keçirilməsi və Konstitusiyanın ali hüquqi qüvvəsinin təmin olunması ilə milli suverenliyin qorunmasına yönəlmiş kompleks yanaşmanı əhatə edir. Konstitusiyanın beynəlxalq hüquq normaları ilə uyğunluğun təmin edilməsi isə Azərbaycanın qlobal hüquq sisteminə inteqrasiyasına şərait yaratmışdır. Ümummilli lider Heydər Əliyevin siyasi irsi bu gün də Azərbaycanın hüquqi-siyasi sistemində öz aktuallığını qorumaqdadır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Avropa İnsan Hüquqları Konvensiyası və onun protokolları,-1950,- Strasburq, Avropa Şurası, [Elektron resurs] – URL : https://www/coe.int/az/web/compass/the-european-convention-on-human-rights-and-its-protocols

2. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Hüquqi İslahat Konsepsiyası"// 18 fevral 1998-ci il, [Elektron resurs] – URL : www.president.az

3. Azərbaycan Respublikasının Konstitusiyası, -Bakı,-1995, [Elektron resurs] – URL : https://e-qanun.az/framework/897

4. Əliyev, H. Müstəqilliyimiz əbədidir**:** Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. oktyabr, 1999 - dekabr,1999, kitab:14/ H.Ə.Əliyev; Buraxılışa məsul: R.Mehdiyev. -Bakı, -Azərnəşr,-2005,-520 s.

5. Əliyev, H. *Müstəqilliyimiz əbədidir* /-Bakı,-Azərnəşr,-1996,- s. 121

6. Əliyev, H. *Azərbaycançılıq məfkurəsi*/- Bakı, Lider Nəşriyyatı,-2000, s. 64

7. Heydər Əliyev və inkişafın Azərbaycan modeli /Yeni Azərbaycan Partiyası,-Bakı,-2010,-s.7-8

8. İsmayılov,İ., Heydər Əliyev və Azərbaycanın Müstəqillik konsepsiyas, "Dirçəliş XXI əsr". –2009. -№ 133-134. –S.101-110.

9. Novruzov, S., Azərbaycan Konstitusiyasının Müəllifi,/ Azərbaycan - 2009, -7 may. -№ 98. -S. 2.

HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK İDEOLOGİYASINDA MƏDƏNİYYƏT VƏ ELM

Sevda Aydın qızı Xaspoladova
Azərbaycan Dillər Universiteti
sevdaxaspoladova61@mail.ru

Ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılan dövlətçilik ideologiyası müasir, demokratik, suveren və multikultural dəyərlər üzərində qurulmuş müstəqil Azərbaycan Respublikasının siyasi, iqtisadi, sosial, mədəni və elmi əsaslarını müəyyən etmişdir. Bu ideologiya yalnız dövlətin inzibati və hüquqi strukturlarının deyil, eyni zamanda onun mənəvi dayaqlarının da möhkəmlənməsinə xidmət etmişdir. Heydər Əliyevin baxışlarına görə dövlət yalnız siyasi və iqtisadi müstəqilliklə kifayətlənməməli, eyni zamanda mənəviyyat, mədəniyyət, elm və təhsil sahələrində də güclü dayaqlara malik olmalıdır. Onun rəhbərliyi ilə mədəniyyət və elm sahələri milli dövlətçilik konsepsiyasının ayrılmaz tərkib hissəsi kimi prioritet səviyyəyə yüksəldilmiş, bu sahələrin inkişafı dövlət siyasətinin strateji istiqamətlərindən birinə çevrilmişdir. Ulu Öndər hesab edirdi ki, xalqın tarixi kimliyi, milli varlığı onun mədəni irsində və elmi potensialında əks olunur. Bu baxımdan da, milli-mənəvi dəyərlərin qorunması, qədim tarixi abidələrin bərpası, klassik və çağdaş mədəniyyətin inkişafı, eyni zamanda elm və təhsilin yüksək səviyyəyə çatdırılması onun dövlətçilik fəlsəfəsinin əsas qayəsini təşkil edirdi. Heydər Əliyevin siyasi kursunda alimlərə, yaradıcı ziyalılara, yazıçı və şairlərə, sənətkarlara xüsusi yer verilməsi təsadüfi deyildi. O, bu şəxsləri cəmiyyətin mənəvi dayaqları hesab edir və onların fəaliyyətinə yüksək qiymət verirdi. Ulu Öndər dəfələrlə vurğulayırdı ki, xalqın gələcəyi onun elminə, təhsilinə və mədəniyyətinə nə qədər dəyər verməsindən asılıdır. Belə bir strateji yanaşma nəticəsində, müstəqil Azərbaycanın intellektual potensialının qorunması və inkişafı üçün münbit şərait yaradılmış, elm və mədəniyyət sahəsində çalışan insanlar dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu ideologiya həmçinin milli özünüdərk prosesinin güclənməsinə, xalqın öz keçmişinə, dilinə, adət-ənənələrinə, milli qəhrəman-larına və tarixi yaddaşına bağlılığının artmasına da şərait yaratdı. Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycan cəmiyyəti yalnız texnoloji və iqtisadi inkişafla deyil, həm də zəngin mədəni və elmi ənənələri ilə müasir dünyanın ön sıralarında yer almağa başladı.

1. Heydər Əliyev dəfələrlə vurğulayırdı ki, "mədəniyyət xalqın varlığını, tarixini və ənənələrini ifadə edən böyük bir güc, dəyərdir." Bu fikri onun bütün siyasi və ideoloji fəaliyyətinin mərkəzində duran əsas prinsiplərdən biri kimi qiymətləndirmək olar. Ulu Öndərin rəhbərlik etdiyi dövrlərdə Azərbaycan mədəniyyətinə göstərilən xüsusi diqqət və qayğı, milli-mənəvi dəyərlərin yaşadılması və gələcək nəsillərə ötürülməsi istiqamətində atılmış ardıcıl və məqsədyönlü addımlar bunun bariz nümunəsidir. Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə mədəniyyət sahəsində aşağıdakı istiqamətlərdə ciddi islahatlar və inkişaf proqramları həyata keçirilmişdir:

2. Milli musiqi, teatr, kino və bədii yaradıcılıq sahələrinin təşviqi. Ulu Öndər milli musiqimizin muğam, xalq mahnıları və klassik bəstəkarlarımızın əsərlərinin qorunub yaşadılmasına və təbliğinə xüsusi önəm vermişdir. Azərbaycan muğamının UNESCO tərəfindən bəşəri irs siyahısına daxil olunması yolunda onun irəli sürdüyü mədəni siyasət önəmli rol oynamışdır. Teatr sənətinin inkişafı məqsədilə yeni teatr binaları tikilmiş, mövcud teatrların fəaliyyəti stimullaşdırılmış, kinonun inkişafı üçün maddi-texniki baza gücləndirilmişdir. Həmçinin bədii ədəbiyyat, rəssamlıq və digər incəsənət sahələrində yaradıcı mühitin formalaşdırılması üçün bir çox layihələrə dəstək verilmişdir [2].

3. Əlyazmaların və tarix-mədəni abidələrin qorunması. Azərbaycanın zəngin tarixi irsinin qorunması Heydər Əliyevin mədəniyyət siyasətində mühüm yer tuturdu. Onun təşəbbüsü ilə qədim əlyazmalar, nadir kitablar və tarixi sənədlər toplanaraq sistemləşdirilmiş, Əlyazmalar İnstitutunun fəaliyyəti gücləndirilmişdir. Eyni zamanda, Qobustan qayaüstü rəsmləri, İçərişəhər, Şəki xan sarayı kimi tarixi abidələrin bərpası və UNESCO səviyyəsində tanıdılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır [2].

4. İncəsənət xadimlərinə hörmət və dəstək siyasəti. Heydər Əliyev sənətkarları, yazıçıları, bəstəkarları, aktyorları, şairləri və rəssamları xalqın mənəvi xəzinəsinin daşıyıcıları kimi qiymətlən-

dirirdi. Onların sosial rifahının yaxşılaşdırılması üçün müxtəlif dövlət proqramları həyata keçirilmiş, fəxri adlar, mükafatlar və mənzillərlə təmin olunma kimi təşəbbüslərlə yaradıcı ziyalıların əməyinə yüksək dəyər verilmişdir. Bu, ziyalıların öz yaradıcılıqlarını daha böyük ruh və motivasiya ilə davam etdirmələrinə səbəb olmuşdur.

5. Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılması. Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində Azərbaycan mədəniyyətinin beynəlxalq platformalarda təbliği də geniş vüsət almışdır. Xaricdə keçirilən mədəniyyət günləri, festivallar, sərgilər və konsertlər vasitəsilə Azərbaycan mədəniyyəti dünya ictimaiyyətinə təqdim edilmişdir. Bununla yanaşı, xarici ölkələrlə mədəni əlaqələr qurularaq, ölkəmizin zəngin tarixi və mədəni dəyərləri beynəlxalq miqyasda tanıdılmışdır.

Beləliklə, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasəti milli kimliyimizin qorunmasına, mənəvi dəyərlərimizin yaşadılmasına və müasir dünya ilə inteqrasiyasına xidmət edən böyük bir strateji xətt olmuşdur. Onun bu sahəyə verdiyi dəyər və göstərdiyi diqqət bu gün də Azərbaycanın mədəni inkişaf modelində əsas istiqamət kimi öz aktuallığını qoruyur.

"Əgər bir xalqın mədəniyyəti yoxdursa, o xalq hələ xalq deyildir", - bu dərin və müdrik ifadə Ulu öndər Heydər Əliyevin xalqın mədəni kimliyinə, mənəvi dəyərlərinə, tarixi yaddaşına necə böyük önəm verdiyini göstərir [3]. O, hesab edirdi ki, mədəniyyət və elm bir millətin inkişafının əsasıdır. Təkcə iqtisadi və siyasi tərəqqi ilə kifayətlənmək mümkün deyil – bu tərəqqinin dayanıqlı və mənalı olması üçün mədəniyyət və elmin inkişafı əsas şərtdir. Heydər Əliyevin dövlətçilik ideologiyasında elm xüsusi yer tutur. O bildirirdi ki, "Elm xalqın maariflənməsinin, təhsilin və iqtisadi inkişafın əsasıdır"- bu fikri ilə o, elmin yalnız bir sahə kimi deyil, bütövlükdə cəmiyyətin tərəqqisini təmin edən strateji amil olduğunu vurğulayırdı [4]. Onun rəhbərliyi dövründə Azərbaycan elminin inkişafı istiqamətində çoxsaylı mühüm addımlar atılmış və bu sahədə dövlət səviyyəsində mühüm islahatlar həyata keçirilmişdir. Elm sahəsində həyata keçirilən əsas tədbirlər bunlar olmuşdur:

Azərbaycan Milli Elmlər Akademiyasının struktur islahatları aparıldı. Heydər Əliyevin təşəbbüsü ilə Elmlər Akademiyasının fəaliyyətində yeni mərhələyə qədəm qoyuldu. Onun rəhbərliyi ilə akademiyanın strukturu müasir dövrün tələblərinə uyğunlaşdırıldı, yeni institutlar və elmi-tədqiqat mərkəzləri yaradıldı, idarəetmə mexanizmlərində çeviklik və səmərəlilik artırıldı. Bu islahatlar sayəsində elmi tədqiqatların keyfiyyəti yüksəldi, daha çox praktiki nəticələrə yönəlik işlər aparılmağa başlandı [5].

Təbiət elmləri, humanitar və texniki sahələrdə tədqiqatlara dəstək verildi. Heydər Əliyev bütün elmi sahələr arasında balanslı yanaşmanın tərəfdarı idi. Onun təşəbbüsü ilə fizika, kimya, biologiya kimi təbiət elmlərinin inkişafına, eyni zamanda, tarix, fəlsəfə, ədəbiyyat, dilçilik kimi humanitar sahələrə də xüsusi diqqət ayrıldı. Mühəndislik, informasiya texnologiyaları və digər texniki sahələrdə aparılan tədqiqatlara dövlət tərəfindən maliyyə və təşkilati dəstək göstərildi.

Elmi kadrların ixtisasartırması üçün əlavə imkanlar yaradıldı. Ulu Öndər gənc alimlərin və elmi işçilərin peşəkar inkişafını dövlətin inkişafı üçün zəruri hesab edirdi. Onun göstərişi ilə elmi kadrların xarici ölkələrdə ixtisasartırması, beynəlxalq konfrans və seminarlarda iştirak etməsi üçün proqramlar həyata keçirildi. Bununla yanaşı, yerli təlim və inkişaf kursları, elmi laboratoriyalar və mərkəzlərdə modern avadanlıqlarla təmin olunma da bu siyasətin əsas tərkib hissəsi idi.

Elmlər Akademiyasının gənclər siyasəti istiqamətində proqramlar tətbiq olundu. Heydər Əliyev daim gənclərə inanır və onların potensialını yüksək qiymətləndirirdi. Elmlər Akademiyası nəzdində Gənc Alimlər Şuralarının yaradılması, doktorantura və dissertantura proqramlarının genişləndirilməsi, elmi tədqiqatlara cəlb olunan gənclərin sosial təminatının gücləndirilməsi bu istiqamətdə atılan mühüm addımlardan idi. Bu təşəbbüslər elmi fəaliyyətin gənclər arasında daha da populyarlaşmasına və onların elmə marağının artmasına səbəb oldu.

Nəticə olaraq, Ümummilli lider Heydər Əliyevin elmə və mədəniyyətə yönəlmiş məqsədyönlü siyasəti müstəqil Azərbaycan dövlətinin dayanıqlı və davamlı inkişafının strateji təməlini təşkil etmişdir. Onun milli maraqlara söykənən uzaqgörən ideyaları və qərarları nəticəsində ölkədə mədəni və elmi həyat yeni bir mərhələyə qədəm qoymuş, xalqın intellektual və mənəvi potensialının

yüksəldilməsi üçün geniş imkanlar yaradılmışdır. Heydər Əliyevin ideoloji xətti göstərdi ki, mədəniyyət və elm təkcə cəmiyyətin ayrılmaz atributları deyil, həm də milli dövlətçiliyin, mənəvi bütövlüyün, milli kimliyin və müstəqilliyin qorunmasında ən güclü silahlardan biridir. Mədəniyyət sahəsində onun həyata keçirdiyi siyasət xalqın tarixi yaddaşını dirçəltmiş, milli-mənəvi dəyərlərin qorunmasını və nəsillərdən-nəsillərə ötürülməsini təmin etmişdir.

Ənənəvi incəsənət formaları ilə yanaşı, müasir yaradıcılıq istiqamətlərinə də dəstək verilməsi nəticəsində Azərbaycan mədəniyyəti həm ölkə daxilində, həm də beynəlxalq aləmdə daha geniş tanıdılmışdır. Tarixi-mədəni irsin qorunması, teatr, musiqi, kino və digər sahələrin inkişafı üçün göstərilən diqqət, mədəniyyət xadimlərinə verilən yüksək dəyər, Heydər Əliyevin bu sahəyə olan dərin hörmətinin və strateji baxışının əyani sübutudur. Elm sahəsində isə onun rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanın elmi potensialı güclənmiş, yeni elmi istiqamətlərin inkişafı üçün münbit şərait yaradılmışdır. Gənc alimlərin dəstəklənməsi, elmi tədqiqat institutlarının modernləşdirilməsi, elm və təhsilin inteqrasiyası, elmi innovasiyaların tətbiqi sahəsində irəliyə doğru mühüm addımlar atılmışdır. Heydər Əliyevin fikrincə, elm yalnız bilik mənbəyi deyil, həm də cəmiyyətin tərəqqisinin əsas sütunudur. Bu baxış bucağından çıxış edərək, o, Azərbaycanı elmə əsaslanan bir cəmiyyət kimi formalaşdırmaq yolunda prinsipial mövqe nümayiş etdirmişdir. Bütün bu amillər bir daha sübut edir ki, Heydər Əliyevin dövlətçilik ideologiyasının mədəniyyət və elm sahələrində təzahürü Azərbaycanın mənəvi dəyərlərlə zəngin, elmə və biliyə dəyər verən bir cəmiyyət kimi formalaşmasına möhkəm zəmin yaratmışdır. Onun bu sahələrdə qoyduğu təməl, yaratdığı irs bu gün də yaşayır və müasir Azərbaycan cəmiyyətinin inkişafında aparıcı rol oynayır.

Ulu Öndərin müəyyən etdiyi kurs əsasında ölkəmizdə mədəniyyətin və elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi davam etdirilir. Bu mənəvi və intellektual miras, sözün əsl mənasında, Azərbaycan xalqı üçün bir mayak, gələcək nəsillər üçün isə yolgöstərici və örnəkdir. Bu gün mədəniyyət və elmi siyasətin mərkəzində saxlamaqla biz Heydər Əliyev irsini yaşadır, onun ideyalarını gələcəyə daşıyırıq. Məhz bu strategiya sayəsində Azərbaycan öz milli-mənəvi dəyərlərinə sadiq, eyni zamanda qlobal inkişaf meyillərinə açıq və dinamik şəkildə inkişaf edən güclü bir dövlət kimi öz mövqeyini möhkəmləndirir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, H. Elm və təhsil: Azərbaycan Respublikasının inkişafı üçün prioritet sahələr. Bakı: Təhsil Nəşriyyatı, 2010 s. 35-42.
2. Əliyev, H. Azərbaycan mədəniyyəti: Keçmiş və gələcək. Bakı: Mədəniyyət və Turizm Nazirliyi, 2005, s. 77-80.
3. Hüseynov, T. Heydər Əliyevin dövlətçilik ideologiyası və mədəniyyət siyasəti. Bakı: Elmi Nəşriyyat, s. 2014, 120-135.
4. Məmmədov, İ. (2011). Azərbaycanın elmi inkişafı: Heydər Əliyevin strateji baxışları. Bakı: Elm və Təhsil Nəşriyyatı, s. 33-40.
5. http://www.anl.az/down/meqale/ses/2014/aprel/364582.htm
6. http://www.anl.az/down/meqale/elmi_eserler_anl/2016/8/

HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİ VƏ İNKİŞAF FƏLSƏFƏSİ

Kamal Nizami oğlu Əhmədov
Mingəçevir Turizm Kolleci
kamal.ahmadov@mtk.az

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı keyfiyyətcə yeni dövrün - müstəqil dövlət quruculuğuna aparan böyük yolun başlanğıcını qoydu. Heydər Əliyevin prezidentliyi dövründə köklü islahatlar aparılmış və onun iqtisadi siyasəti ölkəni inkişafa aparan dövlət strategiyasına çevrilmiş, ölkənin müstəqilliyinin təmin olunması üçün çoxlu sayda proqramlar hazırlanmışdır.

Ulu Öndərin rəhbərliyi ilə ölkədə makroiqtisadi sabitliyə nail olunmuş, bazar iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın təşkili üçün qanunvericilik bazası yaradılmış, özəl sektorun inkişafına yönəlmiş tədbirlərə başlanılmışdır. Bu sistemin tərkib hissəsi bazar iqtisadiyyatı modelində işgüzar münasibətlərin formalaşmasıdır. Özəl sektorda ölkənin iqtisadi inkişafına ehtiyac - işgüzar fəallıq ön plana çıxıb. Məhz buna görə də sahibkarlığın təşkili və inkişafı iqtisadi siyasətin prioritet istiqaməti kimi mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev rəhbərlik etdiyi dövrdə apardığı köklü islahatlar vasitəsilə iqtisadi inkişafın milli modelini həyata keçirməyə, güclü sahibkarlar sinfini formalaşdırmağa və onların cəmiyyətdə mövqelərini möhkəmləndirməyə çalışırdı. Məhz bu baxımdan Heydər Əliyevin çoxşaxəli iqtisadi siyasətinin elmi tədqiqatları Azərbaycanda sahibkarlığın təşkili və inkişafında xüsusi əhəmiyyət kəsb edir.

Müstəqilliyimizin ilk illərində kənar qüvvələrin, təcavüzkar güclərin həmlələrinə baxmayaraq dövlətçiliyimiz duruş gətirə bildi və 1993-cü ildə ölkənin vətəndaş müharibəsi həddinə gətirilməsi məhz bu məkrdən qaynaqlanırdı. Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı ziddiyyətlər burulğanından xilas etdi və yeni iqtisadi siyasətin əsası qoyuldu.

Heydər Əliyevin ən mühüm tarixi nailiyyətlərindən biri Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni – bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Bu sistemə keçidlə xüsusi mülkiyyətə geniş meydan açıldı, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi həyata keçirildi, aqrar islahatlar icra olunmağa başladı və digər sahələrdə xeyli sayda vəzifələrin həlli reallaşdırıldı. Məhz iqtisadiyyatın bütün sahələrində aparılan radikal islahatlarla həm iqtisadiyyatın dinamik inkişafı, həm də sahibkarlığın təşəkkülü təmin edildi [4].

Heydər Əliyevin rəhbərliyi altında iqtisadi və dövlət idarəetmə sistemi sahələrində aparılan kompleks islahatlar ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sahibkarlığın formalaşmasına təkan vermişdir.

Müstəqil Azərbaycanın memarı və qurucusu olan Ulu öndər Heydər Əliyev sahibkarlığın formalaşmasına daim diqqət göstərmiş və respublikamızın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun təşəkkülü ilə əlaqələndirmişdir. Həyata keçirilən iqtisadi siyasət sahibkarlığın təşəkkülünün sürətləndirilməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm addımlar atılmışdır [5].

İqtisadiyyatın ümumi inkişafı ilə yanaşı, ölkənin aqrar sahəsinin də inkişafı daim Ulu Öndərin diqqət mərkəzində olmuşdur. 1994-cü il dekabrın 10-da keçirilmiş "Aqrar islahat: problemlər və onların həll yolları" mövzusunda beynəlxalq konfransda çıxış edən Ulu öndər Heydər Əliyev demişdir: "Biz islahatçı qüvvələrə yol açmalı, islahatları cəsarətlə həyata keçirməliyik. İslahatlar yeni sahibkarlar yaradacaq, ancaq aqrar bölmə ilə bağlı hər bir adam öz payını almalıdır. Bu islahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir". Ölkədə aparılan məqsədyönlü aqrar islahatlar nəticəsində çoxlu sayda kəndlilər torpaq mülkiyyətçisinə çevrildi, bu addım aqrar sahədə xeyli sayda sahibkarların yaranmasına səbəb oldu [3].

Bu gün Azərbaycan sürətlə yeniləşən dünyanın aparıcı dövlətləri sırasında layiqli yer tutur. Müstəqillik əldə etdikdən sonra böyük çətinliklərə sinə gərən Azərbaycan tamamilə müstəqil siyasət yürüdən dövlət kimi həm regionda, həm də bütün dünyada öz layiqli yerini tuta bildi.

1969-cu ildə Azərbaycan Sovet İttifaqının ən zəif respublikalarından biri idi, neft sənayesinin və kənd təsərrüfatının əhəmiyyətli potensialına baxmayaraq, əhalisi zəngin deyildi. Mərkəzi hakimiyyət Azərbaycana biganə yanaşır, onun problemlərinin həllinə maraq göstərmirdi. Lakin Heydər Əliyev respublikaya rəhbərlik etdikdən sonra dirçəliş dövrü başladı.

70-ci illərdə Heydər Əliyev Azərbaycanda 300-dən çox sənaye müəssisəsinin tikintisinə nail olmuş, 1969-1985-ci illərdə sənaye istehsalı iki dəfə artmışdır. Bunun nəticəsidir ki, Azərbaycan neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çini və saxsı məmulatları, xalça və xalça məmulatları

və s. istehsalı üzrə artıq İttifaqda lider mövqe tuturdu. Azərbaycanda 65 ölkəyə 350 adda məhsul ixrac edilib.

Beləliklə, Azərbaycan geridə qalmış kənd təsərrüfatı ölkəsindən neft və pambıq istehsalı üzrə lider mövqe tutan sənaye-aqrar respublikaya çevrilmişdir.

1993-cü ilin iyununda yenidən ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev bazar iqtisadiyyatı əsasında ümumi daxili məhsulun artırılması istiqamətində islahatların həyata keçirilməsini, eləcə də qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsini əsas vəzifə kimi müəyyənləşdirdi.

Eyni zamanda, Azərbaycanın Qafqaz regionunda və onun hüdudlarından kənarda həyata keçirilən irimiqyaslı transmilli layihələrdə iştirakı təmin edilmiş, ölkənin dövlət siyasəti milli maraqlar nəzərə alınmaqla həyata keçirilmişdir. Həmin illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcək iqtisadi müstəqilliyinin əsasını qoymuş güclü iqtisadi baza yaratmaq mümkün oldu.

Ulu Öndərin müəllifi olduğu iqtisadi islahatların həyata keçirilməsi hər bir vətəndaşın sosial vəziyyətinə və rifahına müsbət təsir göstərmişdir. Təbii ki, Azərbaycanın iqtisadi inkişafında neft amili mühüm rol oynayıb, lakin qeyd etmək lazımdır ki, müasir dünyada neftlə zəngin olan ölkələrin heç də hamısı Azərbaycan kimi nəticələr əldə etməyib. Qərb dövlətləri ilə aparılan mürəkkəb danışıqlar nəticəsində 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı və Azərbaycana investisiya axını başladı.

Ulu öndər Heydər Əliyev beynəlxalq nüfuzundan istifadə edərək, neftin nəqli probleminin aradan qaldırılması üçün qlobal layihələr həyata keçirməyə başladı və Azərbaycanın iqtisadi inkişafını təmin edərək, ölkənin siyasi müstəqilliyinin əsasını qoydu. Bir sözlə, Heydər Əliyev riskləri fürsətə çevirən siyasətçi idi.

Müstəqillik dövründən başlayaraq, Azərbaycan iqtisadiyyatının inkişafında aşağıdakı əsas mərhələləri ayırmaq olar:

- transformasiya tənəzzülü (1992-1995);
- sabitləşmə və bərpa artımı (1996-2000);
- investisiyaların artması (2001-2004);
- iqtisadi bum (2005-2008).

Sonrakı illərdə və bu günə kimi əsas diqqət qeyri-neft sektorunun inkişafına və "Made in Azerbaijan" brendinin xarici bazarlarda yayılmasına yönəldilib. Bundan əlavə, bu gün nəqliyyat dəhlizlərinin inkişafına, enerji və qeyri-enerji məhsullarının ixrac coğrafiyasının genişləndirilməsinə, "yaşıl" iqtisadiyyatın yaradılmasına böyük diqqət yetirilir.

Azərbaycanın ən böyük nailiyyəti uzunmüddətli və dinamik iqtisadi inkişaf məqsədi ilə iqtisadi islahatların və inkişafın Azərbaycan modelinin yaradılması olmuşdur.

2001-2004-cü illərdə Azərbaycan əsas kapitala investisiyanın unikal artım templərinə nail olub - ildə 53%. 2005-2008-ci illərdə Azərbaycanda real ÜDM artımı respublika müstəqillik əldə etdikdən sonra ən yüksək səviyyəyə çatmış və orta hesabla ildə 24,2% olmuşdur. Bunun nəticəsidir ki, 2008-ci ildə Azərbaycanda ÜDM-in həcmi 1991-ci illə müqayisədə 108 faiz artdığı halda, MDB-nin qalan ölkələrində orta artım cəmi 21 faiz təşkil etmişdir [2].

Bu dövrü Azərbaycanın iqtisadi artım templərinə görə mütləq dünya lideri olduğu "iqtisadi bum dövrü" kimi xarakterizə etmək olar. İstehsalın bu partlayışlı artımı əvvəlki illərdə neft sektoruna qoyulmuş irimiqyaslı investisiyalar hesabına baş vermişdir. Onlar yeni yataqların işlənməsini təmin etdi, karbohidrogenlərin hasilatı və nəqli üçün zəruri infrastrukturun yaradılmasına imkan verdi.

Bundan başqa, xarici investisiyalar ilk növbədə neft-qaz sektorunun inkişafına, daxili investisiyalar isə ilk növbədə qeyri-resurs sahələrinin, ilk növbədə infrastrukturun (elektrik enerjisi, su təchizatı, nəqliyyat sistemləri) artımını stimullaşdırmışdır.

Azərbaycanda neft və qazı dünya bazarlarına çatdırmaq üçün yeni boru kəməri sistemi yaradılmışdır: Bakı-Novorossiysk neft kəməri bərpa edilmiş, yenidən qurulmuş və qismən yenidən tikilmişdir (1997), Bakı-Supsa (1999) və Bakı-Tbilisi-Ceyhan (2006) neft kəmərləri, həmçinin Bakı-Tbilisi-Ərzurum qaz kəməri (2007), Trans-Ərzurum qaz kəməri (2018) və Trans Adriatik Qaz Boru Kəməri (2020) tikilmişdir.

Azərbaycan nəinki regionun ən böyük neft ixracatçılarından biri olaraq qalır, 2007-ci ildən həm də təbii qaz ixracatçısına çevrilib. 2004-2008-ci illərdə Azərbaycanda neft hasilatı təxminən 3 dəfə artaraq 44,7 milyon tona çatıb. BVF-nin hesablamalarına görə, neft hasilatının sürətli artımı ilə neftin dünya qiymətlərinin əhəmiyyətli dərəcədə artmasının birləşməsi neft ixracının dəyərinin 9 dəfə artmasına səbəb olub və 2008-ci ildə 29,1 milyard dollara çatıb. Həmin dövrdə təbii qaz hasilatı 3 dəfədən çox artaraq, 14,8 milyard kubmetrə çatıb. Nəticədə 2008-ci ildə ixracın 97%-i və dövlət gəlirlərinin 39%-i neft və qazın payına düşüb [2]. Bu dövrdə ölkənin ÜDM-də neft sektorunun payı 39 faizdən 60 faizə yüksəlib. Tikinti və xidmət sahələrində nəzərəçarpacaq artım 2008-ci ildə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun artım templərinə görə neft sənayesini üstələməsinə səbəb olmuşdur.

Ölkə hökuməti hesab edir ki, milli iqtisadiyyatın strukturunun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılması, ortamüddətli xərclər strategiyasının tərkib hissəsi kimi yeni siyasətlərin tətbiqi, maliyyə-bank sektorunun təkmilləşdirilməsi və pul siyasətinin təkmilləşdirilməsi, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi hesabına mümkün olacaq.

Heydər Əliyevin rəhbərliyi ilə sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı, sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən struktur formalaşdı. Sahibkarların vergi yükünün azaldılması istiqamətində mənfəət və əlavə dəyər vergisinin dərəcələri aşağı salındı, kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiq etməyə başlandı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və bu sahədə müvafiq dövlət proqramları təsdiq olundu.

Respublikamızda rəqabət mexanizminin və onun dövlət müdafiəsi sisteminin yaradılması yolunda xeyli iş görülmüş və müsbət nəticələr qazanılmışdır. Bu özünün ifadəsini, ilk növbədə, qanunvericilik mexanizmində tapır. Sahibkarlıq fəaliyyəti, antiinhisar fəaliyyəti, haqsız rəqabət və təbii inhisarlar haqqında qanunlar qəbul olunmuşdur. Bu qanunlar və onların əsasında təsdiq edilmiş normativ sənədlər Azərbaycan Respublikası Konstitusiyasının rəqabətin dövlət müdafiəsi sahəsində tələblərinin reallaşması üçün zəruri hüquqi baza yaradır. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunur ki, "Dövlət hakimiyyəti və dövlət idarəetmə orqanlarına mülkiyyət və təşkilati hüquqi formasından asılı olaraq bu və ya digər sahibkarlıq növünə imtiyazlar verən qərarlar çıxarması qadağandır".

Ölkədə sahibkarlığın davamlı inkişafının təmin edilməsi dövlətlə sahibkarlar arasında tərəfdaşlığın institusional təşkilini zərurətə çevirib. Sahibkarlar artıq ölkənin mövcud mühüm problemlərinin həllində iştirak edir. Bu baxımdan, yaradılmış mexanizmlər (Sahibkarlar Şurası, İnvestisiyaların Təşviqi və Məsləhət Fondu və s.) dövlət-sahibkar münasibətlərinin sivil müstəvidə inkişafında əhəmiyyətli rol oynamaqdadır.

Azərbaycan Respublikası Prezidentinin yanında Sahibkarlar Şurasının yaradılması, onun dövlət və ictimai təşkilatlarla qarşılıqlı fəaliyyətinin təmin edilməsi Azərbaycan cəmiyyəti və dövlətinin mühüm addımı kimi qiymətləndirilməlidir.

Beləliklə, Ulu öndər Heydər Əliyev siyasətinin bəhrəsi olaraq, günümüzdə Azərbaycanda əməkqabiliyyətli əhalinin 2,8 milyon nəfəri özəl sektorda çalışır və özəl bölmədəki istehsalın həcmi sənaye məhsulunun 82,1 faizini təşkil edir [2]. Ümumi vergi daxilolmalarında qeyri-dövlət sektorunun payı 71 faizə çatır. Ölkə iqtisadiyyatının bütün sahələrində əldə olunan yüksək nəticələrin və davamlı sürətli inkişafa hesablanan sosial-iqtisadi layihələrin reallaşdırılmasında özəl sektor öz töhfəsini verməkdədir.

Bu gün neftdən asılı olmayacaq iqtisadi modelə keçid var. Azərbaycan Prezidenti İlham Əliyevin başlatdığı dərin iqtisadi islahatlar artıq bir çox sahələrdə öz müsbət nəticəsini verməkdədir.

Nəqliyyat və logistika infrastrukturunun genişləndirilməsi yeni sənaye sahələrinin, o cümlədən əsas nəqliyyat qovşaqlarının yaxınlığında yerləşən yüksək texnologiyalı müəssisələrin yaradılmasına kömək edir. Böyük neft və qaz ehtiyatları isə nəqliyyat dəhlizlərinin yaxınlığı ilə birlikdə Avrasiyanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın əhəmiyyətini artırır.

Bundan əlavə, Azərbaycan artıq Avrasiyanın rəqəmsal mərkəzinə çevrilmək yolundadır. Bütün bunlar birlikdə ölkənin regional maliyyə mərkəzinə çevrilməsinə şərait yaradır.

Məlumdur ki, davamlı iqtisadi inkişafın meyarları ixrac, idxal, daxili istehsal və istehlak balansıdır. Bu, məhz postneft dövründə Azərbaycan iqtisadiyyatının yeni inkişaf vektorudur və ölkənin işğaldan azad edilmiş ərazilərinin bərpası iqtisadi inkişafa güclü təkan verə bilər. Sonra başqaları üçün model olun.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1996.
2. Statistik göstəricilər – 2021-2022-ci illər üzrə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2022.
3. Abbasov A.B., Abbasov S.A. Kiçik və orta sahibkarlığın idarə edilməsi. Bakı, 2021, 384 s.
4. Əliyev T.M. Biznesin (sahibkarlığın) əsasları. Bakı, 2022, səh 467 s.
5. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. Bakı, 2010, 248 s.

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN HİMAYƏDARI

Nurlana Zakir qızı Mustafayeva
Mingəçevir Turizm Kolleci
nurlana.mustafayeva2023@gmail.com

İşıqlı ideyalara sahib olan Heydər Əliyevin milli-mənəvi dəyərlərimiz haqqında dediyi fikirlərin biri ilə məqaləyə başlamaq istəyirəm:" *Hər xalqın öz adət-ənənəsi və özünə məxsus milli-mənəvi və dini dəyərləri var. Biz də hər millət kimi milli-mənəvi,dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik*." [1, s.6] Bütün ömrünü Azərbaycanın dünyada tanınmasına sərf edən ulu öndər, xalqımızın milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin qorunub saxlanmasına və zənginləşməsinə xüsusi diqqət göstərmişdi. Göstərilən bu qayğının, diqqətin məntiqi nəticəsi olaraq xalqımızın milli şüurunun inkişafında əsaslı dönüşlər yaranmağa başladı.

Milli-mənəvi dəyərləmizin əsasında "Ana dili"mizin başlıca rolu oldu. Konstitutsiyada dəyişiklik zamanı Heydər Əliyevin parlaq siyasi zəkası nəticəsində "Ana dili"nin qorunması mümkün olmuşdur. Heydər Əliyev dövlət dilinin "Ana dili"ndə işlədilməsində böyük əziyyət çəkmişdir. Bənzərsiz dövlət başçısı Azərbaycanda əlifbanın dəyişilməsində, latın qrafikasına keçilməsində əvəzsiz rol oynamışdır. Bütün sahələrin – elmin, təhsilin, mədəniyyətin tərəqqisində mühüm uğurlar əldə etməklə xalqımızın öz tarixinə, milli-mənəvi dəyərlərinə, soykökünə bağlılığı daha da güclənmişdi. Ülu Öndərin "*Ana dilini mən çox sevirəm*" kəlamı Azərbaycan dilinə ən böyük qiymətdir. Azərbaycan dili özünə məxsus bir şəkildə xalqın tarixini, mənəviyyatını, dövlətçilik yolunu, adət-ənənələrini hifz edib saxlayır.

XX əsrdə nəhəng siyasi xadimin gördüyü şanlı işlər Azərbaycan tarixində qızıl hərflərlə həkk olunmuşdur. Bu illər ərzində hər zaman xalqa arxalanan Azərbaycanın mərd oğlu Heydər Əliyev Azərbaycanı təhlükələrdən qorumaq, yaşatmaq üçün mübarizəyə başladı. 1993-2003-cü illər ərzində Vətənimizdə möhkəm özülü olan bir dövlət qurdu, milyonların çağrışı ilə xalqını düşdüyü fəlakətlərdən xilas etmək onun həyat amalı oldu. Azərbaycanı dünyada tanıtmaq üçün onun tarixi mədəniyyətini, keçmişini, elimini, incəsənətini yüksəltmək onun taleyinə yazıldı. İncəsənətin bütün sahələrində görülən işlər ulu öndərin həyatının önəmli səhifələrindəndir. 1974-cü ilə Nəsiminin 600 illik yubileyi ilə əlaqədar "Nəsimi" filminin çəkilməsinə də qətiyyətli rəhbər qərar verdi. Bu da böyük liderin kino sahəsinə, klassiklərimizə olan böyük rəğbətindən irəli gəlirdi. Xalq mənafeyini, taleyini uca tutan Azərbaycan sərkərdəsi müstəqillik şərəfini xalqımıza yaşatmağı bacardı. Milli köklərə bağlı olan, sağlığında əbədilik qazanan siyasətçinin gördüyü işlər yeni yaranan gənclərimizin inkişafında böyük rol oynayır.

"Kitabi-Dədə-Qorqud" dastanından tutmuş bir çox klassiklərimizin yubileylərinin nəinki Azərbaycanda eləcə də xarici ölkələrdə keçirilməsinə nail olan millət atası Heydər Əliyev bütün dünyaya Azərbaycanın milli-mənəvi dəyərlərini bir daha tanıtdı. Dünya tarixinə öz əməlləri ilə adını yazdıran Heydər Əliyev Şuşada XVIII əsrin böyük şairi Molla Pənah Vaqifin məqbərəsini,

Naxçıvanda 37-ci ilin repressiyasına məruz qalan 1982-ci ildə uzaq Sibirdən Azərbaycana nəşi gətirilən Hüseyn Cavidin məqbərəsinin ucaldılmas Heydər Əliyevin fədakarlığı sayəsində həyata keçirilmişdir. Azərbaycanın Fikrət Əmirov, Qara Qarayev, Niyazi və bir çox istedadlı bəstəkarlarının, rəssamlarının yüksək adlarla təltif olunması güclü şəxsiyyətin xalqına, vətəninə böyük dəyərinin nəticəsidir.

Müstəqillik dövründə Azərbaycan dövlətinin banisi Heydər Əliyev milli-mənəvi dəyərlərimizi yenidən yüksətmək üçün bütün sahələrdə yeniliklər etməyə başladı. Sovet dövründə məhv edilmiş dini məbədgahların bərpa olumasına nail oldu. Böyük qayğıkeş insan "Qurban bayramı" kimi milli bayramımızın mükəmməl şəkildə keçirilməsi haqqında verdiyi qərarlarla xalqımızın bu bayrama olan münasibətini daha da yüksəltdi. Dahi rəhbər bu bayramın dəyərini belə qiymətləndirərək demişdi:*"Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramının özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün bu cür rəsmi dövlət səviyyəsində bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir*." [1, s.6]

Azərbaycan xalqının fəxri olan, Böyük düha Heydər Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibəti ilə keçirilən I qurultayında səmimi qəlblə dünyanın hər yerinə səpələnmiş həmvətənlərimizi birliyə çağırmaqla yanaşı hamını vətənini, xalqını dəyərləndirməyə, Böyük və güclü Azərbaycan ətrafında həmişə fədakarlıq göstərməyə, milli adət-ənənələrimizi qorumağa səsləmişdir. Türk dünyasının şəxsiyyəti böyük fəxr hissi ilə demişdir: "*Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıqdır. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan üçün bu ideologiya mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa mühüm bir körpüdür*." [1, s.6] Babalarımız əsrlər boyu torpaqlarımız üzərində ömür sürərək azad məmləkəti daim arzulamış, mübarizələr aparmışdır. XX əsrdən başlayaraq, müstəqillik uğrunda zamanla mübarizələr güclənmişdir. Bizim nəsil isə Heydər Əliyevin sayəsində belə bir müqəddəs arzunun həqiqətə çevrildiyinin şahidi oldular. Müstəqil respublikamızın qurucusu, geniş siaysi dünyagörüşünə malik Heydər Əliyev hansı vəzifədə işləməyindən asılı olmayaraq, xalqı ilə birlikdə addımlamış, azadlıq uğrunda mübarizə aparmış və istəyinə də nail olmuşdur.

Heydər Əliyevin xalqımıza bəxş etdiyi müstəqil dövləti yaşatmaq, gələcək nəsillərə ötürmək, hər birimizin vətəndaşlıq borcudur. 1993-cü ildən dahi öndərin Azərbaycana qayıdışından sonra xalqın birliyi ilə yeni dövrə qədəm qoyan Azərbaycanımızın inkişafı hamımıza bəllidir. Azadlıq bəşəriyyətin daima arzusunda olduğu elə bir nemətdir ki, bu yolda mübarizələr aparmaq hər kəsə nəsib olmur. Tarix boyu Azadlıq uğrunda Azərbaycan mübarizə aparmış, zaman-zaman buna nail olmuşdur. Azərbaycanı sevən, onun gələcəyini düşünən, onun milli-mənəvi dəyərlərinə qiymət verən hər hansı bir vətəndaş tutduğu mövqedən asılı olmayaraq, üzərinə düşən vəzifəni ləyaqətlə icra etməlidir. Xalqımızın böyük xilaskarı, lider prezidentimiz Heydər Əliyevin həmişəyaşar ideyaları bizdən bunu tələb edir.

Mərhum prezidentimiz Heydər Əliyev belə bir fikri həmişə vurğulamışdır və bizlər bu fikirləri heç vaxt yaddan çıxartmamalıyıq: "*Hər bir xalq öz dili ilə yaranır, ancaq dilini yaşatmaq, inkişaf etdirmək, dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur*." [1, s.6]

Dahi insanın milli ənənələri yeni şəraitdə bərpa etməklə yanaşı, təhsil sisteminin milli inkişafında da yeniliklər etmişdir. Fenomen şəxsiyyət Heydər Əliyev təhsil sahəsində etdiyi yeniliklər savadlı gənclərimizin xarici ölkələrdə təhsil alması, vətənə qayıdıb xalqımızın inkişafı üçün əlindən gələni etməsi vətənin inkişafına ən böyük xidmətlərindən biridir. Əbədiyaşar, nəhəng siyasi xadimin Sərəncamına əsasən "Təhsil sahəsində islahatın dövlət proqramı" haqqında konsepsiya hazırlandı. Bütün müsbət keyfiyyətləri insana ailə ilə yanaşı, həm də orta məktəb partası arxasında aşılanır. Bu mənada təhsil möhtəşəm bir saraydırsa, onun dayağı orta məktəb təhsilidir. Azərbaycan təhsilinin bayraqdarı Heydər Əliyevin Təhsil haqqında dediyi bu fikri heç zaman unutmamalıyıq: "*Bütün təhsil sistemində orta məktəb xüsusi yer tutur*." Heydər Əliyev hər zaman istedadlı uşaqlara böyük diqqət yetirmişdir. Böyük insan müəllimlərə olan hörmət və məhəbbətini bu sözlərlə bildirmişdir: "*Mən Yer üzündə müəllimdən yüksək ad tanımıram*" [1, s.6] Təhsilə verilən böyük dəyərin nəticəsidir ki, dahi İnsan XX əsr bəşəriyyətə çox görkəmli dövlət xadimləri, müdrik, uzaqgörən,

qətiyyətli, son dərəcə bacarıqlı dövlət xadimləri bəxş etmişdir. Belə şəxsiyyətləri yetirən xalq çox xoşbəxtdir, bu xoşbəxtlik sözü Azərbaycan xalqına məxsusdur.

Deyirlər ki, *Yaradanın sevimli bəndələri, seçilmiş xalqı var.* Dini hədislərdə buyurulur ki, türklər Allahın sevdiyi xalqdır. Dünyanın nizamı pozulanda, İlahi türkləri ora göndərəcək ki, haqqı bərqərar etsinlər. Çətin dönəmlərdə isə Yaradan seçilmiş bəndəsini, türkün xilaskarını göndərib. Şəxsiyyətləri zaman, tarix yetişdirir. Azərbaycanımız da bu sarıdan fəxr edə bilər. Siyasi dahiləri çox olub, ancaq bu dahilərin arxasında duranlar az-az yetişib. Heydər Əliyev xalqı, Vətəni, eyni zamanda dünya üçün belə şəxsiyyət idi. 1993-cü ildə Azərbaycan hakimiyyətinə qayıdanda ölkə fəlakət içində idi, Xilaskar gəldi, xilas etdi, qorudu, dirçəltdi, qədəminə güc, gözünə işıq verdi bu ölkənin, bu xalqın. Hər bir insan geriyə boylanarkən öz-özünə sual verməlidir? Bu suala ən yüksək cavab belədir: Heydər Əliyev tarixin Azərbaycan xalqına bəxş etdiyi Ümummilli Liderdir.

Milli-mənəvi dəyərlərimizin sadiq himayədarı olan Heydər Əliyev bizə hüquqi, demokratik, müstəqil Azərbaycan dövləti qoyub getdi. Yox, O, getmədi – ürəyimizin, tariximizin əbədi sakininə ,qəhrəmanına çevrildi. Ən yüksək bir məkanda olan ünvanı xalqımızın ziyarətgahıdır! "*Azərbaycan dünyaya günəş kimi doğacaq*" - bu məhşur kəlamın müəllifi görkəmli siyasətçi, şərəfli bir ömür sürən Azərbaycan oğlunun ürəyinin, ruhunun istəyi kimi Vətənimizə işıq saçdı. Heydər Əliyevin Azərbaycanın bütövlüyü uğrunda apardığı mübarizəsini cənab Prezident İlham Əliyevin uğurla davam etdirməsi göz önündədir. İllərdən bəri düşmən tapdağı altında inləyən Qarabağın Azadlığı dahi öndərimizin ən böyük istəyi idi. Oğul Atanın arzusunu Azərbaycan ordusunun qəhrəmanlığı nəticəsində həqiqətə çevirdi. XX əsrdə fəlsəfi dünyagörüşə malik rəhbər, fitri istedada malik Azərbaycan xalqının əvəzsiz oğlunun milli-mənəvi dəyərlərimizin himayədarı kimi də tarixdə elə bir iz qoydu ki, nəsillər zaman-zaman öyrəndikcə, Heydər Əliyev dühasının nə qədər zirvədə olduğunun bir daha şahidi olacaqlar.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. "Respublika" qəzeti / 2013, 10 may
2. "Yeni Respublika" qəzeti /№ 11, 2008, 15 dekabr
3. "Yeni səhər" qəzeti / 2013, iyun

HEYDƏR ƏLİYEV – AZƏRBAYCAN ELMİNİN, TƏHSİLİNİN VƏ MƏDƏNİYYƏTİNİN BÖYÜK HİMAYƏDARI

Kamilə Famil qızı Həsənova
Mingəçevir Turizm Kolleci
hesnovakamile87@gmail.com

Heydər Əliyev Azərbaycan xalqının böyük oğlu, müasir Azərbaycan dövlətçiliyinin qurucusu və milli inkişaf strategiyasının müəllifi olmuşdur. Onun rəhbərliyi altında ölkəmiz müstəqillik yolunda böyük uğurlar qazanmış, müxtəlif sahələrdə mühüm islahatlar həyata keçirilmişdir. O, yalnız siyasət və iqtisadiyyat sahəsində deyil, həm də elm, təhsil və mədəniyyətin inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Onun fəaliyyəti nəticəsində bu sahələrdə köklü dəyişikliklər baş vermiş, milli irsin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm addımlar atılmışdır.

Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti hər zaman Azərbaycanın inkişafının prioritet istiqamət-lərindən biri olmuşdur. O, elm və təhsili ölkənin intellektual potensialının və sosial-iqtisadi inkişafının əsas dayağı kimi qiymətləndirirdi. Onun rəhbərliyi dövründə təhsil sistemi müasirləşdirilmiş, alimlərin və pedaqoqların fəaliyyəti yüksək qiymətləndirilmiş, onların daha əlverişli şəraitdə çalışması üçün mühüm tədbirlər görülmüşdür. Onun təhsil və elm sahəsindəki müdrik və uzaqgörən siyasəti nəticəsində bu sahələrdə beynəlxalq əlaqələr genişləndirilmiş, yeni tədqiqat institutları yaradılmış, gənc nəslin bilik və bacarıqlarını artırmaq üçün müxtəlif proqramlar tətbiq edilmişdir [1].

Bundan əlavə, Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafına və qorunmasına xüsusi diqqət yetirmişdir. O, milli-mənəvi dəyərlərin qorunması və mədəni irsin təbliği istiqamətində böyük işlər görmüş, incəsənət və ədəbiyyat sahələrində çalışan ziyalıların fəaliyyətini hər zaman dəstəkləmişdir. Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanın musiqisi, teatrı, kinosu və digər mədəni sahələri yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilmiş, Azərbaycanın mədəni irsi dünya miqyasında tanıdılmışdır.

Heydər Əliyevin dövründə Azərbaycanda elmin inkişafı üçün geniş imkanlar yaradıldı. Xüsusilə, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) fəaliyyəti onun diqqət mərkəzində idi. O, alimlərin fəaliyyətini dəyərləndirmiş, elm sahəsində qlobal əhəmiyyət daşıyan araşdırmaları təşviq etmişdir [4].

Ulu Öndər elmi potensialın inkişafına xüsusi əhəmiyyət verirdi. Onun tapşırığı ilə elmi-tədqiqat institutları modernləşdirildi, yeni laboratoriyalar yaradıldı və beynəlxalq əməkdaşlıq gücləndirildi. Elm sahəsində aparılan islahatlar nəticəsində fundamental və tətbiqi elmlərə daha çox diqqət ayrıldı. Bundan əlavə, gənc alimlərin yetişdirilməsi üçün müxtəlif dəstək proqramları tətbiq olundu.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan alimləri dünyanın nüfuzlu konfrans və simpoziumlarında iştirak edərək, elmi mübadilələrdə aktiv rol oynamağa başladılar. O, elmi işlərin və tədqiqatların maliyyələşdirilməsinə xüsusi diqqət yetirirdi. Azərbaycan elminin inkişafı üçün dövlət səviyyəsində qəbul edilən qərarlar bu gün də öz əhəmiyyətini qorumaqdadır [2].

Heydər Əliyevin təhsil sahəsində apardığı islahatlar Azərbaycanın müasir təhsil sisteminin əsasını qoymuşdur. Onun rəhbərliyi ilə təhsil sahəsində fundamental dəyişikliklər edilmiş, milli təhsil strategiyası formalaşdırılmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə "Təhsil Qanunu" qəbul edildi və Azərbaycanda təhsil sistemi yeni bir mərhələyə daxil oldu. Bu qanun təhsilin bütün pillələrində keyfiyyətin artırılmasına xidmət edirdi [3]. Onun rəhbərliyi ilə təhsil sahəsində beynəlxalq təcrübəyə əsaslanan yeni proqramlar tətbiq olundu, məktəblər və ali təhsil müəssisələri müasir tələblərə uyğunlaşdırıldı.

Heydər Əliyev ali təhsilin inkişafına da xüsusi önəm vermişdir. Onun dövründə universitetlərə daha çox sərbəstlik verildi, ali təhsil müəssisələrinin elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi üçün tədbirlər görüldü. Yeni fakültələr, elmi laboratoriyalar yaradıldı və beynəlxalq əməkdaşlıqlar genişləndirildi.

Gənclərin xarici ölkələrdə təhsil almasına xüsusi diqqət yetirilmişdir. 2000-ci illərin əvvəllərində xaricdə təhsil proqramlarına start verildi və bu proqramlar çərçivəsində minlərlə gənc dünyanın aparıcı universitetlərində təhsil almağa göndərildi. Bu təşəbbüs Azərbaycan gənclərinin beynəlxalq təcrübəyə yiyələnməsinə və ölkəyə yeni bilik və bacarıqların gətirilməsinə səbəb oldu.

Eyni zamanda, ümumi təhsil sistemində də böyük yeniliklər baş verdi. Heydər Əliyevin təşəbbüsü ilə respublikanın müxtəlif bölgələrində yeni məktəblər tikildi, mövcud məktəblər əsaslı təmir olundu. Müəllimlərin sosial rifahı yaxşılaşdırıldı, onların əməkhaqları artırıldı və peşəkar inkişafları üçün müxtəlif təlim proqramları təşkil edildi [5].

Texniki-peşə təhsilinin inkişafı da Ulu Öndər Heydər Əliyevin diqqət mərkəzində idi. O, ölkənin iqtisadiyyatına uyğun peşə sahələrinin formalaşmasını dəstəkləyir, gənclərin əmək bazarına uyğun bacarıqlara sahib olmasını təmin etmək üçün yeni texniki-peşə məktəblərinin açılmasını təşviq edirdi.

Təhsil sahəsində həyata keçirilən islahatlar nəticəsində Azərbaycan gəncləri yüksək bilik və bacarıqlara malik bir nəsil kimi formalaşdı. Heydər Əliyevin təhsil sahəsində qoyduğu irs bu gün də Azərbaycan Respublikasının təhsil siyasətinin əsasını təşkil edir və onun strateji baxışları əsasında inkişaf etdirilir.

Heydər Əliyev mədəniyyətin inkişafına da çox böyük töhfələr vermişdir. Onun sayəsində mədəni irsin qorunması və yeni mədəniyyət ocaqlarının yaradılması mümkün oldu [6]. O, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi üçün ardıcıl tədbirlər həyata keçirmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan mədəniyyəti beynəlxalq arenaya çıxarıldı. 2001-ci ildə UNESCO və ISESCO ilə əməkdaşlıq genişləndirildi və Azərbaycanın mədəni irsi dünya

miqyasında tanıdıldı. Musiqi, teatr, kino və incəsənətin digər sahələrində aparılan islahatlar nəticəsində Azərbaycan mədəniyyəti yeni inkişaf mərhələsinə qədəm qoydu.

Heydər Əliyevin milli-mədəni irsin qorunmasına göstərdiyi qayğı sayəsində Azərbaycanın tarixi abidələri bərpa edildi, milli teatr və muzeylər üçün yeni binalar inşa olundu. Ulu Öndərin mədəniyyət sahəsində gördüyü işlər bu gün də öz aktuallığını qoruyur.

Heydər Əliyevin elm, təhsil və mədəniyyət sahələrində apardığı islahatlar müasir Azərbaycan cəmiyyətinin inkişafında mühüm rol oynamışdır. Onun uzaqgörən siyasəti nəticəsində bu sahələrdə fundamental dəyişikliklər baş vermiş, ölkəmizin intellektual və mədəni potensialı daha da güclənmişdir [7].

Elm sahəsində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan alimləri beynəlxalq elmi platformalarda tanınmış, milli elmin inkişafına töhfə verən fundamental tədqiqatlar aparılmışdır. Təhsil sahəsində aparılan islahatlar isə yeni nəsillərin yüksək səviyyəli bilik və bacarıqlarla yetişməsinə şərait yaratmışdır. Heydər Əliyevin müasir təhsil sisteminin əsaslarını qoyması, ali və orta təhsilin keyfiyyətini artırması, beynəlxalq təcrübənin tətbiqini dəstəkləməsi Azərbaycan təhsilinin davamlı inkişafına zəmin yaratmışdır.

Eyni zamanda, Heydər Əliyevin mədəniyyətin inkişafına verdiyi töhfələr Azərbaycan mədəni irsinin qorunmasını və dünya səviyyəsində tanınmasını təmin etmişdir. Onun milli-mənəvi dəyərlərin qorunması istiqamətində gördüyü işlər bu gün də aktualdır və Azərbaycanın mədəni inkişafına böyük təsir göstərməkdədir.

Ümumiyyətlə, Heydər Əliyevin elm, təhsil və mədəniyyət sahələrində həyata keçirdiyi geniş-miqyaslı islahatlar Azərbaycan xalqının inkişafına və gələcək nəsillərin daha güclü bilik və bacarıqlara malik olmasına mühüm zəmin yaratmışdır. Onun bu sahələrdə qoyduğu irs bu gün də Azərbaycan dövlətinin əsas inkişaf strategiyalarından biri kimi davam etdirilir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev P.B., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı, Təhsil nəşriyyatı, 2006.
2. Hüseynov Z. Azərbaycan təhsil sisteminin inkişafı. Bakı, Təhsil, 2002.
3. Məmmədov F. Azərbaycanda təhsil islahatları. Bakı, Maarif, 2003.
4. Nəbiyev A. Heydər Əliyevin elm siyasəti. Bakı, Elm, 2005.
5. Qasımov R. Heydər Əliyev və milli dəyərlər. Bakı, Elm və Təhsil, 2006.
6. Quliyev E. Mədəni irs və Heydər Əliyev siyasəti. Bakı, Nurlan, 2004.
7. Səfərov M. Azərbaycanda elmi tədqiqatların perspektivləri. Bakı, Akademiya, 2007.

HEYDƏR ƏLİYEV İRSİ: ELM VƏ TƏHSİL

Ülkər Yaqub qızı Əliyeva
Mingəçevir Turizm Kolleci
ulkar.ali87@gmail.com

Zəngin örnək mənbəyi olan Heydər Əliyev irsi haqqında danışmaq və yazmaq bütöv bir tarixi dövrdən danışmaq qədər məsuliyyətli işdir. Heydər Əliyev fenomeni haqqında yazılmış çoxsaylı kitablar və məqalələr bu parlaq və istedadlı şəxsiyyətin xarakterik xüsusiyyətlərini hələ də tam təhlil edə bilməmişdir.

Heydər Əliyev irsinin tam öyrənilməsi üçün daha da geniş araşdırmalar aparmaq və bu tədqiqatların nəticələrini populyarlaşdırmaq lazımdır.

Heydər Əliyev fitri idarəçilik istedadı, dərin zəka, siyasi uzaqgörənlik və müdriklik, fenomenal yaddaş, dəmir məntiq, qətiyyət, mərdlik və humanizm kimi yüksək keyfiyyətlərə malik bir insan idi.

Heydər Əliyevin gərgin əməyi və sarsılmaz iradəsi Azərbaycanı totalitar kommunist rejiminin qəsblərindən qorudu, ölkəni vətəndaş müharibəsindən xilas etdi, onun dövlətçiliyinə və müstəqil-

liyinə dönməz xarakter verdi, ölkənin uğurlu xarici siyasətini müəyyənləşdirdi, Azərbaycanın yeni neft strategiyasını müəyyənləşdirdi.

90-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hərbi-siyasi böhran, anarxiya və anarxiya Azərbaycanın yeni müstəqilliyinin və dövlətçiliyinin məhvinə səbəb oldu. Heydər Əliyevin hakimiyyətə qayıdışı təkcə ölkəni, dövləti, torpağı deyil, bütövlükdə Azərbaycan xalqını məhv olmaq təhlükəsindən xilas etdi. Heydər Əliyev Azərbaycan dövlətinin gələcək inkişafının yollarını müəyyənləşdirdi:

- Qərbə inteqrasiya yolları;
- demokratik inkişaf və qanunun aliliyi;
- azərbaycançılıq və vətəndaş həmrəyliyi.

Açıq siyasət yeridən Heydər Əliyev dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar, maliyyə institutları ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini nəzərdə tutan strateji planı həyata keçirə bildi. Təsadüfi deyil ki, indi respublikamızda, hətta bütün dünyada "Heydər Əliyev" deyəndə Azərbaycanı, "Azərbaycan" deyəndə Heydər Əliyevi xatırlayırlar. Çünki bir-birini yaşadan və yüksəldən bu iki varlıq həqiqətən bir məfhuma çevrilib.

Heydər Əliyev böyük yaradıcı idi. Hansı sahədə işə başladısa, yeniliklər təqdim etdi, fundamental iş gördü. Qeyri-adi enerjisi, təşkilatçılıq bacarığı və uzaqgörənliyi ilə seçilən Ulu Öndər ən mürəkkəb və çətin situasiyalardan uğurla çıxış yolu tapmaq, hətta mümkün olmayanı da reallığa çevirmək bacarığı sayəsində sağlığında əfsanəyə çevrilib.

Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı ötən əsrin 60-cı illərinin sonlarından başlayaraq Azərbaycan cəmiyyətinin yenidən qurulması sahəsində müxtəlif istiqamətlərdə genişmiqyaslı işlər həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi göstəricilərinə görə keçmiş İttifaqın ön sıralarına çıxarmışdır. Bu sahələrdən biri, bəlkə də ən mühümü Azərbaycanda elmin və təhsilin inkişafı idi.

Yüksək intellektli şəxsiyyət olan Heydər Əliyev öz fəaliyyətində və siyasi praktikasında daim elmi fikrin ən son nailiyyətlərindən istifadə edirdi. O, elm və texnikanın, mədəniyyət və təhsilin, ədəbiyyat və incəsənətin inkişafı ilə bağlı məsələlərin həllinə həmişə çox həssaslıqla yanaşmış, cəmiyyətin və insanların inkişafını elm və təhsilin inkişafında görürdü. Ölkəmizdə elmin intensiv inkişafı, Elmlər Akademiyasının uğurları Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir.

Azərbaycan elmi bu müdrik və uzaqgörən rəhbərin simasında özünün ən böyük himayədarını və himayədarını tapdı. Bu sahəyə daim xüsusi diqqət göstərən ölkə rəhbərinin həyata keçirdiyi məqsədyönlü tədbirlər sayəsində fundamental tədqiqatlar xeyli genişlənib.

Yarımkeçiricilər fizikası və elektroenergetika sahəsində əldə edilmiş nəticələrə əsasən Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutu keçmiş Sovet İttifaqında selen, tellur və onların kompleks birləşmələrinin tədqiqi üzrə aparıcı müəssisə və "Selen əsaslı cihazların fizikası və texnologiyası" sahəsində aparıcı təşkilat kimi təsdiq edilmişdir. Respublikamızda, keçmiş Sovet İttifaqında yeni yüksək səmərəli selen rektifikatorlarının hazırlanması üçün xüsusi istehsal sahəsi yaradılmışdır. Bu dövrdə akademik şəhərciyin tikintisi tamamilə başa çatdırıldı, Elmlər Akademiyasında, universitetlərdə və digər müəssisələrdə çalışan alimlərin sayı xeyli artdı, yeni institutlar, laboratoriyalar, konstruktor büroları açıldı. 1972-ci ildə Elmlər Akademiyasının Naxçıvan Elmi Mərkəzi və Şəki Zona Elmi Bazası, 1975-ci ildə Xəzər Elmi Mərkəzi, 1978-ci ildə Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi, 1981-ci ildə Gəncə Elmi Mərkəzi yaradılmışdır. Alimlərin cəmiyyətdə nüfuzunun artırılması, onların əməyinin düzgün qiymətləndirilməsi Heydər Əliyevin rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur [2].

Heydər Əliyev 1975-ci ildə elmin, iqtisadiyyatın və mədəniyyətin inkişafında, yüksək ixtisaslı kadrların hazırlanmasındakı nailiyyətlərə görə Azərbaycan Elmlər Akademiyasının ali mükafatı – Xalqlar Dostluğu ordeni ilə təltif edilmişdir. Azərbaycanın onlarla alim və təhsil xadimi SSRİ-nin yüksək orden və medalları və dövlət mükafatları ilə təltif edilmişdir [1].

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində hər il yüzlərlə azərbaycanlı tələbə Sovet İttifaqının müxtəlif ali məktəblərinə, gənc alimlər isə ölkənin ən nüfuzlu elm mərkəzlərinə göndərilirdi. Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində respublikamızda yüksək ixtisaslı

kadrlar və mütəxəssislər formalaşmış, neft mühəndisliyi, fizika, riyaziyyat, informatika, kibernetika sahələrində dünya miqyaslı mühüm elmi nəticələr almış mərkəzlər yaranmışdır. Həmin mütəxəssislərin əksəriyyəti bu gün müstəqil Azərbaycanın qurulması və inkişafı prosesində cəbhə xəttində fəal çalışırlar.

Ötən əsrin 70-80-ci illərindən Azərbaycanın gələcəyini düşünən müdrik rəhbərin həyata keçirdiyi milli inkişaf proqramı bu gün öz bəhrəsini verməkdədir.

70-80-ci illər xalqımızın milli-mənəvi həyatında canlanma dövrünə çevrilmiş, Azərbaycan və dövlətçilik dəyərləri ictimai şüurda dərin kök salmışdır. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, Ümummilli Liderimizin həyata keçirdiyi uzaqgörən humanitar siyasət milli tarixi yaddaşa, mənəvi dəyərlərə qayıdışını təmin etdi və bu illərdə müstəqilliyin ideoloji əsasları formalaşmağa başladı. Azərbaycan alimləri bu sosial-mədəni prosesin mərkəzində dayanaraq onun aparıcı qüvvəsinə çevrildilər.

Çox təəssüf ki, Heydər Əliyevin hakimiyyətdə olmadığı qısa müddətdə elmi fəaliyyətin, alimlərin əməyinin nüfuzuna ciddi zərbə vuruldu, fundamental elmlərin beşiyi olan Elmlər Akademiyası yox olmaq təhlükəsi ilə üz-üzə qaldı. Lakin Heydər Əliyev ikinci dəfə ölkəyə rəhbərlik etməyə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, o cümlədən elm və təhsilə diqqət və qayğı yenidən artır. Bu təsadüf deyildi.

Bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz insanların ali təhsil almasında, maariflənməsində, müasir elmi biliklərə yiyələnməsindədir. Təsadüfi deyil ki, o, 1993-cü ildə Bakıya qayıdanda ilk görüşlərindən birini Elmlər Akademiyasında alimlərlə keçirib. O, siyasi, iqtisadi və digər sahələrlə bağlı qərarlarını elmi əsaslarla əsaslandırıb və müvafiq sahələr üzrə mütəxəssislərlə geniş fikir mübadiləsi apardıqdan sonra qəbul edib.

O, 1997-ci il yanvarın 31-də AMEA-nın rəhbərliyini və bir qrup aparıcı alimi qəbul edərək, elm sahəsində aparılan islahatların əhəmiyyətini xüsusilə vurğulamış, Azərbaycanın inkişaf strategiyasının əsas müddəalarını və bu strategiyadan irəli gələn Azərbaycan elminin vəzifələrini müəyyən etmişdir. Bu görüş Azərbaycan elminin və Akademiyanın tarixində mühüm əhəmiyyət kəsb etdi, alimlərin itirilmiş nüfuzunu bərpa etdi, onların cəmiyyətdəki rolunu və mövqeyini gücləndirdi, Akademiyada ciddi dəyişikliklərin və islahatların əsasını qoydu. Daha sonra o, bütün ölkə üzrə aparıcı alimlərin maaşlarını, eləcə də Akademiyanın həqiqi və müxbir üzvlərinin maaşlarını xeyli artırdı. Elmi müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində konkret addımlar atılıb .

2001-ci ildə Elmlər Akademiyasının Milli Elmlər Akademiyası adlandırılması, AMEA üzvlərinin sayının artırılması və AMEA-ya seçkilərin keçirilməsi, 2002-ci ildə Naxçıvan bölməsinin yaradılması, 2003-cü ildə AMEA-ya yüksək statusun verilməsi və onun yeni nizamnaməsinin təsdiq edilməsi və s. kimi mühüm addımların atılması ölkəmizdə elmin və təhsilin inkişafına böyük təkan verdi [3].

Heydər Əliyev elmlə təhsilin ahəngdar inkişafını və üzvi vəhdətini təmin etmək üçün məqsədyönlü proqramlar həyata keçirdi. Təhsilin əsas bünövrəsinin orta məktəbdə qoyulduğunu nəzərə alsaq, hələ ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin bilavasitə qayğısı nəticəsində Azərbaycanda çoxlu sayda məktəb binaları tikilmiş, yeni dərsliklər hazırlanaraq nəşr edilmiş, şagirdlərə pulsuz olaraq verilmişdir. Təhsilin inkişafı üçün müxtəlif proqram və layihələr hazırlanıb və uğurla həyata keçirilib. Ölkədə yeni ali təhsil müəssisələri yaradıldı, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirildi.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi təkcə Azərbaycanda deyil, həm də ittifaq miqyasında təhsil islahatlarında həlledici rol oynamışdır.

"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər 1993-2003-cü illərdə də ölkəmizdə bu sahənin inkişafına xüsusi diqqət yetirmişdir [4]. Təkcə paytaxtda deyil, respublikanın ucqarlarında da yüzlərlə məktəb, mədəniyyət evləri, kitabxanalar, uşaq bağçaları tikilmişdir. Təhsil işçiləri, ziyalılar dövlətin yüksək qayğısı ilə əhatə olunub. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilmiş, məzmunca yenilənmiş, dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılmışdır.

Azərbaycanı bütün dünyada təmsil edən Heydər Əliyevin mühüm fəaliyyəti nəticəsində Azərbaycan dili rəsmi tədbirlərdə rəsmi dil kimi inkişaf etdirilmişdir. Ölkəyə rəhbərlik etdiyi dövrdə yeritdiyi dil siyasəti ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri içərisində nüfuzunu artırmaq məqsədinə xidmət etmişdir.

Heydər Əliyev cənablarının Azərbaycan dilinin inkişafında xidmətlərindən danışarkən onun yazı mədəniyyətimiz, əlifba islahatı və türk dünyasının birləşdirilməsi sahəsində gördüyü tarixi xidmətlərini xüsusi qeyd etmək lazımdır. Ölkə Prezidentinin 9 avqust 2001-ci il tarixdə imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanı irəliyə atılmış yeni və tarixi bir addım idi. XIX-XX əsrlərdə dəfələrlə iatın qrafikalı əlifbaya keçmək üçün səylər olsa da, real nəticəsi olmamışdır. Latın qrafikalı əlifbaya keçmək ideyası türk dünyasında xüsusi bir mərhələdir. Bu ideyanın yaranması, reallaşması, tətbiqi Azərbaycanla, onun görkəmli şəxsiyyətlərindən sayılan M.F.Axundov, H.B.Zərdabi, C.Məmmədquluzadə, S.M.Qənizadə, N.Nərimanov, Ü.Hacıbəyov, B.Çobanzadə, Ə.Hüseynzadə, S.Ağamalıoğlu və b. ilə bağlı olmuşdur. Milli ruhlu bu ziyalılar Azərbaycan xalqının tərəqqisi, maarifə, elmə yiyələnməsi yolunda latın qrafikalı əlifbanın tarixi rolunu dərk etmişlər. O dövrün reallığı bu ideyanın həyata keçməsinə həmişə mane olmuş, sədd çəkmişdir. 1926-cı ildə Bakı şəhərində keçirilən I Türkoloji qurultay türkdilli ölkələrdə latın qrafikalı əlifbaya keçməyi tövsiyə etdi. Qurultayın tövsiyəsini ilk reallaşdıran ölkə Azərbaycan oldu. Lakin 30-cu illərin repressiyası Azərbaycan xalqına çox böyük zərbələr vurdu. Bunlardan biri də latın qrafikalı əlifbanı ləğv etməsi idi. Sovet strategiyasının şovinist siyasəti nəticəsində doğma əlifbamız kiril qrafikalı əlifba ilə dəyişdirildi. Üzərindən neçə onilliklər keçdi, tarix öz ədalətli hökmünü verdi - Sovet İttifaqı dağıldı, Azərbaycan Müstəqil Respublikaya çevrildi, Heydər Əliyev kimi dünya şöhrətli siyasətçi, qəlbində türkçülük, azərbaycançılıq məşəli yanan dahi bir lider Azərbaycan dövlətinə yenidən rəhbərlik etdi.

Möhtərəm prezidentimiz Heydər Əliyev şəxsi nüfuzundan istifadə edərək, Azərbaycan xalqını və onun dilinin adını əbədiləşdirdi. Azərbayçan dilinin tətbiqi işinin təkmilləşdirilməsi və latın qrafikalı əlifbaya keçmək haqqında dəyərli, tarixi fərman imzaladı. Bu fərman Azərbaycan dilinin tətbiqi və latın qrafikalı əlifbanın geniş işlədilməsi üçün dövlətin təminatı idi. Heydər Əliyevin uzaqgörənliyi, məsələnin vaxtında həllinə qərar verməsi təkcə Azərbaycanda deyil, ümumiyyətlə, bütün Türk dünyasında sevinclə qarşılandı. Möhtərəm Prezidentimiz Heydər Əliyev Türkiyədə "2001-ci ilin müdrik dövlət adamı" seçildi. Türk dünyasında türkçülük ideyasının mübariz təbliğatçısı, Azərbaycanda gedən prosesləri yaxından izləyən Qazax yazıçısı Oljas Suleymenov respublikamızda dil sahəsində başlanmış bu inkişafı belə qiymətləndirmişdir: "Latın əlifbasına keçmək böyük cəsarət, qətiyyət, siyasi iradə tələb edirdi. Cənab Heydər Əliyevdə bütün bu keyfiyyətlər, habelə zəngin siyasi təcrübə, kəskin tənqid və tarixi prosesləri istiqamətləndirə bilmək istedadı vardır. Bu, tarixi bir qərardır" [4].

1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyin rəmzlərindən biri olaraq təsbit edildi. Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı keçirilən geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artırılmasına təsir etdi, dövlət dilinin müstəqil dövlət üçün nə demək olduğunu əyani şəkildə göstərdi. Həmin müzakirələr sübut etdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə, mütəxəssislər də ana dilinin qeyd-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədir. Hər şeydən əvvəl, ona görə ki, iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur və təcrübədə onları istər-istəməz ayrı-ayrı adlarla (*Azərbaycan türkcəsi - Türkiyə türkcəsi*) adlandırmaq lazım gəlir; "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla işlənir, kifayət qədər böyük işlənmə təcrübəsinə malikdir. Dilimizin türk dili, azəri-türk dili, Azərbaycan türkcəsi, Azərbaycan türk dili və b. kimi adlandırılmasını təklif edənlər və bu mülahizələrini xalqın etnosu, etnik mənşəyi, etnik mənsubiyyəti ilə əlaqələndirənlər var idi. Belə bir zamanda Ulu Öndər qeyd edirdi ki, tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik ki, XX əsrdə bizim dilimiz öz inkişaf

dövrünü keçib, formalaşıb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq həm fəlsəfi, həm Azərbaycanın dövlətçiliyi, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düz deyil.

Ulu Öndər müstəqil dövlətimizin yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 5 noyabr 1995-ci ildə keçirilən iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilinin adı barədə öz qəti fikrini bildirdi. Həmin gün keçirilən müzakirələri diqqətlə izləyən Azərbaycan vətəndaşları öndərin çıxışını düzgün qiymətləndirməyi bacardılar. Bu baxımdan, müstəqil Azərbaycan dövlətinin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimiz uğurların əsasını təşkil edir. Onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini xalqın mənəvi varlığı kimi sevməyi, dilin zəngin söz xəzinəsindən bacarıqla istifadə etməyi, dilin qayğısına qalmağı, onun saflığını qorumağı, onunla fəxr etməyi, onu dərindən bilməyi, mükəmməl mənimsəməyi, ana dilimizin gözəlliyini duymağı, bu gözəlliyi hər zaman hər yerdə təbliğ etməyi, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi. Azərbaycanda xalqın mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verildi. 18 iyun 2001-ci il tarixində imzalanan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman da həmin siyasətin davamı idi.

Heydər Əliyev, dilimizi qorumaq, inkişaf etdirmək, saflaşdırmaq, populyarlaşdırmaq üçün bir çox aktlara imza atıb. Onun Azərbaycan xalqı, eləcə də Azərbaycan dili qarşısında xidmətləri bu xalqın daş yaddaşına əbədi həkk olunub. O, dilimizin saflığının, mənəvi sərvətinin qorunmasının vacibliyini yorulmadan vurğulamış və bunun üçün cəmiyyətin bütün imkanlarını səfərbər etmişdir. Bu da dövlətimizin başçısı İlham Əliyevin "Heydər Əliyev ili" elan etdiyi 2023-cü ilin dahi şəxsiyyətin fəaliyyətinin tədqiqinə, daha dərindən və ətraflı öyrənilməsinə, onun dil siyasətinin geniş təbliğinə növbəti töhfə olacağının daha bir səbəbidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. A.Axundov. Dilimizə dövlət qayğısı. "Dirçəliş" jurnalı, № 41, Bakı,2001
2. Aslanova R.N. Qloballaşma və mədəni müxtəliflik, Bakı, 2004
3. B.Xəlilov. Azərbaycan dili milli varlığımızdır. "Dirçəliş" jurnalı, №243, 44, 45, 46, Bakı, 2001.
4. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı, Bakı, Ozan, 1999

HEYDƏR ƏLİYEV VƏ SOVET İDEOLOGİYASI: AZƏRBAYCANIN TALEYİNİ FORMALAŞDIRAN LİDER

Mayisə Elşad qızı Qaraşova
Sumqayıt Dövlət Texniki Kolleci
mayagarashova@gmail.com

Giriş

İstər Sovet İttifaqı dövründə, istərsə də Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycanın müasir tarixində böyük siyasi xadim olan Heydər Əliyev ölkədə baş verəcək hadisələrin gedişatının müəyyənləşdirilməsində mühüm rol oynamışdır. Əliyevin siyasəti Azərbaycanın milli inkişafının, müasirləşməsinin və nəhayət, sovet ideologiyasının mürəkkəbliklərində mahir bir lider olmasına baxmayaraq, müstəqilliyə keçidinin əsasını qoydu. Əliyevin siyasi karyerası, sovet ideologiyası ilə əlaqəsi, Azərbaycanın milli kimliyinə, iqtisadi yüksəlişinə və siyasi sabitliyinə uzunmüddətli təsiri ən mühüm mövzular sırasındadır [1].

Əsas hissə

Sovet İttifaqının yüksək mərkəzləşmiş və ideoloji mahiyyətini nəzərə alsaq, Heydər Əliyevin sovet siyasi iyerarxiyası sıralarından yüksəlməsi həqiqətən də əlamətdar idi. 1923-cü ildə Naxçıvanda anadan olan lider, Kommunist Partiyası sıralarına daxil olmuş, zəkası, idarəçilik bacarığı, sovet

idarəçiliyinin fundamental prinsiplərinə uyğunlaşma bacarığı sayəsində sürətlə irəliləmişdir. O, Kommunist Partiyasının hakimiyyətə gəlməsində mühüm rol oynayıb [2].

Heydər Əliyevin 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsinə seçilməsi onu Azərbaycan Sovet Sosialist Respublikasının faktiki rəhbəri vəzifəsinə yüksəldib. Onun yüksəlişi ona görə əhəmiyyətli idi ki, o zaman Sovet İttifaqı sərt ideoloji prinsiplərlə idarə olunurdu. Bu prinsiplər yerli rəhbərlərdən Moskvaya tam sədaqət nümayiş etdirməklə yanaşı, eyni zamanda öz respublikalarının iqtisadi və sosial tərəqqisini təmin etməyi tələb edirdi.

İdarəçiliyə praqmatik yanaşma Heydər Əliyev rəhbərliyini müəyyən edən xüsusiyyət idi. O, öz səyləri ilə milli maraqları uğurla təbliğ etməklə yanaşı, eyni zamanda mərkəzi sovet hökumətinin gözləntilərini də doğrulda bildi. Heydər Əliyev gözəl başa düşürdü ki, ideologiyaya kor-koranə sadiq qalan sovet məmurlarının əksəriyyətindən fərqli olaraq, Azərbaycanın tərəqqisi üçün faktiki inkişaf siyasəti lazımdır.

Marksist-leninist prinsiplər kollektivləşməyə, mərkəzləşdirilmiş planlı iqtisadiyyata və cəmiyyətin bütün sahələrinə kommunist partiyasının nəzarətinə önəm verən sovet ideologiyasının əsası kimi xidmət edirdi.

Heydər Əliyev Azərbaycanı Sovet İttifaqının tərkibində sənaye mərkəzinə çevirdi ki, bu da onun ən mühüm nailiyyətlərindən biri hesab olunur. Azərbaycan ölkəsi onun prezident olduğu müddətdə, xüsusilə neft hasilatı, maşınqayırma və kənd təsərrüfatı sahələrində əhəmiyyətli sənayeləşməni yaşadı. O, Moskvadan əhəmiyyətli sərmayələr əldə etməkdə uğur qazandı ki, bu da respublikaya həm işçi qüvvəsini, həm də infrastrukturunu modernləşdirməyə imkan verdi [3].

Heydər Əliyev Sovet İttifaqının kollektivləşdirməyə böyük önəm verməsinə baxmayaraq, kənd yerlərində həyat səviyyəsinin yaxşılaşmasına səbəb olan səmərəli kənd təsərrüfatı istehsalının tərəfdarı idi. Onun siyasətini həyata keçirməklə Azərbaycan bir çox digər sovet respublikaları ilə müqayisədə iqtisadi vəziyyətini yaxşılaşdıra bildi.

Heydər Əliyevə aydın idi ki, Azərbaycanın uzunmüddətli uğurlarının ən mühüm amili təhsildir. Elmi tədqiqat mərkəzlərinin və texniki məktəblərin böyüməsinə kömək etməklə yanaşı, ali təhsil müəssisələrinin genişləndirilməsinin tərəfdarı idi. O, əsas sektorlarda azərbaycanlı mütəxəssislərin təhsilini təşviq edərək, sonradan müstəqil Azərbaycana töhfə verə biləcək yaxşı təlim keçmiş işçi qüvvəsini təmin edib. Qeyd etmək lazımdır ki, o, rəsmi olaraq sovet ideoloji təlimlərini qoruyarkən bunu edib.

Bundan başqa, Heydər Əliyev Sovet İttifaqı çərçivəsində Azərbaycanın milli kimliyinə gizli dəstək verib. Azərbaycan mədəniyyətinin, ədəbiyyatının və tarixinin təbliği onun fəal şəkildə təşviq etdiyi bir şey idi ki, bu da sovetlərin ruslaşdırma siyasətinə baxmayaraq milli şüurun möhkəm qalmasında mühüm rol oynamışdır.

Heydər Əliyev manevr ustası olan siyasi alim idi. Sovet rəhbərliyinin, o cümlədən Leonid Brejnevin, daha sonra isə Yuri Andropovun etimadını qazana bilsə də, Azərbaycanı müəyyən dərəcədə muxtariyyətlə idarə edə bildi. Moskvaya sədaqəti ilə idarəçiliyə praqmatik yanaşması arasında tarazlıq yarada bilməsi sayəsində Azərbaycan xalqı üçün faydalı olan siyasətləri həyata keçirə bildi.

1982-ci ildə əldə etdiyi siyasi uğur onun Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə yüksəlməsi ilə nəticələndi. Bu, onu Sovet İttifaqı tarixində ən yüksək rütbəli azərbaycanlılardan biri vəzifəsinə yüksəltdi. Heydər Əliyev isə 1980-ci illərin ortalarında Mixail Qorbaçovun hakimiyyətə gəlişindən sonra siyasi fikir ayrılıqları, xüsusən də iqtisadi islahatlar və milli siyasətlə bağlı rəğbətini itirdi.

1987-ci ildə məcburi istefa verdikdən sonra Əliyev Naxçıvana qayıtdı və burada Sovet İttifaqının siyasətindən uzaqlaşdı. 1991-ci ildə Sovet İttifaqının dağıldığı bir vaxtda Azərbaycanda siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül və Dağlıq Qarabağ münaqişəsi yaşanırdı. Azərbaycan xalqı güclü liderliyə malik olmağın vacibliyini dərk etdiyi üçün bir daha Əliyevə üz tutdu [4].

Heydər Əliyevin Azərbaycan prezidenti seçilməsi 1993-cü ildə ölkədə baş verən qarışıqlıq şəraitində baş verdi. Postsovet dövründə onun rəhbərliyi ölkədə sabitliyin təmin edilməsi, iqtisadi islahatların həyata keçirilməsi, dövlətin möhkəm təməlinin yaradılması prosesində mühüm rol oynayıb. O, keçmişdə sovet sistemi daxilində çalışsa da, indi müstəqil dövlətçilik vizyonunu güdür,

Azərbaycanın geosiyasi maraqları ilə Rusiyanın, Qərbin və regional güclərin maraqları arasında tarazlıq yaratmağa çalışır.

Heydər Əliyev ölkəyə xarici sərmayələrin, xüsusən də enerji sektoruna cəlb edilməsi məqsədi ilə iqtisadiyyatın liberallaşdırılmasını əsas prioritet hesab edib. Onun Qərb neft şirkətləri ilə apardığı danışıqlar 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə nəticələndi. Bu müqavilə Azərbaycana öz neft ehtiyatlarını tam şəkildə istifadə etməyə imkan verdi ki, bu da öz növbəsində iqtisadi çiçəklənməyə səbəb oldu [5].

Siyasi cəbhədə Heydər Əliyev sabitliyi təmin etməklə yanaşı, həm də hakimiyyəti birləşdirən möhkəm prezident sistemi qurdu. Onun tərəfdarları hesab edirdilər ki, onu pisləyənlərin administrasiyasının avtoritar olduğunu iddia etmələrinə baxmayaraq, onun rəhbərliyi Azərbaycanın mürəkkəb geosiyasi mühitdə mövcudluğunu davam etdirmək üçün vacibdir.

Heydər Əliyev Azərbaycanın milli maraqlarını üstün tutmağı bacaran, eyni zamanda sovet ideologiyasının mürəkkəbliklərini dərk edən biri idi. O, sərt sovet sistemini idarə etməkdə göstərdiyi məharət nəticəsində Azərbaycanda iqtisadi və sosial tərəqqiyə nail ola bildi ki, bu da respublikanın müstəqillik əldə etmək üçün güclü mövqedə olmasını təmin etdi.

Sovet İttifaqının süqutundan sonra onun rəhbərliyi eyni dərəcədə transformativ olub, Azərbaycanın iqtisadi inkişafı, siyasi sabitliyi və strateji geosiyasi mövqeyi üçün zəmin yaradıb. Bu gün Heydər Əliyev irsi onun həyata keçirdiyi siyasət və onun davamçılarının rəhbərliyi ilə yaşayır ki, bu da Azərbaycanın bundan sonra da qüdrətli və müstəqil dövlət olmasını təmin edir.

Nəticə

Heydər Əliyevin bir lider kimi irsi ilə Sovetlər dönəmi, eləcə də Azərbaycanın müstəqillik əldə etmək üçün keçdiyi yol arasında möhkəm əlaqə var. Onun strateji və praqmatik liderliyinin təzahürüdür ki, o, sovet ideologiyasının mürəkkəbliklərində naviqasiya etməyi bacarır, eyni zamanda Azərbaycanın maraqlarını üstün tutur. Əliyev Sovet sistemində işlədiyi bütün dövrlərdə öz siyasi fərasətindən Azərbaycanın iqtisadi və infrastrukturunun inkişafı üçün səmərəli istifadə edə bilmiş, bununla da respublikanın Sovet İttifaqı daxilində nüfuzunu təmin etmişdir. İdeoloji doqmaya ciddi riayət edən sovet idarəçilərinin əksəriyyətindən fərqli olaraq, Əliyev mərkəzi nəzarət və praktiki idarəetmə arasında tarazlığın yaradılmasının, sənaye artımının dəstəklənməsinin, təhsilin təkmilləşdirilməsinin və sovet çərçivəsi çərçivəsində Azərbaycan milli kimliyinin təbliğinin əhəmiyyətini dərk edirdi.

Heydər Əliyevin sovet sisteminə sadiq olmasına baxmayaraq həyata keçirdiyi siyasət Azərbaycanın son müstəqilliyinin təməlinin qoyulmasında mühüm rol oynadı. Onun həyata keçirdiyi inzibati və iqtisadi islahatlar Azərbaycanın Sovet İttifaqı daxilində mövqelərinin möhkəmlənməsinə kömək etdi. Bu islahatlar həm də respublikanı daha möhkəm iqtisadi strukturla təmin etdi ki, bu da sonralar onun muxtar statusa keçidini asanlaşdırdı. Sovet siyasi sistemindən ayrıldıqdan sonra Azərbaycanın yaşadığı qeyri-sabitlik və münaqişə güclü liderliyin vacibliyini vurğuladı.

Heydər Əliyev ölkə müstəqilliyini əldə etdikdən sonra ölkənin ilk Prezidenti kimi fəaliyyət göstərərkən, Azərbaycanı iqtisadi, siyasi və geosiyasi transformasiya dövründə idarə etmək qabiliyyətini bir daha nümayiş etdirdi. Onun praqmatik xarici siyasətini, xüsusən də enerji sektorunda həyata keçirməsi sayəsində Azərbaycan həm regional, həm də qlobal bazarlarda mühüm oyunçuya çevrilə bildi.

Heydər Əliyevin həm sovet, həm də postsovet dövründə liderlik edə bilməsi onun uyğunlaşma qabiliyyətini və böyük mənzərəni görmək qabiliyyətini nümayiş etdirir. Əvvəllər sovet ideologiyasının sərt sərhədləri daxilində fəaliyyət göstərən o, sonda milli suverenliyi, iqtisadi liberallaşmanı və regional sabitliyi prioritet hesab edən siyasətləri qəbul etdi. Bu, onun əvvəlki yanaşmasından əhəmiyyətli bir dəyişiklik idi. Onun irsi müasir Azərbaycana öz təsirini göstərməkdə davam edir, ölkənin siyasi mənzərəsinə, iqtisadi strategiyasına və beynəlxalq statusuna təsir edir.

Nəticə olaraq, Heydər Əliyev Azərbaycanın uzunmüddətli maraqlarına xidmət etmək üçün məharətlə hərəkət edən lider idi. Onun sovet siyasətindəki rolu və müstəqil Azərbaycanda liderliyi ilə ideologiya ilə praqmatizm arasında tarazlıq yarada bilməsi bunu bacardığının sübutudur. Azərbaycanın siyasi sabitliyi, iqtisadi tərəqqisi və strateji beynəlxalq mövqeləri onun təsirinin bu gün də

görünən bariz nümunələridir. Məhz işlədiyi dövrə görə o, Azərbaycanın müasir tarixinin ən nüfuzlu simalarından biri hesab olunur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əhməd, A. (2016, November 24). Heydər Əliyev və müstəqil Azərbaycan: Ümummilli liderin fəaliyyəti Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyətdir. Şərq (№ 215), 10. https://files.preslib.az/projects/heydaraliyev/articles/he0283.pdf

2. Heydər Əliyev - 98 [PDF]. Retrieved from http://static.bsu.az/w16/Heyd%C9%99r%20%C6%8Fliyev-98.pdf

3. Xələfov, A. (Yıl). [Kitap Adı] [PDF]. Azərbaycan Milli Kitabxanası. Retrieved from https://anl.az/el/emb/A.Xelefov/eserleri/kitablar/he-bmk.pdf

4. Naiboba, S. (2023). Heydər Əliyev 100 Il. Uzun Şərəfli Bır Həyat Dastanı. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10 (1), 317.

5. National Library of Azerbaijan. (2015). Azərbaycan Respublikasının Milli Kitabxanası - Elektron Kitabxana [PDF]. Retrieved from https://www.anl.az/el/Kitab/2015/eh_1cild.pdf

ДУХОВНОЕ НАСЛЕДИЕ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА - МЕСТО В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ

Ирада Джафарова
Мингячевирский колледж туризма
iceferova577@gmail.com

Основным предметом анализа высоких ценностей является отшлифованная в политике и философии научная интерпретация величия личности и значимости ее богатого, широкого мировоззрения. В ясном и конкретном анализе ведущих этапов философской мысли человечества, особенно ее политических направлений, феномен Гейдара Алиева уже занял свою вершину, свое высокое место. Если обратиться к мнению современной азербайджанской философской мысли, то в основе мировых событий лежат человеческие добрые дела, творческая деятельность, просвещенная мысль и глубокое размышление. Концепция «Человек и мир» дает объяснение пониманию и возможностям философии, а главное, изучению явлений действительности и, что еще важнее, теоретическим возможностям политической науки. В этих философских идеях личность Гейдара Алиева рассматривается как выражение общественных идей, национально-духовного богатства Азербайджана (в частности, сохранения, обогащения и развития чистоты родного языка...), общественных отношений нашей страны, творческой деятельности и общения людей в интеллектуальной сфере, а также как субъект. Воплощение качеств лидера как личности перед народом и государством определяет и ускоряет развитие глобальных процессов в обществе. Это выражается в основном в исторических терминах, в том виде, в котором оно интерпретируется, и поэтому проявляется во всех аспектах жизни [4].

Известно, что современная философская мысль базируется на двух основных и фундаментальных концепциях личности, а именно на интерпретации явлений с фундаментальной точки зрения и объективном теоретическом взгляде на нее.

Известно, что современная философская мысль базируется на двух основных и фундаментальных концепциях личности, а именно на интерпретации явлений с фунда-ментальной точки зрения и объективном теоретическом взгляде на нее.

Второе понятие характеризуется и определяется самой сущностью личности. В обоих вариантах понимания и во взгляде, обусловленном обеими основными точками зрения, Гейдар Алиев уже подтвердил свою феноменальность как историческая личность. Все остальные факторы, объективно оказывающие сильное воздействие на исторические процес-

сы, обусловлены, в частности, социально-политическими, геополитическими и социально-экономическими условиями. Потому, что современный Азербайджан, как отголосок национальной идеи, уже сейчас раскрывает роль личности Гейдара Алиева как приоритетную, а укрепление места нашего Общенационального Лидера среди исторических личностей связано с его большой созидательной гражданской позицией и политическим мастерством.

Идеи великого государственного деятеля Гейдара Алиева считаются олицетворением современного Азербайджана. Сегодняшняя азербайджанская философская мысль, задачи, осуществляемые личностью Гейдара Алиева во имя создания, укрепления и прогресса независимого, современного Азербайджана, развития нашего народа, трактуются как «категория деятельности», занимающая уникальное место в современной философии. Если одна сторона философии Гейдара Алиева категории деятельности была связана с миссией спасения, то другая сторона дополнялась этапами восхождения.

Необходимость прекращения огня, подписание «Контракта века», подготовка и принятие Конституции Азербайджана, установление международных связей Азербайджана, формирование азербайджанской диаспоры, вступление Азербайджана в Совет Европы, деятельность в проекте «Великий Шелковый путь» и строительство современной, сильной армии и т. д. [1].

При всем этом, стоит сказать, что категория деятельности Гейдара Алиева как исторической личности также богата и уникальна, поскольку наряду с государственным строительством он, как непобедимый Лидер, рассматривал сохранение и развитие национально-духовных ценностей как неотъемлемую часть своей государственности. По нашему мнению, уникальные новшества, достижения, научно-философская, теоретическая национальная идея в государственности Гейдара Алиева, его богатое политическое наследие уже нашли свое проявление как главная основа прочного фундамента нынешнего и будущего развития нашей страны.

Если выразить эти принципы и процессы в философских терминах, то их можно также назвать «теорией национально-духовной эволюции». Превращение Гейдара Алиева в жизнеспособную модель демократии, закрепленную в своде норм и ценностей, реализуемых как теоретически, так и на практике, занимает одно из важнейших мест в его системе ценностей, как и роль национального фактора в формировании национальных идей и национального самосознания. Введение в сферу исследований сравнительно малоизученной проблемы современной азербайджанской национальной философской мысли – национальной идентичности – впервые нашло отражение в изучении политического наследия Гейдара Алиева.

Известно, что этот вопрос не считался важным как «национальный фактор» до того, как его начали изучать философы. В научной литературе Азербайджана сознание «национального развития» и «национальной идентичности» вошло в наш национальный философский лексикон под названием категории национальных факторов современной азербайджанской философии как новое явление и источник новых исследований [3].

Национальное самосознание, напоминающее двукрыло идеологию азербайджанства, основанную Гейдаром Алиевым, уже создало свою политическую нишу и широкие, красочные горизонты в центре исследований и изысканий, как и понятие национального фактора, с его моральными аспектами, национально-культурными проблемами и связанным со всем этим набором национально-духовных ценностей. В то время между пробуждением национального самосознания народа и возникновением национальной идеи проходили длительные промежутки времени и пространства.

Общеизвестно, что национальная идея может однозначно развиваться только через пробуждение и формирование нации, и только таким образом она может войти в ряды цивилизованных наций.

Философской науке также известно, что «национальный фактор», имеющий большое и широкое понятие, отражает его присутствие, с его определенностью и тонкими нюансами, в существовании нации, ее важнейшую сущность, а главное, ее духовный и нравственный

потенциал, ее широкие эмоционально-психологические аспекты и направления, в которых ее общественное развитие направлено к прогрессу.

Если мы примем все эти аспекты и аспекты, показанные нами, в совокупной, диалектической форме, то мы станем свидетелями единства всех их с сознанием национальной идентичности. Родной язык, занимающий наиболее полное и важное место на уровне нашей национальной культуры и национального самосознания, неоднократно отмечал Великий Лидер Гейдар Алиев: «Каждый из нас может гордиться азербайджанским языком, потому что это наш родной язык, потому что это богатый язык, уже признанный в мире язык».

Понятие национальной идентичности, охватывающее историческую память народа, его уже принятые национально-духовные интересы, ценности и цели, уже создало и сформировало в азербайджанской философской мысли свой национальный интеллект. Понятие и сознание национальной идентичности все больше созревает как вечное проявление ее социального бытия в нашей национальной философской мысли, которая всегда находится в движении и развитии. «Я горжусь тем, что я азербайджанец» — слова, которые уже запомнены языками [4].

Те, кто объективно анализирует творческий опыт государственного управления лидера, вопрос, занимающий очень важное место в синергетической (динамической) философии управления великого лидера Гейдара Алиева, видят, что эта ценная социальная когнитивная черта, которая также считается важной в прагматизме, весьма характерна для философии управления такой великой личности и политического мастера, как Гейдар Алиев, и его практики социальной реконструкции.

В нашей философской науке, наряду с научными и философско-теоретическими трудами по глобализации, моделям демократического развития, национальным отношениям, а также известными статьями, исследующими наши национальные идеи и идеологию, постепенно повышают свои позиции в современной политической науке новые труды и диссертации, созданные в области исследования богатого политического наследия Гейдара Алиева – основателя современного Азербайджанского государства.

Оказываются большие заслуги и проводится масштабная работа в области исследования, изучения и всестороннего изучения богатого и уникального политического, научного и философского наследия общенационального лидера Гейдара Алиева, имевшего исключительные государственные заслуги в создании, укреплении и развитии современного Азербайджанского государства.

Помимо многочисленных достижений, достигнутых за последние 20 лет, независимый Азербайджан также известен как толерантное место в регионе и во всей Европе, где встречаются различные религиозные цивилизации. Вернувшись к власти в 1993 году по настойчивому требованию народа, великий лидер Гейдар Алиев осуществил ряд мер по регулированию религиозных, национальных и этнических отношений в стране на высоком уровне, полноценному утверждению свободы совести и всегда уделял пристальное внимание этой сфере с точки зрения интересов национальной безопасности народа.

Гейдар Алиев считал, что только национальная основа – азербайджанство, равноправие и сотрудничество представителей всех национальностей, проживающих в Азербайджане, национальная солидарность, защита национально-духовных ценностей, общая история и общий язык общения позволят каждому азербайджанцу, независимо от этнической принадлежности, почувствовать себя самостоятельной личностью, мобилизованной на строительство общего дома для всех. Гейдар Алиев, помимо уделения особого внимания развитию прогрессивных исламских ценностей в стране, обеспечивал создание толерантной среды для развития других религий и работал над формированием отношений, основанных на взаимном уважении между религиозными конфессиями.

Все это подтверждает, что общенациональный лидер Гейдар Алиев на протяжении всей своей содержательной жизни и славной государственности думал только об Азербайджане и трудился ради его модернизации, укрепления и процветания.

Гениальный лидер хотел видеть Азербайджан постоянно развивающимся и современным, поэтому он не остался равнодушным к дальнейшей судьбе народа и воспитал современно мыслящего лидера с высокими управленческими и организаторскими способностями, который продолжил бы линию модернизации после него.

Если модернизационная политика Гейдара Алиева превратила Азербайджан в ведущую страну бывшего СССР с 1970-х годов и в то же время обеспечила совершенную стратегию от хаоса и прогресса к развитию в 1990-е годы, то модернизационный курс, проводимый его достойным преемником господином Ильхамом Алиевым, обусловил формирование национальной модели развития нашей республики.

Самым ярким результатом руководства страной президента Ильхама Алиева за последние годы является то, что сегодня Азербайджан является в прямом смысле этого слова страной, проводящей полностью независимую политику.

Сегодня независимое Азербайджанское государство имеет свою политическую линию, свой государственно-образ и свой путь развития. Политика правительства страны, основанная на национальных интересах, последовательная и целенаправленная деятельность по экономическому развитию и демократизации, построению правового государства, эффективная дипломатия обеспечили практическую реализацию национальной независимости. Господин Ильхам Алиев, успешно продолживший путь модернизации, считает, что этот путь приведет нашу страну к обществу знаний и информации. Социокультурная модернизация Азербайджана подразумевает не только быстрое и качественное применение новых технологий и рыночных механизмов, но и создание институтов, способных обусловить цивилизованное обновление нации с помощью креативного и инновационного сознания.

Есть еще одна важная причина успехов господина Ильхама Алиева: возвысив человеческий и личностный фактор, глава государства продемонстрировал, что интересы каждого гражданина являются для государства превыше всего.

Список использованной литературы

1. Heydər Əliyev. “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri”. Ümumittifaq elmi-praktiki konfransında məruzə. 25 aprel 1979-cu il. Bakı: 1979
2. Heydər Əliyev. Sovet ədəbiyyatının yüksək borcu və amalı. Bakı: 1981
3. Ələmşahov B., Bəxşeyiş N. Dəryadan damlalar. Bakı: 1999
4. Aforizmlər (Ələskərov Ş., Xəlilov C.). Bakı: 1977
5. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998.

MÜƏLLİMLƏRDƏ MOTİVASİYA YARADILMASININ MÜSBƏT TƏRƏFLƏRİ

Samirə Yusif qızı Abbasova
Mingəçevir Turizm Kolleci
samiremtk@gmail.com

Giriş

Təhsil cəmiyyətin tərəqqisində və savadlılığında mühüm rol oynayan əsas sahələrdən biridir və onun əsaslı tərəqqisi daha çox müəllimlərin fəaliyyətindən asılıdır. Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirirdi. Dahi şəxsiyyət öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürəkdolusu danışardı. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşıb, onların maddi rifah halının qayğısına qalıb. "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəl-

limi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq" [9] .

Müəllim təkcə müəllim deyil, həm də uşaqların dünyagörüşünü formalaşdıran, onların şəxsiyyət kimi inkişafına kömək edən şəxsdir. Müəllimlər təhsil sisteminin dayağı kimi gələcək nəsillərin formalaşmasında həlledici rol oynayırlar. Bu mühüm vəzifəni uğurla yerinə yetirmək üçün müəllimin özünün daimi olaraq mənəvi və peşəkar dəstəyə ehtiyacı var. Onların işə yanaşması, təlim prosesində fəallığı və peşəkar inkişafı birbaşa motivasiya səviyyəsindən asılıdır. Bu səbəbdən həvəsləndirmə faktoru xüsusi əhəmiyyət kəsb edir. Müəllim öz işində aydın məqsəd gördükdə, cəmiyyət və rəhbərlik tərəfindən qiymətləndirildikdə özünü daha güclü və ehtiyaclı hiss edir, onun müəllimlik fəaliyyəti daha məhsuldar olur, təlim prosesinə yaradıcılıqla yanaşmağı bacarır, özünü tükənmiş hesab etmir.

Qeyd edək ki, təhsil prosesinin səmərəliliyinə və təhsilin keyfiyyətinin yüksəlməsinə məktəbin maddi-texniki bazası, mükəmməl tədris planı, proqram və dərsliklər, tədris prosesinin düzgün idarə edilməsi, tədris avadanlıqları, laboratoriya və fənn kabinetləri, yeni pedaqoji texnologiyalar, innovasiyalar və xüsusilə müəllimin ixtisas səviyyəsi, metodikası, hərtərəfli hazırlığı, onun səriştəliliyi və məktəbdə aparılan digər mühüm stimullaşdırıcı tədbirlər ciddi təsir göstərir [2, s. 107]. Lakin bunların içərisində ən vaciblərindən biri motivasiyalı, özünə güvənən müəllimdir. Motivasiya yalnız mükafat və təqdirlə məhdudlaşmır. Bu, müəllimin şəxsiyyətinə, zəhmətinə, fəaliyyətinə verilən önəmi nümayiş etdirir. Təhsil sistemi uğur qazanmaq istəyirsə, onun əsasını təşkil edən müəllimlərin motivasiyasına ciddi yanaşmalıdır. Bu məqalədə təhsilin ümumi keyfiyyətinə və məktəb mühitinə təsir edən müəllimlərdə motivasiyanın formalaşmasının əsas müsbət tərəfləri təhlil ediləcəkdir.

Müəllimlərdə motivasiyanın inkişafı təkcə onların şəxsi rifahına deyil, həm də bütövlükdə təhsilin keyfiyyətinə təsir göstərir. Motivasiyalı müəllimlər daim özlərini təkmilləşdirməyə, yeni metod və yanaşmalara yiyələnməyə çalışırlar. Bu onların peşəkar inkişafını təmin edir. Belə müəllimlər daha yaradıcı olurlar, dərslərini monoton yox, təhsilalanların maraqlarına uyğun təşkil edirlər. Belə müəllimlər dərsə daha məsuliyyətli və həvəslə yanaşırlar ki, bu da öyrənənlərin dərsə marağını artırır, müsbət münasibət yaradır və son nəticədə təlim nəticələrini yaxşılaşdırır. Belə müəllimlər tələbələrlə daha effektiv ünsiyyət qurur və fərdi yanaşma tərzinə malik olurlar.

Motivasiyalı müəllimlər ümumi tədrisin gedişinə, akademik mühitə müsbət təsir göstərirlər. Onlar həmkarları ilə əməkdaşlığa açıqdırlar, təcrübə mübadiləsi aparırlar və birgə layihələrdə fəal iştirak edirlər. Bu, məktəbdə sağlam əməkdaşlıq mühiti yaradır. Müəllim peşəsi psixoloji baxımdan çox mürəkkəbdir. Müəllim motivasiyalı deyilsə, yorğunluq və emosional tükənmə baş verə bilər. Minnətdarlıq, maddi və mənəvi həvəsləndirmə kimi uyğun motivasiya vasitələri müəllimlərin bu tükənmişliyə qarşı daha böyük müqavimətini təmin edir. Motivasiya müəllimləri tədrisə innovativ yanaşmaya sövq edir. Bu halda onlar yeniliyə açıqdırlar, texnologiyadan səmərəli istifadə edirlər və tədris prosesinə daim müasir yanaşmalar tətbiq edirlər. Bu da öz növbəsində ümumilikdə təhsilin keyfiyyətini artırır, cəmiyyətin inkişafına töhfə verir.

Müəllimlərdə motivasiya yaratmaq onların tədrisə yanaşmasında əsaslı dəyişikliklərə gətirib çıxarır. Bu motivasiya həm daxili (şəxsi maraq, mənəvi məmnunluq), həm də xarici (rəğbət, mükafat, yüksəliş) amillərlə formalaşır. Müəllimlərin yüksək motivasiyası təhsil sistemində çoxşaxəli müsbət dəyişikliklərə səbəb olur.

Motivasiya müəllimə öz peşəsini sevdirir və onu fədakarlıqla yerinə yetirir. Özünü faydalı və dəyərli hiss edən müəllim tədris prosesində fəallaşır, işinə yaradıcılıqla yanaşır. Fədakar müəllimlər dərsdən kənarda tələbələrinə dəstək olmaqdan, müxtəlif layihələrdə iştirak etməkdən, tədris prosesini zənginləşdirməkdən çəkinmirlər. Həvəsli müəllim hər təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alaraq, onlara müxtəlif yanaşmalardan istifadə edir. Bu səmimi, qayğıkeş münasibət onların maraq və diqqətini artırır, dərsdə fəal iştirakını stimullaşdırır. Belə müəllimlər təkcə bilik verməklə kifayətlənmir, həm də onlara dəstək, ilham və nümunə kimi çıxış edirlər. Nəticədə, tələbələr daha çox öyrənmək istəyirlər və onların motivasiyası, özünə inamı artır. Motivasiya müəllimə işdə hər çətin, ağır iş gününə daha dözümlü olmağa imkan verir. Daxili rahatlıq və mənəvi məmnunluq hissi müəllimə özünü daha inamlı və sabit hiss etməyə imkan verir. Əks halda özünü dəyərsizləşmiş hiss

edən müəllim emosional tükənmə yaşayır ki, bu da onun həm sağlamlığına, həm də tədrisin keyfiyyətinə mənfi təsir göstərir.

Qeyd olunduğu üzrə, motivasiya tükənmişliyin qarşısını alır. Həvəsləndirilmiş müəllimlər həmkarları ilə daha fəal ünsiyyət qurur və birgə fəaliyyətlərdə təşəbbüs göstərirlər. Onlar öz bilik və təcrübələrini bölüşməkdən çəkinmirlər. Bu, məktəbdə komanda işi bacarıqlarını inkişaf etdirir və həmçinin müəllim heyəti arasında sağlam və müsbət münasibətlərin formalaşmasına təşviq edir. Belə bir mühitdə müəllimlər bir-birindən öyrənir, inkişaf edir və ümumi məqsədlərə çatmaq üçün birlikdə çalışırlar.

Motivasiya müəllimlərin yeniliyə marağını artırır. Onlar daha çox yeni texnologiyalar və interaktiv tədris metodlarını mənimsəyib, dərslərində tətbiq edirlər. Bu, tələbələrin diqqətini cəlb etməklə yanaşı, eyni zamanda müasir tələblərə cavab verən tədris mühiti yaradır. Həmçinin motivasiya müəllimin yaradıcı potensialını üzə çıxarır və onun daha rəqabətədavamlı olmasına şərait yaradır. Motivasiya müəllimin şəxsi inkişaf yolunda atdığı addımları da müəyyən edir. Müəllimlər daim öyrənir və öz üzərlərində işləyir, peşə hazırlığı keçir, müxtəlif təhsil layihələrində iştirak edir, elmi-pedaqoji fəaliyyətlə məşğul olurlar. Bu onların karyera yüksəlişinə və özünə inamının artmasına səbəb olur. Motivasiya müəllimin işini davamlı və məqsədyönlü edir. Bu cür motivasiya ilə təkcə qısa müddətli nəticələr deyil, həm də uzunmüddətli uğurlar mümkündür.

Motivasiyalı müəllimlər daim inkişaf edən, dəyişən və yenilənən təhsil sistemində əsas hərəkətverici qüvvəyə çevrilirlər. Onlar gələcək nəsilləri dövrün tələblərinə uyğun formalaşdırmaq üçün daim yenilənir. Müəllim peşəkarlığının artırılmasında və inkişafında qabaqcıl təcrübənin təhlil olunması, öyrənilməsi ilə yanaşı, şəxsi təcrübənin də yayılması əsas amildir. Belə ki, müəllim məqalələr hazırlayıb, nəşr etdirməli, müasir informasiyakommunikasiya texnologiyalarından istifadə etməklə, internet resursları vasitəsilə peşə saytı və proqramları yaradaraq şəxsi təcrübəsini bölüşməlidir. Bunu reallaşdırmaq üçün təhsilverənlərə əlverişli şərait yaradılmalı, məsələn, distant və ya ənənəvi kurslar, təlimlər, konfranslar, seminarlar, müzakirələr, müsabiqələr, olimpiadalar, layihələr, treninqlər təşkil edilməlidir. Belə tədbirlərdə müəllimlərin iştirakı peşəkarlığın artırılmasına xidmət edir [6, s.57].

Tədqiqat üsulları

Məqalədə müəllimlərdə motivasiya yaradılmasının təhsil mühitinə və tədrisin keyfiyyətinə müsbət təsiri araşdırılır. Mövzunun tədqiqi zamanı həm nəzəri, həm də praktiki yanaşmalardan istifadə edilmişdir. Tədqiqatın məqsədi müəllimin fəaliyyətində motivasiyanın rolunu və onun təlim nəticələrinə təsirini müəyyən etmək idi. Bu məqsədlə aşağıdakı üsullardan istifadə edilmişdir:

1. Nəzəri təhlil metodu

Ədəbiyyat, elmi məqalələr və müasir pedaqoji yanaşmalar təhlil edilərək müəllim motivasiyasının formalaşdırılması üsulları və onun nəticələri araşdırılmışdır.

2. Sorğu və sorğunun aparılması üsulu

Sorğular müxtəlif yaş və təcrübəyə malik müəllimlər arasında aparılmışdır. Sorğular onların motivasiya səviyyələrini, qarşılaşdıqları problemləri və onları motivasiya edən amilləri müəyyən etmək üçün istifadə edilmişdir. Alınan nəticələr ümumiləşdirilmiş və təhlil edilmişdir.

3. Müşahidə üsulu

Təhsil müəssisəsində tədris fəaliyyətinin, müəllim-tələbə arasında ünsiyyətin müşahidələri aparılmışdır. Müşahidə nəticəsində motivasiya səviyyəsinin təlim prosesinə, müəllimlə tələbə arasındakı münasibətlərə necə təsir etdiyi müəyyən edilmişdir.

4. Müqayisəli təhlil

Tədrisin keyfiyyəti, metodlardan istifadə və tələbə nəticələri yüksək və aşağı motivasiyalı müəllimlər arasında müqayisə edilmişdir.

Aparılan tədqiqat metodları belə bir nəticəyə gəlməyə əsas verir ki, müəllimlərdə motivasiya yaratmaq sadəcə mükafatlandırma vasitəsi deyil, strateji yanaşmadır. Bu yanaşma həm müəllim şəxsiyyətinin inkişafına, həm də ümumi təhsil sisteminin davamlılığına xidmət edir. Bu səbəbdən də təhsil siyasətində müəllimlərin motivasiyasını gücləndirən tədbirlərə xüsusi diqqət yetirilməlidir.

Aydındır ki, müəllim motivasiyasının yaradılması və davamlı olaraq saxlanılması təhsil sisteminin inkişafında mühüm rol oynayır. Həvəsləndirilmiş müəllim daha vicdanlı, yaradıcı və məhsul-

dardır ki, bu da həm özünün, həm tələbələrinin nailiyyətlərinə, tədris və təlim prosesinin keyfiyyətinə birbaşa təsir göstərir. Müəllimin öz işinə məhəbbəti təkcə onun fərdi səmərəliliyinə deyil, həm də məktəbdəki ümumi psixoloji ab-havaya və kollektiv ruha güclü təsir göstərir. Bundan əlavə, motivasiya müəllimin özünə inamını gücləndirir, onu yeniliyə açıq, daim öyrənən şəxsiyyət kimi formalaşdırır. Bu isə öz növbəsində, təhsil sisteminin dinamik, dəyişkən və inkişaf yönümlü olmasına imkan verir.

Əksinə motivasiyanın olmaması müəllimin yorğunluğuna, laqeydliyinə və işdən uzaqlaşmasına səbəb ola bilər ki, bu da son nəticədə təhsilin ümumi keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Bununla əlaqədar olaraq, təhsil siyasətçiləri, məktəb rəhbərləri və bütövlükdə cəmiyyət müəllimlərin motivasiyasını artırmaq və saxlamaq üçün xüsusi tədbirlər görməli, həm maddi, həm də mənəvi dəstək mexanizmlərini gücləndirməlidir.

Cənab prezident İlham Əliyev demişdir: "Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri bütün tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişdir. Bu gün qədəm qoyduğumuz informasiya cəmiyyəti və biliklərə əsaslanan yeni tip iqtisadiyyatın formalaşması, qloballaşma çağırışları bütün dünya təhsil sistemi qarşısında yeni vəzifələr qoyur. "Təhsil əsri" adı qazanmış XXI əsr Azərbaycan təhsilinin də yeniləşməsini və müasirləşməsini tələb edir. Əminəm ki, Azərbaycan müəllimləri ali təhsildə innovasiya və modernləşmə: problemlər, perspektivlər və reallıqlar fəaliyyətlərini bu tələblərə uyğun daha da təkmilləşdirərək, müstəqil Azərbaycan Respublikasının çiçəklənməsinə xidmət edən gənc nəslin yetişdirilməsi işinə öz töhfələrini verəcəklər" [4, s.20-21].

Bütün bunlara nəzərən qeyd edilməlidir ki, müəllimə dəyər vermək təhsilə, cəmiyyətin gələcəyinə və tərəqqisinə dəyər vermək deməkdir. Motivasiya bu dəyəri ifadə etməyin ən təsirli vasitələrindən biridir. Müəllimlərin motivasiyasını artırmaq və saxlamaq üçün aşağıdakı təkliflər irəli sürülə bilər:

1. Maddi və mənəvi həvəsləndirmə sistemlərinin tətbiqi: Müəllimlərin əməyi qiymətləndirilməli və onların nailiyyətləri mükafatlandırılmalıdır. Bu həm maaş artımı, həm də diplom, sertifikat, fəxri fərman və ictimai tanınma şəklində ola bilər.

2. Davamlı, peşəkar inkişaf üçün imkanların yaradılması: Müasir təlim, seminar və pedaqoji kurslar vasitəsilə müəllimlərin bilik və bacarıqları təkmilləşdirilməlidir.

3. Psixoloji dəstək və sağlam iş mühiti: Stress və tükənmişliyin qarşısını almaq üçün müəllimlərə psixoloji xidmət göstərilməli, idarəetmə şəffaf və ədalətli olmalıdır.

4. İdeya və təşəbbüslərə açıq rəhbərlik: Məktəb rəhbərliyi müəllimlərin ideya və təkliflərinə açıq olmalı və onları qərar qəbul etmə prosesinə cəlb etməlidir.

5. Motivasiyalı liderliyin təşviqi: Liderlik təkcə inzibati nəzarət vasitəsilə deyil, həm də ruhlandırıcı və nümunəvi davranış vasitəsilə müəllimləri ruhlandırmalıdır.

Nəticə

Qeyd olunan fikirlər onu göstərir ki, müəllim motivasiyası onların tədris səmərəliliyinə, psixoloji rifahına və ümumi məktəb mühitinə birbaşa təsir göstərir. Məqalədə aşağıdakı əsas nəticələr əldə edilmişdir:

1. Motivasiyası yüksək olan müəllimlər daha yaradıcı, aktiv və məsuliyyətlidirlər.

2. Belə müəllimlər təhsilalanlarla daha sağlam münasibətlər qurur, fərdi yanaşmadan istifadə edir və təlim prosesini daha interaktiv edir.

3. Müəllimin işindən məmnun olması onun psixoloji vəziyyətinə müsbət təsir edir və tükənmişlik sindromunun qarşısını alır.

4. Komandada motivasiya səviyyəsi yüksək olduqda əməkdaşlıq və qarşılıqlı dəstək güclənir ki, bu da təhsil müəssisəsində sağlam mühit yaradır.

5. Motivasiyalı müəllimlər daim öz üzərlərində işləyir, təlimlərdə iştirak edir və pedaqoji yenilikləri daha tez həyata keçirirlər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bayramov Ə., Əlizadə Ə. (2002). Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: "Çinar-Çap". 620 s.

2. Əliyeva S. (2022). Pedaqoji prosesdə stimullaşdırmanın təhsilin keyfiyyətinə təsiri. Azərbaycan məktəbi. № 3 (700), s. 103–108
3. İlyasov M. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: "Elm və təhsil". 208 s.
4. Mahmudov M. (2019). Ali təhsildə İnnovasiya və Modernləşmə: Problemlər, perspektivlər və reallıqlar. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. Cild 86. № 2 (231). Bakı: "Mütərcim". s. 20-26
5. Mehrabov A. (2015). Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Elm və Təhsil. 288 s.
6. Muradlı T., Şahmuradova G. (2022). Müəllimlərin peşəkar inkişaf səviyyəsinin təkmilləşdirilməsi yolları. Azərbaycan məktəbi. № 3 (700). səh. 51–58
7. https://www.old.muallim.edu.az/news.php?id=29535
8. https://az.wikipedia.org/wiki/Motivasiya
9. https://mod.gov.az/az/pre/20162.html

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ

Günel Gündüz qızı Əmirova
Mingəçevir Turizm Kolleci
günelamirova523@gmail.com

Bütün zamanlarda böyük şəxsiyyətlər özlərindən sonra mənəvi va siyasi irsə dair ideyaları bizə yadigar qoyaraq, real surətdə inkişaf edən cəmiyyətin yol göstərən ulduzları kimi çıxış etmişlər. Heydər Əliyev bu cür böyük şəxsiyyətlər nəslinə mənsubdur. O, fiziki cəhətdən bizdən nə qədər uzaqlaşsa da, həmişə daha aydın hiss olunan va dərin şakildə bizimlə yanaşı addımlayır, daim düşündüyümüz, yaradıcılıqla məşgul oldugumuz, fəaliyyət göstərdiyimiz, öz gəlcəyimizi necə quracağımızı planlaşdırdığımız hazırki cəmiyyətdə daim bizimlədir. Hər bir millətin öz milli kimliyini, necə təşəkkül etdiyini, hansi inkişaf yolu keçdiyini, dilinin, dininin və mədəniyyətinin necə yarandığını və təkamül etdiyini dərk etməsi zəruri tarixi prosesdir. Xüsusilə də, XX əsrin axırlarında bütün dünyada baş verən va getdikcə darinləşmələrdə olan qloballaşma proseslərin şəraitində insanların bir fərd olaraq, əsrlərlə formalaşmış xalq və millət olaraq özünənaqayıdış, tarixi milli-mənəvi kökləri və dəyərləri bərpa etməsi, movcud olanları qoruyub saxlaması və gələcək nəsillərə ötürülməsində məlum çətinliklər meydana çıxır.

Milli özünəqayıdışa nail olmadan xalqın qloballaşma girdabına atılması, onun olan-qalan, azçox qorunub saxlana bilmiş milli irs va ozunə məxsusluğunun, etnik zəmində zaman-zaman səkillənmiş özəlliklərin, hər bir şəxsin, eləcə də ailənin, konkret insan cəmiyyətinin varlığının vacib şərtlərindən olan adət va ənənələrin qaynayan bu nəhəng dünya qazanında əriyib yox olması, qalanlarının isə deqredasiyaya məruz qalması baş verə bilər. Əlbəttə, bəhs etdiyimiz qloballaşma prosesləri olmasaydı belə, fikrimizcə bir xalqın müstəqil inkişafi, milli dövlətçiliyinə malik olub onu dünyanın qabaqcıl ölkələri sırasma çıxarmaq arzusu, hər bir şəxsini, vatandaşını müasir dünyanın çağrışlarına cavab vera bilən səviyyədə yetişdirmək istəyi yalnız keçilmiş həyat va inkişaf yolunda toplanmiş mədəni irsə, insanların zehnində va qəlbinda kodlaşmiş genetik yaddaşa söykənməsə reallaşa bilməz. Ümummilli Liderin sayəsində Azərbaycan tarixinin çətin dövründə vətəndaş müharibəsindən, parçalanmaqdan, dünya xəritəsindən yox olmaq təhlükəsindən qaçdı, onun sayəsində ölkə öz dövlətçiliyini qoruyub saxladı, inkişaf və əsl müstəqillik yoluna qədəm qoydu.

Dövlətçilik hisslərinə malik olmayan xalq milli dövlətini inkiaf etdirə bilməz. Bu mənada azərbaycançılıq ideologiyasi milləti, xalqı, dövləti qəlbən sevməyi, onun naminə yorulmadan yaşamağı bütün mahiyyəti ila təşviq edir. Xalqın milli varlığını ifadə edən rəmzlərə, adət-ənənələrə, ali mənəvi dəyərlərə yüksək sədaqət, ana dilinə məhəbbət, bəşəri ideallara hörmət azərbaycançılığın milli mahiyyətini açmaqla yanaşı, onun humanist səciyyə daşıdığını göstərir. Azərbaycançılığın əsa-

sında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitasilə hayata keçirilir. Azarbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir.

Ümummilli lider "Heydər Əliyev Novruz bayramını xalqımızın tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklülük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirmişdir: «Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu va yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbətin oyanışının, varlıgın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri hayat və məişətimizə daxil olmuş, insanlara aydın va işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir». Ulu Öndər Novruz bayramını «sevinc», «həvəs» va «birləşmə» formulu kimi saciyyələndirmişdir. Müasir Azarbaycanın qlobal dünyanın siyasi labirintlərində etibar milli yol xaritənsini cizmış umummilli liderin bu sözləri milli ideologiyamızın təməl daşlarını, Azarbaycan insanın canı va qanı bahasına qurduğu dövləti necə qoruyub saxlaması haqqında fəaliyyət proqramının başlıca qayəsini taşkil edir. Bu anlamda, Novruz bayramının bizi «sevindirmasi» Azarbaycan xalqının milli dəyərlərlə yaşaması, «həvəsləndirməsi» milli dəyərlərdən giüc almasi, «birləşdirməsi» bir xalq kimi məhz milli dəyərlər əsasında təşkil olunması deməkdir. Novruz bayramı sovetlər birliyi dövründə rəsmən yasaq edilsə də, ümummilli lider Heydər Əliyevin milli ənənə və dəyərlərə daxilən möhkəm bağlılığı bu bayramın xalq arasında sevilərək yaşadılmasını təmin etmiş, folklorşunaslıq va fəlsəfə sahəsində aparilan elmi tadqiqatlarda onun ideoloji-siyasi təsiri dolayi şəkiIdə önə çəkilmişdir. 70-ci illərdə isə Novruz bayramı ilk dəfə olaraq məhz Ulu Öndərin xeyir-duası ilə rəsmən qeyd olunmuş, televiziya ilə yayımlanmışdır. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəldir, milli irsə, tarixə böyiük məhəbbət yaradır, milli özünü dərki gücləndirirdi. Ulu öndər Heydar Əliyevin xalqın təkidli tələbi 1993-cü ildə respublika rəhbərliyinə qayıdışından sonra Azərbaycan üzləşdiyi bir sıra müsibətlər, faciələr arasından qaldırılmış vətəndaş qarşıdurmasının qarşısı alınmışdır. Novruz bayramı dövlət səviyyəsində yüksək səviyyədə qeyd edilməklə yanaşı, dünya azarbaycanılarının milli bayramına, effektiv ideoloji-siyasi tasir amilina çevrilmişdir. Ulu öndər 1994-cü ilin yazından başlayaraq hər il Azərbaycan xalqını Novruz bayramı münasibatilə təbrik etmiş, ümumxalq şənliklərinə qatılaraq, xalqımıza ikiqat sevinc yaşatmiş, ölkə vatandaşlarına Vətənin çiçəklənməsi naminə birlik, həmrəylik, saflıq va təmizlik arzulamışdir.

Azarbaycan Respublikasının Prezidenti İlham Əliyev bu bayramı müqəddəs milli irs hesab edərək demişdir ki, «Novruz bayramı Azərbaycan xalqının ən əziz və sevimli bayramlarından biridir. Əsrlər boyu xalqımız bu bayramı qeyd etmişdir. Ancaq müstəqillik dövründə bu bayram rəsmi şəkildə qeyd olunur. Azarbaycan xalqı Novruz bayramına ən hərarətli münasibət bəsləyir, o, bizim üçün ən başlıca ən gözəl bayramdır... Ailə dəyərləri, bizim milli-mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim milli mədaniyyətimiz, tariximiz – ütün bunlar Azərbaycan xalqını qorumuşdur. Uzun illər, əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışdıq. Ancaq milli xüsusiyyatlərimizi itirməmişik. Assimilyasiyaya düçar olmamışıq, dilimizi, adət-ənənələrimizi, milli bayramlarımız qoruyub saxlamışıq». Prezident İlham Əliyev Novruz bayramını bir mənalı şəkildə milli xüsusiyyətlərin – milli varlığın qorunma vasitəsi hesab edir

Ümummilli lider Heydər Əliyevin Vətən va xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlatçiliyimizin möhkəmləndirilməsi baxımıdan çox əhəmiyyətli olan azərbaycançılıq ideyasını irəli sürməsi, onu milli diasporun təşkil alması üçün idioloji təmələ çevirmasidir. Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı azərbaycanlılarla çoxlu görüşlər keçirmiş, xaricdə yaşayan soydaşlarımızı daim milli ideya ətrafında birləşməyə, taşkilatlanmağa, icmalar, milli cəmiyyətlər yaratmağa səsləmişdir. O, daim həmvətənlərimizi yaşadiqları ölkənin ictimai-siyasi həyatında faal iştirak etməyə, eyni zamanda vətənlə - doğma Azərbaycanla sıx əlaqə saxlamağa, bir an da olsun, Azərbaycanı təmsil etdiklərini unutmamağa çagirmışdır.

1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə asas prinsipləri müəyyən etmisdir: "Siz unutmayın ki, Azarbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda, Azərbaycan da irəli gedər, Azərbaycan diasporu irəli gedər inkişaf edər... Harada doğulmagın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyatinin daşıyıcısısan". Ulu Öndar özünəməxsus uzaq-

görənlik və müdrüklüklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək, demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm da onun xaricdə formalaşdırdığı diaspor va lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə ciddi nailliyyətlər qazanmaq, habela milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil.

Ulu Öndər daim vurğulayırdı ki, zərbaycançılıq idealogiyası real müstəqilliyə nail olmaq vahid bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq idealogiyası ölkədə vətəndaş birliyi və vahid uğurlu təməldir.Azərbaycançılıq idealogiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmunu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olmuşdur. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilmişdir. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır. Dövlətinin ideya əsasına çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir. Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkküründü birləşdirən dəyərlər sistemidir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq ideologiyası geniş əhatə dairəsi ilə yanaşı, konkret məqsədlər də güdür. Bu ideologiya Azərbaycanda azad vətəndaş cəmiyyətinin inkişafına və güclü dövlət quruculuğuna xidmət edir.

Müasir dövrdə qloballaşmanın bir sıra inkişaf göstəriciləri milli mənsubluğa da təsir göstərir. Azərbaycançılığın əsas elementlərindən biri vətəndaşlıqdır. Vətəndaşlıq özündə vətəndaşın siyasi, mənəvi, hüquqi, sosial keyfiyyətlərini cəmləşdirir. Azərbaycançılığın tərkib hissəsi olan vətəndaşlıq mövqeyi Azərbaycan əhalisinin bir xalq kimi birləşməsinə və dövlətçilik kurs Vətəndaşlıq mövqeyindən çıxış edərək hər bir şəxs vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması milli təhlükəsizlik baxımından əhəmiyyətlidir.

Vətənpərvərlik və dövlətçilik azərbaycançılıq ideologiyasının mühüm əsaslarını təşkil edir. Vətənpərvərlik insanı öz dövləti ilə sıx bağlayır. Vətənpərvərlik dövlət quruluşundan asılı olmayan, vətəndaşlıq mövqeyindən əzəli məfhumdur. Azərbaycançılıq kontekstində vətənpərvərlik vətəndaşın öz dövləti ilə daha sıx bağlılığı deməkdir. Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır.

İdeologiya kimi, azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfisosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir.

Azərbaycançılıq konsepsiyası bu gün cəmiyyətin inkişafının ideya təməlini təşkil edir. Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə

edərək demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir.

Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır". Dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya - azərbaycançılıq, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında birləşməsi prosesi sürətlənmişdir. Azərbaycançılığın ümummilli ideologiyaya, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müasir müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncamda deyilir: "Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir.

Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradıl-ması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur".

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. E.Mədətli. Heydər Əliyev - İlham Əliyev. Azərbaycançılığın zəfər yolu. Bakı, 2020
2. İ.Habibbəyli "Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq" Bakı 2020
3. N.Zamanov. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı: Elm va təhsil, 2020
4. S.Qurbanov. Zamana sığmayan lider. Bakı, 2022

HEYDƏR ƏLİYEV: MÜSTƏQİLLİYİN VƏ SUVERENLİYİMİZİN BANİSİ

Güldanə Aydın qızı Nurəddinova
Mingəçevir Turizm Kolleci
guldanenureddinova@gmail.com

2025-ci il mayın 10-da Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 102 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq, onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.{1}

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.{2}

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.{3}

2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq, Prezident seçilən cənab İlham Əliyev Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirir. Bu gün Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır.

Qürur hissi ilə deyə bilərik ki, Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin, Prezident İlham Əliyev isə torpaqlarımızın xilaskarı kimi adlarını tarixə qızıl hərflərlə yazdılar.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq isə hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi.
2. Xudiyev N.M. Uğurlu yolun layiqli davamçısı. Bakı – 2007, 608 s.
3. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı – 2007, 136 s.
4. Vəliyev İ. Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı - 2003, 89 s.
5. Zamanov N. Heydər Əliyev və Azərbaycanda nitq mədəniyyəti. Bakı – 2013, 480 s.

HEYDƏR ƏLİYEV YOLUNUN İNAMLA DAVAMI

Aynurə Sumqayıt qızı Əhmədova
Mingəçevir Turizm Kolleci
contactahmadovaaynur@gmail.com

Heydər Əliyev Azerbaycan müasir tarixində təkcə tanınmış bir siyasətçi olmayıb. O, həmdə dövlət qurmaq ölkəni sabit və güclü etmək barədə fikirləri ilə seçilib. Onun adı xalqın öz taleyinə sahib çıxmaq isteyirik,azad yaşamaq mübarizəsinin simvoludur. Yəni Heydər Əliyev sadəcə bir insan kimi yox, bir yad, bir ideya kimi təqdim olunur. Onun qoyduğu təməl sayəsində Azərbaycan bu gün müstəqil və sabit bir ölkə kimi Heydər Əliyev çətin vaxtlarında xalqı bir araya getirib, ölkənin qarışıqlıqdan çıxarıb düzene saldı. O zəiflikdən gücə doğru bir yol açdı. Onun siyaseti geleceyi qabaqcadan gormesi ve xalqı üçün daim çalışması bu gündə Azərbaycanı irəli aparır. Heydər Əliyev yolu Azərbaycanın Gələcəyi üçün zəmanət sayılır. Bu yol ölkənin müstəqil, güclü firavan olması üçün əsas yol kimi qəbul edilir.

XX əsrin sonlarında Azərbaycan çox çətin dövrlərdən keçirdi. Ölkədə iqtisadi çöküş siyasi qarışıqlıq vardı. Torpaq bütövlüyü təhlükə altinda idi, sosial problemlər artmışdır. Ölkə siyasi uçuruma doğru gedirdi. Belə bir zamanda xalq Heydər Əliyevə müraciət etdi və o, xalqın çağırışını qebul edib ölkəyə rəhbərlik etməyə başladı. Onun hakimiyyətə qayıdışı ilə ölkədə yəni bir dövr başladı.Sabitlik yarandı, müstəqillik qorundu və inkişaf prosesi sürətləndi. Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə layiqli yerə çıxmaq üçün geniş və əhatəli plan hazırlandı. (I səitr 140-150**)** O, ölkənin iqtisadi inkişafını sürətləndirməyə, xüsusilə də neft ve qaz sənayesini güclənməyə çalışdı. Xarici siyasətdə isə müstəqil və tarazlı mövqedə tutmaq, ölkədə sosial rifahı yeni xalqın daha yaxşı yaşamasını təmin etmək onun esas məqsədlərindən biri idi. Heydər Əliyevın təşəbbüsü ilə imzalanan və "Əsrin müqaviləsi" adlandırılan neft razılaşması Azərbaycanın iqtisadi müstəqilliyini möhkəmləndirdi və ölkəni dünya enerji bazarında tanınmış və önəmli bir ölkəyə çevirdi.Bundan başqa Heydər Əliyev genclerin təhsilinə, milli mədəniyyətin qorunmasına və xalqın birliyinə böyük əhəmiyyətə çevirdi. Onun yaratdığı "Azərbaycançılıq" ideologiyası insanları bir məqsəd ətrafında birləşdirərək həmrəyliyə çağırırdı. Bu siyasi irs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni, Heydər Əliyevin yaratdığı təməl üzərində müasir Azərbaycan formalasib, regionun lider dövlətlərindən birinə çevrilib. Bu gün Azərbaycanın iqtisadiyyatı, siyasəti ve herbi üçün son illərdə inkişaf edib və ölkə bu gücünü dünyaya nümayiş etdirib. Ilham Əliyevin rehberliyi altında iqtisadi inkişaf daha da sürətlənib ve müstəqil infrastruktur layihələri olan, nəqliyyat ve logistika ilə bağlı layihələr həyata keçirilib.Sosial rifahi səviyyəsi xeyli dərəcədə yüksəlib.

Heydər Əliyev yolunun ən aydın nümunəsi isə 2020-ci ildə baş vermiş 44 günlük vətən müharibəsində qazanılmış böyük qelebedir. Azərbaycan Ordusu, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə, 30 ilə yaxın işğal altında olan torpaqları azad etdi: Qarabağ ve Şərqi Zəngəzur yenidən Azərbaycanın nəzarətinə qaytarıldı ve ölkənin ərazi bütövlüyü bərpa olunur. Bu qələbə yalnız hərbi uyğun deyil, eyni zamanda Heydər Əliyevin "Bir millət - iki dövlət" fikrinin xalqın

birliyinin və dövlətə bağlılığın nə qədər güclü olduğunu göstərdi. Azerbaycanin bu uğuru dünyada ədalətin bərpası kimi qiymetlendirdi və ölkəmizin beynəlxalq nüfuzunu daha da artırdı.Qarabağın, Dirçəlişi ve gələcəyə baxış vətən müharibəsindən sonra başladı ve Azərbaycan yeni bir inkişaf dövrünə qədər qoydu. İşğaldan azad edilmiş torpaqlarda geniş şəkildə berpa ve qanunluq işləri heyata keçirlir. Qarabağ ve Şərqi Zəngəzurun bölgədə müasir infranstruktur, yaşıl enerji layihələri və yeni texnologiyadan sayəsində regionun ən inkişaf etmiş yerlərindən birine çevrilir.

Heydər Əliyev – Azərbaycanın müstəqillik tarixində ən parlaq səhifələrdən birini yazan, xalqın gələcəyini düşünən və hər addımında ölkəsinin rifahı naminə çalışan unudulmaz liderlərdən biridir. O, sadəcə bir siyasi xadim deyil, həm də millətin gələcəyini qurmaq üçün gecə-gündüz çalışan bir dövlət memarı idi. 1993-cü ildə xalqın israrlı tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev, ölkədə hökm sürən siyasi və iqtisadi xaosu dayandıraraq sabitlik və inkişaf yoluna qədəm qoydu. Onun liderliyi altında Azərbaycanın gələcəyi üçün möhkəm təməl atıldı. İlk növbədə, ölkədə ictimai-siyasi sabitlik təmin edildi. Bu, uzunmüddətli inkişaf və tərəqqi üçün əsas şərt idi. Sonrakı mərhələdə isə iqtisadiyyatın bərpası və inkişafı istiqamətində ciddi islahatlara start verildi.

Heydər Əliyev müstəqilliyin qorunması və möhkəmləndirilməsi yolunda strateji addımlar atdı. Xüsusilə enerji sektorunun inkişafına böyük önəm verdi. "Əsrin müqaviləsi" kimi tanınan neft sazişi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırdı və iqtisadi müstəqilliyini təmin etdi. Bu müqavilə vasitəsilə ölkəyə milyardlarla investisiya cəlb olundu və Azərbaycan dünya enerji bazarında mühüm aktora çevrildi. Ulu Öndər həmçinin milli-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü ilə milli tariximizin öyrənilməsi, ana dilimizin inkişafı və təhsil sisteminin təkmilləşdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirildi. Gənclərə göstərilən xüsusi diqqət nəticəsində bu gün Azərbaycan dünyada savadlı və vətənpərvər gəncləri ilə fəxr edir.

Heydər Əliyev üçün ən vacib prinsiplərdən biri də hüquqi dövlətin qurulması idi. (1, s. 110-120) Onun rəhbərliyi ilə qəbul edilən yeni Konstitusiya ölkənin demokratik inkişafına geniş imkanlar yaratdı. Məhkəmə sisteminin islahatı, insan hüquqlarının qorunması və vətəndaş cəmiyyətinin formalaşması istiqamətində atılan addımlar, bu gün də öz bəhrəsini verir.

Ulu Öndərin siyasətində xarici əlaqələrin gücləndirilməsi də əsas prioritetlərdən idi. O, Azərbaycanın beynəlxalq təşkilatlara üzvlüyünü təmin etdi, qonşu ölkələrlə mehriban münasibətlər qurdu və regionda sülhün bərqərar olması üçün səylər göstərdi. Onun uzaqgörən diplomatiyası nəticəsində Azərbaycan dünyada tanınan və hörmət edilən dövlətə çevrildi.Heydər Əliyevin ideyaları bu gün də yaşayır və inkişaf edir. Prezident İlham Əliyev atasının başladığı siyasəti uğurla davam etdirərək, Azərbaycanı regionun lider dövlətinə çevirib. Xüsusilə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində qazanılan qələbə bu siyasətin uğurlu nəticəsidir. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu və ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu. İşğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, regionun inkişafı və yeni infrastruktur layihələri, Heydər Əliyevin arzuladığı güclü Azərbaycanın reallığa çevrildiyini göstərir. Qarabağda həyata keçirilən "ağıllı şəhər", "yaşıl enerji" layihələri gələcəyin müasir və dayanıqlı Azərbaycanını formalaşdırmaq məqsədi daşıyır. Heydər Əliyevin Azərbaycançılıq ideologiyası bu gün də xalqı birləşdirən əsas amildir. Bu ideologiya millətə bağlılığı, dövlətə sədaqəti, milli-mənəvi dəyərlərə hörməti özündə ehtiva edir. Hər bir Azərbaycan vətəndaşı üçün bu ideologiya yol göstəricidir. O, xalqın birliyi, vətənin bütövlüyü və gələcəyin parlaq olması üçün əsas ilham mənbəyidir.Son olaraq qeyd etmək lazımdır ki, Heydər Əliyev şəxsiyyəti və fəaliyyəti ilə tarixə qızıl hərflərlə yazılıb. Onun həyatı, keçdiyi yol və qoyduğu miras bu günün və gələcəyin Azərbaycanı üçün örnəkdir. Onun adına ucaldılan abidələr, adını daşıyan müəssisələr və illik anım mərasimləri xalqın ona olan böyük hörmət və sevgisinin təzahürüdür. Heydər Əliyev – xalqını sevən, xalqı tərəfindən sevilən, böyük bir dövlət xadimi, müdrik lider və əbədiyaşar şəxsiyyət. Onun yolu – Azərbaycan yoludur. Bu yol daim işıqlı, sabit və uğurlu olacaq. Heydər Əliyevin irsi bu gün də hər bir Azərbaycan vətəndaşının həyatında özünü göstərir. Onun müəyyənləşdirdiyi inkişaf yolu sadəcə bir dövrə deyil, uzunmüddətli uğura aparan bir strategiyaya çevrilmişdir. Dövlət quruculuğunda, milli birliyin formalaşmasında və gənc nəsillərin yetişməsində onun rolu əvəzolunmazdır.

Bugünkü gənclər Heydər Əliyevin yaratdığı əsaslar üzərində inkişaf edir, elmə, təhsilə, vətənpərvərliyə önəm verirlər. Onun "Azərbaycanda hər bir insanın rifahı dövlətin məqsədidir" fikri bu

gün də sosial siyasətin əsasını təşkil edir. Gənclərin xaricdə təhsili, sosial proqramların genişləndirilməsi, infrastruktur layihələrinin sürətli inkişafı bu siyasətin davamıdır. Heydər Əliyev üçün insan amili hər şeydən önəmli idi və bu baxış bucağı Azərbaycan cəmiyyətinin əsas sütunlarından birinə çevrildi. Müstəqil Azərbaycanın beynəlxalq nüfuzunun artması da məhz onun uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur. Ölkəmiz beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, qlobal təşəbbüslərdə fəal iştirak edir və regionun siyasi, iqtisadi, mədəni liderlərindən biri kimi tanınır. Bütün bu uğurların təməlində isə Heydər Əliyevin düşünülmüş və strateji yanaşmaları dayanır. Bu gün onun ideyaları Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusilə, Qarabağın azad edilməsi, həmin torpaqlarda aparılan genişmiqyaslı quruculuq işləri və bölgənin bərpası bu siyasətin nə qədər möhkəm əsaslara söykəndiyini göstərir. Heydər Əliyevin arzuladığı güclü Azərbaycan ideyası artıq reallıqdır.Nəticə olaraq, Heydər Əliyevin adı sadəcə bir liderin adı deyil. O, bütöv bir dövrü, bütöv bir xalqın taleyini dəyişmiş şəxsiyyətdir. Onun həyat yolu, fəaliyyəti və düşüncələri bu gün də işıqlı yol kimi gələcəyə işıq tutur. Azərbaycan xalqı onu daim qəlbində yaşadır və bu irsi qoruyaraq daha da inkişaf etdirir. Heydər Əliyevin adı Azərbaycan tarixində əbədi olaraq yaşayacaq. O, yalnızca bir lider, bir siyasətçi deyil, həm də xalqın qəlbində taxt quran bir atadır. Onun həyatı və fəaliyyəti gənclər üçün əsl örnəkdir. O göstərdi ki, vətəni sevmək yalnız sözlə deyil, əməllə mümkündür. O, xalqının rifahı üçün gecə-gündüz çalışan, qətiyyətli, cəsarətli və müdrik bir şəxsiyyət idi. Bu gün biz onun qoyub getdiyi irsi qorumaq və daha da inkişaf etdirmək məsuliyyəti ilə üz-üzəyik. Azərbaycan xalqı bu məsuliyyəti dərk edir və Ulu Öndərin ruhuna layiq olmaq üçün var gücü ilə çalışır. Onun "Dövlət – xalq üçündür!" prinsipi bu gün də dövlət siyasətinin əsasında dayanır.Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin ideyaları ilə yüksəlir, inkişaf edir və dünya miqyasında öz sözünü deyən güclü dövlətə çevrilir. Bu inkişafın hər bir mərhələsində Heydər Əliyevin uzaqgörən siyasətinin izləri aydın görünür. O, gələcəyi düşünərək bu gün üçün möhkəm təməl qoydu və biz bu təməl üzərində sabit, güclü bir dövlət qururuq.Heydər Əliyev yaşadıqca Azərbaycan yaşayacaq, Azərbaycan yaşadıqca Heydər Əliyev qəlblərdə yaşayacaq!

Heydər Əliyevin siyasi irsi təkcə bir dövrün yox, bütöv bir millətin gələcək yol xəritəsidir. Onun rəhbərliyi altında formalaşan idarəçilik modeli bu gün də dövlətin sütunu olaraq qalır. İqtisadi, sosial, mədəni və hərbi sahələrdəki uğurlar bu modelin nə qədər düzgün və davamlı olduğunu sübut edir. O, dövlətçilik ənənələrini bərpa etdi, xalqı parçalanmaqdan xilas etdi və milli birlik yaratdı.

Ulu Öndərin "Azərbaycan dünyanın ayrılmaz bir hissəsidir" fikri bu gün də beynəlxalq siyasətdə yerini tapır. Azərbaycan bir çox mühüm qlobal layihələrin iştirakçısına çevrilmiş, regionda sülh və əməkdaşlıq platformalarının mərkəzinə dönmüşdür. Bu isə bir daha göstərir ki, Heydər Əliyevin müəyyənləşdirdiyi xətt uzunmüddətli və dayanıqlı inkişaf üçün ideal yoldur. O, tarixi dəyişən şəxsiyyətlərdən idi. O, çətinliklərə baxmayaraq inamla irəliləyən, xalqının gələcəyinə ümid bəxş edən, daim xalqa arxalanan və eyni zamanda xalqın ona güvəndiyi bir lider idi. Onun uzaqgörənliyi sayəsində Azərbaycan yalnız regionun deyil, bütün dünyanın diqqətini cəlb edən bir ölkəyə çevrildi.

Heydər Əliyevin siyasi mirası tükənməz bir xəzinədir. Hər yeni nəsil bu irsi öyrənməli, ondan dərs almalı və gələcəyin qurulmasında rəhbər tutmalıdır. Çünki bu mirasda müdriklik, vətən sevgisi, xalq üçün çalışmaq əzmi və əbədi bir dövlətçilik ruhu var. Heydər Əliyevin qoyduğu irs təkcə bugünün deyil, sabahın da Azərbaycanını formalaşdıran əsas amildir. Onun həyata keçirdiyi islahatlar, yaratdığı ideoloji dayaqlar, dövlət və xalq arasında qurduğu güclü bağ bu günün inkişaf etmiş, sabit və güclü Azərbaycanının əsasını təşkil edir. O, xalqını zamanın çətin sınaqlarından keçirərək, gələcəyə inamla baxmağa vadar etdi. Ulu Öndər heç vaxt populist çıxışlar etmədi, vədlər vermədi – o, sadəcə nəticə göstərdi. Onun hər bir addımı düşünülmüş və hesablanmış idi. Bu xüsusiyyətlər onu lider edən əsas cəhətlərdən idi. Çünki o bilirdi – dövlətçilik təkcə idarəçilik deyil, həm də xalqla mənəvi bağın, güvənin və sevginin təməlidir. O, Azərbaycanın hər bölgəsinə eyni gözlə baxır, hər bir vətəndaşın hüquq və rifahını qorumağı özünə borc bilirdi. Şimaldan cənuba, qərbdən şərqə qədər hər bir bölgəyə səfərləri zamanı insanlara olan yaxınlığı, onların dərdinə şərik olması, problemini öz problemi kimi qəbul etməsi onu xalq arasında daha da ucaldırdı. O deyirdi: "Xalqla

bir yerdə olmayan lider lider deyil." Bu sadə, lakin dərin mənalı fikri ilə siyasətin mahiyyətini izah edirdi.

Təhsil, elm və mədəniyyət sahəsində həyata keçirilən islahatlar nəticəsində ölkədə intellektual inkişafın, maariflənmənin əsası qoyuldu. Gənclər üçün yeni imkanlar açıldı. Xaricdə təhsil proqramları, beynəlxalq layihələrə inteqrasiya, milli kimliyin qorunması ilə yanaşı dünyaya açıq fikirli nəsillərin yetişdirilməsi məhz onun uzaqgörənliyinin bəhrəsidir. Heydər Əliyevin fəaliyyəti nəticəsində formalaşan "Azərbaycançılıq" ideologiyası bu gün bütün vətəndaşları bir amal ətrafında birləşdirir. Bu ideologiya etnik, dini və regional fərqləri aradan qaldıraraq, xalqın birlik və bərabərlik içində yaşamasını təmin edir. Bu, ölkədəki tolerantlıq və multikulturalizm mühitinin əsas dayağıdır.

Heydər Əliyevin həyat yolu həm də bir vətən sevdalısının mübarizə hekayəsidir. O, həyatının hər dövründə Azərbaycan üçün düşündü, Azərbaycan üçün çalışdı və Azərbaycan üçün yaşadı. Onun adı ilə bağlı olan hər bir xatirə, abidə, məktəb, küçə sadəcə simvol deyil – bunlar bir xalqın yaddaşını yaşadan, gələcək nəsillərə yol göstərən işıq mənbələridir. Bu gün onun adını daşıyan Heydər Əliyev Mərkəzi yalnız bir memarlıq incisi deyil, həm də mədəniyyətin, tariximizin və milli mənəviyyatımızın daşıyıcısıdır. Burada təşkil olunan tədbirlər, sərgilər və konfranslar həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə Heydər Əliyev irsinin təbliğinə və öyrənilməsinə xidmət edir.O, bir ideya, bir yol, bir məktəb yaratdı. Bu məktəb – liderlik, müdriklik, məsuliyyət və xalq sevgisi məktəbidir. Hər bir azərbaycanlı bu məktəbdən öyrənməlidir ki, gələcək nəsillər də bu ideyalarla yaşasın və inkişaf etsin.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Zəfər - İlham Əliyev. İnkşaf məqsedimizdir. Bakı, 2024
2. Çox əsirlik tariximizin 34 ili. Alqumentlər, faktlar, şərhlər.
3. Elmira Axundova. Heydər Əliyev: şəxsiyyət və zaman (1969-1989). Bakı, 2008. IV hissə, s.110-120

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏTRAF MÜHİTİN SAĞLAMLAŞDIRILMASINDA ƏVƏZSİZ ROLU

[1]Samirə Müslüm qızı Mustafayeva, [2]Aytən Elxan qızı Kərimova
[1]Naxçıvan Dövlət Universiteti nəzdində Naxçıvan Dövlət Texniki Kolleci
mustafayevasamire15@gmail.com
[2]Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutu
aytenkerimova567@gmail.com

Tarixi təcrübə sübut edir ki, sadəcə güclü siyasi liderlərin yetişdirdiyi xalqlar onların güclü iradəsi sayəsində öz milli sərvətlərinə sahib olmaq və onları gələcək inkişafa yönləndirmək imkanı qazanırlar. Ulu öndər Heydər Əliyev də eynilə bu missiyanı yerinə yetirmişdir. Bu böyük dövlət xadiminin irəli sürdüyü strategiya indiki nəslin gözü önündə reallığa çevrilmişdir. Heydər Əliyev respublikamızın ekoloji problemlərinin həllini, mövcud təbiət abidələrinin qorunub saxlanmasını daim diqqətdə saxlamış, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə daim xususi qayğı ilə yanaşmışdır. Ümummilli Lider həmçinin Azərbaycanın bütün bölgələrini gəzmiş, ölkəmizin gözəl təbiəti ilə yaxından tanış olmuşdur [1].

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş ekoloji qərarlar verilmiş, bir çox qanunlar, sərəncamlar imzalanmış və bu işlər böyük səmərə vermişdir. Heydər Əliyevin zəngin maddi sərvətlərimizə, yaşıllığa, dağlara, çaylara, meşələrə, bulaqlara, ümumiyyətlə, təbiətə münasibəti onun azərbaycançılıq ideyasının tərkib hissəsi idi. Hakimiyyətdə olduğu dövrlərdə Azərbaycanda yeni ekoloji düşüncə üçün zəmin yaratmış, nəticədə təbiətə, ekologiyaya yeni baxış, münasibət formalaşmasına nail olmuşdur.

Hakimiyyətdə olduğu dövrlərdə ölkədə elmi-tədqiqat və təhsil müəssisələrinə, nəbatat bağlarına göstərilən qayğı, beynəlxalq öhdəliklərlə birlikdə qanunvericiliyin təkmilləşdirilməsi, biomüxtəlifliyin və ətraf mühitin mühafizəsi sahəsində çoxlu beynəlxalq konvensiyaların imzalanması, akademik Cəlal Əliyevin rəhbərliyi ilə respublikamızda ilk Milli Bitki Genbankının, toxum banklarının və Biomüxtəliflik üzrə Dövlət Komissiyasının yaradılması, Genetik Ehtiyatlar üzrə Milli Proqramın qəbul edilməsi, Biomüxtəliflik üzrə milli strategiyaların (2006-cı ildən başlayaraq) qəbulu, yeni elmi-tədqiqat institutlarının inkişafı, botanika bağlarının sayının artırılması və həyata keçirilən bütün əhəmiyyətli tədbirlər Ulu Öndərin Vətənimizin təbiətinə verdiyi dəyərin ən böyük göstəricisidir [2].

Ümummilli Liderin rəhbərliyi dövründə, 1969-1982-ci illərdə respublikada həyata keçirilən beynəlxalq təbiəti mühafizə tədbirlərinin təşəbbüskarı və təşkilatçısı olmuşdur. Həmin dövrdə ətraf mühitin mühafizəsi sahəsində 8 qanun qəbul olunub, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq olunub. Həmçinin Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi sahəsində məqsədyönlü siyasət yürüdürdü. Böyük su hövzələrinin yaradılması, şoran torpaqların təmizlənməsi üçün drenaj sistemlərinin inşa edilməsi, meşə zolaqlarının salınması, flora və faunanın qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədi ilə Respublikada Şirvan (1969), Bəsitçay (1974), Ağ göl (1978), İsmayıllı (1981) kimi dövlət qoruqları və yasaqlıqların yaradılması, Abşeron və Gəncədə iri yaşayış massivlərinin salınması, şəhər və rayonlarda sutəmizləyici qurğuların inşa edilməsi məhz Heydər Əliyevin möhtəşəm fəaliyyətinin bəhrəsi idi. Lənkəran və Masallı üçün mühüm suvarma dəryaçaları olan Xanbulançay və Viləşçay dəryaçalarının yaradılması bir tərəfdən zonada əkin torpaqlarının bol suvarılmasına xidmət edirdi, həm də digər tərəfdən bu yerlərin təbiətinin zənginləşdirilməsinə, ekoloji mühitə dəymiş ziyanın balanslaşdırılmasına, qiymətli balıq növlərinin yetişdirilməsinə şərait yaradırdı [3].

1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Ulu Öndərimiz ekoloji problemlərə bir daha diqqət çəkdi və yaşıllıq, su, torpaq və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi. 1998-ci ildə isə ekoloji istiqamətləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlandı. Bu Proqramda nəzərdə tutulan layihələrin reallaşması nəticəsində Azərbaycanda müasir Təhlükəli Tullantılar poliqonu və Xıllı Nərə Balıqartırma zavodu inşa edilmişdir. 2003-cü ildə isə Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu strateji proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, Kompleks tədbirlər Planı təsdiq edilmiş və həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyev demişdir: "Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özüözünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız..." Qurulan bu cümlələr ulu öndərin təkcə ölkəmizin deyil yer üzərindəki bütün canlı həyatın gələcəyini düşündüyünün sübutudur.

Azərbaycan müstəqillik qazandıqdan sonra da ətraf mühitin mühafizəsi və ekologiya sahəsində dövlət siyasətinin əsası məhz Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə forma-laşmağa başlayıb [4]. 1993-cü ilin ikinci yarısından Bakı və Abşeronun yaşıllaşdırılmasına, ekoloji tarazlığın bərpa edilməsinə çox böyük əzmkarlıqla başlanılıb, bu sahədə həyata keçirdiyi tədbirlər sırasında 2001-ci ildə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb. Azərbaycan Respublikası ətraf mühitin mühafizəsi və biomüxtəlifliklə əlaqədar çoxsaylı qlobal konvensiyalara qoşulub: UNESCO-nun Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiyası (1993), Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya (1998), Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa Konvensiyası (Bern Konvensiyası 1999), BMT-nin Bioloji müxtəliflik haqqında Konvensiyası (2000), Bioloji müxtəliflik haqqında Konvensiya üzrə Biotəh-

lükəsizliyə dair Kartagena Protokolu (2005), UNESCO-nun Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında Konvensiyası (Ramsar Konvensiyası 2000), Avropa Landşaft Konvensiyası (2011) [5].

Heydər Əliyev irsi xalqımız üçün çox böyük mənəvi sərvətdir. Ulu Öndər Azərbaycan dövlətinin qurucusu kimi tariximizdə iz qoyub. Azərbaycan Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya nəticəsində inkişaf edir. Ümummilli Liderin hər sahədə olduğu kimi ekologiya sahəsində də siyasətinin layiqli davamçısı, Azərbaycanın təbiətinə, ölkənin bioloji müxtəlifliyinə daim xüsusi həssaslıqla yanaşan Prezident İlham Əliyev Ulu Öndərin böyük uzaqgörənliklə verdiyi tövsiyələrini də digər vəsiyyətləri kimi həyata keçirir.

Hazırda Prezidentimizin rəhbərliyi ilə Azərbaycanda ətraf mühitin qorunub saxlanmasında əldə edilmiş nailiyyətlərdə milli məfkurəyə bağlı elmi əsaslı idarəetmənin və respublikanın elmi potensialının rolu olduqca əhəmiyyətli dərəcədə yüksəkdir. Həyata keçirilmiş tədbirlər nəticəsində ümumi sahəsi 893 min hektara çatdırılan xüsusi mühafizə edilən təbiət sahələri, o cümlədən 10 dövlət təbiət qoruğu, 10 milli park və 24 dövlət təbiət yasaqlığı ekosistemlərin, fauna və flora növlərinin mühafizə edilməsində mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bəxtiyar Hüseynov, Heydər Əliyev və Azərbaycan təbiəti, Bakı Xəbər. - 2023. - 17 may. - № 84. 2 s.
2. V.İ.Korobkin, L.V.Peredelski, Ekologiya, dərslik, Bakı 2013, 220 s.
3. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Dünyanı, təbiəti, insanları qoruyaq, Bakı 2022, 72 s.
4. Əsgərzadə Veysəl, Azərbaycanda su ehtiyatlarının təsərrüfat və ekoloji əhəmiyyəti, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı 2016, 42 s.
5. Məmmədov Qərib, Xəlilov Mahmud, Ekologiya və ətraf mühitin mühafizəsi, Elm, Bakı 2015, 379 s.

NAXÇIVAN TƏHSİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASƏTİ

[1,3]Çinarə Qara qızı Əliyeva, [2,3]Səidə Eldar qızı Abdullayeva
[1]cinare1983@gmail.com
[2]nihadmurad4022@gmail.com
[3]Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci

Müstəqil və qüdrətli Azərbaycan dövlətinin banisi, ulu öndər, dahi dövlət xadimi Heydər Əliyev xalqının xilaskarı, millətin atasıdır. O dahilərin, sərkərdələrin vətəni sayılan Naxçıvanın inkişafında əvəzolunmaz rola malikdir. Naxçıvanın xilaskarı və inkişafının banisi olmaqa yanaşı onun təhlükəsizliyinin təmin olunmasında əvəzsiz xidmətləri vardır. Ulu Öndərimiz müxtəlif vəzifələrdə işləyərkən Naxçıvanı unutmayıb, həmişə diqqət mərkəzində saxlamışdır. İlk dəfə hakimiyyətə gəldiyi 1969-cu il iyulun 14-dən başlayaraq Azərbaycanın, o cümlədən Naxçıvanın gələcəyi ilə bağlı bir sıra qərarlar qəbul etmişdir. Dahi şəxsiyyət ilk təhsilini də Naxçıvanda almış, 1939-cu ildə pedaqoji məktəbi uğurla bitirmişdir. O təhsil aldığı həmin mərhələni yüksək qiymətləndirərək deyib: "Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək... Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb" [2].

1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə olmaqla sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yer tuturmuşdur. Bu geriliyin aradan qaldırılması və Naxçıvanın inkişafının başlanmasında da Ulu Öndərin birbaşa rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli birgə Qərarının böyük əhəmiyyəti olmuşdur. Sənəddə muxtar respubli-

kanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Qərarda nəzərdə tutulan bütün vəzifələr vaxtında yerinə yetirilmişdir.

Muxtar respublikanın sənaye potensialı 1970-1982-ci illərdə üç dəfə yüksəlmişdir. Dahi şəxsiyyət 1970-1982-ci illərdə 4 dəfə doğma diyarda səfərdə olmuş, muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyətini öyrənmişdir. İlk səfərini 1974-cü il fevralın 22-də gerçəkləşdirmişdir. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində saxlanılan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, o, 1978-ci il oktyabrın 15-də, 1980-ci il mayın 24-də, 1982-ci il oktyabrın 2-də etdiyi səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul etmiş, gələcəyə hesablanmış addımlar atmışdır.

Ümummilli Liderimizin təşəbbüsü və diqqəti sayəsində kompleks tədbirlər həyata keçirilmiş və tədbirlərin nəticəsi olaraq 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı təxminən üç dəfə yüksəlmişdir. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, eyni zamanda 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Aparılmış genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır.

Azərbaycana ikinci dəfə rəhbərliyi dövründə Ümummilli Liderimiz Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəməmişdir. 1969-cu ildən başlanan quruculuq və inkişaf istiqaməti Naxçıvanda da uğurlu şəkildə davam etdirildi. Bu quruculuq işləri sonrakı illərdə özünü tam doğruldaraq, bir idarəetmə modeli olaraq tarixə düşdü. Sənaye müəssisələrinin yenidən işə salınması və yeni müəssisələrin yaradılması nəticəsində 1993-2003-cü illərdə muxtar respublikanın sənaye məhsulu 3,4 dəfə artdı. Bu dövrdə 15 inzibati bina, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16 min 38 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verildi. Əhalinin gəlirləri isə 10,5 dəfə artdı. Qeyd edilən nailiyyətlərin hamısı böyük dövlət xadimi, uzaqgörən siyasətçi Heydər Əliyevin böyük uğurlarının kiçik bir hissəsidir.

Ulu Öndərin Azərbaycanda ikinci hakimiyyəti dövründə də Naxçıvan Muxtar Respublikasında görülən kompleks quruculuq işlərini daim dəstəkləmiş və bir sıra sosial, ictimai obyektlərin açılışında iştirak etmək üçün 4 dəfə muxtar respublikaya səfər etmişdir. Birinci səfəri 1996-cı il oktyabrın 29-da, daha sonra 1999-cu il oktyabrın 10-da, digərləri 2002-ci ilin iyunun 15-də və həmin il avqustun 10-da reallaşmışdır.

Dahi şəxsiyyətin Naxçıvanın bu günü və gələcəyi üçün gördüyü ən böyük işlərdən biri də qədim diyarın muxtariyyətinin qorunub saxlanılması olmuşdur. 1995-ci il noyabrın 12-də referendumla qəbul edilmiş, onun müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirmişdir. Həmin Konstitusiyanın VIII fəsli Naxçıvan Muxtar Respublikası ilə əlaqədardır. Konstitusiyanın 134-cü maddəsində deyilir: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir".

Ulu Öndərimiz "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı 1999-cu il 4 fevral tarixli Fərmanda Naxçıvanın muxtariyyətini şərtləndirən başlıca tarixi-coğrafi amillər belə ifadə olunub: "Azərbaycan Xalq Cümhuriyyəti dövrünədək sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq, Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-nin tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının - Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi" [2].

Ümummilli Liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə digər sahələrlə yanaşı, elmin inkişafı da diqqət mərkəzində saxlanılmış, 1972-ci ildə təşkil olunmuş Naxçıvan Elm Mərkəzində fundamental elmin müxtəlif sahələri üzrə genişmiqyaslı tədqiqatlar aparılmışdır. Burada

muxtar respublikanın təbii sərvətlərinin, tarix və mədəniyyət abidələrinin öyrənilməsi istiqamətində çoxlu səmərəli işlər görülmüşdür.

Xalqımızın xilaskarı ötən əsrin 70-80-ci illərində ölkənin tərəqqisinin mühüm şərti kimi təhsilin inkişafının əsas götürüldüyünü xatırladaraq söyləmişdir: "Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal birinci növbədə təhsil müəssisələri ilə məşğul olmağa başladım. Bilirsiniz ki, mən o vaxta qədər də dövlət işində işləmişdim. Azərbaycanda təhsilin, xüsusən də ali təhsilin vəziyyəti məni daim maraqlandırmışdır. Təhsilin nailiyyətlərini də, qüsurlarını da, nöqsanlarını da bilirdim. Şübhəsiz ki, respublikanın başçısı kimi məsuliyyətimi də dərk edirdim. Ona görə də birinci növbədə təhsil məsələlərinə ciddi fikir verirdim". Məhz bu amil hesabına Azərbaycan ötən yüzillikdə sürətli inkişaf və tərəqqi yoluna qayıtmaqla elm, təhsil, mədəniyyət inkişaf yolunu tutdu.

1970-1980-ci illərdə muxtar respublikada məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsi genişlənmiş, yeni obyektlər istifadəyə verilmişdir. Belə ki, uşaq bağçalarının sayı Naxçıvan şəhəri üzrə 7-dən 13-ə, Şərur rayonu üzrə 4-dən 10-a, Babək rayonu üzrə 4-dən 6-ya, Culfa rayonu üzrə 5-dən 10-a, Şahbuz rayonu üzrə 4-dən 7-yə artmışdır. Bütövlükdə, 1970-1980-ci illərdə muxtar respublikada 3690 yerlik məktəbəqədər uşaq müəssisələri tikilmişdir [1. səh. 48].

Bütün respublikada olduğu kimi, Naxçıvan MR-də də dövlətin təhsil-tərbiyə sisteminin əsas halqası olan gənc nəslin istirahətinə böyük diqqət göstərilirdi. 1970-1980-ci illərdə uşaq istirahət mərkəzlərinin, parkların və pioner düşərgələrinin sayı, bu sahələrə ayrılan vəsaitlərin həcmi xeyli artmışdır. Bu baxımdan muxtar respublika hökumətinin "Uşaqların sağlamlığının qorunmasının vəziyyəti və onun daha da yaxşılaşdırılması tədbirləri haqqında" 1974-cü il 14 fevral tarixli qərarı təqdirəlayiq idi. Bu qərarda uşaqların istirahətinin daha da səmərəli təşkili, istirahət zonaları və pioner düşərgələrinin sayının artırılması, oradakı şəraitin yaxşılaşdırılması, günüuzadılmış müəssisələrdə uşaqların təlim-tərbiyəsinə və istirahətlərinə daha böyük diqqət yetirilməsi məsələləri müzakirə olunmuşdur. Əgər 1970-ci ildə muxtar respublikada cəmi 9 pioner düşərgəsində 1660 nəfər məktəbli dincəlmişdirsə, 1980-ci ildə 43 pioner düşərgəsində 9396 nəfər uşaq istirahət etmişdir. Muxtar respublika məktəblərində günüuzadılmış qrupların sayı 1980-ci ildə 435-ə çatmış, sonrakı illərdə onların sayı daha da artırılaraq 1988/1989-cu tədris ilində 612 qrup təşkil etmişdir. Bu qruplarda 19553 nəfər məktəbli məşğul olurdu ki, bu da cəmi oxuyanların 39,1 faizini təşkil edirdi. Bununla yanaşı, məktəbə qədər müəssisələrin, pioner düşərgələrinin maddi-texniki bazası, avadanlıq və inventarlarla təminatı respublika səviyyəsindən aşağı idi. Pioner düşərgələri, bir qayda olaraq, məktəb binalarında yerləşir, yaşayış və istirahət üçün münasib deyildilər. Həmin illərdə Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan MR-də də məktəb tikintisi geniş miqyas aldı. Belə ki, Naxçıvan şəhərində 8, Şərur rayonunda 46, Babək rayonunda 12, Culfa rayonunda 15 olmaqla bütün muxtar respublika üzrə 103 məktəb inşa edilmişdir [1. səh 50].

Ulu Öndərin hakimiyyətə gəlişinə qədər muxtar respublikada ümumtəhsil məktəblərinin şagirdlərinin 59,8 faizi ikinci növbədə oxuyurdusa, 1980-ci illərin əvvəllərində yeni məktəb binalarının istifadəyə verilməsi ilə əlaqədar bu göstərici 44,2 faizə enmişdir. Muxtar respublikanın bir çox kəndlərində artıq məktəblilər müasir məktəb binalarında təhsil alırdılar.

Muxtar respublikada sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədar texniki peşə məktəbləri şəbəkəsinin genişləndirilməsi daim ölkə rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Belə ki, 1970-ci ildə muxtar respublikada 2 texniki peşə məktəbi mövcud idisə, 1980-ci ildə bu göstərici 8-ə çatdırıldı. Bütövlükdə, 1971-1980-ci illərdə bu məktəblərdə 9800 nəfərə yaxın ixtisaslı fəhlə kadrı hazırlanmışdır. 1970-ci ildə peşə məktəblərində 9 ixtisas üzrə 44 usta çalışırdısa, 1980-ci ildə 22 ixtisas üzrə 62 usta təlim vermişdir. 1980-ci ildə Naxçıvanda bütün təhsil müəssisələri üzrə müəllimlərin sayı 5276 nəfər təşkil edirdi. Onların 3974 nəfəri ali, 517 nəfəri natamam, 785 nəfəri isə orta pedaqoji təhsilə malik idi. Müqayisə üçün 1970-ci ildə bu göstəricilər müvafiq olaraq 3120, 1415, 662 və 1133 nəfər təşkil edirdi. Müəllimlərin sayında ali təhsillilər təqribən 2,8 dəfə artmış, orta təhsillilər isə təqribən 1,4 dəfə azalmışdır. 1984-cü ildə Naxçıvan MSSR-də 210 ümumtəhsil məktəbi, o cümlədən 21 ibtidai, 68 əsas, 121 orta məktəb, 61 məktəbəqədər uşaq müəssisəsi, 6 texniki peşə məktəbi və 4 texnikum fəaliyyət göstərirdi [1, səh.55].

1993-cü ildə yenidən hakimiyyətə qayıdan xalqımızın xilaskarı gənc, müstəqil Azərbaycan Respublikasının üzləşdiyi problemlərə baxmayaraq, təhsil sahəsindəki mövqeyini xalq arasında belə ifadə etdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir".

Muxtar respublikada 1995-ci ildə 29-u şəhər, 75-i kənd yerlərində olmaqla, ümumilikdə, 104 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərmişdi. Təhsil müəssisələrində 5719 uşaq təhsil almışdır ki, bunun da 2570-i şəhər, 3149-u kənd yerlərinin payına düşmüşdür. Bu dövrdə 11 peşə məktəbi və peşə liseyi, 5 orta ixtisas müəssisəsi, 1 ali məktəb fəaliyyət göstərmiş və bu təhsil müəssisələrində təhsil alanların sayı müvafiq olaraq 1230, 1351 və 2254 nəfər olmuşdur [1 səh. 56].

Ulu Öndərimiz təhsil sahəsində geniş islahatların həyata keçirilməsini bir vəzifə olaraq qarşıya qoydu. Bu baxımdan 1999-cu ilin iyununda imzalanmış "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Bu proqram Azərbaycanın milli təhsil sisteminin idarə olunmasını, yeni prinsiplərin tətbiq olunmasını və beynəlxalq normalara uyğunlaşdırılmasını, eyni zamanda dünya təhsil sisteminə inteqrasiyasının sürətləndirilməsini özündə əks etdirir. Təhsil sisteminin strukturunun yeniləşdirilməsi məqsədilə Ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun tarixdə Fərman imzalamışdır. Bu fərman təhsilin inkişaf istiqamətlərini müəyyən etməklə yanaşı təhsil işçilərinin fəaliyyəti üçün də stimul yaratmışdır [3].

Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası, Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanları və digər qərarlar təhsilin və elmin inkişafında, mədəni dəyərlərimizin qorunub saxlanılmasında, milli şüurumuzun formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Naxçıvan Muxtar Respublikası - 95. Naxçıvan, "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2019, 184 səh.

2. Heydər Əliyev "Müstəqilliyimiz əbədidir". Çıxışlar. Nitqlər, Bakı, 2008-ci il, VIII cild, səh.368

3. Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev dühası və müasir Azərbaycan" mövzusunda elmi-nəzəri konfransın materialları, Mingəçevir, 4-5 may 2022

4. "Elm" qəzeti, 23 may 2002

5. https://azedu.az/az/news/9316-heyder-eliyevin-tehsil-yolu-ve-bu-sahede-gorduyu-boyuk-isler-anim-gunu

BİR LİDERİN GƏNCLƏRƏ GÜVƏNİ: HEYDƏR ƏLİYEVİN SİYASİ MİRASI

Ülkər Həsən qızı Rəisli
Mingəçevir Turizm Kolleci
reisli.ulker@gmail.com

Azərbaycanın dövlətçilik tarixində gənclər siyasəti xüsusi əhəmiyyət daşıyan sahələrdən biri olmuşdur. Müstəqillik dövrünün lideri, Ümummilli lider Heydər Əliyev bu istiqaməti prioritetlər sırasında tutaraq, gənclərə hər zaman xüsusi diqqət yetirmiş, onları ölkənin gələcəyi kimi qiymətləndirmişdir. Onun gənclərlə bağlı həyata keçirdiyi siyasət sadəcə bir dövlət proqramı deyil, eyni zamanda dərin strateji düşüncənin məhsulu idi. Ulu Öndərin siyasi fəlsəfəsində gənclərin milli ruhda tərbiyə olunması, savadlı və vətənpərvər olması müstəqil Azərbaycanın uzunmüddətli inkişafı üçün əsas təminatlardan biri kimi qəbul edilirdi.

Heydər Əliyevin rəhbərliyi dövründə gənclər siyasətinin hüquqi və institusional bazası yaradıldı. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1996-cı ildə I Azərbaycan Gənclər Forumunun keçirilməsi və 1997-ci ildə 2 fevral tarixinin "Azərbaycan Gəncləri Günü" elan olunması bu siyasətin əsas mərhələlərindən hesab olunur [1]. Onun "Gənclər bizim sabahımızdır, gələcəyimizdir" fikri bu siyasətin ideoloji əsasını təşkil edir [4].

Bu məqalədə Heydər Əliyevin gənclər siyasətinin əsas istiqamətləri, hüquqi əsasları, institusional islahatlar, gənclərin cəmiyyətə inteqrasiyası və bu siyasətin bugünkü davamlılığı təhlil ediləcək. Həmçinin bu istiqamətdə həyata keçirilmiş tədbirlər diaqram və sxemlər vasitəsilə ümumiləşdiriləcək, nəticə və gələcək üçün təkliflər irəli sürüləcək.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi sabitliyin təminindən sonra sosial sahələrin, o cümlədən gənclərlə bağlı məsələlərin həllinə xüsusi önəm verdi. Müstəqilliyini yeni bərpa etmiş ölkədə vətəndaş cəmiyyəti formalaşmaqda idi və gənclər bu prosesin mühüm həlqəsini təşkil edirdi. Heydər Əliyev bu istiqamətdə kompleks tədbirlər planı həyata keçirməyə başladı.

Ən vacib addımlardan biri kimi, 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldı. Bu struktur, ölkədə ilk dəfə olaraq gənclərlə bağlı dövlət siyasətinin mərkəzləşdirilmiş şəkildə idarə olunmasına imkan yaratdı. Bu dövrdə bir sıra dövlət proqramları hazırlandı və gənclərin təhsili, məşğulluğu, idman və mədəni sahələrdəki fəaliyyəti təşviq olundu.

Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin fevralında I Azərbaycan Gənclər Forumu keçirildi. Bu tədbir ölkədə gənclər siyasətinin rəsmi və konseptual başlanğıcı hesab edilir. Forumda ulu öndər gənclərlə bağlı belə bir ifadə işlətmişdir:

"Mən Azərbaycanın gələcəyini gənclərlə bağlayıram. Gənclər bizim sabahımızdır" [3].

1997-ci ildə Heydər Əliyevin sərəncamı ilə 2 fevral "Azərbaycan Gəncləri Günü" elan edildi. Bu tarix hər il ölkədə gənclərlə bağlı dövlət tədbirləri ilə qeyd olunur [8].

Heydər Əliyevin gənclərlə bağlı siyasətində təhsil məsələsi əsas prioritetlərdən biri idi. Onun fikrincə, cəmiyyətin intellektual potensialının formalaşmasında gənclərin rolu danılmazdır. Bu baxımdan, ölkədə təhsil infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq təhsil əlaqələrinin genişləndirilməsi və gənclərin xaricdə təhsil almaları üçün imkanların yaradılması dövlət siyasətinin mühüm istiqaməti oldu.

1990-cı illərin sonlarından etibarən gənclərin Türkiyə, Rusiya, Avropa və digər ölkələrdə təhsil almaları üçün müxtəlif təqaüd proqramları həyata keçirilməyə başlandı. Bu təşəbbüslər, təkcə savadlı kadrların hazırlanmasına deyil, eyni zamanda, Azərbaycanın dünya təcrübəsinə inteqrasiyasına xidmət edirdi.

Gənclər arasında sağlam həyat tərzinin təbliği də vacib istiqamətlərdən biri idi. İdman, mədəniyyət, incəsənət və digər sahələrdə müxtəlif layihələr və tədbirlər həyata keçirilirdi. 1996-cı ildə Bakı şəhərində Gənclər və İdman Nazirliyi tərəfindən təşkil edilən "Azərbaycan Gəncliyi – Gələcəyə Doğru" proqramı bu sahədə ilkin strateji sənəd kimi çıxış etdi [2].

Ümumilikdə, Heydər Əliyevin təhsil siyasəti həm elmi, həm də mənəvi baxımdan sağlam, vətənpərvər və intellektual gənclik formalaşdırmağı qarşısına məqsəd qoymuşdu. O deyirdi:

"Gənclər Azərbaycanın gələcəyidir. Onların təhsilli, bilikli, dünyagörüşlü olması ölkənin gələcəyinin təminatıdır" [5].

Ulu öndər Heydər Əliyev dövründə gənclərlə bağlı siyasətin institusional əsaslarının yaradılması istiqamətində ciddi addımlar atıldı. 1994-cü ildə Gənclər və İdman Nazirliyi təsis olundu. Bu nazirliyin yaradılması ilə dövlətin gənclər sahəsində vahid siyasəti formalaşdı və həyata keçirilməyə başlandı.

1999-cu ildə "Dövlət Gənclər Proqramı" qəbul olundu. Bu proqram çərçivəsində gənclərin təhsili, məşğulluğu, ictimai fəallığı, könüllülük fəaliyyəti və beynəlxalq əməkdaşlıq sahəsində bir çox tədbirlər həyata keçirildi [6].

Bundan əlavə, gənclərin öz təşəbbüsləri ilə formalaşan ictimai birliklər, gənclər təşkilatları dövlət tərəfindən həm siyasi, həm də maddi baxımdan dəstəklənirdi. Bu təşkilatlar vasitəsilə gənclər öz ictimai fəallıqlarını nümayiş etdirir, dövlətlə qarşılıqlı əlaqə quraraq, siyasətdə təmsil olunurdular.

Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl və dinamik şəkildə davam etdirilir. Gənclərin dövlət idarəçiliyində, elmdə, texnologiyada, sahibkarlıqda və innovativ sahələrdə inkişafı üçün yeni imkanlar yaradılır. Xüsusilə, 2011-ci ildə qəbul olunmuş "Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə" Dövlət Proqramı və sonrakı illərdə təsdiqlənmiş "2017–2021" və "2022–2026" dövrünü əhatə edən proqramlar müasir gənclərin intellektual və sosial potensialının artırılmasına yönəlmişdir [7].

Bu proqramlar çərçivəsində aşağıdakı istiqamətlər prioritet elan olunmuşdur:

- Gənclərin peşəkar inkişafı və işlə təmin olunması;
- Sahibkarlığa təşviq və startap layihələrə dəstək;
- Könüllülük hərəkatının genişləndirilməsi;
- Rəqəmsal texnologiyalar sahəsində biliklərin artırılması;
- Patriotizm və milli dəyərlərin təşviqi.

Cədvəl 1

Gənclər siyasətinin əsas istiqamətləri

İstiqamət	Əsas tədbirlər və nəticələr
Təhsil	Xaricdə təhsil,müasir təhsil proqramları
Sosial inteqrasiya	GİKM,ASAN Könüllüləri,startaplar
Mədəniyyət və vətənpərvərlik	İdman tədbirləri,vətənpərvərlik layihələri
Hüquqi təminat	Gənclər siyasətinə dair dövlət proqramları
Beynəlxalq əməkdaşlıq	Mübadilə proqramları, xarici ölkələrdə konfrans və forumlarda iştirak

Heydər Əliyevin gənclər siyasəti, Azərbaycanın gələcək inkişaf modelinin formalaşmasında mühüm rol oynamışdır. Onun rəhbərliyi ilə gənclər üçün yaradılan imkanlar – təhsil, mədəniyyət, idman, ictimai-siyasi fəaliyyət sahələrində aparılan islahatlar – bu gün də öz bəhrəsini verməkdədir.

Azərbaycan gəncləri bu gün:

- Dövlət idarəetməsində təmsil olunur,
- Startaplar qurur,
- Beynəlxalq yarışlarda ölkəni təmsil edir,
- Könüllülük fəaliyyəti ilə cəmiyyətə töhfə verir,
- Elm, texnologiya və təhsil sahəsində uğurlara imza atır.

Bu inkişafın davamlı olması üçün aşağıdakı təkliflər irəli sürülə bilər:

1. Rəqəmsal savadlılığın artırılması üçün regionlarda təlimlərin təşkili;
2. Gənclərin xaricdə təcrübə mübadiləsi imkanlarının genişləndirilməsi;
3. Gənclər təşkilatlarının qlobal şəbəkələrə inteqrasiyası üçün dəstək;
4. Sosial təşəbbüsləri və sosial sahibkarlığı dəstəkləyən fondların yaradılması;
5. Gənclərin qərar qəbul etmə proseslərində iştirak imkanlarının artırılması.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Prezidenti. (1997)."2 fevral – Azərbaycan Gəncləri Günü" haqqında sərəncam.
2. Gənclər və İdman Nazirliyi. (1996). "Azərbaycan Gəncliyi – Gələcəyə Doğru" proqramı.
3. Heydər Əliyev. (1996). I Azərbaycan Gənclər Forumu çıxışı. Bakı.
4. Heydər Əliyev. (1999). Gənclərlə görüşdə nitqindən. Prezident Arxivləri.
5. Məmmədov, R. (2020). Heydər Əliyev və gənclər siyasəti. Bakı: Elm və Təhsil nəşriyyatı
6. Nazirlər Kabineti. (1999). "Dövlət Gənclər Proqramı".
7. Nazirlər Kabineti. (2022). "Azərbaycan Gəncliyi 2022–2026" Dövlət Proqramı.
8. Prezident.az rəsmi internet səhifəsi – www.president.az

HEYDƏR ƏLİYEV VƏ ONUN TURİZMİN İNKİŞAFINA DƏSTƏYİ

Samir Bəşarət oğlu Zamanov
Mingəçevir Turizm Kolleci
zsamir962@gmail.com

Giriş

Turizm sektoru müasir dövrdə ölkələrin iqtisadi inkişafına ciddi töhfə verən və dayanıqlı gəlir mənbəyi kimi çıxış edən sahələrdən biridir. Azərbaycanın turizm potensialı isə tarixi, mədəni, coğrafi və ekoloji zənginliyi ilə fərqlənir. 1990-cı illərin əvvəllərində ölkədəki siyasi və iqtisadi qeyri-sabitlik fonunda turizm sektoru da çətinliklərlə üzləşmişdi. Məhz Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bu sahənin inkişafına ciddi təkan verildi. Onun uzaqgörən siyasəti nəticəsində turizmin hüquqi və institusional bazası yaradıldı, beynəlxalq əməkdaşlıq quruldu və sektor iqtisadiyyatın prioritet sahələrindən birinə çevrildi [1].

Heydər Əliyevin turizm siyasətinə yanaşması

Ümummilli lider Heydər Əliyevin turizm sahəsinə yanaşması onun strateji dövlət idarəçiliyi və kompleks inkişaf modelinin bir parçası idi. O, turizmi yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, həm də milli-mədəni dəyərlərin təbliği, ölkənin beynəlxalq imicinin formalaşması və regional bərabərliyin təmin olunmasında mühüm vasitə kimi dəyərləndirirdi. Bu yanaşma elmi əsaslara söykənən, mərhələli inkişaf və davamlılıq prinsipinə əsaslanan bir siyasətin əsasını təşkil edirdi.

Heydər Əliyev turizm sahəsini inkişaf etdirmək üçün ilk növbədə sabitlik və təhlükəsizlik mühitinin formalaşmasına xüsusi önəm verirdi. Çünki o, turizmin inkişafı üçün əsas şərtlərin ictimai-siyasi sabitlik, iqtisadi rifah və hüquqi təminat olduğunu dəfələrlə vurğulayırdı. O qeyd edirdi ki, "Turizm yalnız sabitlik və əmin-amanlıq şəraitində inkişaf edə bilər. Bu sahənin inkişafı üçün dövlətin dəstəyi, vətəndaş cəmiyyətinin iştirakı və sahibkarlığın təşviqi vacibdir" [1].

Heydər Əliyevin turizm siyasətinə yanaşmasının əsas elementlərindən biri də konseptual inkişaf strategiyasının müəyyən edilməsidir. Onun təşəbbüsü ilə turizmin inkişafı ilə bağlı xüsusi proqramlar hazırlanmış, bu sahədə elmi tədqiqatlara və kadr hazırlığına diqqət artırılmışdır. Məsələn, 1990-cı illərin sonlarında ölkədə turizm üzrə mütəxəssis hazırlayan ali təhsil müəssisələrində yeni ixtisaslar açılmış, beynəlxalq təcrübəyə əsaslanan tədris planları tərtib olunmuşdur [2].

Turizm siyasətində insan amili – həm vətəndaşların turizm hüquqları, həm də xidmət sahəsində çalışan kadrların peşəkarlığı əsas götürülürdü. Heydər Əliyev turizmin yalnız dövlət strukturlarının işi deyil, həm də ictimai təşəbbüslər və sahibkarlıq fəaliyyətləri ilə birgə inkişaf etməli olduğunu bildirirdi. Onun dövründə turizm sektoru üzrə fəaliyyət göstərən sahibkarlara vergi güzəştləri tətbiq olundu, özəl sektora geniş imkanlar yaradıldı.

Heydər Əliyevin yanaşması həm də Azərbaycan turizminin dünya turizm sisteminə inteqrasiyasını nəzərdə tuturdu. Bu məqsədlə ölkənin beynəlxalq turizm təşkilatlarına üzvlüyü təmin edildi, xarici ölkələrdə Azərbaycanın turizm imkanlarını tanıdan kampaniyalar həyata keçirildi, beynəlxalq sərgilərdə iştirak dəstəkləndi. O, hesab edirdi ki, "Azərbaycanın zəngin təbiəti, tarixi və mədəniyyəti onu dünyanın aparıcı turizm məkanlarından birinə çevirə bilər. Lakin bunun üçün biz düzgün idarəetmə, beynəlxalq əməkdaşlıq və keyfiyyətli xidmət prinsiplərini rəhbər tutmalıyıq" [3].

Hüquqi və institusional çərçivənin formalaşdırılması

Turizm sahəsinin məqsədyönlü və sistemli şəkildə inkişaf etdirilməsi üçün güclü hüquqi və institusional baza zəruridir. Ümummilli lider Heydər Əliyev Azərbaycanda turizmin dövlət siyasətində prioritet sahələrdən birinə çevrilməsi üçün ilk növbədə bu sahənin hüquqi-normativ və institusional bazasının yaradılmasına xüsusi önəm vermişdir. Onun rəhbərliyi ilə turizm fəaliyyətinin tənzimlənməsi, bu fəaliyyətin şəffaf və hüquqi əsaslarla aparılması üçün ardıcıl və sistemli addımlar atılmışdır.

1990-cı illərin ortalarından etibarən Azərbaycanda turizm fəaliyyətini tənzimləyən ilk mühüm hüquqi sənədlər hazırlanıb qəbul olunmuşdur. 1999-cu ildə qəbul edilən "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu bu sahədə əsas hüquqi çərçivəni müəyyən etmiş və turizmin inkişafı üçün normativ əsas yaratmışdır [2]. Həmin qanun turizm növləri, turizm subyektləri və onların

hüquq və vəzifələri, turizm xidmətlərinin sertifikatlaşdırılması və təhlükəsizlik məsələləri kimi mühüm istiqamətləri əhatə edirdi. Bu sənəd Azərbaycanın müstəqil turizm siyasətinin formalaşdırılmasında bir dönüş nöqtəsi kimi qiymətləndirilir.

Hüquqi bazanın yaradılması ilə yanaşı, institusional strukturun formalaşdırılması da Heydər Əliyevin turizm siyasətinin mühüm komponentlərindən biri idi. Onun təşəbbüsü ilə 1993-cü ildə Azərbaycan Respublikasının Turizm üzrə Dövlət Şurası, daha sonra isə Turizm Nazirliyi yaradıldı. Bu qurumlar turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsi, beynəlxalq əlaqələrin qurulması və yerli turizm potensialının qiymətləndirilməsi istiqamətində mühüm rol oynadılar. Bu dövrdə dövlət və özəl sektor arasında əməkdaşlığın əsasları qoyuldu, turizm üzrə lisenziyalaşdırma və normativ tənzimləmə mexanizmləri işlənib hazırlandı.

Eyni zamanda, hüquqi və institusional çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması məsələsi də Heydər Əliyevin turizm siyasətində xüsusi yer tuturdu. Onun təşəbbüsü ilə Azərbaycan Respublikası 1993-cü ildə Ümumdünya Turizm Təşkilatına (UNWTO) üzv qəbul olundu və bu çərçivədə ölkə beynəlxalq turizm qanunvericiliyi və təcrübələri ilə inteqrasiya etməyə başladı [3]. Bu inteqrasiya Azərbaycanın beynəlxalq turizm bazarlarında görünməsini təmin etməklə yanaşı, ölkədə xidmət keyfiyyətinin artırılmasına, ekoloji və mədəni turizm dəyərlərinin qorunmasına da təkan verdi.

Heydər Əliyevin rəhbərliyi altında formalaşan hüquqi-institusional çərçivə yalnız mövcud problemləri həll etməyə deyil, eyni zamanda gələcəyə yönəlmiş strategiyanın təməlini qoymağa xidmət edirdi. Məsələn, regionların turizm inkişafı üzrə xüsusi proqramların hazırlanması, turizm infrastrukturunun dövlət investisiyaları hesabına qurulması, kadr hazırlığı və turizm təhsili üzrə hüquqi mexanizmlərin müəyyən edilməsi bu çərçivədə həyata keçirilən əsas istiqamətlərdən idi [4].

İnfrastruktur layihələri və investisiya təşviqi

Turizmin inkişafı yalnız təbiət, tarix və mədəni irs kimi resurslara deyil, həm də bu resursların əlçatanlığını təmin edən infrastruktur və sərmayə mühitinin möhkəmliyinə əsaslanır. Ümummilli lider Heydər Əliyevin dövlət idarəçiliyində bu prinsip açıq şəkildə öz əksini tapmış və o, turizm sektorunun inkişafını təmin etmək üçün mühüm infrastruktur layihələrinin reallaşdırılmasını prioritet məsələ kimi müəyyənləşdirmişdir. Onun strateji baxışında infrastruktur – nəqliyyat, enerji, kommunikasiya və ictimai xidmətlər sahəsində aparılan əsaslı dəyişikliklər – turizm sənayesinin lokomotivi kimi dəyərləndirilirdi.

1990-cı illərin ortalarından etibarən Azərbaycanın regional bərabər inkişafına və coğrafi cəlbediciliyinə yönəlmiş infrastruktur layihələri həyata keçirilməyə başlanıldı. Heydər Əliyev turizmin yalnız Bakıda və mərkəzi şəhərlərdə deyil, həm də regionlarda inkişafını təmin etmək məqsədilə yol-nəqliyyat sistemlərinin təkmilləşdirilməsi, hava limanlarının yenilənməsi və dəmir yolu əlaqələrinin genişləndirilməsi istiqamətində konkret addımlar atdı. Bu tədbirlər nəticəsində turizm obyektlərinə çıxış imkanları yaxşılaşdı və bölgələrdə turizm potensialından istifadə üçün real zəmin yaradıldı [5].

Eyni zamanda, energetika və kommunikasiya infrastrukturunun inkişafı da turizmə xidmət edən strateji istiqamətlərdən biri idi. Uzaq bölgələrdə elektrik enerjisi, su təchizatı, kanalizasiya və rabitə sistemlərinin bərpası və yenidən qurulması nəticəsində həmin ərazilər turizm məqsədilə istifadəyə yararlı vəziyyətə gətirildi. Heydər Əliyevin rəhbərliyi ilə bu sahələrə yönəldilən dövlət investisiyaları, beynəlxalq donor təşkilatlarla əməkdaşlıq və özəl sektorun prosesə cəlbi turizm üçün əhəmiyyətli baza formalaşdırdı [6].

Turizmin iqtisadi potensialını gerçəkləşdirmək üçün investisiya təşviqi də Heydər Əliyevin siyasətində əsas yerlərdən birini tuturdu. O, ölkədə əlverişli investisiya mühitinin yaradılmasını, hüquqi müdafiənin təmin olunmasını və xarici investorların turizm sahəsinə cəlbini stimullaşdıran iqtisadi və hüquqi alətlərin tətbiqini vacib hesab edirdi. Bu məqsədlə bir sıra vergi güzəştləri, investisiya sazişləri və lisenziyalaşdırma prosedurlarında sadələşdirmələr həyata keçirildi. Turizm obyektlərinin tikintisi və istismarı üçün torpaq sahələrinin güzəştli şərtlərlə verilməsi də investor marağını artıran mühüm amillərdən biri oldu [6].

Heydər Əliyev eyni zamanda özəl sektorun təşəbbüslərini dəstəkləyən bir siyasət yürüdərək, mehmanxanaların, istirahət mərkəzlərinin və turizm komplekslərinin tikintisinə dair investisiya layi-

hələrinə xüsusi diqqət yetirirdi. Onun dövründə Bakıda və bölgələrdə bir sıra yeni hotellər istifadəyə verildi, mövcud turizm obyektləri əsaslı təmir olundu, kurort və sanatoriya infrastrukturunun bərpası istiqamətində ciddi işlər görüldü. Bu proseslər nəticəsində həm daxili turizmin inkişafı təmin olundu, həm də ölkəyə gələn əcnəbi turistlərin sayı artmağa başladı.

Mədəni irsin qorunması və turizmə inteqrasiyası

Turizmin dayanıqlı və uzunmüddətli inkişafı onun yalnız iqtisadi deyil, eyni zamanda mədəni və sosial komponentlərinin də nəzərə alınmasını tələb edir. Bu baxımdan, mədəni irsin qorunması və onun turizm sektoruna inteqrasiyası Ümummilli lider Heydər Əliyevin turizm siyasətində prioritet istiqamətlərdən biri olmuşdur. O, Azərbaycan xalqının zəngin tarixi, milli kimliyi və mədəni irsini ölkənin turizm brendinin əsas sütunlarından biri kimi qiymətləndirmiş və bu sərvətlərin həm qorunmasını, həm də ölkənin beynəlxalq turizm bazarlarında tanıdılmasını hədəfləmişdir.

Heydər Əliyev Azərbaycanda mədəni irsin qorunmasını yalnız tarixi abidələrin bərpası ilə məhdudlaşdırmamış, bu irsin canlı elementlərini – milli adət-ənənələri, folkloru, sənətkarlıq nümunələrini, kulinariya mədəniyyətini və digər qeyri-maddi irs elementlərini də dövlət siyasətinin əsas komponentlərinə daxil etmişdir [7]. O, çıxışlarında dəfələrlə bildirirdi ki, mədəniyyət və turizm bir-birini tamamlayan və qarşılıqlı zənginləşdirən sahələrdir. Məhz bu fəlsəfəyə əsasən, onun dövründə dövlət orqanları, mədəniyyət müəssisələri və turizm subyektləri arasında qarşılıqlı əlaqənin qurulması istiqamətində mühüm təşəbbüslər həyata keçirildi.

1990-cı illərin sonlarında Heydər Əliyevin göstərişi ilə Şəki, Lahıc, Ordubad, Quba, Şuşa, Naxçıvan, Gəncə kimi mədəni və tarixi əhəmiyyətə malik şəhərlərdə yerləşən abidələrin dövlət tərəfindən qorunması və bərpası istiqamətində proqramlar hazırlanmış və icraya başlanılmışdır. Bu tədbirlər yalnız mədəni sərvətlərin fiziki olaraq qorunması ilə yekunlaşmamış, eyni zamanda bu irs nümunələrinin turizm məhsulu kimi təqdim edilməsi imkanlarını da artırmışdır [8].

Mədəniyyət obyektlərinin turizm infrastrukturuna inteqrasiyası üçün xüsusi tədbirlər planı hazırlanaraq tətbiq edilmişdir. Qədim qalalar, karvansaralar, məscidlər, kilsələr, hamamlar və digər tarixi tikililər müvafiq təmir-bərpa işlərindən sonra turizm marşrutlarına daxil edilərək, turistlərin maraq mərkəzinə çevrilmişdir. Eyni zamanda, bu obyektlərdə informasiya texnologiyalarının tətbiqi, bələdçi xidmətlərinin təşkili, suvenir satış nöqtələrinin yaradılması və mədəni tədbirlərin keçirilməsi kimi elementlər turizm dəyər zəncirinə əlavə olunmuşdur.

Heydər Əliyevin bu sahədəki siyasəti həm də qeyri-maddi mədəni irsin yaşadılması və tanıdılmasına yönəlmişdi. Milli rəqs və musiqi festivallarının keçirilməsi, aşıq sənətinin təbliği, xalçaçılıq, misgərlik, dulusçuluq kimi ənənəvi sənətkarlıq sahələrinin turizm məhsulu kimi təqdim edilməsi dövlət səviyyəsində dəstəklənirdi. Onun təşəbbüsü ilə keçirilən "Muğam Günləri", "Milli Mətbəx Festivalı" kimi tədbirlər həm yerli əhalinin mədəni şüurunun yüksəldilməsinə, həm də ölkəyə gələn turistlərin mədəni təcrübələrinin zənginləşdirilməsinə xidmət edirdi [8].

Bundan əlavə, Heydər Əliyevin dövründə Azərbaycanın mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində də mühüm addımlar atılmışdır. UNESCO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bir sıra abidələrin dünya irs siyahısına daxil edilməsi üçün işlər görülmüş və bu proses gələcək illərdə uğurla nəticələnmişdir. Bu yanaşma həm ölkənin beynəlxalq imicinin güclənməsinə, həm də mədəni turizmin inkişafına ciddi stimul yaratmışdır.

Beynəlxalq əməkdaşlıq və ölkənin turizm imicinin formalaşdırılması

Ümummilli lider Heydər Əliyevin turizm siyasəti təkcə ölkədaxili infrastrukturun, mədəni irsin və hüquqi bazanın inkişafı ilə məhdudlaşmayaraq, Azərbaycanda turizmin beynəlxalq səviyyədə tanıdılması və ölkənin müsbət turizm imicinin formalaşdırılması istiqamətində də strateji yanaşmanı özündə əks etdirirdi. O, Azərbaycanın zəngin mədəniyyəti, tarixən formalaşmış multikultural mühiti, ekoloji və coğrafi üstünlüklərini dünya ictimaiyyətinə təqdim etməklə ölkəni beynəlxalq turizm bazarlarına çıxarmağı prioritet məqsəd kimi müəyyənləşdirmişdi.

Ümummilli lider Heydər Əliyev qlobal inteqrasiyanı və beynəlxalq təşkilatlarla əməkdaşlığı ölkənin turizm sektorunun inkişafında əsas faktorlardan biri kimi qiymətləndirirdi. Bu məqsədlə Azərbaycan 1990-cı illərin sonlarından etibarən Ümumdünya Turizm Təşkilatı (UNWTO) başda olmaqla, bir sıra beynəlxalq və regional turizm təşkilatlarının üzvü olmuşdur. Bu üzvlüklə yanaşı, Azərbaycan beynəlxalq tədbirlərdə, sərgilərdə və konfranslarda aktiv iştirak etməyə başlamış,

turizm sahəsində beynəlxalq təcrübə və texnologiyaların ölkəyə transferinə şərait yaradılmışdır [10].

Heydər Əliyevin rəhbərliyi ilə keçirilən xarici səfərlər və yüksək səviyyəli görüşlər zamanı Azərbaycanın turizm potensialının təqdimatı da diqqət mərkəzində saxlanılırdı. O, ölkənin geosiyasi mövqeyi, sabitliyi, təhlükəsizliyi və mədəni zənginliklərini beynəlxalq investorlar və turistlər üçün cəlbedici amil kimi təqdim edirdi. Bu proses çərçivəsində Azərbaycan müxtəlif ölkələrlə, xüsusilə Avropa, Yaxın Şərq və MDB dövlətləri ilə turizm sahəsində ikitərəfli əməkdaşlıq sazişləri imzalamış və müştərək layihələr həyata keçirmişdir [9].

Dövlətin təşəbbüsü ilə beynəlxalq turizm sərgilərində "Azərbaycan" stendlərinin yaradılması, ölkəyə dair promosiya materiallarının hazırlanması və yayılması, sənədli filmlərin, reklam çarxlarının çəkilməsi və xarici KİV-lərdə yayımlanması ölkənin turizm imicinin formalaşmasında mühüm rol oynamışdır. Bu təşəbbüslər nəticəsində Azərbaycan "yeni, təhlükəsiz, qonaqpərvər və mədəni zəngin ölkə" kimi xarici turistlər üçün maraqlı istiqamətə çevrilməyə başlamışdı [10].

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi də ölkənin turizm cəlbediciliyinin artmasına töhfə vermişdir. Xüsusilə, mədəniyyətlərarası dialoq, multikulturalizm və sülh siyasəti çərçivəsində təşkil edilən konfrans və festivallar, həm xarici qonaqların ölkəyə cəlb olunması, həm də Azərbaycanın tolerant və açıq cəmiyyət modeli kimi təqdim edilməsi baxımından böyük əhəmiyyət daşıyırdı.

Turizm imicinin formalaşmasında diaspor təşkilatlarının və xaricdəki səfirliklərin fəaliyyəti də Heydər Əliyev tərəfindən xüsusi əhəmiyyətlə qiymətləndirilirdi. O, xarici ölkələrdə yaşayan azərbaycanlıların və diplomatik nümayəndəliklərin turizmin təbliğində fəal iştirakını dəstəkləmiş, ölkənin mədəni və təbii irsinin tanıdılması üçün vahid koordinasiyalı fəaliyyətin təmin olunmasına çalışmışdır.

Nəticə

Ümummilli lider Heydər Əliyevin turizm siyasəti Azərbaycan Respublikasının müasir turizm sektorunun bünövrəsini təşkil edən strateji yanaşma, kompleks baxış və davamlı inkişaf prinsiplərinə əsaslanmışdır. O, turizmin təkcə iqtisadi səmərəlilik mənbəyi deyil, eyni zamanda milli-mənəvi dəyərlərin qorunması, ölkənin beynəlxalq arenada tanıdılması, regionların sosial-iqtisadi inkişafı və mədəni irsin yaşadılması baxımından mühüm funksiyaya malik olduğunu dərk edərək, bu sahəyə xüsusi diqqət göstərmişdir.

Əldə edilən nəticələr göstərir ki, Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş hüquqi və institusional islahatlar, infrastruktur layihələri, mədəni irsin qorunması tədbirləri, beynəlxalq əməkdaşlıq təşəbbüsləri və ölkənin turizm imicinin gücləndirilməsi istiqamətində atılmış addımlar Azərbaycan turizminin sistemli və davamlı inkişafına zəmin yaratmışdır. Onun bu sahədəki uzaqgörən siyasəti nəticəsində ölkədə turizm potensialı dövlət səviyyəsində qəbul edilən prioritet sahəyə çevrilmiş, 2000-ci illərdən etibarən bu sahədə kəmiyyət və keyfiyyət baxımından ciddi irəliləyişlər müşahidə olunmuşdur.

Heydər Əliyevin turizmə yanaşması özündə vahid milli dəyərlər sistemini, dayanıqlı inkişaf məqsədlərini, sosial rifahın artırılmasını və dövlət-mülki sektor əməkdaşlığını birləşdirən kompleks bir modeldir. Bu modeldə həm dövlətin strateji planlaşdırması, həm də özəl sektorun təşviqi, ictimaiyyətin maarifləndirilməsi və beynəlxalq səviyyədə imic formalaşdırılması harmonik şəkildə bir araya gətirilmişdir.

Xüsusilə qeyd edilməlidir ki, bu siyasət nəticəsində Azərbaycanın turizm sektoru təkcə Bakı şəhəri ilə məhdudlaşmayaraq, Şəki, Quba, Lahıc, Şuşa, Naxçıvan, Gəncə, Lənkəran kimi regionlarda da canlanmağa başlamış, regional inkişafın mühüm hərəkətverici qüvvəsinə çevrilmişdir. Bu isə həm ölkə daxilində sosial bərabərliyin artırılmasına, həm də yerli icmaların rifah səviyyəsinin yüksəldilməsinə xidmət etmişdir.

Eyni zamanda, Heydər Əliyevin bilvasitə təşəbbüsü ilə turizm sahəsində insan kapitalının inkişafına, kadr hazırlığına və peşəkar təlim sistemlərinin yaradılmasına başlanmış, bu da sektorda keyfiyyətli xidmətin təməlini qoymuşdur. O, turizmi strateji baxımdan gələcək nəsillər üçün həm iqtisadi gəlir, həm də mədəni dəyər mənbəyi kimi qiymətləndirmiş və bu baxış bu gün də öz aktuallığını qoruyur.

Nəticə olaraq, Heydər Əliyevin turizm sahəsində atdığı addımlar, qəbul etdiyi qərarlar və irəli sürdüyü strateji baxışlar müstəqil Azərbaycanın turizm siyasətində dönüş nöqtəsi olmuş, ölkənin bu sahədə potensialını reallaşdırmasına geniş imkanlar yaratmışdır. Bu gün Azərbaycanın turizm sahəsində əldə etdiyi nailiyyətlərin böyük hissəsi məhz onun zamanında atılmış düzgün addımların nəticəsidir. Heydər Əliyevin irsindəki turizm baxışı müasir dövr üçün də yol göstərici mənbə olaraq qalır və gələcək strategiyaların formalaşdırılmasında əsas istinad nöqtəsidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev, H. *Müstəqilliyimiz əbədidir*. Bakı: Azərnəşr. 1997
2. Məmmədov, F. *Azərbaycanın turizm potensialı və inkişaf perspektivləri*. Bakı: Elm və Təhsil. 2005
3. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu, 1999.
4. Dövlət Turizm Agentliyinin rəsmi hesabatı, 1994–2003.
5. Azərbaycan Hava Yolları. "Beynəlxalq Hava Limanları haqqında məlumatlar", 2000.
6. İqtisadiyyat Nazirliyi. "Turizmin inkişafında investisiyaların rolu", 2001.
7. Əliyeva, S. *Azərbaycanın mədəni irsi və onun qorunması*. Bakı: Təhsil. 2004
8. UNESCO World Heritage Centre. "List of World Heritage Sites in Azerbaijan", 2000–2007.
9. UNWTO Membership Records, 1993.
10. Hüseynov, R. *Beynəlxalq turizm siyasəti və Azərbaycan*. Bakı: İqtisad Universiteti nəşriyyatı. 2006
11. Regional İnkişaf Mərkəzi. "Regionlarda turizmin sosial-iqtisadi rolu", 2002

AZƏRBAYCAN TURİZMİNİN İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

Aydın Məhəmmədəli oğlu Rəhimov
Mingəçevir Turizm Kolleci
mtk.aydin@gmail.com

Giriş

Turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdənbirini tutur. Hazırda turizm qlobal miqyasda sürətlə inkişafedən biznes sahələrindəndir. Dünya üzrə ümummilli məhsulun10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür,göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizmvasitəsi ilə lıəyala keçirilir. Dünyada əmək qabiliyyətli əhalinin 8.1 faizi turizm sənayesində və onunla bağlı sahələrdə məşğuldur. Dünyada gedən proseslər müstəqil Azərbaycana da təsirsiz ötüşməmişdir. Azərbaycanın turizmi müstəqillik dövründən götürülərək, gənc hesab edilsə də, respublikamızda turizm ənənələrinin tarixi qədimdir. Ölkəmizdə bütün sahələrdə danılmaz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin turizmin inkişafına da çox böyük töhfələri olmuşdur

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində, müstəqilliyinin ilk illə rindən artıq parçalanmaq, hətta mövcudluğu şübhə altında olan Azərbaycan, qisa tarixi zaman kəsiyində böyük sıçrayış edərək, sosial-iqtisadi sahədə, dünya iqtisadiyyatına inteqrasiyada böyük nailiyyətlər əldə etdi. 20 ildən artıq bir dövrdə bərpa edilmiş müstəqillik dövründə Azərbaycanın iqtisadi, həmçinin siyasi inkişafı göz qabağındadır.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev ölkənin sosial-iqtisadi inkişaf strategiyasının formalaşmasında mühüm rol oynamışdır. Onun rəhbərliyi altında həyata keçirilən islahatlar yalnız sənaye və energetika sahələrində deyil, həm də qeyri-neft sektorunun mühüm istiqamətlərindən biri olan turizm sahəsində ciddi nəticələr vermişdir.

Azərbaycanda milli turizm sektorunu inkişaf etdirmək və turizm resurslarından sosial rifah üçün səmərəli istifadə siyasətinin əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərə-

findən qoyulmuşdur. Azərbaycan turizminin hüquqi və institusional əsaslarının yaradılması, beynəlxalq turizm sisteminə inteqrasiyası və ölkənin turizm potensialının tanıdılmasında Ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olmuşdur.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə turizmin inkişafına təkan verən qərar və dövlət proqramları qəbul olunub, müvafiq fərman və sərəncamlar imzalanıb.

Ümummilli lider Heydər Əliyevin turizm siyasətinin tarixi əhəmiyyəti

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir.

Respublikanın siyasi, iqtisadi və mədəni həyatında, eləcə də turizm sahəsində hiss ediləcək canlanma yaranır. Bu istiqamətdə atılan ilk addımlardan biri Turizm üzrə Azərbaycan Şurasının bazasında Turizm-Ekskursiyalar üzrə Azərbaycan Respublika Surasının yaradılması oldu. Yəni Şuranın fəaliyyət dairəsi daha da genişləndirildi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə avqustun 12-də Azərbaycan KP MK, Nazirlər Soveti və Azərbaycan Həmkarlar İttifaqları Şurası (AHİŞ) birgə "Respublikada turizm və ekskursiyanın daha da inkişaf etdirilməsi tədbirləri haqqında" qərar qəbul etdi.Bu qərarın yerinə yetirilməsi istiqamətində ümummilli lideri Heydər Əliyev Azərbaycanda kütləvi turizmin, turizm və ekskursiya işinin genişləndirilməsi haqqında aidiyyəti olan nazirlik və komitələrə xüsusi tapşırıq və göstərişlər verdi.

Bu qərara uyğun olaraq, 1969-cu ildə Mingəçevirdə 250 nəfərlik mehmanxana tikintisinə başlanıldı. 1970-ci ildə Zaqatala və Şuşada hər biri 100 yerlik turbazalar,1971-ci ildə Xankəndində, 1972-ci ildə Mingəçevirdə ekskursiya büroları açılır. 1975-ci ildə Qəbələdə 342 yerlik "Qafqaz" turizm bazası, Nabranda 400 yerlik "Dostluq" turbazası və Bakı şəhərində 342 yerlik "Turist" mehmanxanası istifadəyə verildi. Respublikaya xarici turistlərin axını nəzərə alınmaqla və xarici turizmin maddi-texniki bazasını genişləndirmək məqsədilə 1973-cü ildə Bakıda ən böyük mehmanxana kompleksi olan (1042 yataq yerli) "Azərbaycan" mehmanxanası istifadəyə verildi. Dahi rəhbər Heydər Əliyevin tapşırığı ilə "Respublikada xarici turizmin gələcək inkişafına dair tədbirlər haqqında" və "Xarici turizm idarəsinin işində ciddi çatışmazlıqlar haqqında" məsələlər müzakirəyə çıxarıldı, qəbul edilən qərarlar respublikada xarici turizm sahəsində problemlərin aradan qaldırılmasına yardım etdi.

1971-ci il dekabrın 2-dən 13-dək Parisdə "Azərbaycan turizm həftəsi" keçirildi, sərgi nümayiş etdirildi və turizm firmaları ilə görüşlər təşkil edildi.

1979-cu ilin sentyabrında Bakıda "Rumıniya-turizm ölkəsi, dostlar ölkəsidir" sərgisi keçirildi. Həmin ilin dekabrında isə Bakıda Macarıstan, Bolqarıstan, Çexoslovakiya, Polşa və digər ölkələrin turizm nazirliklərinin iştirak etdiyi sərgi keçirildi.

1978-ci ildə Respublika Nazirlər Sovetinin nəzdində Xarici Turizm İdarəsi yaradılır.

Həmin ili "İnturist"in şəbəkəsinə 200 yerlik "Moskva" mehmanxanası əlavə edildi. Şəkidəki XVII əsrə aid olan karvansarada bərpa işləri aparılaraq, o dövrün standartlarına cavab verən mehmanxanaya çevrildi və 1980-ci ildən etibarən Bakı-Şəki-Telavi-Tbilisi avtobus marşrutu (və əks istiqamətdə) ilə respublikaya gəlib-gedən xarici turistlər həmin mehmanxananın xidmətlərindən istifadə etməyə başladılar. 1978-ci ildə "İnturist"in Bakı bölməsinin tabeliyində yerlərin ümumi sayı 1500 olan 4 obyekti "Azərbaycan", "Moskva", "İnturist" mehmanxanaları və Şəkidəki "Karvansara" turist kompleksi mövcud idi. Bu mehmanxanalarda SSRİ-nin digər respublikalarından ölkəmizə gələn nümayəndə heyətləri, mədəniyyət və idman tədbirlərinin iştirakçıları ilə yanaşı turist qrupları da yerləşdirilirdi. Bu isə öz növbəsində Azərbaycanda beynəlxalq turizmin inkişafına təkan verirdi.

Heydər Əliyevin gənclərlə bağlı siyasətinə uyğun olaraq, Bakının Zuğulba qəsəbəsində "Sputnik" gənclər düşərgəsi yaradıldı və sonradan modernləşdirilərək, Beynəlxalq Gənclər Turizm Mərkəzinə çevrildi.

Respublikamızda turizmin normativ-hüquqi bazası ötən əsrin 70-ci illərinin ikinci yarısından formalaşmağa başladı. Qanunvericilikdə çoxlu sayda norma və normativ aktlar (xüsusən müəssisə səviyyəsində) mövcud idi. 1980-ci il dekabrın 27-də Azərbaycan KP MK, Nazirlər Soveti və AHİŞ

"Respublikada turizm-ekskursiya işinin təkmilləşdirilməsi və inkişafı haqqında" birgə qərar qəbul etdi. Bu qərara uyğun olaraq, 1982-ci ildə Əli-Bayramlı (indiki Şirvan), Qazax və Şamaxıda səyahət və ekskursiya büroları açıldı.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Bakı şəhərində, respublikamızın digər rayonlarında, turizm bölgələrində geniş quruculuq və abadlıq işləri aparıldı.

27 dekabr 1980-ci ildə Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHİŞ birilkdə "Respublikada turist-ekskursiya işinin inkişafı və təkmilləşdirilməsi haqqında" qərar qəbul etdilər. Bu qərarda xidmət keyfiyyətinin yüksəldilməsi və həmçinin artırılması, xidmət növlərinin təkmilləşdirilməsi, turist-ekskursiya təşkilatları şəbəkəsinin genişləndirilməsi və digər tədbirlər proqramının hazırlanması nəzərdə tutulmuşdu. Qəbul olunmuş həmin qərar Azərbaycanda turist-ekskursiya işinin inkişafına yeni təkan verdi. Respublikamızın bir sıra şəhərlərində - Lənkəranda, Qubada, Şəkidə, Şirvanda, Qazaxda və Şamaxıda yeni səyahətlər və ekskursiya büroları yaradılaraq fəaliyyətə başladı.

1980-ci ildən başlayaraq, Azərbaycan turizminin şöhrəti genişlənir və bu sahə respublika əhalisinin məişətinə möhkəm daxil olurdu. O vaxtdan respublikanın turist-ekskursiya təşkilatları SSRİ-nin 170-dən çox şəhərinin turist təşkilatları ilə əlaqə saxlamağa başladı. Bu da öz növbəsində səyahət marşrutlarının genişlənməsinə səbəb oldu. Həmkarlar ittifaqlarının xətti ilə Bakıya gələn xarici turistlərə keyfiyyətli xidmət göstərmək üçün Bakı Xarici Turizm Bürosu yaradıldı.

Ötən əsrin 80-ci illərində Azərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə çatmışdı. Həmin il respublikaya xarici ölkələrdən 50 min, SSRİ-nin müxtəlif bölgələrindən isə 250 minə yaxın turist gəlmişdir. Turist-ekskursiya bürolarının təşkil etdikləri ekskursiyalarda 2,5 milyon nəfərdən artıq adam iştirak etmişdi.

1982-ci ildə Azərbaycan Həmkarlar İttifaqlarının turist bazalarında artıq 2364 çarpayı-yer var idi. Həmkarlar ittifaqlarının nəzdində müstəqil balansa malik olan 27 turist təsərrüfatı fəaliyyət göstərirdi.

Bu illərdə ölkənin turist təsərrüfatlarının maddi-texniki bazası möhkəmləndirilir, yeni turist obyektlərinin tikintisi ilə yanaşı, fəaliyyətdə olan turist müəssisələrində abadlıq və genişləndirmə işləri aparılır, zəhmətkeşlərin və onların ailə üzvlərinin istirahəti üçün daha münasib şərait yaradılırdı.

1982-ci ilin fevralında Azərbaycan SSR Nazirlər Sovetinin "Naftalan Kurort şəhərini daha da inkişaf etdirmək tədbirləri haqqında" Qərarı qəbul olunub. Bu Qərarın tələblərinin yerinə yetirilməsi sayəsində Naftalan kurort şəhəri kimi böyüyüb, maddi-texniki bazası möhkəmləndirilib, yeni sanatoriyalar və müalicə mərkəzləri tikilib. Şəhərdə 480 yerlik "Mil" və "Azərbaycan", 580 yerlik "Çinar", 800 yerlik "Goran" sanatoriyası inşa edilib. O dövrdə Ümummilli lider Heydər Əliyev şəhərin inkişafı, geniş şöhrət qazanması üçün misilsiz xidmətlər göstərib. Həmin illərdə Naftalan şəhərində yeni parklar salınıb, çoxmətəbəli yaşayış binaları tikilib. Eləcə də şəhərdə məişət xidməti kombinatı, 400 yerlik kinoteatr, hava limanı, avtovağzal, 4 mərtəbəli telekommunikasiya qovşağı və 9 mərtəbəli 108 yerlik mehmanxana tikilib istifadəyə verilib. 1980-ci illərin sonunda Naftalanda hər il 80 minə qədər turistə xidmət göstərilirdi.

Ümumiyyətlə, Naftalan Kurortunun inkişafı 1970-1990-cı illərin əvvəlinə qədər daha coşqun olub. Məhz Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naftalan Kurortu SSRİ-də Ümumittifaq kurortu adı ilə böyük şöhrət qazanıb".

Respublikamızda turizmin coğrafiyası sosialist ölkələri ilə yanaşı, Yeni Zelandiya, Braziliya və Lüksemburqdan gələnlərin hesabına genişlənir. 1983-cü ildə Küveyt, Pakistan, İsrail və Suriyadan turistlər gəlməyə başlayır. Asiya, Afrika, Latın Amerikası ölkələrindən, həmçinin Türkiyə, Kanada, ABŞ və digər ölkələrdən olan turoperatorların Azərbaycana səfəri respublikaya artan maraqdan irəli gəlirdi. Eyni zamanda, "İnturist"in Bakı bölməsi 1980-ci ilin martından başlayaraq, SSRİ-nin müxtəlif turizm mərkəzlərində "İnturist" sisteminin yüksək səviyyəli mehmanxanalarında yerləşdirmək şərti ilə respublika vətəndaşları üçün maraqlı səyahətlər təşkil etməyə başladı.

1983-cü ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyən Ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə Xəzərin Azərbaycan sahillərində ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması barədə müvafiq qərar qəbul edildi və Nazirlər Sove-

tinin 1984-cü il 2 oktyabr tarixli 381 saylı qərarına əsasən Azərbaycan Respublikasında 2000-ci ilə qədərki dövrü əhatə edən turizmin inkişafı sxemi qəbul olundu. Bu proqrama əsasən 2000-ci ilə qədər Azərbaycanda 21300 yerlik müxtəlif turizm obyektləri inşa edilməli idi.

Əfsuslar olsun ki, nəzərdə tutulan layihələrin həyata keçirilməsinə maneələr yarandı. Əgər proqramda nəzərdə tutulanlar həyata keçsəydi, Azərbaycan, sözün əsl mənasında, inkişaf etmiş turizm diyarına çevrilərdi.

1993-cü ilin iyulunda Ümummilli lider Heydər ƏliyevAzərbaycan xalqının iradəsi ilə yenidən dövlət başçısı seçildi. 1994-cü il sentyabr ayının 20-də ölkəmizin beynəlxalq nüfuzunu qorumaqda mühüm rol oynamış "Əsrin müqaviləsi"ni imzaladı. Başlanğıcda 8 ölkənin 11 iri neft şirkətinin imzaladığı bu müqaviləyə az sonra 19 ölkənin 40-dan çox neft-qaz "nəhəngi" qoşulmuşdu: "İqtisadi əlaqələrin artması turizm işinə də yaxşı mənada təsir edirdi. Bakıda xarici iş adamlarının fəaliyyət göstərməsi onların ailə üzvlərinin də ya daimi, ya da fasilələrlə burada yaşaması zərurəti yaranır. Bakı şəhərində daha komfortobelli yerləşmə müəssisələrinə ehtiyac yaranırdı. Eyni zamanda qeyri-neft sahələrinin, o cümlədən turizmin inkişafı üçün sərmayə qoyuluşuna və qanunvericilikdə turizmlə bağlı olan sahibkarlığın inkişafına şərait yaradılır.

Ümummilli lider Heydər Əliyevin 1994-cü ildə Çinə, 1995-ci ildə Bolqarıstana, 1997-ci ildə Polşaya, həmin ildə İtaliyaya, 1998-ci ildə İngiltərəyə və digər ölkələrə səfərləri zamanı imzalanan sənədlərdə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi istiqamətində qarşılıqlı turizm səfərlərinin təşkili də nəzərdə tutulmuşdu.

Azərbaycanın turizm regionları hesab edilən və 1990-cı illərin əvvəllərində ən narahat bölgələr olan Qusar-Quba-Xaçmaz, Zaqatala-Qax-Şəki, Masallı-Lənkəran zonalarında ulu öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində sabitllik bərpa olundu, qonşu dövlətlərlə sərhədlərimiz möhkəmləndirildi. Həmin ərazilərdə turizm inkişaf etməyə başladı. Azərbaycan Həmkarlar İttifaqlarının (AHİ) bu regionlarda yerləşən istirahət bazalarına turist yollayışlarının verilməsi bərpa olundu.

Turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında öz əksini tapdı. 1999-cu ildə Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edildi. 27 iyul 1999-cu ildə ulu öndər Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzaladı. Bu qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəlmiş dövlət siyasətinin prinsiplərini,turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Azərbaycanda turizmin potensial imkanlarını yüksək qiymətləndirən və bu sahənin inkişafı üçün yollar arayan ümummilli lider Heydər Əliyevin 18 aprel 2001-ci il tarixli sərəncamı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradılandan sonra geniş işlər görülməyə başlandı.

2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının (ÜTT) XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv oldu. Bu isə, öz növbəsində, respublikamıza turizm fəaliyyəti üzrə tövsiyələr və praktiki kömək edilməsinə imkan yaratdı. Bu da öz növbəsində ölkəmizə turizm fəaliyyəti üzrə tövsiyələr və dünyanın başqa ölkələrinin turizm təşkilatları ilə əlaqələrin qurulmasında əməli formada kömək edilməsinə imkan yaratdı.

Ümummilli lider Heydər Əliyevin apardığı islahatlar 2001-ci ildə Azərbaycan Respublikasının Avropa Şurasına üzv olmasına imkan verdi. Bu beynəlxalq təşkilata üzv olmaq ölkəmizin Qərbə inteqrasiyasına müsbət təsir etdi. Qarşılıqlı əlaqələrin yeni səviyyətdə inkişafı bəzi Qərb ölkələrinin Azərbaycanda olan xristian mənşəli tarixi memarlıq abidələrində təmir işlərinin aparılması üçün sərmayə yatırdılar. Artıq dini ziyarət yerlərində təmir-abadlıq işləri aparmaq təcrübəsi var idi. Belə ki, hələ 1994-1998-ci illərdə Heydər Əliyevin göstərişi ilə "Bibiheybət" məscidinin tam yenidən qurulması işi müvəffəqiyyətlə başa çatdırılmışdı. Ölkə başçısının turizm abidələrinə qayğı və diqqəti başqa abidələrin də bərpa olunmasına yol açdı. Belə ki, bütün Qafqazda ən qədim alban məbədi sayılan Kiş kilsəsində Azərbaycan və Norveç tədqiqatçı-arxeoloqları tərəfindən 2001-ci ildən başlanan bərpa işləri nəticəsində abidə ona xələl gətirən saxta əlavələrdən təmizləndi və öz ilkin arxitekturasına qaytarıldı. Bu abidə 2001-ci ilin avqustunda dünya əhəmiyyətli abidələr siyahısına daxil edilmişdir.

2001-ci ildə ilk dəfə olaraq Azərbaycanı tam genişliyi ilə təbliğ edən "Welcome to Azerbaijan" adlı xüsusi disk hazırlandı və ÜTT-nin Baş Assambleyasına təqdim olundu. Bununla yanaşı, diskin "Turizm in Azerbaijan" adlı veb səhifəsi yaradıldı. 2002-ci ildə ilk dəfə Bakıda xarici ölkələrin turizm şirkətlərinin iştirakı ilə Beynəlxalq Turizm Sərgisi təşkil olundu və ÜTT-nin dəstəyini qazandı.

Birinci beynəlxalq sərginin açılışı zamanı Ulu öndər Heydər Əliyevin sərgi iştirakçılarına təbrik məktubu oxunarkən necə fərəhləndiyimizi və qürur hissi duyduğumuzu izah etmək çətindir. Deməli, Azərbaycan adlı vətənimiz bütün dünyada turizm məkanı kimi qəbul olunmuş və tanınmağa başlamışdı.

Ölkədə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə respublika Prezidentinin 2002-ci il 27 avqust tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq olundu.

Dövlət proqramına uyğun olaraq, respublikamızda beynəlxalq standartlara cavab verən 4 əsas (Bakı-Xaçmaz, Bakı-Astara, Bakı-Balakən, Bakı-Qazax) və 3 əlavə (Bakı-Abşeron yarımadası-Qobustan, Bakı-Naxçıvan, Bakı-Şuşa) marşrutları müəyyən edilib.

Bundan əlavə, ölkəmizdə beynəlxalq standartlara cavab verən onlarla yerləşmə obyektləri (hotellər, motellər), əyləncə yerləri, restoran və kafelər, barlar tikilib istifadəyə verilib.

Artıq XXI əsrin başlanğıcında Bakıda, Gəncədə, Naxçıvanda və ölkənin digər şəhərlərində xarici qonaqları qəbul edə bilən beynəlxalq standartlara cavab verən müasir mehmanxana və hotellər fəaliyyət göstərirdi.

Respublikamızın bütün regionlarını əhatə edən 100-dən artıq turizm firması xarici turistlərin qəbulu və yerli əhaliyə turist xidməti ilə məşğul olur, 149 mehmanxana rəsmi qeydiyyatdan keçmişdir. Turizm üçün əlverişli regionlarda müasir səviyyəli özəl müalicə və istirahət mərkəzləri istifadəyə verilib. Respublikamıza gələn xarici qonaqların sayı 1 milyon nəfəri keçmişdi.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun uğurlu davamı bu gün Azərbaycan Respublikasının Prezidenti cənab möhtərəm İlham Əliyev tərəfindən aparılır. Ölkədə turizmin inkişafı xüsusi diqqət mərkəzində saxlanılır, bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir, layihələr icra edilir.

Nəticə

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində turizm Azərbaycanda mühüm iqtisadi və mədəni sahəyə çevrilmişdir. 1969-cu ildən etibarən həyata keçirilən kompleks tədbirlər sayəsində turizm infrastrukturu genişləndirilmiş, beynəlxalq əlaqələr qurulmuş, normativ-hüquqi baza formalaşdırılmışdır.

Müstəqillik dövründə isə turizm sektoru strateji sahə kimi inkişaf etdirilmiş, ölkənin beynəlxalq turizm bazarına inteqrasiyası təmin olunmuşdur.

Bu siyasətin davamı olaraq, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə turizm sahəsi bu gün də dinamik şəkildə inkişaf edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əlirzayev Ə.Q. Turizmin İqtisadiyyatı və İdarə Olunması. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011, 494 s.
2. Cabbarov Ə. Turizmin İqtisadi Əsasları. Bakı, 2015. 267 s.
3. Rəhimov S.H.Turizm-Ekskursiya İşinin Təşkili. Bakı, 2004.312s.
3. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin Əsasları. Bakı, 2007
4. https://heydar-aliyev-foundation.org/en/content/index/63/
5. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/77832.htm
7. http://www.anl.az/down/meqale/yeni_az/2015/fevral/419264.
8. http://www.president.az/azerbaijan/constitution/

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TURİZMİNİN TRANSFORMASİYASI: UNİKAL BİR VİZYONUN İZLƏRİ

Zeynəb Azər qızı Mehdizadə
Mingəşevir Turizm Kolleci
mehdiyevazeyneb96@gmail.com

Giriş

XX əsrin son onilliklərində dünya turizm sənayesi qlobal transformasiya keçirərkən, yenicə müstəqilliyini qazanmış Azərbaycan Respublikası bu prosesdə iştirak üçün ciddi çətinliklərlə üzləşirdi. Ölkənin turizm potensialı - zəngin tarixi irsi, unikal təbii resursları və strateji coğrafi mövqeyi ilə nisbətən kifayət qədər qiymətləndirilmirdi. Məhz belə bir tarixi məqamda Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyətində turizm sahəsinə xüsusi diqqət yetirilməsi Azərbaycanın sosial-iqtisadi inkişafında kvalitativ yeni mərhələnin başlanğıcı oldu. Heydər Əliyevin turizmə yanaşması onun dərin dövlətçilik məfkurəsinin ayrılmaz tərkib hissəsi kimi formalaşmışdı.

Heydər Əliyev sadəcə bir dövlət adamı deyil, həm də strateji vizyoner idi. 1990-cı illərdə Azərbaycan iqtisadi böhran və siyasi qeyri-sabitlik içində olsa da, o, turizmi "gələcəyin sənayesi" kimi qiymətləndirdi. "Bizim təbiətimiz, tariximiz və mədəniyyətimiz – bu, bizim neftimizdən daha dəyərli sərvətimizdir" ifadəsi onun bu sahəyə baxışını əks etdirir. Onun siyasi və iqtisadi islahatları nəticəsində Azərbaycan təkcə neft-qaz sektoru deyil, həm də turizm sahəsində dünya miqyasında tanınan bir məkan olmaq imkanı qazanmışdır.1993-cü ildə hakimiyyətə qayıdan lider kimi ilk növbədə ölkənin enerji təhlükəsizliyi və makroiqtisadi sabitliyi üzərində işləməyə başlasa da, o, eyni zamanda turizm sahəsini uzunmüddətli inkişafın əsas dayaqlarından biri kimi qiymətləndirirdi. Bunun əsas səbəbi onun dünyagörüşündə turizmin təkcə iqtisadi gəlir mənbəyi kimi deyil, eyni zamanda Azərbaycanın qlobal məkanada təmsil olunmasının effektiv vasitəsi kimi dəyərləndirilməsi idi. 1993-cü ildən etibarən həyata keçirdiyi konseptual dəyişikliklər nəticəsində turizm sektoru, ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilmişdir. Bu məqalədə Heydər Əliyevin turizm sahəsində irəli sürdüyü strateji vizyon, həyata keçirdiyi tədbirlər və bu siyasətin müasir Azərbaycana təsiri hərtərəfli şəkildə təhlil ediləcəkdir.

Əsas hissə

Heydər Əliyev turizmi çoxşaxəli inkişaf modelinin əsas komponenti kimi qiymətləndirərək, bu sahəyə xüsusi diqqət yetirmişdir. Onun fikrincə turizm, təkcə iqtisadi gəlir mənbəyi deyil, həm də ölkənin mədəni irsini dünyaya tanıtmaq üçün əvəzsiz vasitə idi. 1997-ci ildə qəbul edilən "Azərbaycan turizminin inkişafı konsepsiyası" ilə ölkədə turizm sahəsinin sistemli şəkildə inkişafı üçün möhkəm hüquqi baza yaradılmışdır. Bu sənəddə turizmin üç əsas istiqaməti müəyyən edilmişdir:

- Birincisi, turizmin iqtisadi diversifikasiyanın təməl daşı kimi rolu vurğulanmışdır.
- İkincisi, turizm mədəni diplomatiyanın effektiv vasitəsi kimi qiymətləndirilmişdir.
- Üçüncüsü isə turizmin regionların sosial-iqtisadi inkişafının lokomotivi funksiyasını yerinə yetirməsi nəzərdə tutulmuşdur.

Turizm sahəsində köklü dəyişikliklər üçün bir sıra tədbirlər ardıcıl şəkildə həyata keçirilmişdir. 1994-cü ildə Turizm Nazirliyinin yaradılması ilə bu sahənin inkişafı üçün mərkəzləşdirilmiş idarəetmə mexanizmi formalaşdırılmışdır. 1999-cu ildə "Azərbaycan Turizm" Dövlət Şirkətinin təsis edilməsi ilə dövlət və özəl sektorun səmərəli əməkdaşlığı üçün zəmin yaradılmışdır. Xüsusi vergi güzəştlərinin tətbiqi və turizm əməkdaşları üçün peşəkar hazırlıq sisteminin yaradılması kimi tədbirlər, sahənin peşəkarlıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır.

Heydər Əliyevin dövründə turizm infrastrukturunun inkişafı üçün böyük investisiyalar ayrılmışdır. Nəqliyyat infrastrukturu sahəsində Bakı hava limanının 2001-ci ildə modernləşdirilməsi, Bakı-Quba-Xaçmaz turizm koridorunun yaradılması və dəmir yolu xətlərinin yenilənməsi kimi layihələr həyata keçirilmişdir. Qonaq qəbulu obyektləri baxımından isə Şəki, Qəbələ, Naftalan kimi regionlarda ilk müasir otellərin tikintisinə başlanılmış, Bakıda "Hyatt Regency", "Excelsior" kimi

beynəlxalq standartlı otellər fəaliyyətə başlamışdır. 2003-cü ilə qədər ölkə üzrə 87 otelin fəaliyyətə başlaması, turizm infrastrukturunun inkişafında ilk mühüm addım olmuşdur.

Heydər Əliyevin "Turizmi regionlara aparmaq" şüarı ilə bir sıra prioritet layihələr həyata keçirilmişdir. Şəki-Xan Sarayı kompleksinin 2002-ci ildə bərpasına başlanılması və nəticədə 2019-cu ildə UNESCO Ümumdünya İrsi siyahısına daxil edilməsi, Şəki turizminin 5 dəfə artmasına səbəb olmuşdur. Qəbələ Turizm Klasterinin 2005-ci ildə yaradılması ilə regionda 10-dan çox 5 ulduzlu otelin tikintisi həyata keçirilmiş və illik Qəbələ Musiqi Festivalı kimi mədəni tədbirlər təşkil edilmişdir. Naftalan şəhərində isə unikal neft vannalarının turizm məqsədləri üçün istifadəsi ilə xüsusi sanatoriya və reabilitasiya mərkəzləri yaradılmışdır.

Heydər Əliyevin dövründə Azərbaycan turizminin beynəlxalq arenada təşviqi üçün mühüm addımlar atılmışdır. 2001-ci ildə Ümumdünya Turizm Təşkilatına üzv olması, "Azərbaycan - Şərq ilə Qərbin qovuşduğu ölkə" brendinin yaradılması, Əlincə qalası və Qobustan kimi tarixi abidələrin UNESCO siyahısına daxil edilməsi üçün işlər görülmüşdür. Bu tədbirlər nəticəsində Azərbaycan turizmi beynəlxalq arenada tanınmağa başlamışdır.

Ümummilli lider Heydər Əliyevin turizm siyasətinin nəticələri rəqəmlərlə aydın şəkildə təsdiqlənir. 2003-cü ilə qədərki dövrdə illik turist sayı 500 min nəfər, turizm gəlirləri isə 200 milyon dollar həddində olmuşdur. Turizm infrastrukturu isə 87 otel (ümumilikdə 7 min otaq) ilə məhdudlaşırdı. 2023-cü ilə qədər isə illik turist sayı 2,5 milyon nəfərə, turizm gəlirləri 3,2 milyard dollara qədər artmışdır. Turizm infrastrukturu isə 900 otel (ümumilikdə 45 min otaq) səviyyəsinə yüksəlmişdir.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi turizm siyasətinin əsas nailiyyətləri iqtisadi və sosial sahələrdə özünü aydın şəkildə göstərmişdir. İqtisadi təsirlər baxımından ÜDM-də turizmin payı 1993-cü ildə 1,2% səviyyəsindən 2023-cü ildə 6,8%-ə qədər yüksəlmiş, xarici valyuta gəlirlərində əhəmiyyətli artım qeydə alınmışdır. Əmək bazarında isə 50 mindən çox yeni iş yeri yaradılmışdır. Sosial təsirlər baxımından isə regionlarda əhalinin həyat səviyyəsinin yaxşılaşması, gənclər üçün yeni iş imkan-larının yaradılması və mədəni irsin qorunub saxlanılması kimi müsbət nəticələr əldə edilmişdir.

Heydər Əliyevin turizm sahəsində qoyduğu təməllər bu gün Azərbaycanın "Dördüncü İqtisadi Sektor" kimi tanınan turizm sənayesinin əsasını təşkil edir. Onun strategiyasının əsas uğuru, turizmin təkcə paytaxt Bakıda deyil, həm də bütün regionlarda balanslaşdırılmış şəkildə inkişaf etdirilməsi ideyasında ifadə olunur. Bu gün Azərbaycanın Qafqaz regionunda turizm lideri kimi tanınması və dünyada perspektivli turizm istiqamətinə çevrilməsi, Heydər Əliyevin uzaqgörənliyinin və strategik düşüncəsinin nəticəsidir.

Nəticə

Heydər Əliyevin turizm sahəsindəki vizyoner yanaşması və strategiyası, Azərbaycanı qlobal turizm xəritəsində möhkəm mövqeyə qoymuşdur. Onun rəhbərliyi ilə əsası qoyulan strateji islahatlar nəticəsində Azərbaycan turizmi sürətli inkişaf yoluna qədəm qoydu və regional səviyyədən çıxaraq qlobal turizm xəritəsində öz yerini tutdu.

Bu gün Azərbaycan turizminin əldə etdiyi nailiyyətlər, təkcə iqtisadi göstəricilərlə deyil, həm də ölkənin mədəni irsinin qorunması, regional inkişafın təşviqi və dünya miqyasında tanınması ilə ölçülür. Heydər Əliyevin müəyyən etdiyi bu inkişaf modeli, turizmin ölkənin dayanıqlı inkişafına və mədəni diplomatiyasına verdiyi töhfələrlə yanaşı, gələcək nəsillərə də davamlı və perspektivli bir yol xəritəsi təqdim edir. O göstərdi ki, milli irs, zəngin təbiət və mədəniyyət yalnız qorunmamalı, həm də dünyaya peşəkar səviyyədə təqdim olunmalıdır. Bu baxış bucağı ilə Heydər Əliyev təkcə bir lider deyil, həm də Azərbaycan turizminin memarı kimi tarixdə qalacaq.

İstifadə edilmi şədəbiyyat siyahısı

1. Əliyev, H. (2003). "Azərbaycanın İqtisadi və Sosial İnkişafı". Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.

2. Əliyev, H. (1997). "Azərbaycanın Turizm Sahəsinin İnkişafı Konsepsiyası". Bakı: Dövlət Nəşriyyatı.

3. Quliyev, A. (2015). "Azərbaycanın Mədəni Diplomatiyasının İnkişafı". Bakı: Mədəniyyət və Turizm Nazirliyi.
4. Əliyeva, S. (2004). "Azərbaycan Turizminin Strateji İnkişafı". Bakı: Ekonomiks Nəşriyyatı.
5. Məmmədov, R. (2012). "Azərbaycanın Regionlarında Turizm İnfrastrukturu". Bakı: İqtisadiyyat və Sosial İnkişaf Mərkəzi.
6. "Azərbaycanın Turizm İnkişafı: Tarix, Mədəniyyət və Gələcək Perspektivlər" (2019). Bakı: Mədəniyyət və Turizm Nazirliyi.
7. "Beynəlxalq Turizm Təşkilatının 2019 Raporu". (2019). Madrid: Ümumdünya Turizm Təşkilatı.
8. "Azərbaycanın Qlobal Turizm Xəritəsindəki Yeri". (2020). Bakı: Azərbaycanın Turizm və İqtisadiyyat İnstitutunun nəşri.
9. Aliyev, M. (2017). "Heydər Əliyev və Azərbaycanın Turizm Siyasəti". Bakı: Akademik Nəşriyyat.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCAN KONSTİTUSİYASININ YARANMASI TARİXİ

Səmədağa Elşən oğlu Rizvanlı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
rizvanlisemedaga170@gmail.com

Ulu öndər Heydər Əliyev Azərbaycanın milli tarixində özünəməxsus yer tutan dahi və nadir tarixi şəxsiyyətdir. Onun zəngin irsi hələ uzun müddət politoloqların, filosofların, tarixçilərin və tədqiqatçıların diqqət mərkəzində qalacaqdır. O, Azərbaycan xalqının müstəqilliyi uğrunda mübarizəsində misilsiz xidmətləri əfsanəyə çevrilmiş və bütün dünya azərbaycanlılarının sonsuz məhəbbətini qazanmışdır.

Heydər Əliyev bir siyasətçi kimi uzaqgörənliyini və qətiyyətini hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sübut etmişdir. Həmin illərdə Azərbaycanda dövlət quruculuğunda, iqtisadiyyatda, elmdə, mədəniyyətdə, bir sözlə, həyatın ən önəmli müxtəlif sahələrində böyük uğurlar əldə etmişdir. Məhz həmin illərdə milli-mənəvi dəyərlərin qorunub saxlanması, dövlətçilik ənənələrinin, o cümlədən parlamentin inkişafı, xalqın intellektual keyfiyyətlərinin nümayiş etdirilməsi üçün fundamental zəmin yaradılması istiqamətində perspektivli addımlar atmışdır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minmiş və 1995-ci ildə qəbul edilmiş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyası olmuşdur [1].

1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilmədi. Ona görə də birinci konstitusiya işlənib hazırlanmış və 1921-ci il mayın 19-da qəbul edilmiş Azərbaycan SSR Konstitusiyası hesab olunur. Azərbaycanın ikinci Konstitusiyası 1927-ci ilin martında qəbul edilib. O dövrdə Azərbaycan Zaqafqaziya Sovet Sosialist Respublikasının tərkibində olub, həm də SSRİ-nin tərkibinə daxil edilib. 1936-cı ildə SSRİ-nin yeni Əsas Qanunu qəbul edildikdən sonra ona uyğun olaraq, 1937-ci ildə Azərbaycanın üçüncü Konstitusiyası qəbul edildi. 1977-ci il SSRİ Konstitusiyası əsasında 1978-ci ildə Azərbaycan SSR-in dördüncü Konstitusiyası qəbul edildi. Bu Konstitusiyanın hazırlanması və qəbulu o vaxt Azərbaycanın rəhbəri olmuş Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdir. Bu sənəd milli maraqların qorunması baxımından əvvəlkilərdən xeyli fərqlənirdi. Məhz Ümummilli lider Heydər Əliyevin təkidi ilə Azərbaycan dilinin dövlət dili kimi rəsmi statusu 1978-ci il Konstitusiyasında öz əksini tapdı.

1995-ci ilin mayında Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası yaradılmışdır. Komissiya tərəfindən hazırlanmış hərtərəfli və müfəssəl Konstitusiya layihəsi 1995-ci ilin

oktyabrında ümumxalq müzakirəsinə çıxarılıb. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarılıb. Referendumda seçicilərin 86 faizi iştirak edib, onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinə səs verib. Əsas Qanun noyabrın 27-dən qüvvəyə minişdir.

Konstitusiya hüququ **–** hüququn aparıci sahəsi olub, Azərbaycan dövlətinin və cəmiyyətin təşkilinin, şəxsiyyətin hüquqi statusunun, yerli idarəetmənin və özünidarəetmənin əsaslarını tənzimləyən hüquq sahəsidir.

Konstitusiya hüququ müxtəlif münasibətləri tənzimləyir. Onlara aşağıdakılar aid edilir:

- cəmiyyətin və dövlətin sosial əsasları;
- dövlətin iqtisadi əsasları;
- dövlət və cəmiyyətdə baş verən əsas siyasi-hüquqi proseslər;
- bəzi mənəvi ideoloji münasibətlər (din, təhsil və s.);
- əsas insan və vətəndaş hüquqları, azadlıqları, və vəzifələri və s. [2].

Konstitusiya hüququ yalnız ən əsas münasibətləri tənzimləyir. Digər hüquq münasibətlərinə nisbətən ilkin və əsasdır. Konstitusiya hüququnun aparıcı hüquq sahəsinə çevrilməsində bütün konstitusiya qanunvericiliyi deyil, bilavasitə konstitusiya özü əsas rol oynayır. Çünki qanunvericilik sistemində ən yüksək pillədə istənilən konstitusiya qanunvericiliyi aktı deyil, yalnız konstitusiya durur. Konstitusiya hüququnun hüququn aparıcı sahə olmasına səbəb konstitusiyanın normalarıdır. Bu normalar xalqın iradəsini bilavasitə əks etdirməkdən və əsas, vacib münasibətləri müəyyən etməkdən əlavə, həm də başqa hüquq sahələri üçün, inkişaf istiqamətini, onların başlıca prinsiplərini müəyyən edir. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasında (bundan sonra qısaca Konstitusiya) birbaşa nəzərdə tutulur ki, "Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz" (Konstitusiya - maddə 13). "Mülkiyyətin heç bir növünə üstünlük verilmir" (Konstitusiya - maddə 29). Bu normalar ilə konstitusiya ilə mülki hüququn üzərinə müəyyən vəzifələr qoyulur. Kontitusiya hüququnun aparıcı hüquq sahəsi olmasına səbəb budur ki, konstitusiya hüququ bütün hüquq sahələrinin əsasını və birbaşa xalqın iradəsini ifadə edən normaları özündə əks etdirir.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, həm də Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında böyük xidmətləri oldu. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafın təminatını yaradan, siyasi, sosial, mədəni, iqtisadi və ictimai sahələrdə əsaslı dəyişiklikləri özündə əks etdirən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquqlarının təmin edilməsini dövlətin ali məqsədi elan edib. Hakimiyyətlərin bölünməsinin əsas prinsipləri müəyyən edildi. İnsan hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında əsas vəzifə kimi qoyulmuşdur. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, vətəndaşların həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin edilməsi, humanizm və xeyriyyəçilik prinsipləri Azərbaycan Konstitusiyasının əsas mahiyyətini təşkil edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer ayrılması onun ölkəmizin demokratik ideallarına sadiqliyindən xəbər verir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin hüquqi əsasını yaratmış, onun inkişafına güclü təkan vermişdir. Konstitusiyanın qəbul edildiyi gün - noyabrın 12-də respublika parlamentində ilk dəfə olaraq, çoxpartiyalı sistemə əsaslanan demokratik seçkilər keçirildi. Milli dövlətçilik tarixində ilk Konstitusiyanın müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ümummilli lider Heydər Əliyevin 1996-cı il 1 noyabr tarixli Fərmanına əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilir.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyillərinə istinadlar edilmiş, ölkəmizin hüquq sisteminin yeni institutunun - konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu institutun dövlət hakimiyyəti siste-

mində yeri və rolu müəyyən edilmişdir. Bu müddəaya uyğun olaraq 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 1998-ci il iyulun 14-də Milli Məclisin Qərarı ilə Konstitusiya Məhkəməsinin 7 hakimi təyin edilmişdir. İyulun 18-də isə Ulu öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin müstəqilliyinin və hakimlərinin hüquqi statusunun təmin edilməsi haqqında fərman imzaladı. Beləliklə, Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başlayıb. Doqquz hakimdən ibarət bu struktur qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunları şərh etməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiq etməklə, hətta vətəndaşların bilavasitə müraciəti əsasında qərarlar qəbul etməklə, bütövlükdə Konstitusiyanın aliliyini qoruyur [3].

Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələbləri ilə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə mühüm dəyişiklik və əlavələr edilmişdir. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsinə 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan çox əlavə və dəyişiklik edilib. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı təminatının təmin edilməsi, sosial dövlət prinsiplərinin möhkəmlənməsi imkanlarının daha da genişləndirilməsi ilə bağlıdır.

2016-cı il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklərin edilməsi ilə bağlı referendum keçirilib. Konstitusiyanın 29 maddəsinə müxtəlif sahələri əhatə edən 41 əlavə və dəyişiklik ali dövlət hakimiyyəti orqanlarının, məhkəmə hakimiyyətinin və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə, hüquq və azadlıqların müdafiəsində dövlətin və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib. Xüsusilə, prezident idarəetmə formasının təkmilləşdirilməsini təmin edən, dövlət idarəçiliyinin funksional imkanlarının artırılmasına, habelə seçkili vəzifəli şəxslər üçün yaş məhdudiyyətinin aradan qaldırılmasına xidmət edən vitse-prezidentlik institutunun yaradılması, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini təmin edən mexanizmlərin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Xüsusi vurğulanmalıdır ki, sözügedən referendumun nəticələri Azərbaycan xalqının mütləq əksəriyyətinin Prezident İlham Əliyevin siyasətini dəstəklədiyini bir daha nümayiş etdirdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək, yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir [4]:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi - referendum yolu ilə bu Konstitusiya qəbul edilir.

Konstitusiya hüquq münasibətlərinin obyekti kimi adi həyatda konkret insan hərəkətlərindən ibarət olan davranış aktlarından tutmuş iri miqyaslı, həyata keçirilməsi çoxsaylı mürəkkəb tədbirlər kompleksini tələb edən mücərrəd məsələlər də çıxış edir. Odur ki, konstitusiya hüququnun obyekti, sadəcə insan davranışı deyil, həm də reallıqla maddiləşməyən və hətta dolayısı da olsa, qavranıla bilməyən cəmiyyət və dövlətlə bağlı bir çox müddəalardır [5].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası / tərt.: Q.Əliyeva, G.Hacızadə, red., ön sözün müəl. S.C.Həsənova. - Bakı: Azərbaycan nəşri, 2011. - 304 s.
2. Türkdilli olan konstitusiyaları / Türkdilli Parlament Məclisi; tərc., qırmızı. H.Babayev. - Ankara: ny, 2012. - 260 s.
3. Seyidov, Ənvər Cümşüd oğlu. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları: dərs vəsaiti / Ə.C.Seyidov; Bas qırmızı. İ.İ.İslamov; red.: C.E.Hüseynov, Z.S.Nağıyev. - Bakı: UniPrint, 2014. - 705 s.
4. Əsgərov, Ziyafət Abbas oğlu. Hüquqi dövlət və konstitusiya: monoqrafiya / Z.A.Əsgərov; elmi qırmızı. F.S.Abdullayev. - Bakı: Azərbaycan nəşri, 2019. - 280 s.
5. Atakişiyev, Bəxtiyar Sərhəd oğlu. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları / B.S.Atakişiyev. - Bakı: Əbilov, Zeynalov və oğulları, 2006. - 194 s.

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU

Ətrabə Şirastan qızı Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
etrabe2023@mail.ru

Məlum olduğu kimi, mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi.

Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Bu dövrdə yeni formalaşmağa başlayan Azərbaycanın müstəqil xarici siyasəti, ilk növbədə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa edilməsi, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, yeni dünya nizamı çərçivəsində regional və qlobal proseslərdə ölkənin fəal iştirakının təmin edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Avropa və Trans-Atlantik strukturlarına inteqrasiya məsələlərinə və s. yönəldilmişdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək, möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Əsas prioritet istiqamət isə hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkənin təhlükəsizlik mühitinin əsas təyinedici amili oldu və bu da öz növbəsində Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynadı.

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və fəal xarici siyasət tələb edirdi. 1993-cü ilin ikinci yarısından, yəni Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi.

Özünün zəngin təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Ulu öndər Heydər Əliyev bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya qoymuşdu. Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq, respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi.

Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibəni dayandırmaq və dinc şərait təmin etmək vacib idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də mühüm yer tuturdu. 1992-ci ildən BMT, ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa İttifaqı, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratmış, hal-hazırda da bu qurumlar çərçivəsində qarşılıqlı-faydalı münasibətlərin inkişaf etdirilməsi üçün fəal xarici siyasət yeridir. Çox mühüm coğrafi-strateji məkanda yerləşən Azərbaycan malik olduğu mövqedən həm özünün, həm də tərəfdaşlarının maksimum bəhrələnməsi üçün hərtərəfli şərait yaradır, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirir. Əsas məqsəd ölkənin mövcud sərvətlərinə, o cümlədən zəngin neft və qaz yataqlarına sahib olmaq, onlardan dövlətin möhkəmlənməsi, əhalinin həyat şəraitinin yaxşılaşması və ölkənin beynəlxalq mövqelərinin gücləndirilməsi istiqamətində düzgün istifadə etmək idi.

1. Ulu Öndər respublikanın zəngin karbohidrogen ehtiyatlarının istifadəsinə daha çox ölkəni, xüsusən Qərb dövlətlərini, ABŞ-ı, Yaponiyanı, regionda xüsusi rolu olan Rusiyanı, Türkiyə və İranı cəlb etmək istəyirdi. Bunun bir neçə əsas səbəbi var idi:

2. Müstəqilliyi yenicə əldə etmiş, ciddi iqtisadi, siyasi və sosial böhran keçirən, neft-qaz yataqlarının istismarı, ümumiyyətlə, iqtisadi inkişaf üçün heç bir daxili resursu olmayan Azərbaycan üçün hansı sahəyə yönəlməsindən asılı olmayaraq, xarici investisiya qoyuluşu və qabaqcıl texnologiyaların tətbiqi hava və su kimi lazım idi.

3. Hələ müstəqil dövlətçilik ənənələri və reputasiyası zəif olan, dövlət atributları tam formalaşmamış və möhkəmlənməmiş, bütün ölkə ərazisində suveren hüquqları təmin olunmamış, torpaqları işğala məruz qalmış Azərbaycanın xarici dövlətlərlə müstəqil tərəfdaş rolunda çıxış etməsi o dövr üçün çox böyük əhəmiyyət kəsb edirdi.

4. Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen yataqlarına və ümumiyyətlə, dənizin sektor bölgüsünə Rusiya və İran kimi dövlətlər özünəməxsus mövqe nümayiş etdirirdi. Azərbaycan xarici dövlətləri öz tərəfindən Xəzərdə neft-qaz layihələrinin işlənməsinə cəlb etməklə, əslində, onların dəstəyini qazanmağa, Rusiya və İranın təzyiqlərinin dəf olunmasında onların da gücündən istifadə etməyə çalışırdı.

5. Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycan özünə beynəlxalq tərəfdaş axtarırdı. Xəzər nefti Qərb ölkələri ilə Azərbaycanın maraqlarını uyğunlaşdırmaq, əməkdaşlıq münasibətləri yaratmaq üçün çox əhəmiyyətli bir faktor ola bilərdi.

Beləliklə, əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirən müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu. Xarici siyasət sahəsində neft amilindən bacarıqla istifadə edən Ulu öndərimiz Heydər Əliyev neft müqavilələri bağlanması məsələsini nəzarətə aldı, danışıqlara şəxsən nəzarət etdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı.

Ötən müddətdə aparılan enerji siyasəti nəticəsində Azərbaycan Respublikasının dövlət müstəqilliyi daha da möhkəmlənmiş, respublikanın təhlükəsizliyinin və gələcək tərəqqisinin əlavə təminatları yaradılmış, Qərb dünyasının Azərbaycana olan etimadı artmış, onlarla mövcud olan qarşılıqlı-faydalı əməkdaşlıq və əlaqələr dərinləşmişdir.

Hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər nüfuzlu dövlətlər Azərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər. Onlar son dövrlər ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində yürüdülən iqtisadi, o cümlədən enerji siyasətini yüksək qiymətləndirir, həyata keçirilən transmilli layihələrin təşəkkül tapmasına və ölkəmizin beynəlxalq inteqrasiyasına hərtərəfli dəstək verirlər.

Cənubi Qafqaz regionu üzərindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişafının vacib elementidir. Bu mənada, Azərbaycan "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi" (TRACECA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Bununla yanaşı, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilməsi istiqamətində əməkdaşlıq edir.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir. Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm strateji istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsindən, həmin ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin qurulmasından ibarət idi. Bunun üçün ilk növbədə, Azərbaycanın geosiyasi mövqeyi və iqtisadi tərəfdaşlıq imkanları obyektiv qiymətləndirilməli, həmin amillərin bəhs edilən ölkələrin iqtisadi və siyasi maraqları ilə uzlaşdırılması yönündə təsirli addımlar atılmalı idi.

Bu zərurəti tam aydınlığı ilə dərk edən Azərbaycan hökuməti 1993-cü ilin axırlarından başlayaraq həm Şərq və Qərb, həm də region ölkələri ilə münasibətləri ayrı-ayrı təsadüfi əlaqələr səviyyəsindən sistemli xarici siyasət kursu səviyyəsinə qaldırmaq taktikası seçdi. Müstəqillik və dövlətçilik mənafelərini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatiyası beynəlxalq və məhəlli təşkilatlarla sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı-faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər görmüşdür. Xüsusən, BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, MDB, İslam dünyası ölkələrini birləşdirən İKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, hərtərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirilmiş və həyata keçirilmişdir.

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin ən əsas problemi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün və suveren dövlət hüquqlarının bərpası məsələsi idi. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi, beynəlxalq hüquq norması çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılırdı. Bu problem nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə mənfi təsir göstərmiş, həmçinin, regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət ölkəmizin regionda və dünyada müttəfiqlərinin sayını xeyli artırmışdır. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına davam etdirən cənab Prezident İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirmişdir. Nəticədə, Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Ona görə də, bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərlə bağlı məsələlərdə aparıcı dövlətlər Azərbaycanın mövqeyi ilə hesablaşırlar.

Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz". Beləliklə, Azərbaycanın xarici siyasəti 1993-cü ilin ikinci yarısından etibarən ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri, prioritetləri ilə seçilən, bitkin, ardıcıl və prinsipial xarakter kəsb etməyə başlamışdır. Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmi-

zin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, tarazlaşdırılmış, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünə layiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır.

Qeyd olunanlar onu deməyə əsas verir ki, bu gün Ulu Öndərin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bunun nəticəsidir ki, bu gün ölkəmiz dünyada söz sahibi və ən etibarlı tərəfdaşdır.

Azərbaycan tarixinin 44 günlük şanlı Zəfər salnaməsinin yaradıcısı və müzəffər qəhrəmanı olan ölkə Prezidenti cənab İlham Əliyevin Ulu Öndərin siyasi-ideoloji, dövlətçilik mənafeyini uğurla davam etdirməsi bir daha bütün dünyaya göstərir ki, Heydər Əliyevin uzaqgörən siyasəti yaşayır, yaşadır və ölkəmizi parlaq, aydın gələcəyə inamla aparır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bakı xəbər.- 2016.- 21-23 may
2. Heydər R. İlhamlı gələcək. (Qaradağ simfoniyası). Bakı – 2004
3. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti. (1991-2003). II hissə. Bakı – 2015

HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN BÖYUK HİMAYƏDARI İDİ

Sara Muradxan qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
sara2024@mail.ru

Bu gün biz gündəlik həyat və fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayır, onun nəcib və uzaqgörən əməllərinin xoş nəticələri ilə rastlaşırıq. Heydər Əliyev bütün müsbət xüsusiyyətləri ilə yanaşı, həm də böyük ürək sahibi idi. Hətta ona qarşı dönük çıxmış, xəyanət etmiş insanları da bağışlamağı bacarırdı. Bu insan üçün vətən, millət, xalq daha önəmli idi, nəinki şəxsi ambisiyalar. O, 1993-cü il iyunun 15-də Ali Sovetin sədri kimi çıxışında da bu barədə belə demişdir: "Mən rica edirəm, kiçik hissiyyatı kənara qoymaq vaxtıdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı deyil. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam".

Heydər Əliyev həm də ədalətli bir dövlət başçısı idi. Məhz özü ədalətli adam olduğu üçün hadisələrə də bu konteksdən yanaşmağı bacarır, dünya ictimaiyyətini, beynəlxalq qurumları və s. ölkəmizin mübtəla olduğu münaqişənin həllində ədalətli olmağa çağırırdı. O, sərt olmağı bacarırdı, insanları səhvlərinə görə cəzalandırırdı, ancaq heç vaxt ədalətsiz qərar qəbul etmirdi. Onun cəzası vicdan və ədalət kateqoriyalarının həmişə, hər yerdə və hər bir şəraitdə prinsipial qələbəsini təmin etmək kimi nəcib və sosial-mənəvi missiyaya hesablanmışdı. Bütün bunlar Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə də açıq-aşkar hiss edilirdi. Ulu Öndərin öz sözləri ilə desək: "Dövlət inamsızlıq üzərində qurula bilər, ədalətsizlik üzərində yox".

"Cəmiyyət təhsilsiz inkişaf edə bilməz!",- deyən dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Heydər Əliyev çox düzgün olaraq, elm və təhsil sahəsinə xüsusi diqqət göstərirdi. Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən Ümummilli Lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu Öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir". Müşahidələr göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir.

Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır. Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dünəninə və bu gününə diqqət yetirmək kifayətdir.

Bir faktı qeyd etmək kifayətdir ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Belə ki, Ulu Öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Ümummilli Lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd etmişdir ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765- dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi. Bir məsələni də qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır.

Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm və təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ölkəmizin ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır.

"Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elmtəhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür.

Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texnikitexnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan Ulu öndər Heydər Əliyevin: "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir", - fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Təbii ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri də AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində işləməsi, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramları işləyib hazırlaması olduqca vacib şərtdir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsil səviyyəsinin yüksəlməsinə gətirib çıxarar ki, bu da tədqiqatların sürətlənməsinə, eləcə də nəzəri-praktiki əhəmiyyətinin artmasına kömək edər.

Bu da danılmaz faktdır ki, Ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır.

Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə – ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində Ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, Ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir.

Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əmək-haqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir. Məxsusi olaraq qeyd olunmalıdır ki, islahatların keçirilməsi təhsil siyasətinin mühüm amillərindəndir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda təhsil siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin bircə Sərəncamına diqqət yetirməklə, onun strateji mahiyyətinə aydınlıq gətirə bilərik. Ölkə başçısının "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir. Təbii olaraq, bu tarixi sənəd indiyədək bu sahədə mövcud olan boşluqların doldurulmasına, dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına, gənc nəslin müasir standartlara uyğun daha dərindən savadlanmasına önəmli kömək göstərir.

Bu günün reallıqları sübut edir ki, Ulu öndər Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. "Xalq qəzeti".-2009.-12 dekabr.-N 276.-səh..6
2. "Təhsil" elmi, pedoqoji, metodik jurnal.
3. "Ulu öndər Heydər Əliyevin elm və təhsil siyasəti", "Azərbaycan" qəz., 2008, 5 dekabr
4. A.Səmədov. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xidmətlərinə qayğısı. Gəncə 2010.

HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI: QARDAŞLIQ VƏ STRATEJİ ƏMƏKDAŞLIQ

Sevil Rafik qızı Cəfərova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
seva.jafarova.69@mail.ru

Dünyaya gələn nadir siyasət adamları təkcə öz ölkələrinin deyil, bütöv bir epoxanın tarixini müəyyən edirlər. Belə nadir şəxsiyyətlərdən, siyasi xadimlərdən biri də Ulu Öndər Heydər Əliyevdir. Bu böyük siyasətçinin səyi nəticəsində qısa müddət ərzində Azərbaycan bütün müsbət göstəricilər üzrə tək Qafqazda deyil, bütün keçmiş SSRİ məkanında liderə çevrildi.

Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə, türk dünyasını əhatə edir. Görkəmli elm adamı akademik İsa Həbibbəyli "Heydər Əliyev və türk dünyası" başlıqlı məqaləsində yazır: "Heydər Əliyev və türk dünyası geniş bir mövzu olaraq, Azərbaycan xalqının Ümummilli Liderinin ayrı-ayrı türk dövlətləri və xalqları ilə çoxcəhətli əlaqələrini özündə cəmləşdirir.

Heydər Əliyevin türk dünyası ilə siyasi, diplomatik, iqtisadi, sosial, hərbi sahələri əhatə edən çoxcəhətli fəaliyyətində elm, təhsil,ədəbiyyat və incəsənət istiqamətlərinin də özünəməxsus yeri və əhəmiyyəti vardır". Bu mənada böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyi ilə yanaşı, praktik perspektivliyi ilə də böyük tarixi əhəmiyyətə malikdir.

Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin müfəssəl proqramını vermişdir ki, buraya, əsasən, aşağıdakılar daxildir:

"1. Türk dövlətlərinin müstəqilliyinin müdafiəsi;

2. Mövcud imkanlar çərçivəsində türk dünyasının birliyinin təmin olunması, bu birliyin narahat dünyamızda nizam yaradılması məqsədinə xidmət etməsi;

3. Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə edilməsi;

4. Türk dünyasının qüvvələrinin birləşdirilməsi və birgə hərəkətinin təmin edilməsi;

5. Türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsi və bunun üçün müstəqil türk dövlətlərinin imkanlarından istifadə edilməsi." (16, s.32-33).

Bu istiqamətdə Ümummilli Liderin daha səmərəli fəaliyyəti 1993-cü ildən başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının II görüşünün iştirakçılarına 5iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdir: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin – Türkiyə, İran, Pakistan, Əfqanıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Azərbaycan və Qırğızıstanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları var. Onlardan birga istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir".

Bu müraciətdə türklük düşüncəsinin mühüm tarixi əlamətləri əks olunmuşdur.

Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cumhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkü XX əsrin ən böyük dahi şəxsiyyətlərindən biri kimi səciyyələndirmişdir. O, 1994-cü il fevralın 9-da Türkiyə Böyük Millət Məclisindəki çıxışında türk xalqının böyük oğlu M.K.Atatürkün 1933-cü ildə dediyi fikirləri xatırlatmışdı: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kəs müəyyən edə bilməz. Bir vaxtbu dövlət də Osmanlı dövləti kimi, Avstriya-Macarıstan kimi parçalana, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır".

Eyni müdriklik türk xalqlarının birlik və həmrəylik naminə tarixi xidmətləri ilə seçilən Heydər Əliyevin siyasətində də hiss olunur: **"**1991-ci ildə Sovet İttifaqının dağılması ilə əlaqədar Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi, onu bərpa etdi. Yəni Mustafa Kamal Atatürkün uzaqgörənliyi bununla da sübut olunur. O, hələ o vaxt görürdü ki, Azərbaycan və türkdilli digər xalqlar – Orta Asiya xalqları daim əsarətdə qalmayacaqlar, öz müstəqilliklərinə, öz azadlıqlarına nail olacaqlar"**.**

Heydər Əliyev Azərbaycanın müstəqilliyini daxili və xarici bədxahlarımızın təsir və təzyiqlərindən qorumuşdur. Onun siyasi iradəsi və qətiyyəti ilə Azərbaycan xalqına qarşı pərdə arxası oyunlara, siyasi anarxiya və ekstremist hallara son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuş, bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaranmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alındı, dövlət müstəqilliyi qorunub saxlanıldı.

Atatürkün bu fikrini nümunə gətirdikdən sonra xalqımızın böyük rəhbəri bu məsələdə öz mövqeyini müəyyən qədər açıqlayaraq deyirdi: *"*60 il bundan öncə M.K.Atatürk bu günləri görmüş və bu vəsiyyəti etmişdir. İndi həmin dövran gəlib çatıb və Türkiyəyə dost, qardaş ölkələr, millətlər öz müstəqilliyini əldə edib. Bakı, o cümlədən Türkiyəyə dost və qardaş olan Azərbaycan da müstəqil bir dövlətdir. Sizə bildirmək istəyirəm ki, xalqlarımızın keçmiş tarixi, bu günə qədər yaşadığımız dövr bundan sonra daha yaxın, daha çox dost və qardaş olmağımız üçün böyük təməldir".

Qardaş Türkiyə Cümhuriyyəti haqqında aşağıdakı müdrik fikirlər Ulu öndər Heydər Əliyevə aiddir: "Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsur qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir....Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir. Xalqlarımız bir kökdəndir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır.İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik. Biz bir millət, iki dövlətik."

Böyük dövlət xadimi Süleyman Dəmirəl isə Azərbaycan xalqının milli liderinin tarixi xidmətlərini dünyanın böyük dövlət adamlarının öz xalqları qarşısındakı tarixi xidmətləri ilə müqayisə

edib göstərmişdir ki, Çörçilin 1940, Ruzveltin 1942, Adenauerin 1946, De Qollun 1958-ci ildə gördükləri işləri Heydər Əliyev 1993-cü ildə gördü.

"Şəxsi həyatı, uzaqgörən, müdrik siyasəti ilə tarixi salnamə yazan Ümummilli lider Heydər Əliyev kimi dahilər tarixdə bir dəfə yetişir söyləyənlər səhv etmirlər." Bu aforizmi başqa şəkildə ifadə edən Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəl isə Ulu Öndərə inamını, məhəbbətini bu sözlərlə bildirirdi: "Azərbaycan xalqının bəxti onda gətirib ki, onun Heydər Əliyev kimi lideri var." O, eyni münasibətini türk dövlət və topluluqlarının XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı çıxışında bir daha təkrarlayaraq, müstəqil Azərbaycanın qurucusu, böyük dövlət adamı, türk dünyasının ulduz korifeylərindən olan və türk dünyasına mənsub olmağın qürurunu yaşayan, ona dəstək olan Heydər Əliyevi türkçülüyün banisi adlandırmışdır: "Türk dünyası 11 milyon kv.km-dir. Yəni üç Avropa böyüklüyündəki bir sahədə türk dillərində danışan, "mən türkəm", - deyən, əfsanəsi, dili və tarixi bir olan insanların dünyası var. Bu, bir ulu çinardır, ulu çinarın budaqları vardır. Türkə görə 21 qol bu çinarın budaqlarıdır."

Tək Azərbaycan xalqının deyil, bütünlükdə türk dünyasının lideri olduğunu Dünya azərbaycanlılarının I qurultayını təşkil etməklə, 36 ölkəni təmsil edən 403 nümayəndəni (bütünlükdə 1105 nəfər) eyni məqsəd naminə birləşdirən ulu öndər bununla da türkçülük ideyasının təkmilləşdirilməsi kimi tarixi missiyanı həyata keçirdi. Heydər Əliyevin siyasi, iqtisadi, ictimai, mədəni sahələrdə həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir.

Fərəhləndirici və təqdirəlayiq haldır ki, Azərbaycan müstəqilliyini elan etdiyi ilk dövrdən etibarən Türkiyə ilə iki qardaş dövlət olaraq hər sahədə səmərəli əməkdaşlıq etməkdədir. Xüsusilə, onların xarici siyasət sahəsindəki fəaliyyətlərinin əlaqələndirilməsi barədə razılıq əldə olunmasını türk dövlətlərinin birliyi baxımından mühüm fakt kimi göstərmək lazımdır. Danışıqlar zamanı hər iki tərəf belə bir yekdil fikrə gəlmişdi ki, Türkiyə xarici siyasət sahəsində Azərbaycana kömək edəcək və Azərbaycan beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrində Türkiyənin dünyadakı nüfuzundan və təsirindən istifadə edə biləcəkdir.

Göründüyü kimi, türk dövlətləri arasında qarşılıqlı anlaşmanı gücləndirmək üçün bu addım az əhəmiyyət kəsb etmirdi və müstəqillik qazanmış digər türk respublikaları da bu təcrübədən istifadə edə bilərdilər.

Heydər Əliyev türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir.

Ulu Öndəri çox düşündürən problemlərdən biri də türk dövlətlərinin iqtisadi-mədəni birliyi məsələləri, bu mühüm məsələlərin həyata keçirilməsi yollarının nəzəri əsaslarının işlənib hazırlanması olmuşdur. Bu məsələlər isə Heydər Əliyevin yeni dövr türk birliyi strategiyasının yalnız bir qismini təşkil etməkdədir. O, keçən əsrin 90-cı illərinin əvvəlində, xüsusən, SSRİ dağıldıqdan sonra yaranmış beş yeni müstəqil türk dövlətinin arasındakı ictimai-siyasi əlaqələrin hətta qırılmaq dərəcəsinə gəlib çatdığını görür və bu məsələ onu narahat edirdi. O görürdü ki, bu dövlətlərin hər biri öz problemlərini təklikdə həll etməyə çalışır, dil bir, din bir, qan bir qardaşlarının köməyinə müraciət etməyə, qardaş yardımından bəhrələnməyə nədənsə az meyl göstərir.

Qeyd etmək lazımdır ki, çoxsaylı türk xalqlarının tarixi, ədəbi və mədəni əlaqələrinin bərpa edilməsində müstəqil türk dövlətləri başçılarının zirvə toplantıları mühüm yer tutur. Türk dövlətləri başçılarının II zirvə toplantısında (İstanbul 18-19 oktyabr 1994-cü il) qəbul edilmiş "İstanbul bəyannaməsi"nin imzalanması mərasimində Ulu Öndər türk xalqlarının yaxınlaşması zəruriliyini qeyd edərək göstərirdi: "Mən bu gün həqiqətən qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayır, bir-birimizlə daha sıx əlaqədə saxlayır. İndi isə xalqarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik".

Heydər Əliyev hazırladığı neft strategiyasının istiqamətlərindən olan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin davamı olaraq, Türkiyə-Yunanıstan-Adriatik dəhlizinin yaradılması da türk dövlət-

lərinin vahid iqtisadi məkanının formalaşması üçün əsas təməldir. "Bu gün neft-qaz sahəsində yaranmış əməkdaşlıq bizim dostluğumuzun nümunəsidir, eyni zamanda, regional əməkdaşlığın uğurlu nəticəsidir", - söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, TANAP kimi önəmli layihənin Azərbaycan və Türkiyənin birgə səyi ilə reallaşması barədə razılığın əldə olunması türk xalqlarını daha da birləşdirir, ölkələrimizə əlavə maliyyə resursları gətirir.

Neft-qaz sahəsində Azərbaycan Türkiyə, Türkmənistan və Qazaxıstan ilə birlikdə çox səmərəli fəaliyyət göstərir. İmzalanmış sazişlərə görə Qazaxıstanın neft-qaz ehtiyatlarının şaxələndirmə yolu ilə Azərbaycan ərazisindən dünya bazarlarına çıxarılması hər iki ölkənin maraqlarına uyğundur. "Biz bir-birimizi daim dəstəkləməliyik. Hər bir türkdilli ölkənin problemi digərlərinin probleminə çevrilməlidir," - söyləyən, hər bir iqtisadi əməkdaşlığın siyasi proseslərin sürətləndirilməsinə imkan yaratdığını vurğulayan Prezident İlham Əliyev daha böyük mənada əməkdaşlıq, birlik və həmrəylik nümunəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişində də bu etiqada sadiqlik göstərildiyini bəyan edir:

Ulu Öndərimizin fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Bu müdrik siyasət Prezident İlham Əliyevin dövlətçilik fəaliyyətində yeni keyfiyyətlə davam etdirilir. Siyasi, iqtisadi sahədə birlik nümayiş etdirən türk dövlətlərinin mədəni, humanitar sahədə əməkdaşlığı gücləndikcə ortaq maraqları birləşdirmək imkanları da genişlənir.

Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşləri, diaspor təşkilat başçılarının iştirakı ilə keçirilən forumlarda səslənən "dildə, fikirdə, əməldə birlik" şüarlarının əməli fəaliyyətdə özünü doğrultması da Heydər Əliyev kimi türkçü ideoloqların varislik irsinə sədaqətdən irəli gəlir.

TürkPA-nın, TÜRKSOY-un yaranması, ortaq əlifbanın, tarixin, televiziya kanalının hazırlanması üçün maraqlı təkliflərin reallaşması istiqamətində işlərin sürətlənməsi bu birliyin əbədiliyi naminə həyata keçirilən tədbirlərdir. TÜRKSOY-un nəzdində Fondun yaradılması, türkdilli xalqların mədəniyyətinin, dilinin, tarixinin araşdırılması və təbliği məqsədilə Beynəlxalq Türk Akademiyasının formalaşdırılması da ümumi maraqları əks etdirən təşəbbüslərdir.

Türk Dövlətləri Təşkilatının yaradılması da bu çağırışları əks etdirir. Azərbaycanın, Türkiyənin, Monqolustanın, Qırğızıstanın müştərək ordusunun yaradılması təşəbbüsü də Mustafa Kamal Atatürk-Heydər Əliyev ideyalarından qaynaqlanan türk birlik və həmrəyliyinin ifadəsidir.

Heydər Əliyevin tarixi Türküstan – Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan ilə, həmin türk regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri sovet dövründə sıx olmuş, sovet dövlətinin süqutundan sonra isə yeni milli ideoloji məzmun kəsb etmişdir.

Azərbaycanın Ümummilli Liderinin türk dünyasının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyasını Azərbaycan Prezidenti İlham Əliyev respublikaya rəhbərlik etdiyi elə ilk aylardan uğurla davam etdirməkdədir. Hansı sosial-iqtisadi, ideoloji sistemin mövcudluğundan asılı olmayaraq, Ulu öndər Heydər Əliyevin fəaliyyəti türk xalqları arasında əlaqələrin konkret şəraitdə inkişafına xidmət etdiyindən böyük tarixi əhəmiyyət daşımışdır.

Ümummilli lider Heydər Əliyevin türk düyasının yüksəlişi barədəki strateji mövqeyini onun aşağıdakı sözləri çox aydın və açıq şəkildə göstərir: "Özününün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni, misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır" (39, s.43).

Azərbaycanın Ümummilli Liderinin türk ünyasınının qarşılıqlı əlaqələrinin yüksəlişi strategiyası bu gün də uğurla davam etdirilməkdədir. Bu gün eyni məqsəd və məram, əqidəsinə sadiqliyi ilə hörmət və ehtiram qazanmış ulu öndərin siyasi kursunun davamçısı Prezident İlham Əliyev tərəfindən ləyaqətlə yerinə yetirilir. Təsadüfi deyil ki, günbəgün türk xalqlarının ədəbiyyat adamları, yazıçıları bir-birinə yaxınlaşır, kömək edir, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradırlar.

44 günlük Vətən müharibəsinin nəticələri, Türk Dövlətləri Təşkilatının fəaliyyətləri, ümumiyyətlə, türk xalqlarının mədəni-iqtisadi və hərbi-siyasi əməkdaşlığının gün keçdikcə daha da genişlənməsi Ulu Öndərin türk dünyasının gələcəyi haqqındakı arzularının həyata keçdiyini göstərir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Xaq qəzeti.
2. İnternet resursları : [Elektron resurs]
3. Milli Kitabxana.

BİOMÜXTƏLİFLİYİN MÜHAFİZƏSİNİN ƏHƏMİYYƏTİ

Yaqub Abbasqulu oğlu Səmədov
tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
yaqub.semedov.93@gmail.com

Giriş

Yer kürəsi özünün gözəlliyi, rəngarəngliyi və zənginliyi ilə, yəni biomüxtəlifliyi ilə diqqəti cəlb edir. Bu biomüxtəlifliyi özündə əks etdirən maddi aləm təbiət adlanır. İnsan cəmiyyəti də təbiətin ayrılmaz tərkib hissəsinə daxildir. Belə ki, biz təbiətin cah-cəlallı, zəngin bitki aləmi ilə yanaşı, vəhşi heyvanları və hətta ən kiçik çoxsaylı həşəratları ilə əhatə olunmuşuq. Deməli, yaşadığımız planetdə canlı, cansız təbiət ali varlıq olan insanlarla, bütövlükdə həmahənglik təşkil edir.

Döğurdan da, dünyada həyatın mövcudluğunun bu günü, sabahı və gələcəyi bu müxtəlifliyin harmoniyasının tənzimlənməsindən keçir. Dünyanın hər hansı bir ərazisində ilk növbədə, təbiətin biomüxtəlifliyinin məhvi böyük fəsadlara, yəni müvafiq ərazidə selin, daşqınların, güclü küləklərin baş verməsinə səbəb ola bilər və ən əsası isə orada oksigen çatışmazlığına da yol açа bilər.

Sözsüz ki, ekosistemlərin tarazlığının bu şəkildə pozulması davamlı olaraq, bütün bəşəriyyəti də məhvə doğru sürükləyər. Ona görə də, insanlar təbiətə xeyirxahlıqla yanaşmalı, onun fanua və florasının mühafizəsini davamlı olaraq səmərəli şəkildə təşkil etməlidir. Unutmamalıyıq ki, biomüxtəlifliyin təməlində yerdə həyatın mövcudluğu və sağlamlığımızın mühafizəsi dayanır. Təbiətdə biomüxtəlifliyi qorumaq bu baxımdan həm dövlətin, həm də hər kəsin vətəndaşlıq borcudur.

Əsas hissə

Təbii sərvətlərin özəyini təşkil edən bioloji müxtəliflik bir sıra mütəxəssislər tərəfindən nəhəng, lakin hələ də tam dəqiqliklə öyrənilməmiş zəngin ehtiyat mənbəyi kimi dəyərləndirilir. Bioloji müxtəliflik həyatın mövcud olduğu bütün məkanlarda, yerin quru səthində, o cümlədən okeanlarda, dənizlərdə və digər müxtəlif su mənbələrində mövcud olan canlıların növ müxtəlifliyini əhatə edir. Təsadüfi deyik ki, BMT-nin Baş Assambleyasının 2000-ci il dekabrın 20-də 55/201 nömrəli qətnaməsi ilə hər ilin 22 may günü - Beynəlxalq bioloji müxtəliflik günü kimi qeyd olunur. Azərbaycan Respublikası da 2000-ci ildən etibarən biomüxtəliflik üzrə Beynəlxalq Konvensiyaya qoşulubdur (Məcidova, 2014,5).

Həmin tarixdən etibarən ölkəmizdə də, bioloji müxtəlifliyin problemlərinin dəyərləndirilməsi, həlli istiqamətində prioritet vəzifələr müəyyənləndiriimiş və onun həlli üçün mühüm tədbirlərin həyata keçirilməsinə start verilmişdi. Artıq qısa müddət ərzində bio-müxtəlifliyin mühafizəsi üzrə dövlət proqramları qəbul olundu və rəsmi sərəncamlar verildi. "Bitkilərin genetik ehtiyatlarına dair" Dövlərt Proqramı, "Ətraf mühitin mühafizəsi üzrə"Milli Fəaliyyət Proqramı və "Ekoloji cəhətdən dayanıqlı sosial-iatisadi inkişafa dair" Milli Proqram bu baxımdan diqqəti cəlb edir (Məmmədov, 14 iyun 2014).

Biomüxtəlifliyin mühafizəsi hal-hazırkı dövrdə də, bir an olsun dövlətimizin diqqətindən kənarda qalmır. Məsələn, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin 23 dekabr 2023-cü il tarixli Fərmanı ilə 2024-cü ilin "Yaşıl Dünya naminə həmrəylik ili" elan edilməsi də ölkəmizdə keçirilməsi nəzərdə tutulan COP29 ərəfəsində biomüxtəlifliyin mühafizəsi və qlobal səviyyədə iqlim dəyişmələrinin qarşısının alınması sahəsində göstərilən təşəbbüslərə verilən ən yüksək dəyərdir (2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili", 23 dekabr 2023).

Biomüxtəlifliyin qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilməzsə, hesablamalara görə, təbii ekosistemlərin məhvi təhlükəli həddə çata bilər. Ekosistemlərin məhvinin riskli həddə çatmaması üçün aşağıdakı istqamətlərdə qabaqlayıcı tədbirlərin görülməsi tələb olunur:

- ekosistemlərin və növlərin mütəmadi şəkildə mühafizəsinin təşkili;
- istifadə olunan resursların davamlılığının qorunub saxlanılması;
- təbii ehtiyatlardan istifadə zamanı səmərəliliyin gözlənilməsi;
- biomüxtəlifliyin mühafizəsinə yetərincə maliyyə dəstəyinin göstərilməsi (Stallard Esme, 27 aprel 2023).

Biomüxtəlifliyin təhlükəli həddə çatmasında antropogen təsirlərlə yanaşı, təbii təkamül proseslərinin də rolu danılmazdır. Alimlərin hesablamalarına görə, CO2, metan və digər istilik yaradan qazlar atmosferdə mövcud olmasaydı, Yer Kürəsində oprta temperaturun illik dərəcəsi -19 °C-yə çatardı. Bu xüsusiyyətlərinə görə həmin qazlara - "istilikxana" qazları adı da verilmişdir. Bu qazlar nə qədər zərərli olsalar da, lakin onların faydalılığı da danılmazdır. Belə ki, bu qazlar günəşdən yerə düşən istiliyi udub saxlamaqla sözün əsl mənasında atmosferdə şəffaf təhlükəsizlik zolağı yaratmaqla, Yerin temperaturun hədsiz dərəcədə soyumasının da qaşısının alırlar. Lakin bu qazların miqdarı atmosferdə artıqca fəsadları daha ağır olur.

Bununla belə, hal-hazırkı dövrə qədər Yer kürəsində mövcud olmuş növlərin, demək olar ki, 98 fazinin nəslinin tamamilə yox olması daha çox təbii proseslər nəticəsində baş vermişdir. Yaşadığımız dövrü də bu prosesə daxil etsək, sözsüz ki, həmin vəziyyət bu gündə davam edir. Ona görə də, XX əsrin II yarısından etibarən, Beynəlxalq səviyyədə nəsli kəsilməkdə olan növlərin qorunub saxlılması, sayının çoxaldılması üçün "Qırmızı siyahı" adlı kitab tərtib edilmiş və onların adları bu kitaba daxil edilərək mühafizə olunur.

Göründüyü kimi, biomüxtəliflik genetik, növ və ekosistem baxımından canlıların müxtəlifliyini özündə ehtiva edir. Hər bir növ ekosistemdə mühüm rola malikdir və onlar qarşılıqlı şəkildə bir-birini tamamlayır. Bu müxtəliflik ekosistemin sağlam, dayanıqlı və balanslı olmasına şərait yaradır.

Unutmaq olmaz ki, bioloji müxtəliflikliyə ciddi təsir edən qlim dəyişikliyi yaşayış şəraitinin ağırlaşmasına, növlərin məcburi yerdəyişməsinə və ekosistemlərin tarazlığının pozulmasına səbəb olur (Təhməz, 31 avqust 2024). Məsələn, temperaturun yüksəlməsi və hədsiz quraqlıq bəzi bitki növlərinin məhv olmasına, bir sıra heyvan növlərinin məskunlaşdığı əraziləri tərk etməsinə və ən əsas isə onların yeni uyğunlaşmadığı ərazilərdə nəslinin kəsilmək təhlükəsi ilə üzbəüz qalmasına gətirib çıxarır. Güclü ekosistemlər və biomüxtəliflik isə bu cür katastrofik iqlim dəyişikliyinin yaranmasına mane olan başlıca amillərdəndir. Yaşıllıqlar, təbii meşələr və dənizlər, həmçinin müxtəlif təbii yaşayış məskənləri əsas istilik effekti yaradan karbon qazını udmaqla demək olar ki, iqlimi tənzimləyir.

Azərbaycan Respublikası təbii sərvətlərinin zənginliyinə görə Qafqazın öncül mövqeyə malik ən böyük ölkəsidir. Bioloji müxtəlifliyinə görə Azərbaycan dünya ölkələri arasında da mühüm yerlərdən birini tutur. Ölkəmiz özünəməxsus zəngin bitki və heyvan növləri ilə də fərqlənir. Müasir Azərbaycanın faunası bütövlükdə 18000 növ canlı ilə təmsil olunur ki, onun da 97 növünü məməlilər təşkil edir. Bu məməlilər də öz növbəsində 7 dəstəyə, 22 fəsiləyə və 39 cinsə bölünür. Faunamıza daxil olan onurğalıların da 700 növü məlumdur. Respublikamızın quş faunası isə 357 növ və yarımnövdən ibarət olmaqla 17 dəstədə birləşir. Azərbaycanın su hövzələrində yaşayan balıqların 10 dəstəyə, 16 fəsiləyə mənsub 100-ə yaxın növ və yarımnövü aşkar edilmişdir. Azərbaycan ərazisi həşəratlar aləmi də zəngindir və burada onun 25 minə yaxın növü aşkar olunmuşdur (Məcidova, 2014, 5).

Ümumiyyətlə, biomüxtəliflik ekosistemlərin tarazlığının mühafizəsində müstəsna rol oynayır. Hər hansı bir növün məhvi sözün əsl mənasında ağır nəticələrə gətirib çıxara bilər və bütün ekoloji sistemə mənfi təsir göstərə bilər.

Biomüxtəliflik insanların həyatının bir hissəsi olmaqla yanaşı, digər zəruri ekosistemlərin qorunub saxlanılmasına da həlledici təsir göstərir. Buraya arılar və digər həşəratlar vasitəsilə məhsulların tozlanmasını, iqlim və su dövranın tənzimlənməsini, qida maddələrinin dövriyyəsini, münbit torpaq qatının əmələ gəlməsini və zərərvericilərə qarşı mübarizəni aid etmək olar. Biomüx-

təlifliyin qorunub saxlanılması kənd təsərrüfatının, ərzaq təhlükəsizliyinin, təmiz havanın və şirin su ehtiyatlarının da başlıca mənbəyi hesab olunur.

Nəticə

Beləliklə, yuxarıda deyilənləri yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, müsair dövrdə baş verən kəskin iqlim dəyişikliyi ekosistemlərin tarazlığının pozulmasına mənfi təsir göstərməklə kifayətlənmir, əksinə həmin mühitə uyğunlaşmayan növlərin də nəslinin kəsilməsi riskini birə-beş artırır. Bu cür proses qarşılığlı şəkildə həm quruda, həm də suda baş verir.

Deməli, Yer kürəsində həyatın gələcəyi təbii məkanların qorunmasından, bərpasından və atmosferə atılan böyük həcmdə karbon qazını miqdarının məhdudlaşdırılmasından asılı olduğundan, bu problemlərin də həlli bu gün tam kəskinliyi ilə bəşəriyyətin qarşısında durur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib – Sərəncam (23 dekabr 2023). ttps://apa.az/sosial/2024-cu-il-yasil-dunya-namine-hemreylik-ili-elan-edilib-806385.APA.

2. Məcidova N. (2014) Biomüxtəliflik – dünyanın mədəniyyət rəngləri metodik vəsait (F. Köçərli adına Respublika uşaq kitabxanası elmi- metodika şöbəsi). Bakı, 2014. 24s.

3. Məmmədov L. (14 iyun, 2014) Bioloji zənginliyin önəmi nədir?. "Zaman" qəzeti. s.13.

4. Stallard Esme. (27 aprel 2023). Biomüxtəliflik nədir, nə üçün vacibdir, onu necə qorumaq olar? https://www.bbc.com/azeri/articles/cjlnz6dkdj7o.BBC.

5. Təhməz L. (31 avqust2024). Faunaya təsir göstərən iqlim dəyişmələri. "Respublika" qəzeti. № 187. s. 5.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİNİN İNKİŞAFI

Məhbubə İbrahim qızı Ələkbərova
Azərbaycan Dillər Universiteti
mahbubaalekberova359@gmail.com

Azərbaycan elminin inkişafı, xüsusilə, müstəqillik dövründə Heydər Əliyevin rəhbərliyi ilə yeni bir mərhələyə qədəm qoymuşdur. Heydər Əliyev müstəqil Azərbaycanın elmi siyasətini müəyyən edərkən, elmin yalnız nəzəri fəaliyyət deyil, həm də ölkənin sosial-iqtisadi inkişafını təmin edən vacib bir sahə olduğunu vurğulamışdır. Onun rəhbərliyi altında elm, təhsil və tədqiqat sahələrində həyata keçirilən islahatlar, ölkənin beynəlxalq aləmdə tanınmasında mühüm rol oynamışdır [1].

Ümummilli Liderin elmi potensialın gücləndirilməsi ilə bağlı verdiyi istiqamətlər, Azərbaycan elmini müasir tələblərə uyğunlaşdırmaq məqsədi güdmüşdür. Heydər Əliyev yalnız ənənəvi elmi sahələrdə deyil, həm də yeni texnologiyalar, innovasiyalar və müasir elmi metodların tətbiqində də ölkəni irəliləməyə yönləndirmişdir. Onun siyasəti nəticəsində elm və texnologiya sahələrində mühüm addımlar atılmış, həm daxili, həm də xarici alimlərlə əməkdaşlıq gücləndirilmişdir. Ən önəmlisi isə, Heydər Əliyevin elmin inkişafını ölkənin ümumi inkişafının ayrılmaz hissəsi kimi görməsidir. O, yalnız akademik elmin gücləndirilməsi ilə kifayətlənməmiş, həm də elmi tədqiqatların iqtisadiyyatla inteqrasiyasını təmin etmişdir. Müasir dünyada elm və iqtisadiyyat arasında sıx əlaqə olduğunu nəzərə alaraq, Heydər Əliyev elmi-tədqiqat fəaliyyətlərinin daha çox praktiki nəticələrə yönəlməsini təmin etməyə çalışmışdır. Bu istiqamətdə müxtəlif sahələrdə texnoloji innovasiyaların tətbiqi, yeni məhsulların istehsalının təşviqi və elm əsaslı sənayenin inkişafına xüsusi diqqət yetirilmişdir.

Həmçinin, Heydər Əliyevin elmi sahədə ən böyük töhfələrindən biri də beynəlxalq elmi əməkdaşlıq məsələsi olmuşdur. Onun rəhbərliyi ilə Azərbaycan bir çox inkişaf etmiş ölkələrlə elmi sahədə qarşılıqlı əməkdaşlıq qurmuş, beynəlxalq elmi təşkilatlara qoşulmuş və dünya elmi ictimaiyyətinə inteqrasiya olunmuşdur. Bu, yalnız Azərbaycanın elmi potensialını artırmaqla qalmamış,

həm də Azərbaycan alimlərinin dünya səviyyəsində tanınmasına, elmi mübadilələrin genişlənməsinə şərait yaratmışdır [2].

Eyni zamanda, Heydər Əliyevin siyasəti ilə ölkədə gənc alimlərə dəstək verilməsi və onların elmi fəaliyyətlərini inkişaf etdirmək üçün müvafiq şəraitin yaradılması vacib addım olmuşdur. Gənc alimlərin təşviq edilməsi, onların beynəlxalq səviyyədə tanınması üçün proqramların həyata keçirilməsi, təhsil və elmin birləşdirilməsi bu sahədə əsas hədəflərdən olmuşdur. Gənc nəsil elmi potensialının inkişafı, Azərbaycanın gələcək elmi uğurlarını təmin etmək üçün əsas komponentlərdən biri olmuşdur.

Heydər Əliyevin elmin inkişafına verdiyi töhfələr, yalnız keçmişin deyil, həm də gələcəyin elmi bünövrəsini təşkil edir. Onun rəhbərliyi ilə formalaşan müasir elmi infrastruktur, elm və təhsil sahəsində davamlı islahatlar Azərbaycanın beynəlxalq elmi mövqeyini gücləndirmiş və ölkənin gələcək inkişafı üçün möhkəm təməl yaratmışdır. Bu siyasət nəticəsində, Azərbaycan elmi bu gün də həm regional, həm də qlobal səviyyədə öz mövqeyini qoruyub saxlamaqdadır. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev, Azərbaycanın elm və təhsil sahələrinə olan münasibəti radikal şəkildə dəyişdirmişdir [3]. Bu dövrdən etibarən elm və texnologiya Azərbaycanın sosial-iqtisadi inkişafının təməl prinsiplərindən biri olmuşdur. Heydər Əliyev elmi tədqiqatların inkişafı və müasir elmi strukturların yaradılması üçün bir sıra mühüm qərarlar qəbul etmişdir. Onun rəhbərliyi ilə Azərbaycan elmi, həm müasir tələblərə uyğunlaşdırılmağa, həm də milli dəyərlər əsasında inkişaf etməyə başlamışdır.

Heydər Əliyevin elmi siyasətinin əsas istiqamətlərindən biri elmi-tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi olmuşdur. O, institutların modernləşdirilməsi və elmi fəaliyyətin keyfiyyətinin artırılması üçün müasir avadanlıqlarla təchiz olunmasını təmin etmişdir. Eyni zamanda, elmi idarəetmə mexanizmləri təkmilləşdirilmiş, elmi əməkdaşlıq və məlumat mübadiləsi daha geniş şəkildə həyata keçirilmişdir. Bu dəyişikliklər elmi tədqiqatların praktiki sahəyə tətbiqini sürətləndirərək, Azərbaycanın elmi sahədə beynəlxalq miqyasda daha çox tanınmasına səbəb olmuşdur.

Heydər Əliyev təhsilin yalnız nəzəri biliklərlə məhdudlaşmamalı, həm də iqtisadiyyatın ehtiyaclarına cavab verən praktik elmi tədqiqatlarla əlaqələndirilməli olduğunu vurğulamışdır. Onun təşəbbüsü ilə elmi və təhsil müəssisələri, sənaye və kənd təsərrüfatı sahələri ilə sıx əməkdaşlıq etməyə başlamışdır. Bu, elmi nəticələrin praktiki tətbiqi üçün əlverişli şərait yaratmış və həmçinin ölkənin iqtisadi inkişafını sürətləndirmişdir [5].

Heydər Əliyev, Azərbaycanın elmi gələcəyini gənc nəsildə görürdü. Ona görə də, o, gənc alimlərin yetişdirilməsi və onların elmi fəaliyyətlə məşğul olmaları üçün xüsusi şərait yaratmışdır. Onun rəhbərliyi ilə universitetlər və elmi müəssisələr gənc alimləri dəstəkləmək məqsədilə müxtəlif proqramlar həyata keçirmişdir. Bu da Azərbaycanın elmində yeni intellektual təbəqənin formalaşmasına, beynəlxalq səviyyədə tanınan alimlərin yetişməsinə şərait yaratmışdır.

Heydər Əliyev, Azərbaycanın elmi fəaliyyətini yalnız daxili bazarla məhdudlaşdırmayaraq, beynəlxalq aləmdə də tanıtmağa çalışmışdır. Onun rəhbərliyi ilə Azərbaycan, dünya elmi ictimaiyyəti ilə əməkdaşlığı genişləndirmiş və beynəlxalq konfranslar, seminarlar keçirərək, Azərbaycan elmini dünya səhnəsinə təqdim etmişdir. Bu, həm də Azərbaycan alimlərinin beynəlxalq səviyyədə tanınmasına və ölkənin elmi nüfuzunun artmasına gətirib çıxarmışdır.

1991-ci ildə müstəqillik əldə edildikdən sonra Azərbaycan yeni çağırışlarla üz-üzə qalmışdır. Bu dövrdə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə elmi idarəetmə yenidən formalaşdırılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası, ölkənin elmi mərkəzi kimi qorunub saxlanılmış və onun fəaliyyətinin müasirləşdirilməsi üçün bir sıra islahatlar həyata keçirilmişdir. Bu islahatlar nəticəsində Azərbaycanın elmi sektoru yeni, güclü və müasir dövrün tələblərinə uyğun bir quruluşa malik olmuşdur [6].

Heydər Əliyev yalnız dövrünün elmi tələblərinə cavab verməklə kifayətlənməmiş, həm də Azərbaycanın elmi gələcəyini formalaşdırmışdır. Onun rəhbərliyi ilə Azərbaycanın elm və təhsil sisteminin bünövrəsi qoyulmuş, müasir və davamlı inkişaf üçün zəruri olan əsaslar yaradılmışdır. Elmin cəmiyyətin bütün sahələri ilə inteqrasiyası, gənc nəsil alimlərinin yetişdirilməsi, beynəlxalq əməkdaşlıq və praktiki elmi tədqiqatların təşviqi Heydər Əliyevin elmi inkişafla bağlı irsinin əsas komponentləridir.

Heydər Əliyevin Azərbaycan elminə verdiyi töhfələr bu gün də davam etməkdədir. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar, elmin yalnız nəzəri sahə olaraq deyil, həm də ölkənin iqtisadi və sosial inkişafında mühüm rol oynayan praktiki bir amil olaraq inkişaf etməsini təmin etmişdir.

Ulu Öndərin təşəbbüsü ilə formalaşan elmi infrastruktur və beynəlxalq əlaqələr Azərbaycanın elmi potensialını artırmış və bu potensialın gələcəkdə daha da inkişaf etməsi üçün güclü bir əsas yaratmışdır. Bu baxımdan, Heydər Əliyevin Azərbaycan elminin inkişafına verdiyi töhfələr yalnız keçmişin deyil, həm də gələcəyin elmi bünövrəsini təşkil edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Məmmədov, F., Qasımov, A. Gənclərin beynəlxalq təcrübə əldə etməsinin əhəmiyyəti, Təhsil və İnkişaf: Beynəlxalq Təcrübə, Bakı: Təhsil Nazirliyi, 2018. s.17-86
2. Rəhimov, M. İnnovasiya və gənclərin sosial-iqtisadi inkişafı, İnnovasiyalar və Gənclər: Yeni Perspektivlər, Bakı: Nəşriyyat Evi, 2017.
3. http://www.anl.az/down/meqale/ses/2014/aprel/364582.htm
4. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
5. https://modern.az/aktual/130329/heyder-eliyev-ve-iqtisadi-islahatlar/
6. https://mdu.edu.az/wp-content/uploads/2022/10/MATERIALLAR_H.Eliyev_4-5-may-2022.pdf
7. http://www.ameanb.az/bookspdf/ssvzc0v.pdf

HƏRBİ İNTİZAMIN PSİXOLOJİ ASPEKTLƏRİ

Aytac Günəş qızı Əliyeva
Heydər Əliyev adına Hərbi İnstitut
aytacaliyeva708@gmail.com

Giriş

Hərbi qulluqçuların normativ davranışlarının artırılaraq tələb olunan səviyyədə saxlanılması komandirlər və tabeçilikdə olanların davamlı birgə fəaliyyətidir. Hərbi kollektivdə şəxsi heyətin nizamnaməyə uyğun qarşılıqlı münasibətləri, eyni zamanda intizama mənfi təsir edənlərin fəaliyyət formaları birlikdə bölmənin intizam sistemini təşkil edir. Tabelikdə olanlar tərəfindən müəyyənləşdirilmiş norma tələblərinə ciddi və dəqiq riayət olunması ***intizam*** adlanır [1].

İntizam problemi bəzi hallarda hərbi qulluqçuların sadə davranış pozuntusu ilə bağlıdırsa, digərlərində nizamnamə tələblərinə qarşı çıxmaq, hərbi fəaliyyəti, qarşılıqlı münasibətləri pozmaqla müşahidə olunur. Gündəlik müşahidələr və xüsusi tədqiqatlar göstərir ki, bəzi hərbi qulluqçularda nizam-intizam problemi şəxsi dəyərlərin strukturunda əsas mövqe tutsa da, müəyyən təşkilati məsələləri, insanların birgə fəaliyyətinin qaydaları mahiyyəti və əhəmiyyətini dərk etmək səviyyəsidə yetərli dərəcədə deyil.

Sosial təfəkkürü inkişaf etməmiş hərbi qulluqçu üçün intizam tələbləri anlaşılmaz və ya arzuolunmazdır. Belə ki, hərbi intizam sahəsində psixoloji problemlərin ümumi sosial mənbəyi cəmiyyətdə qanuna, ədalətə hörmətsizlik, ictimai asayişin qorunmasına yönəlmiş tədbirlərin rədd edilməsidir. Bu cür sosial-hüquqi şüura malik olan insanların əsas xüsusiyyəti ümumi təşkilatlanma və təhlükəsizlik üçün öz azadlıq və tələbatlarına müəyyən məhdudiyyətləri qəbul etməməsidir.

1. Hərbi intizamın psixoloji mexanizmləri təşkil edən əsas komponentlər.

Hərbi intizamın psixoloji mezanizmləri *emosional, iradi və intellektual* komponentlərin vəhdətindən ibarətdir [2]. Bu komponentlərə aid olan amillər hərbi intizamın xarakterinə təsir gösrərir. Hərbi intizamın əsas motivasiyaverici qüvvələrini həmin komponentlərə aid olan amillərin fonunda ayrı-ayrılıqda nəzərdən keçirək.

Hərbi intizamın *emosional* komponenti şəxsi heyətin davranış və qərarlarının psixoloji və emosional təsirlərini əks etdirir. Emosional komponent, hərbi intizamın qorunması və səmərəli

həyata keçirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Əsas emosional komponentlər aşağıdakılardır:

1. Emosional intellekt hərbi intizamın qorunmasında mühüm rol oynayır. Hərbi qulluqçular öz emosiyalarını anlamağı, idarə etməyi və başqalarının emosiyalarına empatiya hissi duymağı bacarmalıdırlar. Emosional intellekt sağlam qarşılıqlı münasibətləri formalaşdırır, komanda daxilində harmoniyanı qoruyuraq hərbi intizamı daha da gücləndirir.

2. Fəxr və şərəf. Hərbi xidmətə qarşı duyulan fəxr və şərəf hissi, hərbi intizamın qorunmasında vacib amillərdəndir. Bəzən hərbi qulluqçular həyati təhlükə ilə üzləşməyə baxmayaraq, vətəni qorumaq, böyük bir məqsəd uğrunda mübarizə aparmaq, çətinlikləri öz üzərlərinə götürmək və tapşırıqları yerinə yetirmək hissi onları fədakarlıq etməyə təşviq edə bilər.

3. Həmrəylik və kömək emosional komponent kimi hərbi intizamın qorunmasında mühüm rol oynayır. Komanda üzvləri bir-birinə dəstək olaraq, eyni məqsədə xidmət etdikcə, həmrəylik güclənir və bu da intizamı artırır. Tabelilik münasibətləri, qarşılıqlı etimad və bağlılıq, intizamın qorunmasına və hərbi fəaliyyətin düzgün yerinə yetirilməsinə təkan verir. Hərbi qulluqçular xidmətə olan məsuliyyətlərini başa düşməli, tapşırıqlarını yerinə yetirməli və digər komanda üzvləri ilə əməkdaşlıq etməlidirlər. Bu bağlılıq həm də hərbi xidmətin məqsədinə olan inamı gücləndirir və hərbi qulluqçuların özlərini komandanın bir hissəsi kimi hiss etmələrinə zəmin yaradır.

4. Qələbə və uğurların qeyd edilməsi. Emosional komponent kimi hərbi qulluqçuların öz bacarıqlarına və komanda işinə olan inamını artırır. Bu tip müsbət emosiyalar, hərbi intizamı gücləndirir və gələcək əməliyyatlarda daha yüksək motivasiya ilə işləməyə təkan verir.

Emosional komponenti təskil edən amillər hərbi xidmətin bir hissəsi olaraq, hərbi intizamın dayanıqlığı və effektivliyini təmin edir. Hərbi qulluqçuların və komandanın emosional vəziyyəti, həm şəxsi inkişaf, həm də kollektivin uğuruna təsir edir. Buna görə də emosional komponentin düzgün idarə edilməsi olduqca vacib bir məsələdir.

Hərbi intizamın *iradi komponenti* hərbi quluqçuların iradəsi və daxili motivasiyası ilə əlaqəlidir. Bu komponent, hərbi qulluqçuların tabeolma, əmrlərə riayət və komandanın məqsədinə xidmət etmələri ilə bağlıdır. Hərbi intizamın iradi tərəfi, insanın *özünü idarəetmə* bacarığı, *özünü məhdudlaşdırma* və *hədəfə yönəlmə* problemlərilə əlaqəlidir.

Aşağıda bu komponentin əsas elementləri göstərilmişdir: [3].

*1. İradə gücü və özünü idarəetmə***.** Hərbi intizamın əsas iradi komponentlərindən biridir. Hərbi qulluqçular sərt tələbləri yerinə yetirmək və mürəkkəb şəraitdə belə özlərini idarə etmək qabiliyyətinə malik olmalıdırlar. Hərbi xidmətin fiziki və psixoloji yükü ilə üzləşən hərbi qulluqçuların iradəsi, onların əmr və qaydalara riayət etməsində, çətinliklərə qarşı müqavimət göstərmələrində əsas rol oynayır. *Özünü idarəetmə* bacarığı, hərbi qulluqçuların şəxsi ehtiyac və arzularını, xidmətin tələblərinə uyğun olaraq, tənzimləmələrini nəzərdə tutur. Bu, həm də məsuliyyətli qərarlar qəbul etməyi və təcili vəziyyətlərdə reaksiya göstərməklə əlaqədardır.

2. Tabeçilik və əmrlərə riayət etmə.Tabeçilik hərbi intizamın ən mühüm iradi komponentlərindəndir. Hərbi qulluqçular komandir və rəislərin əmrlərinə şərtsiz tabe olmalıdırlar. Bu, yalnız tapşırıqların yerinə yetirilməsi deyil, həm də komandanın məqsədinə xidmət etməkdə və kollektiv şəkildə fəaliyyət göstərmək deməkdir. *Əmrlərə riayət etmək*, əsgərin daxili motivasiyasının və şəxsi iradəsinin əsas əlamətlərindəndir. Bəzən bu, şəxsi rahatlıq və maraqlardan imtina etməklə komanda məqsədini üstün tutmaq deməkdir.

3. Əzm və mübarizə ruhu. Əzm hərbi intizamın iradi komponentidir. Hərbi qulluqçular çətinliklərə, fiziki yorğunluğa və emosional təzyiqlərə baxmayaraq, yüksək səviyyədə əzm göstərməlidir. Çünki bu, ekstremal şəraitdə iradə gücünü qorumağa və xidmətin tələblərini yerinə yetirməyə kömək edir. *Mübarizə ruhu,* həm fərdi, həm də komanda şəklində mübarizə aparmağa, nəticə əldə etməyə imkan verən əsas faktordur.

4. Daxili intizam və özünə nəzarət. Hərbi intizamın vacib iradi komponentlərindəndir. Hərbi qulluqçular, özlərini daim nəzarətdə saxlamalı və hər bir vəziyyətə uyğun düzgün davranış göstərməlidirlər. Bu, həm sosial davranışları, həm də xidmətin qaydalarına riayət etməyi əhatə edir ki, hərbi fəaliyyətdə, özünənəzarət, stressli və gərgin vəziyyətlərdə də soyuqqanlılığı qorumağa, həyəcan və qorxuya baxmayaraq, iradəni itirməməyə kömək edir.

5. Bərabərlik və kollektiv işə uyğunlaşma da hərbi intizamın iradi tərəflərindəndir. Hərbi qulluqçular, fərdi maraqlarını bir kənara qoyaraq, komanda məqsədləri üçün fəaliyyət göstərməyi bacarmalıdırlar. Hərbi xidmətin əsas prinsipi komanda şəklində işləməyi tələb edir ki, burada mühüm məsələ hər bir əsgərin iradəsinin komandanın ümumi məqsədinə xidmət etməsidir. *Kollektiv işə uyğunlaşma*, hərbi qulluqçunun öz iradəsi və fərdi üstünlüklərini birləşdirərək, komandanın gücünə qatılmasını təmin edir.

Hərbi intizamın iradi komponenti hərbi qulluqçuların daxili gücü, özünü idarəetmə bacarığı və ümumi məqsədə doğru yönəlməsilə əlaqəlidir. Bu komponent, hərbi qulluqçu və komandaların yüksək nəticələr əldə etmələrini təmin edərək hərbi intizamın dayanıqlı və davamlı olmasına əsas verir.

Hərbi intizamın *intellektual komponenti*, bu prosesə yalnız fiziki və emosional deyil, həm də zehni cəhətdən hazırlıqlı olmanı təmin edir. Bu komponent aşağıdakı əsas istiqamətləri əhatə edir:

1. ***Qərar qəbuletmə və analitik düşüncə*** . Hərbi şəraitdə sürətli və düzgün qərar qəbul etmə həyati əhəmiyyət daşıyan məsələdir. Komandirlər və tabelikdə olanlar situasiyanı təhlil etməyi, riskləri dəyərləndirməyi və problemin optimal həll yollarını tapmağı bacarmalıdırlar. Əmrlərin aydın olmaması və ya qeyri-müəyyənliyi, hərbi qulluqçuların nə etməli olduqları ilə bağlı qərarsızlıq yaşamalarına yol açaraq intizamın pozulmasına və qaydalara riayət etməməyə səbəb ola bilər [4].

2. ***Hərbi strateji düşüncə və planlaşdırma.*** İntellektual intizam çərçivəsində hərbi qulluqçular döyüş strategiyaları, taktiki əməliyyatlar və uzunmüddətli planlaşdırma sahəsində biliklərə malik olmalı, tarixi döyüşlər, müasir müharibə nəzəriyyələri və psixoloji döyüş üsulları dərindən təhlil olunub öyrənilməlidirlər.

3. ***Liderlik və komanda idarəetməsi*.** Komandirlər effektiv ünsiyyət bacarıqlarına, motivasiya üsullarına və ekstremal vəziyyətlərdə liderlik keyfiyyətlərinə sahib olmalıdırlar. Çünki hərbi intizamın intellektual aspektləri, liderlərin stress altında düzgün qərarlar verməsini və komandalarını idarə etməsini tələb edir.

Bu komponent hərbi intizamın yalnız sərt qaydalardan ibarət olmadığını, eyni zamanda yüksək intellektual hazırlıq tələb etdiyinin sübutudur.

Ümumilikdə intizam - onun keyfiyyəti və hazırkı vəziyyəti sistemin fəaliyyətinin dinamik nəticəsidir. Deviant (normadan kənar) davranışın tədqiqi göstərir ki, sosial cəhətdən zərərli və asosial həyat tərzinə üstünlük verən müəyyən kateqoriya insanlar davranış normalarını öz rifahının təminatı kimi deyil, ona gedən yolda maneə kimi görürlər

Hərbi intizamın pozulması səbəblərinə aşağıdakı amillər aid ola bilər.

1. Qorxu, stress və təzyiq hərbi fəaliyyət zamanı hərbi qulluqçuların çox vaxt qarşılaşdığı vəziyyətlərdir. Bu, həyat və ölüm məsələləri ilə üzləşməklə bağlı meydana çıxaraq hərbi kollektivin fəliyyətinə həm müsbət (motivasiya), həm də mənfi (psixoloji problemlər və intizamın pozulması) təsir göstərə bilər. Hərbi xidmətin təbiəti, fəaliyyətlərin mürəkkəbliyi bəzən hərbi qulluqçularda yüksək emosional təzyiq, psixoloji pozuntular depressiya, post-travmatik stress və s yaradır. Nəticədə hərbi qulluqçularının mənəvi yüklənmə və ya fiziki zədələnməsi, habelə ölüm riski və təhlükə altında olmaqla bağlı narahatlıq və qorxu hissi onların qərarlarına təsir edərək, bəzən intizama qarşı sərt reaksiyalar və ya vəziyyətin nəzarətindən çıxmasına səbəb olur [5].

2. Liderlik faktoru. Liderlər tabelikdə olanlara nümunə olmalı, düzgün istiqamət göstərməli və hər bir tapşırıqda aydın və konkret əmr verərək ədalətli mövqe tutmalı, ayrı-seçkilik etməməlidirlər. Əmrlər aydın və dəqiq olmalıdır ki, başa düşülüb vaxtında icra olunsun. Çünki hərbi qulluqçular liderlərinə duyduqları hörmət və etimad əsasında əmrləri yerinə yetirir onların emosional dəstəyilə intizamı qorumağa kömək edirlər. İnamsızlıq və narazılıq, liderlərə və ya hərbi xidmətin məqsədlərinə qarşı mənfi psixoloji hallardır. Bəzən komandirlərin qeyri-peşəkarlığı və ya ədalətsiz mövqeyi, tabeçilikdə olanların intizama qarşı etiraz etmələrinə və ya əmrləri pozmalarına səbəb olaraq, psixoloji durumu daha da ağırlaşdıra bilər [6].

3. Tənhalıq və sosial dəstək problemi. Uzun müddət xidmət edən hərbi qulluqçularda ailə və dostlardan ayrılma, **sosial izolyasiya** tək qalmaq hissi, psixoloji təzyiq yaradaraq hərbi qulluqçunun psixoloji sağlamlığına təsir edir. Qaydalara riayət etməmə intizam pozuntularına səbəb ola bilər.

Amma düzgün sosial dəstək və müsbət qarşılıqlı münasibətlər, mənəvi psixoloji durumu yaxşılaşdıraraq, intizamı qorumağa kömək edir.

4. Fərdi və kollektiv psixoloji təzyiq hərbi intizamın qorunmasında böyük rol oynayır. Hərbi qulluqçular həm fərdi, həm də kollektiv şəkildə yüksək təzyiq altında fəaliyyət göstərirlər. Bu təzyiqin düzgün idarə olunmaması emosional pozulmalara və intizamın itirilməsinə səbəb ola bilər. Lakin təzyiq müsbət mənada da, hərbi qulluqçuları daha yaxşı fəaliyyət göstərməyə və kollektivi güclü bir şəkildə dəstəkləməyə sövq edə də bilər.

5. Motivasiya və məqsədə yönəlmənin olmaması. Hərbi qulluqçuların daxili motivasiyası, onlara əmrləri yerinə yetirmək və çətin vəziyyətlərə qarşı dayanıqlılıq göstərmək üçün güc verir. Motivasiya həm şəxsi, həm də ümumi kollektivin məqsədindən irəli gələ bilər. *Məqsədə yönəlmə* hərbi qulluqçuların hərbi xidmətin məqsədinə, milli vəzifələrinə və komandalarının uğuruna fokuslanmasını tələb edir. Hər bir hərbi qulluqçu, xidmətinin məqsəd və dəyərini anlamalı, bu məqsəd uğrunda fəaliyyət göstərməyi bacarmalıdır. **Motivasiya çatışmazlığı baş verdikdə**, zədələndikdə və ya xidmətin məqsədinə inam itdikdə, intizamı pozmağa meyl baş verə bilər. Bu problem xüsusilə uzun müddət xidmət edən və işin monotonluğuna tab gətirə bilməyən hərbi qulluqçularda daha çox müşahidə edilir. Buna görə də hərbi qulluqçuların psixoloji vəziyyətinə diqqət yetirilməli, onların yaşadıqları stress və narahatlıqlar aşılmalı, psixoloq və digər dəstək xidmətlərlə yardımlar təmin edilməlidir.

Hərbi intizamın pozulmasına qarşı mübarizə aparmaq, həm şəxsiyyətin inkişafı, həm də ümumi hərbi effektivlik baxımından olduqca vacibdir. Hərbi intizamın qorunması üçün bir neçə strateji yanaşma və qaydalar tətbiq oluna bilər. Bu qaydalar həm rəhbərlik həm də hər bir hərbi qulluqçular tərəfindən riayət edilməli olan bir sıra prinsiplərdən ibarətdir. Əsas mübarizə qaydaları kimi qeyd oluna bilən amillərə diqqət edək:

1. Qayda və qanunların sərt tətbiqi. Hərbi fəaliyyətdə nizamnamə qaydalarına riayət etmək çox vacibdir. Hər hansı bir pozuntuya qarşı sərt cəzalar tətbiq edilməlidir. Lakin bu cəzaların ədalətli və düzgün şəkildə tətbiq edilməsi də vacibdir. Hər bir intizam pozuntusu dərhal təhlil olunmalı və vəziyyətə uyğun müvafiq addımlar atılmalıdır. Hərbi intizamın qorunması üçün hərbi qulluqçulara qanunlara necə riayət etməyi öyrətmək lazımdır. Bu qaydalar, komandaların düzgün fəaliyyət göstərməsi üçün əməkdaşlıq və əzm yaratmağa kömək edə bilər [7].

*2. Hərbi təlimlər və təhsilin davamlılığı***.** Hərbi qulluqçuların peşəkar səviyyəsini artırmaq üçün daim təlimlər keçirilməli, onların həm fiziki, həm də əqli hazırlığına diqqət yetirilməlidir. Belə tədbirlər, hərbi qulluqçuların özlərini güclü hiss etmələrini və qarşıya qoyulmuş tapşırıqları daha effektiv yerinə yetirmələrini təmin edir.

3. Əməkdaşlıq və komanda işi. Hərbi fəaliyyətdə əməkdaşlıq, komandada işin düzgün və effektiv yerinə yetirilməsi çox vacibdir. Komanda şəklində işləməyi bacaran əsgərlər bir-birinə dəstək ola bilərlər, bu isə hərbi intizamın qorunmasına və pozulmaların qarşısının alınmasına kömək edir. Komanda ruhunu gücləndirmək üçün kollektiv təlimlər və fəaliyyətdə birlik yaratmaq əhəmiyyətlidir.

*4. Düzgün mükafatlandırma və təriflər***.** Hərbi qulluqçuların hərbi intizamı qorumağa və yüksək nəticələr əldə etməyə həvəsləndirilməsi üçün mükafatlar və təriflər olduqca vacibdir. Xidmət yoldaşlarının uğurlarını tanımaq və onlara təşəkkür etmək, motivasiyanı yüksəldir və digər hərbi qulluqçuları müsbət nümunə götürməyə təşviq edir. Hərbi qulluqçuların davranışlarını mütəmadi olaraq qiymətləndirmək və onların nə qədər intizamlı olduqlarını müəyyən etmək mühüm məsələdir. Bu qiymətləndirmələr əsasında təhlillər aparılmalı və lazımi təkmilləşdirmələr həyata keçirilməlidir.

Qeyd olunan qaydalar hərbi intizamı qorumağa və intizam pozuntularının qarşısını almağa kömək edir. Hərbi xidmətin effektivliyi və müvəffəqiyyəti çox vaxt hərbi intizamın düzgün idarə olunmasından asılıdır.

2. İntizam probleminin həllidə psixoloqun fəaliyyəti və psixoloji dəstəyin rolu.

İntizamın psixoloji problemlərinin intuitiv-empirik həll edilməməsinin səbəblərindən biri də ordu və donanmada peşəkar psixoloqların və müvafiq xidmətlərin (bölmələrin) azlığı, bəzi zabit-

lərin, şəxsi heyəti anlamaq və qiymətləndirmək üçün psixoloji biliklərinin kifayət qədər olmaması ilə bağlıdır.

Psixoloqların intizam problemlərinin həllinə yönəlmiş fəaliyyəti intizamın möhkəmləndirilməsi işinə psixoloji dəstək sisteminin əsasını təşkil edir.

Peşəkar hərbi psixoloqlar və psixoloji xidmət strukturları tərəfindən həll edilən psixoloji dəstəyin vəzifələri aşağıdakılardır [8] .

1. Davamlı monitorinqlə (izləmə) hərbi qulluqçular və bölmələr arasında intizam dinamikasının qiymətləndirilməsi, həll olunan vəzifələr nəzərə alınmaqla, ümumilikdə, xidmət şəraitinin dəyişdirilməsi. Bu, əsas tendensiyaları izləmə əlverişli və arzuolunmaz dəyişiklikləri vaxtında proqnozlaşdırmağa imkan verir.

2. Xidmətə yenicə başlayanların nizam-intizamının başlanğıc səviyyəsinin diaqnostikası, fərdi üslub və normativ davranış təcrübəsinin qiymətləndirilməsi, intizam perspektivinin proqnozlaşdırılması, erkən psixokorreksiya tədbirlərinə ehtiyac və metodologiyanın müəyyən edilməsi. Göründüyü kimi, belə fəaliyyətlər, gənc hərbi qulluqçuların öyrənilməsi prosesini konkretləşdirən və zənginləşdirən xüsusi tapşırıqdır. Onun həlli xidmətin başladığı ilk günlərdən intizamı məqsədyönlü şəkildə təşkil etməyə, çoxsaylı səhvləri aradan qaldırmağa imkan verir ki, bu da intizam tərbiyəsində və şəxsi inkişafda müsbət nəticələrə səbəb olur.

3. Nizam-intizamın möhkəmləndirilməsi üzrə nəzərdə tutulan tədbirlərin psixoloji ekspertizası və səmərəliyinin qiymətləndirilməsi üzrə zabitlərin gündəlik intizam fəaliyyətinin təhlili. Psixoloqlar bu işin nə dərəcədə səriştəli aparıldığına, hansı psixoloji problemlərin həllinin tapdığına hansının təsirsiz qaldığına və daha da intensivləşdiyinə xüsusi diqqət yetirirlər.

4. Sistematik fərdi və qrup psixokorreksiyası – hərbi davranış normalarına pozmağa meylli olan hərbi qulluqçularla və nizamnamə qaydalarının qorunmasında çətinliklər müşahidə olunan bölmələrdə hərbi psixoloqun xüsusi işi. Bu iş psixoloqdan intizam yönümlü psixoloji təlimin təşkili və aparılmasında müəyyən ixtisasa və təcrübəyə malik olmasını tələb edir.

5. Ehtimal olunan psixoloji səbəblərin müəyyən edilməsi və qiymətləndirilməsi. Bu məqsədlə kobud intizam xətalarının, bütün növ insidentlərin və bədbəxt hadisələrin psixoloji ekspertizası. Bəzi hallarda həm ayrı-ayrı hərbi qulluqçuların, həm də komandaların nizam-intizam vəziyyətinə mənfi təsirini aradan qaldırmaq üçün tədbirlər hazırlamaq zəruridir.

6. Müəyyən intizam problemləri, intizam xətaları, habelə müxtəlif münaqişələr, bölmənin qeyri-sağlam psixoloji iqlimi, iğtişaşlara və nizam-intizamın pozulmasına səbəb ola biləcək digər hallara görə stress vəziyyətində olan hərbi qulluqçulara təcili fərdi psixoloji yardım.

7. Gələcək - məişət şəraiti, şəxsi heyətin günün nizam qaydaları, tədris prosesinin məzmunu və strukturu, qarovul və daxili xidmətlərin ümumi psixoloji qanunlara xüsusilə də normativ davranış qaydalarına uyğunlaşdırmaqla rasionallaşdırılması.

8. Fərdi idarəetmə konsultasiyası, mühazirə hazırlığı, intizam-psixoloji təlim, işgüzar oyunlar və s. metodlardan istifadə etməklə zabitlərin intizam və psixoloji səriştəsinin daha da artırılması.

9. Mövcud iş şəraitində öhdəsindən gəlmək mümkün olmayan xroniki intizam problemlərinin həllinə, sistematik çatışmazlıqların aradan qaldırılmasına yönəlmiş uzunmüddətli (perspektivli) proqram və planların hazırlanması.

10. İntizam sahəsində elmi-tədqiqat işləri, ümumilikdə, intizamın təkmilləşdirilməsi yolları və fərdi intizam problemlərinin həlli üsullarının yaradıcı işlənilməsi.

Hərbi intizamın psixoloji təminatının məzmununu təşkil edən bu xüsusi işlər hərbi psixoloqun gündəlik qayğılarına daxildir.

Hərbi nizama psixoloji dəstək hərbi komandanlığın müxtəlif səviyyələrində fərqli şəkildə həyata keçirilir: bölmənin və ya birləşmənin səlahiyyətlərindən asılı olaraq intizam və psixoloji dəstəyin məzmununda üç cəhəti ayırd etmək olar [9] .

Birinci, aşağı səviyyə- psixoloqun fərdi və mikroqrupun intizam səviyyəsinə təsiri. Psixoloji dəstəyin aşağı səviyyəsidir və konkret nəticələrlə birbaşa bağlıdır. Burada ilk növbədə fərdi psixoloji problemlər həll edilir.

İkinci, orta səviyyə - psixoloqun müəyyən kateqoriyalı hərbi qulluqçular, bölmələrin, intizam vəziyyətinə müdaxiləsi. Burada psixoloqun işi birləşmiş xarakter daşıyır. Bu komanda səviyyəsində

hərbi psixoloqun ən vacib peşəkar keyfiyyətidir. Bölmələrdə intizamın psixoloji əsaslarının xüsusiyyətləri və dinamikası, konkret problemlərin məzmunu və yayılma dərəcəsi haqqında məlumat toplamaq, psixoloji və sosioloji məlumatları emal etməklə reallaşır.

Üçüncü, yüksək səviyyə - analitik, planlaşdırma, təşkilati və metodik iş, qoşunlarda toplanmış təcrübənin ümumiləşdirilməsi və genişmiqyaslı tədbirlərin hazırlanması Bütövlükdə Silahlı Qüvvələrinin intizam sisteminin təkmilləşdirilməsi üçün genişmiqyaslı tədbirlərin hazırlanmasına diqqət yetirilməsilə xarakterizə olunur. Bu səviyyədə intizam və psixoloji məsələlər üzrə elmi tədqiqatların həyata keçirilməsi üçün zabitlərin hazırlanması intizam fəaliyyətinə psixoloji dəstək sistemində ən əsas rol oynayır.

Bəzən peşəkarlıq səviyyəsinin aşağı olması səbəbindən (hazırda tam ştatlı psixoloqların təxminən 90 %-nin xüsusi təhsili yoxdur) psixoloq, komandir və ya komandir müavini kimi hərbi intizam məsələləri ilə məşğul olur. Şəxsi heyətin intizam vəziyyətini öyrənib, müəyyən nəticələrlə təkliflər irəli sürərək, intizamsız hərbi qulluqçulara şəxsi təsir göstərir. Bu zaman o, mühüm psixoloji amilləri nəzərdən qaçıraraq, intuitiv olaraq, onları ikinci dərəcəli, proses kimi qiymətləndirir [10] .

Başqa bir məqam hərbi strukturlarda intizamın yaxşılaşdırılması üçün bəzi praktik hərbi psixoloqlar tərəfindən edilən ümumi səhv, qeyri-spesifik problemləri həll etmək üçün nəzərdə tutulmuş diaqnostik test, anket, metod və prosedurların istifadəsidir. Belə fəaliyyət, çox vaxt yanlış nəticə və tövsiyələrə səbəb olmaqla bərabər vaxt itkisinə çevrilən qeyri-peşəkarlıqdan başqa bir fəaliyyət deyil. İstifadə olunan metodlar həll olunan vəzifələrə, bu kateqoriyadan olan insanların psixologiyasına, habelə hərbi xidmətin ümumi strukturuna adekvat olmalıdır.

İntizam üzrə ixtisaslaşan psixoloqun əsas peşəkar üstünlükləri arasında psixokorreksiya və diaqnostik söhbət aparmaq bacarığı, fərdi və qrup intizam təlimi metodlarına yiyələnmə, davranışın gizli psixoloji mexanizmlərinə təsir göstərməyin bir çox digər üsul və texnikaları daxildir. Peşəkarlığın başqa bir əlaməti təkcə intizamın mövcud vəziyyətini deyil, həm də, müxtəlif hadisələri əks etdirən məlumatların toplanması emalı və təcrübəsidir.

Nəticə

Ümumilikdə intizam - onun keyfiyyəti və hazırkı vəziyyəti sistemin fəaliyyətinin dinamik nəticəsidir. Beləliklə, hərbi kollektivlərdə nizam-intizamın saxlanması və möhkəmləndirilməsi üçün psixoloji dəstək hərbi psixoloqların fəaliyyətinin vacib nisbətən də yeni sahəsidir. Komandirin, qərargahın və digər idarəetmə orqanlarının fəaliyyətini dəstəkləyən şəxs kimi nizam-intizamın möhkəmləndirilməsi işində hərbi psixoloqun iştirakı peşəkar psixoloji etikaya riayət etməklə fərqlənməlidir. Həmçinin müvafiq psixodiaqnostika vasitələrinə, geniş metodlara malik olmaq şəxsi heyətin xidmətində intizamı dəstəkləyən psixoloji amillərin müəyyən edilməsi deviant davranışın korreksiyası üçün təkliflərin hazırlanması vacibdir.

Proses bölmə zabitləri və vəzifəli şəxslər tərəfindən dəstəklənərək aparılmalı olduğundan xüsusi motivasiya və yüksək hazırlıq tələb edir. İşin əsl əhəmiyyəti psixoloqun intizamın fərdi və şəxsiyyətlərarası mexanizmlərinə nüfuzetmə qabiliyyəti, problemlər hələ aşkara çıxmamışdan əvvəl anlamaqla həlli yollarını tapmaq bacarığından, təkliflərində əzmkarlıq rəhbərlərə tövsiyələr və inandırıcılıqdan asılıdır.

Psixoloji problemlər insanın özünə və başqalarına olan münasibətini dəyişdirməklə həll olunur. Bu zaman əqidə, dəyər, özünəhörmət və başqalarını düzgün qiymətləndirmə, şəxsiyyətlərarası münasibətləri, davranış və vərdişləri hərbi xidmətin nizamnamə qaydalarına uyğun təşkilini müəyyənləşdirmək deməkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hərbi psixologiya və pedaqogika, İsmayılov R.A - Bakı: AAHM - 2014
2. Психология и педагогика Б.П. Бархаев, - Москва - 1998
3. "Психология труда и профессиональной деятельности в армии" В. И. Фролов. - 2018 / АСТ
4. "Психология личности в экстремальных условиях: психология военной службы" – О. В. *Гончарова* - 2019: / Институт психологии

5. Springer: Combat Stress Injury: Theory, Research, and Management - 2015
6. "Военная психология" Н. А. Обозов - 2017 / Юрайт
7. Психология и психиатрия в условиях вооруженных конфликтов" С. В. Ткачук: - 2021. /Наука
8. Military Psychology: Clinical and Operational Applications. - 2017
9. The Handbook of Military Psychology: Clinical and Operational Applications. - 2018
10. Psychological Resilience and Well-being of Soldiers. - 2017 /Springer.
11. Psychology of Military Training and Performance – 2020 / Elsevier
12. Hərbi psixologiya, Vüqar Muxtarov - Bakı - 2023
13. Hərbi pedaqogika, Həsənov A.N - Bakı: - 2018
14. Oxford University Press: Psychology of Military Leadership. - 2021 / Oxford
15. Routledge (Taylor & Francis Group): Leadership and Military Psychology: A Global Perspective - 2019

PİYADALARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ DAİR

Habil Bayram oğlu İsmayılzadə
Müngəçevir Dövlət Universiteti
habil.ismayilzade@mdu.edu.az

Giriş

Azərbaycan Respublikasında piyadaların hüquq və vəzifələri, eləcə də onların müdafiəsi ilə bağlı hüquqi tənzimləmə "Yol hərəkəti haqqında" Qanun və digər normativ-hüquqi aktlarla müəyyən edilmişdir. Bu sənədlərdə piyadalara yol verilməsi, keçidlərdən düzgün istifadə, sürət həddinin aşılmaması və digər məsələlər ətraflı şəkildə tənzimlənmişdir.

Bundan əlavə, Dövlət Yol Polisi tərəfindən daimi nəzarət həyata keçirilir, qayda pozuntularına qarşı inzibati tədbirlər görülür.

Dövlət proqramları çərçivəsində piyadaların təhlükəsizliyinin artırılmasına yönəlmiş müxtəlif layihələr reallaşdırılır.

İnfrastrukturun təkmilləşdirilməsi və texniki vasitələr

Piyadaların təhlükəsizliyi sahəsində yol infrastrukturu əsas rol oynayır. Son illərdə Azərbaycanda müasir tələblərə cavab verən piyada keçidləri, yeraltı və yerüstü keçidlər, səki və işıqfor sistemləri qurulmuşdur. Yolların işıqlandırılması, təhlükəli sahələrdə sürət azaldıcı zolaqların və xəbərdaredici nişanların quraşdırılması bu sahədə önəmli addımlardandır [1]. Eyni zamanda, video müşahidə sistemləri və radar cihazları vasitəsilə nəzarət gücləndirilmişdir. Yeni nəsil "ağıllı" işıqforlar piyadaların keçid zamanı maksimum təhlükəsizliyini təmin edir [2].

Təhlükəsizlik tədbirlərinin effektivliyi yalnız texniki vasitələrlə məhdudlaşmır. Piyadalar və sürücülər arasında maarifləndirmə işinin aparılması bu sahədə vacib rol oynayır. Təhsil müəssisələrində şagirdlərə yol hərəkəti qaydaları öyrədilir, kütləvi informasiya vasitələrində maarifləndirici proqramlar yayımlanır. Sosial kampaniyalar, təlimlər və interaktiv tədbirlər vasitəsilə əhali arasında yol mədəniyyəti formalaşdırılır. Qeyri-hökumət təşkilatları və könüllülər də bu prosesdə fəal iştirak edirlər [3].

Risk qrupları və hədəf tədbirlə

Piyadalar arasında risk qruplarına uşaqlar, yaşlı insanlar və əlillər daxildir. Bu qrupların qorunması üçün xüsusi tədbirlər görülməlidir. Məktəblərin yaxınlığında sürət məhdudiyyətləri tətbiq edilir, xüsusi keçidlər quraşdırılır. Əlillər üçün uyğunlaşdırılmış səki və keçidlər inşa edilir. Yaşlı insanlar üçün isə yol hərəkəti qaydaları barədə əlavə təlimlər təşkil olunur. Fərqli əhali qrupların tələblərinə uyğunlaşdırılmış bu cür tədbirlərin həyata keçirilməsi təhlükəsizliyin artmasına mühüm töhfə verir [4].

Nəticə

Piyadaların təhlükəsizliyinin təmin olunması cəmiyyətin rifahı və hüquqlarının qorunması baxımından strateji əhəmiyyətə malikdir. Dövlət tərəfindən qəbul edilmiş proqram və strategiyalar bu istiqamətdə müsbət nəticələr verməkdədir.

Gələcəkdə bu fəaliyyətin daha da genişləndirilməsi, müasir texnologiyaların tətbiqi, qanunvericiliyin təkmilləşdirilməsi və əhalinin maarifləndirilməsi ilə piyadaların təhlükəsizliyi daha yüksək səviyyəyə çatdırıla bilər. Hər bir vətəndaş qaydalara riayət etməklə, hamımız üçün əhəmiyyət kəsb edən bu işə töhfə verməlidir [5].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. (2022). *Yol hərəkəti təhlükəsizliyi üzrə görülən tədbirlər*. Bakı: DİN Nəşriyyatı.
2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2023). *Yol infrastrukturu və nəqliyyat təhlükəsizliyi üzrə illik hesabat*. Bakı.
3. Dünya Səhiyyə Təşkilatı (WHO). (2018). *Global status report on road safety 2018*. https://www.who.int/publications/i/item/9789241565684
4. United Nations Economic Commission for Europe (UNECE). (2020). *Improving pedestrian safety: A guide for policy makers*. https://unece.org/transport/publications
5. Avropa Yol Təhlükəsizliyi Şəbəkəsi (ETSC). (2021). *Ranking EU progress on road safety*. https://etsc.eu/pin

AKADEMİK ETİKA VƏ KEYFİYYƏT TƏMİNATI: UYĞUNLUQ VƏ ÇAĞIRIŞLAR

[1,2]**Aytən Vüqar qızı Musayeva,** [1,3]**Tamara Eldar qızı Məmmədova**
[1]Mingəçevir Dövlət Universiteti
[2]aytan.musayeva@mdu.edu.az
[3]tamara.mammadova@mdu.edu.az

Ali təhsil sistemlərinin dinamik inkişafı və cəmiyyətin tələblərinə cavab verə bilən məzunların hazırlanması prosesi müasir dövrdə təkcə tədrisin struktur və texniki baxımdan modernləşdirilməsi ilə deyil, həm də dəyərlərə əsaslanan idarəetmə mədəniyyətinin formalaşdırılması ilə bilavasitə bağlıdır. Bu kontekstdə akademik etika və keyfiyyət təminatı ali təhsil müəssisələrinin strateji idarəetmə sistemində əsas pillələrdən hesab olunur. Universitetlərin rəqabətədavamlılığı, ictimai nüfuzu və elmi nəticələrinin etibarlılığı məhz bu iki komponentin qarşılıqlı və effektiv işləməsi ilə təmin olunur.

Akademik etika ali təhsil iştirakçılarının – müəllimlərin, tələbələrin, tədqiqatçıların və idarəçilərin – davranışlarını tənzimləyən dəyərlər sistemidir. Etikanın əsas prinsipləri – dürüstlük, ədalət, məsuliyyət, şəffaflıq və qarşılıqlı hörmət – universitetlərin daxili mədəniyyətinin əsasını təşkil edir. Bu prinsiplərin tətbiqi tədris və tədqiqat proseslərində, idarəetmə qərarlarında, tələbə-müəllim münasibətlərində və ictimai hesabatlılıqda əks olunur. Məsələn, müəllimin qiymətləndirmədə obyektivliyi qoruması, tədqiqatçının plagiatdan uzaq durması, tələbənin sərbəst işlərdə qaydalara uyğunluğa riayət etməsi – bütün bunlar akademik etikanın tərkib hissəsidir.

Etik prinsiplərin pozulması isə ali təhsil sisteminin bütün səviyyələrində ciddi fəsadlara yol açа bilər. Plagiat və məlumat saxtalaşdırması halları tədqiqat fəaliyyətlərinin etibarlılığına zərbə vurur, müəllim-tələbə münasibətlərində ayrı-seçkilik və subyektivlik universitet daxilində etimadı zəiflədir, statistik hesabatlarda göstəricilərin manipulyasiyası isə ictimai etimadı və beynəlxalq tərəfdaşlıq imkanlarını təhlükə altına alır. Bu baxımdan etik davranış normalarının hüquqi sənədlərlə yanaşı, institusional mədəniyyətin ayrılmaz hissəsi olaraq inkişaf etdirilməsi vacibdir.

Keyfiyyət təminatı ali təhsilin bütün səviyyələrində fəaliyyətlərin sistemli şəkildə qiymətləndirilməsi və təkmilləşdirilməsinə yönəlmiş idarəetmə yanaşmasıdır. Tədris planlarının və proqramlarının uyğunluğu, müəllimlərin peşəkarlıq səviyyəsi, tələbə məmnuniyyəti, tədris nəticələri və elmi

fəaliyyətlər keyfiyyət təminatının əsas qiymətləndirmə meyarlarıdır. Lakin bu meyarların yalnız statistik şəkildə izlənməsi kifayət etmir. Əsas məsələ bu göstəricilərin arxasında duran davranış və qərarların nə dərəcədə etik əsaslara söykəndiyini müəyyən etməkdir.

Akademik etika və keyfiyyət təminatı bir-birini qarşılıqlı dəstəkləyən sistemlərdir. Etik davranışların mövcud olmadığı mühitdə istənilən keyfiyyət təminatı mexanizmi formal xarakter daşıyır. Əksinə, keyfiyyət təminatı sistemləri etik prinsiplərin tətbiqini ölçmək və inkişaf etdirmək üçün vasitə funksiyası daşıyır. Məsələn, qiymətləndirmə sistemlərinin şəffaflığı etik ədalət prinsipinə, tədqiqatların qiymətləndirilməsi isə dürüstlük prinsipinə söykənir. Tələbə məmnuniyyəti və şikayətlərin analizi, etik pozuntulara dair hesabatlar və plagiat yoxlama mexanizmləri – bunların hər biri həm etik, həm də keyfiyyət indikatorları kimi çıxış edir.

Bu əlaqənin real həyatda tətbiqi isə bir sıra çətinliklərlə müşayiət olunur. Ən əsas çağırışlardan biri ali təhsil müəssisələrində etik davranış normalarının qeyri-bərabər şəkildə formalaşması və tətbiq olunmasıdır. Müxtəlif fakültələrdə etik kodekslərə yanaşma, müəllim və tələbələrin etik maarifləndirmə səviyyəsi və inzibati strukturun məsuliyyət bölgüsü arasında uyğunsuzluqlar olur. Digər problem isə rəqəmsal texnologiyaların genişlənməsi fonunda plagiatın daha çətin nəzarət olunmasıdır. Tələbələrin etik davranışlar barədə məlumatlandırılması bəzən formal xarakter daşıyır və bu da məsuliyyətsizliyə yol açır.

Bundan əlavə, bəzi hallarda idarəetmə strukturları nəticəyönümlü qərar vermə ilə etik davranışlar arasında ziddiyyət yaşayır. Göstəriciləri yaxşılaşdırmaq məqsədilə saxta və ya şişirdilmiş məlumatların akkreditasiya orqanlarına və ictimaiyyətə təqdim olunması halları keyfiyyət təminatı sistemlərinin etibarını zədələyir. Bu cür hallar keyfiyyət sisteminin əsas fəlsəfəsini – real vəziyyəti müəyyən edərək inkişaf planı yaratmağı – kölgədə qoyur və prosesin simvolik xarakter almasına səbəb olur.

Bu çağırışlara cavab olaraq ali təhsil müəssisələrinin bir neçə istiqamətdə sistemli tədbirlər görməsi zəruridir. İlk növbədə, universitet səviyyəsində akademik etika üzrə vahid strategiya hazırlanmalı, bu strategiyada etik davranış qaydaları, pozuntu halları və onların nəticələri konkret şəkildə müəyyən edilməlidir. Müəllimlər və tələbələr üçün etik təlimlər vaxtaşırı keçirilməli, plagiatla bağlı texnoloji nəzarət alətləri geniş tətbiq edilməlidir. Eyni zamanda, tələbələrin etik normaları mənimsəməsi üçün bu mövzu kurikulum daxilində ayrıca modul kimi yer almalıdır. Universitetlər həmçinin etik davranışla fərqlənən əməkdaşları stimullaşdırmaq üçün təşviqedici mexanizmlər tətbiq etməlidir.

Keyfiyyət təminatı sistemlərinə isə etik indikatorların əlavə edilməsi vacibdir. Bu göstəricilər etik pozuntu hallarının statistikası, etik komitələrin fəaliyyəti, anonim rəy mexanizmləri və ictimai hesabatlılıq səviyyələri üzrə ölçülə bilər. Akkreditasiya zamanı yalnız formativ göstəricilərə deyil, eyni zamanda etik davranışların təminatına dair sübutlara da diqqət yetirilməlidir. Bu, həm daxili keyfiyyət mədəniyyətini gücləndirər, həm də universitetlərin beynəlxalq arenada etibarlı tərəfdaş kimi çıxış etməsinə şərait yaradər.

Nəticə etibarilə, akademik etika və keyfiyyət təminatı ali təhsildə bir-birindən ayrı düşünülməməli olan iki strateji sütundur. Etik prinsiplərin tətbiqi olmadan nə real inkişaf mümkündür, nə də nəticələrin davamlılığı təmin edilə bilər. Universitetlərin əsas vəzifələrindən biri bu iki anlayışı sinxron şəkildə inkişaf etdirmək, dəyərlərə əsaslanan idarəetmə mühiti qurmaq və tələbə, müəllim, tədqiqatçı, cəmiyyət və dövlət arasında etibarlı körpü rolunu oynamaqdır. Bu yanaşma ali təhsil sistemlərinin keyfiyyətini yalnız bu gün üçün deyil, həm də gələcək nəsillər üçün dayanıqlı və güvənli hala gətirəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. ENQA. (2015). Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG). European Association for Quality Assurance in Higher Education.

2. Bretag, T. (2016). Challenges in addressing plagiarism in education. PLOS Medicine, 13(12), e1002183.

3. UNESCO. (2021). Recommendation on the Ethics of Artificial Intelligence. Retrieved from https://unesdoc.unesco.org

4. Newton, P. M. (2016). Academic integrity: A quantitative study of confidence and understanding in students at the start of their higher education. Assessment & Evaluation in Higher Education, 41(3), 482–497.

AZƏRBAYCANIN MƏDƏNİ İRSİNİN QORUNMASINDA MUZEYLƏRİN ROLU

Lalə Akif qızı Əhmədova
Mingəçevir Dövlət Universiteti
lala.ahmadova.a@mdu.edu.az

Giriş

Mədəni irs, maddi və qeyri-maddi mənəvi dəyər statuslu nümunələrin məcmusudur. Bunlara abidələri, memarlıq nümunəsi olan tikililəri, ənənəvi mərasimləri, qeyri-maddi dəyərləri aid etmək olar. Bəzən elmi mənbələrdə "mədəni irs" mədəni resurs mənbəyi kimi də göstərilir. Buna görə də, mədəni irs anlayışını mədəniyyətin əhəmiyyətli bir hissəsi və mədəniyyət tarixinin dəyər statuslu mühafizəkar qismi kimi də qeyd etmək mümkündür.

Azərbaycan respublikasının "Mədəniyyət haqqında Qanun"na əsasən milli mədəni irs dedikdə Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu nəzərdə tutulur. Milli mədəni irs dedikdə muzey, incəsənət, audiovizual, əlyazma, kitabxana, arxiv, folklor, teatr, etnoqrafiya, arxeologiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri və tarix-mədəniyyət qoruqları nəzərdə tutulur.

Mədəni irs nümunələri maddi və qeyri maddi mədəni irs nümunələrinə bölünür. Qeyri-maddi mədəni irs nümunələri dedikdə aşağıdakı üç əsas kateqoriya nəzərdə tutulur:

- etnoqrafiya və ya diyarşünaslıq;
- folklor;
- xalq sənətkarlığı.

Mədəni irsin idarə edilməsi sahəsində Azərbaycanda aşağıdakı dövlət qurumları fəaliyyət göstərir:

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi;
- Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi;
- İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi;
- Şuşa şəhəri Dövlət Qoruğu İdarəsi [1].

Tarix boyu müxtəlif səbəblərdən müxtəlif məkanlarda mədəni irs nümunələri dağıdılmış, məhv edilmişdir. Təbii hadisələrin dağıdıcı təsirləri, insanların törətdiyi əməllər nəticəsində məhv olmuş, geri qaytarılması və yerinə qoyulması imkansız hala gəlib çatan mədəni irsin qorunması məsələsi hər keçən gün daha aktual məsələyə çevrilmişdir. Buna görə də mədəni irsin qorunması üzrə bir sıra qanun və qərarlar qəbul edilmişdir.

1954-cü il Haaqa Konvensiyasında mədəni irsin qorunması və mühafizəsi anlayışlarının mahiyyəti bir neçə maddədə aşağıdakı kimi göstərilmişdir [4]:

Maddə 2. Mədəni dəyərlərin qorunması

Maddə 3. Mədəni dəyərlərin mühafizəsi

Maddə 4. Mədəni dəyərlərə hörmət edilməsi.

Bu maddələr üzrə mədəni irsin qorunması, bərpası istiqamətində bir sıra təkliflər verilmişdir.

Mədəni turizm

Mədəni turizm anlayışı mədəni fəaliyyətlərə əsaslanan turizm təcrübələrini ifadə edən və turizmin müxtəlif mədəniyyətlə bağlı genişlənmələrini birləşdirən ümumi anlayış kimi istifadə olunur. Mədəni turizm "insanların mədəni ehtiyaclarını ödəmək, yeni məlumatlar əldə etmək və təcrübə əldə etmək məqsədi ilə yaşadıqları yerdən başqa, mədəni görməli yerlərə turizm hərəkəti" kimi müəyyən edilir. Başqa bir tərifdə mədəniyyət turizmi "insanların təhsil səviyyəsindən və bunun nəticəsində artan mədəni səviyyədən asılı olaraq müxtəlif mədəniyyətləri tanımaq və onların bilik səviyyələrini artırmaq məqsədi ilə səyahətləri" kimi ifadə edilir.

1970-1980-ci illərdə "mədəni turizm" anlayışı böyük həcmdə dəyişikliyə məruz qalmışdır. Həmin illərin tədqiqatçıları belə bir fikir irəli sürdülər ki, bəzi insanlar məhz bir destinasiyanın mədəniyyət və mədəni irsini başa düşmək üçün səyahət edirlər. İlk zamanlarda mədəni turizm savadlı və intellektual şəxslərin maraq dairəsində olan bir turizm sahəsi hesab edilirdisə, müasir dövrdə mədəni turizm vacib və geniş yayılmış turizm məhsulu hesab edilir.

Mədəni turizm beynəlxalq turizm bazarında yeni bir turizm məhsulu kimi ön plana çıxmağa başlamışdır. Çünki günəş-dəniz-qum bazarı üçün tətil turizmindən məmnunluq, ətraf mühit və ekoloji tarazlıq mövzusunda müzakirələr, təbii gözəlliklərin və sərvətlərin olmaması, insanların tarixi dəyərlər haqqında məlumatlılığı mədəni motivlərə çevrilmişdir.

Mədəniyyət və turizm arasındakı əlaqənin inkişafına şərait yaradan amillər tələb və təklif baxımından qiymətləndirildikdə;

Tələbat baxımından:

- Başqa mədəniyyətlərə marağın artırılması,
- Təhsil səviyyəsinin yüksəlməsi nəticəsində mədəni yığımın artması,
- İnkişaf etmiş regionlarda əhalinin qocalması,
- Postmodern istehlak tərzi ilə materializmdən çox şəxsi inkişafı ön plana çıxarmaq,
- Birbaşa təcrübə keçmək arzusu,
- Səyahət imkanlarının artması nəticəsində digər mədəniyyətlərə çıxışın asanlığı,

Təchizat baxımından:

- Mədəni turizmin inkişafı məşğulluğu və gəlirləri artırır,
- Mədəniyyət turizmini yüksələn bazar və keyfiyyətli turizm kimi görmək,
- Yeni texnologiyalar sayəsində turizm və mədəniyyət haqqında asan məlumat əldə etmək,
- Yeni xalqların və bölgələrin yaranması ilə fərqli mədəniyyətləri tanımaq istəyi,
- Bölgələrin və xalqların imic yaratmaq istəyidir.

Mədəni irs turizminin elementlərindən biri muzeylərdir. Muzeylərin mədəni irsin qorunmasında böyük rolu vardır. Turizm və muzeylər arasında əlaqə inkişaf etdikcə, turizm də inkişaf edir və muzeylər yeni ziyarətçilər qazanır. Sənətşünas alim R.Ağayev muzeyə geniş tərif verərək, qeyd etmişdir: "Muzeylər maddi mədəniyyət abidələrinin kompleksləşdirilməsi, mühafizəsi, tədqiqi, öyrənilməsi və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi-tədqiqat müəssisəsidir" [2].

Son dövrlər ölkə və regionların sosial-iqtisadi inkişaf planında muzeylərin turizm sənayesinə cəlb edilməsi genişlənmişdir. Müasir dövrdə muzeylərin funksiyası ənənəvi sərgilərdən, kolleksiyalardan daha çox innovativ kommunikasiyalara, informativliyə, aparıcı xarici muzeylərin təcrübəsini öyrənməyə və s. doğru yönəlmişdir.

Əsrlər boyu maddi və mənəvi zənginliklər, xalqımızın qədim mədəniyyətinin müxtəlif abidələri hökmdarların saraylarında, dini məbədlərimizdə, təhsil ocaqlarımızda toplanmış və qorunaraq, günümüzə qədər gəlib çatdırılmışdır. Bütün bunlar bu gün bizə qiymətli informasiya verməklə yanaşı, muzey anlayışının, muzey formalarının, muzeylərin fəaliyyət istiqamətlərinin əhatə dairəsinin genişlənməsinə və rəngarəng olmasına xidmət etməkdədir.

Hazırda, Azərbaycan muzeyşünaslığının qarşısında aşağıdakı üç mühüm vəzifə durur [1, 3]:

1. Azərbaycan xalqının mədəni irsinin rəngarəngliyini qorumaq,
2. Müxtəlif səbəblərdən Azərbaycandan didərgin düşmüş, dünyanın müxtəlif muzeylərində saxlanılan bir çox mədəniyyət abidələri və sənət əsərlərini təbliğ etmək.
3. Azərbaycanın milli mədəni irsinin dünyanın müxtəlif muzeylərində nümayiş onlunmasını və qorunmasını təmin etmək.

Respublikamızda müxtəlif səviyyə və təyinata malik 250-dən çox muzey fəaliyyət göstərir ki, bu muzeylər də ölkəmizin müxtəlif regionlarının tarixinin, mədəniyyətinin qorunmasında mühüm rol oynayır. Bu muzeylər yerli və xarici turistləri cəlb edərək, ölkə iqtisadiyyatının əsas hissəsi olan turizmin inkişafına böyük təsir edir. Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi öz turizm potensiallarına görə ölkənin mədəniyyət müəssisələri arasında böyük əhəmiyyətə malikdirlər.

Bu gün Azərbaycanda mövcud olan muzeylər kifayət qədər yerli və xarici turistlər tərəfindən ziyarət olunurlar. Buna baxmayaraq bir çox muzeylərimizin turizm cəhətdən inkişafının problemləri hələ də mövcuddur. Muzeylərə turistlərin cəlb edilməsinin bir çox təbliğat qaydaları var. Bu gün dünya ölkələri ilə yanaşı, respublikamızda da elmi tərəqqinin nailiyyətləri olan müasir cihazlar mövcuddur. Bəzi region muzeylərində bələdçinin dil biliyi, müasir texnologiyadan istifadə, infrastrukturun zəif olması muzey turizmində inkişafını ləngidən amillərdəndir.

Müasir dövrdə muzeylərimizdə müasir texnologiyanın tətbiqi ciddi tələb olunur. Çünki müasir texnologiya eksponat-informasiyanın yeni müstəvidə nümayişi sistemidir. Müvafiq texnologiyanın tətbiqinin həmçinin beynəlxalq muzeylərarası qarşılıqlı əlaqəliliyin yaradılmasında da mühüm əhəmiyyəti vardır.

Azərbaycanda fəaliyyət göstərən muzeylərin televiziya və radio şirkətlərinin redaksiyaları vasitəsilə təbliği muzeylərdə turist sayının çoxalmasına səbəb olardı. Bununla yanaşı, televiziya kanallarında hər hansı bir muzey haqqında müxtəlif dillərdə reklam çarxlarının yerləşdirilməsi də ölkə muzeylərinə gələn xarici turistlərin sayını artırardı.

Nəticə

Yuxarıda qeyd etdiyimiz amilləri nəzərə alaraq, deyə bilərik ki, müasir dövrdə mədəni turizmin inkişafına, muzey və turizm arasında əlaqələrin qurulmasına böyük ehtiyac var. Bütün bu məsələlərin öyrənilməsi, tədqiq olunması və problemlərin həll olunması müasir muzeyşünaslıq elminin qarşısında duran əsas vəzifələrindən hesab olunur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycanda mədəni irs və mədəni turizm: Resurslar, Məhsullar, Təcrübələr. (2022). Bakı. 112 s.
2. Ağayev R., Əmirxanov S. və Əlizadə A. (2002). Muzeyşünaslıq. Bakı. 340 s.
3. Babayeva S. Azərbaycanın milli muzeyləri və mədəni turizm potensialı. (2024). Monoqrafiya. Bakı. 152 s.
4. Süleymanlı M. Mədəni irs. (2019). Bakı. 423 s.

1995-Cİ İL KONSTİTUSİYASI HÜQUQİ DÖVLƏT QURUCULUĞUNUN ƏSAS BAZASIDIR

Türkan Yusif qızı Əhmədova
Azərbaycan Dövlət Aqrar Universiteti
turkanahmedova629@gmail.com

Xalqımızın görkəmli oğlu dahi şəxsiyyət Heydər Əliyevin irsi olduqca zəngindir. Öz həyat və fəaliyyəti ilə ölməzlik zirvəsinə yüksələn Ulu Öndərin keçdiyi ömür yolu bizim üçün zəngin həyat məktəbidir. Çünki o böyük insanın ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir.

Ümummilli lider təcrübəli dövlət başçısı və görkəmli siyasi xadim kimi çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəldi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya edilməsində, ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımların mühüm əhəmiyyəti oldu.

Ulu öndər Heydər Əliyev fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz xidmətlər göstərmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəsna xidmətləri sayəsində millətin müstəqilliyi, dini mənəviyyat, vicdan və şəxsiyyət azadlığı əsas qanunla, Konstitusiya yolu ilə təsbit olundu. Belə ki, 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu Öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. Ümumiyyətlə, Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması ölkəmizdə insan hüquq və azadlıqları istiqamətində mühüm amil olan qanunvericilik bazasının formalaşdırılması demək idi.

Müstəqilliyimizin əbədi olmasına çalışan, bunun üçün var qüvvəsini dövlətimizin inkişaf və tərəqqisinə sərf edən Heydər Əliyev deyirdi: "Respublikamızda hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir". [6, s.61]

Müdrik siyasətçi Heydər Əliyev məsuliyyətli dövlət başçısı olaraq, Konstitusiyamızda təsbit olunmuş din, etiqad azadlığının təmin olunması işində dövlətin qarant olduğunu gözəl bilir və bunların gerçəkləşməsi üçün əlindən gələni əsirgəmirdi. Yeri gəlmişkən, din sahəsinə böyük qayğı ilə yanaşan Ulu Öndərimizin diqqəti sayəsində "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra vacib dəyişikliklər və əlavələr edildi ki, bunlar dini sahədə bir çox problemlərin aradan qaldırılmasına xidmət etdi. [2, s.10]

Heç də təsadüfi deyil ki, respublikamızda plüralist siyasi informasiyanın aşkarlıq şəraitində obyektiv, elmi cəhətdən əsaslandırılmış səviyyədə təzahürü və inkişaf etdirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Plüralist siyasi informasiya elə bir mexanizmdir ki, onun vasitəsilə hakimiyyət reallaşır. [5, s.98]

Demokratik cəmiyyət üçün səciyyəvi olan və demokratik təsisatların, siyasi plüralizmin formalaşmasına zəmin yaradan hüquqi-demokratik Konstitusiyamız azad söz, sərbəst düşüncə və siyasi mətbuatın müstəqil fəaliyyəti üçün hər cür əlverişli şərait təmin etmişdir.

Vətənimizin, xalqımızın, dilimizin, dövlətimizin adındakı müqəddəs Azərbaycan sözü Konstitusiyamız vasitəsilə əbədiləşdirildi [4, s.276]. Müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Konstitusiyanın "Dövlət dili" adlı 21-ci maddəsində birmənalı vurğulanır ki: "Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Konstitusiyada insan hüquq və azadlıqlarının təminatına geniş yer verilmişdir. Belə ki, Konstitusiyanın 12-ci maddəsi bəyan edir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir". Konstitusiyanın üçdən bir hissəsi insan hüquq və azadlıqlarının təminatına həsr edilmişdir. [3, s.13] Konstitusiyamız dilindən, dinindən, irqindən, milliyyətindən, əqidəsindən, cinsindən asılı ol-mayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verir.

Ümumiyyətlə, Ulu Öndərin həyata keçirdiyi siyasi islahatlar demokratiyanın, söz və vicdan azadlığının təmin edilməsində mühüm rol oynamışdır. Bunun nəticəsidir ki, hazırda siyasi partiyalar, saysız-hesabsız miqdarda ictimai birliklər və onların mövqeyini əks etdirən çoxlu miqdarda qəzet, jurnal nəşr edilir. [1, s.118]

Dahi mütəfəkkir Ümummilli lider Heydər Əliyev hələ o zaman sanki Azərbaycanın gələcəyini görürdü: "Əminəm ki, Azərbaycanın ilk demokratik konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövləti miras qoyacağıq".

Ümummilli Liderin memarı olduğu Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası yaşayır və dövlətimizi tərəqqiyə aparır. Bu gün onun bütün sahələrdə başlatdığı işlər sahəsində gördüyü nəhəng layihələri respublikamızın Prezidenti cənab İlham Əliyev layiqincə davam etdirir. Möhtərəm Prezidentin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycanın dövlətçilik tarixinin və ənənələrinin dərindən öyrənilməsi, milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından əhəmiyyətlidir.

Dövlət başçısı cənab İlham Əliyev Azərbaycanın mənəvi dəyərlərinin tərəqqisinə son dərəcə böyük diqqət göstərir. Odur ki, suveren Azərbaycan Respublikası özünün şərəfli və məsul günlərini yaşayır. Hal-hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkədə demokratik dövlət quruculuğu inamla həyata keçirilir, ictimai həyatın bütün sahələrində gedən yüksəliş göz qabağındadır. Əldə edilən bütün uğurlar Ulu Öndər siyasətinin qəti qələbəsidir.

Ölkə həyatının bütün sahələri: xarici siyasətin istiqamətləri, iqtisadiyyatın bölmələri, cəmiyyətin mənəvi həyatının başlıca cəhətləri daima cənab Prezidentin diqqət mərkəzindədir və onların hər birinin inkişafına daima qayğı göstərilir.

Sözsüz ki, uğurla həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abdullayev Ə.İ. Dünya şöhrətli dövlət xadimi Heydər Əliyev. Bakı: "İqtisad Universiteti" nəşriyyatı - 2005. - 250 s.
2. Babayev Hacı Xanəli. Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi. Bakı, "Borçalı" NPM, 2004, 144 s.
3. Əliyeva Q. Hacızadə G., Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası, Bakı, "Azərbaycan" nəşriyyatı, 2011, 304 s.
4. Mahmudov Yaqub, Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, "Təhsil", 2011, 608 s.
5. Məmmədov T.T. Demokratiya - müasir Azərbaycan dövlətinin siyasi simasıdır. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2009. 176 s.
6. Seyidov Mirkazım, Rzayev Məmməd, Zamanı qabaqlayan dahi, "Vektor" Nəşrlər Evi. Bakı, 2008. 315 s.
7. https://president.az/az/articles/view/68122

HEYDƏR ƏLİYEV SİYASƏTİ VƏ AZƏRBAYCANDA İNSAN KAPİTALİNİN SOSİAL İNKİŞAF PERSPEKTİVLƏRİ

Famil Qağamalı oğlu Niftiyev
coğrafiya üzrə fəlsəfə doktoru
İqtisadi Elmi Tədqiqat İnstitutu publik hüquqi şəxsin
iqtisad elmlər doktoru üzrə dissertantı
niftiyevfamil268@gmail.com

Azərbaycanda sosial və iqtisadi inkişafın təməlini qoyan Heydər Əliyev, öz siyasi fəaliyyəti ilə ölkənin gələcəyinə yön vermişdir. Onun rəhbərliyi altında həyata keçirilən islahatlar, xüsusən də təhsil, elm, iqtisadiyyat və sosial sahələrdə dərin dəyişikliklərə səbəb olmuşdur. Heydər Əliyevin siyasətinin mərkəzində insan kapitalının inkişafı və sosial rifahın artırılması durmuşdur. Bu məqalə, Heydər Əliyevin siyasətinin Azərbaycanda insan kapitalının inkişafına necə təsir etdiyini və bu inkişafın sosial perspektivlərini araşdırır.

Heydər Əliyev, müstəqil Azərbaycanın qurucusu kimi ölkənin inkişafı üçün genişmiqyaslı islahatlar həyata keçirmişdir. Onun siyasi kursunun əsasını iqtisadi müstəqillik və dövlətin idarə edilməsində dayanıqlı sistemlərin qurulması təşkil etmişdir. O, həmçinin insan kapitalının inkişafına xüsusi diqqət yetirmiş, təhsil və səhiyyə sahələrində islahatlar aparmışdır. Bu islahatların başlıca məqsədi Azərbaycan vətəndaşlarının həyat səviyyəsini yüksəltmək və onların dövlətin inkişafına qatqı vermələrini təmin etmək olmuşdur [1].

Heydər Əliyev dövründə Azərbaycan dövlətinin inkişafında insan kapitalının rolu mühüm yer tutmuşdur. O, insan kapitalının inkişafını ölkənin gələcəkdə uğurlu sosial-iqtisadi tərəqqisi üçün əsas amil hesab etmişdir. Bu baxımdan, təhsil siyasəti ən önəmli prioritetlərdən biri olmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda təhsil islahatları həyata keçirilmiş və təhsil sistemi müasir beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bu dövrdə, ölkə daxilində və xaricdə təhsil almağa imkan verən proqramlar tətbiq edilmiş, gənclərin təhsili ilə bağlı müxtəlif dövlət dəstəkləri göstərilmişdir.

İnsan kapitalının inkişafına yönələn bu islahatlar təhsil sahəsini daha da gücləndirərək, yeni bacarıqlara sahib işçi qüvvəsinin formalaşmasına şərait yaratmışdır. Heydər Əliyev, xüsusilə ali təhsilin inkişafına və ixtisaslı mütəxəssislərin yetişdirilməsinə xüsusi diqqət ayırmışdır. Azərbaycanın müxtəlif universitetlərində təhsil alan tələbələrin beynəlxalq proqramlara qatılma imkanı yaradılmış, onların elm və təhsil sahəsindəki bilikləri artırılmışdır. Bununla yanaşı, dövlət tərə-

findən təhsilə ayrılan maliyyə vəsaitləri artırılmış, məktəb və universitetlər üçün yeni tədris avadanlıqları alınmışdır.

Heydər Əliyevin təhsil sahəsində həyata keçirdiyi islahatlar yalnız təhsil müəssisələrinin inkişafı ilə yekunlaşmamış, həm də Azərbaycanın gələcək elmi və texnoloji inkişafına təkan vermişdir. Onun dövründə həmçinin təhsil və iş dünyası arasında sıx əlaqələrin qurulması məqsədilə müxtəlif proqramlar həyata keçirilmiş, ixtisaslı işçilərin tələblərinə uyğun olaraq təhsil sahəsindəki proqramlar yenidən strukturlandırılmışdır. Təhsil sahəsindəki bu dəyişikliklər nəticəsində, Azərbaycan gəncləri daha rəqabətqabiliyyətli olmuş və iş bazarına daha uyğun kadrlar yetişdirilmişdir.

Eyni zamanda, təhsil sistemində aparılan islahatlar nəticəsində, məktəblər və universitetlərdə müasir tədris metodları tətbiq edilmiş, şagirdlərə və tələbələrə müxtəlif praktiki bacarıqların öyrədilməsinə diqqət yetirilmişdir. Bununla yanaşı, ali təhsil müəssisələrində elmi tədqiqatların inkişafına xüsusi dəstək verilmişdir. Bu, Azərbaycan elminin beynəlxalq səviyyədə tanınmasına və ölkə daxilində innovativ layihələrin həyata keçirilməsinə şərait yaratmışdır.

Nəticədə Heydər Əliyevin təhsil siyasəti, Azərbaycanın insan kapitalının inkişafına və sosial rifahın artırılmasına böyük təsir göstərmişdir. Onun dövründə həyata keçirilən təhsil islahatları ölkənin gələcək iqtisadi inkişafı və sosial tərəqqisi üçün sağlam təməl yaratmışdır .

Heydər Əliyevin elmi siyasətində, elm və texnologiyanın inkişafı ölkənin iqtisadi və sosial tərəqqisinin əsas amillərindən biri kimi nəzərdə tutulmuşdur. O, həmçinin ölkənin elmi potensialının artırılması üçün xarici təcrübənin mənimsənilməsinin vacibliyini vurğulamışdır. Onun dövründə, xüsusilə texnologiya və mühəndislik sahələrində ixtisaslaşmış elmi mərkəzlər yaradılmış və yerli mütəxəssislərin bilik və bacarıqlarının artırılmasına yönəlmiş təlim proqramları təşkil edilmişdir. Elm sahəsindəki inkişaf həm də iqtisadiyyatın modernləşdirilməsinə və yeni texnologiyaların tətbiqinə zəmin yaratmışdır.

Dövlətin elmi tədqiqatlara və inkişaf layihələrinə verdiyi maliyyə dəstəyi, həmçinin müasir texnologiyaların tətbiqi üçün təhsil və araşdırma sahəsində çalışan mütəxəssislərə geniş imkanlar açmışdır. Heydər Əliyev rəhbərliyi altında Azərbaycan, beynəlxalq elmi əməkdaşlığa qoşulmuş və dünya elmi icması ilə sıx əlaqələr qurmuşdur. O dövrdə bir sıra strateji elmi-texniki proqramlar hazırlanmış və ölkənin innovasiya siyasətinin təməlini atmışdır. Bu, xüsusilə informasiya texnologiyaları və biotexnologiyalar sahəsində özünü göstərmişdir.

Eyni zamanda, Azərbaycanda elmi tədqiqatların inkişafı üçün yeni tədris və tədqiqat laboratoriyaları açılmış və gənc alimlərə dəstək verilmişdir. Heydər Əliyevin rəhbərliyi altında, Azərbaycan elmində beynəlxalq aləmdə tanınan ixtisaslaşmış mütəxəssislər yetişmişdir. Bu proseslər elmi kadr potensialının artmasına və elmi tədqiqatların yüksək səviyyədə aparılmasına şərait yaratmışdır. Onun dövründə, həmçinin müxtəlif elmi tədqiqatların nəticələri praktiki tətbiqlərə çevrilmiş və ölkə iqtisadiyyatına mühüm töhfələr vermişdir. Bu inkişaflar, ölkənin elmi mühitini dünya səviyyəsinə çatdırmağa və elmi innovasiyaları daha geniş tətbiq sahələrinə yaymağa imkan yaratmışdır [2].

Heydər Əliyev sosial siyasət sahəsində də böyük uğurlar qazanmışdır. Əhalinin sosial rifahının yüksəldilməsi, aztəminatlı ailələrin dəstəklənməsi və işsizliklə mübarizə məqsədilə müxtəlif sosial proqramlar hazırlanmışdır. Dövlət tərəfindən həyata keçirilən sosial müavinətlərin artırılması, həmçinin əlillər və təqaüdçülər üçün xüsusi proqramların tətbiqi, insan kapitalının inkişafına yönəlmiş vacib addımlar olmuşdur. Bu proqramlar, əhalinin sosial müdafiəsini gücləndirərək, ümumi inkişafın bərabər şəkildə həyata keçirilməsini təmin etmişdir [3].

Heydər Əliyev dövründə həyata keçirilən iqtisadi islahatlar, xüsusən də enerji sektoru və neft strategiyası, Azərbaycanın sosial və iqtisadi inkişafında mühüm rol oynamışdır. Neft sektoru üzərindəki dövlət nəzarəti və xarici investisiyaların cəlb edilməsi ilə iqtisadiyyatın gücləndirilməsi, insan kapitalının inkişafına da təkan vermişdir. Çünki iqtisadiyyatın inkişafı ilə yanaşı, təhsil və iş sahələrində yeni imkanlar yaranmışdır [1].

Heydər Əliyev dövründə həyata keçirilən iqtisadi islahatlar, Azərbaycanın sosial və iqtisadi inkişafında əhəmiyyətli rol oynamışdır. Xüsusilə, enerji sektoru və neft strategiyasının formalaşdırılması, ölkənin iqtisadiyyatını gücləndirərək dünya bazarlarında Azərbaycanın mövqeyini möhkəmləndirmişdir. Neft gəlirlərinin idarə olunması və dövlətin iqtisadiyyata müdaxiləsi, dövlət büdcəsinin möhkəmlənməsinə və sosial sahələrə sərmayələrin ayrılmasına şərait yaratmışdır. Eyni

zamanda, Heydər Əliyev qeyri-neft sektorunun inkişafını da prioritet olaraq müəyyən etmiş, bu sahədə islahatların həyata keçirilməsinə başlanmışdır. İqtisadiyyatın şaxələndirilməsi məqsədilə sənaye və kənd təsərrüfatı sahələrində müasir texnologiyaların tətbiqinə diqqət yetirilmişdir.

İqtisadi islahatların insan kapitalına təsiri də olduqca böyük olmuşdur. Dövlətin əmək bazarına yönəltdiyi siyasət nəticəsində yeni iş yerləri yaradılmış və işçi qüvvəsinin peşə bacarıqları inkişaf etdirilmişdir. Təhsil və səhiyyə sahələrində aparılan islahatlar, insan kapitalının inkişafına müsbət təsir göstərmişdir. Eyni zamanda, işçilərin vətəndaşlıq fəaliyyətini stimullaşdırmaq və onların sosial müdafiəsini gücləndirmək məqsədilə müxtəlif sosial proqramlar hazırlanmışdır. Nəticə etibarilə, Heydər Əliyevin iqtisadi siyasəti, ölkənin iqtisadiyyatını gücləndirməklə yanaşı, insan kapitalının inkişafını da dəstəkləmişdir [4].

Heydər Əliyev siyasətinin davam etdirilməsi, insan kapitalının inkişafı sahəsində daha da irəliləyişlərə yol açır. Onun siyasi kursu, xüsusilə gənclərin təhsili, yüksək ixtisaslı işçi qüvvəsinin yaradılması və sosial rifahın artırılması istiqamətində geniş perspektivlər vəd edir. Hazırda Azərbaycanda həyata keçirilən islahatlar, ölkənin dünya iqtisadiyyatında daha güclü mövqe tutmasına və insan kapitalının yüksək potensiala malik olmasına şərait yaradır. Eyni zamanda, sosial inkişafın daha da artması ilə insanlar daha yaxşı yaşam şəraiti əldə edə biləcəklər [3].

Nəticə

Heydər Əliyevin siyasəti Azərbaycanda insan kapitalının inkişafına mühüm təsir göstərmişdir. Onun rəhbərliyi altında həyata keçirilən islahatlar, xüsusən də təhsil, elm, sosial rifah və iqtisadi sahələrdəki uğurlar, ölkənin gələcəyinə böyük təsir göstərmişdir. Azərbaycan insan kapitalının inkişafı ilə daha da inkişaf edəcək və gələcəkdə beynəlxalq miqyasda öz mövqeyini daha da gücləndirəcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hüseynova, S. Azərbaycanda Təhsil və İnsan Kapitalının İnkişafı. Bakı: 2019, s. 67
2. Məmmədov, R. Azərbaycanda Təhsil Sisteminin İnkişaf Perspektivləri. Bakı: 2021, s. 108
3. Nəsirov, M. Azərbaycanda Sosial və İqtisadi İnkişaf: Heydər Əliyev İslahatlarının Əsası. Bakı: 2020, 92 s.
4. Rzayev, T. Azərbaycanda İqtisadi İslahatlar və İnsan Kapitalı: Heydər Əliyev Dövrü. Bakı: 2022, s 102

Mingəçevir Dövlət Universiteti

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir” RESPUBLİKA ELMİ KONFRANSININ M A T E R İ A L L A R I

II cild

2-3 may 2025-ci il

Yığılmağa verilib: 08.05.2025
Çapa imzalanıb: 15.05.2025